**MAKSİM QORKİ**

# SEÇİLMİŞ ƏSƏRLƏRİ

İKİ CİLDDƏ

II CİLD

"AVRASİYA PRESS"
BAKI-2006

Created with
nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

*Bu kitab "Maksim Qorki. Ana" (Bakı, Azərnəşr, 1968) nəşri əsasında təkrar nəşrə hazırlanmışdır*

Tərcümə edəni: **Əziz Şərif**

**891.733-dc22**
**AZE**

**Maksim Qorki. Seçilmiş əsərləri.** İki cilddə. II cild. Bakı, "Avrasiya press", 2006, 360 səh.

Bu kitaba rus ədəbiyyatının görkəmli nümayəndələrindən biri sayılan Aleksey Maksimoviç Qorkinin (Maksim Qorkinin) məşhur "Ana" romanı daxil edilmişdir. Dünyanın bir çox dillərinə tərcümə olunmuş bu əsər, sinfi mübarizə tarixinə misilsiz xidmət göstərmiş, yeni pafos, yeni ruh, yeni nəfəs gətirmişdir.

**ISBN10 9952-421-81-6**
***ISBN13 978-9952-421-81-1***

© "AVRASİYA PRESS", 2006

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Azərbaycan Respublikasının Prezidenti
İLHAM ƏLİYEVİN
**"Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında"**
12 yanvar 2004-cü il tarixli sərəncamı ilə nəşr olunur və ölkə kitabxanalarına hədiyyə edilir

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

# ANA

ROMAN

Created with
nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

# BİRİNCİ HİSSƏ

## I

Fəhlə məhəlləsi üzərində, tüstülü və yağlı havada, hər gün fabrik fitinin titrək səsi eşidilir, yuxudan doymamış, canlarının ağrısı çıxmamış qaşqabaqlı insanlar, bu çağırışa tabe olaraq, hürküdülmüş tarakanlar kimi, alçaq və boz evlərdən küçəyə tökülüşürdülər. Onlar alaqaranlıqda və soyuq havada palçıqlı küçə ilə fabrikin uca daş binalarına tərəf yeriyirdilər; palçıqlı yolu onlarla iri, dördkünc gözləri ilə işıqlandıran fabrik isə onları etinasız bir arxayınlıqla gözləyirdi. Ayaq altında palçıq fırçıldayırdı. Yuxulu səslərin xırıltılı bağırtısı eşidilir, qaba söyüş havanı qəzəblə yarırdı; qabaqdan isə başqa səslər – maşınların ağır hənirtisi, buxarın boğuq fışıltısı gəlirdi. Məhəllə üzərində yoğun dəyənək kimi yüksələn uca qara borular qaşqabaqlı və sərt keşikçilər kimi görünürdülər.

Axşamçağı, batmaqda olan günəşin qırmızı şüaları evlərin şüşələrində yorğun-yorğun əks edən zaman, fabrik bu insanları tullantı kimi, öz daş dərinliklərindən eşiyə atırdı; üzləri hisdən qaralmış insanlar da ətrafa maşın yağı qoxusu yaya-yaya və doyunca çörək görməyən dişləri ağara-ağara yenə küçələrlə gedirdilər. İndi onların səsində bir canlılıq, hətta sevinc eşidilirdi – zəhmət məşəqqəti bugünlük qurtarmışdı, evlərində onları şam və istirahət gözləyirdi.

Fabrik bunların gününü udmuş, maşınlar insanların əzələlərindən istədiyini almışdı. Bir gün həyatdan həmişəlik silinmiş, insan qəbirə bir qədəm də yaxınlaşmışdı, lakin qarşıdakı istirahət, dumanlı meyxana şənliyi onu sevindirirdi.

Bayram günləri adamlar saat ona kimi yatırdılar; oturuşmuş və ailə sahibi olanlar ən yaxşı paltarını geyib, keşişin moizəsinə qulaq asmaq üçün kilsəyə gedər, eyni zamanda gənclərdən, kilsəyə etinasızlıqlarına görə gileylənərdilər. Kilsədən evə qayıdıb piroq yeyər, sonra yenə uzanıb axşama qədər yatardılar.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

İllərlə üst-üstə yığılan yorğunluq insanları iştahadan salar, iştahalarını açmaq üçün onlar çox içki içər, mədələrini araqla yandırardılar.

Axşamlar tənbəl-tənbəl küçələri gəzərdilər; qaloşu olanlar, yer quru olsa da, qaloş geyər, yağış çətiri olanlar isə, günəşli havada da çətirlərini əllərinə alardılar.

Bir-birinə rast gəldikdə fabrikdən, maşınlardan söhbət edər, ustalardan gileylənər, ancaq işdən danışar, işi fikirləşərdilər. Bir-birindən seçilməyən cansıxıcı günlərdə bacarıqsız və zəif düşüncənin tək-bir qığılcımları işıldayar və dərhal sönərdi. Evə qayıdanda arvadları ilə savaşar və çox vaxt, əldən düşənə kimi döyərdilər. Gənclər vaxtlarını meyxanalarda keçirər ya da bir-birinin evinə yığışar, qarmon çalar, ədəbsiz nəğmələr oxuyar, oynayar, hərzə-hərzə danışar, içib keflənərdilər. Zəhmətdən üzülmüş insanlar çox tez keflənərdi, onların qəlbində anlaşılmaz, xəstə bir acıq oyanardı. Bu acıq özünə çıxış yolu axtarardı. Ona görə də insanlar, özlərini narahat edən bu hissdən azad olmaq üçün fürsət düşən kimi boş bir şeyin üstündə yırtıcı heyvan hiddəti ilə bir-birinə hücum edərdilər. Bir-birini qana boyayardılar. Çox vaxt şikəst olar, bəzən də birini öldürərdilər.

İnsanların münasibətinə hər şeydən artıq sayıq bir kin hissi hakim idi; əlacsız əzələ yorğunluğu kimi, bu hiss də köhnəlmişdi. İnsanlar anadan bu ruhi xəstəliklə doğulurdular, bu xəstəlik onlara irsi olaraq atalarından keçirdi. O, qara kölgə kimi insanları ölənə qədər izləyər, ömürləri boyu mənasız, iyrənc hərəkətlərə təhrik edərdi.

Bayram günləri gənclər gecə evlərinə gec qayıdardılar; onların paltarı cırılmış, palçığa və toza batmış, üzləri əzilmiş olardı; bu gənclər ya yoldaşlarını döydüklərindən danışıb ləzzət aparar, ya da təhqir edildikləri üçün hirsindən partlayar, sərxoş və yazıq, bədbəxt və iyrənc bir halda ağlayardılar. Gəncləri evlərinə bəzən anaları ya ataları gətirərdi. Onlar uşaqlarını küçədə divar dibində, ya da meyxanada sərxoşluqdan huşsuz halda tapar, pis-pis söyə-söyə, araqdan sustalmış bədənlərini əzişdirə-əzişdirə evə gətirər, sonra az-çox qayğı ilə yatağa salardılar ki, səhər tezdən, fitin hirsli səsi havada qara su kimi axmağa başlayan zaman, onları durğuzub işə göndərsinlər.



Created with
nitro PDF professional
download the free trial online at nitropdf.com/professional

Gəncləri çox bərk söyər və döyərdilər, lakin onların sərxoşluq və dalaşqanlığı qocalara tamamilə təbii görünərdi – atalar da gəncliklərində sərxoşluq eləmiş, dalaşmışdılar, onları da ata-anaları kötəkləmişdi. Həyat həmişə belə idi, həmişə ildən-ilə bulanıq su kimi bir qaydada və ağır-ağır haraya isə axıb gedirdi; insanlar da hər gün eyni şeyləri düşünməyə və eyni işləri görməyə çoxdan adət etmişdilər. Heç kəs bu həyatı dəyişdirməyə təşəbbüs eləmək arzusuna düşmürdü.

Hərdənbir məhəlləyə yad adamlar gələrdi. Bu adamlar yad olduqları üçün əvvəllər hamının diqqətini cəlb edərdi, sonra işlədikləri yerlərə dair söhbətləri ilə hər kəsdə yüngül, zahiri bir maraq oyadardılar, daha sonra bu yenilik itib gedər, hər kəs onlara alışardı və daha onlara fikir verən olmazdı. Danışıqlarından aydın olardı ki, fəhlənin günü hər yerdə belədir. Bir halda ki, belədir – daha danışmağa dəyərmi?

Lakin hərdənbir bu təzə gələnlərin bəziləri fəhlə məhəllәsində hələ eşidilməmiş sözlər danışardı. Onlarla mübahisə etməsələr də, qəribə söhbətlərinə şübhə ilə qulaq asardılar. Bu söhbətlər bəzilərində tutqun bir qəzəb, başqalarında anlaşılmaz bir təlaş, üçüncülərdə isə aydın olmayan bir şeyə yüngül ümid kölgəsi yaradardı; odur ki, onlar gərəksiz və əngəlli əndişəni dəf etmək üçün daha çox içməyə başlardılar.

Yad adamda qeyri-adi bir xüsusiyyət görən məhəllәlilər özlərinə bənzəməyən adamın bu xüsusiyyətini uzun müddət unudub bağışlaya bilməz, səbəbini özləri də bilmədən ondan çəkinərdilər. Sanki bu adamın həyata bir yenilik qatıb onun, əziyyətli də olsa; bir ölçüdə və sakit gedişini pozacağından qorxurdular. İnsanlar, həyatın onları daim eyni qüvvə ilə sıxmasına alışmışdılar, ona görə də heç bir yenilikdən yaxşı nəticə gözləmir, belə hesab edirdilər ki, bütün dəyişikliklər məşəqqəti daha da artıra bilər.

Təzə söz danışan adamlardan məhəllәlilər dinməz-söyləməz uzaq gəzərdilər. Onda bu adamlar məhəllәdən çıxıb yenə hara isə gedir, yox olurdular; fabrikdə qalanda isə, yeknəsəq həyat sürən məhəllәlilərlə qaynayıb-qarışa bilmədikdə hamıdan uzaq yaşayardılar...

Əlli yaşına qədər bu cür yaşadıqdan sonra insan ölürdü.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

## II

Üz-gözünü tük basmış, qaşqabağı heç açılmayan çilingər Mixail Vlasov da belə yaşayırdı; onun xırda gözləri qalın qaşları altından şübhə və istehza ilə baxırdı. Fabrikdə yaxşı çilingər və məhəllədə ən güclü pəhləvan sayılan Vlasov müdiriyyətlə qaba rəftar elədiyi üçün az qazanardı; hər bayram günü birini döyərdi; odur ki, heç kəs onu sevməz, hamı ondan qorxardı. Onu da döymək istəmişdilər, ancaq heç kəsin dişi batmamışdı. Üstünə gələn olduğunu görən kimi əlinə keçən daş, taxta, dəmir qırığını qaparaq ayaqlarını gen qoyar və sakit-sakit düşmənlərini gözləyərdi. Gözlərinin altından boğazına kimi qara tük basmış üzünü və qıllı əllərini görəndə hamı vahiməyə düşürdü. Xüsusilə onun gözlərindən qorxardılar – balaca, iti baxışlı bu gözlər polad burğu kimi adamın qəlbinə sancılırdı, gözü bu gözlərə sataşan hər kəs qabağında qorxubilməz, davaya həris, vəhşi bir qüvvə hiss edərdi. Vlasov boğuq səslə:

– Di dağılın, əclaflar! – deyirdi. Üz-gözünü basmış qalın tüklərin arasından onun iri, sarı dişləri görünürdü. Adamlar qorxudan dodaqaltı söyə-söyə dağılıb gedirdilər.

Vlasov onların dalınca bir kəlmə:

– Əclaflar! – deyirdi; bu zaman onun gözlərində biz kimi iti istehza parıldayardı. Sonra meydan oxuyar kimi, başını dik tutaraq onların dalınca gedər və çağırardı:

– Hə! Kimin əcəli tamamdır?

Əcəli tamam olan tapılmazdı.

Vlasov az danışardı; "əclaf" onun ən xoşladığı söz idi. Bu sözlə o, fabrik müdiriyyətini və polis məmurlarını adlandırar, bu sözlə arvadına müraciət edərdi:

– Ey, əclaf, görmürsən, şalvarım cırılıbdır!

Oğlu Pavel on dörd yaşında olanda Vlasov onu saçından tutub sürümək istədi. Lakin Pavel ağır çəkici kötürüb, qısaca dedi:

– Yaxın gəlmə!..

Ata, toz ağacının kölgəsini xatırladan uzun, nazik oğlunun üstünə yeriyərək:

– Necə? – deyə soruşdu.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

– Bəsdir daha! – deyə Pavel səsləndi. – Daha mənə əl vurmayacaqsan...

Pavel çəkici yuxarı qalxızdı.

Atası ona baxdı və tüklü əllərini dalında gizlədib istehza ilə gülümsündü:

– Yaxşı...

Sonra köksünü ötürüb əlavə elədi:

– Əclafın biri, əclaf...

Bu hadisədən bir az sonra Vlasov arvadına dedi:

– Daha məndən pul istəmə. Səni Paşka dolandırar...

Arvadı ürəklənib soruşdu:

– Sən də qazandığını içkiyə verəcəksən?

– Sənə dəxli yoxdur, əclaf! Aşna saxlayacağam!

O, aşna saxlamadı, ancaq o gündən başlamış iki il, ta ölən günə kimi, oğlunu görmək istəmədi və onunla danışmadı.

Vlasovun özü kimi yekə və qıllı bir köpəyi vardı. Bu köpək hər gün onu fabrikə ötürər, axşam isə darvaza qabağında gözlərdi. Bayram günləri Vlasov meyxanaları gəzməyə gedərdi. Dinməz-söyləməz gəzir, bir adam axtarırmış kimi iti gözlərini rast gəldiyi adamların üzünə zilləyirdi. Köpək də uzun, qıllı quyruğunu sallayıb, bütün günü onun dalınca gəzirdi. Sərxoş halda evə qayıdanda şam eləməyə oturar, köpəyi də öz qabından yedirərdi. Vlasov köpəyi döyməz, söyməzdi, lakin heç vaxt da sevib oxşamazdı. Şamdan sonra, arvadı süfrəni vaxtında yığışdırmayanda, o, qabları yerə tökər, qabağına bir şüşə araq qoyar, dalını divara dayayıb gözlərini yumar və ağzını ayırıb darıxdırıcı və xırıltılı səslə oxumağa başlayardı. İniltili, xoşagəlməz səs onun bığlarına dolaşar və tüklərinə yapışmış çörək qırıntılarını yerə salardı; çilingər yoğun barmaqları ilə bığını və saqqalını düzəldər, yenə oxuyardı. Nəğmənin sözləri başa düşülməzdi və uzada-uzada oxuyardı; havası isə qışda canavarların ulaşmasını andırardı. Araq qurtarana kimi oxuyar, sonra ya böyrü üstə skamyanın üstünə yıxılar, ya da başını mizin üstünə qoyub fit çalınana qədər yatardı. Köpək də onun yanında uzanardı.

Vlasov qrıjadan öldü. Qapqara qaralmış, gözlərini bərk-bərk yummuş halda beş gün yorğan-döşəkdə çabaladı, dişlərini qıcırdatdı, hərdənbir arvadına:

– Mərgmuş ver, zəhərlə... – deyirdi.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Doktor, Mixailə təpitmə qoymağı tapşırdı, eyni zamanda dedi ki, operasiya lazımdır, xəstə elə bu gün xəstəxanaya aparılmalıdır.

Mixail xırıldaya-xırıldaya:

– İtil cəhənnəmə, mən özüm də ölərəm! Əclaf! – dedi.

Doktor gedəndən sonra arvadı ağlaya-ağlaya ona yalvarmağa başladı ki, operasiyaya razı olsun; Vlasov yumruğunu düyüb onu hədələdi:

– Sağalsam, sənin halın daha pis olar!

Vlasov səhər fit işə çağıran zaman öldü. Tabutda ağzı açıq uzanmışdı, ancaq qaşları hirslə çatılmışdı. Onu arvadı, oğlu, köpəyi, fabrikdən qovulmuş oğru, kefli Danilo Vesovşikov və bir neçə məhəllə dilənçisi dəfn etdi. Arvadı sakitcə bir az ağladı, Pavel isə ağlamadı. Küçədə tabuta rast gələn məhəllə adamları dayanıb xaç çəkərək bir-birinə:

– Pelageya onun ölümünə yəqin sevinir – deyirdilər.

Bəziləri də düzəliş verirdilər:

– Öldü yox, gəbərdi de!..

Meyiti basdırandan sonra, hamı qayıtdı; köpək isə orada qaldı, təzə torpağın üstündə oturub, səsini çıxarmadan qəbri xeyli vaxt iylədi. Bir neçə gündən sonra kim isə köpəyi öldürdü...

## III

Atası öləndən iki həftə sonra, bazar günü, Pavel Vlasov bərk kefli halda evə gəldi. Səndələyə-səndələyə yuxarı başa keçib atası kimi yumruğunu masaya çırpdı və anasına:

– Şam ver! – deyə qışqırdı.

Anası onun yanına gəlib oturdu, boynunu qucaqladı, başını bağrına basdı. Pavel əlini anasının çiyninə dayayıb onu yaxın qoymur və qışqırırdı:

– Ana, cəld ol!..

Anası yenə onu qucaqlayaraq qüssəli və mehriban səslə:

– Dəli balam! – dedi.

Pavel, ağzında güclə dolanan dilini ağır-ağır tərpədərək mızıldandı:

– Çubuq da çəkəcəyəm! Atamın çubuğunu mənə ver...



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Pavel birinci dəfə idi ki, içib sərxoş olmuşdu. Araq onun bədənini zəiflətmişdisə də, şüurunu söndürməmişdi, o öz-özünə:

– Kefliyəmmi? Kefliyəmmi? – deyə düşünürdü.

Anasının mehribanlığı onu utandırır, gözlərindəki qüssə ona təsir edirdi. O, ağlamaq istəyirdi və bu arzunu boğmaq üçün özünü əslində olduğundan daha sərxoş göstərməyə çalışırdı.

Ana əli ilə onun tərli, pırtlaşmış saçlarını tumarlayır və yavaşdan deyirdi:

– Sən gərək belə eləməyəsən...

Pavelin ürəyi bulanmağa başladı. Ağır əzab içində qusduqdan sonra, anası onu yatağına uzadıb, ağarmış alnına yaş dəsmal qoydu. Pavel bir az ayıldı, lakin ətrafında və gözünün qabağında nə vardısa, hamısı ləpə kimi yırğalanırdı; gözlərinin qapağı ağırlaşmışdı, ağzı acı və pis dad verirdi, o, kirpiklərinin arasından gözlərini anasının iri üzünə dikib, öz-özünə düşünürdü:

– Görünür, tez başlamışam. Başqaları içir, bir şey olmur, amma mənim ürəyim bulanır...

Haradansa uzaqdan anasının mehriban səsi gəlirdi:

– İçməyə başlasan, məni əcəb saxlayacaqsan...

Pavel gözlərini bərk yumub cavab verdi:

– Hamı içir...

Anası dərindən ah çəkdi. Oğul haqlı idi. Anası özü də bilirdi ki, meyxanadan başqa heç yerdə adamların ürəyi açılmır. Bunu bilə-bilə oğluna dedi:

– Hamı içsə də sən içmə! Atan sənin də əvəzinə içib. Məni də az incitməyib... Heç olmazsa, sənin mənə yazığın gəlsin, hə?

Anasının qüssəli və mehriban sözlərini dinləyərkən, Pavel keçmişi yadına salırdı; atasının sağlığında anası evdə elə dolanırdı ki, heç kəs onu görmürdü, o qorxa-qorxa hər dəqiqə kötək gözləyər və səssiz gəzinərdi. Pavel atasını görməmək üçün, axır vaxtlar evdə az olardı, ona görə anasından soyumuşdu, indi yavaş-yavaş ayılaraq onu diqqətlə süzürdü.

Anası ucaboylu idi, beli bir balaca əyilmişdi, ağır zəhmət və ərinin kötəkləri altında əzilmiş qadın bir şeyə ilişməkdən ehtiyat edirmiş kimi, yan-yanı və ehtiyatla hərəkət edirdi. Məhəllə qadınlarından bir çoxunun gözləri kimi onun da həyəcan və iztirab dolu qara gözləri enli, uzun, bir qədər şişkin və qırışıq üzünə şölə



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

saçırdı. Sağ qaşının üstündəki çapıq, bu qaşını bir az yuxarı dartırdı, onun sağ qulağı da sol qulağına nisbətən yuxarı dartılmış kimi görünürdü; buna görə də onun üzündə daim belə bir ifadə olurdu ki, guya qorxa-qorxa nəyə isə qulaq verir. Sıx qara saçlarında ağ tüklər parıldayırdı. Bütün varlığı ilə mehriban, kədərli, müti bir qadın idi...

Ananın gözlərinin yaşı yavaş-yavaş yanaqlarına axırdı.

Oğlu yavaşca, yalvarıcı səslə:

– Ağlama! – dedi. – Su ver içim.

– Bu saat sənə buzlu su gətirərəm...

O qayıdıb gələndə oğlu yatmışdı. Ana bir dəqiqə oğlunun başı üstündə dayandı; əlindəki parç titrəyir, buz yavaşcadan parçın dəmirinə dəyib taqqıldayırdı. Ana parçı mizin üstünə qoyub ikonanın qabağında diz çökdü. Sərxoş həyatın sədaları pəncərə şüşələrinə çırpılırdı. Qaranlıq və nəm payız gecəsində qarmon zarıldayır, kim isə ucadan oxuyur, bir başqası iyrənc söyüşlər yağdırırdı; qadınların acıqlı, yorğun, həyəcanlı səsləri eşidilirdi...

Vlasovların xırdaca evində həyat əvvəlkindən xeyli sakit və rahat keçməyə başladı; bu həyat bütün məhəllənin həyatından bir qədər fərqlənirdi. Onların evi məhəllənin kənarında, bataqlığa enən alçaq, lakin sıldırım təpənin yanında idi. Evin üçdə bir hissəsini mətbəx və ondan nazik divarla ayrılmış balaca otaq tuturdu; bu otaqda ana yatırdı. Qalan üçdə iki hissəni isə iki pəncərəli, kvadratşəkilli otaq tuturdu, bu otağın bir küncündə Pavelin çarpayısı, qabaq küncdə isə miz ilə iki skamya qoyulmuşdu. Bundan başqa otaqda bir neçə kürsü, kamod, onun üstündə balaca güzgü, paltar sandığı, divar saatı və küncdə iki ikona vardı, – vəssalam.

Pavel cavan oğlana lazım olan hər şeyi elədi: qarmon, döşü kraxmallı köynək, əlvan qalstuk, qaloş və əl ağacı aldı; beləliklə, öz yaşıdlarının gününə düşdü. Kadril və polka rəqslərini öyrənib müsamirələrə gedər, bayram günləri evə sərxoş qayıdar, həmişə də araqdan xeyli əzab çəkərdi. Səhərlər başı ağrıyar, ürəyi qıcqırar, üzü solğun və qaşqabaqlı olardı.

Bir dəfə anası:

– Dünən ürəyin açıldımı? – deyə ondan soruşdu.

O isə acıqlı və narazı bir səslə:

– Ürəyim heç açılmır! – deyə cavab verdi. – Yaxşısı budur, balıq tutmağa başlayım. Ya da bir tüfəng alım.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Pavel səylə işləyirdi, işdən qaçmır və cərimələnmirdi; o, az danışırdı, anasının gözlərinə oxşayan iri, göy gözlərində narazılıq görünürdü. O, özünə tüfəng almadı, balıq tutmağa da getmirdi, ancaq hamı getdiyi yoldan qəti surətdə uzaqlaşmağa başladı: müsamirələrə az-az gedir, bayram günləri hara isə yollanır, amma ayıq qayıdırdı. Ona diqqətlə göz qoyan ana görürdü ki, oğlunun qarabuğdayı sifəti çəkilir, baxışları getdikcə ciddiləşir, dodaqları qəribə bir şəkildə bərk-bərk sıxılır. Onun bir şeyə içəridən hirsləndiyi və ya bir xəstəliyə tutulduğu zənn edilirdi. Əvvəllər yoldaşları onun yanına gəlirdi, indi isə onu evdə tapmadıqları üçün daha ayaqlarını bu evdən üzmüşdülər. Ana oğlunun fabrikdə işləyən gənclərə oxşamadığına sevinirdi; lakin sonralar, onun qara həyat yolundan böyük bir ciddiyyət və inadla kənara çıxdığını gördükdə, ananın qəlbinə nə isə bir qorxu dolmağa başladı.

Ana bəzən oğlundan soruşurdu:

– Pavluşa, naxoş deyilsən ki?

Oğlu:

– Yox, ana, yaxşıyam! – deyə cavab verirdi.

Anası ah çəkib:

– Çox arıqsan! – deyirdi.

Pavel özü ilə kitab gətirir və gizlin oxumağa çalışırdı, oxuyandan sonra da harada isə gizlədirdi. Bəzən kitablardan ayrıca bir kağıza nə isə köçürüb, bu kağızı da gizlədirdi...

Ana ilə oğul az-az görüşür, bir-birilə az danışırdılar.

Səhər Pavel dinməz-söyləməz çayını içib işə gedir, günorta nahara gəlirdi; nahar vaxtı xırda-para şeylərdən danışırdılar, nahardan sonra o yenə yox olur, bir də axşam qayıdırdı. Axşamlar o, səliqə ilə əl-üzünü yuyur, şam edir və kitablarını oxumağa başlayırdı. Bayram günləri səhər gedib gecə keçəndə gəlirdi. Anası onun şəhərdə olduğunu, orada teatra getdiyini bilirdi, ancaq şəhərdən onun yanına gələn olmurdu. Anaya elə gəlirdi ki, oğlu get-gedə daha az danışır, eyni zamanda o, oğlunun danışığında yeni, tanış olmayan sözlər eşidirdi, adət etmiş olduğu kobud, kəskin sözlər isə daha oğlunun ağzından çıxmırdı. Onun rəftarında ananın diqqətini cəlb edən bir çox yeniliklər görünürdü: qəşəng geyinməkdən əl çəkmişdi, bədəninin və paltarının təmizliyinə artıq diqqət edir, sərbəst, cəld tərpənir, zahirdə sadə, mülayim dolanırdı; bu dəyişiklik ananın diqqətini cəlb edir və onu təşvişə salırdı. Oğlunun ana



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

ilə rəftarında da bir yenilik vardı: o bəzən otağı süpürür, bayram günləri öz yerini yığışdırır, ümumiyyətlə anasının işini yüngülləşdirməyə çalışırdı. Məhəllədə heç kəs belə eləmirdi.

Bir gün o bir şəkil gətirib divara asdı – şəkildə üç adam söhbət edə-edə sərbəst və qıvraq addımlarla harasa gedirdi.

Pavel şəklə işarə ilə anasına:

– Dirilmiş İsa Emmausa gedir! – deyə izah etdi.

Şəkil ananın xoşuna gəldisə də, öz-özünə düşündü:

"İsaya hörmət eləyirsən, amma kilsəyə getmirsən!"

Pavelin yoldaşı olan bir dülgərin qayırdığı gözəl rəf get-gedə kitabla dolurdu. Otağın da görünüşü gözəlləşmişdi.

Pavel anasına müraciət edəndə "siz" deyir, onu "anacan" deyə çağırırdı; bəzən də birdən üzünü ona tutub mehriban səslə:

– Ana, xahiş edirəm, nigaran qalma, bu gün bir az gec gələcəyəm... – deyirdi.

Bu, ananın xoşuna gəlirdi, onun sözlərində ana möhkəm və ciddi bir şey duyurdu.

Lakin ananın həyəcanı artmaqda idi. Bu həyəcan sakitləşmir, ananın ürəyini getdikcə daha çox sıxır, onu gələcəkdə naməlum və təhlükəli hadisələrlə qorxudurdu. Bəzən ana oğluna qarşı ürəyində narazılıq hiss edir və düşünürdü:

"Bütün adamlar – adam kimidir, amma bu elə bil rahibdir. Çox ciddidir. Yaşına görə deyil...".

Bəzən də belə düşünürdü:

"Bəlkə, nə bilim, özünə bir qız tapıb?"

Lakin qızlarla gəzmək üçün pul lazımdır, Pavel isə, demək olar ki, bütün qazancını anasına verirdi.

Beləliklə, həftələr dolandı, aylar ötdü və sezilmədən tam iki il keçdi; bu iki illik qəribə, sakit həyat ana üçün gündən-günə artan anlaşılmaz düşüncə və iztirablarla dolu idi.

## IV

Bir gün şamdan sonra Pavel pəncərənin pərdəsini salıb küncdə oturdu və dəmir lampanı başının üstündən divara asıb oxumağa başladı. Ana qab-qacağı yığışdırandan sonra mətbəxdən otağa



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

qayıdıb yavaşca oğluna yanaşdı. Oğlu başını qaldırıb sualedici nəzərlə onun üzünə baxdı. Ana tələsik:

– Heç, Paşa, elə-belə gəldim... – dedi və karıxmış halda qaşlarını tərpədə-tərpədə çıxdı. Lakin bir dəqiqə mətbəxin ortasında hərəkətsiz, fikirli və qayğılı halda dayandıqdan sonra, əllərini tərtəmiz yuyub yenə oğlunun yanına gəldi. Yavaş səslə oğluna:

– Səndən soruşmaq istəyirəm, – dedi, – bu oxuduğun nədir?

Oğlu kitabı bükdü:

– Otur, anacan...

Ana ağır-ağır oğlunun yanında skamyaya əyləşdi, belini düzəltdi və əhəmiyyətli bir söz gözləyirmiş kimi, gözlərini onun üzünə dikdi.

Pavel, ona baxmayaraq, astadan və nədənsə çox sərt səslə söhbətə başladı:

– Mənim oxuduğum qadağan edilmiş kitablardır. Bu kitabları ona görə qadağan ediblər ki, bunlar bizim fəhlə həyatımızdan dürüst bəhs edir... Bu kitabları gizlin, xəlvət çap edirlər, bunları məndə tapsalar, məni dama qatarlar, həqiqəti bilmək istədiyim üçün dama qatarlar. Başa düşdünmü?

Ananın nəfəsi birdən tutuldu. Gözlərini geniş açaraq oğluna baxır, oğlu ona yad kimi görünürdü. Oğlunun səsi də dəyişmiş, alçaq, gur və cingiltili olmuşdu. O, barmaqları ilə nazik, yumşaq bığlarını dartır və gözaltı bucaqda bir nöqtəyə baxırdı. Oğlunun başına gələ biləcək fəlakət ananı dəhşətləndirdi; ona ürəyi yandı:

– Bunları axı nə üçün oxuyursan, Paşa? – deyə səsləndi.

Pavel başını qaldırıb baxdı, alçaq və sakit səslə:

– Həqiqəti bilmək istəyirəm! – deyə cavab verdi.

Onun səsi xəfif, lakin möhkəm idi, gözləri inadla parıldayırdı. Ananın ürəyi oğlunun gizli və dəhşətli bir işə həmişəlik bağlandığını duydu. Olacağa çarə olmadığına inanan ana hər bir şeyə düşünmədən tabe olmağa alışmışdı, odur ki, indi də dərd və kədərdən ürəyində bir söz tapmayaraq, ancaq için-için ağlamağa başladı.

Pavel mehriban və yavaş səslə anasına:

– Ağlama! – dedi; anaya isə elə gəldi ki, oğlu onunla vidalaşıb ayrılır.

– Özün bir düşün, biz necə yaşayırıq? Sənin qırx yaşın var, bu qırx ildə nə gün görmüsən? Atam səni döyərdi, – mən indi anlayıram



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

ki, o öz dərdinin, müsibətli günlərinin qisasını sənin qabırğalarından alırmış; bu dərd onu əzirdi, o isə başa düşə bilmirdi ki, dərd haradan gəlir. O, otuz il işlədi, o işləməyə başlayanda bütün fabrik ikicə binada yerləşirdi, amma indi yeddi bina tutur!..

Ana oğlunun sözlərini dərin maraq və qorxu ilə dinləyirdi. Pavelin gözləri nurlu və gözəl işıq saçırdı; döşünü mizin kənarına dayayaraq, o, anasına yaxın əyləşdi və anlamış olduğu həqiqət haqqındakı ilk nitqini anasının göz yaşından islanmış üzünə baxaraq söylədi. Öz biliyi ilə fərəhlənən, onun doğruluğuna bütün varlığı ilə inanan bir şagird qızğınlığı və gənclik qüvvəsi ilə Pavel özünə aydın olan şeylərdən danışırdı; həm də anası üçün danışmaqdan daha artıq, öz qüvvəsini yoxlamaq üçün danışırdı. Bəzən söz tapmayaraq nitqini kəsirdi və bu zaman qarşısındakı kədərli sifəti və bu sifətdə tutqunca parıldayan, yaşarmış və mehriban gözləri görürdü. Bu gözlər qorxu və heyrətlə baxırdı. Pavelin anasına ürəyi yanırdı və o, nitqinə davam edərək, artıq anasından, onun yaşayışından danışmağa başlayırdı:

– Ömründə bir ağ gün görmüsənmi? – deyə soruşdu. – Keçmişdə nə görmüsən?

Ana dinləyir və oğlunun sözlərində yeni, ona məlum olmayan, kədərli və nəşəli, onun dərdli ürəyini sərinlədən şeylər duyaraq başını qəmli-qəmli bulayırdı. Birinci dəfə idi ki, özü haqqında, öz həyatı haqqında bu cür nitq eşidirdi; bu nitq çoxdan bəri onun könlündə yatan dumanlı duyğuları oyadır, həyata qarşı artıq sönmüş olan anlaşılmaz narazılıq hissini, uzaq gənclik duyğularını canlandırırdı. O öz yoldaşları ilə həyatdan danışardı, hər şey haqqında uzun-uzadı söhbətlər edərdi, lakin hamısı – onun özü də ancaq şikayətlənərdi, heç kəs həyatın nə üçün belə ağır və çətin olduğunu başa salmazdı. İndi isə oğlu onun qarşısında oturmuşdu, onun gözləri, üzü və danışığı ilə ifadə etdikləri anasının qəlbini oxşayır, onu iftixar hissi ilə doldururdu; oğlu öz anasının həyatını düz anlamışdı, onun əzablarından danışır, ona yazığı gəlirdi.

Analara heç kəsin yazığı gəlmirdi.

Qadın bunu bilirdi. Qadınların həyatı haqqında oğlunun dediyi sözlərin hamısı acı və tanış həqiqət idi; budur ki, onun qəlbində bir yığın duyğu çağlayaraq, onu indiyə kimi bilmədiyi və görmədiyi nəvazişlə sevib oxşayırdı.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Ana oğlunun sözünü kəsərək:

– Bəs sən nə etmək istəyirsən? – deyə soruşdu.

– Öyrənmək, sonra da başqalarını öyrətmək. Biz fəhlələrə öyrənmək lazımdır. Biz həyatımızın nə üçün belə ağır olduğunu bilməli, anlamalıyıq.

Oğlunun daim ciddi və sərt mavi gözlərinin indi mülayim və nəvazişli bir nurla parıldadığını görən ana sevinirdi. Onun yanaqlarındakı qırışların arasında göz yaşları hələ də titrədiyi halda dodaqlarında xoş və sakit təbəssüm oynamağa başladı. Onun qəlbində iki cür hiss çırpınırdı; o, həyatın bütün kədərlərini belə yaxşı görən oğlu ilə fəxr etsə də, onun gəncliyinə yanır, onun başqaları kimi danışmadığını, hamının – ananın da – alışmış olduğu həyatla təkbaşına mübarizəyə çıxmaq qərarına gəldiyini görüb vahimələnirdi. *Oğluna demək istəyirdi ki: "Əzizim, sənin əlindən nə gəlir?"*

Lakin ana, bir qədər yad görünsə də bu cür ağıllı oğlu ilə fərəhlənməyə bilmirdi.

Pavel anasının dodağındakı təbəssümü, üzündəki diqqəti, gözlərindəki məhəbbəti görür, həqiqəti ona başa sala bilmiş olduğunu güman edən, gəncin iftixar hissi onun özünə bəslədiyi etimadı söz gücü ilə artırırdı. Getdikcə həvəslənərək o danışarkən gah gülür, gah qaşlarını çatırdı; bəzən onun sözlərində kin duyulurdu; anası onun qızğın, kəskin sözlərini eşidərkən qorxur və başını bulayaraq yavaş səslə soruşurdu:

– Paşa, doğrudanmı belədir?

Pavel möhkəm və qəti səslə:

– Belədir! – deyə cavab verirdi. O, xalqın oduna yanan, ona həqiqətdən danışan və bunun üstündə həyat düşmənləri tərəfindən vəhşi heyvan kimi tutulub həbsxanalara salınan, katorqaya göndərilən adamlardan nağıl edirdi...

Pavel odlu-odlu dedi:

– Mən belə adamları görmüşəm! Bunlar dünyada ən gözəl adamlardır!

Bu adamlar ananın qəlbində qorxu yaradırdı; o, yenə oğlundan:

"Belədirmi?" deyə soruşmaq istəyirdi.

Lakin cəsarət edə bilmir, nəfəsini gizlədərək anlamadığı adamlar haqqında, oğlunu belə təhlükəli sözlər danışmağa, bu cür təhlükəli şeylər düşünməyə öyrədən adamlar haqqında deyilənlərə qulaq asırdı. Axırda oğluna:



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

– Gecə keçib, işıqlanmağa az qalıb, – dedi, – dur yat!

Oğlu razı olaraq:

– Hə, bu saat yatıram! – dedi. Sonra da anasına tərəf əyilərək soruşdu: – Məni başa düşdünmü?

Ana dərindən köksünü ötürərək:

– Başa düşdüm! – dedi. Yenə göz yaşı onun üzündən axmağa başladı; ana hıçqıraraq əlavə elədi: – Məhv olarsan, bala!

Pavel ayağa qalxdı, otaqda gəzindi, sonra anasına:

– İndi nə elədiyimi, hara getdiyimi bilirsən! – dedi. – Mən hamısını sənə açıb dedim. İndi səndən xahiş edirəm, ana, məni istəyirsənsə, mənə mane olma!..

Ana həyəcanla:

– Gözümün işığı, ay bala! – dedi. – Bəlkə bilməsəydim, daha yaxşı olardı.

Pavel anasının əlini əlinə alıb bərk sıxdı.

Oğlunun qızğın bir qüvvə ilə dediyi "ana" sözü, əlini beləcə, yeni və qəribə bir şəkildə sıxması anaya çox təsir elədi. Səsi tutula-tutula:

– Mən sənə mane olmayacağam! – dedi. – Ancaq özünü gözlə, özündən muğayat ol!

Sonra oğlunun özünü nədən gözləməli olduğunu bilmədiyindən ana kədərli səslə əlavə elədi:

– Getdikcə arıqlayırsan...

Ana oğlunun möhkəm və biçimli bədənini mehriban və oxşayıcı nəzərlə süzərək tələsik və yavaş səslə:

– Allah amanında! – dedi. – Öz bildiyin kimi yaşa, mən sənə mane olmayacağam. Ancaq bircə sözüm var – adamlarla ötkəm danışma! Adamlardan ehtiyat eləmək lazımdır – hamı bir-birinə düşməndir! Bir-birinin ayağından çəkir, bir-birinə paxıllıq edir. Hamı pislik eləməyə çalışır. Onların eyibini açmağa, onları danlamağa başlayan kimi, hamı sənə düşmən kəsiləcək, səni məhv etməyə çalışacaqdır.

Oğlu qapının ağzında dayanıb anasının kədərli nitqini dinləyirdi; ana sözünü qurtardıqda Pavel gülümsünərək:

– Adamlar pisdir, doğru deyirsən, – dedi. – Ancaq mən yer üzündə həqiqət olduğunu biləndən sonra adamlar da mənim gözümdə yaxşılaşdı!..



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

O yenə gülümsəyib davam elədi:

– Bunun necə olduğunu heç özüm də anlamıram! Uşaqlıqda hamıdan qorxardım, böyüdükcə hamıya kin bəsləməyə başladım, bir parasına alçaqlığı üstündə, bir parasına da, heç özüm də bilmirəm nə üstə, elə-belə! Amma indi hamı mənim gözümə başqa cür görünür; bəlkə onlara yazığım gəlir? Başa düşə bilmirəm, ancaq öz pisliklərində bu adamların heç də hamısının müqəssir olmadığını duyandan bəri ürəyim yumşalıbdır...

Pavel qəlbində nəyə isə qulaq verirmiş kimi kiridi, sonra düşüncəli və yavaş səslə:

– Bax, həqiqət özünü belə göstərir! – dedi.

Ana oğlunun üzünə baxıb yavaşca:

– Sən çox dəyişmisən! – dedi. – Allaha təvəkkül!

Pavel uzanıb yuxuya gedəndən sonra, ana yerindən yavaşca qalxıb onun yanına gəldi. Pavel arxası üstə yatmışdı; onun qarabuğdayı, inadlı və ciddi üzünün bütün cizgiləri ağ balış üstündə aydın görünürdü. Ana ayaqyalın, bir köynəkdə, əllərini döşünə sıxıb onun yatağının yanında durmuşdu; dodaqları səssizcə tərpənirdi; gözlərindən isə bir-birinin dalınca yavaş-yavaş iri və bulanıq göz yaşları axırdı.

Onlar bir-birinə yaxın və eyni zamanda uzaq olaraq yenə sözsüz, söhbətsiz yaşayırdılar.

## V

Bir dəfə həftənin ortasında, bayram günü, Pavel evdən gedərkən anasına dedi:

– Şənbə günü bizə şəhərdən qonaq gələcəkdir.

Anası:

– Şəhərdən? – deyə soruşdu və birdən hıçqırdı.

Pavel narazı-narazı:

– Yenə nə oldu, ay ana? – deyə soruşdu.

Ana döşlüyü ilə gözünü silib ah çəkdi və:

– Bilmirəm, elə-belə... – dedi.

– Yoxsa qorxursan?

Anası:



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

– Qorxuram! – deyə etiraf etdi.

Oğul anasının üzünə doğru əyilib, atası kimi acıqlı dedi:

– Bizi məhv edən də qorxudur! Bizə ağalıq eləyənlər də bizim qorxaqlığımızdan istifadə edir və bizi daha da qorxudurlar.

Ana kədərindən inildədi:

– Acıqlanma! Qorxmayım, nə eləyim? Bütün ömrümü qorxu içində yaşamışam, – bütün ruhum qorxu ilə dolmuşdur.

Oğlu yavaş-yavaş və mülayim səslə:

– Məni bağışla! – dedi, – başqa cür olmaz!

Bunu deyib getdi.

Üç gün ananın ürəyi əsdi. Yad və qorxunc adamların onun evinə gələcəyi yadına düşəndə nəfəsi kəsilirdi. Yəqin ki, oğluna indi getdiyi yolu göstərən bu adamlar olmuşdu...

Şənbə günü axşam Pavel fabrikdən qayıdıb əl-üzünü yudu, paltarını dəyişdi və haraya isə getməyə hazırlaşıb, anasının üzünə baxmadan dedi:

– Gəlsələr, de ki, bu saat qayıdıram. Bir də xahiş edirəm ki, qorxma...

Ana taqətsiz skamyanın üstünə çökdü. Oğlu fikirli halda anasına nəzər salaraq:

– Bəlkə sən... bir yana gedəsən? – deyə təklif etdi.

Bu söz anaya dəydi. Başını bulayaraq:

– Yox. Niyə ki? – dedi.

Noyabr ayının axırı idi. Donmuş yerə gündüzdən quru, narın qar yağmışdı, indicə çıxıb gedən oğlunun ayağı altında qar xışıldayırdı. Qatı qaranlıq pusquda durmuş düşmən kimi, pəncərənin şüşələrinə qısılaraq hərəkətsiz dayanmışdı. Əllərini skamyaya dayayaraq oturmuş ana qapıya baxır, gözləyirdi...

Ona elə gəlirdi ki, qəribə paltar geyinmiş kinli adamlar qaranlıqda yerə əyilib, ətrafa baxa-baxa, ehtiyatla hər tərəfdən evə doğru sürünürlər. Budur, kim isə evin ətrafında dolanıb əllərini divarlara sürtür.

Fit səsi gəldi. Həzin və lətif səs sükutu yararaq nazik tel kimi uzanır, mənalı-mənalı zülmət səhrasında çırpınır və bir şey axtarırmış kimi, yaxınlaşırdı. Birdən o sanki divarın taxtasına sancılaraq düz pəncərənin altında kəsildi.



Created with nitro PDF professional
download the free trial online at nitropdf.com/professional

Eyvanda ayaq tappıltısı eşidildi, ana diksindi və həyəcanlı halda qaşlarını dartıb ayağa qalxdı.

Qapı açıldı. Qabaqca otağa yekə və qıllı papaqlı bir baş soxuldu, sonra ikiqat əyilmiş uzun bir adam yavaşca otağa girdi, dikəldi, sağ əlini tələsmədən yuxarı qalxızdı, dərindən nəfəs alıb, gur və içəridən gələn səslə:

– Axşamınız xeyir! – dedi.

Ana dinməzcə baş əydi:

– Pavel evdə yoxdur?

Gələn adam gödək xəz paltosunu ehmalca çıxartdı, bir ayağını qaldırıb papağı ilə çəkməsinin qarını çırpdı, sonra beləcə o biri ayağının da qarını təmizlədi, papağını bucağa tulladı və uzun ayaqları üstə yırğalana-yırğalana otağa girdi. Kürsüyə yaxınlaşıb onun möhkəmliyini yoxlayırmış kimi diqqətlə baxdı, nəhayət oturub əlini ağzına tutdu və əsnədi. Onun başı yumru, saçları dibdən vurulmuş və saqqalı qırxılmışdı, uzun bığlarının ucları aşağı sallanırdı. Bozumtul, iri, domba gözləri ilə otağı süzüb qıçını qıçının üstə aşırdı və kürsüdə yırğalana-yırğalana soruşdu:

– Bu ev özünüzündür, ya kirə ilə oturursunuz?

Onunla üzbəüz oturan ana:

– Kirə ilə otururuq, – deyə cavab verdi.

– Bekara evdir!

Ana yavaş səslə:

– Paşa indi gələr, bir az gözləyin! – dedi.

Uzun adam sakitcə:

– Mən elə gözləyirəm! – dedi.

Onun sakitliyi, həlim səsi və üzünün sadəliyi ananı ürəkləndirdi. Qonaq ona açıq nəzərlə, xeyirxahlıqla baxırdı, onun şəffaf gözlərinin dərinliklərində şad qığılcımlar oynayırdı, uzun ayaqlı, biçimsiz, kobud bədəni məzəli və xoşa gələn idi. O, göy köynək geymiş və qara şalvarını çəkməsinin boğazına salmışdı. Ana onun kim və haralı olduğunu, oğlunu haradan və nə vaxtdan bəri tanıdığını soruşmaq istəyirdi ki, qonaq birdən anaya tərəf əyilib:

– Nənə, sizin alnınızı kim elə çapıbdır? – deyə soruşdu.

Mehribanlıqla, açıq təbəssümlə deyilsə də bu sual qadının ürəyinə dəydi. Ana dodaqlarını büzdü, bir qədər ara verib soyuq ehtiramla:

– Atam, sizin nəyinizə gərəkdir? – deyə soruşdu.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Kişi bütün bədəni ilə ona tərəf əyildi:

– Acıqlanmayın, niyə acıqlanırsınız! Mənim də analığımın başı çapılmışdı, bax, lap sizinki kimi, onun üçün soruşuram. Onun başını əri çapmışdı; əri çəkməçi idi, qəliblə vurub çapmışdı. Analığım paltaryuyan idi, əri də çəkməçi.

Analığım, məni oğulluğa kötürəndən sonra, o kişini haradan isə, sərxoş halda tapıb gətirmiş, öz gününü qara eləmişdi. Heç bilirsiniz əri onu necə döyərdi! Qorxudan tüklərim biz-biz durardı...

Bu açıqlığın qarşısında ana yumşaldı, ona elə gəldi ki, Pavel onun bu qəribə adama belə sərt cavab verdiyini bilsə, yəqin hirslənər. Bunu fikirləşərək ana, müqəssir kimi gülümsünüb dedi:

– Mən acıqlanmıram, ancaq siz çox qəfildən... soruşdunuz. Alnımı rəhmətlik ərim çapıbdır. Siz tatar deyilsiniz ki?

Qonaq ayaqlarını bir-birinə çırpıb, ağzını elə geniş açaraq gülümsədi ki, hətta qulaqları da yerindən oynadı. Sonra ciddi səslə:

– Hələ yox, – dedi.

Ana onun zarafatını anlayıb gülümsədi və öz sualını izah elədi:

– Sizin danışığınız deyəsən rus danışığına oxşamır.

Qonaq şən bir hərəkətlə başını tərpədib:

– Mənim danışığım ruslarınkından yaxşıdır! – dedi. – Mən xoxolam, Kanyev şəhərindənəm.

– Bura çoxdanmı gəlmisiniz?

– Bir ilə yaxın şəhərdə yaşadım, indi də buraya gəlmişəm, bir aydır fabrikdə işləyirəm. Burada yaxşı adamlar tapmışam: sizin oğlunuzu və başqalarını. Bir az da burada yaşayacağam! – bunu deyərkən, qonaq bığlarını dartırdı.

Qonaq ananın xoşuna gəlirdi, oğlunu təriflədiyinə görə qonağa bir yaxşılıq eləmək arzusu ilə:

– Bəlkə çay içmək istəyirsiniz? – deyə təklif etdi.

Qonaq çiyinlərini atıb:

– Tək-təkinə nə çay içmək? – dedi. – Qoy hamı gəlsin, onda iltifat edərsiniz...

Bu sözlər yenə anaya öz qorxusunu xatırlatdı.

“Kaş hamısı belə olaydı!” – deyə ana ürəyində arzu elədi.

Yenə eyvandan ayaq səsi gəldi, qapı tələsik açıldı; ana təzədən ayağa qalxdı. Mətbəxə ortaboylu, qalın sarı saçlı, sifətdən sadə kəndli qızına bənzəyən bir qız girdi; ana təəccüb elədi. Qız yavaşdan:



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

– Yubanmamışam ki? – deyə soruşdu.
Xoxol otaqdan boylanaraq cavab verdi:
– Yox, yox! Piyada gəldiniz?
– Söz yox! Siz Pavel Mixayloviçin anasısınızmı? Salam. Mənim adım Nataşadır...
Ana:
– Bəs atanızın adı? – deyə soruşdu.
– Vasilidir. Bəs sizin adınız?
– Pelageya Nilovna.
– Aha, tanış olduq...
– Bəli! – deyə ana rahat nəfəs aldı və gülümsəyərək qızı diqqətlə gözdən keçirməyə başladı.
Xoxol onun soyunmasına kömək edə-edə soruşdu:
– Soyuqdurmu?
– Çöldə çox soyuqdur! Külək əsir...
Onun səsi aydın və gur, ağzı balaca və yumru idi, elə özü də başdan-ayağa yumru-yumaq və qıvraq idi. Qız, paltosunu soyunub, soyuqdan qızarmış balaca əlləri ilə al yanaqlarını bərk-bərk sürtdü və çəkmələrinin dabanını taqqıldada-taqqıldada tələsik içəri girdi.
"Qaloşsuz gəzir!" – deyə ana öz-özünə düşündü.
Qız titrəyərək:
– Hə-ə! – dedi. – Yamanca üşümüşəm!..
Ana tələsik mətbəxə tərəf yeridi:
– Bu saat samovarı qızdıraram! Bu saat...
Anaya elə gəlirdi ki, bu qızı çoxdan tanıyır və mülayim, rəhmli ana məhəbbətilə sevir. Ana otaqdakı söhbətə qulaq asa-asa öz-özünə gülümsünürdü.
Qız soruşdu:
– Naxodka, qaşqabağınızı nə üçün tökmüsünüz?
Xoxol astadan dedi:
– Elə-belə. Qarının gözləri yaxşıdır, mən də deyirəm, bəlkə mənim anamın da gözləri belə imiş? Bilirsiniz, anamı tez-tez düşünürəm, mənə elə gəlir ki, o sağdır.
– Bəs siz deyirdiniz ölübdür?
– Yox, o dediyim analığımdır. Mən doğma anamı deyirəm. Mənə elə gəlir ki, o, Kiyevin bir yerində dilənçilik edir. Araq da içir. Kefli-kefli polislər onu sillələyir.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Ana öz-özünə:

"Yaman dərddir", – deyə fikirləşərək ah çəkdi.

Nataşa yavaş səslə tez-tez və odlu-odlu danışmağa başladı. Sonra yenə xoxolun gur səsi gəldi:

– Eh, yoldaş, siz hələ uşaqsınız, dünyadan xəbəriniz yoxdur! Doğmaq çətindir, amma insanı yaxşılığa öyrətmək daha çətin...

Ana ürəyində:

"Bax ha!" – deyə fikirləşdi və xoxola xoş bir söz demək istədi. Lakin bu zaman qapı yavaşca açıldı və köhnə oğru Danilanın oğlu, bütün məhəllədə təklik sevən kimi tanınmış Nikolay Vesovşikov içəri girdi. Nikolay Vesovşikov daim adamlardan qaçırdı, hamı da onun bu xasiyyətinə istehza edib gülürdü. Ana təəccüblə soruşdu:

– Nə var, Nikolay?

Nikolay enli əli ilə iri sümüklü çopur üzünü sildi və salam vermədən boğuq səslə soruşdu:

– Pavel evdədir?

– Yox.

O, otağa baxdı və içəri girib:

– Xoş gördük, yoldaşlar... – dedi.

Ana onun gəldiyindən narazı idi; Nataşanın ona şən və mehriban bir hərəkətlə əl verdiyini görüb heyrətlə "Budamı?" – deyə düşündü.

Sonra da iki oğlan gəldi; bunlar hələ lap uşaq idilər. Birini ana tanıyırdı – o, qoca fabrik fəhləsi Sizovun qardaşı oğlu Fyodor idi, uzun sifətli, geniş alınlı, qıvrım saçlı bir oğlan idi. İkincisi – saçları səliqə ilə daranmış, utancaq bir oğlan idi; ana onu tanımırdı, lakin ondan da qorxmurdu. Axırda iki cavan oğlanla Pavel gəldi; bu oğlanları da ana tanıyırdı, ikisi də fabrikdə işləyirdi. Pavel mehriban-mehriban anasına dedi:

– Samovarı qoymusan? Ay sağ ol!

– Bəlkə araq almaq lazımdır? – deyə ana təklif elədi; o, səbəbini bilmədiyi halda nədənsə oğluna öz təşəkkürünü yetirmək istəyirdi, lakin bunu necə edəcəyini bilmirdi.

Pavel səmimiyyətlə gülümsünərək:

– Yox, lazım deyil! – dedi.

Birdən ananın fikrinə gəldi ki, oğlu yığıncağın qorxulu olduğunu qəsdən söyləyib onunla zarafat eləmək istəmişdir. Oğluna yaxınlaşaraq yavaşdan:



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

– O dediyin xatalı adamlar bunlardır? – deyə soruşdu.

Pavel:

– Bunların özüdür! – deyib otağa keçdi.

Ana məhəbbətlə onun dalınca baxıb:

– Bala, ay bala! – dedi və sonra ürəyində: "hələ uşaqdır!" deyə mehribancasına fikirləşdi.

## VI

Samovar qaynadı; ana onu otağa gətirdi. Qonaqlar, dövrə vurub, masanın ətrafında oturmuşdular, Nataşa isə əlində kitab bucaqda lampaya yaxın əyləşmişdi.

Nataşa deyirdi:

– Adamların nə üçün belə ağır yaşadığını anlamaq üçün...

Xoxol onun sözünü kəsib əlavə elədi:

– Onların özlərinin nə üçün belə pis olduğunu da.

– Onların yaşamağa necə başladığını öyrənmək lazımdır...

Ana çay dəmləyə-dəmləyə dodaqaltı dedi:

– Öyrənin, əzizlərim, öyrənin!

Hamı susdu.

Pavel qaşlarını çataraq:

– Anacan, nə dediniz? – deyə soruşdu.

– Mən? – Ana ətrafına nəzər yetirdi və hamının ona baxdığını görüb, utana-utana izah elədi:

– Heç, mən öz-özümə danışıram, deyirəm, yəni öyrənin!

Nataşa güldü. Pavel də gülümsündü, xoxol isə dedi:

– Sağ olun, nənə, zəhmət çəkib çay qoymuşsunuz!

Ana:

– İçməmişdən razılıq edirsiniz! – deyə cavab verdi və oğlunun üzünə baxıb soruşdu:

– Mən sizə mane olmaram ki?

Cavabı Nataşa verdi:

– Siz ev yiyəsi ola-ola qonaqlara necə mane ola bilərsiniz?

Sonra uşaq kimi yalvarıcı səslə:

– Əzizim! Mənə tez çay verin! Ayaqlarım lap donub, titrəyirəm! – dedi.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Ana tələsə-tələsə:

– Bu saat, bu saat! – deyə səsləndi.

Nataşa, bir fincan çay içib, ucadan köksünü ötürdü, saçını dala atıb əlindəki şəkilli sarı kitabı oxumağa başladı. Ana, səs eləməmək üçün qab-qacağı ehmal tərpədərək, çay tökür və qızın rəvan oxumağına qulaq asırdı. Qızın cingiltili səsi samovarın nazik və həzin dızıltısına qarışırdı; qız mağaralarda yaşayan və vəhşi heyvanları daş ilə öldürən vəhşi insanlardan maraqlı şeylər oxuyurdu. Bu hekayə nağıla bənzəyirdi və ana bu hekayənin nə üçün qadağan edildiyini soruşmaq fikrinə düşüb, bir neçə dəfə oğlunun üzünə baxdı. Lakin bir azdan sonra ana hekayəyə qulaq asmaqdan yoruldu və oğluna da, yoldaşlarına da sezdirmədən altdan-altdan qonaqları nəzərdən keçirməyə başladı.

Pavel Nataşa ilə yanaşı oturmuşdu; o hamıdan gözəl idi. Kitaba tərəf əyilən Nataşa üzünə tökülən tellərini tez-tez düzəldirdi. Başını qaldırıb, səsini alçaldaraq kitaba baxmadan özündən də söz artırır və dinləyiciləri mehriban gözləri ilə süzürdü. Xoxol, enli döşünü masanın küncünə dayayıb, gözlərini əyir və bığlarının didilmiş ucuna tamaşa etmək istəyirdi. Vesovşikov, əllərini dizlərinə dayayıb, kürsüdə odun parçası kimi düz oturmuşdu, onun nazik dodaqları və qaşsız, çopur üzü maska kimi hərəkətsiz idi. O, balaca gözlərini qırpmayaraq parlaq samovarda əks olunan surətinə baxır və sanki nəfəs almırdı. Balaca Fedya, kitabın sözlərini öz-özünə təkrar edirmiş kimi, dodaqlarını tərpədə-tərpədə qulaq asırdı; onun yoldaşı isə, dizlərinə dirsəklənərək üzünü əlinin içinə qoyub, fikirli-fikirli gülümsünürdü. Pavel ilə gələn oğlanlardan biri qıvrım, kürən saçlı və güləyən göygöz bir oğlan idi; o bir şey demək istəyirmiş kimi, yerində hey qurcalanırdı; o biri, qısa sarı saçlı isə, gözlərini yerə dikib, əli ilə başını tumarlayırdı, onun üzü görünmürdü. Otaqda xoş bir ülfət yaranmışdı. Ana da ona tanış olmayan bu qəribə halı duyur, Nataşanın bulaq kimi şırıldayan səsinə qulaq asa-asa öz gəncliyinin səsli-küylü axşam oyunlarını və müsamirələrini, həmişə tünd araq iyi gələn gənclərin kobud sözlərini, şit zarafatlarını yadına salırdı. Bu xatirə onun ürəyini didir və özünə qarşı kəskin mərhəmət hissi ilə doldururdu.

Yadına rəhmətlik ərinin onu istəməsi düşdü. Müsamirələrin birində rəhmətlik onu qaranlıq eyvanda tutub bütün bədəni ilə divara dayanmış və boğuq, hirsli səslə:



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

– Mənə gələrsənmi? – deyə soruşmuşdu.

Bu hərəkət onu incitmiş, təhqir eləmişdi, oğlan onun döşlərini sıxmış, fısıldaya-fısıldaya isti nəfəsini onun üzünə vermişdi. O, oğlanın əlindən qurtarmaq üçün yana tərəf dartınmışdı. Oğlan isə:

– Hara? – deyə mızıldanmışdı. – Soruşuram, cavab ver görüm!

O, həya və hiddətindən boğularaq dinməmişdi. Bu zaman kim isə eyvanın qapısını açmışdı, onda oğlan tələsmədən onu buraxıb:

– Bazar günü elçi göndərəcəyəm... – demişdi.

Dediyi kimi də elədi.

Ana, dərindən ah çəkib, gözlərini yumdu.

Otaqda Vesovşikovun narazılıq ifadə edən səsi eşidildi:

– Mən adamların keçmişdə neçə yaşadığını deyil, indi necə yaşamalı olduğunu bilmək istəyirəm!

Kürən oğlan, ayağa qalxıb, onun rəyinə şərik oldu:

– Doğru sözdür!

Fedya:

– Düz demirsiniz! – deyə qışqırdı.

Mübahisə qızışdı, tonqalda alov parlayan kimi, sözlər parlamağa başladı. Onların nə üçün bağırdığını ana başa düşə bilmirdi. Hamının üzü həyəcandan qızardı, lakin heç biri acıqlanmır, ananın daim eşitdiyi kobud və sərt sözləri işlətmirdi.

"Qızdan çəkinirlər!" – deyə ana ürəyində qət elədi.

Hamıya uşaq kimi diqqətlə nəzər yetirən Nataşanın ciddi üzü ananın xoşuna gəlirdi.

Nataşa birdən:

– Yoldaşlar, dayanın! – deyə onları dayandırdı. Hamı susub gözlərini ona dikdi:

– Biz hər şeyi bilməliyik deyənlər haqlıdır. Biz gərək özözümüzü şüur nuru ilə işıqlandıraq ki, nadan adamlar bizi görsünlər, biz gərək hər bir suala səmimi və dürüst cavab verək. Bütün həqiqəti və bütün yalanı bilmək lazımdır...

Xoxol qulaq asa-asa, onun sözlərinin ahənginə uyğun olaraq başını tərpədirdi. Vesovşikov, kürən oğlan və Pavelin gətirdiyi gənc fəhlə üçlükdə bir kənarda durmuşdular, nədənsə onlar ananın xoşuna gəlmirdilər.

Nataşa sözünü qurtarandan sonra Pavel ayağa qalxıb sakit səslə:



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

– Məgər bizim arzumuz yalnız tox olmaqdır? – deyə soruşdu. Sonra o, öz-özünə cavab verirmiş kimi: – Yox! – deyə üç nəfərin oturduğu tərəfə baxdı. – Bizim boynumuzda oturub, gözlərimizi bağlayanlara hər şeyi gördüyümüzü, axmaq və heyvan olmadığımızı, təkcə yemək deyil, insanlara layiq həyatla yaşamaq istədiyimizi göstərməliyik! Biz bütün düşmənlərimizə göstərməliyik ki, bizim üçün yaratdıqları katorqa həyatı, bizim ağılda onlara bərabər, bəlkə də onlardan daha yüksək olmağımıza mane olmur!..

Ana oğlunun danışığına qulaq asır və onun qəlbi iftixar hissi ilə titrəyirdi: – Gör neçə tutarlı danışır!

Xoxol:

– Tox adam az deyil, namuslu adam yoxdur! – dedi. – Biz bu üfunətli həyat bataqlığından gözəl gələcək həyata körpü salmalıyıq; bax, yoldaşlar, bizim vəzifəmiz budur!

Vesovşikov:

– Döyüş vaxtı çatanda əlləri müalicə etməyə macal olmaz! – deyə boğuq səslə etiraz elədi.

Qonaqlar dağılmağa başlayanda, gecə yarıdan keçmişdi. Hamıdan qabaq Vesovşikovla kürən oğlan getdi, bu da ananın xoşuna gəlmədi.

“Gör necə də tələsirlər!” – deyə fikirləşərək ana onlara soyuq-soyuq baş əydi.

Nataşa:

– Naxodka, məni yola salarsınızmı? – deyə soruşdu.

Xoxol cavabında:

– Bəs necə! – dedi.

Nataşa mətbəxdə geyinəndə ana üzünü ona tutub dedi:

– Corabınız nazikdir, indi hava soyuqdur. İzn versəydiniz, mən sizə yun corab toxuyardım.

Nataşa gülə-gülə cavab verdi:

– Çox razıyam, Pelageya Nilovna! Yun corab adamın ayağını dalayır.

– Mən sizə eləsini toxuyaram ki, ayağınızı dalamaz! – deyə ana cavab verdi.

Nataşa bir az gözlərini qıyıb anaya baxdı, bu diqqətli baxışdan ana özünü itirdi. Sonra yavaşca əlavə elədi:

– Siz mənim avamlığımı bağışlayın, mən təmiz ürəklə dedim!



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Nataşa da tez onun əlini sıxıb yavaşdan:

– Siz nə qədər mehribansınız! – deyə cavab verdi.

Xoxol ananın gözlərinə baxıb:

– Gecəniz xeyrə qalsın, nənə! – dedi və əyilib Nataşanın dalınca eyvana çıxdı.

Ana oğluna baxdı, – o, otaq qapısının ağzında durub gülümsünürdü.

Ana karıxmış halda ondan soruşdu:

– Nəyə gülürsən?

– Heç, şadlıqdan!

Ana bir az incimiş kimi:

– Əlbəttə, mən qoca avam adamam, – dedi, – ancaq yaxşı şeyi mən də seçə bilirəm!

– Çox yaxşı! İndi yatsanız yaxşıdır, gecə keçib.

– Bu saat yatıram!

Ana masanın ətrafında fırlana-fırlana qab-qacağı yığışdırmağa başladı; o çox razı qalmışdı, hətta xoş həyəcandan onu tər basmışdı, axşamın belə yaxşı keçməsi və sakit qurtarması onu sevindirirdi. O:

– Pavluşa! Qonaq çağırmaqda yaxşı eləmisən! – dedi. – Xoxol mənim çox xoşuma gəldi. Qız da! Nə ağıllı qızdır! O kimdir?

Pavel otaqda gəzinə-gəzinə qısaca cavab verdi:

– Müəllimədir!

– Odur ki, kasıbdır. Paltarı köhnə və nazikdir, çox nazikdir! Belə paltarda adama tez soyuq dəyə bilər. Bəs ata-anası haradadır?

Pavel:

– Moskvadadır! – deyə cavab verdi və anasının qabağında dayanıb ciddi, yavaş səslə:

– Bir düşün, – dedi, – onun atası dövlətli bir kişidir, dəmir alveri edir, neçə yerdə mülkü var. Qızı bu yol ilə getdiyi üçün onu evdən qovub. Bu qız atası evində naz-nemət içində bəslənib, əzizlənib; onun hər arzusu yerinə yetirilib, amma indi görürsən, gecənin bu vaxtında yeddi verst yol gedəcək... tək-tənha...

Bu sözlər ananı heyrətə gətirdi. O, otağın ortasında təəccüblə qaşlarını dartıb, dinməz-söyləməz oğlunun üzünə baxırdı. Sonra astadan soruşdu:

– Şəhərə gedəcək?

– Şəhərə.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

– Paho! Bəs qorxmur?

Pavel gülümsündü:

– Görürsən, qorxmur!

– Axı niyə, nə olmuşdu ki? Burada qalaydı da, mənimlə yatardı!

– Yaxşı olmazdı. Sabah səhər onu burada görə bilərdilər, bu da bizim üçün yaxşı olmazdı.

Ana fikirli-fikirli pəncərəyə baxıb yavaşca soruşdu:

– Paşa, mən başa düşə bilmirəm, axı burada qorxulu, qadağan ediləsi nə iş var? Burada bir pis iş yoxdur, hə?

Ana bunu hələ yəqin eləməmişdi. Ona görə də istəyirdi ki, oğlu onun fikrini təsdiq eləsin.

Pavel sakit-sakit onun gözlərinə baxıb, qəti səslə dedi:

– Pis iş yoxdur. Ancaq bizim hamımızı gələcəkdə dustaqxana gözləyir. Sən bunu qabaqcadan bil!..

Ananın əlləri əsməyə başladı. Məyus səslə oğluna:

– Bəlkə, – dedi, – bəlkə Allah rəhm elədi sağ-salamat ötüşdü.

Oğlu mehriban-mehriban:

– Yox! – dedi. – Mən səni aldada bilmərəm. Salamatlıqla ötüb keçməyəcək!

Pavel gülümsündü:

– Get, yat. Yorulmusan. Gecən xeyrə qalsın!

Ana tək qalandan sonra pəncərənin qabağına gəlib dayandı və küçəyə baxmağa başladı. Bayır soyuq və qaranlıq idi. Külək, balaca, yuxulu evlərin damından qarı sovurub divarlara çırpır, tələsik nə isə pıçıldayır, yerə enərək quru qar dumanını küçə uzunu qovurdu...

Ana yavaşdan:

– Ya İsa peyğəmbər, sən bizə kömək ol! – deyə pıçıldadı.

Ananın qəlbində göz yaşları qaynayıb qalxırdı, oğlunun belə sakit və inamla xəbər verdiyi fəlakət qarşısında ananın ürəyi pərvanə kimi, kor-korana və inilti ilə çırpınır, çabalayırdı. Qarlı düzənlik çöl ananın gözləri önündə durdu. Külək, ac və qıllı bir əjdaha kimi, soyuq və nazik vıyıltı ilə uçur, vurnuxurdu. Bir qızın kiçik və qara heykəli yırğalana-yırğalana çölün ortası ilə tək-tənha gedir. Külək onun ayaqlarına dolaşır, tumanını yellədir, qırma kimi qar üzünə çırpılır. Qız ağır-ağır yeriyir, onun balaca ayaqları qara batır. Qız üşüyür və qorxur. Payız küləyinin təsirilə ikiqat əyilmiş



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

çöl otu kimi qız bütün bədəni ilə irəli əyilmişdir. Onun sağında, bataqlıqda, qaranlıq qalın meşə yüksəlir, burada nazik, çılpaq toz ağacları və ağcaqovaqlar məyus-məyus səslənir. Qabaqda, uzaqlarda şəhərin tutqun işıqları görünür...

Ana qorxudan diksinərək:

– Pərvərdigara, sən özün rəhm elə! – deyə pıçıldadı.

## VII

Günlər təsbeh dənələri kimi bir-birinin dalınca gəlib keçir, həftələr və aylar ötürdü. Hər şənbə günü Pavelin yoldaşları onlara gəlirdi. Hər iclas sanki uzun bir nərdivanın pilləsi kimi yavaş-yavaş insanları yüksəklərə qaldıraraq uzaqlara aparırdı.

Təzə adamlar da gəlirdilər. Vlasovların balaca otağı dolur, havası ağırlaşırdı. Nataşa da soyuqdan əsə-əsə yorğun halda gəlir, lakin həmişə şad və gümrah olurdu. Ana ona corab toxuyub öz əli ilə balaca ayaqlarına geydirdi. Qabaqca Nataşa güldü, sonra birdən kiriyib fikrə getdi və yavaşcadan:

– Mənim bir dayəm vardı, – dedi. – O da çox mehriban idi. Qəribə işdir, Pelageya Nilovna, fəhlə camaat belə çətin və ağır gün keçirir, amma onun ürəyi o birilərinkindən çox geniş, çox mehribandır!

Bu sözləri deyərkən o, əli ilə uzaqlara, çox uzaqlara işarə elədi.

Vlasova:

– Siz belə imişsiniz! – dedi. – Ata-ananızdan əliniz çıxıb, hər şeydən də... – o öz fikrini axıra kimi deyə bilmədi, ah çəkdi və ürəyində Nataşaya qarşı nədənsə bir razılıq hiss edərək, onun üzünə baxa-baxa qaldı. Ana Nataşanın qabağında yerə çökmüşdü, qız isə başını aşağı əyib fikirli-fikirli gülümsünürdü.

Nataşa:

– Ata-anamdan əlim çıxıb? – deyə təkrar elədi. – Bunun eyibi yoxdur! Atam çox kobuddur, qardaşım da. Özü də içəndir. Böyük bacım bədbəxt olub... özündən çox yaşlı bir adama ərə gedib... Dövlətli, axmaq, gözüac bir adama... Anama yazığım gəlir!.. O da sizin kimi sadə bir arvaddır. Boyu balacadır, siçan kimi, cəld tərpəşir, hamıdan da qorxur. Hərdənbir ürəyim onu elə istəyir ki...



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Ana qəmli-qəmli başını bulayaraq:

– Yazıq qızcığaz! – dedi.

Qız, tez başını qaldırıb əllərini bir şeyi itələyən kimi, qabağa atdı:

– Yox, yox! Bəzən mən elə sevinirəm, özümü elə xoşbəxt hiss edirəm!

Onun üzü ağardı, göy gözləri od kimi parıldadı. Əllərini ananın çiyinlərinə qoyub dərin və təsirli bir səslə yavaşdan:

– Gördüyümüz işin nə qədər böyük iş olduğunu bilsəydiniz... – anlasaydınız! – dedi.

Paxıllığa yaxın olan bir hiss Vlasovanın ürəyinə doldu. Yerdən qalxaraq o, qüssəli səslə:

– Mən qocayam, – dedi, – savadsızam, bunları haradan anlaya bilərəm.

...Getdikcə Pavel tez-tez və daha çox danışır, qızğın mübahisə edirdi, o yaman arıqlamışdı. Anaya elə gəlirdi ki, Nataşa ilə danışanda, ya ona baxanda Pavelin ciddi gözləri mülayim bir ifadə ilə parlayır, səsi mehribanlaşır, özü isə sadələşir.

Ana öz-özünə:

"Allah eləsin!" – deyirdi. Sonra da gülümsünürdü.

İclaslardakı mübahisələr həddindən artıq qızğın və gurultulu şəkil alanda, həmişə xoxol ayağa qalxıb zəng dili kimi yırğalana-yırğalana öz uca, gur səsi ilə sadə və mehriban sözlər deyirdi, bundan da hamı sakitləşir və ciddiləşirdi. Vesovşikov həmişə qaş-qabağını töküb, hamını hara isə tələsdirirdi, bütün mübahisələri də başlayan o və kürən oğlan Samoylov olurdu. Başı yumru, sarı tüklü, sanki güllü suda yuyunub rəngi getmiş İvan Bukin də hər dəfə onların tərəfini saxlayardı. Yakov Somov adlı səliqəli və təmiz oğlan az danışırdı, onun səsi yavaş və ciddi idi; o və irialınlı Fedya. Mazin mübahisələrdə həmişə Pavel ilə xoxolun tərəfini saxlayırdılar.

Bəzən Nataşanın yerinə şəhərdən gözlüklü, gödək sarı saqqallı Nikolay İvanoviç gəlirdi; o, uzaq quberniyaların birindən idi və danışanda daim "o" səsini xüsusi bir vurğu ilə deyirdi. Ümumiyyətlə, Nikolay İvanoviç qəribə bir adam idi. O həmişə adi şeylərdən, ailə həyatından, uşaqlardan, ticarətdən, polisdən, çörək və ətin qiymətindən, adamların gündəlik ehtiyaclarından danışırdı. Hər şeydə, hər məsələdə o bir qəlplik, qarışıqlıq, bir axmaqlıq,



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

bəzən gülməli, həmişə də insanlar üçün açıqdan-açığa zərərli olan bir şey tapardı. Anaya elə gəlirdi ki, o çox uzaq bir yerdən, başqa bir məmləkətdən gəlmişdir və həmin məmləkətdə hamı namusla və rahat yaşayır, burada isə hər şey ona yaddır, buranın yaşayışına o, alışa bilmir, buranın həyatını bir zərurət kimi qəbul edə bilmir, bəyənmir və onu öz bildiyi kimi dəyişməyə sakit bir qətiyyətlə can atır. Nikolay İvanoviçin rəngi sarıya çalırdı, gözlərinin ətrafı nazik qırışlarla örtülmüşdü, səsi yavaş, əlləri isə həmişə isti idi. Vlasova ilə salamlaşarkən o, möhkəm barmaqları ilə onun əlini əlinin içinə alırdı və bundan da həmişə ananın könlü açılır və rahatlanırdı.

Şəhərdən başqa adamlar da gəlirdilər, hamıdan tez-tez ucaboylu, iri gözlü, arıq və rəngi qaçmış bir qız gələrdi. Adı Saşenka idi. Yerişi və hərəkətləri kişi hərəkətlərinə bənzəyirdi, qara, qalın qaşlarını hirslə çatırdı, danışanda isə onun düz burnunun nazik pərləri titrəməyə başlayırdı:

– Biz sosyalistik... – sözlərini ucadan və kəskin səslə birinci deyən Saşenka oldu.

Ana bu sözü eşidəndə, qorxusundan nəfəsini çəkib gözlərini qızın üzünə dikdi. O eşitmişdi ki, sosialistlər padşahı öldürüblər. Bunu hələ gənc ikən eşitmişdi; o zaman, deyilənə görə, kəndliləri azad elədiyi üçün padşahdan qisas almaq fikrinə düşən mülkədarlar padşahı öldürməyincə saçlarını qırxdırmamağa and içmişdilər, buna görə də onlara sosialist deyirdilər. İndi ana başa düşə bilmirdi ki, oğlu və onun yoldaşları niyə sosialist olsunlar?

Hamı dağılandan sonra ana Paveldən soruşdu:

– Pavluşa! Məgər sən sosyalistsən?

Həmişəki kimi onun qabağında düz və möhkəm duran Pavel:

– Bəli! – deyə cavab verdi. – Necə ki?

Ana dərindən ah çəkdi və gözlərini aşağı dikib soruşdu:

– Doğrudanmı, Pavluşa? Axı onlar padşahın düşmənidir, axı onlar padşahlardan birini öldürüblər.

Pavel bir az otaqda gəzindi, əli ilə üzünü sığalladı və gülümsünərək dedi:

– Bizim yolumuz başqadır!

Pavel yavaş və ciddi səslə anasına bir xeyli şey danışdı. Ana gözlərini onun üzünə dikib, öz-özünə fikirləşirdi: “Yox, bu heç bir pis iş görməz, əlindən gəlməz!”



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Sonra həmin dəhşətli söz getdikcə daha tez-tez təkrar edilirdi, buna görə kəskinliyini itirdi və ananın qulağı anlaşılmaz başqa bir çox sözlər kimi bu sözə də alışdı. Lakin Saşenka ananın xoşuna gəlmirdi, o gələndə ana vahiməyə düşür, sıxılırdı...

Bir dəfə ana, narazı-narazı dodaqlarını büzərək, xoxola dedi:

– Nədənsə Saşenka çox sərtdir! Elə hey hökm eləyir: filan işi də eləməlisiniz, filan işi də görməlisiniz...

Xoxol qəhqəhə çəkdi:

– Düz tapmısınız, nənə! Lap doğrusu elə budur! Hə, Pavel?

Anaya göz edərək, xoxol istehza ilə:

– Zadəganlardandır! – deyə əlavə elədi.

Pavel ciddi səslə:

– O çox yaxşı adamdır, – dedi.

Xoxol bunu təsdiq edərək:

– Bu doğrudur! – dedi. – Ancaq bunu anlamır ki, o, məcburiyyət qarşısındadır, amma biz istəyirik, istədiyimizi də yerinə yetirə bilərik.

İki yoldaş ana üçün anlaşılmaz bir məsələ ətrafında mübahisəyə başladı.

Ana Saşenkanın hamıdan artıq Pavel ilə sərt rəftar elədiyini və bəzən onun üstünə çığırdığını da sezmişdi. Pavel dinmir və gülə-gülə, qabaqlarda Nataşaya baxdığı mehriban nəzərlə qızın üzünə baxırdı. Bu da ananın xoşuna gəlmirdi.

Bəzən onlar birdən-birə və hamılıqla gülməyə, sevinclə qışqırmağa başlayırdılar və onların bu şiddətli sevinci ananı heyrətə gətirirdi. Adətən belə hallar onların xarici ölkə fəhlələri haqqında qəzetlərdə xəbər oxuduqları axşamlar baş verirdi. Bu zaman hamısının gözləri sevincdən parlamağa başlayırdı; onlar özlərini qəribə uşaq kimi xoşbəxt hiss edir, şad və aydın qəhqəhələrlə gülür və əlləri ilə bir-birinin çiyninə vururdular.

Onlardan biri öz şadlığından sərxoş olmuş kimi:

– Afərin, alman yoldaşlar! – deyə çığırırdı.

O biri axşam:

– Yaşasın İtaliya fəhlələri! – deyə qışqırırdılar.

Bu qışqırıqları uzaqlardakı dostlara, onları tanımayan, onların dilini bilməyən dostlara göndərərkən hiss olunurdu ki, bu adamlar



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

səslərinin gedib yerinə çatacağına, duyduqları şadlığın tanımadıqları o adamlar tərəfindən başa düşüləcəyinə inanırlar.

Hamıya məhəbbət bəsləyən xoxol, gözlərini parıldadaraq deyirdi:

– Onlara kağız yazmaq yerinə düşərdi, hə? Qoy bilsinlər ki, Rusiyada onlara dost adamlar da yaşayır; bu dostlar onlarla bərabər eyni dinə qail olub inanırlar, onlarla eyni məqsədə çatmaq istəyir və onların qələbələrinə sevinirlər!

Xəyala uyaraq, hamısı hörmət bəslədikləri, sevinc və dərdlərinə şərik olduqları fransızlardan, ingilislərdən, isveçlilərdən öz dostları, ən əziz və yaxın adamları kimi uzun-uzadı və gülərüzlə danışırdılar.

Bu darısqal otaqda yer üzündəki bütün fəhlələrin mənəvi qardaşlıq hissi yaranırdı. Bu hiss hamını bir can kimi birləşdirib anaya da təsir edirdi; bu hiss anaya hələ aydın deyildi, amma onun şadlıq və gənclik, coşqunluq və ümid saçan təsiri altında o da qəddini düzəldirdi.

Bir dəfə xoxola müraciətlə:

– Siz necə adamsınız! – dedi. – Hamı sizə yoldaşdır – ermənilər də, yəhudilər də, avstriyalılar da, hamının şadlığına da, dərdinə də şərik olursunuz.

– Hamının mənim nənəciyim, hamının! – dedi. – Biz nə millət tanıyırıq, nə tayfa; bizim tanıdığımız ancaq yoldaşlar və ancaq düşmənlərdir. Bütün fəhlələr bizə yoldaşdır, bütün dövlətlilər, bütün hökumətlər bizə düşməndir. Dünyaya mehriban nəzərlə baxanda biz fəhlələrin nə qədər çox və necə böyük qüvvə olduğunu görəndə, adamın ürəyi şadlıqdan necə çırpınır, könlündə necə böyük bayram olur! Fransız da belədir, alman da, italyan da, hamısı, nənəciyim, həyata bu gözlə baxanda haman hissi duyur, sevinir. Biz hamımız bir ananın övladıyıq, yer üzünün bütün ölkələrindəki fəhlə xalqın qardaşlığına olan sarsılmaz inam bizim anamızdır. Bu inam bizi qızdırır, o, ədalət göyünün parlaq günəşidir, bu göy isə fəhlənin ürəyindədir; bu fəhlə, kim olur-olsun, özünə nə ad qoyur-qoysun, sosyalistdir, ruhən bizim qardaşımızdır – həmişə, indi, gələcəkdə və əbədi!

Bu uşaqsayağı, lakin möhkəm inam onların arasında get-gedə daha da böyüyür, yüksəlir və qüvvətlənirdi. Bu inamı duyan ana



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

doğrudan da dünyada, onun gördüyü göy üzündəki günəş kimi, böyük və parlaq bir şeyin yarandığını biixtiyar hiss edirdi.

Çox vaxt nəğmə oxuyurdular. Sadə, hamıya məlum olan nəğmələri ucadan və sevinclə oxuyurdular; bəzən yeni, nə isə çox səlis, lakin həzin və əcaib ahəngli nəğmələr də oxuyurdular. Bu nəğmələri yavaşdan, kilsə nəğməsi kimi ciddi oxuyurdular. Oxuyanların rəngi ağarır, üzləri yanır və ahəngli sözlərdə böyük qüvvə duyulurdu.

Bu yeni nəğmələrdən biri, anaya hamısından artıq təsir edirdi. Bu nəğmədə kədərli şübhələrin qaranlıq cığırlarında azaraq, tək-tənha çırpınan, həyatdan küsmüş ruhun qüssəli düşüncələri, ehtiyac altında əzilmiş, qorxudan özünü itirmiş, simasız və sönük bir ruhun iniltiləri eşidilmirdi. Bu nəğmədə özü bilmədən geniş meydanlar axtaran qüvvənin iztirablı ahları, pis və yaxşını seçmədən hər şeyi yıxmaq arzusu ilə meydan oxuyan qızğın igidlik qışqırıqları da eşidilmirdi. Hər şeyi yıxmağa qadir və bir şey yaratmaqda aciz olan kor-korana intiqam və acıq səsi də bu nəğmədə yox idi; bu nəğmədə köhnə, köləlik aləminə məxsus bircə ahəng belə eşidilmirdi.

Bu nəğmənin kəskin sözlərini və ciddi havasını ana xoşlamırdı, lakin sözlərin və havanın arxasında olan daha böyük bir şey öz qüvvəsi ilə həm səsi, həm də sözü boğaraq könüldə fikrə sığışmayan yüksək bir hiss oyadırdı. Ana bu yüksək hissi gənclərin üzündə, gözlərində görür, onların ürəyində duyurdu və sözə, səsə sığışmayan nəğmənin qüvvəsinə tabe olaraq, daim onu başqa nəğmələrdən daha böyük diqqət və daha dərin həyəcanla dinləyirdi.

Bu nəğməni başqa nəğmələrə nisbətən daha yavaş səslə oxuyurdularsa da, o bütün nəğmələrdən gur səslənir və mart gününün – gəlməkdə olan baharın ilk gününün – havası kimi insanları bürüyürdü.

Vesovşikov qaşqabağını tökərək:

– Bu nəğməni küçədə oxumaq vaxtı çatıbdır! – deyirdi.

Onun atası yenə bir oğurluq üstündə dustaqxanaya düşəndə Nikolay sakit səslə yoldaşlarına:

– İndi bizdə yığılmaq olar... – deyə təklif elədi. Demək olar ki, hər axşam işdən sonra yoldaşlarından biri Pavelin yanında olurdu; onlar əl-üzlərini yumamış, tələsik kitab oxuyur, kitabdan dəftərçəyə nə isə yazırdılar. Onlar şam edən, çay içən zaman belə, kitabı



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

yerə qoymurdular: onların danışığı ana üçün getdikcə daha anlaşılmaz olurdu.

Pavel tez-tez:

– Bizə qəzet lazımdır! – deyirdi.

Yaşayış getdikcə sürətlənir, qızğınlaşırdı, arılar bir çiçəkdən o biri çiçəyə qonan kimi, adamlar da tez-tez bir kitabdan o biri kitaba keçirdilər.

Bir dəfə Vesovşikov dedi:

– Bizdən danışmağa başlamışlar! Az keçməz ki, bizi qapazlarlar!..

Buna cavab olaraq xoxol:

– Su sənəyi suda sınar! – dedi.

Get-gedə xoxol ananın daha çox xoşuna gəlirdi. Xoxol ona "nənəcan" deyəndə, bu söz yumşaq uşaq əli kimi ananın yanaqlarını sığallayırdı. Bazar günləri Pavelin vaxtı olmayanda odunu xoxol yarırdı; bir gün çiynində bir taxta gətirib baltanı aldı və qapı ağzındakı çürük pilləni bir anda ustalıqla təzələdi; bir gün uçmuş çəpəri də belə bir cəldliklə düzəltdi. İşləyən zaman xoxol fışqırıq çalırdı, fışqırığı da gözəl və həzin olurdu.

Bir dəfə ana oğluna:

– Gəlsənə, xoxolu gətirək evimizə? – demişdi. – İkinizə də yaxşı olar – daha bir-birinizin yanına qaçmazsınız.

Pavel çiyinlərini dartaraq:

– Niyə sizə zəhmət olsun? – deyə soruşmuşdu.

– Bu nə sözdür! Bütün ömrümü nəyin yolunda zəhmət çəkdiyimi bilməmişəm, yaxşı adam üçün zəhmət çəkmək olar!

Oğlu razılıq vermişdi:

– Öz bildiyiniz kimi eləyin. O razı olsa, mən də şad olaram...

Beləliklə, xoxol onların evinə köçdü.

## VIII

Məhəllənin kənarındakı balaca ev camaatı maraqlandırırdı; onlarla şübhəli göz evin divarlarına zillənirdi. Evə dair cürbəcür xətərli danışıqlar başlamışdı; adamlar dərənin qırağındakı evin divarları arxasında gizlənmiş sirri açmağa, üzə çıxarmağa çalışırdılar. Gecələr pəncərədən içəriyə nəzər salırdılar; bəzən biri pəncərəni taqqıldadıb qorxa-qorxa tələsik qaçırdı.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Büzüşmüş qırmızı boğazına həmişə qara ipək şərf bağlayan və bənövşəyi qalın məxmər jilet geyən qoca meyxanaçı Bequntsov bir dəfə Vlasovanı küçədə dayandırdı. Bequntsov iti və işıldayan burnuna tısbağa qınından qayırılmış gözlük taxırdı, buna görə də ona "Sümükgöz" ləqəbi vermişdilər.

O, Vlasovanı dayandırıb birnəfəsə, cavab gözləmədən ananın üzərinə cırıltılı və quru sözlər yağdırdı:

– Pelageya Nilovna, kefiniz, halınız necədir? Oğlunuz nə qayırır? Evləndirmək istəmirsinizmi? Oğlanın evlənmək vaxtıdır. Adam övladını nə qədər tez evləndirsə, o qədər yaxşıdır. Ailə insanın ruhunu da, bədənini də yaxşı saxlar, sirkə köbələyi saxlayan kimi. Mən sizin yerinizə olsaydım, evləndirərdim. Bu əyyamda adama çox diqqətlə göz yetirmək lazımdır; hərə öz ağlı ilə yaşamağa başlayır, hərənin fikri bir tərəfə işləyir, nalayiq hərəkətlər olur. Cavanlar Allahın kilsəsindən uzaqlaşır, camaatdan qaçır, gizlin toplaşıb, orda-burda pıçıldaşırlar. Bir deyin görüm, pıçıldadıqları nədir, hə? Adamlardan niyə qaçırlar, hə? Camaat içində, açıqda, məsələn, meyxanada deyilə bilməyən söz nə ola bilər? Ancaq sirr! Sirrin də yeri müqəddəs kilsəmizdir. Bütün o biri sirlər, küncdə-bucaqda deyilən sirlər, hamısı ağılların çaşdığından əmələ gəlir. Salamat qalın!

Bequntsov istehzalı hərəkətlə şapkasını çıxarıb havada yellədi və ananı heyrətdə buraxıb getdi.

Vlasovların qonşusu, fabrikin qapısında yeməli şeylər satan dul dəmirçi arvadı Mariya Korsunova da bazarda anaya rast gəlib dedi:

– Pelageya! Gözün oğlunda olsun.

Ana:

– Nə var ki? – deyə soruşdu.

Mariya sirli bir tərzdə:

– Söz-sov var! – dedi. – Pis söz-sov, səni ana bilib deyirəm. Deyirlər, guya oğlun bir cür artel düzəldir, xlıstlar kimi. Bu da bir cür məzhəbdir, deyirlər xlıstlar kimi bir-birini çubuqlayacaqlar...

– Boş danışma, Mariya, eyibdir!

Alverçi qadın cavab olaraq:

– Doğru sözün nə eyibi? – dedi:

Ana bu söhbətləri oğluna xəbər verəndə, o bir söz demədən çiyinlərini atır, xoxol isə gur və yumşaq qəhqəhə ilə gülürdü.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Ana:

– Qızlar da sizdən küsürlər! – deyirdi. – Qızlar üçün siz lap istənilən nişanlısınız, özünüz də yaxşı işləyənsiniz, çaxır içən də deyilsiniz, amma qızlara heç etina eləmirsiniz. Deyirlər ki, guya şəhərdən sizin yanınıza həyasız qızlar gəlir...

Bir şeydən iyrənmiş kimi, Pavel üzünü turşudub:

– Bəli, əlbəttə! – deyə qışqırdı.

Xoxol köksünü ötürüb dedi:

– Bataqlıqda hər şeydən çürüntü qoxusu gələr! Ay nənə, barı siz ərə getməyin nə olduğunu bu axmaq qızlara söyləyəydiniz ki, ər üçün can atmasınlar, sümüklərini əzib qırmağa tələsməsinlər...

Ana:

– Eh, ay oğul, – dedi, – onlar bu dərdi görürlər də, bilirlər də, ancaq əlacları yoxdur.

Pavel:

– Anlamırlar, yoxsa əlac tapardılar! – dedi.

Ana onun ciddi üzünə baxıb:

– Barı siz onları başa salaydınız, – dedi. – Fərasətlilərini yanınıza çağıraydınız...

Oğlu könülsüz:

– Bu yaxşı olmaz! – dedi.

Xoxol:

– Gəlsənə, sınayaq – deyə soruşdu.

Bir az susduqdan sonra Pavel cavab verdi:

– Cüt-cüt gəzişmələr başlanar, sonra da bir neçəsi evlənər, bununla da iş bitər.

Ana fikrə getdi. Pavelin rahib kimi sərt olması onu narahat edirdi. Ana yaşca Paveldən böyük olan yoldaşların belə – məsələn xoxolun – Pavelin sözünə qulaq asdığını görürdü, lakin onun zənnincə, hamı Paveldən çəkinir və heç kəs onu bu sərtlik üstündə sevmirdi.

Bir dəfə ana öz otağında uzanmışdı, oğlu ilə xoxol isə hələ kitab oxuyurdular; ana nazik divardan onların yavaşdan apardığı söhbəti eşitdi.

Xoxol birdən yavaş səslə:

– Nataşa mənim çox xoşuma gəlir, bilirsənmi? – dedi.

Pavel bir qədər sükutdan sonra:



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

– Bilirəm! – deyə cavab verdi.

Xoxolun ayağa qalxıb otaqda gəzinməyə başladığı eşidildi. Onun yalın ayaqları döşəmədə şappıldayırdı. Nazik və həzin fışqırıq səsi eşidildi. Sonra yenə xoxolun səsi guruldadı:

– O necə, bunu duyurmu?

Pavel dinmədi.

Xoxol səsini alçaldaraq:

– Sən nə fikirdəsən? – deyə soruşdu.

Pavel dedi:

– Duyur! Ona görə də bizimlə məşğul olmaqdan əl çəkdi...

Xoxol ayaqlarını döşəmədə ağır-ağır sürüyürdü, onun həzin fışqırığı otaqda yenə titrəməkdə idi.

Sonra xoxol soruşdu:

– Bəs mən ona desəm necə?..

– Nəyi?

Xoxol alçaq səslə dedi:

– Ki mən onu...

Pavel onun sözünü kəsdi:

– Nə üçün?

Ana xoxolun dayandığını eşitdi və gülümsədiyini hiss elədi:

– Mənim fikrimcə, bir qızı sevəndə, ona mətləbi açıb demək lazımdır, yoxsa heç bir şey olmaz!

Pavel kitabı örtdü. Onun sualı eşidildi:

– Nə istəyirsən ki olsun?

Hər ikisi susdu. Bir az keçəndən sonra xoxol soruşdu:

– Hə, sonra?

Pavel tələsmədən danışmağa başladı:

– Andrey, hər kəs öz istədiyini aydın bilməlidir. Tutaq ki, o da səni sevir, – mən bunu güman eləmirəm, – lakin belə fərz edək! Tutaq ki, siz evləndiniz. Maraqlı bir evlənmə olardı – ziyalı qız ilə fəhlə! Uşağınız olacaq, işləyən də tək sən olacaqsan, həm də çox işləməli olacaqsan... Siz ancaq bir tikə çörək üçün, öz uşaqlarınız üçün, öz ocağınız üçün yaşamağa başlayacaqsınız, iş üçün isə – siz artıq məhv olacaqsınız. Hər ikiniz!

Səs-səmir kəsildi. Sonra Pavel sanki bir qədər mülayim tərzdə:

– Andrey, yaxşısı budur ki, bu fikirləri başından çıxar, – dedi. Qızı da yolundan eləmə...



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Sükut. Saatın kəfkiri tıqqıltı ilə saniyələri aydıncasına sayırdı. Xoxol:

– Ürəyimin yarısı sevir, – dedi, – o biri yarısı isə nifrət edir, bu da ürəkdir, hə?

Kitabın vərəqləri xışıldadı, görünür Pavel yenə oxumağa başlamışdı. Ana, uzandığı yerdə gözlərini yumub, tərpənməyə qorxurdu. Onun xoxola ürəyi yanırdı, ondan daha çox oğluna yanırdı. Ana oğlunu düşünürdü.

“Gözümün işığı...”

Birdən xoxol soruşdu:

– Bəs necə, susmaq?

Pavel yavaş səslə:

– Bu daha vicdanlı hərəkət olar! – deyə cavab verdi.

Xoxol:

– Bu yol ilə də gedirik! – dedi. Bir neçə saniyə sonra qüssəli və yavaş səslə davam elədi: – Paşa, sən özün belə hala düşsəydin, sənin üçün çox çətin olardı...

– Mənə elə indi də çətindir...

Külək evin divarlarına dəyib səslənirdi. Saatın kəfkiri keçməkdə olan vaxtı səliqə ilə hesablayırdı. Xoxol ağır-ağır:

– Buna gülmək olmaz! – dedi.

Ana üzünü balınca dayayıb, səssiz ağlamağa başladı.

Səhər Andrey ananın gözünə bir qədər boyu alçalmış və daha sevimli göründü. Oğlu isə həmişəki kimi arıq, şax və dinməzdanışmaz idi. Qabaqlarda ana xoxola Andrey Onisimoviç deyirdi, bu gün isə özü də hiss etmədən:

– Andryuşa! – dedi. – Çəkmənizi yamamaq lazımdır, yoxsa ayaqlarınızı soyuğa verərsiniz!

Xoxol:

– Maaşımı alanda təzəsini alacağam! – deyə cavab verib güldü və birdən uzun əlini ananın çiyninə qoyaraq soruşdu:

– Bəlkə mənim doğma anam elə sizsiniz? Ancaq məni çirkin görüb bunu xalqdan gizlədirsiniz, hə?

Ana, bir söz demədən, onun əlini tumarladı. O, xoxola çoxlu xoş söz demək istəyirdi, ancaq ürəyi yandığı üçün, dili danışmaqda aciz idi.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

# IX

Fəhlə məhəlləsində göy mürəkkəblə yazılı vərəqələr yayan sosialistlər ətrafında danışıqlar gedirdi. Bu vərəqələrdə fabrik qaydaları bərk pislənir, Peterburq və Cənubi Rusiya fəhlələrinin tətillərindən xəbər verilir və fəhlələr birliyə, öz mənafeyi uğrunda mübarizəyə çağırılırdı.

Fabrikdə yaxşı qazanan ahıl adamlar deyinirdilər:

– Araqarışdıranlar! Belə işlər üstündə ənglərini əzmək lazımdır!

Bunu deyib vərəqələri kontora aparırdılar. Gənclər isə bu vərəqələri həvəslə oxuyurdular:

– Doğru yazırlar!

Zəhmətdən başı ayılmayan və hər şeyə etinasız baxan əksəriyyət isə tənbəlcəsinə:

– Heç zad olmaz, – deyirdi, – olan iş deyil!

Hər halda vərəqələr insanları həyəcana salırdı; bir həftə vərəqə olmayanda, adamlar öz aralarında deyirdilər:

– Görünür əl çəkiblər, daha yazmırlar...

Bazar ertəsi vərəqələr yenə yayılırdı və fəhlələr yenə səs-səsə verirdilər.

Aşxanada və fabrikdə heç kəsin tanımadığı adamlar hərlənirdi. Bunlar ondan-bundan sorğu-sual edir, hər şeyi diqqətlə süzür, hər yerə soxulurdular; adamların gözünə girirdilər; onların bir parası çox ehtiyatlı, bir parası isə həddindən artıq qarayaxa idilər.

Ana başa düşürdü iş, bu səs-küyə səbəb onun oğludur. Adamların oğlu ətrafında toplaşdığını görən ana oğlunun gələcəyindən qorxmaqla bərabər, onunla iftixar da edirdi.

Bir dəfə axşamçağı Mariya Korsunova küçədən ananın pəncərəsini döydü və ana pəncərəni açanda ucadan pıçıldadı:

– Özünü gözlə, Pelageya, uşaqlar özlərini bəlaya salıblar! Qərara alınıb ki, bu gecə sizin, Mazinin, bir də Vesovşikovun evində axtarış olsun...

Mariyanın qalın dodaqları tez-tez bir-birinə dəyib şappıldayır, ətli burnu fısıldayırdı; qadın gözlərini qırpır, küçədə bir adam axtarırmış kimi o tərəf-bu tərəfə baxırdı. – Ancaq mən nə bir şey



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

bilirəm, nə də sənə bir söz demişəm, bu gün səni heç görməmişəm də, eşitdinmi?

Mariya yox oldu.

Ana pəncərəni bağlayıb, yavaşca kürsüyə əyləşdi. Lakin oğlunu izləyən təhlükə onu tez ayağa qaldırdı. Ana cəld geyindi, nədənsə başını bərk-bərk şalla bürüdü, evdə xəstə yatan və işə getməyən Fedya Mazingilə qaçdı. Ana gələndə, Mazin pəncərənin qabağında oturub kitab oxuyur və baş barmağını aralayıb sol əli ilə sağ əlini yırğalayırdı. Təzə xəbəri eşitcək cəld ayağa qalxdı, üzünün rəngi qaçdı:

– Bu nə olan işdir? – deyə mızıldandı.

Vlasova titrək əli ilə üzünün tərini silə-silə soruşdu:

– İndi nə eləmək lazımdır?

Fedya qüvvətli əli ilə qıvrım saçlarını tumarlayaraq:

– Toxtayın, – dedi, – siz heç qorxmayın!

Ana:

– Axı siz özünüz də qorxursunuz! – deyə səsləndi.

– Mən? – Fedyanın yanaqları qızardı, o, utana-utana gülümsədi. – Pah, sənin!.. Pavelə demək lazımdır. Bu saat dalınca adam göndərərəm! Siz gedin – bir şey olmaz! Yəqin ki, döyməzlər.

Ana evə qayıdıb kitabların hamısını yığışdırdı və döşünə sıxıb, yer axtara-axtara evi dolanmağa başladı, sobaya baxdı, sobanın altını yoxladı, su qabının yanında dayandı. Ona elə gəlirdi ki, Pavel dərhal işini buraxıb evə gələcəkdir; lakin Pavel gəlmək bilmirdi. Nəhayət, ana yorğun halda mətbəxdə kürsüyə oturub kitabları da altına yığdı; Pavel ilə xoxol fabrikdən gələnə kimi o, qorxusundan ayağa qalxmayıb beləcə yerində qaldı.

Onları görən kimi ana yerindən tərpənməyib:

– Xəbəriniz varmı? – deyə qışqırdı.

Pavel gülümsünərək:

– Var! Olmaya qorxursan? – dedi.

– Elə qorxuram, elə qorxuram!..

Xoxol:

– Qorxmağa dəyməz! – dedi. – Qorxudan heç bir şey çıxmaz.

– Heç samovarı da qoymamısan ki! – deyə Pavel qeyd etdi.

Ana ayağa qalxıb, kitabları nişan verdi və müqəssir kimi izah elədi:



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

– Budur, bunları qoruyuram...

Oğlu və xoxol güldülər. Bu ananı ürəkləndirdi. Pavel kitabların içindən bir neçəsini seçib həyətdə gizlətməyə apardı, xoxol isə samovara od sala-sala danışmağa başladı:

– Qorxulu bir şey yoxdur, nənəcan, ancaq onların yerinə mən utanıram ki, vaxtlarını belə boş işlərə sərf edirlər. Yanlarında qılınc, çəkmələrində mahmız yekə-yekə adamlar gəlib hər yeri eşələməyə başlayacaqlar. Çarpayının da altına, sobanın da altına, odun damı varsa, ora da baxacaq, damın çardağına çıxacaqlar. Orada üzlərinə hörümçək toru yapışacaq, ətləri çimçəşəcək. Onların özləri də sıxılır, xəcalət çəkirlər, ona görə də özlərinə başqa rəng verir, acıqlı görsənmək istəyir, üstümüzə hirslənirlər. Murdar peşədir, bunu özləri də anlayırlar! Bir dəfə mənim mənzilimi alt-üst elədilər, bir şey tapmayıb kor-peşman getdilər; ikinci dəfə məni də yanlarına salıb apardılar. Dama saldılar, dörd aya kimi saxladılar.

Damda oturub gözləyirsən, birdən çağırırlar, soldat qabağında küçədən aparır, bir şey soruşurlar. Qanacaqsız adamlardır, heyvərə-heyvərə danışırlar, danışandan sonra yenə soldat qabağında geri göndərirlər. Beləliklə, gah ora aparır, gah geri qaytarırlar, – məvaciblərini doğrultmaq lazımdır, axı! Saxlayıb, saxlayıb axırda azad eləyirlər, vəssalam.

Ana:

– Andryuşa, siz həmişə elə-belə danışırsınız! – deyə səsləndi.

Xoxol, samovarın yanında dizi üstə çöküb, var gücü ilə odluğu püfləyirdi, ananın bu sözlərini eşidəndə gücənməkdən qızarmış üzünü yuxarı qalxızdı və hər iki əli ilə bığlarını düzəldib soruşdu:

– Necə danışıram ki?

– Elə danışırsınız ki, guya ömrünüzdə sizi heç incidən olmayıbdır...

Xoxol ayağa qalxdı və başını silkələyib gülə-gülə dedi:

– Yer üzündə heç incidilməmiş adam tapılarmı? Məni o qədər incidiblər ki, mən daha inciməkdən yorulmuşam. Nə eləyəsən ki, insanlar başqa cür eləyə bilmirlər. Bu incitmələr adamı işdən qoyur, ancaq çox da baş qoşanda, adam nahaq vaxt itirir. Həyat belədir. Qabaqlarda mənim adamlara acığım tutardı, sonra öz-özümə düşünüb gördüm ki, – dəyməz. Hər kəs qonşusunun yumruğundan



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

qorxur, odur ki, onu qabaqlayıb özü qonşusunun qulağının dibinə ilişdirir. Həyat belədir, nənəcan!

Xoxolun nitqi rəvan və sakit axır, axtarış fikri ilə ananın canına çökən qorxunu itələyib uzaqlara aparırdı, onun domba gözləri gülürdü, özü isə, yöndəmsiz olduğuna baxmayaraq, çox qıvraq görünürdü.

Ana ah çəkib, ürəkdən ona xeyir-dua verdi:

– Allah sizi xoşbəxt eləsin, Andryuşa!

Xoxol iri addım atıb, yenə samovarın yanında çömələrək oturdu və yavaş səslə dedi:

– Bəxtdir verərlər alaram, ancaq özüm yalvarmaram!

Pavel, həyətdən qayıdıb arxayınlıqla:

– Tapa bilməzlər! – dedi və əl-üzünü yumağa başladı.

Sonra əllərini bərk-bərk və səliqə ilə silə-silə dedi:

– Anacan, əgər siz qorxduğunuzu büruzə versəniz, onlar şəkkə düşərlər: görünür bu evdə bir şey var ki, arvad belə əsir. Siz özünüz başa düşürsünüz ki, biz pislik istəmirik, haqq bizim tərəfimizdədir, biz də nəfəsimiz gəlincə bu haqqın yolunda çalışacağıq. Bizim təqsirimiz də bucuğazdır! Daha nədən qorxmaq?

– Mən özümü yığışdıraram, Paşa! – deyə ana söz verdi. Sonra nigarançılıqla: – Gələcəklərsə, barı tez gələydilər! – dedi.

Lakin bu gecə gələn olmadı. Səhərisi ana, dünənki qorxusuna gülməsinlər deyə, özü hamıdan qabaq gülməyə və zarafat eləməyə başladı:

– Qorxu gəlməmişdən, mən az qaldım özümdən gedəm!

## X

Axtarış həmin qorxulu gecədən təxminən bir ay sonra oldu. Nikolay Vesovşikov da Pavelgildə idi. Onlar Andreylə üçlükdə oturub öz qəzetlərindən söhbət edirdilər. Gec idi, gecə yarısına az qalmışdı. Ana yatağına girib yuxulamaqda idi və yuxu arasından onların yavaş və qayğılı səsini eşidirdi. Yavaş addımlarla Andrey mətbəxdən keçdi və dalınca qapını ehmalca örtdü. Eyvanda dəmir vedrə taqqıldadı. Birdən qapı taybatay açıldı, xoxol mətbəxə qayıtdı və ucadan pıçıldadı:



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

– Mahmız səsi gəlir!

Ana yerindən sıçradı və titrək əlləri ilə paltarını qapdı. Bu vaxt Pavel otaqdan çıxıb sakit səslə:

– Siz yatın, – dedi, – siz azarlısınız!

Eyvandan yavaş xışıltı gəlirdi. Pavel qapıya yeridi və əli ilə qapını itələyib:

– Kimdir orada? – deyə soruşdu.

Ucaboylu, boz paltarlı bir adam gözlənməyən cəldliklə içəri soxuldu, onun dalınca biri də içəri girdi, iki jandarm Paveli kənara sıxışdırıb onun sağ və solunda durdular. Ucadan, istehzalı səs eşidildi:

– Siz gözlədiyiniz deyillər, hə?

Bunu deyən qara və seyrək bığlı, ucaboy, nazik zabit idi. Məhəllə polisi Fedyakin ananın yatağına yanaşdı, bir əlini furajkasına aparıb, o biri əlini anaya tərəf uzatdı və gözlərini vəhşicəsinə bərəldərək dedi:

– Cənab zabit, bu arvad onun anasıdır. – Sonra əli ilə Paveli nişan verib əlavə elədi: – bu da o özüdür!

Zabit gözlərini qıyıb soruşdu:

– Pavel Vlasovmu? – Pavel dinmədən başını əydi, zabit bığlarını bura-bura: – Evi axtarmalıyam! – dedi. – Qarı, qalx! Orada kim var? – deyə soruşdu və qəti addımlarla qapıya yeridi.

Otaqdan onun səsi gəldi:

– Sizin familiyanız?

Eyvandan iki nəfər şahid, qoca tökməçi Tveryakov və onun kirayənişini təmkinli, qapqara bir kişi olan ocaqçı Rıbin içəri girdi. Rıbin gur və uca səslə ananı salamladı:

– Nilovna, axşamın xeyir!

Ana geyinə-geyinə, özünə ürək-dirək vermək üçün yavaşdan şikayətlənirdi:

– Belə də iş olar? Gecənin bu vaxtı gəlib narahat edirlər, xalq yatıb, bunlar da gəlirlər!..

Otaq darısqal idi və nədənsə bərk çəkmə yağı çoxusu gəlirdi. İki jandarm və məhəllə pristavı Rıskin ayaqlarını möhkəm tappıldada-tappıldada kitabları taxçalardan götürüb zabitin qabağına, mizin üstünə yığırdılar. İki nəfər başqası yumruqları ilə divarları taqqıldadır, kürsülərin altını axtarırdı, biri ağır-ağır sobaya dırmaşırdı. Xoxol ilə Vesovşikov bir-birinə qısılıb kənara çəkilmişdilər.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Nikolayın çopur üzü qırmızı ləkələrlə örtülmüşdü, balaca, bozumtul gözləri zabitə dikilmişdi. Xoxol bığlarını bururdu; ana otağa girəndə o gülümsünüb başı ilə mehribancasına ona işarə elədi.

Qorxusunu boğmaq üçün ana, həmişəki kimi yan-yanı deyil, düz, sinəsini qabağa verib yeriyirdi; bu yeriş ona gülünc və son dərəcə məğrur bir görkəm verirdi. Ana ayaqlarını bərk tappıldadırdı, onun qaşları isə titrəyirdi...

Zabit ağ, nazik barmaqları ilə kitabları bir-bir vərəqləyir, silkələyir və cəld hərəkətlə kənara atırdı. Kitablardan bəziləri yumşaq şappıltı ilə yerə dəyirdi. Heç kəs dinmirdi, qan-tərə batmış jandarmların ağır fısıltısı və mahmızların zınqıltısı eşidilirdi; bəzən birisi astadan soruşurdu:

– Buraya baxdınmı?

Ana Pavelin yanında divara söykəndi və onun kimi, əllərini qoynuna qoyub, zabitə tamaşa eləməyə başladı. Onun dizləri əsir, gözləri dumanlanırdı.

Birdən bu sükut içərisində Nikolayın qulaq darmalayan səsi eşidildi:

– Daha kitabları yerə tullamaq nə üçün?

Ana diksindi. Tveryakov birdən, peysərinə yumruq ilişdirilmiş adam kimi, başını yırğaladı, Rıbin isə öskürüb diqqətlə Nikolaya baxdı.

Zabit gözlərini qıydı və bir anlığa nəzərini Nikolayın hərəkətsiz, çopur üzünə sancdı. Onun barmaqları kitabın vərəqlərini daha da sürətlə çevirməyə başladı. Arabir o biri, bozumtul gözlərini elə geniş açırdı ki, guya onu sancı doğrayır, o da sancının şiddətindən başqa şeyə gücü çatmadığı üçün acıqlı-acıqlı bağırmağa hazırlaşır.

Vesovşikov yenə:

– Soldat! – dedi. – Kitabları yerdən qaldır...

Jandarmlar birdən üzlərini ona tərəf çevirib sonra zabitə baxdılar. Zabit bir də başını qaldırdı və Nikolayın iri gövdəsini yoxlayıcı nəzərlə süzüb burnunda mızıldadı:

– Hə... qaldırın...

Jandarmlardan biri yerə əyildi və Vesovşikova kəc baxa-baxa, yerə düşmüş kitabları yığışdırmağa başladı... Ana yavaşdan Pavelin qulağına pıçıldadı:

– Nikolay dinməsə yaxşı idi!..



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Pavel çiyinlərini atdı. Xoxol başını aşağı saldı.

– Bu tövratı oxuyan kimdir?

Pavel:

– Mənəm! – dedi.

– Bəs bu kitablar kimindir?

Pavel:

– Mənimdir! – deyə cavab verdi.

Zabit dalını kürsünün arxasına dayayıb:

– Belə! – dedi. Sonra nazik əllərinin barmaqlarını şıqqıldadıb ayaqlarını mizin altına uzatdı və bığlarını tumarlayıb Nikolaydan soruşdu:

– Andrey Naxodka sənsənmi?

Nikolay:

– Mənəm! – deyib bir addım irəli getdi. Xoxol əlini uzadıb onun çiynindən yapışdı və geri çəkib dedi:

– O yanıldı! Andrey mənəm!..

Zabit əlini qaldırıb balaca barmağı ilə Vesovşikovu hədələyərək:

– Gözünü aç, gözümün içinə yaxşı bax! – dedi.

Zabit kağızlarını araşdırmağa başladı.

İşıqlı, aylı gecə cansız gözləri ilə küçədən içəri baxırdı. Kim isə çöldə, pəncərənin qabağında yavaş-yavaş gəzinirdi, onun ayaqları altında qar xışıldayırdı.

Zabit soruşdu:

– Naxodka! Sən siyasi işlər üstündə əvvəllər istintaqa cəlb edilmisənmi?

– Rostovda cəlb edilmişəm, bir də Saratovda... Ancaq orada jandarmlar mənə "siz" deyərdilər...

Zabit sağ gözünü qıyıb barmağı ilə ovuşdurdu və narın ağ dişlərini qıcıdıb dedi:

– Naxodka, fabrikdə cinayətkar intibahnamələr yayan alçaqları siz, məhz siz özünüz tanıyırsınızmı, hə?

Xoxol yerində yırğalandı və gülümsünərək bir şey demək istədi, lakin yenə Nikolayın adamı hövsələdən çıxardan səsi eşidildi:

– Alçaqları gördüyümüz birinci dəfədir...

Sükut çökdü, bir anlığa hamı yerindəcə donub qaldı.



Created with nitro PDF professional
download the free trial online at nitropdf.com/professional

Ananın üzündəki çapıq ağardı, sağ qaşı lap yuxarı qalxdı. Rıbinin qara saqqalı qəribə bir tərzdə titrədi; o, başını aşağı salıb barmaqları ilə saqqalını ağır-ağır daramağa başladı.

Zabit:

– Bu heyvanı eşiyə çıxarın! – dedi.

İki jandarm Nikolayı qolundan tutub, kobudcasına mətbəxə çıxartdı. Orada Nikolay, ayaqlarını bərk-bərk yerə dirəyib dayandı və:

– Dayanın... geyinim! – deyə çığırdı.

Həyətdən pristav gəlib:

– Hər yeri axtardıq, bir şey tapılmadı, – dedi.

Zabit istehza ilə gülüb:

– Nə söz ola bilər! – dedi. – Burada təcrübəli adam var...

Ana onun zəif, titrək və tez-tez kəsilən səsinə qulaq asır, sarı üzünə qorxu ilə baxır və onun ağa ədası ilə insanlara xor baxan mərhəmətsiz bir düşmən olduğunu duyurdu. Bu cür adamları ana çox az görmüşdü və onların olduğunu az qala unutmağa başlamışdı. Öz-özünə düşünərək:

“Gör kimi narahat ediblər!” – deyirdi.

– Cənab Andrey Onisimov Naxodka, atası naməlum, mən sizi həbs edirəm!

Xoxol sakitcə soruşdu:

– Nə üstə?

Zabit zəhərli bir ehtiramla cavab verdi:

– Bunu mən sizə sonra deyərəm! – Sonra o, üzünü Vlasovaya tutub soruşdu:

– Sən savadlısanmı?

– Yox! – deyə Pavel cavab verdi.

Zabit acıqlı-acıqlı:

– Səndən soruşmurlar! – dedi və yenə soruşdu: – Qarı, cavab versənə!..

Ana, zabitə qarşı biixtiyar hədsiz kin duyaraq, birdən soyuq suya sıçramış kimi, titrəyə-titrəyə qəddini düzəltdi, üzündəki çapıq pul kimi qızardı, qaşı lap aşağı endi. O, əlini qabağa uzadıb:

– Siz çığırmayın! – dedi. – Siz hələ cavansınız, dərd görməmisiniz...

Pavel onu dayandırmaq istəyərək:

– Ana, sakit olun! – dedi.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Ana masaya tərəf dartındı və:

– Dayan, Pavel! – deyə qışqırdı. – Xalqı niyə tutursunuz?

Zabit ayağa qalxıb:

– Bunun sizə dəxli yoxdur, səsini kəs! – deyə çığırdı. – Dustaq Vesovşikovu içəri gətirin!

Bunu dedikdən sonra zabit əlindəki bir kağızı üzünə yaxın tutub oxumağa başladı. Nikolayı içəri gətirdilər. Zabit oxumağını kəsərək:

– Şapkanı çıxart! – deyə bağırdı.

Rıbin Vlasovaya yaxınlaşıb çiyini ilə onu itələdi və yavaşdan:

– Qızışma, ana! – dedi.

Zabit protokolu oxuyurdu. Nikolay elə qışqırdı ki, onun səsi batdı.

– Şapkanı necə çıxarım ki, əlimin ikisi də bağlıdır? – deyə soruşdu.

Zabit kağızı masanın üstünə atdı:

– Qol çəkin!

Ana protokolun imza edilməsinə tamaşa edirdi, onun həyəcanı sönmüş, ürəyi soyumuş, inciklikdən və acizlikdən gözləri dolmuşdu. O, ərdə olduğu iyirmi il ərzində bu göz yaşlarını tökmüş, lakin son illərdə onların acı dadını unutmağa başlamışdı; zabit ona baxdı və iyrənirmiş kimi üzünü turşudub dedi:

– Vaxtından əvvəl ağlayırsınız, xanım! Hələ harasıdır, sonra göz yaşınız çatmaz!..

Ana yenidən hiddətlənərək dedi:

– Ananın göz yaşı tükənməzdir, hər şeyə çatar. Ananız varsa, o bunu yaxşı bilər, bəli!

Zabit tələsə-tələsə kağızlarını parlaq qıfıllı təzəcə portfelə doldururdu. Sonra:

– Marş! – deyə komanda verdi.

Pavel yoldaşlarının əlini sıxa-sıxa mehriban və yavaş səslə:

– Hələlik, Andrey, hələlik, Nikolay! – deyirdi.

Zabit istehza ilə gülə-gülə təkrar etdi:

– Doğrudan da hələlik!

Vesovşikov ağır nəfəs alır, fısıldayırdı. Onun yoğun boynu qızarmışdı, gözlərindən qəzəb yağırdı. Xoxol gülümsəyir, baş əyir və anaya nə isə deyirdi; ana da ona xaç çəkərək:

– Allah haqqı yaxşı görür! – deyirdi.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Nəhayət, boz şinelli adamlar eyvana çıxdı və mahmızlarını zınqıldada-zınqıldada yox oldular. Hamıdan sonra Rıbin çıxdı, o, diqqətli və qara gözləri ilə Paveli süzüb fikirli bir halda:

– Di, salamat qalın! – dedi.

O, əlini ağzına tutub öskürə-öskürə, yavaş addımlarla eyvana çıxdı.

Javel əllərini dalına qoyub yerə tökülmüş kitab və paltarların üstündən adlaya-adlaya, yavaşca gəzini və dilxor bir halda deyirdi:

– Gördünmü, necə olur?

Ana alt-üst edilmiş otağı təəccüblə süzərək kədərli səslə dedi:

– Axı nə üçün Nikolay elə kobud danışırdı?

Javel asta cavab verdi:

– Yəqin, qorxduğundan!

Ana əllərini açıb öz-özünə danışırdı:

– Gəldilər, tutdular, apardılar.

Oğlu evdə qalmışdı, ananın ürəyi bayaqkından sakit döyünürdü, fikri isə bu hadisə qarşısında hərəkətsiz dayanıb onu qavraya bilmirdi.

Bu sarı gədə istehza ilə gülür, hədələyir...

Birdən Javel qəti səslə:

– Yaxşı, ana! – dedi. – Gəl, bunları yığışdıraq.

Javel ona "ana" və "sən" dedi; o, anasına yalnız daha yaxın olan vaxtlar belə deyərdi. Ana oğluna yaxınlaşdı, onun üzünə baxdı və yavaşdan soruşdu:

– Sənin ürəyinə dəydilər, hə?

Javel:

– Hə! – deyə cavab Verdi. – Bu mənə çox ağır gəlir! Onlarla aparsaydılar, daha yaxşı olardı...

Anaya oğlunun gözləri aşarmış kimi göründü; oğlunun ürəyini əzən ağrını dumanlı bir şəkildə duyan ana ona təsəlli vermək arzusu ilə ah çəkib dedi:

– Bir az dayan, səni də apararlar!

Oğlu cavab olaraq:

– Apararlar! – dedi.

Bir qədər sükutdan sonra ana qüssəli-qüssəli:

– Eh, Paşa, yaman daşürəklisən! – dedi. – Heç olmasa, bir dəfə mənə təsəlli verəydin! Mən qorxulu bir şey deyəndə, sən daha qorxulusunu deyirsən!



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Javel anasına baxdı və ona yaxınlaşıb yavaşdan dedi:

– Mən bacarmıram, ana! Sən buna alışmalısan.

Ana ah çəkdi və bir az sükutdan sonra, qorxudan titrədiyini güclə gizlədərək dedi:

– Paşa, olmaya onlar adamlara əzab verirlər! Adamın ətini didir, sümüklərini qırırlar? Paşa, bala, bunu fikrimə gətirəndə az qalır bağrım çatlasın!..

– Onlar adamın ruhunu qırırlar... Ruha murdar əl toxunanda, bunun ağrısı daha şiddətli olur...

## XI

Sabahı gün Bukinin, Samoylovun, Somovun və başqa beş nəfərin tutulduğu məlum oldu. Axşamüstü Fedya Mazin gəldi; onun da evində axtarış olmuşdu, bu səbəbdən o, özünü qəhrəman hiss edir və sevinirdi.

Ana:

– Qorxmadın ki, Fedya? – deyə soruşdu.

Mazinin rəngi qaçdı, üzü uzandı, burnunun pərləri titrədi:

– Zabitin döyəcəyindən qorxurdum! Qarasaqqal, barmaqları tüklü, yoğun bir adam idi, gözlərində qara gözlük vardı, kora oxşayırdı. Çığırır, ayaqlarını yerə vururdu! Dustaqxanada çürüdərəm, deyirdi. Məni indiyə kimi heç kəs döyməmişdir, nə atam, nə anam. Mən onların bircə oğlu idim, odur ki, məni çox istərdilər.

Mazin bir anlığa gözlərini yumdu, dodaqlarını büzdü, iki əlini cəld başına atıb saçlarını qarışdırdı, qızarmış gözlərini Pavelə çevirib dedi:

– Birisi məni vursa, mən bıçaq kimi onun bədəninə sancılaram, dişimlə ətini didərəm, – qoy elə birdəfəlik öldürsünlər.

Ana ona baxıb:

– Nazik, arıq oğlansan! – dedi. – Savaşmaq sənin əlindən gəlməz.

Fedya:

– Gələr! – deyə yavaşdan cavab verdi.

O gedəndən sonra ana Pavelə dedi:

– Bu hamıdan tez sınacaq!..

Pavel dinmədi.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Bir neçə dəqiqədən sonra mətbəxin qapısı yavaşca açıldı, Rıbin gəldi. Gülə-gülə:

– Salam! – dedi. – Yenə gəldim! Dünən gətirmişdilər, bu gün özüm gəldim. – O, bərk-bərk Pavelin əlini sıxdı və ananın çiynindən yapışıb soruşdu:

– Çaya qonaq elərsənmi?

Pavel dinmədən onun qarabuğdayı, enli üzünə, qara qalın saqqalına və qara gözlərinə tamaşa edirdi. Onun sakit nəzərində mənalı bir şey duyulurdu.

Ana samovar qoymaq üçün mətbəxə getdi. Rıbin oturub saqqalını tumarladı və dirsəklərini masanın üstünə qoyub fikirli halda Pavelin üzünə baxdı. O, yarımçıq kəsilmiş söhbəti davam etdirirmiş kimi:

– Deməк, belə! – dedi. – Mən səninlə açıq danışmaq istəyirəm. Çoxdandır sənə uzaqdan göz qoyuram. Səninlə biz yanaşı yaşayırıq; görürəm, yanına çox adam gəlir, amma sərxoşluq, qalmaqal olmur. Bu bir. Şuluq eləməyən, sakit yaşayan adam tez gözə dəyir; deyirlər, görəsən, bu nə olan şeydir? Bəli. Mən özüm də sakit yaşadığım üçün hamının gözünə tikan kimi batıram.

O, ağır-ağır, lakin sərbəst danışırdı; qara əli ilə saqqalını tumarlayaraq, diqqətlə Pavelin üzünə baxırdı:

– Səndən söhbət açıldı. Mən olan evin yiyələri sənə dinsiz deyirlər; çünki kilsəyə getmirsən. Mən də getmirəm. Sonra bu vərəqələr çıxdı. Bunları çıxardan sənmisən?

Pavel:

– Mənəm! – deyə cavab verdi.

Ana mətbəxdən içəri baxıb qorxu ilə:

– Necə sən! – dedi. – Tək sən ki, deyilsən!

Pavel gülümsündü. Rıbin də gülümsündü:

– Bəli! – dedi.

Ana ucadan burnunu çəkdi və sözlərinə etina edilmədiyindən bir az küsən kimi, geri çəkildi:

– Bu vərəqələr lap yerində çıxır. Xalqı oyadır. On doqquzu çıxıbdır, eləmi?

Pavel:

– Bəli! – deyə cavab verdi.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

– Deməsk, mən hamısını oxumuşam. Belə. Bu vərəqələ
aydın olmayan yerlər var, artıq şeylər də var, eyibi yoxdur, a
çox danışanda bir neçə artıq söz də deməli olur...

Rıbin gülümsündü, dişləri ağ və möhkəm idi.

– Sonra – bu axtarış. Bu məni sizə daha da yaxınlaşdırdı.
də, xoxol da, Nikolay da, – hamınız özünüzü tanıtdırdınız...

Lazım olan sözü tapa bilməyib Rıbin susdu, pəncərəyə ba
barmaqları ilə masanı taqqıldatdı:

– Öz fikrinizi bildirdiniz. Yəni, cənab zabit, sən öz işini
məkdə ol, biz də öz işimizi, xoxol da yaxşı oğlandır. Bəzən o,
rikdə danışanda, onun sözünə qulaq asıb, öz-özümə deyirəm:
bunu sındırmaq olmaz, bunu bircə ölüm susdura bilər. Möh
adamdır! Sən mənə inanırsanmı, Pavel?

Pavel başı ilə işarə edib:

– İnanıram! – dedi.

– Belə. Bax, mən qırx yaşındayam, ikiqat səndən yaşlı
iyirmiqat da səndən artıq görmüşəm. Üç ildən çox soldatlıqda
muşam, iki dəfə evlənmişəm, arvadımın biri ölüb, o birini boşa
şam. Qafqazı görmüşəm, duxoborları tanıyıram. Yox, qardaş, o
həyatı boğa bilməzlər, yox.

Ana onun nitqinə diqqətlə qulaq asırdı; yaşlı bir adamın o
oğlunun yanına gəlməyi və öz ürəyini açıb ona deməyi ananı se
dirirdi. Ancaq Pavelin qonaqla rəftarı anaya bir qədər soyuq g
nürdü, odur ki, bu rəftarı bir az yumşaltmaq üçün ana Rıbin
soruşdu:

– Mixaylo İvanoviç! Bəlkə yeməyə meylin var?

– Sağ ol, ana. Mən şam eləmişəm. Demək, Pavel, s
fikrincə, dünya düz dolanmır, hə?

Pavel ayağa qalxdı və əllərini arxasına qoyub otaqda gə
məyə başladı:

– Yox, dünya düz dolanır. Bax, bu dolanma sizi açıq qəlb
mənim yanıma gətirib. Bizləri, yəni bütün ömrünü işdə çürüdə
yavaş-yavaş birləşdirən odur; bir vaxt olar ki, hamını birləşd
Dünya bizim üçün çox ədalətsiz, çox ağır qurulubdur, ancaq bu
bizim gözümüzü açır, öz acılığını bizə göstərir, çalışmaq – dün
təzələmək üçün çalışmaq yolunu açıb göstərir.

Rıbin onun sözünü kəsərək:



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

– Doğrudur! – dedi. – İnsanı təzələmək lazımdır. Bədəni qoturlayıbsa, hamama apar, çimdir, təmiz paltar geydir, onda sağalar. Belədirmi? Bəs insanı içəridən necə təmizləyəsən? Məsələ bundadır!

Pavel qızğın və qəti bir ifadə ilə rəislərdən, fabrikdən, xarici ölkələrdə fəhlələrin öz hüququnu necə müdafiə etdiyindən danışmağa başladı. Bəzən Rıbin, nöqtə qoyurmuş kimi, barmağını masaya vururdu. Dəfələrlə:

– Belədir! – deyə təsdiq edirdi.

Bir dəfə də gülüb yavaş səslə:

– Eh, cavansan! – dedi. – İnsanları yaxşı tanımırsan!

Onda Pavel onun qabağında dayanıb ciddi dedi:

– Gəl cavanlıqdan, qocalıqdan danışmayaq. Yaxşısı budur araşdıraq, görək kimin fikri doğrudur.

– Demək, sənin fikrincə Allah məsələsində də bizi aldadıblar? Belə! Mənim də anladığıma görə, bizim dinimiz – qəlp dindir.

Burada ana söhbətə qarışdı. Oğlu Allahdan və ananın nəzərində Allaha inanmaqla əlaqədar olan, əziz və müqəddəs saydığı şeylərdən söhbət açanda ana həmişə onun gözlərinə baxmağa çalışırdı; öz baxışı ilə də oğlundan inamsızlıq yayan kəskin və acı sözlərlə onun qəlbini cızmamasını xahiş etmək istəyirdi. Lakin oğlunun inamsızlığında da ana bir inam hiss edirdi, bu, onu sakitləşdirirdi.

"Onun fikrini mən haradan anlaya bilərəm?" – deyə düşünürdü.

Onun zənnincə, yaşa dolmuş və ciddi Rıbin də Pavelin nitqini narazılıq və inciklıklə dinləməli idi. Rıbin sakit bir səslə Pavelə sual verdikdə isə, ana dözə bilməyib qısaca, lakin təkidlə dedi:

– Allah barədə – ehtiyatlı olun! Siz nə deyirsiniz deyin! – Ana nəfəsini alıb daha böyük qüvvə ilə davam elədi: – Ancaq bu qoca vaxtımda mənim Allahımı əlimdən alsanız, mən öz dərdimi kimə deyim, kimin ətəyindən yapışım!

Pavel yavaş və mehriban səslə:

– Siz bizim fikrimizi başa düşmədiniz, anacan! – dedi.

Rıbin də yavaş və gur səslə əlavə elədi:

– Bizi bağışla, ana! – və gülə-gülə Pavelə baxdı. – Mən unutdum ki, ziyillərini kəsmək üçün sənin yaşın ötübdür...

Pavel üzünü anaya tutub sözünə davam elədi:

– Mən dediyim Allah, sən inandığın adil və mərhəmətli Allah deyil, mən dediyim Allah o Allahdır ki, onun adı ilə keşişlər bizi qorxutmağa, bütün xalqı bir neçə zalıma tabe eləməyə çalışırlar...



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Rıbin barmaqlarını masaya vurub:

– Bax, doğrusu budur! – deyə səsləndi. – Onlar bizim Allahımızı da dəyişiblər; əllərində nə varsa, hamısını bizə qarşı işlədirlər. Heç yadından çıxarma ki, Allah insanı yaradanda özü kimi yaradıbdır, ana, indi ki, insan Allaha oxşayır, Allah da gərək insana oxşasın. Biz isə, Allaha deyil, vəhşi heyvanlara oxşayırıq. Kilsədə bizə göstərilən Allah deyil, xortdandır... Allahı dəyişmək, təzələmək lazımdır, ana! Bizim ruhumuzu öldürmək üçün Allaha böhtan və iftira donu geyindiriblər, onun surətini eybəcər hala salıblar...

Rıbin yavaş danışırdı, lakin onun hər sözü, ananın başına ağır zərbə kimi dəyirdi. Onun qara saqqal ilə çərçivələnmiş iri və matəmli üzü də ananı qorxudurdu. Gözlərinin qara parıltısı ananın ürəyinə sancılıb, onu sızıltılı qorxu ilə doldururdu.

Ana başını bulayaraq:

– Yox! – dedi. – Mən getsəm yaxşıdır. Bu sözlərə qulaq asa bilmirəm!

Ana tez mətbəxə keçdi. Rıbin onun arxasınca:

– Görürsənmi, Pavel! – dedi. – Hər şeyin əvvəli başda deyil, ürəkdədir. İnsanın canında bu elə bir yerdir ki, orada heç bir başqa şey bitməz...

Pavel qəti səslə:

– İnsanı azad edə bilən – yalnız ağlıdır! – dedi.

Rıbin ucadan və inadla:

– Ağıl insana qüvvət vermir. İnsana qüvvət verən baş deyil, ürəkdir, bəli! – deyə etiraz etdi.

Ana soyundu və dua etmədən yerinə uzandı. O üşüyür, darıxırdı. Əvvəlcə ona belə təmkinli və ağıllı görünən Rıbin də indi onda düşmənçilik hissi oyadırdı.

Ana onun səsinə qulaq asdıqca öz-özünə düşünürdü:

– Dinsiz! Fitnəkar! Atıla-atıla gəlib araya soxulur!

Otaqda isə Rıbin sakit və qəti səslə deyirdi:

– Müqəddəs yer boş qalmamalıdır. Allah yaşayan yer çox ağrıyan yerdir. Əgər Allah ürəkdən çıxsa, yerində yara əmələ gələr, bəli! Pavel, təzə bir din çıxarmaq lazımdır... İnsanlara dost olan bir Allah yaratmaq lazımdır!

Pavel:

– Yaxşı, İsa ki, vardı! – deyə səsləndi.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

– İsa möhkəm, qəti deyildi. Xudaya, deyirdi, sən məni bu bəladan saxla. Roma qeysərinə beyət edirdi. Allah insanın insana hakim olduğunu qəbul edə bilməz, bütün hakimiyyət Allahdadır. Allah öz ruhunu ikiyə bölə bilməz: bu Allaha, bu da insana... İsa isə ticarəti qəbul edirdi, izdivacı qəbul edirdi. Əncir ağacını da nahaqdan lənətləndirib, barsızlıqda onun nə günahı var idi? İnsanın ruhu da, xeyir işə yararsız olanda, öz ixtiyarı ilə olmur, mən özüm ruhuma kin toxumu qatmamışam ki? Bax, məsələ bundadır! Otaqda sanki qızışaraq bir-birilə qucaqlaşıb güləşən iki səs aramsız eşidilirdi. Pavel gəzinirdi, onun ayağı altında döşəmənin taxtaları cırıldayırdı. O danışanda bütün başqa səslər onun nitqində boğulub batırdı, Rıbinin sakit və yavaş səsi gələndə isə saatın tıqqıltısı və iti dırnaqları ilə evin divarlarını cırmaqlayan şaxtanın quru çatırtısı eşidilirdi.

– Bax, mənim fikrim budur, mən bir ocaqçı kimi deyirəm. – Allah od kimidir. Bəli! Yaşadığı yer də ürəkdir. Deyirlər – Allah sözdür, söz isə ruhdur...

Pavel inad ilə:

– Ağıldır! – dedi.

– Bəli! Deməli, Allah ürəkdə və ağıldadır, kilsədə deyil. Kilsə Allahın qəbridir...

Ananı yuxu tutdu, o, Rıbinin nə vaxt getdiyindən xəbər tutmadı.

Bundan sonra Rıbin tez-tez gəlir, Pavelin yanında yoldaşlarından biri olanda, kənarda oturub susur, ancaq hərdənbir:

– Aha! Belə! – deyirdi.

Bir dəfə isə, oturduğu bucaqdan qara gözləri ilə hamıya baxıb, acıqlı-acıqlı dedi:

– Hazırda olan şeylərdən danışmaq lazımdır, gələcək bizə məlum deyil, bəli! Xalq azad olanda, yaxşını özü seçər. Xalq istəmədiyi şeylərdən onun beyninə çox soxublar, bəsdir! Qoy özü istədiyini seçsin. Bəlkə özü hər şeyi rədd edəcək, bütün varlığı, bütün elmləri; bəlkə o görəcək ki, hər şey, məsələn, kilsə Allahı ona düşmən kəsilibdir. Siz ancaq bütün haqq-hesabı onun öz əlinə verin, cavabı o özü verər, bəli!

Pavel tək olanda isə, onlar qurtarmaq bilməyən, lakin sakit mübahisəyə girişərdilər; onların nitqinə qulaq asan ana, bütün diqqətini toplayıb, nə danışdıqlarını anlamağa çalışırdı. Bəzən ona belə görünürdü ki, guya kürəyi enli, qara saqqallı yekə kişi də, uca



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

boylu və bədəncə möhkəm Pavel də kor olubdur. Yol axtara-axtara onlar hər tərəfə dürtülür, qüvvətli, lakin görməz əlləri ilə hər şeydən yapışır, silkələyir, buradan götürüb oraya qoyur, yerə salır və yerə düşən şeyləri tapdalayırlar. Hər şeyi əlləşdirir. Hər şeyə toxunur, inam və ümidlərini itirmədən, özlərindən kənara atırlar...

Onlar ananı doğru və cəsarətli, dəhşətli sözləri eşitməyə alışdırmışdılar, indi bu sözlər ona birinci dəfəki qüvvə ilə toxunmurdu; ana bu sözləri dəf etməyi öyrənmişdi. Bəzən Allahı inkar edən sözlərin arxasında ana Allaha möhkəm bir inam olduğunu hiss edirdi. Belə ittifaqlarda ana sakit və hər bir qüsuru bağışlayan təbəssümlə gülümsünürdü. Rıbin onun xoşuna gəlməsə də, onda artıq ədavət hissi oyatmırdı.

Həftədə bir dəfə ana xoxol üçün həbsxanaya tuman-köynək və kitab aparırdı; bir dəfə anaya onunla görüşməyə izin verdilər; görüşdən sonra evə qayıdanda ana dərin məhəbbətlə nağıl edirdi:

– O, damda da evdəki kimidir. Hamı ilə mehriban rəftar edir, hamı da onunla zarafatlaşır. Günü çətin keçir, ağır keçir, ancaq büruzə vermək istəmir...

Buna cavab olaraq Rıbin:

– Belə də lazımdır! – dedi. – Biz hamımız dərd içindəyik, dərdlə nəfəs alırıq, təpədən dırnağa dərdə batmışıq. Burada lovğalanmalı bir şey yoxdur. Hamının gözü bağlı deyil, çoxusu özü gözünü yumur, – belə! Axmaqsan onda!..

## XII

Vlasovların balaca, boz evi get-gedə məhəllənin diqqətini daha artıq cəlb edirdi. Bu diqqətdə şübhəli ehtiyat və şüursuz düşmənçilik çox idi; lakin etibarlı bir maraq da yaranırdı. Bəzən bir adam gəlib, ehtiyatla ətrafa baxa-baxa, Pavelə deyirdi:

– Qardaş, sən burada kitab-zad oxuyursan, qanundan da xəbərdarsan... Bir məni başa sal görüm...

Sonra polisin, ya da fabrik müdiriyyətinin bir ədalətsizliyindən nağıl edirdi. İş dolaşıq və çətin olanda, Pavel bir balaca kağız verib şəhərə, tanış bir vəkilin yanına göndərirdi, özü cavab verə biləndə isə buradaca məsələni başa salırdı.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Yavaş-yavaş xalqın ürəyində hər şeydən sadəcə və cəsarətlə danışan, hər şeyə diqqətlə baxan, hamını diqqətlə dinləyən bu gənc və ciddi oğlana qarşı ehtiram yaranırdı; Pavel hər kəsin dərdi ilə yaxından tanış olur və hər dəfə, hər yerdə möhkəm düyün ilə insanları bir-birinə bağlayan ümumi, intəhasız bir tel tapırdı.

Pavelə qarşı ehtiram "bataqlıq qəpiyi" hadisəsindən sonra daha çox artmışdı.

Fabriki dal tərəfdən, küknar və toz ağacı bitən geniş, üfunətli bir bataqlıq əhatə edirdi. Yayda bu bataqlıqdan məhəlləyə sarı və zəhərli duman yayılırdı, hədsiz-hesabsız ağcaqanad uçub məhəllədə qızdırma azarını artırardı. Bu bataqlıq yer fabrikin idi; təzə direktor bataqlıqdan istifadə etmək məqsədilə onu qurutmaq və yeri gəlmişkən torf çıxarmaq fikrinə düşmüşdü. Bu tədbirin məhəllə havasını sağlamlaşdırıb hamı üçün yaşayış şəraitini yaxşılaşdıracağını göstərərək, direktor əmr vermişdi ki, bataqlığın qurudulması üçün fəhlələrin maaşından manata bir qəpik tutulsun.

Fəhlələr həyəcana düşmüşdülər. Onlara hər şeydən ağır gələn bu idi ki, kontor qulluqçuları bu yeni vergini verənlər sırasına daxil edilməmişdi.

Şənbə günü direktorun qəpiyi toplamaq haqqındakı elanı fabrikdə asılarkən, Pavel evdə azarlı idi; işləmədiyi üçün, onun heç bir şeydən xəbəri yox idi. Sabahı gün, günorta duasından sonra, qoca tökməçi Sizov və uca boylu, qaşqabaqlı çilingər Maxotin Pavelin yanına gəlib direktorun qərarını ona söylədilər.

Sizov təmkinlə deyirdi:

– Biz, ağsaqqallar, yığışdıq, bu barədə danışıb götür-qoy elədik, sonra yoldaşlar bizi sənin yanına göndərdilər; sən bu cür işlərdən başı çıxan, bilikli adamsan, bir de görək: belə qanun varmı ki, direktor ağcaqanadları bizim qəpiyimizlə qırsın?

Maxotin balaca gözlərini parıldadaraq:

– Bir özün bax! – dedi. – Dörd il bundan qabaq bu hériflər hamam üçün pul yığırdılar. Üç min səkkiz yüz manat pul yığıldı. Hanı bu pul? Hamam da tikilmədi.

Pavel verginin qanunsuz və bütün işin yalnız fabrik üçün xeyirli olduğunu izah elədi; qonaqların ikisi də qaşqabaqlı getdilər. Onları yola salandan sonra ana gülümsünə-gülümsünə dedi:

– Görürsən, Paşa, indi qocalar da səndən ağıl öyrənməyə gəlirlər.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Pavel anasına cavab verməyərək qayğılı bir halda mizin dalında oturub nə isə yazmağa başladı. Bir neçə dəqiqədən sonra anasına:

– Səndən çox xahiş edirəm, – dedi. – şəhərə get, bu kağızı yerinə çatdır.

Ana:

– Bu qorxuludurmu? – deyə soruşdu.

– Bəli. Orada bizim üçün qəzet çap edirlər. Gərək bu qəpik məsələsi bu nömrədə çap olunsun...

– Yaxşı, yaxşı!.. – deyə ana dərhal razılıq verdi. – Mən bu saat...

Bu, oğlunun ona verdiyi birinci tapşırıq idi. Oğlunun bütün mətləbi ona açıqdan-açığa söyləməsi ananı sevindirirdi. O geyinə-geyinə oğluna deyirdi:

– Bax, buna nə demişəm, Paşa! Onlar lap soyğunçuluq eləyirlər! Bəs o adamın adı nədir, Yeqor İvanoviçdirmi?

Ana axşam gec qayıtdı, yorğun olduğuna baxmayaraq, xoşhal idi. Oğluna nağıl edərək deyirdi:

– Saşenkanı da gördüm! Sənə salam göndərdi. Bu Yeqor İvanoviç çox sadə, zarafatçı adammış! Elə məzəli danışır ki.

Pavel yavaşca:

– Onları bəyəndiyindən çox şadam! – dedi.

– Paşa, onlar sadə adamlardır! Adamın sadə olmağı yaxşıdır! Hamısı da sənə hörmət edir...

Pavel bazar ertəsi də işə getmədi, onun başı ağrıyırdı. Nahar vaxtı qaça-qaça Fedya Mazin gəldi, həyəcan və şadlıqdan onun gözləri parıldayırdı, tövşüyə-tövşüyə xəbər verdi:

– Dur, gedək! Bütün fabrik ayağa qalxıb. Sənin dalınca göndərdilər. Sizovla Maxotin deyirlər ki, məsələni hamıdan yaxşı sən başa sala bilərsən! Nələr olur!..

Pavel dinməz-söyləməz geyinməyə başladı:

– Arvadlar yığışıb, bir çığır-bağır salıblar ki...

Ana:

– Mən də gedirəm! – dedi. – Görək yenə nə əməldən çıxırlar! Mən də gedəcəyəm!

Pavel razı oldu:

– Gedirsən, get! – dedi.

Onlar yeyin-yeyin və dinməzcə gedirdilər. Həyəcandan ananın nəfəsi kəsilirdi, o əhəmiyyətli bir hadisənin yaxınlaşdığını hiss



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

edirdi. Bir dəstə arvad, fabrik darvazası ağzında toplaşıb, uca səslə kimi isə söyürdü. Onlar üçü bir yerdə həyətə girən kimi özlərini həyəcanla gurlayan sıx və qara izdihamın içində gördülər. Ana bütün üzlərin bir nöqtəyə, dəmirçi sexinin divarına tərəf çevrildiyini gördü; orada Sizov, Maxotin, Vyalov və nüfuzlu ağsaqqal fəhlələrdən yenə beş nəfər köhnə dəmir yığınının üstündə durub, qırmızı kərpic fonunda əllərini yelləyirdilər.

Kim isə dedi:

– Vlasov gəlir!

– Vlasov? Gəlsin bura görək...

Birdən bir neçə yerdən:

– Sakit! – deyə çığırdılar.

Yaxından Rıbinin eyni ahənglə davam edən səsi eşidilirdi:

– Söz qəpikdə deyil, ədalətdədir, bəli. Biz qəpiyimizin davasını eləmirik, bu qəpik o birilərindən yumru deyil, ancaq o birilərindən ağırdır, bu qəpikdə insan qanı direktorun manatındakından çoxdur, bəli. Bizi yandıran da qəpik deyil, qandır, həqiqətdir, bəli!

Onun sözləri izdihama yayılıb, atəşin əks-səda çıxarırdı:

– Doğrudur, Rıbin!

– Düzdür, ocaqçı!

– Vlasov gəldi!

İnsan səsləri maşınların ağır hənirtisini, buxarın çətin nəfəsini və qayışların xışıltısını basaraq, şiddətli fırtına kimi gurlayırdı. Hər tərəfdən əllərini ata-ata, bir-birini odlu və kəskin sözlərlə qızışdıra-qızışdıra adamlar qaçışırdı. Yorğun qəlblərdə daim mürgü halında gizlənmiş acıq oyanır, özünə yol axtarır, qara qanadlarını daha geniş açıb təntənə ilə havada uçur, insanları daha möhkəm əhatə edir, onları öz dalınca çəkir, bir-birilə toqquşdurur və alovlu ədavət şəklini alırdı. İzdihamın üstündə bulud kimi toz və his dalğalanır, tərdən yaşarmış üzlər yanır, yanaqların dərisindən qara yaşlar süzülürdü. Qaralmış üzlərdə gözlər parıldayır, dişlər ağarırdı.

Pavel Sizov və Maxotin duran yerə qalxdı, onun:

– Yoldaşlar! – deyən, uca səsi eşidildi.

Ana onun üzünün ağardığını, dodaqlarının titrədiyini görürdü; o, izdihamı yara-yara ixtiyarsız irəli yeriməyə başladı. Hər tərəfdən ona acıqlı:

– Hara soxulursan? – deyirdilər.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Onu itələyirdilər. Lakin bu hərəkətlər ananı saxlaya bilmirdi; çiyini və dirsəkləri ilə adamları yara-yara ana, oğlu ilə yan-yana durmaq arzusuna tabe olaraq, yavaş-yavaş ona doğru irəliləyirdi.

Pavel isə dərin və böyük məna verdiyi sözü qəlbindən qoparıb, izdiham içərisinə atdıqdan sonra döyüşmək şadlığından boğazının tutulduğunu hiss elədi; həqiqət xəyalının odu ilə alışmış ürəyini bu insanlara açmaq arzusu ona hakim oldu.

Pavel, coşqunluq və qüvvət aldığı sözü bir də təkrar elədi:

– Yoldaşlar! Biz kilsə və fabriklər tikən, zəncir və pul qayıran adamlarıq, biz hamını beşikdən ta qəbirə qədər yedirən və əyləndirən canlı qüvvəyik...

Rıbin:

– Belə ha! – deyə qışqırdı.

– Biz hər zaman və hər yerdə işdə birinci, həyatda isə axırıncı yeri tuturuq. Bizim qeydimizə qalan kimdir? Kimdir bizə yaxşılıq istəyən? Kimdir bizi adam yerində qoyan? Heç kim!

– Heç kim! – deyə kim isə əks-səda kimi təkrar elədi.

Pavel, özünü yığışdırıb, daha sadə və sakit danışmağa başladı; adamlar yavaş-yavaş ona yaxınlaşır, sıxlaşır, qara və minbaşlı bir bədən təşkil edirdi. Bu bədən, yüzlərlə diqqət dolu gözünü onun üzünə dikib, sözlərini sanki udurdu:

– Biz özümüzü bir-birimizə yoldaş hiss etməyincə, öz hüququmuz uğrunda çarpışmaq arzusu ilə möhkəm birləşmiş dostlardan ibarət bir ailə olmayınca yaxşı yaşaya bilməyəcəyik.

Ananın yanında duranlar içərisindən:

– Mətləbdən danış! – deyə kobud səslər ucaldı.

Buna cavab olaraq, ayrı-ayrı yerlərdən yavaşca deyilən iki səs eşidildi:

– Qoy danışsın!

Hisə batmış üzlərdə acıq və etibarsızlıq ifadələri görünürdü; ciddiyyət və düşüncə ilə dolu onlarla göz Pavelin üzünə dikilmişdi.

Biri:

– Sosyalistdir, amma axmaq deyil! – dedi.

Ucaboy, çəpgöz bir fəhlə ananı çiynindən itələyib:

– Ax! – dedi. – Necə cürətli danışır!

– Yoldaşlar, artıq anlamaq lazımdır ki, özümüzdən başqa heç kəs bizə kömək edə bilməz. Hamımız çiyin-çiyinə verməli, əlbir



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

olmalıyıq, düşməni yıxmaq istəyiriksə – bu bizim qanunumuz olmalıdır!

Maxotin:

– Doğru deyir, uşaqlar! – deyə səsləndi.

Sonra da əlini qalxızdı və yumruğunu havada silkələdi:

– Direktoru buraya çağırmaq lazımdır! – deyə Pavel sözünə davam etdi.

İzdihamın başı üzərində sanki bir fırtına qopdu. Hamı hərəkətə gəldi və bir çox səs birdən qışqırdı:

– Direktor gəlsin!

– Dalınca vəkil göndərək.

Ana lap irəli yeridi və fərəhlə altdan yuxarı oğlunun üzünə baxmağa başladı. Pavel ağsaqqal, hörmətli fəhlələrin arasında durmuşdu, hamı ona qulaq asır və sözünə şərik olurdu. Oğlunun acıqlı danışmamağı, başqaları kimi söyüş söyməməyi ananın xoşuna gəlirdi.

Dəmir üzərinə dolu yağan kimi, hər tərəfdən kəskin nidalar, söyüş, acıqlı sözlər yağırdı. Pavel yuxarıdan adamlara baxır və geniş açılmış gözləri ilə onların arasında nə isə axtarırdı:

– Vəkil seçək!

– Sizovu!

– Vlasovu!

– Rıbini! Onun dişləri itidir!

Birdən izdihamda alçaqdan səslər eşidildi:

– Özü gəlir!..

– Direktor!..

İzdiham, aralanaraq, uca boylu, uzun sifətli, şiş saqqallı adama yol verdi.

O, əlinin qısa hərəkətləri ilə fəhlələri yoldan çəkilməyə məcbur edərək:

– Yol verin, – deyir, lakin əlini onlara vurmurdu. Onun gözləri qıyılmışdı, insanların təcrübəli hakimi kimi o, nəzərləri ilə fəhlələrin üzünü yoxlayırdı. Onun qabağında papaqlarını götürür, onu salamlayırdılar; o isə salamları almadan irəliləyirdi; irəlilədikcə də izdihamda sükut yaranır, fəhlələr dəcəllik etmiş və peşman olmuş uşaqlar kimi sıxılır, utana-utana gülümsünür, sonra da yavaşdan səslənirdilər. Direktor ananın yanından keçəndə, acıqlı nəzərlə onu



Created with
nitro PDF professional
download the free trial online at nitropdf.com/professional

süzdü və dəmir yığınının qabağında dayandı. Yuxarıdan bir nəfər əlini ona uzatdı, o, uzadılmış əli tutmadı, bədəninin sərbəst, güclü hərəkətilə yuxarı qalxıb, Pavel ilə Sizovun qabağında dayandı və:

– Bu nə yığıncaqdır? Niyə işi dayandırmısınız? – deyə soruşdu.

Bir neçə saniyə ətrafı sükut bürüdü. Adamların başı sünbül kimi yırğalandı. Sizov, papağını havada yelləyib, çiyinlərini atdı və başını aşağı saldı.

Direktor:

– Mən sizdən soruşuram! – deyə qışqırdı.

Pavel onun yanına keçdi və Sizovla Rıbini nişan verərək ucadan dedi:

– Bizim üçümüzü yoldaşlar vəkil seçiblər, sizdən tələb edək ki, bizdən qəpik çıxmaq haqqındakı əmrinizi pozasınız.

Direktor Pavelin üzünə baxmadan:

– Niyə? – deyə soruşdu.

Pavel yenə ucadan:

– Bizə qoyulan bu vergini düzgün hesab etmirik, – dedi.

– Sizcə mən, bataqlığı qurutmaq istərkən, fəhlələrin məişətini yaxşılaşdırmaq deyil, onları yalnız istismar etməkmi istəyirəm, hə?

Pavel:

– Bəli! – deyə cavab verdi.

Direktor üzünü Rıbinə tutub soruşdu:

– Siz də belə hesab edirsiniz?

Rıbin:

– Hamımız bir fikirdəyik! – dedi.

Direktor üzünü Sizova tutdu:

– Siz necə, hörmətli kişi?

– Bəli, mən də sizdən xahiş edirəm: qəpiyi bizdən almayın!

Sizov, yenə başını əyib, müqəssir kimi gülümsündü.

Direktor yavaş-yavaş izdihamı süzdü, çiyinlərini çəkdi. Sonra sınayıcı nəzərlə Pavelə baxıb dedi:

– Siz mənim nəzərimə ziyalı görünürsünüz, sizdəmi bu tədbirin nə qədər xeyirli olduğunu anlamırsınız?

Pavel ucadan cavab verdi:

– Əgər fabrik bataqlığı öz hesabına qurutsa, bunu hamı anlar!

Direktor acıqlı:



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

– Fabrik xeyriyyəçiliklə məşğul olmur! – dedi. – Mən bu saat işə başlamağı hamıya əmr edirəm!

Bu sözlərlə direktor, heç kəsin üzünə baxmadan, ayağının altını yoxlaya-yoxlaya, aşağı düşməyə başladı.

İzdihamda narazı səslər ucaldı. Direktor dayanıb:

– Nə var? – deyə soruşdu.

Hamı susdu, ancaq uzaqdan tək bir səs:

– Özün işlə!.. – dedi.

Buna cavab olaraq direktor soyuq və aydın səslə:

– Əgər on beş dəqiqəyə qədər işə başlamasanız, mən əmr edəcəyəm hamınıza cərimə yazılsın! – dedi.

O yenə izdihamın arasından keçdi; lakin indi onun arxasında boğuq narazı səslər eşidilir, o uzaqlaşdıqca bu səslər də yüksəlirdi:

– Di get, bununla danış!

– Bu da sənin hüququn! Eh qara gün!..

Pavelə müraciətlə çığırırdılar:

– Ey, qanunçu, indi nə qayıraq?

– Sən dedin, dedin, o gəlib hamısını sildi.

– De görək, Vlasov, necə eləyək?

Qışqırıqlar daha təkidli bir xasiyyət aldıqda, Pavel dedi:

– Yoldaşlar! Mən təklif edirəm, o, qəpikdən əl çəkməyincə işə başlamayaq...

Arada həyəcanlı sözlər eşidildi:

– Bu da söz oldu!..

– Tətil eləyək?

– Qəpik üçünmü?

– Bəs necə? Tətil edəndə nə olar?

– Hamını peysərindən yapışıb çölə atarlar!..

– Bəs kim işlər?

– Tapılar!

– Xainlərmi?



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

## XIII

Pavel aşağı düşüb anasının yanında durdu.

Ətrafda hamı bir-birilə qızğın mübahisə edir, çığırır, bağırırdı.

Rıbin Pavelin yanına gəlib:

– Tətil baş tutmayacaqdır! – dedi. – Xalq tamahkardırsa da, qorxaqdır. Sənin tərəfdarın çox olsa, üç yüz nəfər olar. Bu böyüklükdə peyin qalağını bir yaba ilə götürə bilməzsən...

Pavel dinmirdi. İzdihamın böyük qara üzü onun qabağında dalğalanır və tələbkarlıqla onun gözlərinə baxırdı. Pavelin ürəyi həyəcanla döyünürdü. Ona elə gəlirdi ki, sözləri, quraqlıqdan çatlamış yerə düşən seyrək yağış kimi, xalqın arasında izsiz-tozsuz itib getmişdi.

Pavel evə kədərli və yorğun getdi. Ana ilə Sizov onun arxasınca gedirdi, Rıbin isə onun yanınca yeriyərək qulağına deyirdi:

– Sən yaxşı danışırsan, ancaq ürəyə girə bilmirsən, bəli! Ürəkdən tutmaq lazımdır, qəlbin dərinliyinə qığılcım atmaq lazımdır. Ağıl ilə xalqı ələ gətirməzsən, bu nazik mətləbdir, onların xörəyi deyil!

Sizov isə anaya:

– Nilovna! – deyirdi. – Biz, qocalar, daha qəbiristana yol açmalıyıq! Təzə xalq yaranır. Bizim günümüz nə idi? İşimiz diz üstə sürünmək, səcdəyə düşüb baş əymək. İndiki xalq ayılıbmı, ya bizdən daha böyük səhv edirmi, bilmirəm, ancaq bizə oxşamır. Budur, gənclər direktorla, öz tayı ilə danışan kimi danışır... Bəli! Salamat qal, Pavel Mixayloviç!.. Xalqın tərəfini yaxşı saxlayırsan, aşna! Allah sənə kömək olsun, bəlkə bir yol tapasan, Allah eləsin!

Sizov getdi.

Rıbin mırıldanırdı:

– Daha sizin ölmək vaxtınızdır! Siz heç indi də adam deyilsiniz, mala kimi bir şeysiniz, bircə çatlaqları tutmağa yarayırsınız. Gördünmü, Pavel, səni vəkil seçmək üçün çığıranları gördünmü? Sənə sosialist deyənlər, araqarışdırıcı deyənlər idi. Onların fikri bu idi ki, işdən qovarlar, canı cəhənnəmə.

Pavel:

– Onlar da öz yerlərində haqlıdırlar! – dedi.

– Yoldaşını parçalayan canavar da haqlıdır...

Rıbinin üzü acıqlı idi, səsi titrəyir və tutulurdu...



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

– Xalq quru sözə inanmaz, əzab çəkmək lazımdır, sözü qanda yumaq lazımdır...

Bütün günü Pavel kədərli, yorğun, nigaran dolandı, onun gözləri bir şey axtarır kimi yanırdı. Bunu görən ana ehtiyatla soruşdu:

– Niyə belə eləyirsən, Paşa, hə?

Pavel fikirli halda:

– Başım ağrıyır, – dedi.

– Uzan yatağa, doktor çağırım...

Pavel anasına baxıb tələsik cavab verdi:

– Yox, istəməz!

Birdən yavaş səslə dərdini açdı:

– Mən hələ cavanam, zəifəm, məsələ də bundadır! Mənə inanmadılar, mənim həqiqətimi qəbul etmədilər, deməli, mən həqiqəti *deməyi bacarmadım!.. Halım pərişandır, öz-özümdən inciyirəm!*

Ana onun qəmgin üzünə baxıb təsəlli vermək arzusu ilə yavaşdan dedi:

– Səbr elə! Bu gün anlamadılar, sabah anlayarlar...

Pavel:

– Gərək də anlasınlar! – dedi.

– Bir bax, mən mənliyimlə sənin haqlı olduğunu görürəm...

Pavel ona yaxınlaşdı:

– Sən gözəl insansan, ana!..

Sonra da üzünü ondan çevirdi. Ana, asta deyilən sözlərdən alışıb yanmış kimi, əlini döşünə basdı və onun nəvazişini qəlbində aparaq otaqdan çıxdı.

Gecə ana yatdığı və Pavel yerində uzanıb kitab oxuduğu zaman jandarmlar gəlib acıqlı-acıqlı hər yeri – otağı, həyəti, çardağı – eşələyib axtarmağa başladılar. Sarı sifət zabitin hərəkətləri, birinci dəfəki kimi, təhqiredici, istehzalı idi; zabit ələ salıb adamların qəlbinə toxunmaqdan ləzzət aparırdı. Ana, bir bucaqda dinməz oturub, oğlundan gözlərini çəkmirdi. Pavel həyəcanını bildirməməyə çalışırdı, lakin zabit güləndə, onun barmaqları qəribə bir tərzdə açılır, yumulurdu; jandarmın istehzalarına dözməyin, ona cavab verməməyin Pavel üçün ağır olduğunu ana hiss edirdi. İndi ana, birinci axtarışdakı kimi, qorxmurdu; ayaqları mahmızlı bu kobud gecə qonaqlarına qarşı ana daha şiddətli kin duyurdu, bu duyğu da qorxunu boğub məhv edirdi.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Pavel fürsət tapıb, onun qulağına:

– Məni aparacaqlar!.. – deyə pıçıldaya bildi.

Ana başını əyib, yavaşdan:

– Anlayıram... – deyə cavab verdi.

Ana anlayırdı ki, bu gün fəhlələrə dediyi sözlər üstündə onu həbs edəcəklər. Lakin onun dediyinə hamı şərik idi, buna görə də hamı onu müdafiə etməli idi, deməli, onu çox saxlamayacaqlar...

Ana oğlunu qucaqlamaq, ağlamaq istəyirdi, lakin zabit, yanaşı durub gözlərini qıyaraq onun üzünə baxırdı. Zabitin dodaqları titrəyir, bığları tərpənirdi; Vlasovaya belə gəlirdi ki, bu adam onun göz yaşı axıtmasını, yalvarıb xahiş etməsini gözləyir. Ana, var qüvvəsini toplayaraq və qısa danışmağa çalışaraq, oğlunun əlini sıxdı və nəfəsini çəkib asta səslə dedi:

– Salamatlıqla, Paşa! Lazımlı şeylərin hamısını götürdünmü?

– Götürdüm, darıxma!..

– İsa sənə kömək olsun...

Paveli aparandan sonra ana kürsüyə oturub, gözlərini yumdu və yavaşdan hönkürtü ilə ağlamağa başladı. Ana, keçmişdə əri elədiyi kimi dalını divara dayayıb, üzünü göyə qalxızıb öz kədəri və acizliyindən boğulan kimi, eyni ahəng ilə uzun-uzadı inləyir, yaralı ürəyinin dərdini bu səslərlə boşaldırdı. Gözünün qabağında isə hərəkətsiz bir ləkə kimi seyrək bığlı sarı sifət durur və məmnuniyyətdən qıyılmış gözləri ilə ona baxırdı. Həqiqət axtardığı üçün oğulu anadan ayıranlara qarşı qəzəb və kin ananın ürəyində qara yumaq kimi açılıb bükülürdü.

Hava soyuq idi, yağış şüşələri taqqıldadırdı, anaya elə gəlirdi ki, gözsüz, qırmızı, enli üzlü, əli uzun qaraltılar evin ətrafını gezib bir şey güdürlər. Gəzə-gəzə mahmızlarını yavaşdan cingildədirlər.

Ana:

– Kaş məni də aparaydılar – deyə düşünürdü.

Fit ulayaraq, xalqı işə çağırdı. Bu gün onun səsi alçaq, tutqun və mütərəddid idi. Qapı açıldı. Rıbin içəri girdi. Ananın qabağında dayanıb əli ilə yağışdan islanmış saqqalını silə-silə soruşdu:

– Apardılarmı?

Ana ah çəkib:

– Apardılar, məlunlar! – dedi.

Rıbin gülümsünərək:



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

– İşimiz budur! – dedi. – Məni də gəlib axtardılar, əlləşdirdilər, bəli. Söyüb yamanladılar... Ancaq bir şey eləmədilər. Deməli, Paveli apardılar! Direktor göz elədi, jandarm baş əydi, – budur, adam da yox oldu! Onlar dostdurlar. Biri xalqı sağır, o biri də buynuzundan tutur...

Ana yerindən qalxıb qışqırdı:

– Siz gərək Paveli müdafiə edəsiniz! Axı o, hamının üstündə bu işə düşdü.

Rıbin:

– Kim müdafiə eləsin? – deyə soruşdu.

– Hamı!

– Buna bax, ha! Yox, bu olan iş deyil.

Onun ümidsiz sözləri ananın dərdini daha da artırdı. Rıbin gülümsünə-gülümsünə ağır addımlarla eşiyə çıxdı.

“Bəlkə birdən döydülər, əzab verdilər?..”

Ana oğlunun əzilmiş, yaralanmış, qana bulaşmış bədənini gözünün qabağına gətirdi və dəhşət, soyuq qaya kimi, onun sinəsinə qonub onu sıxdı. Ananın gözləri ağrıdı.

O gün ana sobanı yandırmadı, özünə nahar bişirmədi, çay içmədi; ancaq axşam bir tikə yavan çörək yedi. Yatarkən ana ömründə indiyə kimi heç vaxt belə kimsəsiz, tək-tənha olmadığını düşündü. Son illərdə ana daim əhəmiyyətli və gözəl bir şeyin intizarı ilə yaşamağa adət etmişdi. Onun ətrafında gənclər dolanır, hər yana sevinc saçırdılar, gözünün qabağında isə daim təhlükəli, lakin gözəl həyatın yaradıcısı – Pavelin ciddi üzü işıqlanırdı. İndi Pavel yoxdur – heç bir şey də yoxdur.

## XIV

Uzana-uzana gün gəlib keçdi, yuxusuz gecə də keçdi, ikinci gün daha yavaş ötdü. Ananın qulağı səsdə idi, kimi isə gözləyirdi, lakin gələn yox idi. Axşam oldu. Gecə düşdü. Soyuq yağış, ağır nəfəs ala-ala, divara dəyib xışıldayır, buxarıda yel vıyıldayır, döşəmənin altında nə isə cırıldayırdı. Damdan su qətrə-qətrə yerə düşür və onun səsi qəribə bir şəkildə saatın tıqqıltısına qarışırdı. Ev sanki yavaş-yavaş yırğalanır, ətrafda hər bir şey lüzumsuz və kədərdən ölmüş kimi nəzərə gəlirdi.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Pəncərəni yavaşdan taqqıldatdılar – bir, iki... Ana bu taqqıltılara öyrəşmişdi və bunlardan qorxmurdu, indi isə onun ürəyi sevincdən çırpındı. Tutqun ümid onu cəld ayağa qaldırdı. Ana şalı çiyninə atıb qapını açdı...

Samoylov içəri girdi, onun dalınca da üzünü paltosunun yaxalığına qısmış, şapkasını gözünün üstünə basmış bir adam daxil oldu.

Həmişəki halından fərqli olaraq bu dəfə nigaran və fikirli görünən Samoylov salam vermədən soruşdu:

– Olmaya sizi oyatdıq?

Ana:

– Yatmamışdım! – dedi və dinməzcə intizarla gözünü onların üzünə zillədi.

Samoylovla gələn adam ağır-ağır və xırıltı ilə köksünü ötürərək şapkasını çıxardı və qısa barmaqlı enli əlini anaya uzadıb köhnə tanış kimi dostyana dedi:

– Axşamınız xeyir, anacan! Yoxsa tanımadınız?

Nədənsə birdən sevinən Vlasova:

– Sizsiniz? Yeqor İvanoviç! – deyə səsləndi.

Keşiş kimi uzun saçları olan Yeqor İvanoviç iri başını əyərək:

– Özüməm! – dedi. Onun kök üzü mehribanlıqla gülümsəyir, balaca, bozumtul gözləri yumşaq və aydın baxışla anaya baxırdı. O, samovara bənzəyirdi, samovar kimi yumru, alçaq boylu, boynu qısa və qolları gödək idi. Üzü yağlı və parlaq idi, nəfəsini fısıltı ilə alırdı; sinəsində daim bir şey qurtuldayır və xırıldayırdı...

– Otağa buyurun, bu saat geyinim! – deyə ana təklif elədi.

Samoylov qaşlarının altından anaya baxıb, qayğılı səslə:

– Bizim sizə işimiz düşüb! – dedi.

Yeqor İvanoviç otağa keçib, oradan deyirdi:

– Mənim əzizim ana, sizin tanıdığınız Nikolay İvanoviç bu gün səhər həbsxanadan çıxdı...

Ana soruşdu:

– Məgər o, orada idi?

– İki ay on bir gün! Orada xoxolu görüblər; xoxol sizə salam göndərir; Paveli də görübdür, o da salam göndərir, xahiş edir ki, anam nigaran olmasın; deyir ki, o gedən yolda adamın istirahət elədiyi yer həbsxanadır, bizim qeydimizə qalan hökumət belə qayda

qoyubdur. Sonra, anacan, mən işə keçməliyəm. Bilirsinizmi, dünən burada nə qədər adam tutulmuşdur?

Ana:

– Yox! – dedi. – Paşadan başqa da?..

Yeqor İvanoviç sakitcə onun sözünü kəsib:

– Pavel qırx doqquzuncudur! – dedi. – Yəqin, hökumət on adama qədər də tutacaq. Bax, bu cənabı da...

Samoylov acıqlı-acıqlı:

– Bəli, məni də! – dedi.

Vlasova bir qədər yüngül nəfəs almağa başladığını hiss etdi...

"Orada tək qalmayacaq!" – deyə düşündü.

Ana paltarını geyinib otağa girdi və ürəklə qonağın üzünə gülümsündü:

– Belə çox adam tutduqlarından görünür ki, çox saxlamayacaqlar.

Yeqor İvanoviç:

– Doğrudur! – dedi. – Əgər biz onların bişmiş aşına su qata bilsək, onda lap özlərini itirərlər. İş belədir. Əgər biz indi öz kitabçalarımızı fabrikdə yaymasaq jandarmlar yaxşı olmayan bu hadisədən yapışıb, onu Pavelə və onunla birlikdə dustaqxanaya salınan yoldaşlarına qarşı çevirərlər...

Ana həyəcan içində:

– Bəs necə olsun? – deyə səsləndi.

Yeqor İvanoviç yumşaq səslə:

– Aydın məsələdir! – dedi. – Hərdənbir jandarmlar da düz mülahizə edirlər. Bir özünüz düşünün: Pavel azad idi – kitabça və kağızlar da vardı. Pavel tutuldu – kitabça və kağızlar da yox oldu. Deməli, kitabçaları yayan o imiş, eləmi? Belə olduqda hamısını çeynəməyə başlayacaqlar, jandarmların fikri adamı elə tora salmaqdır ki, sonra fələk də onu qurtara bilməsin...

Ana kədərli-kədərli:

– Başa düşdüm! – dedi. – Başa düşdüm. Ah, pərvərdigara! Bəs indi necə olsun?

Mətbəxdən Samoylovun səsi gəldi:

– Zalım uşağı, demək olar, hamını birdən tutublar!.. İndi gərək işimizi əvvəlki kimi davam etdirməyə çalışaq, nəinki işin xatirinə, həm də yoldaşlarımızı qurtarmaq üçün.



Created with nitro PDF professional
download the free trial online at nitropdf.com/professional

Yeqor gülümsünərək, əlavə elədi:

– İşləməyə də adam yoxdur! Çap olunmuş gözəl kitabçamız var, özüm hazırlamışam! Ancaq onu fabrikə nə cür yeridək, – burası məlum deyil?

Samoylov:

– Qapının ağzında hamını axtarmağa başlayıblar! – dedi.

Ana ondan bir şey arzu edildiyini, – bir şey gözlənildiyini duyub, tələsik soruşdu:

– Bəs necə olsun? Necə olsun?

Samoylov qapıda dayanıb dedi:

– Pelageya Nilovna, siz alverçi Korsunovanı tanıyırsınızmı?..

– Tanıyıram, necə ki?

– Onunla danışın, bəlkə o keçirməyə razı oldu?

Ana bu təklifə razı olmadığını əli ilə işarə edərək dedi:

– Yox, yox! Çox lağlağı arvaddır, yox! Bilsələr ki, mənim əlimdən, bu evdən keçir, – yox, yox!

Birdən, ağlına gələn gözləmədiyi fikirdən diksinərək, yavaşdan dedi:

– Siz mənə verin, mənə! Mən özüm düzəldərəm, mən özüm yol taparam! Mən Mariyanın özündəncə iltimas elərəm ki, məni köməkçi götürsün! Mənə bir parça çörək yemək lazımdır, bunun üçün də işləmək gərəkdir. Beləliklə, mən ora nahar apararam! Mən özüm işi quraram!

Ana əllərini döşünə sıxıb, işi yaxşı görəcəyinə və heç kəsin xəbəri olmayacağına inandırmağa çalışırdı, axırda ciddi bir sevinclə dedi:

– Qoy görsünlər ki, Pavel yoxdur, ancaq onun əli dustaqxanadan da bura çatır, – qoy görsünlər!

Üçü də canlandı, Yeqor əllərini bərk-bərk bir-birinə sürtərək, gülümsünür və deyirdi:

– Bax buna nə demişəm, anacan! Bilsəniz, bu nə gözəl təklifdir! Lap qiyamət təklifdir!..

Samoylov əllərini bir-birinə sürtərək dedi:

– Əgər bu iş baş tutsa, mən şadlıqla dustaqxanaya gedərəm.

Yeqor xırıltılı səslə:

– Ana! Siz nə gözəlsiniz? – deyə qışqırdı.

Ana gülümsədi. Onun üçün məsələ aydın idi: əgər indi yenə vərəqələr fabrikdə görünsə, hökumət yəqin edəcəkdir ki, onları



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

yayan Pavel deyilmiş. Bu vezifəni yerinə yetirməyə özündə lazımi iqtidar hiss edən ana sevincindən titrəməyə başladı.

Yeqor ona deyirdi:

– Pavel ilə görüşməyə gedəndə, ona deyin ki, yaxşı anası vardır!..

Samoylov gülə-gülə:

– Mən onu daha tez görəcəyəm, – dedi.

– Siz eləcə də deyin: hər nə lazım olsa, mən düzəldərəm! Qoy bilsin!

Yeqor Samoylovu nişan verərək:

– Bəlkə onu heç tutmadılar? – deyə soruşdu.

– Daha nə eləmək olar!

Onların hər ikisi gülüşdü. Ana da, öz səhvini başa düşüb, bir qədər fənd ilə utana-utana yavaşdan gülməyə başladı:

– Adamın öz dərdi olanda, başqasının dərdini görmür, – deyə ana başını aşağı saldı.

Yeqor:

– Bu təbiidir! – dedi. – Paveldən də heç nigaran olmayın, ürəyinizi sıxmayın. Dustaqxanadan daha yaxşı çıxacaq. Orada adam dincini alır, biliyini artırır; azadlıqda isə bizim kimilərin buna macalı olmur. Bax, mən üç dəfə dama düşmüşəm, hər dəfə də, ləzzət eləməsə də, həm ağlım, həm də qəlbim üçün çox xeyir götürmüşəm.

Ana onun sadə üzünü dostyana süzüb:

– Çox ağır nəfəs alırsınız! – dedi.

Yeqor barmağının yuxarı qaldırıb:

– Bunun xüsusi səbəbləri var! – dedi. – Anacan, deməli, sözümüz sözdür, eləmi? Biz sabah sizə material çatdırarıq, onda yüzillik cəhalətin bünövrəsini kəsən bıçqı yenə işə düşür. Yaşasın azad söz, yaşasın ana qəlbi! Hələlik salamat qalın!

Samoylov ananın əlini bərk-bərk sıxaraq:

– Salamat qalın! – dedi. – Bax, mən öz anama belə işlərdən bir söz də deyə bilmərəm, bəli!

*Vlasova onun könlünü almaq üçün:*

– Hamı başa düşər! – dedi.

Onlar gedəndən sonra ana qapını bağlayıb, otağın ortasında diz çökərək yağışın şırıltısı altında dua eləməyə başladı. Duası sözsüz idi, qəlbi Pavelin vasitəsilə onun həyatına daxil olan adamlara aid böyük bir düşüncə ilə çırpınırdı. Bunlar, bu sadə, bir-birinə çox



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

yaxın və kimsəsiz adamlar sanki onunla ikonaların arasından keçib gedirdilər.

Səhər tezdən ana Mariya Korsunovanın yanına yollandı.

Daim üstü-başı yağlı olan və hay-küyçü alverçi qadın onu mehriban qarşıladı. O, kök əli ilə ananın çiyninə vurub soruşdu:

– Olmaya darıxırsan? Boşla, canım! Tutub apardılar, daha nə edəsən! Burada bir ayıb iş yoxdur. Əvvəllər belə idi ki, oğurluq üstə tuturdular, amma indi haqq sözü üstündə tutmağa başlayıblar. Bəlkə də Pavel ağzından bir söz qaçırdıb, ancaq o hamıya arxa çıxdı, hamı da ondan razıdır, sən nigaran olma. Heç kəs deməsə də, hamı bilir ki, kim yaxşıdır. Mən sənin yanına gəlmək istəyirdim, ancaq heç macal tapa bilmirəm. Elə hey bişirirəm, satıram, öləndə də, görünür, dilənçi öləcəyəm. Oynaşlarım məni lap təngə gətirib, Allahın lənətinə gəlsinlər. Qurd ağacı yeyən kimi onlar da məni yeyib axırıma çatırlar. Boğazından kəsib beş-on manat yığırsan, birdən dinsizin biri gəlir, pulları cibləyir. Arvad olmaq da bir şey deyil! Yer üzündə bundan murdar iş yoxdur. Tək yaşamaq çətindir, cüt yaşayanda da adamın canı çıxır.

Vlasova onun lağlağısını kəsərək:

– Mən sənə köməkçi gəlmişəm! – dedi.

Mariya:

– Necə yəni? – soruşdu və qonşusunun izahatını dinləyib, razılıqla başını tərpətdi.

– Olar! Yadındadır, bir vaxt məni ərimdən gizlədirdin! İndi də mən səni ehtiyacdan gizlədərəm... Sənə hamı kömək etməlidir; çünki oğlun el işindən ötrü bəlaya düşübdür. Oğlun yaxşı oğlandır, hamı da bir adam kimi bunu deyir, hamının da ona yazığı gəlir. Gör sənə nə deyirəm: bu həbslərdən hökumət xeyir görməyəcək, – bir gör fabrikdə nələr olur? Deyirlər, əzizim, işləri yaxşı deyil! Onlar, hökumət adamları, elə zənn edirlər ki, adamı dabanından qapdılar, deməli, uzaq gedə bilməyəcək! Amma iş lap tərsinə dönür: on adamı qapazlayırlar, yüzü acığa duşür!..

Söhbətin nəticəsi bu oldu ki, o biri gün nahar vaxtı Vlasova, Mariyanın bişirdiyi şeyləri iki tabağa doldurub fabrikdə satırdı. Mariyanın özü isə bazarda alverə getmişdi.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

## XV

Fəhlələr təzə alverçi qadını o dəqiqə tanıdılar. Bəziləri anaya yanaşıb onu ürəkləndirirdilər:

– Hə, Nilovna, işəmi başlamısan?

Fəhlələrdən bir parası, anaya təsəlli verərək, Pavelin tezliklə buraxılacağını deyirdilər; o biriləri, onun dərdinə şərik olduqlarını bildirib, təsəlli verməklə, onun qüssəli ürəyinə toxunurdular, bəziləri də hirs ilə direktoru, jandarmları söyüb, ananın qəlbində əks-səda yaradırdılar. Ona acıq və istehza ilə baxan adamlar da vardı; tabelçi İsay Qorbov isə dişlərinin arasından:

– Mən qubernator olsaydım, sənin oğlunu dar ağacından asardım! – dedi. – Qoy xalqı yoldan çıxarmasın!

Bu acıqlı təhdiddən ananın qəlbini sərt bir soyuq bürüdü. Ana İsaya cavab vermədi, ancaq onun balaca çil üzünə baxdı və dərindən ah çəkib, başını aşağı saldı.

Fabrikdə həyəcan hiss edilirdi, fəhlələr dəstə-dəstə yığışıb, öz aralarında nədənsə pıçıldaşırdılar, təşvişə düşmüş ustalar o tərəf-bu tərəfə qaçışırdılar; bəzən söyüş və acıqlı qəhqəhələr eşidilirdi.

İki polis Samoylovu ananın yanından apardı; Samoylov gedərkən bir əlini cibinə qoymuşdu, o biri ilə kürən saçlarını tumarlayırdı.

Bir dəstə fəhlə, yüzə qədər adam, Samoylovu yola salır və polislərin ardınca istehza və söyüş yağdırırdı.

Fəhlələrdən biri:

– Qrişa, gəzməyəmi çıxmısan? – deyə qışqırdı.

O biri:

– Bizlərə hörmət edirlər! – dedi. – Gəzəndə yanımıza qarovul qoşurlar...

Bu sözlərdən sonra fəhlə qəliz bir söyüş söydü.

Uca boylu, çəpgöz fəhlə acıqla ucadan deyirdi:

– Görünür, oğruları tutmaq daha xeyirli iş deyilmiş! Namuslu adamları tutmağa başlayıblar...

Dəstə içərisindən bir başqası dedi:

– Heç olmasa gecə aparaydılar! Yoxsa utanmaz-utanmaz günün günorta çağı tuturlar, həyasız alçaqlar!..

Polislər, qaşqabaqlarını töküb, ətrafa baxmadan, tələsik yeriyir, onların dalınca deyilən sözləri sanki eşitmirdilər. Qarşı tərəfdən üç



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

fəhlə, uzun, iri bir dəmir parçası gətirirdi; onlar dəmiri polislərə tərəf yönəldib çığırırdılar:

– Xəbərdar, ey balıqçılar!

Vlasovanın yanından ötərkən, Samoylov gülümsünüb ona baş əydi və:

– Apardılar! – dedi.

Ana dinmədən, ona alçaqdan baş əydi; həbsxanaya gülə-gülə gedən bu namuslu və ayıq gənclər onun qəlbində analara məxsus şəfqət və məhəbbət hissi oyadırdı.

Fabrikdən qayıdandan sonra ana bütün günü Mariyanın yanında qalıb, ona kömək elədi və onun tükənməz lağlağısına qulaq asdı; axşam qaranlıq düşəndə öz boş, soyuq və kimsəsiz evinə qayıtdı. Evdə ana özünə yer tapa bilmir, bucaqdan-bucağa vurnuxur, nə edəcəyini bilmirdi. Gecə keçirdi. Yeqor İvanoviç vəd etdiyi kitabları gətirmədiyi üçün ana çox nigaran idi.

Çöldə lopa-lopa payız qarı yağırdı, ana bunu pəncərədən görürdü. Qar şüşələrə yapışır, səssizcə aşağı sürüşür, əriyib şüşələrdə yaş iz buraxırdı. Ananın fikri oğlunun yanında idi...

Qapını ehmalca döydülər. Ana tələsik yüyürüb cəftəni açdı.

Saşenka otağa girdi. Ana onu çoxdan görməmişdi, indi onun gözünə ilk dəyən şey, qızın qeyri-təbii köklüyü idi.

Ana adam gəldiyinə və gecənin bir hissəsini tək-tənha keçirməyəcəyinə sevinərək:

– Xoş gəlmisiniz! – dedi. – Çoxdandır görünmürsünüz. Yoxsa bir yerə getmişdiniz?

Qız gülə-gülə:

– Xeyr, həbsxanada idim! – dedi. – Nikolay İvanoviçlə birlikdə, – o yadınızdadırmı?

Ana:

– Necə ki, necə ki! – deyə səsləndi. – Onun buraxıldığını dünən mənə Yeqor İvanoviç dedi, ancaq sizin tutulduğunuzu mən bilmirdim... Mənə bunu xəbər verən də olmayıb...

– Belə işin nəyindən danışasan? – Qız ətrafına baxıb əlavə elədi: – Yeqor İvanoviç gəlməmiş, mən gərək paltarımı dəyişəm!

– Siz lap islanmısınız ki...

– Mən vərəqə və kitabça gətirmişəm...

Ana tələsə-tələsə:



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

– Verin, verin! – dedi.

Qız cəld paltosunu açdı, silkindi və onun üstündən, ağacdan yarpaq tökülən kimi, xışıltı ilə kağız dəstələri yerə tökülməyə başladı. Ana gülə-gülə bu kağızları yerdən yığışdırır və deyirdi:

– Mən də baxıram, deyirəm, bu qız birdən-birə niyə belə kökəlib, fikrimə gəldi ki, bəlkə ərə getmisiniz, ikicanlısınız... Bay, bay, nə çox gətirmisiniz! Piyadamı gəldiniz?

Saşenka:

– Bəli! – deyə cavab verdi.

O yenə əvvəlki kimi nazik və incə idi. Ana onun ovurdlarının batdığını, gözlərinin böyüdüyünü və onların altında qara kölgələr əmələ gəldiyini görürdü.

Ana ah çəkib başını buladı:

– Sizi təzəcə buraxıblar, – dedi, – dincəlmək lazım idi, amma siz!..

Qız diksinərək:

– Lazımdır! – dedi. – Pavel Mixayloviç necədir, yaxşıdırmı?.. Ona çox təsir eləmədi ki?

Bunu soruşarkən Saşenka ananın üzünə baxmırdı; başını aşağı əyib saçlarını düzəldirdi, onun barmaqları titrəyirdi.

Ana:

– Yaxşıdır! – dedi. – Ancaq o öz hissini büruzə vermir.

Qız yavaş səslə:

– Hər halda canı salamatdırmı? – deyə soruşdu.

Ana cavab verdi:

– Ömründə naxoş olmayıb! Siz lap əsirsiniz. Bu saat sizə çay hazırlaram; moruq mürəbbəsi ilə içib qızışarsınız.

– Bu yaxşı olardı. Ancaq niyə narahat olasınız? Gecdir! Qoyun mən özüm...

Ana məzəmmətlə:

– Belə yorğun-yorğunmu? – dedi və samovarla əlləşməyə başladı. Saşa da, mətbəxə keçib, orada kürsüyə oturdu və əllərini başının dalında birləşdirib dedi:

– Hər necə olsa, həbsxana adamı zəif salır. Lap betəri bikarçılıqdır! Ondan əzablı şey yoxdur. İşin nə qədər çox olduğunu bilə-bilə, vəhşi heyvan kimi, qəfəsdə oturursan...

Ana:

– Bunların əvəzini sizə kim verəcək? – deyə soruşdu.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Sonra köksünü ötürüb cavab verdi:

– Allahdan başqa heç kim! Yoxsa siz də Allaha inanmırsınız?

Qız başını bulayıb qısaca:

– Yox! – deyə cavab verdi.

Ana birdən qızışaraq:

– Mən bax, sizə inanmıram! – dedi. O tez kömürlü əlini döşlüyünə silərək dərin bir inamla sözünə davam elədi: – Siz öz dininizi bilmirsiniz. Allaha etiqadınız olmasaydı, belə necə yaşayardınız?

Eyvandan ayaq tappıltısı və mızıltı eşidildi: ana diksindi, qız tez yerindən sıçrayıb ananın qulağına tələsik pıçıldadı:

– Qapını açmayın! Gələn jandarmlar olsa, deyərsiniz ki, məni tanımırsınız!.. Mən başqa evi axtarırmışam, çaşıb sizin evə gəlib burada özümdən getmişəm, siz də məni soyundurub bu kağızları tapmısınız... Başa düşdünüzmü?

Ana bu sözlərdən mütəəssir olaraq:

– Axı nə üçün, mənim əzizim? – dedi.

Saşenka səsə qulaq verərək:

– Dayanın! – dedi. – Deyəsən gələn Yeqordur...

Gələn doğrudan da Yeqor idi; üstü-başı tamam yaş idi, yorğunluqdan nəfəsini çətin alırdı.

O içəri girərək:

– Aha! Samovar hazırdır! – deyə səsləndi. – Anacan, dünyada bundan yaxşı şey yoxdur! Saşenka, siz məndən qabaq gəlmisiniz?

Balaca mətbəxi xırıltılı səslərlə dolduraraq, Yeqor ağır paltosunu çıxara-çıxara dayanmadan danışırdı:

– Anacan, bax, bu qızdan hökumət adamlarının zəhləsi gedir! Həbsxana nəzarətçisi bunu təhqir etmişdi, qız da ona elan eləmişdi ki, ondan üzr istəməsə özünü acından öldürəcəkdir, sonra da tamam səkkiz gün ağzına bir şey almamışdı, nəticədə az qala lap ayaqlarını uzatmışdı. Buna nə deyərsiniz! Amma mənim də qarnım qiyamətdir, ha!..

Danışa-danışa və eybəcərcəsinə sallanmış qarnını qısa əlləri ilə tuta-tuta, Yeqor otağa keçdi və qapını örtdü. Lakin orada da səsini kəsmədi.

Ana heyrətlə:

– Doğrudanmı, səkkiz gün bir şey yemədiniz? – deyə soruşdu.

Qız, üşüyən kimi, çiyinlərini çəkərək:



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

– Gərək o məndən üzr istəyəydi, bu vacib idi! – dedi. Onun sakitliyi və sərt inadı ananın qəlbində məzəmmətə oxşayan bir duyğu yaratdı.

"Bəs belə!" – deyə düşündü və yenə qızdan soruşdu:

– İşdir, ölsəydiniz, necə?

Qız yavaş səslə cavab verdi:

– Nə etməli! Hər halda o üzr istədi. İnsan gərək təhqiri bağışlamasın.

Ana yavaşdan:

– Bəli!.. – dedi. – Biz qadınları həmişə təhqir edir, incidirlər...

Yeqor qapını açaraq:

– Mən şələmi boşaltdım! – dedi. – Samovar hazır oldumu? Qoyun mən içəri aparım!..

O, samovarı içəri apararkən deyirdi:

– Mənim doğmaca atam gündə azından iyirmi stəkan çay içərdi, buna görə də bu fani dünyada azarsız-zadsız düz yetmiş üç il yaşadı. Ağırlığı səkkiz pud idi, özü də Voskresenskoye kəndində dyaçok idi...

Ana:

– Siz keşiş İvanın oğlusunuz? – dedi.

– Bəli! Siz haradan bilirsiniz?

– Axı mən özüm də Voskresenskoye kəndindənəm!..

– Həmyerliyik! Kimlərdənsiniz?

– Sizin qonşuluğunuzdan! Seryoginlərdənəm.

– Çolaq Nilin qızısınız? Yaxşı tanıyıram; çünki bu adam dəfələrlə mənim qulağımı çəkib...

Onlar, qabaq-qabağa durub, bir-birinə yorulmadan sual verir və gülüşürdülər. Saşenka, gülümsünərək onlara baxıb, çay dəmləməyə başladı. Qabların cingiltisi ananı keçmişdən ayırdı:

– Ah, bağışlayın, əngim qızışdı! Adam həmyerlisini görəndə ürəyi açılır...

– Sizdən üzr istəməli mənəm ki, sizin işinizə əl qatıram! Ancaq saat on birə işləyir, yolum uzaqdır...

Ana təəccüblə soruşdu:

– Necə yolunuz? Yoxsa şəhərə gedəcəksiniz?

– Bəli.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

– Nə danışırsınız? Qaranlıqdır, qar yağır, yorğunsunuz! Gecəni burada qalın, Yeqor İvanoviç mətbəxdə yatar, biz də burada...

Qız sadəcə:

– Yox, mən getməliyəm! – dedi.

Yeqor:

– Doğrudur, həmyerlim! – dedi. – Qızın buradan getməsi lazımdır. Onu burada tanıyırlar. Sabah küçədə görünsə, yaxşı olmaz.

– Bəs necə olsun? Təkmi gedəcək?..

Yeqor gülə-gülə:

– Tək də gedər! – dedi.

Qız özünə bir stəkan çay töküb bir parça çovdar çörəyi götürdü, duzladı və fikirli-fikirli anaya baxaraq, yeməyə başladı.

Vlasova:

– Bu yolu necə gedib-gəlirsiniz? – dedi. – Siz də, Nataşa da? Mən gedə bilməzdim, qorxardım!

Yeqor:

– Elə bu da qorxur! – dedi və üzünü qıza çevirib: – Qorxursunuzmu, Saşa? – deyə soruşdu.

Qız:

– Əlbəttə! – deyə cavab verdi.

Ana bir qıza baxdı, bir Yeqora və yavaşca:

– Siz necə də... sərtsiniz! – dedi.

Saşenka, çayını içəndən sonra, dinməz-söyləməz Yeqorun əlini sıxıb mətbəxə çıxdı, ana da yola salmaq üçün onun dalınca getdi. Mətbəxdə Saşenka anaya:

– Pavel Mixayloviçi görəndə məndən salam söyləyin! – dedi. – Xahiş edirəm!

Qapının dəstəsindən yapışaraq, qız birdən geri döndü və yavaşdan:

– Sizi öpmək olarmı? – deyə soruşdu.

Ana bir söz deməyib onu qucaqladı və hərarətlə öpdü.

Qız yavaş səslə:

– Sağ olun! – dedi və başını tərpədib evdən çıxdı.

Otağa qayıtdıqda ana qorxu ilə pəncərədən baxdı. Qaranlıqda sulu qar lopaları ağır-ağır yerə düşürdü.

Yeqor:



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

– Prozorovlar necə, yadınızdadırmı? – deyə anadan soruşdu.

Yeqor ayaqlarını aralı qoyub oturmuşdu, qabağındakı çayını bərkdən püfləyirdi. Onun üzü qırmızı, tərli və nəşəli idi.

Ana yan-yanı masaya yaxınlaşaraq, fikirli halda:

– Yadımdadır, yadımdadır! – dedi. Sonra da oturub qəmli gözləri ilə Yeqora baxdı və uzada-uzada:

– Vay, vay, vay – dedi. – Saşenkanı deyirəm! Bu yolu necə gedəcək?

Yeqor onun nigarançılığına şərik oldu:

– Yorulacaq! – dedi. – Həbsxana onu çox zəif salıb, qabaqlar qız möhkəm idi... Bir də tərbiyəsi nərmənazik olub... Deyəsən, ciyəri zədələnib...

Ana yavaşca soruşdu:

– Kimlərdəndir?

– Bir mülkədar qızıdır. Öz dediyinə görə, atası çox alçaq adammış. Nənəcan, onların evlənmək istədiyindən xəbəriniz varmı?

– Kimlərin?

– Pavel ilə bu qızın... Ancaq fürsət tapa bilmirlər. Pavel azad olanda qız damda olur, qız buraxılanda Paveli dama salırlar!

Bir qədər sükutdan sonra ana:

– Mənim xəbərim yox idi! – dedi. – Paşa özü haqqında heç bir şey demir...

*İndi ananın qıza daha çox yazığı gəlməyə başladı, o qeyri-ixti*yari bir narazılıqla qonağına baxıb:

– Siz onu yola salmalı idiniz!.. – dedi.

Yeqor sakit cavab verdi:

– Olmaz! Mənim burada bir yığın işim var, səhər tezdən gərək işə başlayam, ora gedəm, bura gedəm. Mənimdəki nəfəsim, belə təngiyir...

Ana, Yeqordan eşitdiyi xəbəri düşünərək, üstüörtülü bir tərzdə:

– Yaxşı qızdır! – dedi.

Bu xəbəri oğlundan deyil, yad bir adamdan eşitməsi anaya toxunmuşdu, odur ki, dodaqlarını bərk-bərk sıxıb, qaşlarını çatmışdı.

Yeqor başını əyərək:

– Yaxşıdır! – dedi. – Görürəm, sizin ona yazığınız gəlir. Nahaq yerə. Siz üsyançıların hamısının halına yanmağa başlasanız, ürəyinizdə yer qalmaz. Əslinə baxanda, heç kəsin günü bir gün deyil.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Bu yaxınlarda mənim bir yoldaşım sürgündən qayıdıb. O, Nijnidən keçəndə arvadı ilə uşağı onu Smolenskdə gözləyirmiş. O, Smolenskə yetişəndə isə arvadı ilə uşağı Moskva həbsxanasına salınmışdı. İndi arvadının növbəsidir – Sibirə gedəcək. Mənim də arvadım vardı, gözəl insan idi, beş il bu cür yaşadıqdan sonra öldü, artıq yaşaya bilmədi...

Çayını birdən başına çəkib içəndən sonra Yeqor söhbətinə davam etdi. Həbsxanada və sürgündə keçirdiyi illəri və ayları saya-saya, cürbəcür fəlakətlərdən, həbsxanada dustaqların döyülməsindən, Sibirdəki aclıqdan nağıl elədi. Ana gözünü ona dikib qulaq asır, əzablar, təqiblər, istehza və zülmlərlə dolu olan bu həyat haqqında Yeqorun belə sadə və sakit danışması onu heyrətləndirirdi...

– İndi işdən danışaq!

Yeqorun səsi dəyişdi, üzü ciddiləşdi. Ananın kitabçaları nə yol ilə fabrikə aparacağını soruşdu; ana onun ən xırda şeyləri də dərindən bilməsinə təəccüb edirdi.

Bu barədə də danışıb qurtarandan sonra, onlar yenə öz kəndlərindən söhbət eləməyə başladılar; Yeqor zarafat edir, gülürdü, ana isə öz keçmişini yadına salıb düşünürdü, bu keçmiş anaya üstü yekrəng kəsəklərlə örtülmüş, ürkək-ürkək əsən nazik ağcaqovaq, alçaq küknar ağacı və kəsəklər arasında adda-budda ağ toz ağacları bitən bir bataqlıq kimi gəlirdi. Toz ağacları yavaş-yavaş boy atır və çürük, bataqlıq torpağında dörd-beş il qalandan sonra yıxılır, çürüyürdü. Ana bu mənzərəyə baxır və nəyə isə ürəkdən yazığı gəlirdi. İnadlı, sərt üzlü bir qızın siması gəlib onun gözləri qabağında dururdu. İndi bu qız göydən lopa-lopa yağan qarın altında yorğun bir halda tək-tənha irəliləyirdi. Oğlu isə həbsxanadadır. Bəlkə də o hələ yatmır, düşünür... Ancaq onu, anasını düşünmür, onun anasından daha yaxın bir adamı vardır. Ağır-ağır düşüncələr, alabəzək və qarışıq bulud kimi, ona hücum edib bərk-bərk ürəyini çulğalayırdı...

Yeqor gülümsünərək dedi:

– Yorulmusunuz, anacan! Durun, yatmaq vaxtıdır!

Ana, onunla xudahafizləşib, ürəyində acı, zəhərli hisslər aparaq ehtiyatla yanı-yanı mətbəxə keçdi.

Səhər, çay içərkən, Yeqor soruşdu:



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

– İşdir, sizi tutub bu dinsiz kitabları haradan aldığınızı soruşsalar, nə cavab verərsiniz?

Ana cavab verdi:

– Deyərəm – “sizə dəxli yoxdur!..”

Yeqor diqqətlə anaya baxıb:

– Yox, onlar bu cavaba razı olmazlar! Onların fikrincə, bu işin məhz onlara dəxli var! Sizdən təkidlə və uzun-uzadı soruşacaqlar!

– Mən də bir söz deməərəm!

– Onda sizi dama salarlar!

Ana ah çəkərək cavab verdi:

– Daha nə eləyək? Allaha şükür ki, heç olmasa bu işə yarayaram! Mən kimə lazımam? Heç kimə. Eşitdiyimə görə də, döyüb, incitmirlər...

Yeqor diqqətle anaya baxıb:

– H-m! İncitmirlər, – dedi. – Ancaq yaxşı adam özünü gözləməlidir...

Ana gülümsünərək:

– Bunu sizdən öyrənmək olmaz!.. – deyə cavab verdi.

Yeqor, dinmədən, otaqda gəzindi və anaya yanaşıb dedi:

– Həmyerlim, çətindir! Əzizim, görürəm, sizin üçün çətindir!

Ana, əlini silkələyərək, cavab verdi:

– Hamı üçün çətindir. Bəlkə anlayanlar üçün asan ola ...ancaq yaxşı adamların nə istədiyini indi mən də az-az anlamağa başlamışam...

Yeqor ciddi dedi:

– Ana, indi ki, siz bunu anlamağa başlamısınız, deməli, siz onların hamısına lazımsınız, hamısına!

Ana, onun üzünə baxıb, heç bir söz demədən gülümsündü.

Günorta ana, rahatca və ciddi bir iş görür kimi, kitabları qoynuna doldurdu və bunu elə ustalıqla, rahatca elədi ki, Yeqor razılıqla damağını şaqqıldadıb dedi:

– Bir vedrə pivə içmiş yaxşı bir almanın dediyi kimi: zehr qut!* Bu kitablar sizi heç dəyişdirmədi, ana, siz yenə mülayim, kök, ucaboy, yaşlı arvadlığınızda qaldınız. Saysız-hesabsız allahlar sizin bu işinizə qüvvət versin!..

---

* Zehr qut – çox yaxşı! (*alm.*)



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Yarım saatdan sonra yükünün ağırlığından beli əyilmiş, sakit və öz qüvvəsinə güvənən ana fabrikin qapısı ağzında durmuşdu. Fəhlələrin istehzasından acığa düşmüş iki qapıçı həyətə girənlərin hamısını kobudcasına əlləşdirir və onlarla söyüşürdü. Kənarda isə üzü qırmızı, gözləri iti və ayaqları nazik bir adamla polis nəfəri durmuşdu. Ana çiyin ağacını bir çiynindən o biri çiyninə aşıra-aşıra altdan-altdan itigöz və nazikayaq adama baxıb, onun casus olduğunu hiss edirdi.

Şapkasını peysərinə tərəf itələmiş ucaboy, qıvrım saçlı cavan oğlan onun üst-başını axtaran qapıçılara:

– Ay məlunlar, cibimin nəyini axtarırsınız, başımı axtarın! – deyə qışqırdı.

Qapıçılardan biri:

– Sənin başında bitdən başqa nə olacaq ki! – deyə cavab verdi.

Fəhlə:

– Elə sizdən də yaxşı bit tutan çıxar! – deyə səsləndi.

Casus, cəld bir nəzərlə onu süzüb, yerə tüpürdü.

Ana qapıçılara müraciətlə təvəqqe elədi:

– Məni buraxaydınız! Görürsünüz ki, yüküm ağırdır, az qalır belim qırılsın!

Qapıçılardan biri acıqlı-acıqlı bağırdı:

– Keç, keç! Hələ danışır da...

Ana öz yerinə yetişdi, güvəcləri yerə qoydu və üzünün tərini silib ətrafına baxdı.

O saat iki qardaş, çilingər Qusevlər ona yanaşdı; qardaşlardan böyüyü Vasili, qaşlarını çatıb, ucadan soruşdu:

– Qutabın varmı?

Ana:

– Sabah gətirərəm! – deyə cavab verdi.

Bu, qabaqcadan şərtlənmiş parol idi. Qardaşların üzü açıldı. İvan, özünü saxlaya bilməyib dedi:

– Ay sənin qadanı alım, ana...

Vasili çöməlib güvəcin içinə baxmağa başladı və haman dəqiqədə bir dəstə kağız onun yan cibinə keçdi.

O ucadan:

– İvan! Gəl bu gün nahara evə getməyək, elə bunun gətirdiyindən yeyib doyanq! – deyə-deyə kitabçaları tələsik çəkməsinin boğazına soxurdu. – Təzə alverçi qadına xeyir verməк lazımdır...



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

İvan razılaşdı:

– Əlbəttə! – deyə qəhqəhə ilə güldü:

Ana ehtiyatla ətrafına göz gəzdirərək:

– İsti kələm şorbası, isti əriştə aşı! – deyə çığırırdı.

Eyni zamanda heç kəs görmədən, dəstə-dəstə kitabçaları çıxarıb qardaşlara verirdi. Hər dəfə, kitabçalar onun əlindən yox olanda, jandarm zabitinin üzü, qaranlıq otaqda yanan kibrit işığına bənzər sarı bir ləkə kimi, gəlib onun gözlərinin qabağından keçirdi; ana da öz ürəyində sevinə-sevinə sanki ona:

"Buyur, atam, bu da sənin payın..." – deyirdi.

O biri dəstəni verərkən, məqsədinə çatmış kimi, əlavə edirdi: "Buyur..."

Fəhlələr əllərində kasa anaya yanaşdılar; onlar yaxına gələndə, İvan Qusev gurultulu qəhqəhə ilə gülməyə başlayırdı, ana da kitabçaları verməyi arxayınca dayandırıb kələm şorbası və əriştə aşı paylayırdı. Qusevlər də zarafatla gülürdülər:

– Nilovna zor işləyir!

Bir nəfər ocaqçı acıqla:

– Ehtiyacdan adam siçan da tutar! – dedi, – oğlunu əlindən aldılar. Alçaqlar! Mənə üç qəpiklik əriştə aşı ver. Ürəyini sıxma, ana. Acından ölməzsən.

Ana onun üzünə gülümsündü:

– Xoş sözünə görə çox sağ ol!

Ocaqçı, anadan uzaqlaşarkən, öz-özünə deyinirdi:

– Xoş sözün bahasına pul verməmişəm ki...

Vlasova:

– İsti kələm şorbası, əriştə aşı, şorba!.. – deyə səslənirdi.

Ana özünün bu birinci təcrübəsini oğluna nə cür nağıl edəcəyini düşünür, gözünün qabağında isə zabitin karıxmış və acıqlı sarı sifəti dururdu. Bu üzdə çaşqınlıq vardı, qara bığlar tərpəşir, acıqdan yuxarı dartılmış üst dodağının altından isə bərk-bərk qıcanmış dişlərin ağ sümüyü parlayırdı. Ananın ürəyində şadlıq quş kimi cəh-cəh vurur, qaşları bic-bic oynayırdı; ana ustalıqla öz işinə davam edərək, ürəyində deyirdi:

– Al yenə!..



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

## XVI

Axşam, ana çay içərkən, eşikdən palçıqda at dırnaqlarının şappıltısı və tanış bir səs gəldi. Ana, yerindən sıçrayıb, mətbəxə, qapıya tərəf yüyürdü; eyvandan yeyin addım səsi eşidildi; ananın gözləri qaraldı, o, qapının çərçivəsinə söykənib, ayağı ilə qapını itələdi.

Tanış səs:

– Axşamınız xeyir, nənəcan! – dedi və quru, uzun əl onun çiyninə endi.

Bir yandan aldanmış ümid dərdi, bir yandan da Andreyi görmək sevinci ananın ürəyini sardı, bir-birinə qarışdı, böyük və qızğın bir hissə çevrildi; bu hiss ananı isti dalğa kimi bürüdü, qaldırdı və ana üzünü Andreyin döşündə gizlədi. Andrey bərk-bərk onu qucaqladı. Onun əlləri əsir, ana həzin-həzin ağlayırdı; Andrey, onun saçlarını oxşayaraq, nəğmə oxuyur kimi deyirdi:

– Ağlamayın, nənəcan, ürəyinizi üzməyin! Sizə and içirəm ki, onu bu tezlikdə buraxacaqlar! Onların əlində heç bir sübut yoxdur. Uşaqların hamısı, bişmiş balıq kimi, ağzını yumub bir söz demir...

Andrey ananın çiyinlərini qucaqlayıb, onu otağa gətirdi; ana, ona qısılaraq, üzündən axan göz yaşlarını tez-tez silir və susamış bir insan kimi, bütün varlığı ilə onun dediklərini udurdu:

– Pavel sizə salam göndərir, kefi kök, damağı çağdır. Həbsxana ağzınadək dolubdur! Yüzdən artıq adam tutublar, həm bizimkilərdən, həm də şəhərdən; hər kameraya üç-dörd adam salıblar. Həbsxana böyükləri pis adam deyil, yaxşıdırlar, onlar da usanıblar, lənətə gəlmiş jandarmlar onların da işini artırıblar! Onlar, həbsxana böyükləri adamlarla çox da sərt rəftar eləmirlər, ancaq deyirlər ki, ağalar, gurultu qoparmayın, bizim də üzümüzə söz gəlməsin! Beləliklə, işlər lap yaxşı gedir. Söhbət edir, bir-birinə kitab verir, yeməklərini də bölüşdürürlər. Yaxşı dustaqxanadır! Köhnədir, çirklidir, ancaq mülayimdir, xoşdur. Oğru-əyrilər də çox yaxşı adamlardır. Bizə çox kömək edirlər. Məni, Bukini, bir də dörd başqa adamı buraxdılar. Bu tezlikdə Paveli də buraxacaqlar, lap yəqin! Hamıdan artıq Vesovşikovu saxlayacaqlar, onun əlindən çox acıqlıdırlar. O dilini dinc qoymur hamısını söyüb yamanlayır! Jandarmların onu görməyə gözü yoxdur. Ola bilər ki, işini məhkəməyə versinlər, ya da bir dəfə möhkəm döysünlər. Pavel onu məzəmmət edir: "Burax, Nikolay!



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Axı sən onları söyməklə onlar yaxşı olmayacaqlar ki!" O isə heç vecinə almır: "Onların kökünü yer üzündən kəsəcəyəm!" – deyə bağırır. Pavel özünü bir qaydada möhkəm, çox yaxşı aparır. Sözün qurtaranı, Paveli bu tezlikdə buraxarlar...

Ananın ürəyi rahatlandı, o, mehriban-mehriban gülümsünərək:

– Bu tezlikdə! – dedi. – Bilirəm, çox çəkməz.

– İndi ki, bilirsiniz, daha yaxşı! Di mənə çay süzün, danışın görüm, necə dolanırdınız?

Son dərəcə mehriban və sevimli olan Andrey bütün varlığı ilə gülümsünür, anaya baxır, yumru gözlərində isə məhəbbətli və bir qədər qüssəli qığılcım parlayırdı.

Ana dərindən ah çəkib:

– Andryuşa, mən sizi çox-çox sevirəm! – dedi və onun arıq üzündə kol-kos kimi adda-budda bitmiş gülməli saqqalına diqqət etməyə başladı.

Xoxol, oturduğu kürsüdə yırğalanaraq deyirdi:

– Məni az istəsəniz də bəsimdir. Məni istədiyinizi bilirəm, siz hamını istəyə bilərsiniz, qəlbiniz genişdir!

Ana təkidlə:

– Yox, mən sizi başqa cür istəyirəm! – dedi. – Sizin ananız olsaydı, başqaları ona həsəd aparardılar ki, onun belə oğlu var...

Xoxol başını silkələdi, iki əli ilə bərk-bərk alnını sürtdü və yavaş səslə:

– Mənim də bir diyarda anam vardır... – dedi.

Ana birdən:

– Heç bilirsinizmi, bu gün mən nə eləmişəm? – dedi və sevindiyindən udquna-udquna, bir az da rəng-rövnəq verə-verə fabrikə kitabça və vərəqə apardığını tələsik nağıl eləməyə başladı.

Qabaqca xoxol heyrətdən gözlərini bərəltdi, sonra ayaqlarını oynada-oynada qəhqəhə ilə gülməyə, barmaqları ilə başına döyməyə və şadlığından qışqırmağa başladı

– Paho! Bax, buna nə demişəm! Bu zarafat deyil! Pavel çox sevinəcək, hə? Bax, bu başqa işdir, nənəcan! Həm Pavel üçün, həm də hamı üçün!

O, şadlığından çırtıq çalıb oxuyur, bütün vücudu ilə yırğalanır, nəşədən üzü işıq saçır və ananın sevincini daha da artırır, tamamlayırdı.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Ananın qəlbi sanki birdən-birə açıldı və sakit sevinclə dolu sözlər sel kimi oynaya-oynaya axmağa başladı:

– Mənim əzizim, Andryuşa! Mən öz günümü düşünürdüm, ilahi, pərvərdigara! Axı mən nə üçün yaşayırdım? Kötək... zəhmət... ərimdən başqa bir şey görməzdim, qorxudan başqa bir şey bilməzdim! Heç Paşanın da nə cür böyüdüyünü görmədim, ərimin sağlığında oğlumu sevib sevmədiyimi də bilmirəm! Fikrim-zikrim, işim-gücüm bircə şey idi – o da canavar ərimin xörəyini dadlı eləmək, onu doyuzdurmaq, ona yaxşı qulluq eləmək ki, qaş-qabağını tökməsin, yumruğu ilə məni qorxuzmasın, heç olmazsa bir dəfə mənə yazığı gəlsin. Mənə yazığı gəldiyi yadıma düşmür. Məni döyəndə də, elə bil arvadını döymür, kimə acığı tutubsa, onların hamısını döyürdü. Ömrümün iyirmi ili belə keçdi, ərdən qabaq keçirdiyim günləri isə unutmuşam. Yadıma salıram, salıram, kor kimi, heç bir şey görmürəm! Yeqor İvanoviç gəlmişdi, o da bizim kənddən imiş, cürbəcür şeylər nağıl edir, yadıma salırdı, ancaq mən görürdüm ki, evlər yadımdadır, adamlar da yadımdadır, bunların nə cür yaşadığı, nə danışdığı, kimin başına nə gəldiyi isə yadımdan çıxıb! Yanğınlar yadıma gəlir, iki yanğın. Görünür, bütün qəlbimdəkilər kötəklə oradan çıxarılıb, ürəyim bərk-bərk qapanıb, nə görür, nə eşidir...

Ana nəfəsini dərdi və sudan çıxarılmış balıq kimi udqunaraq, bir az irəli əyildi, səsini alçaldıb sözünə davam elədi:

– Ərim öləndə mən oğlumdan yapışdım, o da bu yola düşdü... Burada mənim halım xarablaşdı, ona yazığım gəldi... Tələf olsa, mən necə yaşayacağam? Nə qədər nigarançılıq çəkdim, onun fikrini eləyəndə ürəyim çatlayırdı...

Ana susdu və yavaşdan başını bulayaraq ciddiyyətlə dedi:

– Biz arvadların məhəbbəti pak deyil!.. Biz özümüzə lazım olanı sevirik. Amma sizə baxanda, görürəm, ananız üçün çox darıxırsınız, ancaq o, sizin nəyinizə lazımdır? O biri adamlar da el üçün yanır, dustaqxanalara salınır, Sibirə gedir, həlak olurlar... Cavan qızlar gecə qaranlıqda uzun yollar gedir, tək-tənha, palçıqda, qarda, yağışda şəhərdən bura yeddi verstlik yol gəlirlər. Onları qovalayan, yerindən eləyən kimdir? Onlar sevirlər! Bax, onların sevgisi pakdır, təmizdir. İnanırlar! İnanırlar, Andryuşa! Amma mən bacarmıram! Mən özümünkünü, özümə yaxın olanı sevirəm!



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Xoxol:

– Siz bacarırsınız! – dedi və üzünü kənara çevirib, həmişəki kimi, əlləri ilə başını, yanaqlarını və gözlərini bərk-bərk sürtdü. – Hamı öz yaxınını sevir, ancaq böyük qəlb üçün uzaqdakı da yaxındır. Sizin əlinizdən çox şey gələr. Ana məhəbbəti sizdə çox böyükdür.

Ana yavaşdan:

– Allah eləsin! – dedi. – Mən özüm duyuram ki, belə yaşamaq yaxşıdır! Bax, mən sizi sevirəm, bəlkə də sizi Paşadan çox sevirəm. Onun qəlbi qapalıdır. Bax o, Saşenkanı almaq istəyir, amma mənə, doğma anasına bu barədə bir söz deməyib...

Xoxol etiraz elədi:

– Yalandır! Mən yaxşı bilirəm. Yalandır. Pavel onu sevir, o da Paveli – bu düzdür. Ancaq evlənmək məsələsi yoxdur, yox! Qızın buna könlü var, amma Pavel istəmir...

Ana fikirli-fikirli və yavaşdan:

– Beləmi? – dedi və onun qüssəli gözləri xoxolun üzündə dayandı. – Demək, belə?.. Adam olan özündən də əl çəkir.

Xoxol yavaş səslə:

– Pavel kimi adam az tapılar! Dəmir adamdır... – dedi.

Ana fikirli halda sözünə davam elədi:

– Bax, indi dustaqxanada oturur! Doğrudur, adam qorxur, nigaran olur, ancaq bu qorxu da çox böyük deyil! Bütün dövran dəyişilib, qorxu da başqadır, adam hamının nikarançılığını çəkir. Ürəyim də indi başqadır, elə bil qəlbim gözlərini açıb tamaşa edir: həm sevinir, həm də qüssələnir. Çox şeyi mən başa düşmürəm, hər şeydən artıq məni incidən, məni yandıran sizin Allaha inanmamağınızdır! Ancaq, bunun çarəsi yoxdur, nə eləmək olar! Görürəm də ki, yaxşı adamlarsınız, bəli! Özünüzü də elin yolunda, haqq yolunda fəda edirsiniz. Sizin həqiqətinizi də mən anlamışam: nə qədər ki, yer üzündə dövlətli var, xalq heç bir şey ala bilməyəcək, – nə haqq, nə ağ gün, heç bir şey. Budur, mən də sizin içinizdə yaşayıram, bəzən gecələr keçmiş günlərimi yada salıram, ayaq altında getmiş qüvvətimi, əzilmiş cavan qəlbimi yadıma salıram, özümə yazığım gəlir, keçmişimə acıyıram! Yenə də indi işığa çıxmışam. Öz-özümü daha yaxşı görməyə başlamışam...



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Xoxol ayağa qalxıb, tappıltı qoparmamağa çalışaraq, asta-asta otaqda gəzinməyə başladı, o ucaboylu, arıq, fikirli idi:

– Burasını yaxşı dediniz! – dedi. – Lap yaxşı. Kerçdə bir cavan yəhudi vardı, şeir yazırdı; bir dəfə belə bir şeir yazmışdı:

Nahaq öldürüləni,
Haqqın gücü diriləndər!..

– Onun özünü də orada, Kerçdə, polislər öldürdülər, ancaq bunun əhəmiyyəti yoxdur! O, haqqın nə olduğunu bilirdi və haqqın toxumunu çox insanın ürəyinə salmışdı. İndi isə haman nahaq yerə öldürülmüş adamsınız...

Ana sözünə davam elədi:

– Bax, indi danışıram, danışa-danışa da öz səsimə qulaq asıram, öz-özümə inanıram. Bütün ömrümü bu fikirlə yaşamışam: günümü necə keçirim ki, heç kəs məni görməsin, heç kəs mənə əl vurmasın? İndi isə hamının fikrini çəkirəm; bəlkə də sizin işinizi mən yaxşı başa düşmürəm, ancaq hamınız mənə yaxınsınız, hamınıza yazığım gəlir, hamınızı xoşbəxt görmək istəyirəm... Sizi isə, Andryuşa, hamıdan artıq!..

Xoxol ona yanaşıb:

– Sağ olun! – dedi.

Onun əlini öz əlinin içinə alıb bərk sıxdı, silkələdi və tez üzünü çevirib kənara döndü. Həyəcandan yorulmuş ana susur, yavaş-yavaş stəkan-nəlbəkini yuyurdu; qəlbində coşqun və isti bir hiss yanır və onu qızdırırdı.

Xoxol gəzinə-gəzinə deyirdi:

– Nənəcan, bir dəfə də Vesovşikovu oxşayaydınız! Atası dustaqxanadadır, murdar bir qocadır. Nikolay onu pəncərədən görəndə, yamanlamağa başlayır. Yaxşı iş deyil, Nikolay mehriban oğlandır, itləri sevir, siçanları və hər cür heyvanı sevir, amma adamları sevmir. Görün, insanı nə dərəcədə xarab eləmək olarmış!

Ana fikirli-fikirli dedi:

– Onun anası itkin düşdü, atası oğru və əyyaşdır.

Andrey yatmağa gedəndə, ana sezdirmədən ona xaç çəkdi. Andrey uzanandan yarım saat sonra isə ana yavaş səslə soruşdu:

– Andryuşka, yatmısınız?



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

– Yox, necə ki?
– Gecəniz xeyrə qalsın!
Xoxol təşəkkürlə:
– Çox razıyam, nənəcan, sağ olun! – deyə cavab verdi.

## XVII

O biri gün Nilovna öz şələsi ilə fabrikin qapısına çatanda qapıçılar, kobud hərəkətlə onu dayandırıb, qabları yerə qoymağı əmr etdilər və diqqətlə hər şeyi araşdırdılar.

Qapıçılar onun paltarını əlləşdirirkən o sakit səslə:

– Xörəyi soyudarsınız! – dedi.

Qapıçı hirslə:

– Səsini kəs! – dedi.

O biri qapıçı isə, onu çiynindən yüngülcə itələyərək, qəti bir əda ilə dedi:

– Canım, mən deyirəm axı, çəpərdən atırlar!

Hamıdan qabaq onun yanına gələn qoca Sizov, ətrafına göz gəzdirib, yavaşdan soruşdu:

– Ana, xəbərin varmı?

– Nədir ki?

– Kağızlar! Yenə çıxıbdır! Toyuğa darı səpən kimi hər yerə dağıdıblar. Xalqı tutmaq, axtarmaqdan nə çıxacaq? Mənim bacıoğlum Mazini dama saldılar, hə, nə olsun? Sənin oğlunu da dama salıblar, indi bəlli olur ki, onların bu işdən xəbəri yoxmuş.

Sizov saqqalını ovcuna yığıb, anaya baxdı və gedə-gedə dedi:

– Niyə bizə gəlmirsən? Təklikdə ürəyin darıxar ki...

Ana təşəkkür elədi və gətirdiyi xörəklərin adlarını qışqıra-qışqıra, fabrikdə olan fövqəladə həyəcana diqqət yetirməyə başladı. Hamı həyəcan içində idi, adamlar gah bir yerə toplaşır, gah dağılır, bir sexdən o biri sexə qaçışırdılar. Hisli havada güclü və canlı bir küləyin əsdiyi hiss edilirdi. Orada-burada alqış nidaları, istehza ilə dolu sözlər eşidilirdi. Yaşlı fəhlələr ehtiyatlı-ehtiyatlı gülümsünürdülər. Müdiriyyət adamları qayğılı-qayğılı gəzinir, polislər o yan-bu yana vurnuxurdular; fəhlələr onları gördükdə ya yavaş-yavaş dağılır, ya da öz yerlərində durub səslərini kəsir və dinməz-söyləməz onların acıqlı, hirsli üzlərinə baxırdılar.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Fəhlələr tər-təmiz yuyunmuş kimi nəzərə gəlirdi. Böyük Qusevin uca boyu görünürdü; onun kiçik qardaşı isə, ördək kimi gəzinib, aramsız qəhqəhə ilə gülürdü.

Dülgər sexinin ustası Vavilov və tabelçi İsay yavaş addımlarla ananın yanından ötdülər. Alçaqboy, arıq tabelçi, üzünü yuxarı qalxızıb, boynunu sol tərəfə əyib, ustanın hərəkətsiz, qaşqabaqlı üzünə baxır və saqqalını tərpədə-tərpədə tez-tez deyirdi:

– İvan İvanoviç, bunlar gülürlər, bunların xoşuna gəlir, ancaq, direktor ağanın buyurduğu kimi, bu iş dövləti dağıdacaq bir işdir. Bu işdə rəhm eləməyə dəyməz, İvan İvanoviç, onları alaq eləməklə düzələn iş deyil, köklərini kəsmək lazımdır...

Vavilov əllərini dalına qoyub, barmaqlarını bərk-bərk daraqlayıb, yeriyə-yeriyə ucadan:

– İt oğlu it, – dedi, – kefin istədiyini yaza bilərsən, ancaq mənim adımı çəkmə.

Vasili Qusev anaya yaxınlaşaraq:

– Mən yenə sənin xörəyindən yeyəcəyəm, çox ləzzətlidir! – dedi.

Sonra da səsini alçaldaraq gözlərini qıydı, yavaşdan əlavə elədi:

– Gözlərini odlamışıq... Eh, anacan! İşlər yaxşı gedir, çox yaxşı!

Ana mehribancasına başını tərpətdi. Məhəllədə birinci şuluqçu olan bu oğlanın, onunla xəlvət danışarkən, ona “siz” deməyi anaya xoş gəlirdi; fabrikdə olan ümumi həyəcan da ananın xoşuna gəlirdi, odur ki, ana öz-özünə düşünürdü:

“Bəs mən olmasaydım...”

Yaxınlıqda üç qara fəhlə dayandı və onlardan biri yavaşdan, təəssüflə:

– Heç bir yerdə tapa bilmədim – dedi.

O biri:

– Qulaq asmaq lazım idi! – dedi. – Mənim savadım olmasa da, görürəm ki, sözləri onlara zor dəyibdir!

Üçüncüsü ətrafına göz gəzdirib:

– Qazançı sexinə gedək... – deyə təklif elədi.

Qusev anaya göz edib:

– Təsir eləyir! – deyə pıçıldadı.

Nilovna evə şən qayıtdı və Andreyə:

– Orada adamlar heyifsilənirlər ki, savadları yoxdur! – dedi. – Amma mən cavanlığımda oxuya bilirdim, indi unutmuşam...



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

– Öyrənin! – deyə xoxol təklif elədi.

– Mənim yaşımdamı? Xalqı özümə niyə güldürüm...

Andrey, rəfdən bir kitab götürüb, onun cildindəki hərfi bıçağın ucu ilə nişan verərək soruşdu:

– Bu nədir?

Ana gülə-gülə cavab verdi:

– Rey!

– Bəs bu?

– Əlif...

Ana sıxılır və öz halına acıyırdı. Ona elə gəlirdi ki, Andrey öz qəlbində ona gülür, odur ki, ana onun gözlərinə baxmamağa çalışırdı. Lakin Andreyin səsi yumşaq və sakit, üzü isə ciddi idi.

Ana, ixtiyarsız gülümsünərək soruşdu:

– Andryuşa! Olmaya siz doğurdan da mənə dərs vermək fikrindəsiniz?

Andrey ciddi cavab verdi:

– Nə olar ki? Bir halda ki, vaxtında oxumaq bilirdiniz, indi asanlıqla yadınıza salarsınız. Baş tutar – lap yaxşı, baş tutmaz – nə zərəri!

– Belə məsəl də var ki, hər oxuyan alim olmaz.

Xoxol başını bulayaraq:

– Eh! – dedi. – Məsəl çoxdur. Az bilən çox yaşayar, bu məsəlin nəyi doğru deyil? Ancaq məsəllərin hamısı qarından çıxır, qarın bu məsəllər ilə adamın qəlbi üçün noxta toxuyur ki, asanlıqla hökm eləsin. Bəs bu hansı hərfdir?

Ana:

– Lam! – deyə cavab verdi.

– Elədir! Gör necə də çəngəl kimi uzanıbdır! Bəs bu?

Ana, gözlərini zilləyib, qaşlarını ağır-ağır tərpədərək, unudulmuş hərfləri güclə yadına salırdı; o, özü də bilmədən bu yeni məşğuliyyətə uyaraq, tamamilə özünü unutmuşdu. Axırda gözləri yoruldu. Qabaqca yorğunluqdan gözləri yaşardı, sonra da bu gözlərdən qüssə yaşları axmağa başladı.

Ana hıçqırıb:

– Savad öyrənirəm! – dedi. – Qırx yaşım var, amma mən hələ indi savad öyrənirəm...

Xoxol mehriban və yavaş səslə:



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

– Ağlamaq lazım deyil! – dedi. – Siz başqa cür yaşaya bilməzdiniz, amma pis yaşadığınızı indi özünüz başa düşürsünüz! Minlərlə adam sizdən yaxşı yaşaya bildiyi halda, heyvan kimi yaşayır, hələ bir öyünür də: nə yaxşı yaşayıram! Ancaq bunun yaxşılığı harasındadır ki, bu gün adam işləyib qarnını doyuzdurdu, sabah da işləyib qarnını doyuzdurdu, bütün illəri belə işləyir, yeyir. Arada da oğul-uşaq törədib qabaqca bu uşaqlarla əylənir, sonra onların da çox yediyini görüb, acıqlanmağa başlayır, söyür: – a qarnı yırtılmışlar, tez böyüyün, işləmək lazımdır! Hələ öz övladını ev heyvanına döndərməyə çalışır, ancaq övlad da böyüyən kimi öz qarnı üçün işləməyə başlayır, elə bu cür də ömür keçir, dünya dolanır! Adam ona deyərlər ki, ağlı bağlayan zəncirləri qırsın. İndi siz də öz qüvvənizə görə bu işdən yapışmısınız. Ana ah çəkib:

– Eh, mənim nəyimi deyirsən! – dedi. – Mən hara, oxumaq hara?

– Bəs necə! Bu iş yağışa bənzər, hər damcısı bir dənəni suvarır. Oxumağa da başlayandan sonra...

Xoxol güldü və ayağa qalxıb, otaqda gəzinməyə başladı:

– Yox, siz oxumalısınız!.. Qoy Pavel gəlsin, görsün ki, – paho!..

Ana:

– Ah, Andryuşa! – dedi. – Adam cavan olanda, hər şey ona asan görünür, yaşın keçdimi – dərdin çoxalır, gücün azalır, ağıl da ki, – heç qalmır.

## XVIII

Axşam xoxol getdi, ana da lampanı yandırıb, corab toxumağa başladı. Çox çəkmədi ki, ana yerindən qalxdı, tərəddüdlü bir halda otaqda gəzindi, mətbəxə keçib qapını cəftələdi və qaşları səyriyə-səyriyə otağa qayıtdı. Pəncərənin pərdələrini salaraq, rəfdən kitabı götürdü, yenə masanın arxasında oturdu və ətrafına nəzər salıb gözlərini kitaba dikdi, onun dodaqları tərpənməyə başladı. Küçədən səs gələndə, ana diksinib əli ilə kitabı örtür və diqqətlə səsə qulaq asırdı. Sonra təzədən, gözlərini gah açıb, gah da yumaraq pıçıldayırdı:

– Jey, yey, zey, nun...

Qapını tıqqıldatdılar; ana yerindən sıçradı, kitabı yerinə atıb qorxu ilə soruşdu:



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

– Kimdir?

– Mənəm...

Rıbin içəri girdi və təmkinlə saqqalını tumarlayıb dedi:

– Əvvəllərdə gələnin kim olduğunu soruşmazdın. Yoxsa təksən? Belə! Mən dedim bəs xoxol evdədir. Bu gün onu gördüm... Dustaqxana adamı xarab eləmirmiş.

Oturandan sonra davam elədi:

– Gəl, dərdləşək...

Rıbin ciddiyyətlə, sirli adam kimi baxır və anada anlaşılmaz bir vahimə yaradırdı. Söhbətə davam edərək Rıbin ağır səsi ilə dedi:

– Hər şey pula bənddir! Müftə nə doğulur, nə də ölürlər, bəli. Kitablara, vərəqələrə də pul lazımdır. Bu kitablara haradan pul verildiyini bilirsənmi?

*Ana təhlükəli bir şey duymuş kimi, yavaşdan:*

– Bilmirəm! – deyə cavab verdi.

– Belə. Mən də bilmirəm. İkinci – kitabları kim yazır?

– Alimlər...

Rıbin:

– Ağalar! – deyə qeyd elədi və saqqallı üzü gərginlikdən qızardı. – Demək, kitabları yazan da, yayan da ağalardır. Bu kitablarda yazılanın da hamısı ağaların ziddinədir. İndi mənə de görüm, pul xərcləyib xalqı özlərinə qarşı qalxızmaqda onların xeyri nədir? Hə?

Ana kirpiklərini çalaraq, qorxu ilə qışqırdı:

– Sənin fikrin nədir?..

Rıbin, ayı kimi, yerində qurcalandı:

– Aha! – dedi. – Budur ha! Mən də düşünə-düşünə buraya gəlib çatanda, canıma titrətmə düşdü.

– Bir şey öyrənə bildinmi?

*Rıbin:*

– Yalandır! – deyə cavab verdi. – Yalan olduğunu duyuram. Qəti bir şey bilmirəm, ancaq burada hökmən bir yalan var. Bəli, nə isə ağalar bir fənd qururlar. Ancaq mənə həqiqəti bilmək lazımdı. Mən də həqiqəti anladım. Ağalarla bərabər gedən deyiləm. Yeri gələndə, onlar məni irəli itələyəcək, sonra da mənim sümüklərimin üstü ilə, körpüdən keçən kimi, keçib irəli addımlayacaqlar...

O bu kədərli sözləri ilə sanki ananın qəlbini tutub bağlayırdı. Ana qüssə ilə:



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

– Pərvərdigara! – deyə səsləndi. – Yoxsa Paşa bunu anlamır? O biriləri də...

Yeqorun, Nikolay İvanoviçin, Saşenkanın namuslu və ciddi surətləri gözlərinin qabağında durdu və ananın ürəyi birdən çapaladı.

Ana başını bulayaraq:

– Yox, yox! – dedi. – İnanmaram. Onlar vicdanla iş görürlər.

Rıbin fikirli halda soruşdu:

– Kimi deyirsən?

– Hamısını... Gördüklərimin hamısını!

Rıbin başını aşağı saldı:

– Mən gördüyünü demirəm, ana, uzağa bax! Bizə yaxınlaşanların özləri də bəlkə bir şey bilmirlər. Onlar inanırlar ki, belə də lazımdır! Bəlkə bunların dalında duran başqaları var ki, bu işdən ancaq xeyir güdürlər? Adam heç vaxt nahaq yerə özünə zidd getməz...

Kəndlilərə məxsus ağır bir inamla Rıbin əlavə elədi:

– Heç vaxt ağalardan bir yaxşı iş baş verməz!

Yenə şübhələnməyə başlayan ana soruşdu:

– İndi fikrin nədir?

Rıbin:

– Mənimmi? – deyə ona baxdı, kiridi və yenə təkrar elədi: – Ağalardan uzaq olmaq lazımdır. Bəli!

O yenə, səsini kəsib qaşqabağını tökdü:

– Mən cavanlara qoşulmaq istədim, onlarla bərabər işləmək istədim. Bu iş mənim əlimdən gələn işdir, xalqa nə demək lazım olduğunu bilirəm. Bəli. Ancaq indi mən kənara çəkilməliyəm. Mən inana bilmirəm, odur ki, uzaqlaşmalıyam.

O, başını aşağı salıb, fikrə getdi:

– Təkbaşıma kəndbəkənd, diyarbadiyar gəzəcəyəm. Xalqı üsyana çağıracağam. El özü bu işə yapışmalıdır. El anlasa, özünə yol açar. Mən də nəfəsim gəlincə onu başa salacağam, qoy bilsin ki, özündən savayı onun heç bir ümid yeri yoxdur, öz ağlına güvənməlidir. Bax, belə!

Ananın ona rəhmi gəldi və ondan nigaran olmağa başladı. Rıbin ananın xoşuna gəlməzdi, amma indi nədənsə o, birdən-birə anaya yaxın oldu; yavaş səslə ana:



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

– Səni tutarlar... – dedi.

Rıbin, onun üzünə baxıb, sakit səslə:

– Tutarlar, buraxarlar! – dedi. – Mən yenə öz bildiyimi elərəm...

– Kəndlilər özləri sənin əl-ayağını bağlayarlar. Dustaqxanada yatıb qalarsan...

– Bir az yatıb çıxaram. Yenə işimə başlaram. Kəndlilərə gələndə, bir bağlayarlar, iki bağlayarlar, axırda başa düşərlər ki, mənim əl-ayağımı bağlamaq yox, sözümə qulaq asmaq lazımdır. Mən onlara deyərəm: "Siz mənə inanmayın, ancaq sözümə qulaq asın". Qulaq assalar, inanarlar!

Rıbin yavaş-yavaş, hər sözü deməzdən qabaq sanki yoxlaya-yoxlaya danışırdı:

– Bu axır vaxtlar mən burada çox şey öyrənmişəm. Bəzi mətləbləri də anlamışam...

Ana qəmli-qəmli başını bulayaraq:

– Tələf olarsan, Mixaylo İvanoviç! – dedi.

Bir şey soruşub cavab gözləyirmiş kimi, Rıbin həsrət dolu mənalı gözləri ilə anaya baxırdı. Onun möhkəm bədəni irəli əyilmiş, əlləri kürsünün oturacağına dayanmışdı, qara saqqalı ilə çərçivələnmiş qarabuğdayı üzü solğun görünürdü:

– İsanın bir buğda dənəsi haqqında dediyini eşitmisənmi? Ölməsən – təzə sünbül içində dirilməzsən. Hələ mənim ölümümə çox var. Mən fəndgirəm!

Rıbin kürsüdə yırğalanıb, ehmalca ayağa qalxdı:

– Çayxanaya gedim, orada camaat arasında oturum. Nədənsə xoxol gəlmir. Yenə başı işə qarışıbdırmı?

Ana gülümsünərək:

– Bəli! – deyə cavab verdi.

– Belə də lazımdır. Mənim gəldiyimi ona söylə...

Onlar çiyin-çiyinə yavaş-yavaş mətbəxə keçdilər və bir-birinin üzünə baxmadan, qısa sözlərlə söhbətlərini davam etdirdilər:

– Di salamat qal!

– Xoş gəldin. Havaxt haqq-hesabını alırsan?..

– Haqq-hesabımı almışam.

– Bəs havaxt gedirsən?

– Sabah. Səhər tezdən. Salamat ol!



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Rıbin belini əydi və könülsüz, ağır-ağır eyvana çıxdı. Ana ağır addımlarla və ürəyində baş qaldıran şübhələrə qulaq verə-verə, bir dəqiqə qapının ağzında dayandı. Sonra yavaşca dönüb otağa qayıtdı və pərdəni qalxızıb eşiyə baxdı. Eşikdə hərəkətsiz, qara zülmət dururdu.

Ana öz-özünə:

"Gecələr yaşayıram!" – deyə fikirləşdi.

Bu ciddi kəndliyə ananın yazığı gəlirdi – nə qədər geniş ürəkli, nə qədər qüvvətli kişi idi!

Andrey gümrah və şən bir halda gəldi.

Ana Rıbinin gəldiyini və dediklərini ona nağıl edəndən sonra Andrey:

– Qoy getsin, kəndləri gəzsin, haqdan car çəksin, xalqı oyatsın! – deyə səsləndi. – Bizimlə çətin ayaqlaşar. Onun başında kəndli fikirləri yer eləyib, bizim dediyimiz başına sığışmaz...

Ana ehtiyatla:

– Ağalardan danışırdı, burada bir iş var, – dedi. – Aldatmasalar yaxşıdır!

Xoxol gülə-gülə:

– Olmaya qorxudur? Eh, ay nənəcan, pul! Əlimizdə pul olsaydı! Biz hələ özgələrin pulu ilə iş görürük. Bax, Nikolay İvanoviç ayda yetmiş beş manat alır, əllisini bizə verir. O biriləri də belə. Bir də ac tələbələr, qəpik-qəpik yığıb, hərdənbir bizə göndərirlər. Ağaların da içində, əlbəttə, hər cürü var: bəziləri aldadar, bəziləri soyuyub işdən çəkilər, lap yaxşıları isə bizimlə qalar...

Andrey, əlini əlinə vurub, sözünə davam elədi:

– Bizim bayramımıza hələ çox qalır, ancaq mayın birində balaca bir bayram quracağıq! Ah, nə yaxşı olacaq!

Xoxolun bu gümrahlığı Rıbinin söhbətindən yaranan vahiməni ananın qəlbindən dağıdırdı. Xoxol otaqda gəzinir, əli ilə başını *sürtür və yerə baxa-baxa deyirdi:*

– Heç bilirsinizmi, bəzən adamın qəlbində qəribə-qəribə şeylər olur. Adama elə gəlir ki, hara getsən – hər yanda yoldaşlardır, hamı bir odda yanır, hamı şad, mehriban, sevimlidir. Sözsüz də bir-birini anlayır... Hamı bir can kimi yaşayır, hər ürək də öz nəğməsini oxuyur. Bu nəğmələr, balaca arxlar kimi, axıb bir çaya tökülür, bu çay da



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

geniş yol ilə sərbəst axıb yeni həyatın nurlu sevinclər dəryasına tökülür.

Ana xoxolun sözünü kəsməmək, onun fikrini dağıtmamaq üçün tərpənməməyə çalışırdı. Ana onun sözlərinə həmişə o birilərinkindən artıq diqqətlə qulaq asırdı; xoxol hamıdan sadə danışır və onun sözləri ananın qəlbinə hamıdan artıq təsir edirdi. Pavel heç vaxt qabaqda nə gördüyünü deməzdi. Bu isə, anaya elə gəlirdi ki, ürəyinin bir parçası ilə daim gələcəkdə yaşayır, onun nitqlərində bütün yer üzündə yaşayanlar üçün gələcək bayram dastanı eşidilirdi. Bu dastan anaya oğlunun və onun bütün yoldaşlarının yaşadığı həyatın və onların fəaliyyətinin mənasını aydınlaşdırırdı.

Xoxol, başını silkələyərək deyirdi:

– Özünə gəlib ətrafa baxanda, – soyuq və palçıq görürsən! Hamı usanıb, qəzəblənibdir...

Dərin bir qüssə ilə xoxol davam etdi:

– Bunu görəndə, adamın ürəyi xarab olur; insana inanmaq olmaz, ondan qorxmaq, bəlkə də ona nifrət etmək lazımdır. Adamın ürəyi ikitirə olur. Sən hamını ancaq sevmək istərdin, bu isə necə mümkün ola bilər? Bir adam ki, sənə vəhşi heyvan kimi hücum edir, səndə canlı ruh olduğunu danır, sənin insan sifətini təpik altında əzir, belə adamı necə bağışlayasan? Bağışlamaq olmaz! Öz haqqımda demirəm, mən öz haqqımda edilən bütün haqsızlıqlara dözə bilərəm, ancaq zorakılıq edənlərə yol vermək istəmirəm, istəmirəm ki, mənim kürəyimdə başqalarını döyməyi öyrənsinlər.

İndi onun gözlərində soyuq bir od alışırdı; o, inad ilə başını qabağa əyib möhkəm və qəti səslə deyirdi:

– *Mən heç bir zərərli şeyə, bu şeyin mənim özümə zərəri dəy*məsə də, yol verməməliyəm. Mən dünyada tək deyiləm! Bu gün mən özümü incitməyə yol versəm, bəlkə də məni incidənə gülsəm, ona etina etməsəm, məni incidən adam, məndə öz gücünü sınayıb, sabah başqasının dərisini boğazından çıxarmağa can atar. Odur ki, adamlara cürbəcür yanaşmaq, ürəyi möhkəm saxlamaq, adamları seçmək, ayırmaq lazım gəlir: bunlar özümüzünküdür, amma bunlar yaddır. Ədalət belə buyurur, ancaq yenə də adam təsəlli tapa bilmir.

Nədənsə ana zabitlə Saşenkanı xatırladı. Ürəkdən ah çəkib dedi:

– Ələnməmiş unun nə çörəyi olacaq!..



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Xoxol:

– Elə dərd də burasındadır! – dedi.

– Əlbəttə! – İndi ərinin mamıra bürünmüş yekə daş kimi ağır və acıqlı siması ananın xatirinə gəldi. Ana xoxolu Nataşanın, oğlunu isə Saşenkanın əri kimi təsəvvür elədi.

Xoxol qızışaraq:

– Bəs bunun səbəbi nədir? – deyə soruşdu. – Bu elə aydın görünür ki, adamın gülməyi gəlir. Bunun bircə səbəbi var ki, o da adamların bərabər olmamasıdır. İndi ki, belədir, gəlin hamını birləşdirək! Hər nə ki, ağıl qurub, hər nə ki, əl qayırıb, bərabərcə bölək! Bir-birimizi qorxu və paxıllıq, tamah və axmaqlıq əsarətində saxlamayaq!..

Bu cür söhbətlər onların arasında tez-tez təkrar olunurdu.

Naxodkanı yenə fabrikə götürdülər, bütün donluğunu xoxol anaya verirdi, ana bu pulları, Paveldən aldığı kimi, sakitcə alırdı.

Bəzən Andrey, gözləri ilə gülə-gülə anaya təklif edirdi:

– Gəlin bir az oxuyaq, nənəcan? Hə?

Ana, zarafata salıb, həmişə bu təklifləri rədd edirdi, Andreyin bu gülüşü onu utandırırdı, o bir qədər incik halda fikirləşirdi.

"İndi ki, gülürsən, ta nə lazım?"

Bununla belə ana başa düşmədiyi kitab sözlərinin mənasını xoxoldan getdikcə daha çox xəbər alırdı. Xəbər alarkən də yana baxır və səsində etinasızlıq duyulurdu. Andrey ananın öz-özünə yavaşdan savad öyrəndiyini sezmiş, onun utandığını anlamışdı, ona görə daha bir yerdə oxumağı təklif eləmirdi. Bir azdan sonra ana:

– Andryuşa! – dedi. – Gözlərimin işığı gedir. Bir gözlük lazımdır.

Andrey:

– Çox gözəl! – deyə cavab verdi. – Bazar günü bərabər şəhərə gedərik, gözünüzü həkimə göstərərik, gözlük də alarıq...

## XIX

Pavel ilə görüşməyə icazə almaq üçün, ana üç dəfə şəhərə getmişdi; hər dəfə də jandarm generalı, çal saçlı, tünd-qırmızı yanaqlı, iri burunlu qoca kişi, onun xahişini nəzakətlə rədd etmişdi:



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

– Bircə həftədən sonra, xala, bundan tez olmaz! Bir həftədən sonra baxarıq, indi mümkün deyil...

Bu general yumru, gümrah, tox bir adam idi; o bir müddət tax-çada qalıb, bir az kifsəmiş lalıx albuxaraya oxşayırdı. General həmişə ucu biz, sarı bir çöp ilə ağ narın dişlərini qurdalayırdı, onun yaşıla çalan balaca gözləri mülayim-mülayim gülümsəyirdi, səsi nəzakəti və mehriban idi.

Ana düşünə-düşünə xoxola deyirdi:

– Ədəbli kişidir! Hey gülümsünür.

Xoxol:

– Bəli, bəli! – deyə cavab verdi. – Onlar belədirlər, mehriban danışır, gülümsünürlər. Onlara desələr ki, bax bu adam ağıllı və namuslu bir adamdır, ancaq bizim üçün təhlükəlidir, onu dar ağacına çək! Onlar gülümsünüb, dar ağaçına çəkər, sonra yenə də gülümsünərlər.

Ana müqayisə edərək:

– O bizim evi axtaran bundan sadədir, – dedi. – O saat bilinir ki, itin biridir...

– Bunların hamısı adam deyil, adamları vurub yerə yıxmaq üçün toxmaqdırlar. Alətdirlər. Bu alətlərlə bizləri yonub düzəldirlər ki, əlyatım olaq. Onların özləri üzərimizdə hakimiyyət sürən əllər üçün yatımlı bir hala salınmışlar. Nə buyursalar, onlar düşünmədən, nə üçün deyə soruşmadan, gözəlcə yerinə yetirirlər.

Nəhayət, anaya görüşmək icazəsi verildi. Bazar günü ana yazıq-yazıq həbsxana dəftərxanasının bir bucağında oturmuşdu. Bu dar, kirli və alçacıq otaqda ondan başqa yenə bir neçə nəfər oturub, öz adamları ilə görüş gözləyirdi. Belə məlum olurdu ki, onlar dəfələrlə buraya gəlmişdilər və bir-birini tanıyırdılar; onların arasında sakit, tənbəl, hörümçək toru kimi suvaşqan, yavaş söhbət gedirdi. Dizinin üstündə əl çantası olan, üzünün əti sallaq, kök bir qadın deyirdi:

– Eşitmisinizmi? Bu gün səhər kilsə regenti* kilsədə oxuyan bir uşağın qulağını çəkib cırıbdır.

İstefada olan hərbiçi mundiri geymiş yaşlı bir kişi ucadan öskürüb dedi:

– Kilsədə oxuyanlar şıltaq uşaqlardır!

---

* Kilsədə oxuyan xorun dirijoru



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Alçaq boylu, başı daz, ayaqları qısa, qolları uzun, çənəsi qabağa çıxmış bir kişi dəftərxanada tez-tez o yan-bu yana vurnuxurdu. O, dayanmadan həyəcanlı və cırıldayan səslə deyirdi:

– Bahalıq gündən-günə artır, odur ki, adamların da ürəyi kinlə dolur. İkinci çeşid mal ətinin girvənkəsi on dörd qəpik olub, çörəyin girvənkəsi yenə iki qəpik yarım olub...

Hərdənbir ağır, gen başmaqlı, bir-birinə bənzəyən, boz geyimli dustaqlar içəri girirdilər. Yarıqaranlıq otağa girərkən, onlar gözlərini döyməyə başlayırdılar. Birinin ayağında qandal cingildəyirdi.

Hər şeydə əcaib bir sakitlik və ürək sıxan bir sadəlik hiss edilirdi. Hamı çoxdan bəri öz halına alışmış, adət etmiş kimi, nəzərə gəlirdi; adamların bir hissəsi sakit oturur, o biriləri tənbəlcəsinə qarovul çəkir, üçüncüləri yorğun-yorğun, vaxtında gəlib, öz dustağını yoluxurdu. Ananın ürəyi səbirsizlikdən əsirdi, bu cansıxıcı sadəlikdən çaşıb qalan ana ətrafındakı hər şeyə təəccüblə baxırdı.

Vlasovanın yanında üzü qırışmış, gözlərindən isə cavanlıq yağan balacaboy bir qarı oturmuşdu. Bu qarı nazik boynunu gah o tərəfə, gah da bu tərəfə çevirə-çevirə, danışılan sözlərə qulaq asır və hamıya qəribə bir acıqla baxırdı. Vlasova ona tərəf əyilib yavaşdan:

– Burada sizin kiminiz dustaqdır? – deyə soruşdu.

Qarı ucadan və cəld:

– Oğlum! – dedi. – Tələbədir. Bəs sizin?

– Mənim də oğlum. Fəhlədir.

– Familiyası nədir?

– Vlasov.

– Eşitməmişəm. Çoxdanmı dustaqdır?

– Yeddinci həftədir.

Qarı:

– Mənimki onuncu aydır! – dedi və onun səsində Vlasova iftixar hissinə bənzər qəribə bir ahəng duydu.

Başı daz qoca tez-tez deyirdi:

– Bəli, bəli! Xalqın səbri tükənir... Hamı acığa düşür, hamı bağırır, hər şey bahalaşır. Amma adamlar buna nisbətən qiymətdən düşür. Xalqı barışığa çağıran bir səs gəlmir.

Hərbi geyimli qoca:

– Lap doğrudur! – dedi. – Tamam biabırçılıqdır! Nəhayət, möhkəm bir səs – sus! deməlidir. Bizə lazım olan budur. Möhkəm səs...



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Söhbət ümumiləşdi, qızışdı. Hər kəs həyat haqqında öz fikrini söyləməyə tələsirdi, lakin hamı yavaş səslə danışırdı: bu adamlarda ana bir yadlıq, özgəlik duyurdu; evdə başqa cür, aydın, sadə, ucadan danışırlar.

Kvadrat şəklində kürən saqqallı, qarnı yoğun nəzarətçi ananın familiyasını qışqırıb, onu başdan-ayağa gözdən keçirdi və:

– Dalımca gəl... – deyə, axsaya-axsaya, getməyə başladı.

Ana onun dalınca yeriyir və nəzarətçini arxadan itələmək istəyirdi ki, tez yerisin. Pavel, otaqda dayanıb, gülümsünür və əlini ona tərəf uzadırdı. Ana onun əlindən tutdu, kirpiklərini tez-tez çalaraq, gülməyə başladı və söz tapmayaraq yavaş səslə:

– Xoş gördük... xoş gördük... – dedi.

Pavel onun əlini sıxa-sıxa:

– Sən sakit ol, ana!.. – dedi.

– Eyibi yoxdur, keçər.

Nəzarətçi ah çəkib:

– Anadır! – dedi. – Ancaq yenə də bir qədər aralı durun, aranızda məsafə olmalıdır...

Bunu deyib ucadan əsnədi. Pavel anasının kefini, evi xəbər alırdı... Başqa suallar gözləyən ana bu sualları oğlunun gözlərində axtarır, amma tapa bilmirdi. Həmişəki kimi, Pavel sakit idi, yalnız rəngi bir qədər qaçmış, gözləri də deyəsən, bir qədər böyümüşdü.

– Saşa salam göndərirdi! – dedi.

Pavel diksindi, üzü mülayimləşdi, o gülümsündü. Kəskin bir acılıq ananın ürəyini sancdı. Acıq və hirs ilə:

– Bəs səni havaxt buraxacaqlar? – dedi. – Nə üstə tutublar? Budur yenə kağız dağıdırlar...

Pavelin gözləri sevinclə parıldadı. O, cəld soruşdu:

– Yenəmi?

Nəzarətçi tənbəl-tənbəl:

– Belə işlərdən danışmaq qadağandır! – dedi – Ancaq ev işlərindən danışmaq olar...

Ana etiraz ilə:

– Bəs bu, ev işi deyil, nədir? – dedi.

Nəzarətçi soyuqqanlı:

– Bilmirəm! – dedi. – Ancaq qadağandır.

Pavel:

– Evdən danış, ana! Sən özün necəsən?



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Ana özündə gəncliyə məxsus bir ötkəmlik hiss edərək, cavab verdi:

– Fabrikə cürbəcür şey daşıyıram...

Sonra dayandı və gülümsünərək davam elədi:

– Kələm şorbası, aş, Mariya bişirdiyi xörəkləri daşıyıram, başqa xörəkləri də...

Pavel başa düşdü. Gülməyini saxladığından onun üzü titrədi, əli ilə saçlarını qarışdırıb, indiyə kimi ananın ondan eşitmədiyi nəvaziş dolu bir səslə dedi:

– Yaxşı ki, özünə iş tapmısan, darıxmırsan!

Ana bir qədər lovğalıqla qeyd elədi:

– Elə ki, o vərəqələr çıxdı, məni də axtarmağa başladılar.

Nəzarətçi inciyən kimi:

– Yenə bu barədə danışırsız! – dedi. – Axı dedim ki, olmaz! Adamı dama salırlar ki, heç zaddan xəbəri olmasın, səndə elə öz bildiyindən başlamısan! Nəyin qadağan olduğunu anlamaq lazımdır.

Pavel:

– Yaxşı, ana, boşla! – dedi, – Matvey İvanoviç yaxşı adamdır, onu hirsləndirmə. Biz onunla dostuq. Görəsən, necə olub ki, bu gün o burada oturub, yoxsa həmişə görüş vaxtı müdirin müavini gəlir.

Nəzarətçi saatına baxıb:

– Görüş qurtardı! – dedi.

Pavel:

– Di sağ ol, ana! – dedi. – Çox sağ ol, əzizim! Sən nigaran olma. Məni tez buraxarlar...

Pavel bərk-bərk onu bağrına basdı, üzündən öpdü. Bundan kövrəlmiş ana biixtiyar ağladı. Nəzarətçi:

– Aralanın! – dedi və ananı yola salarkən, yavaşdan əlavə elədi:

– Ağlama, buraxarlar! Hamını buraxacaqlar. Yaman darısqallıqdır...

Evdə ana, gülə-gülə və sevinclə qaşlarını oynada-oynada, xoxola nağıl edirdi:

– Ona ustalıqla dedim, – başa düşdü!

Sonra ürəkdən ah çəkib, əlavə elədi:

– Başa düşdü! Yoxsa məni elə mehriban oxşamazdı. İndiyə kimi heç belə eləməmişdi!



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Xoxol güldü:

– Analar belədir! Kim nə axtarsa, ana da həmişə mehribançılıq axtarar.

Ana birdən heyrətlə:

– Yox, *Andryuşa! – deyə səsləndi. – Bir insanlara tamaşa elə!* Gör necə adət eləyiblər! Uşaqlarını əllərindən alıb dama salıblar, onlar heç nə veclərinə almır, gəlib oturur, gözləyir, söhbət edirlər, hə? Oxumuş adamlar buna alışanda, daha qara camaata nə deyəsən?..

Xoxol, yenə gülümsünərək, cavab verdi:

– Burada qəribə bir şey yoxdur, necə olsa, qanun onlara bizdən mülayim yanaşır, həm də onların qanuna olan ehtiyacı bizimkindən artıqdır. Odur ki, qanun onların alnından vuranda, onlar üzlərini turşudurlarsa da, çox ah-vay eləmirlər. Dəyənək özlərinindir – yavaşdan vurur...

## XX

Bir gün axşamçağı ana masanın başında oturub corab toxuyurdu, xoxol da ucadan Roma qullarının üsyanı haqqında kitab oxuyurdu; birdən qapı bərk döyüldü, xoxol qapını açanda, qoltuğunda bir bağlama, şapkası peysərində, dizə kimi palçığa batmış Vesovşikov içəri girdi. O, qəribə bir səslə:

– Buradan keçirdim, gördüm işıq gəlir. Dedim qapıdan salam verim. Düz dustaqxanadan gəlirəm! – deyə ananın əlini tutub bərk-bərk sıxdı və:

– Pavel salam göndərirdi... – dedi.

Sonra tərəddüdlü bir halda kürsüyə əyləşib, qaranlıq, şübhəli nəzərlə otağa göz gəzdirdi.

Vesovşikov ananın xoşuna gəlmirdi; onun saçı dibdən vurulmuş uzunsov başında, balaca gözlərində ana daim onu qorxudan bir şey hiss edirdi, indi isə, Vesovşikovun gəldiyinə şadlanaraq, gülə-gülə, sevinə-sevinə nəvazişlə deyirdi:

– Bir az sınıxmısan! Andryuşa, qonağa çay verək!..

Xoxol mətbəxdən cavab verdi:

– Samovarı odlayıram!



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

– De görüm, Pavel necədir? Yenə adam buraxdılar, ya bircə səni buraxıblar?

Nikolay başını aşağı salıb:

– Pavel hələ yatır, səbr edir: Tək məni buraxdılar!.. – dedi.

O, başını qaldırıb gözlərini anaya dikdi, tələsmədən dişləri arasından əlavə elədi:

– Onlara dedim – bəsdir, məni azad eləyin!.. Yoxsa burada birini öldürərəm, özümü də. Buraxdılar.

Ana kənara çəkildi və:

– Bəli!.. – dedi, nəzəri onun xırda, iti gözlərinə sataşanda, ixtiyarsız gözlərini döydü.

Xoxol:

– Fedya Mazin necədir? – deyə mətbəxdən soruşdu. – Yenə şeir yazırmı?

Nikolay:

– Yazır! Mən ondan baş aça bilmirəm! – deyə başını yırğaladı. – Bilmirəm bu, bülbüldür, nədir? Qəfəsə salıblar – oxuyur. Mənim anladığım bircə şey var – evimizə getməyə heç könlüm yoxdur.

Ana fikirli halda cavab verdi:

– Eh, sizdə nə var ki? Eviniz boş, soba soyuq, – hər şey donub...

Nikolay gözlərini qıyıb susdu. Cibindən bir papiros çıxartdı, ehmalca yandırdı və üzünün qabağında yayılmaqda olan tüstüyə baxa-baxa, acıqlı köpək kimi dişlərini ağartdı:

– Elədir, yəqin, soyuqdur. Donmuş tarakanlar yerə sərilib. Siçanlar da donub... – Sonra ananın üzünə baxmadan boğuq səslə: – Pelageya Nilovna, izn ver gecəni burada keçirim, olarmı? – deyə soruşdu.

Ana:

– Əlbəttə, olar!.. – deyə cəld cavab verdi. Onun yanında ana özünü narahat hiss edir, sıxılırdı.

– İndi elə vaxtdır ki, övlad ata-anasının yerinə xəcalət çəkir...

Ana diksinib soruşdu:

– Necə?

Nikolay onun üzünə baxıb gözlərini yumdu və onun çopur üzü kor üzü kimi oldu:

– Deyirəm, uşaqlar ata-anasının yerinə xəcalət çəkməyə başlayıb! – deyə Nikolay təkrar elədi və ucadan ah çəkdi. – Sənin



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

üstündə Pavel heç vaxt başıaşağı olmaz. Amma mən atama görə xəcalət çəkirəm. Onun evinə də... daha getməyəcəyəm. Mənim atam yoxdur... evim də yoxdur! Mən polis nəzarəti altındayam, yoxsa başımı kötürüb Sibirə gedərdim... Orada sürgün edilənləri qurtarardım, onları qaçırdardım...

Ana həssas qəlbi ilə bu adamın ağır vəziyyətdə olduğunu duyurdu, ancaq onun dərdi ananın ürəyində mərhəmət oyatmırdı.

Ana sükutu ilə onun qəlbinə dəyməmək üçün:

– Əlbəttə, belə olanda... qoyub getmək yaxşıdır, – dedi.

Andrey mətbəxdən çıxıb, gülə-gülə dedi:

– Yenə nə moizə edirsən, hə?

Ana ayağa qalxıb:

– Gedim, yemək tədarükü görüm... – dedi.

Vesovşikov diqqətlə xoxola baxıb birdən dedi:

– Mənə belə gəlir ki, bəzi adamları öldürmək lazımdır!

Xoxol:

– Oho! Nə üçün? – deyə soruşdu.

– Yaşamamaqları üçün...

Uca boylu, vücudu quru xoxol, ayaqları üstündə yırğalanaraq, əli cibində, otağın ortasında durub yuxarıdan aşağı Nikolaya baxırdı, papiros tüstüsünə bürünmüş Nikolay isə kürsüdə möhkəm oturmuşdu və onun boz üzü qırmızı ləkələrlə örtülmüşdü:

– İsay Qorbovun boğazını üzəcəyəm, görərsən!

Xoxol soruşdu:

– Səbəbi?

Vesovşikov kinli-kinli Andreyə baxaraq:

– Casusluq eləməsin, xəbər aparmasın, – dedi. – Onun ucundan atam məhv oldu, indi də onun ucundan xəfiyyə olmaq fikrinə düşüb.

Xoxol:

– Ah, beləmi? – dedi. – Yaxşı, kim səni bunda müqəssir tutur ki? Axmaqlar!..

Nikolay inadla:

– Axmaqlar da, ağıllılar da, hamısı bir xəmirdən yoğrulubdur! – dedi. – Bax, sən ağıllısan, Pavel – həmçinin; bir de görüm, siz məni Fedka Mazin ya Samoylovla bir bərabərdə hesab edirsiniz, ya da siz ikiniz bir-birinizi tutan kimi tutursunuzmu? Yalan danışma, hamısı birdir, inanmaram... siz hamınız məni kənara atırsınız, ayrı tutursunuz.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Xoxol onun yanında oturub, yavaş və mehriban səslə:

– Sənin qəlbin ağrıyır, Nikolay! – dedi.

– Ağrıyır. Sizinki də ağrıyır... Ancaq siz öz dərdinizi mənimkindən uca, nəcib hesab edirsiniz. Biz hamımız bir-birimizə qarşı əclafıq, mənim sözüm budur. İndi sən mənə nə deyə bilərsən? Buyur, görüm?

Nikolay iti gözlərini Andreyin üzünə dikib dişlərini ağarda-ağarda cavab gözləyirdi. Onun rəng verib, rəng alan üzü hərəkətsiz idi, qalın dodaqları, isti bir şeydən yanan kimi, titrəyirdi.

Xoxol mavi gözlərinin qəmli təbəssümü ilə Vesovşikovun ədalətli nəzərini oxşaya-oxşaya:

– Sənə deyiləsi bir sözüm yoxdur, – dedi. – Mən bilirəm, adamın ürəyindəki yaralar açılıb qan saçdığı zaman onunla bəhs eləmək – onu incitmək deməkdir. Mən yaxşı bilirəm, əzizim!

Nikolay gözlərini aşağı dikib dedi:

– Mənimlə bəhs eləməyə dəyməz, mən bunu bacarmıram!

Xoxol sözünə davam etdi:

– Mənə belə gəlir ki, bizim hər birimiz şüşə qırıqlarının üstü ilə ayağı yalın yerimiş, qara günlərində hər kəs, sənin indi nəfəs aldığın kimi, nəfəs almışdır...

Vesovşikov ağır-ağır:

– Sən mənə heç bir şey deyə bilməzsən, – dedi. – Mənim qəlbimdə elə bil canavar ulayır!..

– Heç demək də istəmirəm. Ancaq yəqinimdir ki, bu halın keçib gedəcək. Lap da keçməsə, yenə yüngülləşəcək!

Xoxol gülümsündü və əlini Nikolayın çiyninə vurub, sözünə davam etdi:

– Bilirsənmi, əzizim, bu, qızılça kimi bir uşaq naxoşluğudur. Bu naxoşluğa biz hamımız tutuluruq, qüvvətlilər onu yüngül keçirir, zəiflər ağır. Adam özünün nə olduğunu qananda, həyatı və həyatda öz yerini isə hələ görməyəndə bu azar ona güc gəlir. Sənə elə gəlir ki, yer üzündə sən yeganə, dadlı bir nemətsən, hamı da səni yemək istəyir. Bir az keçəndən sonra sən öz qəlbindəki gözəl parçanın o biri qəlblərdə də səninkindən pis olmadığını görəndə, yüngüllük hiss edəcəksən. Bir az da xəcalət çəkəcəksən ki, bayram zəngləri çalınanda heç səsi eşidilməyən öz balaca zınqırovunla nə üçün zəng



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

qülləsinə dırmaşmısan? Sonra görəcəksən ki, sənin zəngin o biriləri ilə bir yerdə çalınanda, onun səsi eşidilir, amma ayrılıqda köhnə zənglər, milçək yağda batan kimi, onun səsini öz gurultusu içində batırır. Dediyimi başa düşürsənmi?

Nikolay başı ilə işarə edib:

– Bəlkə də anlayıram! Ancaq inanmıram! – dedi.

Xoxol güldü və qalxıb tez-tez gəzinməyə başladı:

– Bax, mən də inanmırdım! Sənə nə deyim, ay araba!

Nikolay Xoxola baxaraq rişxəndlə gülümsündü:

– Bəs niyə araba?

– Oxşayırsan!

Birdən Vesovşikov, ağzını ayırıb, ucadan gülməyə başladı. Xoxol onun qarşısında dayanıb heyrətlə:

– Sənə nə oldu? – soruşdu.

Nikolay başını bulaya-bulaya cavab verdi:

– Ağlıma gəldi ki, səni incidən adam nə qədər axmaq olmalıdır!

Xoxol çiyinlərini sıxaraq:

– Məni necə incitmək olar ki? – dedi.

Vesovşikov, xoşhal və güzəştə gedər kimi, dişlərini ağardıb:

– Nə bilim? – dedi. – Mən ancaq onu deyirəm ki, sənin qəlbinə dəyən adam gərək sonra çox utansın, peşman olsun!

Xoxol gülə-gülə:

– Sözü gör hara gətirdin, ha! – dedi.

Ana mətbəxdən:

– Andryuşa! – deyə çağırdı.

Andrey çıxdı.

Tək qaldıqda, Vesovşikov ətrafına göz gəzdirdi, ağır çəkməli ayağını uzadıb ona baxdı və əyilib əli ilə yoğun topuğunu əlləşdirdi. Əlini üzünə yaxınlaşdırıb diqqətlə ovcunun içinə, sonra da dalına baxdı. Əli yoğun, barmaqları qısa, dərisi sarı tüklərlə örtülmüşdü. O, əlini havada yelləyib ayağa qalxdı.

Andrey samovarı içəri gətirəndə aynanın qabağında duran Vesovşikov onu bu sözlərlə qarşıladı:

– Çoxdandır öz sifətimi görməmişdim...

Dodaqaltı gülərək o, başını bulaya-bulaya əlavə elədi:

– Sifətim də ki, bir sifət deyil!



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Andrey maraqla ona baxıb soruşdu:

– Bu sənin nəyinə lazımdır?

Nikolay ağır-ağır:

– Saşenka deyir ki, sifət ruhun güzgüsüdür! – dedi.

Xoxol:

– Heç də doğru deyil! – deyə səsləndi. – Onun özünün burnu qarmağa, yanaq sümükləri də qayçıya bənzəyir, amma ruhu ulduz kimidir.

Vesovşikov ona baxıb qımışdı.

Çay içməyə başladılar.

Vesovşikov yekə kartofu əlinə alıb və bir tikə çörəyi bərk duzlayıb öküz kimi, tələsmədən, sakit-sakit çeynəməyə başladı. Ağzı dolu olduğu halda:

– Burada işlər necədir? – deyə soruşdu.

Andrey fabrikdə təbliğatın artdığını şadlıqla nağıl edib qurtaranda Nikolay yenə qaşqabağını töküb boğuq səslə dedi:

– Uzun çəkir, bunun hamısı çox uzun çəkir! Tez lazımdır..

Ana ona baxdı və qəlbində bu adama qarşı ədavət hissi yavaşdan qımıldandı.

Andrey:

– Həyat at deyil, onu qamçı ilə qova bilməzsən! – dedi.

Vesovşikov inadla başını silkələdi:

– Uzun çəkir! Mənim səbrim tükənir! Bəs mən necə edim? – dedi.

Nikolay gözünü xoxolun üzünə dikib köməksiz bir vəziyyətdə əllərini açdı və cavab gözləyirmiş kimi susdu. Andrey başını aşağı salıb dedi:

– Biz hamımız oxumalı, öyrənməli, başqalarını da öyrətməliyik; işimiz də budur!

Vesovşikov:

– Bəs havaxt vuruşacağıq? – deyə soruşdu.

Xoxol gülümsünərək:

– O vaxta kimi bizi hələ çox döyəcəklər, bu yəqindir! – dedi. – Ancaq nə vaxt vuruşacağımızı bilmirəm! Bilirsənmi, qabaqca başı silahlandırmaq lazımdır, sonra da əli, mən belə qanıram...

Nikolay yenə yeməyə başladı. Ana altdan-altdan onun enli üzünə baxır və Vesovşikovun ağır, kvadrat siması ilə özünü barışdıra biləcək bir şey axtarırdı.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Onun balaca gözlərinin nüfuzedici nəzərinə rast gəldikdə, ana qorxu ilə qaşlarını tərpədirdi. Andrey bir şeydən nigaran kimi, birdən danışır, gülür və qəflətən, səsini xırp kəsib, fit çalmağa başlayırdı.

Anaya elə gəlirdi ki, o, xoxolun nədən nigaran olduğunu duyur. Nikolay isə dinməz oturur və xoxol ondan bir şey soruşanda, açıqdan-açığa həvəssiz, qısa cavab verirdi.

Balaca otaq iki sakin üçün havasız və darısqal görünürdü; ana və Andrey, hərdən biri, altdan-altdan qonağa göz qoyurdular.

Nəhayət Nikolay ayağa qalxdı və:

– Yatsam yaxşıdır, – dedi. – Yoxsa saxlayıb, saxlayıb birdən buraxdılar, düz buraya gəldim. Yorğunam.

Nikolay, mətbəxə gedib, orada bir qədər qurdalandıqdan sonra ölü kimi birdən hənirtisini kəsdikdə, ana sükuta qulaq verib, Andreyə pıçıltı ilə dedi:

– Çox dəhşətli şeylər düşünür...

Xoxol başını bulaya-bulaya təsdiq elədi:

– Xasiyyəti ağır oğlandır! Ancaq bu keçər! Mən də belə idim. Adamın qəlbində çıraq yaxşı yanmayanda, çoxlu his eləyir. Siz yatın, nənəcan, mən hələ bir az oturub oxuyacağam.

Ana bucaqda, çit pərdə dalında qoyulmuş çarpayısına tərəf getdi, masanın başında oturan Andrey uzun vaxt onun duasının və çəkdiyi ahların xəfif hənirtisini eşitdi. Kitabın səhifələrini tez-tez çevirə-çevirə Andrey həyəcanlı bir halda alnını sürtür, uzun barmaqları ilə bığını burur, ayaqlarını bir-birinə vururdu. Saatın kəfgiri tıqqıldayır, çöldə külək səslənirdi.

Ananın xəfif səsi eşidildi:

– Pərvərdigara! Dünyada nə qədər adam var, hərəsi də bir cür zarıyır. Bəs zarımayan xoşbəxtlər haradadır?

Xoxol öz yerindən:

– Belələri də var. Çox çəkməz ki, belələri çoxalar, həm də xeyli çoxalar! – deyə cavab verdi.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

## XXI

Həyat sürətlə axırdı, günlər bir-birinə oxşamır, hər gün bir rəng alırdı. Hər gün yeni bir hadisə gətirir və bunlar ananı artıq təşvişə salmırdı. İndi axşamlar Andreyin yanına daha tez-tez yad adamlar gəlir, qayğılı bir tərzdə onunla xısın-xısın danışır, gecə keçəndə də yaxalarını qaldırıb, papaqlarını gözlərinin üstünə basıb ehtiyatla, səssiz qaranlığa gedir və yox olurdular. Hər kəsdə ehtiyatlı bir həyəcan duyulurdu, elə bil hamı oxumaq, gülmək istəyir, ancaq macal tapmır, daima hara isə tələsirdi. Adamlardan bir parası istehzalı və ciddi, o biriləri gənclik qüvvəsi ilə parlayan və şad, üçüncülər fikirli, sakit idi, lakin bunların hamısı ananın nəzərində eyni dərəcədə səbatlı, əzmkar idi; bunlardan hər birinin özünəməxsus üzü var idi, lakin bu hamısı ana üçün bir simada təcəssüm edirdi: bu sima arıq, sakit, qəti, aydın sima idi, gözlər Emmausa gedən İsanın gözlərinə bənzəyən, dərin məhəbbət və ciddiyyətlə baxan kədərli gözlər idi.

Ana bunları hesaba alıb zehnində Pavelin ətrafına toplayırdı və bunların içində Pavel itib düşmən nəzərindən qaçırdı.

Günlərin bir günü şəhərdən qıvrım saçlı, zirək bir qız gəlib Andrey üçün bir bağlama kağız gətirdi: o gedərkən, nəşəli gözlərini parıldadıb Vlasovaya:

– Salamat qalın, yoldaş! – dedi.

Ana təbəssümünü gizləməyə çalışaraq:

– Xoş gəldiniz! – deyə cavab verdi.

Qızcığazı yola salandan sonra ana pəncərə qabağına gəlib, cəld və xırda addımlarla küçədə gedən bahar çiçəyi kimi gözəl, kəpənək kimi yüngül yoldaşına gülə-gülə baxmağa başladı.

Qonaq gözdən itəndən sonra ana:

– Yoldaş! – dedi. – Necə də sevimlidir! Allah sənə ömürlük namuslu bir yoldaş yetirsin!

Çox vaxt ana şəhərdən gələnlərdə uşaqlara məxsus bir xasiyyət görür və mehriban-mehriban gülümsünürdü, lakin onların dərin inamı ananın könlünü açır və heyrətləndirirdi; ana bu inamın nə dərəcədə dərin olduğunu get-gedə daha aydın hiss edirdi, ədalətin qələbə çalacağına onların bəslədiyi şirin arzular ananı sevindirir, ürəyini isindirirdi – onları dinləyərkən, ana bilinməz bir qüssə ilə



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

ah çəkirdi. Lakin anaya ən çox təsir edən onların sadəliyi, özləri haqqında gözəl və hədsiz qayğısızlığı idi.

İndi ana onların həyata aid danışdıqlarından bir çox şeyləri başa düşür, bütün insanların fəlakətinə səbəb olan mənbəyi düzgün və doğru göstərdiklərini hiss edir və onların fikirlərinə şərik olmağa alışırdı. Lakin onların həyatı öz istədikləri kimi dəyişə biləcəklərinə və bütün fəhlələri öz tərəflərinə çəkə biləcəklərinə qəlbinin dərinliklərində inanmırdı. Hər kəs yalnız bu gün tox olmaq istəyir, heç kəs naharını, bu saat yeyə bildiyi halda, sabaha belə saxlamaq istəmir. Bu çətin və uzun yol ilə gedən, bu yolun sonunda insanların misli görünməmiş qardaşlıq ölkəsini görən çox olmaz. Buna görə də bunlar, bu dəyərli insanlar, uzun saqqallarına və bəzən yorğun çöhrələrinə baxmayaraq, anaya uşaq kimi görünürdülər.

Ana başını bulaya-bulaya düşünürdü:

"Əzizlərim!"

Lakin bunların hamısı indilər gözəl, ciddi və ağıllı bir həyatla yaşayır, yaxşı əməllərdən danışır və canlarını əsirgəmədən bildiklərini başqalarına da öyrətməyə çalışırdılar. Ana başa düşdü ki, bu cür həyatın təhlükəli olmağına baxmayaraq, onu sevmək olar və ah çəkə-çəkə öz keçmişinə, qaranlıq, dar cığır kimi uzanan fərəhsiz keçmişinə nəzər salırdı. Yavaş-yavaş və özü də bilmədən ana bu yeni həyat üçün özünün də lazım olduğunu möhkəm dərk etməyə başladı; əvvəllər o, özünün bir kəsə lazım olduğunu heç hiss etməzdi, indi isə çoxlarına lazım olduğunu aydın görürdü; bu yeni duyğu da onu sevindirir, başını ucaldırdı...

Ana vaxtlı-vaxtında fabrikə vərəqə və kitabçalar aparır və bu işi özünə borc bilirdi, o, xəfiyyələrin gözünə dəymiş, onların nəzərini cəlb etməyə başlamışdı. Bir neçə dəfə onu axtarmışdılar, lakin bu axtarışlar həmişə fabrikdə vərəqələr yayılan günün sabahısı olmuşdu. Ana yanında bir şey olmayanda, xəfiyyələrlə qapıçılarda şübhə yaratmağa çalışır, buna da müvəffəq olurdu; onlar ananı tutur, üst-başını axtarırdılar, o isə, incimiş kimi, onlarla mübahisəyə girişir, onları məzəmmət edirdi; sonra öz məharəti ilə fəxr edə-edə yoluna davam edirdi. Bu oyun ananın xoşuna gəlirdi.

Vesovşikovu fabrikə götürmədilər; o, bir nəfər taxta alverçisinin yanında işə girib, məhəllədə araba ilə şalban, odun və taxta daşıyırdı. Ana, demək olar ki, hər gün onu görürdü: bir cüt qara at güc



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

vurmaqdan titrəyən ayaqlarını yerə dirəyərək arabanı çəkirdi, bu qoca və arıq atların yorğun və kədərli başları yırğalanır, dumanlı gözləri əzab içində qırpınırdı. Bunların arxasınca uzun, yaş şalban, ya da ucları şappıltı ilə yerə dəyən taxta yığını sürünürdü; əyni-başı cırım-cındır, kirli, çəkmələri ağır, şapkası peysərində olan Nikolay isə əlində cilov atların yanı ilə yeriyirdi; o, yerdən çıxarılmış kötük kimi, kobud və biçimsiz idi. O da gözlərini ayağının altına dikib, başını bulayırdı. Atlar qabaqdan gələn arabaların, adamların üstünə yeriyir, kor kimi onları basırdı; Nikolayın ətrafında hirsli söyüşlər arı kimi dövrə vurur, hirsli qışqırtılar havanı yarırdı. Nikolay isə, başını qalxızmadan, heç kəsə cavab vermədən, kəskin, qulaqbatırıcı fit çalır və tutqun səslə atlarına:

– Hə, tərpən!.. – deyirdi.

Hər dəfə yoldaşlar xaricdə nəşr olunub gələn qəzet ya kitabça oxumaq üçün Andreyin yanına yığışanda, Nikolay da gəlir, bir bucaqda oturur və bir saat, iki saat dinməzcə qulaq asırdı. Oxuyub qurtarandan sonra gənclər uzun-uzadı mübahisə edirdilər, lakin Vesovşikov bu mübahisələrdə iştirak etmirdi. O, hamıdan çox oturur və Andreylə tək qaldıqda ondan qaşqabaqlı soruşurdu:

– Hamıdan artıq taqsır kimdədir?

Xoxol gülə-gülə, zarafatla:

– Əslinə baxsan, taqsır birinci dəfə – "bu mənimdir!" deyən adamdadır. Bu adam da neçə min il bundan qabaq ölüb gedibdir, odur ki, ona acıqlanmağa dəyməz! – deyirdisə də gözləri iztirabla baxırdı.

– Bəs dövlətlilər? Bəs bu dövlətlilərin tərəfini saxlayanlar?

Xoxol başını qarmalayır, bığını dartır, həyat və insanlar haqqında sadə sözlərlə uzun-uzadı danışırdı. Lakin onun sözündən həmişə belə çıxardı ki, ümumiyyətlə bütün insanlar müqəssirdir, bu isə Nikolayı qane etmirdi. Qalın dodaqlarını bərk-bərk sıxaraq narazılıqla başını bulayır və bunun doğru olduğuna inanmadığını söyləyib, küskün və qaşqabaqlı çıxıb gedirdi.

Bir gün Nikolay dedi:

– Yox, müqəssirlər var, onlar buradadır! Mənim sözüm budur, biz gərək bütün yaşayışı, alaq otu basmış çöl kimi, dərindən sürək, amansızcasına şumlayaq!

Ana dedi:



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

– Bax, tabelçi İsay da bir dəfə sizin haqqınızda belə deyirdi!

Vesovşikov bir az sükutdan sonra:

– İsaymı? – deyə soruşdu.

– Bəli. Yaman adamdır. Gözü onun-bunun dalıncadır, hər yerdən söz yığır, bizim küçə ilə gəzməyə başlayıb, pəncərəmizdən içəriyə baxır...

Nikolay təkrar edərək:

– Baxırmı? – deyə soruşdu.

Ana yerində uzanmış olduğundan onun üzünü görmürdü, ancaq nə isə artıq bir şey danışdığını duydu; çünki xoxol tələsik və barışdırıcı bir ahənglə:

– Qoy kefi istədiyi qədər gəzsin, pəncərədən içəriyə də baxsın! – dedi. – Boş vaxtı var, odur ki, gəzir.

Nikolay tutqun səslə:

– Yox, dayan. Bax, müqəssir elə odur! – dedi.

Xoxol tez soruşdu:

– Taqsırı nədir? Axmaqlığımı?

Vesovşikov cavab vermədi, durub getdi.

Xoxol, hörümçək ayağı kimi nazik ayaqlarını ehmalca şappıldada-şappıldada, yorğun-yorğun otaqda gəzinirdi. Taqqıltı salıb, Vlasovanı narahat etməmək üçün o, həmişəki kimi, çəkmələrini çıxarmışdı. Lakin ana hələ yatmamışdı, Nikolay gedəndən sonra o fikirli bir halda:

– Mən bundan qorxuram! – dedi.

Xoxol sözləri uzada-uzada:

– Bə-ə-əli! – dedi. – Hirsli oğlandır. Siz İsaydan ona bir söz deməyin, nənəcan, İsay doğurdan da casusluq edir.

Ana:

– Burada qəribə nə var ki? – dedi. – Kirvəsi jandarmdır.

Xoxol təşvişli bir halda sözünə davam edərək:

– Qorxuram, Nikolay onu kötəkləsin! – dedi. – Görürsünüzmü, bizim həyatımıza komandirlik edən ağalar aşağı rütbəli adamlarda nə kimi bir hiss yetirmişlər? Nikolay kimi adamlar təngə gəlib, səbirlərini itirsələr, onda nələr olar? Göyləri qana boyayarlar, yer də qan içində sabun kimi köpüklənər...

Ana yavaşdan:

– Qorxuram, Andryuşa! – dedi.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Bir qədər sükutdan sonra Andrey:

– Milçək udmasaydılar, qusmazdılar! – dedi. – Hər necə olsa, nənəcan, xalqın tökdüyü dəryalarla göz yaşı bunların hər damcı qanını qabaqcadan yuyub təmizləmişdir...

Birdən o, yavaşca gülüb, əlavə elədi:

– Ədalətli işdir, amma, təsəlli vermir!

## XXII

Bazar günlərinin birində ana dükandan qayıdıb, qapını açanda birdən dayandı, sanki bütün bədəninə isti yay yağışı kimi, sevinc saçıldı: otaqdan Pavelin möhkəm səsi gəlirdi.

Xoxol:

– Bu da ana! – deyə qışqırdı.

Ana Pavelin tez döndüyünü, onun üzünün böyük vədlər verən bir hiss ilə parladığını gördü. Oğlunun qəflətən gəlişindən özünü itirib, dili tutula-tutula:

– Gəldin çıxdın... evimizdəsən! – dedi və kürsüyə əyləşdi.

Rəngi solmuş Pavel ona tərəf əyildi; gözlərində yaş parıldayır, dodaqları titrəyirdi. O, bir an sükut etdi; ana da bir söz demədən ona baxırdı.

Xoxol, yavaşdan fit çala-çala, başıaşağı, onların yanından ötüb həyətə çıxdı.

Pavel, titrək barmaqları ilə ananın əlini sıxaraq, dərindən gələn boğuq bir səslə:

– Sağ ol, ana! – dedi. – Çox sağ ol, əzizim!

Onun üzündəki ifadədən və səsinin ahəngindən sevinclə sarsılan ana oğlunun başını oxşayır və ürəyinin döyünməsini saxlayaraq, yavaşdan deyirdi:

– Allah köməyin olsun, bala, niyə?

Pavel:

– Bizim böyük işimizə kömək etdiyin üçün sağ ol! – dedi. – Adam öz anasını ruhca da doğma hesab edə bilirsə – bu, az-az tapılan bir səadətdir!..

Ana dinmədən, açıq ürəklə onun sözlərini udur və qabağında duran ağıllı, səmimi oğlunu iftixarla seyr edirdi:



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

– Ana, çox şeyin sənin qəlbinə toxunduğunu, sənin çətinlik çəkdiyini gördüm. Mən elə bilirdim ki, sən heç vaxt bizimlə barışa bilməyəcəksən, bizim fikrimizi özününkü kimi qəbul etməyəcəksən, ancaq bütün ömründə dözdüyün kimi buna da dinməz-söyləməz dözəcəksən. Bu fikir məni çox sıxırdı!..

Ana onun sözünə əlavə olaraq:

– Çox şeyi mənə Andryuşa başa saldı! – dedi.

Pavel gülə-gülə dedi:

– O mənə bu barədə nağıl eləyib!

– Yeqor da. O bizim kənddən imiş. Hələ Andryuşa mənə savad öyrətmək də istəyirdi...

– Sən də utanıb, altdan-altdan özün öyrənməyə başladın?

Ana utanaraq:

– Yəqin pusub görmüşdür! – dedi. Sonra da qəlbini dolduran sevincin coşqunluğundan sıxılıb Pavelə təklif elədi:

– Gələsən, onu da çağıraq! Qəsdən çıxdı ki, bizə mane olmasın. O anasızdır...

Pavel eyvanın qapısını açıb çığırdı:

– Andrey!.. Haradasan?

– Buradayam. Odun yarmaq istəyirəm.

– Bura gəl!

Xoxol birdən içəri girmədi, mətbəxdə dayanıb evdarlıq qayğısı ilə:

– Nikolaya tapşırmaq lazımdır ki, bizə odun gətirsin, – dedi, – odunumuz qurtarır. Paveli görürsünüzmü, nənəcan, necədir? Hökumət belə üsyançılara tənbeh eləmək əvəzinə, onları bəsləyir...

Ana güldü, hələ də onun ürəyi şadlıqdan əsir, nəfəsi tutulurdu, sevincindən sərxoş kimi idi, lakin qəlbindəki xəsis və ehtiyatlı bir hiss artıq Paveli, həmişəki kimi, sakit görmək arzusu yaradırdı. Könlü həddindən artıq şad idi, ana istəyirdi ki, bütün həyatında ilk dəfə ona müyəssər olan birinci böyük şadlıq necə gəlibsə, eləcə də qəlbində birdən-birə və əbədi olaraq, möhkəm yerləşib qalsın. Öz bəxtiyarlığının azalmasından qorxaraq ana təsadüfən nadir bir quşu tutan quşçu kimi onu tez gizləmək istəyirdi.

O tələşla:

– Di gəlin, yemək yeyək! – deyə təklif elədi. – Paşa, sən hələ yəqin nahar eləməmisən?



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

– Yox, dünən nəzarətçidən eşidəndə ki, məni buraxırlar, boğazım tutuldu, bu gün də boğazımdan nə su keçdi, nə də çörək...

Pavel nağıl eləməyə başladı:

– Burada birinci rast gəldiyim qoca Sizov oldu. Məni görən kimi küçəni keçib yanaşdı, salamlaşdı. "İndi mənimlə bir az ehtiyatlı olmaq lazımdır, – dedim, – mən qorxulu adamam, polisin nəzarəti altındayam". – "Eyibi yoxdur", – dedi. Bacısı oğlunun haqqında nə soruşduğunu bilirsənmi? "Fyodor necədir, – deyir, – özünü yaxşımı aparırdı?" "Dustaqxanada özünü yaxşı aparmaq nə deməkdir?" "Yoldaşları haqqında artıq söz-sov danışmadı ki?" – deyir. Mən deyəndə ki, Fedya namuslu və fərasətli oğlandır, o, saqqalını sığallayıb iftixarla "Biz Sizovlar nəslində pis adam olmayıbdır!" – dedi.

Xoxol başı ilə işarə edib:

– Başlı qocadır! – dedi. – Biz onunla tez-tez danışırıq, namuslu kişidir. Fedyanı tezlikdə buraxarlarmı?

– Zənnimcə, bu yaxınlarda hamısını buraxarlar. Əllərində İsay verdiyi məlumatdan başqa bir şey yoxdur; İsay da nə bilirdi ki, nə desin?

Ana otaqda o tərəf-bu tərəfə gəzinərək oğluna baxırdı; Andrey isə, əlləri dalında pəncərənin qabağında dayanıb, Pavelin söhbətinə qulaq asırdı; Pavel otaqda gəzinirdi. Onun saqqalı uzanmışdı. Qara, nazik tükləri yanaqlarında qıvrım-qıvrım olub üzünün qarabuğdayı rəngini aydınlaşdırmışdı.

Ana xörəyi masanın üstünə qoyub:

– Oturun görək! – deyə təklif etdi.

Nahar vaxtı Andrey Rıbindən söhbət saldı. O, sözünü qurtarandan sonra Pavel təəssüflə:

– Mən evdə olsaydım – onu getməyə qoymazdım! – dedi. – Onun özü ilə apardığı nə oldu? Şiddətli qeyz hissi ilə qarmaqarışıq düşüncə.

Xoxol gülümsünüb:

– Eh, – dedi. – Adamın ki, yaşı qırxa yetdi, özü də qəlbini gəmirən fikirlərlə uzun-uzadı mübarizə apardı – onu düzəltmək çətindir...

Mübahisə qızışdı, bir çox qəliz sözləri ana başa düşmürdü. Nahar qurtardı, lakin onlar ağıllı və qəliz sözləri yenə dolu kimi bir-birinə yağdırırdılar. Bəzən danışıqları sadə olurdu.



Created with
nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Pavel qəti deyirdi:

– Biz öz yolumuzla düz getməli və bir addım da kənara çıxmamalıyıq!

– Yolda da on milyonlarla bizi düşmən kimi qarşılayan adamlara rast gəlməliyik...

Mübahisəyə diqqətlə qulaq asan ana anlayırdı ki, Pavel kəndliləri sevmir, xoxol isə onlara tərəf çıxır və kəndliləri də öyrətməyin lazım olduğunu sübut edir. Ana Andreyin danışdığını daha artıq anlayır və öz ürəyində onu haqlı bilirdi, lakin hər dəfə o, Pavelə bir söz deyəndə, ana nəfəsini çəkib, səbirsizliklə oğlunun cavabını gözləyir, xoxolun sözündən inciyib-incimədiyini tez bilmək istəyirdi. Ancaq onlar, bir-birinin üstünə çığırırdılarsa da, bir-birinin qəlbinə toxunmurdular.

Bəzən ana oğlundan:

– Belədirmi, Paşa? – deyə soruşurdu.

Pavel gülümsünərək:

– Belədir! – deyə cavab verirdi.

Xoxol yumşaq bir istehza ilə deyirdi:

– Möhtərəm cənab, siz doyunca yemisiniz, ancaq yaxşı çeynəməmisiniz, odur ki, tikə boğazınızda qalıb! Bir boğazınızı arıtlayın!

Pavel ciddiyyətlə:

– Zarafatı boşla! – deyirdi.

– Necə zarafatı, mən tamam yasdayam ki!..

Ana yavaşdan gülür və başını bulayırdı..

## XXIII

Bahar yaxınlaşırdı, qar əridikcə altında gizlənmiş çirk və his üzə çıxırdı. Küçədə palçıq gündən-günə artır, bütün qəsəbə cındıra geyinmiş, pinti və çirkli nəzərə gəlirdi. Gündüzlər damlardan su damır, evlərin boz divarları yorğun-yorğun buğlanırdı, gecələr isə hər yanda novdanlardan sallanan buz lülələri parlayırdı. Günəş tez-tez görünürdü. Sellər şırıltı ilə axıb bataqlığa gedirdi.

Mayın birini bayram eləməyə hazırlaşırdılar.

Fabrikdə və məhəllədə bu bayramın məna və əhəmiyyətini izah edən vərəqələr yayılırdı, hətta təbliğat təsiri altına düşməmiş gənclər də bu vərəqələri oxuyub deyirdilər:



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

– Bu bayramı düzəltmək lazımdır!

Vesovşikov acı-acı gülərək:

– Bəsdir! Gizlənpaç oynamaq yetər! – deyirdi.

Fedya Mazin sevinirdi. O çox arıqlamışdı, əsəbi hərəkət və nitqləri ilə qəfəsə salınmış torağaya oxşayırdı. İndi şəhərdə işləyən və yaşına nisbətən çox təmkinli olan Yakov Somov kölgə kimi daim Mazinlə yanaşı gəzirdi. Dustaqxanada daha da kürənləşmiş Samoylov, Vasili Qusev, Bukin, Draqunov və yenə bir neçəsi nümayişə silahla çıxmağın lazım olduğunu sübut eləməyə çalışırdılar; Pavel, xoxol, Somov və başqaları isə onların fikrinə şərik olmurdular.

Daim yorğun, tərli olan Yeqor, ağır nəfəs ala-ala gəlib zarafata başlayırdı:

– Mövcud quruluşu dəyişdirməyə çalışmaq böyük işdir, yoldaşlar, lakin bu işin daha müvəffəqiyyətli keçməsi üçün mən gərək özümə təzə çəkmə alam!.. – bunu deyərkən, o öz cırıq və su çəkmiş çəkmələrini göstərirdi. – Qaloşlarım da tamam yırtılmışdır, hər gün ayaqlarım islanır. Biz hamının gözü qabağında və açıqdan-açığa köhnə dünyadan əl çəkməyincə mən yerin təkinə köçmək istəmirəm, buna görə də, Samoylov yoldaşın silahlı nümayiş haqqındakı təklifini rədd edib, məni bir cüt möhkəm çəkmə ilə silahlandırmağınızı təklif edirəm, mənim fikrimcə, sosializmin qalibiyyəti üçün bu, ən böyük qalmaqal və vurhavurdan çox xeyirlidir!..

Yenə eyni gülməli və qəliz dil ilə Yeqor müxtəlif məmləkətlərdə xalqın öz həyatını yüngülləşdirmək üçün nə cür çalışdığından fəhlələrə cürbəcür əhvalatlar söyləyirdi. Ana onun söhbətlərini xoşlayır və diqqətlə dinləyirdi; bu söhbətlərdən onda belə qəribə bir təsəvvür yaranmışdı: xalqın ən hiyləgər düşmənləri, onu hamıdan çox aldadan balaca, qarnıyoğun, üzləri qırmızı, insafsız və tamahkar, fəndgir və amansız adamcıqlardır. Onlar çarın hakimiyyətindən inciyəndə, qara camaatı çar hökumətinin üstünə salışdırırdılar, xalq isə qalxıb hakimiyyəti padşahın əlindən alanda, həmin adamcıqlar hiylə ilə bu hakimiyyəti öz əllərinə alır və xalqı daxmalarına qovurdular, xalq onlarla münaqişəyə qalxışanda da onu yüz-yüz, min-min qırırdılar.

Bir gün ana ürəklənib, Yeqorun söylədiyi nitqlərin təsiri altında təsəvvüründə yaranmış bu həyat lövhəsini ona nağıl elədi və utancaq bir halda gülə-gülə soruşdu:



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

– Belədirmi, Yeqor İvanoviç?

Yeqor gözlərini yumub, qəhqəhə ilə gülür, boğula-boğula əlləri ilə döşünü sürtürdü:

– Həqiqətən belədir, anacan! Tarixin öküzünü siz buynuzlarından tutmusunuz. Bu sarıca lövhədə bəzi ornametlər, yəni naxışlar vardır, ancaq bu naxışlar işi dəyişmir! Həqiqətdə də həmin qarnıyoğun adamcıqlar baş cinayətkar və xalqı dalayan ən zəhərli cücülərdir. Fransızlar haqlı olaraq onlara burjua deyirlər. Yadınızda saxlayın, anacan, – burjua. Onlar bizi yeyir və qanımızı sorurlar.

Ana:

– Yəni dövlətlilərmi? – deyə soruşdu.

– Özüdür ki, var! Onların bədbəxtliyi də bundadır. Bilirsinizmi, uşağın xörəyinə az-az mis qarışdırsan, onun sümükləri inkişafdan qalar, uşaq boy atmayıb cırtdan qalar: amma adamı qızıl ilə zəhərləyəndə, onun ruhu xırdalaşır, ölgün və rəngsiz olur, lap birşahılıq rezin top kimi...

Bir gün, Yeqordan danışarkən, Pavel dedi:

– Bilirsənmi, Andrey, hamıdan artıq ürəyi sızıldayan adamlar zarafat edir...

Xoxol bir an dinmədi, sonra gözlərini qıyıb, cavab verdi:

– Sən deyən doğru olsaydı, bütün Rusiya indi gülməkdən ölərdi...

Nataşa da gəldi, o başqa bir şəhərdə dustaq idi, lakin bundan heç də dəyişilməmişdi. Ana sezdi ki, Nataşanın yanında xoxol daha da nəşəli olur, hey zarafat edir, hamıya mülayim istehza ilə toxunaraq, Nataşanı güldürür. O gedəndən sonra isə, xoxol qüssə ilə öz tükənməz nəğmələrini fitlə çalır və pərişan halda ayaqlarını şappıldada-şappıldada otaqda gəzinirdi.

Tez-tez Saşa gəlirdi, o daim qaşqabaqlı idi, daim tələsirdi və nədənsə çox sərt və açıqlı olurdu.

Bir dəfə Pavel onu yola salmaq üçün eyvana çıxıb qapını açıq qoydu və ana onların danışığını eşitdi. Qız yavaşdan soruşdu:

– Bayrağı sizmi aparacaqsınız?

– Mən.

– Bu qət olunubdurmu?

– Bəli. Bu mənim haqqımdır.

– Yenəmi dustaqxana?!

Pavel dinmədi. Qız:



Created with
nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

– Olmazdımı ki... – deyib dayandı. Pavel soruşdu:

– Nə?

– Başqası götürəydi...

Pavel ucadan:

– Yox! – deyə cavab verdi.

– Bir düşünün, sizin böyük nüfuzunuz var, hamı sizi sevir!.. Naxodka ilə siz burada birincisiniz, azadlıqda qalıb siz nə qədər iş görə bilərsiniz, bir düşünün! Axı bunun üstündə sizi sürgün edərlər, uzaqlara, uzun müddətə!

Qızın səsində anaya tanış olan hisslər – kədər və qorxu – vardı. Saşanın sözləri ananın ürəyinə, buzlu iri su qətrələri kimi düşməkdə idi.

Pavel:

– Yox, mən qət etmişəm! – dedi. – Hər nə olsa, mən bundan dönmərəm.

– Mən xahiş eləsəm də?

Birdən Pavel tez-tez və xüsusi bir ciddiyyətlə:

– Siz belə deməməlisiniz! – dedi. – Bu mümkündürmü? Siz belə danışmamalısınız!..

Saşa yavaş səslə:

– Mən adamam! – dedi.

Pavel də yavaş səslə, lakin xüsusi bir ahənglə sanki, boğula-boğula danışmağa başladı:

– Yaxşı adamsınız! – Mənim üçün əziz adamsınız. Buna görə də... buna görə də belə danışmaq lazım deyil...

Qız:

– Salamat qal! – dedi.

Ayağının tappıltısından ana onun yeyin-yeyin, az qala yüyürə-yüyürə yeridiyini duydu. Pavel onun dalınca həyətə çıxdı.

Ruhən əzici ağır qorxu ananın qəlbini çulğadı. Eşitdiyi danışığın nə barədə olduğunu o, başa düşmürdü, lakin hiss edirdi ki, qabaqda onu böyük bir dərd gözləyir.

"Görəsən nə eləmək istəyir?"

Pavel Andreylə bir yerdə qayıtdı; xoxol, başını bulaya-bulaya deyirdi:

– Eh, İsayka, İsayka – ona nə eləyək?

Pavel hirsli-hirsli:



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

– Onunla danışıb məsləhət görmək lazımdır ki, niyyətlərindən əl çəksin! – dedi.

Ana başını aşağı salıb soruşdu:

– Paşa sən nə eləmək istəyirsən?

– Havaxt? İndi?

– Birində... Mayın birində?

Pavel:

– Aha! – deyə səsini alçaltdı. – Mən bizim bayrağımızı aparacağam, əlimdə bayraq hamının qabağında gedəcəyəm. Bunun üstündə yəqin ki, məni yenə dustaqxanaya salacaqlar.

Ananın gözləri birdən yanmağa başladı, ağzında dili qurudu. Pavel onun əlini əlinə alıb sığalladı:

– Belə lazımdır, başa düş!

Ana yavaşca başını qaldırıb dedi:

– Mən bir söz demirəm ki!

Gözləri Pavelin inadla parlayan nəzərinə sataşanda ana yenə başını aşağı saldı.

Pavel onun əlini buraxıb, ah çəkdi və məzəmmətlə dedi:

– Sən qüssələnməli deyil, sevinməlisən. Öz övladını ölümə də sevinə-sevinə göndərən analar nə vaxt meydana gələcək?..

Xoxol mızıldandı:

– Hop, hop! Yenə ağamız ətəyini qatlayıb hoppanmağa başladı!..

Ana bir də təkrar elədi:

– Mən nə deyirəm ki? Mən sənə əngəl olmuram. Sənə ürəyim yanırsa, o da ana olduğumdandır!..

Paved ondan bir addım geri çəkildi və elə o dəqiqə ana onun sərt, kəskin sözlərini eşitdi:

– Elə məhəbbət var ki, adamı yaşamağa qoymur...

Ana diksindi və oğlundan yenə bir ağır və ürəyə dəyə bilən söz eşidəcəyindən qorxaraq, tez-tez danışmağa başladı:

– Lazım deyil, Paşa! Mən anlayıram, sən başqa cür edə bilməzsən, – yoldaşların üçün...

Pavel:

– Yox! – dedi. – Mən bunu özüm üçün edirəm.

Andrey qapıda dayandı. O, qapıdan uca idi; indi qapıda, çərçivəyə salınmış kimi dizlərini qəribə bir şəkildə bükmüş, çiyninin birini qapının yan taxtasına dayayıb, o biri çiynini, boynunu və



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

başını içəri uzatmışdı. Domba gözlərini Pavelin üzünə zilləyib, ciddi dedi:

– Moizənizi kəssəydiniz yaxşı olardı, cənab! – Bu dəqiqə o, daşın çatına girmiş kərtənkələyə oxşayırdı.

Ananın ürəyi dolmuşdu. Göz yaşlarını oğluna göstərməmək üçün o, birdən yavaş səslə:

– Bay, sənin! Lap unutmuşdum... – dedi.

Ana eyvana çıxdı. Orada başını bucağa soxub inciklik göz yaşlarının qabağını açdı; o səssiz, hönkürtüsüz ağlamağa başladı, göz yaşları ilə bərabər qəlbindən qan axıb tökülürmüş kimi, ağladıqca zəifləyirdi.

Azacıq açıq qalmış qapıdan isə onun qulağına tutqun mübahisə səsləri dolurdu.

Xoxol:

– Bir mənə de görüm, sən onu incitməyi qocaqlıqmı sayırsan? – deyə soruşdu.

Pavel:

– Mənimlə belə danışmağa sənin haqqın yoxdur! – deyə qışqırdı.

– Sənin bu səfeh hərəkətlərini, keçi kimi hoppandığını görüb dinməsəydim, sənə yaxşı yoldaş olardım! Sən niyə ona belə dedin? Heç özün anlayırsanmı?

– Sözü gərək həmişə şax deyəsən: ya hə, ya yox!

– Anayamı?

– Hamıya! Ayağıma dolaşan, mənə mane olan məhəbbət də, dostluq da mənə lazım deyil...

– Qəhrəman! Burnunu sil! Burnunu sil, sonra get, bunları Saşenkaya söylə. Bu sözləri ona demək lazım idi...

– Ona da dedim!

– Bu cürmü dedin? Yalandır? Sən ona mehribanca dedin, məhəbbətlə dedin, mən eşitmədim, ancaq bilirəm! Amma ananın qabağında hünərini göstərmək istəyirsən... Ay keçi, bunu başa düş ki, sənin bu qəhrəmanlığının qiyməti bir qara qəpikdir!

Vlasova üzünü islatmış göz yaşlarını tez-tez silməyə başladı. O, xoxolun Pavelin ürəyinə toxunan bir söz deyəcəyindən qorxaraq, tələsik qapını açdı və mətbəxə girərək qorxu və kədər içində titrəyə-titrəyə ucadan danışmağa başladı:

– Oh, oh, nə soyuqdur! Guya ki, bahardır...



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Mətbəxdəki şeyləri, məqsədsiz olaraq, bir yerdən götürüb, başqa yerə qoya-qoya, ana otaqda alçalmış səsləri batırmağa çalışır və yenə ucadan səslənirdi:

– Hər şey dəyişilib – insanlar qızğınlaşıb, havalar isə soyuyub. Keçmişdə bu vaxtlar isti olardı, göy aydın, günəş...

Otaqda susdular. Ana intizar içində mətbəxin ortasında dayandı.

Xoxolun yavaş sualı eşidildi:

– Eşitdinmi? Bunu anlamaq lazımdır, – məlun! Bu səninkindən çox ucadır...

Ana titrək səslə:

– Çay içirsinizmi? – deyə soruşdu. Sonra da cavab gözləmədən, yalnız səsinin titrəməsini gizləmək üçün ucadan:

– Mən niyə belə üşüyürəm? – dedi.

Ehmal addımlarla Pavel otaqdan mətbəxə keçdi. O altdan-altdan baxırdı, dodaqlarında müqəssirəm deyən bir təbəssüm titrəyirdi. Yavaş səslə:

– Məni bağışla, ana! – dedi. – Mən hələ də uşağam, qanacaqsız bir uşaq...

Ana, onun başını döşünə sıxıb, kədərli-kədərli qışqırdı:

– Mənə dəymə! Bir söz demə! Özün bilərsən, istədiyin kimi yaşa! Ancaq qəlbimə toxunma! Ana yanmaya bilərmi? Bilməz. Mən hamıya yanıram! Sizin hamınız mənim balalarımsınız, hamınız ləyaqətlisiniz! Məndən başqa sizə yanan kim olacaq? Sən gedirsən, dalınca da başqaları gedir, hər şeyi atıb gedirlər... Paşa!

Onun qəlbində böyük qızğın bir fikir döyünür, ürəyini kədərli, iztirab nəşəsi ilə qanadlandırırdı, lakin ana söz tapa bilmir və bu acizliyindən inciyərək əlini tərpədir, şiddətli və kəskin ağrı ifadə edən gözləri ilə oğlunun üzünə baxırdı...

Pavel başını aşağı salıb, yavaş səslə deyirdi:

– Daha keçdi, ana! Bağışla, özüm görürəm! – Sonra da gülümsünərək, ötəri ananın üzünə baxıb peşman, lakin şad bir halda üzünü yana çevirdi:

– Mən bunu unutmaram, söz verirəm! – deyə əlavə etdi.

Ana onu buraxdı və otağa baxıb mehriban və yalvarıcı bir səslə:

– Andryuşka! Siz bunun üstünə çığırmayın! – dedi, – Əlbəttə, siz bundan böyüksünüz...



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Arxası anaya tərəf duran xoxol, üzünü çevirmədən, qəribə və gülməli bir əda ilə nərildədi:

– Oh, oh, oh! Mən onun üstünə çığıracağam! Hələ döyəcəyəm də!

Ana yavaş-yavaş ona tərəf yeriyərək, əlini uzadır və deyirdi:

– Mənim əzizim...

Xoxol ona tərəf döndü və kəl kimi, başıaşağı və əlləri dalında, onun yanından keçib düz mətbəxə getdi. Oradan onun tutqun və istehzalı səsi gəldi:

– Məndən qaç, Pavel, yoxsa dişimlə başını qoparararam! Mən zarafat eləyirəm, nənəcan, inanmayın! Samovarı alışdırmaq istəyirəm. Bəli! Kömürümüz də lap yaş imiş ki!..

Xoxol susdu. Ana mətbəxə keçəndə o, yerdə oturub samovarı püfləyirdi. Ananın üzünə baxmadan, xoxol yenidən başladı:

– Siz qorxmayın, mən ona əl vurmaram! Mən bişmiş çuğundur kimi yumşağam! Bir də mən... ey, qəhrəman, sən qulaq asma, – onu sevirəm! Ancaq onun jiletini sevmirəm. O təzə jilet geyibdir, bu jilet də onun çox xoşuna gəlir, odur ki, qarnını qabağa verib hamını itələyir: bir görün, mənim jiletim necə də qəşəngdir!.. Doğrudur, jileti yaxşıdır, ancaq xalqı itələməyin nə mənası? Onsuz da darısqallıqdır.

Pavel gülümsünüb soruşdu:

– Hələ çoxmu deyinəcəksən. Bir dəfə qulağımı burdun, bəsdir!

Xoxol, yerə oturub və ayaqlarını samovarın hər iki tərəfindən uzadıb, ona baxırdı. Ana qapının ağzında durub mehriban və kədərli gözlərini Andreyin yumru peysərinə və əyilmiş uzun boynuna dikmişdi. Andrey, gövdəsini geri çəkib, əllərini yerə dayayıb, bir az qızarmış gözlərini döyə-döyə ana ilə oğula baxdı və yavaş səslə:

– Yaxşı adamlarsınız, bəli! – dedi.

Pavel əyilib onun əlindən yapışdı.

Xoxol tutqun səslə:

– Dartma! – dedi. – Yoxsa yıxarsan...

Ana qəmli səslə:

– Nədən utanırsınız? – dedi. – Öpüşün, bərk-bərk qucaqlaşın...

Pavel:

– İstəyirsənmi? – deyə soruşdu.

Xoxol ayağa qalxaraq:

– Niyə, olar! – dedi.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Bərk-bərk qucaqlaşaraq onlar bir an beləcə: iki bədən dostluq hissi ilə yanmaqda olan bir can olaraq hərəkətsiz qaldılar.

Göz yaşları, yüngül və fərəhli göz yaşları ananın üzü aşağı axırdı. O, gözlərini silərək, utana-utana dedi:

– Qadının xasiyyəti ağlamaqdır, dərddən də ağlar, şadlıqdan da!..

Xoxol yüngülcə Paveli itələyib barmaqları ilə gözlərini silə-silə dedi: – Yetər! Danalar oynaqladı, indi qovurmalığa getsinlər!

Amma nə kömürdür! O qədər püflədim ki, gözümə doldu...

Pavel, başını aşağı salıb, pəncərənin qabağında oturdu və yavaş səslə:

– Bu cür göz yaşından adam utanmaz! – dedi.

Ana ona yaxınlaşıb yanında oturdu. Onun ürəyində isti və yumşaq bir gümrahlıq hissi baş qaldırırdı. Kədərli olsa da sakit və rahat idi.

Xoxol otağa keçərək:

– Mən qab-qacağı yığışdıraram, nənəcan, siz əyləşin! – dedi. – Rahat olun! Bu gün ürəyiniz yamanca sıxıldı...

Sonra otaqdan onun ahəngdar səsi eşidildi:

– Elə bil indicə həyatın nə olduğunu hiss etdik, əsl insan həyatını gördük!..

Pavel anasına baxıb:

– Doğrudur! – dedi.

Ana:

– Hər şey dəyişildi! – deyə cavab verdi. – Dərd də özgə cür oldu, şadlıq da...

Xoxol:

– Belə də olmalıdır! – dedi. – Əzizim, nənəcan, təzə ürək yaranır, həyat təzə ürək yaradır. İnsan irəli gedir, ağlın işığı ilə aləmi nurlandırır, car çəkib çağırır: – ey bütün ölkələrin insanları, bir ailəyə toplaşın! Onun harayına da bütün ürəklərin sağlam, canlı parçaları birləşib, gümüş zəng kimi səsli, qüvvətli, böyük bir ürək olur...

Ana dodaqlarını əsməsin deyə, bərk-bərk bir-birinə basır, ağlamasın deyə, gözlərini möhkəmcə yumurdu.

Pavel bir şey demək istəyərək, əlini yuxarı qaldırdı, lakin ana onun o biri əlini tutub aşağı çəkdi və:

– Mane olma, qoy danışsın... – deyə pıçıldadı.

Xoxol qapıda dayanaraq:



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

– Bilirsinizmi? – dedi. – İnsanları qabaqda böyük dərdlər gözləyir, onlardan hələ çox qan alınacaq, ancaq bunların hamısı bütün mənim dərdim, mənim qanım, indi qəlbimdə, beynimdə olan hiss və fikirlər müqabilində çox dəyərsizdir...

Ulduz nurla zəngin olduğu kimi, mən də zənginəm, – mən hər şeyə tab gətirə bilərəm, hər şeyə dözərəm; çünki məndə elə bir sevinc var ki, onu heç kəs, heç bir şey heç vaxt öldürə bilməz! Mənim gücüm də bu sevincdədir!

Çay içə-içə, həyatdan, insanlardan, gələcəkdən şirin söhbət edə-edə gecə yarısına qədər oturdular.

Ana bir fikri aydın başa düşəndə ah çəkib, öz keçmişindən həmişə ağır, pis bir hadisə yadına salır və qəlbindən qopardığı bu daş ilə haman fikri təsdiq edirdi.

Səmimi söhbət ananı bürüyən qorxunu əritdi; indi ana bir gün atasının hirslə ona dediyi:

– Ağız-burnunu turşutma! Bir axmaq tapılıb səni almaq istəyir, get! Qızların hamısı ərə gedir, arvadların hamısı uşaq doğur, uşaqların hamısı ata-anasına dərddir! Məgər sən adam deyilsən? – sözlərini yadına salıb, o zaman duyduğu halı yenidən hiss etdi.

Atasının bu sözlərindən sonra onun qabağında labüd bir çığır, boş və qaranlıq diyara gedən bir çığır açılmış, bu çığırın zəruriliyi onun qəlbini sakitləşdirmişdi. İndi də, belə oldu. Yeni dərdin yaxınlaşdığını duyaraq, ana öz ürəyində kimə isə:

“Gəl, apar!” – deyirdi.

Bu duyğu onun ürəyində, tarım çəkilmiş sim kimi titrəyən, səslənən ağrını yüngülləşdirirdi.

İntizar kədərindən həyəcana gəlmiş qəlbinin dərinliyində isə, zəif olsa da, sönməyən bir ümid yaşayırdı ki, onun hər şeyini əlindən almayacaqlar, aparmayacaqlar! Nə isə qalacaqdır...

## XXIV

Səhər tezdən, Pavel ilə Andrey evdən çıxan kimi Korsunova həyəcanla pəncərəni döyüb tələsik çığırdı:

– İsayı öldürüblər. Gedək, baxaq!..

Ana diksindi. Qatilin adı, ildırım kimi, onun fikrindən keçdi. Ana şalını çiyninə ataraq qısaca:



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

– Kim? – deyə soruşdu.

Mariya:

– Orada, İsayın üstündə oturmayıb ki, vurub gedibdir! – deyə cavab verdi.

Küçədə o:

– İndi yenə qurdalamağa, müqəssiri axtarmağa başlayacaqlar, – dedi. – Yaxşıdır ki, səninkilər dünən gecə evdə idilər; mən buna şahidəm. Gecə yarısından sonra sizin evin yanından ötürdüm, pəncərədən içəri baxdım, hamınız masanın dövrəsində oturmuşdunuz...

Ana qorxu ilə:

– Nə danışırsan, Mariya? Heç onlara güman gedə bilərmi? – deyə səsləndi.

Korsunova yəqinliklə dedi:

– Bəs kim öldürüb? Əlbəttə, sizinkilərdəndir! Hamıya məlumdur ki, İsay onları güdürdü.

Ana nəfəsi tutula-tutula dayandı və əlini sinəsinə sıxdı:

– Sənə nə oldu? Sən qorxma! Əclaf öz əməlinin cəzasını çəkdi! Tez ol gəl, yoxsa meyiti apararlar!..

Vesovşikov haqqında olan ağır şübhə ananın başını gicəlləndirirdi. Donuxub qalaraq:

“Gör işi hara çatdırdı!” – deyə düşündü.

Fabrik divarının yaxınlığında, təzəlikdə yanmış evin yerində, böyük bir izdiham, ayaqları ilə kömürü tapdalayaraq və külü göyə sovuraraq, arı yuvası kimi qaynaşır və uğuldayırdı. Çox arvad, daha çox uşaq vardı, dükançılar, aşxana qulluqçuları, polislər və uca boylu, ağ, yumşaq saqqallı, döşü medallı qoca jandarm Petlin də burada idi.

İsay arxası yanıq dirəklərə söykənmiş və açıq başı sağ çiyninə əyilmiş bir halda yerdə yarı uzanmışdı. Sağ əli şalvarının cibində idi, sol əlinin barmaqları isə yumşaq torpağa sancılmışdı.

Ana onun üzünə baxdı – İsayın bir gözü, yerə sərilmiş yorğun ayaqlarının arasındakı şapkasına dikilmiş, ağzı heyrətlə yarıaçılmış, kürən saqqalı yana əyilmişdi. Uzunsov başlı, sümükləri çıxmış çil üzlü arıq bədəni ölümün pəncəsində büzüşüb daha da kiçilmişdi. Ana ufuldayıb xaç çəkdi. İsay sağ ikən ananın ondan zəhləsi gedirdi, indi isə ona ürəyində yazığı gəldi.

Adamlardan biri yavaş səslə:

– Qan yoxdur, – dedi. – Görünür yumruqla vurublar.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Acıqlı bir səs ucadan:

– Xəbərçinin ağzını yumdular... – dedi.

Jandarm hərəkətə gəldi və arvadları aralayaraq, hədələyici bir əda ilə soruşdu:

– Çox danışan kimdir, hə?

Adamlar onun əl-qol atdığını görüb səpələndilər. Bəziləri sürətlə kənara qaçdı. Kim isə hirsli qəhqəhə ilə güldü.

Ana evə qayıtdı. O öz-özünə:

"Heç kəsin yazığı gəlmir!" – deyə düşündü.

Nikolayın enli bədəni, kölgə kimi, onun gözləri qabağında dururdu, dar gözləri amansız, soyuq nəzərlə baxır, sağ əli isə, bir şeyə dəyib ağrıyırmış kimi, yırğalanırdı...

Oğlu ilə Andrey nahar eləməyə gələndə ananın birinci sözü bu oldu:

– Hə, nə var? İsayın üstündə heç kəsi tutmayıblar ki?

Xoxol:

– Bir xəbər yoxdur! – deyə cavab verdi.

Onların hər ikisinin kədərli bir həyəcan keçirdiyini ana görürdü:

– Nikolaydan bir söz danışmırlar ki? – deyə ana yavaşca xəbər aldı.

Oğlunun sərt gözləri ananın üzünə dirəndi və o, aydın səslə dedi:

– Danışmırlar. Bəlkə heç fikirlərinə də gətirmirlər. Nikolay burada deyil. Dünən günorta vaxtı çayın o tayına gedib, hələ qayıtmayıb. Mən onu xəbər aldım...

Ana nigaranlıqdan qurtarmış kimi köksünü ötürərək:

– Allaha şükür! – dedi. – Çox şükür!

Xoxol, ona baxıb, başını aşağı saldı.

Ana fikirli halda nağıl edirdi:

– Yazıq uzanıb, elə bil təəccüb eləyir, üzündə heyrət var. Heç kəsin də ona yazığı gəlmir, heç kəs onun haqqında bir yaxşı söz demir. Özü də balaca, gözə dəyməyəndir. Elə bil sınmış bir şeyin parçasıdır: qopub yerə düşüb, eləcə də qalıbdır...

Nahar üstündə Pavel birdən qaşığını bir kənara qoyub:

– Mən bunu anlamıram! – deyə səsləndi.

Xoxol:

– Nəyi? – deyə soruşdu.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

– Yalnız yemək lazımdır deyə heyvanı öldürməyin özü də pis işdir. Canavarı, yırtıcı heyvanı öldürmək... Buna söz yoxdur. Mən özüm də insanlara yırtıcı kəsilən adamı öldürə bilərdim. Ancaq bunun kimi bir yazığı öldürməyə adamın əli necə qalxar?..

Xoxol çiyinlərini atdı, sonra dedi:

– O, canavardan az zərərli deyildi. Ağcaqanad bizim qanımızı çox azca sorur, amma biz onu öldürürük! – deyə əlavə elədi.

– Əlbəttə! Ancaq mənim sözüm onda deyil... Mən deyirəm – iyrənc işdir!

Andrey yenə çiyinlərini ataraq:

– Nə eləmək olar, – dedi.

Uzun bir sükutdan sonra Pavel fikirli halda soruşdu:

– Sən beləsini öldürə bilərdinmi?

Xoxol yumru gözləri ilə ona baxdı, sonra anaya ötəri nəzər saldı və qüssəli, lakin möhkəm səslə:

– Yoldaşlarım üçün, iş üçün – mən hər şey eləyə bilərəm! Öldürə də bilərəm. Oğlum da olsa!.. – deyə cavab verdi.

Ana yavaşdan:

– Vay, Andryuşa! – deyə səsləndi.

Xoxol anaya gülümsünüb dedi:

– Başqa cür olmaz! Həyat belədir!..

Pavel sözlərini uzada-uzada:

– Bəli!.. – dedi. – Həyat belədir.

Andrey birdən həyəcana gələrək, içəridən vurulan bir təkana itaət edirmiş kimi, yerindən qalxdı və əllərini yelləyə-yelləyə danışmağa başladı:

– Axı nə eləyə bilərsiniz? Adama nifrət eləməyə məcbur olursan ki, insanlardan yalnız həzz aparmaq vaxtı tez gəlib çatsın. Həyatın hərəkətinə əngəl olanları, insanları pula sataraq özlərinə dinclik və ehtiram alanları məhv etmək, qırmaq lazımdır. Namusluların yolunda bir xain durub onları satmağa hazırlaşırsa, onu məhv etməsəm – mən özüm xain olaram! Mənim haqqım yoxdur? Bəs onların – bizim ağalarımızın – soldat və cəlladlar, fahişəxana və dustaqxanalar, katorqa və onların dincliyini, rahatlığını qoruyan bu kimi murdar şeylər saxlamağa haqqı vardırmı? Bəzən mən onların dəyənəyini əlimə almalı oluram, çarə nədir? Mən alaram, çəkinmərəm. Onlar bizi onlarla, yüzlərlə öldürürlər; bu mənə haqq verir



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

ki, əlimi qaldırıb düşmənlərdən birinin, mənə ən yaxın gələn və mənim həyati işim üçün ən zərərli olan düşmənin kəlləsinə vurum. Həyat belədir. Mən də elə bunun əleyhinə gedirəm, mən istəmirəm ki, həyat belə keçsin. Mən bilirəm – onların qanı ilə heç bir şey yaradılmır, bu qan barsızdır!.. Bizim qanımız yağış kimi yerə səpiləndə, həqiqət yaxşı göyərir, amma, onların murdar qanı izsiz, tozsuz batıb gedir, mən bunu bilirəm! Ancaq mən lazım olduğunu görsəm, günahı boynuma götürüb öldürərəm! Mən ancaq özümü deyirəm. Mənim günahım mənimlə öləcək, gələcəyə bir ləkə kimi yapışmayacaq, məndən başqa, heç kəsi ləkələməyəcək, heç kəsi!

O, otaqda gəzinə-gəzinə əllərini üzünün qabağında oynadır, sanki havada nəyi isə yarır, özündən qoparıb kənara atırdı. Ana Andreyin qəlbində bir şeyin qırıldığını, onun iztirab çəkdiyini duyur və ona qüssə və qorxu ilə baxırdı. Qətl haqqında qara və təhlükəli fikirlər ondan uzaqlaşmışdı, "Vesovşikov öldürməmişsə, Pavelin yoldaşlarından heç biri bunu edə bilməzdi" Pavel, başını aşağı salıb, xoxolun nitqini dinləyirdi, o isə təkidlə və ucadan deyirdi:

– Adam irəli gedərkən, bəzən özünə qarşı da getməli olur. Varyoxu, bütün qəlbi verməyi bacarmaq lazımdır. Canından keçmək, iş yolunda ölmək sadə bir şeydir! Sən həyatından daha qiymətli olan şeyi də ver, hər şeyindən keç – onda sənin üçün ən əziz olan həqiqət də çox böyüyər!..

Xoxol otağın ortasında dayandı; onun rəngi qaçmış, gözləri yarı yumulmuşdu, o, and içir kimi, əlini yuxarı qaldırıb dedi:

– Mən bilirəm, bir vaxt gələcək ki, insanlar bir-birindən həzz aparacaqlar, hər kəs başqası üçün bir ulduz kimi parlayacaqdır! Öz azadlığı ilə böyük olan insanlar yer üzündə azad gəzəcək, hamı açıq ürəklə yeriyəcək, hamının, hər kəsin ürəyi paxıllıq və acıqdan təmiz olacaq, heç kəs heç kəsə kin bəsləməyəcəkdir. Onda yaşayış deyil, insana xidmət olacaq, insan siması yüksəklərə qalxacaqdır, azadların üzünə bütün yüksəkliklər açıq olacaqdır! O zaman gözəllik naminə həqiqət və azadlıq içərisində yaşayacaqlar və qəlbi ilə cahanı ən geniş əhatə edənlər, onu ən çox sevənlər – insanların ən əfzəli hesab olunacaqdır; ən azad olanlar ən yaxşı insan kimi sayılacaqdır; çünki ən böyük gözəllik bunlardadır. O həyatın insanları ulu insanlar olacaqdır...



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

O susdu, qəddini düzəltdi və səsi gəldiyi qədər guruldadı:

– Bəli, bu həyat üçün mən hər nə desən elərəm...

Onun üzü titrədi, gözlərindən damcı-damcı iri, ağır yaşlar axdı.

Rəngi qaçmış Pavel, başını qaldırıb geniş açılmış gözləri ilə ona baxırdı, ana qaranlıq bir vahimənin böyüyə-böyüyə ona hücum elədiyini duyaraq, yerində dikəldi. Pavel yavaş səslə:

– Sənə nə oldu, Andrey? – deyə soruşdu.

Xoxol başını silkələdi, tel kimi uzandı və anaya baxıb:

– Mən görmüşəm... Bilirəm... – dedi.

Ana yerindən qalxıb sürətlə ona yanaşdı və əllərindən yapışdı, xoxol sağ əlini çəkmək istədi, lakin ana onu bərk-bərk tutub qızğın pıçıltı ilə dedi:

– Bala, yavaş danış! Əzizim...

Xoxol boğuq səslə:

– Dayanın! – dedi. – Mən əhvalatın necə olduğunu sizə nağıl eləyim...

Ana yaşarmış gözlərini ona dikərək pıçıldayırdı:

– Demə, Andryuşka, nə lazım...

Gözləri yaşarmış Pavel yavaş-yavaş yoldaşının yanına gəldi. Onun rəngin qaçmışdı, o, yavaş səslə ağır-ağır və gülə-gülə dedi:

– Anam qorxur ki, bunu edən sənsən...

Ana:

– Mən qorxmuram! – dedi. – İnanmıram. Görsəydim də inanmazdım!

Xoxol onlara baxmadan, başını bulaya-bulaya, yenə əlini çəkməyə çalışır və:

– Dayanın! – deyirdi. – Mən deyiləm. Ancaq istəsəydim qoymazdım...

Pavel:

– Boşla, Andrey! – dedi.

Sonra bir əli ilə onun əlini sıxdı, o biri əlini, sanki xoxolun uca bədəninin titrəməsini dayandırmaq üçün onun çiyninə qoydu. Xoxol başını onlara tərəf əyib, yavaş səslə, kəsik-kəsik danışmağa başladı:

– Sən, Pavel, yaxşı bilirsən ki, mən bunu istəmirdim. İş belə oldu: sən irəli gedəndən sonra mən tində Draqunovla dayandım. İsay tinin dalından çıxıb kənarda durdu. Bizə baxıb qımışırdı... Draqunov dedi:



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

– Görürsənmi? Bu bütün gecəni məni beləcə güdür. Mən onun əngini əzəcəyəm. Bunu deyib getdi. Mən evə getdiyini zənn etdim.. İsay onda mənə yanaşdı...

Xoxol köksünü ötürdü:

– Heç kəs məni o köpək kimi təhqir eləməmişdi.

Ana onun əlindən tutub, dinməz-söyləməz masaya tərəf çəkirdi, axırda Andreyi kürsüyə oturda bildi. Özü də onunla lap çiyin-çiyinə oturdu. Pavel isə onun qabağındaca ayaq üstə dayanıb saqqalını dartırdı:

– O, mənə deyirdi ki, bizim hamımızı tanıyırlar, jandarmlar hamımızı siyahıya almışlar və May bayramı qabağı tutacaqlar. Mən cavab vermir, gülürdüm, amma acığımdan ürəyim partlayırdı. O, mənə deyirdi: sən ağıllı oğlansan, ancaq nahaq yerə bu yola düşmüsən, yaxşısı budur ki...

Xoxol dayandı, sol əli ilə üzünü sildi və odlu gözləri qəzəblə parladı.

Pavel:

– Başa düşürəm! – dedi.

– Yaxşısı, dedi, qanuna qulluq eləməkdir, hə?

Xoxol, əlini qaldırıb, yumruğunu havada silkələdi və dişləri arasından:

– Qanuna qulluq! Ay məlun xain! – dedi. – Mənə şillə vursaydı, bundan yaxşı idi... mənim üçün də, bəlkə özü üçün də. Amma üfunətli tüpürcəyi ilə düz mənim qəlbimə tüpürdükdə, mən artıq dözə bilmədim.

Andrey, əlini rəşəli bir hərəkətlə Pavelin əlindən çıxarmağa çalışaraq, nifrət dolu, daha boğuq bir səslə deyirdi:

– Mən ona bir şillə vurub getdim. Daldan Draqunovun yavaş səslə: "Əlimə düşdünmü?" dediyini eşitdim. Yəqin ki, tinin dalında durubmuş...

Bir az sükutdan sonra xoxol davam elədi:

– Mən dönüb baxmadım, amma duyurdum... zərbə endirildiyini eşitdim... Qurbağa ayaqlamış kimi, yolumla rahatca getdim. Təzəcə işə başlamışdım, birdən bağırtı eşitdim: – İsayı öldürüblər! İnanmadım, ancaq əlim sızıldamağa başladı, – elə bil öz əlim deyildi, – ağrımağına ağrımırdı, ancaq elə bil gödəlmişdi:..

O çəp-çəp əlinə baxıb dedi:



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

– Yəqin ki, ölənə kimi bu murdar ləkəni əlimdən yuyub təmizləyə bilməyəcəyəm...

Ana yavaşdan:

– Ürəyin təmiz olsun, əzizim! – dedi.

Xoxol möhkəm səslə:

– Yox! – dedi. – Mən özümü günahkar saymıram. Ancaq iyrənirəm! Bu, mənə lazım deyildi.

Pavel çiyinlərini qısıb dedi:

– Mən səni başa düşə bilmirəm. Öldürən ki, sən deyilsən, bir də tutaq ki, elə...

– Qardaşım, biləsən ki, adam öldürürlər, mane olmayasan...

Pavel qəti səslə:

– Mən bunu heç başa düşmürəm!.. – dedi.

Bir az düşündükdən sonra əlavə elədi:

– Yəni başa düşürəm, ancaq hiss edə bilmirəm.

Fabrikin fiti çalındı. Xoxol, başını yana əyib, hökmlü bağırtıya qulaq asdı və silkinərək dedi:

– İşə getməyəcəyəm...

Pavel:

– Mən də! – deyə səsləndi.

Xoxol gülümsünə-gülümsünə:

– Hamama gedəcəyəm! – dedi və sürətlə, dinmədən yığışıb qaşqabaqlı evdən çıxdı.

Ana, mərhəmətli nəzərlə onu yola salıb, oğluna dedi:

– Nə deyirsən de, Paşa, adam öldürməyin günah olduğunu bilirəm, ancaq heç kəsi günahkar hesab eləmirəm. İsaya yazığım gəlir, o, balaca bir mıxça idi, bu gün ona baxdım səni asdırmaq istədiyi yadıma düşdü, ancaq ona qarşı nə açıq hiss elədim, nə də ölümünə sevindim. Eləcə yazığım gəldi. İndi isə heç yazığım da gəlmir...

Ana dayandı, bir qədər düşündü və heyrətlə gülümsünərək, əlavə elədi:

– Pərvərdigara! Paşa, eşidirsənmi, mən nələr danışıram?

Görünür, Paşa eşitmirdi. Başıaşağı yavaş-yavaş otaqda gəzinərək fikirli və tutqun bir halda dedi:

– Həyat bu imiş! Görürsənmi, adamlar necə qabaq-qabağa qoyublar? İstəməsən də vur. Kimi? Özün kimi hüquqsuz, yazıq bir adamı. O, səndən də bədbəxtdir; çünki axmaqdır. Polislər, jandarmlar,



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

casuslar bizim düşmənlərimizdir, ancaq onlar da bizim kimi adamlardır, onların da qanını bizimki kimi sorurlar, onları da adam yerinə qoymurlar. Elə bizim kimi! Amma adamları bir-birinə qarşı qoyublar, gözlərindən nadanlıq və qorxu pərdəsi asıblar; hamısının əl-ayağını bağlayıb sıxır və qanını sorurlar, birinin əli ilə o birini əzir, döyürdülər. İnsanları tüfəngə, ağaca, daşa döndərib deyirlər: – bu, dövlətdir!..

O, anaya yaxınlaşdı:

– Bu cinayətdir, ana! Milyonlarla adamı alçaqcasına öldürürlər, ruhlarını öldürürlər... Başa düşürsənmi, – insanın ruhunu öldürürlər. Bizimlə onların arasındakı fərqi görürsənmi, – budur, adama bir şillə vurub, indi iyrənir, utanır, qəlbi ağrıyır. Xüsusən, iyrənir! Amma onlar minlərlə adamı rahat, mərhəmətsiz, diksinmədən, həzz alaraq öldürürlər! Hamını və hər şeyi əzməkdə yeganə məqsədləri budur ki, onlara ixtiyar verib adamlara hakim edən gümüşü, qızılı, lüzumsuz kağızları, bütün bu dəyərsiz zibili əllərində saxlasınlar. Bir düşün. Onlar, xalqı qırarkən, insanların ruhunu əzərkən, özlərini qorumurlar, bunu özləri üçün eləmirlər, öz varları üçün edirlər. Özlərini içəridən deyil, eşikdən qoruyurlar...

Pavel anasının əllərini əlinə aldı, anaya tərəf əyildi və onun əllərini silkələyərək dedi:

– Sən bütün bu alçaqlığı, bu iyrənc puçluğu hiss etsəydin, bizim həqiqətimizi anlardın, onun nə qədər böyük və gözəl olduğunu görərdin!..

Ana həyəcan içində ayağa qalxdı, öz ürəyini oğlunun ürəyilə bir odda birləşdirmək arzusu onun qəlbini doldurdu. Ağır-ağır nəfəs alaraq:

– Dayan, Paşa! – dedi. – Dayan! Mən hiss edirəm, dayan!..

## XXV

Eyvanda hənirti gəldi. Ana ilə oğul, diksinib, bir-birinin üzünə baxdı.

Qapı yavaşca açıldı və Rıbin ağır-ağır içəri girdi. O, başını qaldırıb gülümsünərək:

– Hə, bu da mən! – dedi və davam elədi: – Xoş gəldin, beş gəldin, bəs niyə əli boş gəldin!..



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

O, qatrana batmış qısa, qalın palto geymişdi, ayağı çarıqlı idi, qara əlcəkləri kəmərinə taxılmışdı, başında isə qıllı papaq vardı:

– Salamatsınızmı? Pavel, səni buraxdılarmı? Deməк belə. Sən necəsən, Nilovna?

O, məmnuniyyətlə gülümsünərək, ağ dişlərini göstərdi, səsi əvvəlkindən yumşaqdı, üzünü daha qalın saqqal basmışdı. Ana sevincək ona yanaşdı, onun iri qara əlini sıxaraq, tünd qatran qoxusu ilə nəfəs ala-ala:

– Xoş gəlmisən... Çox şadam!.. – dedi.

Pavel, Rıbini süzərək gülümsünürdü:

– Xoş gördük, kəndli qardaş!

Rıbin tələsmədən soyuna-soyuna deyirdi:

– Bəli, yenə kəndli olmuşam, siz yavaş-yavaş ağalığa çıxırsınız, amma mən geri gedirəm...Bəli!

Rıbin əlvan köynəyinin ətəklərini çəkə-çəkə otağa keçdi, diqqətlə onu süzüb dedi:

– Görünür dövlətiniz artmayıb, amma kitabınız çoxalıb, bəli! Di nağıl eləyin görək, işlər necə gedir?

Rıbin ayaqlarını gen qoyub oturdu, əllərini dizlərinə dayadı və qara gözlərini Pavelə dikib, mülayim-mülayim gülümsünərək, cavab gözləməyə başladı.

Pavel:

– İşimiz yaxşı gedir? – dedi.

Rıbin zarafatla:

– Əkirik, biçirik, lovğalıq bilmirik, – dedi; – məhsulu yığarıq, çaxırı çəkərik, doyunca içərik, yanı üstdə yatarıq... Beləmi?

Pavel onunla üzbəüz əyləşib soruşdu:

– Siz necəsiniz, Mixoylo İvaniç?

– Niyə, yaxşıyam. Yegildeyevoda məskən salmışam; eşitmisinizmi, Yegildeyevo? Yaxşı kənddir. İldə iki bazarı olur, əhalisi iki mindən artıqdır, hirsli camaatdır. Torpaqları yoxdur, padşahlıq yerlərindən icarə edirlər, qüvvətsiz yerdir. Mən də bir qolçomağın yanında muzdurluğa girmişəm, bu qolçomaqlar kəndin canına həşərat kimi daraşıblar. Qatran çəkirik, kömür yandırırıq. Donluğum buradakından birə dörd az, işim də birə iki çoxdur, bəli! Qolçomağın yeddi muzduru var. Yaxşı uşaqlardır, hamısı cavandır, məndən savayı hamısı oralıdır, hamısı da savadlıdır. Bir oğlan var, Yefim, zalım oğlu od parçasıdır.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Pavel maraqla Soruşdu:

– Onlarla söhbət eləyirsinizmi?

– Kirimiş oturmuram. Buradakı vərəqələrin hamısından yanımda vardır – otuz dörd dənədir. Amma mən çox vaxt tövratı işə salıram, orada da oxumalı şey çoxdur. Qalın kitabdır, hökumət malıdır, sinod çap eləyib, inanmaq olar!

O, Pavelə göz vurub gülə-gülə davam elədi:

– Ancaq bu azdır. Yanına kitab aparmaq üçün gəlmişəm. Burada iki nəfərik. O dediyim Yefim də buradadır. Qatran gətirmişdik, yolumuzu buradan saldıq! Yefim gəlməmiş, sən mənə kitab ver, o bilməsə yaxşıdır.

Ana Rıbinə baxırdı; ona belə gəldi ki, guya qonaq, pencəyini soyunarkən əynindən başqa bir şey də çıxarmışdır. Bununla da əvvəlkindən daha az vüqarlı olmuşdu, gözləri isə əvvəlki kimi açıq deyil, hiylə ilə baxırdı.

Pavel anasına:

– Ana, – dedi, – gedib kitab gətirəydiniz. Özləri bilirlər. Deyin, kənd üçündür.

Ana:

– Yaxşı! – dedi. – Qoy samovar qaynasın, gedərəm!

Rıbin gülümsünərək soruşdu:

– Sən də bu yola düşmüsən, Nilovna? Belə? Bizim yerdə kitaba həvəsi olan çoxdur. Müəllim həvəsləndirir, deyilənə görə yaxşı oğlandır, hərçənd ki, atası keşişdir. Müəllimə də var, yeddi verstlikdədir. Ancaq onlar qadağan olunmuş kitab işlətmirlər, padşah qulluğundadırlar, qorxurlar. Amma mənə qadağan olunmuş, qılınc kimi kəsən kitab lazımdır, mən onların kölgəsində gizlənərəm... İşdir, mahal pristavı ya keşiş qadağan olunmuş kitab görsə, müəllimlərin yaydığını güman edər.

Mən isə, hələlik, kənarda qalaram.

Rıbin öz ağıllılığından məmnun bir halda nəşə ilə dişlərini ağartdı. Ana ürəyində:

“Buna bax! – dedi. – Zahiri ayı, batini tülküdür...” Pavel soruşdu:

– Fikrinizcə, müəllimlərdən şübhələnib qadağan olunmuş kitabları onların yaydığını güman etsələr, onları dama salarlarmı?

Rıbin:

– Salarlar! – dedi və soruşdu: – Necə ki?



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

– Kitabları dağıdan ki, onlar deyil, sizsiniz! Dama gərək siz gedəsiniz.

Rıbin əlini dizinə çırpıb:

– Dəliyə bax! – dedi. – Mən kimin ağlına gələrəm? Avam kəndli belə işlərə qarışırmış, belə də şey olar? Kitab ağa işidir, qoy onlar da cavab versin...

Ana Pavelin Rıbini anlamadığını duyurdu və görürdü kn, Pavel gözlərini qıyır, deməli, hirslənir. Ana ehtiyatlı və mülayim səslə dedi:

– Mixaylo İvanoviç istəyir ki, işi o özü görsün, amma cavab verən özgəsi olsun...

Rıbin saqqalını sığallayaraq:

– Odur ha! – dedi. – Bir müddət.

Pavel ciddi səslə:

– Ana, – dedi. – Bizim yoldaşlardan biri, məsələn Andrey, bir şey eləyib mənim boynuma atsa, məni də tutub dama salsalar sən nə deyərsən?

Ana diksindi, heyrətlə oğluna baxdı və başını bulayaraq dedi:

– Bu necə ola bilər, yoldaş da belə iş eləyər?

Rıbin uzada-uzada:

– Ah! – dedi. – Pavel deyəni indi başa düşdüm!

O istehza ilə gülümsünüb anaya tərəf çöndü:

– Bu nazik məsələdir, ana!

Üzünü yenə Pavelə çevirərək, nəsihət edir kimi, dedi:

– Aşna, sən hələ xamsan! Gizlin işdə namus olmaz. Bir özün düşün: əvvəla dama salınan müəllim olmayacaq, əlində kitab tutulan oğlan olacaq, bu bir. İkincisi, müəllimlər qadağan olunmamış kitab paylayır, ancaq o kitablar da qadağan olunmuş kitab kimidir, yalnız sözləri ayrıdır, bir də həqiqəti azdır – bu iki. Demək, onlar da mən istədiyimi istəyirlər, ancaq onlar əyri cığırla gedir, amma mən böyük yol ilə, hökumətin qabağında isə hər ikimiz eyni dərəcədə taqsırkarıq, belədirmi? Üçüncüsü isə budur, gözüm, mənim onlarla işim yoxdur, piyada atlıya yoldaş ola bilməz. Onlar kəndli olsaydı, bəlkə də mən belə eləməzdim. Ancaq onlardan biri keşiş balası, o biri də mülkədar qızıdır. Xalqı qaldırmaq nələrinə lazımdır, – bunu bilmirəm. Onların ağayana fikirləri mənə, rəiyyətə, məlum deyil. Mən öz elədiyimi yaxşı bilirəm, onların nə istədiyi mənə məlum deyil. Min il səylə ağalıq etmiş, rəiyyətin dərisini



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

soymuşlar, indi birdən ayılıb, rəiyyətin gözünü açmağa başlamışlar. Əzizim, mənim nağıl ilə aram yoxdur, bu isə nağılsayağı bir şeydir. Hər cür ağa məndən uzaqda gəzir. Qış vaxtı çöl ilə gedəndə görürsən qabaqda diri bir şey tərpəşir. Bu tərpəşən nə ola bilər? Qurdmu, tülkümü, ya sadəcə köpəkmi, nə bilim, gözüm seçmir! Uzaqdır.

Ana oğluna baxdı, onun üzü qəmli idi.

Rıbinin isə qara gözləri parıldayırdı. O, özündən razı bir əda ilə Pavelə baxır və qızışaraq barmaqları ilə saqqalını daraya-daraya deyirdi:

– Nəzakət göstərməyə macalım yoxdur. Həyat ağır bir şeydir; it damı qoyun yatağı deyil, hər it bir cür hürür...

Ana tanıdığı simaları yadına salıb dedi:

– Ağalardan elələri vardır ki, özlərini elin üstündə ölümə verir, bütün ömrünü dustaqxanada çürüdür...

Rıbin cavab olaraq:

– Onların hesabı başqa, hörməti də başqadır! – dedi. – Rəiyyət varlananda ağalığa tərəf çəkir, ağa da kasıblayanda rəiyyətə tərəf gedir. Kisə boşalanda, ixtiyarsız ürək də təmizlənir. Yadındadırmı, Pavel, sən məni öyrədirdin ki, kim necə yaşayırsa, elə də düşünür; fəhlə hə deyəndə, ağa gərək yox desin, fəhlə yox deyəndə isə, ağa hökmən hə deyə bağıracaq; çünki onun təbiəti belədir. Bax, kəndlilərlə ağaların da təbiəti beləcə ayrıdır. Kəndli tox olanda ağanın yuxusu gəlmir. Əlbəttə, hər təbəqənin öz əclafı var, mən kəndlilərin hamısını müdafiə edə bilmərəm...

Rıbin ayağa qalxdı, o qara və qüvvətli idi. Üzü solğun görünür, saqqalı titrəyirdi; elə bil dişlərini səssizcə şaqqıldadıb astadan sözünə davam elədi:

– Beş il mən fabrikləri gəzib kəndi yadırğadım! Geri qayıdıb gördüm ki, mən bu cür yaşaya bilməyəcəyəm. Başa düşürsənmi? Yaşaya bilməyəcəyəm! Siz burada yaşayırsınız, siz elə müsibət görmürsünüz. Amma orada aclıq kölgə kimi adamın dalınca gəzir, çörəyə də bir ümid yoxdur, yox! Aclıq xalqın ruhunu yeyib, insanların sifətini pozub; xalq yaşamır, əlacsız ehtiyac içində çürüyür... Ətrafda da qarğa kimi, hökumət adamları güdür ki, görsün birinin əlində bir artıq tikə yoxdur ki? Görən kimi əlindən qapıb,ənginə də bir yumruq ilişdirir...



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Rıbin ərtafına baxdı, Pavelə tərəf əyildi və əlini masaya dayayıb dedi:

– Bu həyatı təzədən görəndə ürəyim bulandı. Gördüm, dözə bilmirəm! Ancaq yenə özümü yığışdırdım, yox dedim, nazlanmağa gəlməz! Qalmalıyam. Sizə çörək əlacı eləməsəm də bir qazan qaynadaram... Hökmən qaynadaram! Mənim ürəyim insanların üstündə və insanlara qarşı acıqla doludur. Bu acıq, bıçaq kimi, bağrıma sancılıb yırğalanır.

Onun alnı tərləmişdi, o yavaş-yavaş Pavelə yaxınlaşaraq əlini onun çiyninə qoydu. Əli əsirdi:

– Mənə kömək elə! Kitab ver, eləsini ver ki, adam oxuyanda daha rahatlıq tapa bilməsin. Xalqın kəlləsinin içinə kirpi qoymaq lazımdır. Sizin üçün yazan şəhərli adamlara söylə, kənddən ötrü də yazsınlar! Qoy elə yazsınlar ki, qaynar su kimi kəndi pöşləsin, xalq ölümə soxulsun!

Rıbin əlini qaldırdı və boğuq səslə kəlmə-kəlmə dedi:

– Ölümü gərək ölümlə ayaqlayasan, bəli! Yəni sən öl ki, xalq dirilsin. Qoy minlər ölsün ki, yer üzündə olan saysız-hesabsız xalq dirilsin! Bəli. Ölmək asandır. Kaş diriləydilər! İnsanlar qalxaydılar!

Ana Rıbinə çəp-çəp baxaraq samovarı, içəri gətirdi. Onun ağır və qüvvəli sözləri ananı basıb əzirdi. Bu adamda anaya ərini xatırladan bir xüsusiyyət vardı, o da bunun kimi dişlərini ağardır, əllərini oynadır, qolunu çirməyirdi, onda da bunun kimi səbirsiz acıq yaşayırdı, o səbirsiz, lakin lal, dinməzdi. Bu isə danışırdı. Ona görə də az dəhşətli idi.

Pavel başını silkələyib:

– Bu lazımdır, – dedi. – Siz material verin, biz də sizin üçün qəzet çıxardaq...

Ana təbəssümlə oğluna baxıb, başını buladı və dinməz-söyləməz geyinib evdən çıxdı.

Rıbin:

– Çıxardın! Nə lazım olsa, verərik! – deyə qışqırdı. – Sadə yazın ki, buzovlar da anlasın!

Mətbəxdə qapı açıldı, kim isə içəri girdi.

Rıbin mətbəxə baxıb:

– Yefimdir! – dedi və çağırdı. – Bura gəl, Yefim. Bu Yefimdir, bu oğlanın da adı Paveldir, sənə dediyim oğlan budur!



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Pavelin qarşısında qısa və qalın palto geymiş, sarı saçlı, üzü enli, uca boylu və zahirən güclü bir oğlan durmuşdu, şapkasını əlində tutan bu oğlan bozumtul gözləri ilə altdan-altdan Pavelə baxırdı.

O boğuq səslə:

– Sabahınız xeyir! – deyə Pavelin əlini sıxdı və iki əli ilə düz duran saçlarını tumarladı. Otağa göz gəzdirərək, o, haman saat yavaş və yumşaq addımlarla kitab rəfinə tərəf yeridi.

Rıbin Pavelə göz eləyib dedi:

– Gördü!

Yefim geri dönüb ona baxdı və:

– Nə qədər kitabınız var! Yəqin, oxumağa macal da tapmırsınız. Kənddə bu iş üçün vaxt çoxdur... – deyə-deyə kitabları gözdən keçirməyə başladı.

Pavel:

– Amma həvəs azdır, eləmi? – deyə soruşdu.

Oğlan çənəsini sürtərək:

– Niyə, həvəs də var! – dedi. – Xalqın gözü açılmağa başlayıbdır. “Geologiya” – bu nə deməkdir?

Pavel başa saldı.

Oğlan:

– Bizə lazım deyil! – deyə kitabı yerinə qoydu.

Rıbin, ucadan köksünü ötürüb dedi:

– Yerin necə yaranması kəndlini maraqlandırmır, nə sayaq onun-bunun əlinə keçdiyi maraqlandırır, ağaların, onu xalqın əlindən necə çəkib çıxardığı maraqlandırır. Yerin fırlandığı ya dayandığı əhəmiyyətli deyil, istəyirsən, yeri kəndirdən as, – təki yemək versin; istəyirsən lap göyə mıxla, – təki xalqı doyuzdursun!..

Yefim bu dəfə:

– “Köləliyin tarixi”ni oxudu və Paveldən soruşdu:

– Bizdənmi yazır?

Pavel:

– Təhkimçilik hüququndan da yazılmışdır! – deyə ona başqa bir kitab verdi. Yefim kitabı alıb əlində o yan-bu yana fırlatdı və kənara qoyub sakit səslə dedi:

– Bu keçdi.

Pavel:

– Sizin öz torpaq payınız vardırmı? – deyə soruşdu.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

– Bizimmi? Var! Üç qardaşıq, dörd desyatin torpağımız var. Qumluqdur, mis silməyə yaxşıdır, ancaq taxıl əkməyə yaramaz! Bir az sükutdan sonra davam elədi:

– Mən torpaqdan yaxamı qurtarmışam, nəyimə gərəkdir? Qarnımı doyuzdurmur, amma əllərimi bağlayır. Dörd ildir muzdurluq eləyirəm. Payızda da soldatlığa gedəcəyəm. Mixaylo dayı deyir: – Getmə! İndi, deyir, soldatları xalqı qırmağa göndərirlər. Ancaq mən getmək istəyirəm. Qoşun Stepan Razinin də, Puqaçovun da vaxtında xalqı qırırdı. Ta bəsdir, bunun kökünü kəsmək lazımdır. Siz nə fikirdəsiniz? – deyə o, Pavelə diqqətlə baxıb soruşdu.

Pavel gülümsünərək, cavab verdi:

– Vaxtıdır! Ancaq çətin işdir! Soldatlarla necə danışmağı və nə danışmağı bilmək lazımdır...

Yefim:

– Öyrənərik, bilərik! – dedi.

Pavel:

– Əgər hökumət bu işdən xəbər tutsa güllələyə bilər! – deyə əlavə elədi və maraqla Yefimə baxdı.

Oğlan sakit səslə:

– Söz yox, bağışlamaz! – deyə razı oldu və yenə kitabları əlləşdirməyə başladı.

Rıbin:

– Yefim, çayını iç, getmək lazımdır! – dedi.

Oğlan:

– Bu saat! – deyə cavab verdi və yenə soruşdu. – İnqilab üsyanamı deyilir?

Bu zaman Andrey qızarıb tərləmiş və qaşqabağını tökmüş bir halda gəldi. Dinməz-söyləməz Yefimin əlini sıxdı, Rıbinin yanında oturdu və onu seyr edib gülümsündü.

Rıbin əlini onun dizinə vurub soruşdu:

– Niyə acıqlısan?

Xoxol:

– Heç, elə-belə! – deyə cavab verdi.

Yefim, başı ilə Andreyi nişan verib soruşdu:

– Bu da fəhlədir?

Andrey:

– Fəhləyəm! – deyə cavab verdi. – Necə ki?



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Rıbin izah edərək:

– Birinci dəfədir ki, fabrik fəhlələrini görür! – dedi. – Onlar, deyir, başqa cür adamdır...

– Nəyi başqadır? – deyə Pavel soruşdu.

Yefim diqqətlə Andreyə baxıb:

– Sizin sümüyünüz itidir, – dedi. – Kəndlinin sümüyü yumrudur...

Rıbin:

– Kəndli öz yerində daha rahat durur! – deyə əlavə elədi. – O, ayağının altında yer hiss eləyir; özünün yeri yoxdursa da hiss eləyir. Amma fəhlə, quş kimidir; nə vətəni var, nə evi, bu gün burada, sabah oradadır. Onu arvad da yerə bağlamır, bir şey olan kimi, görürsən üz döndərdi, "salamat qal", – deyib uzaqlaşdı. Getdi özünə yaxşı yer axtarmağa. Amma kəndli, yerindən tərpənmədən, öz ətrafını düzəltməyə çalışır. Budur, ana da gəldi!

Yefim, Pavelə yaxınlaşıb soruşdu:

– Mənə bu kitablardan birini verərsinizmi?

Pavel həvəslə:

– Əlbəttə! – deyə səsləndi.

Oğlanın gözləri tamahkarlıqla alovlandı; o tez əlavə elədi:

– Tez qaytararam! Bizim uşaqlar bu yaxınlığa qatran daşıyırlar, onlara verərəm, gətirərlər.

Rıbin geyinmiş və bərk-bərk kəmərini çəkmişdi. Yefimə:

– Gedək, vaxtdır! – dedi.

Yefim kitabları nişan verib güldü:

– Amma oxuyacağam ha!.. – deyə qışqırdı.

Onlar gedəndən sonra Pavel Andreyə üzünü tutub şövq ilə dedi:

– Bu şeytanları gördünmü?

Xoxol yavaşdan və sözünü uzada-uzada:

– Hə-ə-ə! – dedi. – Bulud kimidirlər...

Ana:

– Bir Mixayloya baxaydınız! – deyə səsləndi. – Elə bil heç fabrikdə olmayıb, lap kəndliyə dönübdür! Necə də heybətlidir!

Andrey, masanın başında oturub, qüssəli-qüssəli öz stəkanına baxırdı. Pavel ona:

– Heyif ki, sən burada deyildin! – dedi. – Bir qəlbin oynamasına baxardın, – sən hey qəlbdən dəm vurursan! Burada Rıbin bir hənga-



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

mə açdı ki, məni lap sıxışdırdı, əzdi!.. Mən ona cavab da verə bilmədim. Heç insanlara inanmır, həm də onlara nə qədər ucuz qiymət verir. Anam doğru deyir – bu adamdakı güc dəhşətli gücdür!..

Xoxol:

– Mən beləsini çox görmüşəm! – dedi. – Xalqı zəhərləmişlər! Bunlar qalxsalar, hər şeyi vurub yıxacaqlar. Bunlara çılpaq yer lazımdır, odur ki, hər şeyi silib süpürəcəklər.

O, yavaş-yavaş danışırdı, hiss olunurdu ki, fikri ayrı yerdədir. Ana ehmalca əlini ona toxundurub dedi:

– Andryuşa, bir qaşqabağın açılsın!

Xoxol yavaş və mülayim səslə xahiş elədi:

– Möhlət verin, mənim əziz nənəciyim!

Sonra birdən qızışaraq, yumruğunu masaya vurdu və davam elədi:

– Elədir, Pavel! Kəndli ayağa qalxsa, yeri özü üçün boşaldacaq. Taundan sonra olan kimi – yer üzündə nə varsa, hamısını yandırıb külünü sovuracaq ki, bütün gördüyü zülmlərin izi yox olsun...

Pavel astadan dedi:

– Sonra da bizim yolumuzun üstündə duracaq!

– Bizim borcumuzdur, gərək buna yol verməyək! Pavel, onun qabağını almaq, bizim borcumuzdur! Ona hamıdan yaxın bizik, o, bizə inanar, bizim dalımızca gedər.

Pavel:

– Bilirsənmi, – dedi, – Rıbin təklif edir ki, kənd üçün qəzet çıxaraq!

– Lazımdır da!

Pavel gülümsünüb dedi:

– Heyif ki, onunla mübahisə eləmədim!

Xoxol əlini başına sürtərək sakit səslə:

– Hələ çox bəhsimiz olacaq! – dedi. – Sən öz havanı çal, ayağı torpağa quylanmayanlar sən çaldığın kimi oynayacaqlar! Rıbin doğru deyir, biz ayağımızın altında yeri hiss eləmirik, eləməməliyik də, ona görə də, yeri tərpətmək də bizim boynumuza qoyulubdur. Bir dəfə tərpədərik – adamlar qopar, bir də tərpədərik, yenə, yenə!

Ana gülümsünüb dedi:

– Andryuşa, sənə hər şey sadə gəlir!

Xoxol:



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

– Əlbəttə! – deyə cavab verdi. – Sadədir! Həyat kimi!

Bir neçə dəqiqədən sonra xoxol dedi:

– Mən çölə gedim, gəzim!..

– Hamamdan sonramı? Küləkdir, özünü soyuğa verərsən! – deyə ana xəbərdarlıq elədi.

Xoxol:

– Elə soyuğa vermək lazımdır! – deyə cavab verdi.

Pavel mehribanlıqla:

– Gözlə, soyuq dəyər! – dedi. – Yaxşısı budur, uzan yat.

– Yox, gedəcəyəm!

Xoxol paltosunu geyib bir söz demədən getdi...

Ana ah çəkib dedi:

– Ürəyi ağrıyır!

Pavel anasına:

– Bilirsənmi, – dedi, – o əhvalatdan sonra ona "sən" deməkdə yaxşı eləmisən!

Ana heyrətlə ona baxıb dedi:

– Mən heç özüm də bilmirəm bu necə oldu! O, mənə elə yaxın olubdur ki, deyə də bilmirəm!

Pavel yavaş səslə:

– Sənin ürəyin yaxşı ürəkdir, ana! – dedi.

– Kaş sənə, sizin hamınıza bir təhər kömək eləyəydim! Eləyə bilərəmmi?..

– Qorxma, eləyə bilərsən!..

Ana yavaşdan güldü:

– Amma yenə də qorxmaya bilmirəm!

Pavel:

– Yaxşı, ana! Gəl danışmayaq! – dedi. – Bunu bil ki, mən səndən çox-çox razıyam!

Ana göz yaşları ilə Pavelin əhvalını pozmamaq üçün mətbəxə getdi.

Xoxol axşam gec, yorğun evə qayıtdı və:

– Azından on verst qaçmışam!.. – deyib dərhal yerinə uzandı.

Pavel:

– Kömək elədimi? – deyə soruşdu.

– Qoy yatım, yuxum gəlir!

Bunu deyib ölü kimi susdu.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Bir azdan Vesovşikov gəldi; paltarı cırılmış, palçığa batmışdı; həmişəki kimi narazı idi. Kobud addımlarla otağı ölçə-ölçə Paveldən soruşdu:

– İsayı öldürən kimdir, eşitməmisən ki?

Pavel qısaca:

– Yox! – deyə cavab verdi.

– Bir iyrənməyən tapıldı! Mən özüm onun başını əzmək istəyirdim. Bu iş mənim üçün yaranmışdı, mənə yaraşan iş idi!

Pavel dost kimi məsləhət verdi:

– Nikolay, belə söhbətləri boşla getsin!

Ana mehriban səslə oğlunun dediyinə qüvvət verdi:

– Doğurdan da, nə olsun ki? Ürəyin yumşaq, amma özün elə mırtıldanırsan. Bu nəyə lazımdır?

Bu anda Nikolaya baxmaq anaya xoş gəlirdi, hətta onun çopur üzü belə anaya gözəl görünürdü.

Nikolay çiyinlərini çəkib dedi:

– Belə işlərdən başqa, özgə şeyə yaramıram! Özümə layiq yer tapmaq üçün hey fikirləşirəm. Tapa bilmirəm ki, bilmirəm. Adamlarla danışmaq lazımdır, amma mən bacarmıram! Hər şeyi görürəm, insanların çəkdiyi əzabı hiss eləyirəm, ancaq deməyi bacarmıram. Qəlbim laldır.

O, Pavelə yaxınlaşdı və başını aşağı salıb, barmağını masanın üstünə sürtə-sürtə, özünə yaraşmayan gileyli uşaq səsi ilə dedi:

– Əzizim, mənə bir ağır iş tapın! Mən belə, mənasız yaşaya bilmirəm. Siz hamınız işdəsiniz. Mən görürəm, iş böyüyür, amma mən kənardayam! Şalban daşıyıram! Taxta daşıyıram. Axı yalnız bundan ötrü yaşamaq olarmı? Mənə bir ağır iş tapşırın!

Pavel onun əlindən yapışıb, özünə tərəf çəkdi:

– Tapşırarıq!..

Bu zaman pərdənin dalından xoxolun səsi gəldi:

– Mən sənə hərf yığmağı öyrədərəm, Nikolay, bizim mürəttibimiz olarsan, yaxşımı?

Nikolay onun yanına gələrək:

– Əgər öyrətsən, sənə bir bıçaq bağışlaram... – dedi.

Xoxol:

– Bıçağınla bərabər cəhənnəm ol! – deyə qışqırdı və birdən güldü.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Nikolay təkidlə:

– Yaxşı bıçaqdır! – dedi. Bu yerdə Pavel də güldü.

Onda Vesovşikov otağın ortasında dayanıb soruşdu:

– Siz mənəmi gülürsünüz?

Xoxol yerindən sıçrayıb:

– Əlbəttə! – dedi. – Bilirsiniz nə var? Gəlin çölə gedək, gəzməyə. Aydınlıqdır. Gözəl gecədir. Gedək.

Pavel:

– Yaxşı! – dedi.

Nikolay:

– Mən də gedərəm! – dedi. – Sən gülləndə mənim çox xoşuma gəlirsən, xoxol!

Xoxol gülərək cavab verdi:

– Peşkəş vəd eləyəndə də sən mənim xoşuma gəlirsən!

Xoxol mətbəxdə geyinəndə ana deyinən kimi:

– İsti paltar gey!.. – dedi.

Onların üçü də gedəndən sonra ana pəncərədən onlara baxıb, üzünü ikonaya çevirdi və yavaş səslə:

– Pərvərdigara, sən bunlara kömək ol! – dedi.

## XXVI

Günlər bir-birinin dalınca elə sürətlə keçdi ki, ana mayın birini xatırlamağa macal tapmadı. Yalnız gecələr, gündüzün gurultulu, həyəcanlı get-gəlindən sonra yatağına girəndə, ananın ürəyi yavaşca sızıldamağa başlayırdı...

– Barı tez olaydı...

Dan yeri ağaranda fabrikin fiti ulayır, oğlu ilə Andrey tələsik çay içib, yemək yeyir və anaya bir yığın tapşırıq verib gedirdilər. Bütün günü ana daim vurnuxur, işdən gözünü aça bilmirdi: nahar bişirir, intibahnamələr üçün sürməyi boyaq və yapışqan hazırlayırdı. Tanımadığı adamlar gəlir, Pavelə yetirmək üçün məktublar verib gedirdilər; onların həyəcanı anaya da keçirdi.

Fəhlələri Bir May bayramında iştirak etməyə çağıran vərəqələr, demək olar ki, hər gecə hasarlara yapışdırılırdı, hətta polis dairəsinin də qapısına vurulurdu, bu vərəqələr hər gün fabrikdə də tapılır-



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

dı. Səhərlər polis məmurları söyüşlə məhəlləni dolanır, hasarlara yapışdırılmış sürməyi vərəqələri qoparır və qazıyırdılar, lakin günorta bu vərəqələr yenə küçələrə uçur, yoldan keçənlərin ayağına dolaşırdı. Şəhərdən bir neçə xəfiyyə göndərilmişdi; bunlar tinlərdə durub gülüşə-gülüşə fabrikdən nahara gedən və geri qayıdan fəhlələri süzür, onları gözdən qoymurdular. Polisin bu acizliyi hamının xoşuna gəlirdi. Hətta yaşlı fəhlələr gülümsünərək bir-birinə:

– Bir gör nə qayırırlar, hə? – deyirdilər.

Hər tərəfdə adamlar dəstə-dəstə yığılıb, xalqı hərəkətə gətirən çağırışı qızğın müzakirə edirdilər. Həyat qaynayırdı. Bu bahar həyat hamı üçün daha maraqlı idi, hər kəsə yeni bir şey gətirirdi; adamlardan bir parasının, hirs ilə üsyançıları yamanlayaraq, daha da acıqlanması üçün səbəb yaradırdı, başqalarında dumanlı həyəcan və ümid oyadır, daha az olan üçüncülərdə isə, bu oyanışa özləri səbəb olduqları üçün kəskin şadlıq hissi yaradırdı.

Pavel ilə Andrey çox vaxt gecəni yatmırdılar; onlar rəngi qaçmış, səsləri batmış, yorğun halda ancaq fitdən bir az əvvəl evə qayıdırdılar. Onların meşədə, bataqlıqda yığıncaq düzəltdiyini ana bilirdi; gecələr məhəllənin ətrafında atlı polislərin gəzdiyi, xəfiyyələrin pusquda durduğu, ayrı-ayrı fəhlələrin tutulub axtarıldığı, dəstə ilə gəzən fəhlələrin dağıdıldığı, hərdənbir ayrı-ayrı fəhlələrin həbs edildiyi də anaya məlum idi. Oğlu ilə Andreyin də hər gecə həbs edilə biləcəyini ana anlayır və az qala bunu arzu edirdi – onun zənnincə, onlar üçün bu daha yaxşı olardı.

Tabelçinin öldürülməsi çox tez yaddan çıxdı. Yerli polislər iki gün adamları bu xüsusda istintaq etdilər, on nəfəri danışdırdıqdan sonra bu hadisəyə olan maraq sönüb getdi.

Hamı ilə olduğu kimi, polislərlə də dost olan Mariya Korsunova bir dəfə, ana ilə danışarkən, polisin fikrini əks etdirərək dedi:

– Burada müqəssiri necə tapasan? O səhər bəlkə yüz adam İsaya rast gəlmişdi, bunlardan azı doxsan nəfəri ona yumruq ilişdirə bilərdi. Yeddi ilin ərzində İsayın pislik eləmədiyi adam qalmayıb.

Xoxol gözə çarpacaq dərəcədə dəyişilmişdi. Onun üzü arıqlamış, göz qapaqları ağırlaşmış və domba gözlərinin üstündən sallanıb onları yarıya qədər örtmüşdü. Burnunun deşiklərindən dodaqlarının ucuna doğru üzündə nazik bir qırış uzanmışdı. Adi şeylər və işlərdən o indi daha az danışır, lakin daha tez-tez qızışır və hamıya



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

sirayət edən məstedici bir coşqunluqla gələcəkdən – azadlıq və idrak dünyasının gözəl və nurlu bayramından bəhs edirdi.

İsayın qətli ətrafındakı gurultu yatdıqdan sonra o, iyrənmiş kimi və qüssə ilə gülümsünərək dedi:

– Bunların gözündə bir xalqın deyil, bizim üstümüzə it kimi qısqırtdıqları adamların da qiyməti yoxdur. Onlara sədaqətlə qulluq göstərən xainlərə yazıqları gəlmir, ancaq verdikləri pula heyifsilənirlər...

Pavel qəti bir səslə:

– Yetər, Andrey, bu barədə yetər! – dedi.

Ana isə yavaşca əlavə elədi:

– Çürük ağacı itələdilər – ovulub töküldü.

Xoxol kədərli bir halda:

– Haqdır, ancaq bu, təsəlli vermir! – dedi.

Xoxol bu sözləri tez-tez təkrar edirdi və onun ağzında bu sözlər xüsusi, böyük bir mahiyyət, acı və yandırıcı bir məna alırdı...

...Nəhayət, o gözlənən gün – may gəldi.

Fit, həmişəki kimi, tələbkar və hökmedici bir səslə uladı. Gecə bir dəqiqə də gözünü yummamış ana yatağından sıçradı. Axşamdan hazırlanmış samovara od saldı; həmişəki kimi, oğlu ilə Andreyin qapısını döymək istədi, lakin fikirləşib əlini yellətdi və pəncərənin qabağında oturub, dişi ağrıyırmış kimi, əlini üzünə tutdu.

Buxarın gurultusundan diksinərək, uçuşan iri quşlar kimi, bir sürü yüngül ağ və çəhrayı bulud sürətlə açıq mavi göydə üzürdü. Ana buludlara baxır və düşünürdü. Başı ağrıyırdı, gözləri, gecəni yuxusuz keçirdiyi üçün qızarmış, şişmiş və quru idi. Qəlbində qəribə bir dinclik vardı, ürəyi sakit döyünür, fikri sadə şeylər ətrafında dolaşırdı...

“Samovara tez od saldım, qaynayıb quruyacaq! Qoy bu gün bir az artıq yatsınlar. İkisi də əldən düşüb...”

Səhər günəşinin ilk şüaları nəşə ilə oynayaraq, pəncərədən içəri düşürdü; ana əlini işığa tutdu, parlaq şüa onun əlinə düşəndə, o fikirli halda və məhəbbətlə gülümsünərək, o biri əli ilə işığı sığalladı. Sonra ayağa qalxdı və səs salmamağa çalışaraq, samovarın dudkeşini götürdü, əl-üzünü yudu və tez-tez xaç çəkərək, dodaqlarını səssiz tərpədə-tərpədə, dua oxumağa başladı. Onun üzü get-gedə işıqlanır, sağ qaşı isə gah yavaş-yavaş yuxarı qalxır, gah da birdən aşağı düşürdü...



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

İkinci fit bir az yavaş səsləndi, əvvəlki qətiyyət onda yox idi, uğultulu və dumanlı səsi titrəyirdi. Anaya elə gəldi ki, bu gün fit həmişəkindən uzun uladı.

Otaqdan xoxolun gur və aydın səsi ucaldı:

– Pavel! Eşidirsənmi?

Onlardan biri yalın ayağını şappıltı ilə yerə vurdu, o biri şirin-şirin əsnədi... Ana:

– Samovar hazırdır! – deyə çığırdı.

Pavel nəşəli səslə:

– Dururuq! – deyə cavab verdi.

Xoxol:

– Gün çıxır! – dedi. – Buludlar da qaçır. Bu gün bulud yersizdir...

Başı pırtlaşmış, yuxudan üzü şişmiş, lakin şən olan xoxol mətbəxə keçdi:

– Sabahınız xeyir, nənə! Necə yatıbsınız?

Ana, ona yaxınlaşıb, yavaşca dedi:

– Andryuşa, sən onun yanınca yeri!

Xoxol:

– Bəs necə! – deyə pıçıldadı. – Nə qədər ki, bir yerdəyik, həmişə bərabər yeriyəcəyik, bunu yaxşı yadınızda saxlayın.

Pavel:

– Orada nə pıçıldaşırsınız? – deyə soruşdu.

– Heç, Paşa!

Xoxol:

– Ana deyir, əlüzünü təmiz yu! Qızlar tamaşa eləyəcək! – O əlüzünü yumaq üçün eyvana çıxdı.

Pavel yavaşca oxumağa başladı:

– Qalx, tələb et haqqını, ey fəhlə, ey zəhmətkeş!

Gün get-gedə aydınlaşır, külək buludları qovub aparırdı. Ana çay tədarükü görür və başını bulaya-bulaya hər şeyin necə də qəribə olduğunu düşünürdü: bu səhər çağı ikisi də zarafat edir, gülümsünür, günorta isə, kim bilir, onları nə gözləyir! Onun özü də nədənsə, sakitdi, bəlkə də nəşəli idi.

İntizarı azaltmaq üçün çaylarını yavaş-yavaş içirdilər. Pavel də həmişəki kimi öz stəkanının qəndini tələsmədən və diqqətlə qarışdırır, öz çörəyinə, sevdiyi çörək qabığına, səliqə ilə duz səpirdi. Xoxol masanın altında ayaqlarını oynadır – o, ayaqlarını heç vaxt



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

birdən rahat qoyub otura bilməzdi – günəş şüalarının suya düşüb tavanda və divarlarda əks etdiyinə baxa-baxa nağıl edirdi:

– Mən on yaşında olanda, günəşi stəkanla tutmaq fikrinə düşdüm. Stəkanı götürüb pusa-pusa divara yaxınlaşdım, stəkanı bərk divara vurdum! Əlimi kəsdim, məni bunun üstündə döydülər. Döyüləndən sonra, həyətə çıxıb, günəşi həyətdəki gölməçədə görəndə, onu ayağımla tapdalamağa başladım. Üst-başım palçığa bulaşdı, məni bir də döydülər... Daha nə eləyə bilərdim? Burada üzümü günəşə tutub çığırdım: "Mənim heç vecimə deyil, sarı şeytan, heç yerim ağrımır!" Bunu deyə-deyə ona dilimi göstərirdim. Bu mənə təsəlli verirdi.

Pavel gülə-gülə:

Bəs niyə o, sənə sarı görünürdü? – dedi.

– Bizimlə qabaq-qabağa bir dəmirçi olurdu, üzü qırmızı, saqqalı isə sarı idi. Mehriban, gülərüz bir kişi idi. Mənim nəzərimdə günəş ona oxşayırdı...

Ana səbir edə bilməyib dedi:

– Siz barı necə gedəcəyinizdən danışaydınız!

Xoxol yumşaq səslə:

– Qət olunmuş bir şeydən nə danışaq! – deyə cavab verdi. – Nənəcan, işdir, bizim hamımızı tutsalar, Nikolay İvanoviç sizin yanınıza gəlib, nə eləmək lazım olduğunu deyəcək.

Ana ah çəkib:

– Yaxşı! – dedi.

Pavel fikirli-fikirli:

– Bir küçəyə çıxaydıq! – dedi.

Andrey cavab olaraq:

– Yox, hələlik evdə oturmağın məsləhətdir! – dedi. – Nahaq yerə polisin gözünə görünmək nə lazım? O səni onsuz də yaxşı tanıyır.

Üzü qırmızı ləkələrlə örtülmüş, gözləri sevinclə parlayan Fedya Mazin yüyürə-yüyürə gəldi. Öz sevinc həyəcanı ilə o, intizar kədərini dəf etdi:

– Başlandı! – dedi. – Xalq hərəkətə gəlib, küçəyə axışırlar, hamının sifəti balta kimidir. Səhərdən bəri Vesovşikov, Qusev, Vasya, bir də Samoylov fabrik qapısı ağzında durub nitq deyirdilər. Adamların çoxunu geriyə qaytardılar. Di gedək, vaxtdır! Saat ondur!..



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Pavel qəti səslə:

– Mən gedirəm! – dedi.

Fedya vəd edir kimi:

– Görərsiniz, – dedi, – nahardan sonra bütün fabrik dayanacaqdır.

Bunu deyib eşiyə yüyürdü.

Ana astadan onun dalınca:

– Bax, şam küləkdə yanan kimi, yanır! – deyə ayağa qalxdı və mətbəxə keçib, geyinməyə başladı.

– Siz, hara, nənəcan?

Ana:

– Sizinlə! – deyə cavab verdi.

Andrey, bığlarını darta-darta, Pavelin üzünə baxdı. Pavel, cəld hərəkətlə saçlarını düzəldib, anasının yanına getdi...

– *Ana, mən sənə bir söz deməyəcəyəm... Sən də mənə bir söz demə!* Yaxşımı?

Ana dodaqaltı:

– Yaxşı, yaxşı! İsa köməyiniz olsun! – dedi.

## XXVII

Ana küçəyə çıxıb, havada adam səslərinin nigaran və müntəzir gurultusunu eşitdikdə, hər tərəfdə evlərin pəncərə və qapılarından adam dəstələrinin onun oğlu ilə Andreyi təqib edən yetik nəzərlərini gördükdə, gözünün qabağında dumanlı bir ləkə gəlib durdu; bu ləkə gah açıq yaşıl, gah da bulanıq boz rəng alır, dəyişilir və titrəyirdi.

Onları salamlayırdılar və bu salamlarda xüsusi bir şey vardı. Onun qulağına yavaşdan deyilən yarımçıq ifadələr dəyirdi:

– Bunlar da dəstəbaşılardır.

– Dəstəbaşının kim olduğunu bilmirik...

– Mən bir pis söz demirəm ki!..

O biri yanda bir həyətdən acıqlı səs gəlirdi:

– Polislər hamısını tutar, tələf olarlar!..

– Tutublar, görmüşük!

Pəncərələrin birindən bir qadının vahiməli səsi gəldi:

– Ağlını başına cəm elə! Subaysan, nəsən?



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Onlar ayağı şikəst olan və öz şikəstliyi üçün fabrikdən hər ay təqaüd alan Zosimovun evinin yanından keçəndə, o, başını pəncərədən eşiyə çıxarıb:

– Paşka! Bu işlərin üstündə bir gün başını dibindən üzərlər, ay yaramaz! – deyə çığırdı.

Ana diksindi, dayandı. Bu çığırtı onu yaman qəzəbləndirdi. O şikəstin şişmiş, dolu üzünə baxdı; şikəst söyə-söyə başını içəri çəkdi. Onda ana, addımlarını yeyinlədib, oğluna çatdı və ondan geri qalmamağa çalışaraq, dalınca getdi.

Pavel ilə Andrey sanki heç bir şey görmür, onların dalınca deyilən sözləri eşitmirdilər. Sakit və tələsmədən gedirdilər. Budur, öz ayıq və təmiz həyatı ilə hamının ehtiramını qazanmış yaşlı və təvazökar Mironov onları dayandırdı.

Pavel:

– Danilo İvanoviç, siz də işə çıxmamısınız? – deyə soruşdu.

Mironov yoldaşları diqqətlə süzərək:

– Bizim arvad ağrı çəkir. Bir də bu gün bir təhər gündür, narahatdır! – dedi və astadan soruşdu: – Uşaqlar, deyirlər, direktorla savaşmaq, şüşələrini qırmaq istəyirsiniz?

Pavel dedi:

– Biz məgər kefliyik?

Xoxol:

– Biz əlimizdə bayraq oxuya-oxuya küçə ilə keçəcəyik! – dedi. – Bizim nəğmələrimizə bir qulaq asın, etiqadımız da onlardır!

Mironov fikirli halda:

– Sizin etiqadınıza bələdəm. Vərəqələri oxumuşam! – dedi və ağıllı gözləri ilə anaya gülümsündü. – Baho, Nilovna! Sən də üsyan qoparmağa gedirsən?

– Heç olmasa ölümqabağı haqla yan-yana gəzmək istəyirəm!

– Buna bax! Görünür, doğru deyirmişlər ki, qadağan edilmiş kitabçaları fabrikə gətirən sənsən!

Pavel:

– Bunu kim deyir? – deyə soruşdu.

– Nə bilim, belə deyirlər! Di salamat qalın, özünüzü təmkinli saxlayın!

Ana yavaşdan gülürdü, onun haqqında belə danışıldığı xoşuna gəlirdi. Pavel gülümsünərək, anasına:



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

– Ana, deyəsən, səni də dama salacaqlar! – dedi.

Günəş get-gedə qalxır və öz istisi ilə sərin bahar səhərini qızdırırdı. Buludlar daha yavaş süzür, onların kölgəsi daha incələşir, şəffaflaşırdı. Kölgələr yumşaq-yumşaq küçə ilə, evlərin damı ilə sürünür, insanları bürüyür, sanki adamlardan və divarlardan çirki və tozu silərək məhəlləni təmizləyir, insanların üzündən qüssəni qovurdu. Nəşə artır, səslər ucalır, uzaqdan gələn maşın gurultusunu batırırdı.

Yenə hər tərəfdən – pəncərələrdən, həyətlərdən vahiməli və acıqlı, düşüncəli və nəşəli sözlər sürünərək və uçaraq ananın qulağına dəyirdi. Lakin indi o, cavab qaytarmaq, təşəkkürünü bildirmək, məsələni izah etmək, bu günün əcaib alabəzək həyatına qarışmaq istəyirdi.

Küçənin tinində, dar döngədə yüzə qədər adamdan ibarət bir izdiham toplanmışdı; adamların arasından Vesovşikovun səsi gəlirdi. Sərt sözlər adamların başına yağırdı:

– Quşüzümünün sıxıb şirəsini çıxaran kimi, bizim qanımızı sorub çıxarırlar.

Bir neçə səs birdən:

– Doğrudur! – deyə uğultu ilə cavab verdi.

Xoxol:

– İgid çalışır! – dedi. – Gedim ona kömək eləyim!..

Pavel onu tutub saxlayınca, o əyilib öz uzun və qıvraq bədənini izdihama soxdu. Onun ahəngdar səsi gəldi:

– Yoldaşlar! Deyildiyinə görə yer üzündə cürbəcür millətlər yaşayır, yəhudi və alman, ingilis və tatar. Amma mən buna inanmıram! İkicə xalq, ikicə tayfa var ki, bunlar da bir-biri nə düşməndir – bu da dövlətlilərlə kasıblardır! Adamlar müxtəlif paltar geyinir, ayrı-ayrı dildə danışır, ancaq dövlətli fransız, alman, ingilislərin fəhlə ilə rəftarını görsəniz, bilərsiniz ki, onların hamısı fəhlələrin qanını bir qaydada şüşəyə tuturlar: hamısı talançıdır, ay bunların boğazında sümük qalsın!

İzdihamda kim isə güldü:

– O biri yandan baxanda da görərik ki, fransız fəhləsi də, tatar, türk fəhləsi də, bizim kimi, rus fəhləsi kimi, it günündədir!

Küçədən get-gedə daha çox adam gəlirdi. Bunlar bir-birinin dalınca döngəyə dönüb, dinməz-söyləməz boğazını uzadır və barmaqlarının ucunda qalxaraq, boylana-boylana baxırdılar.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Andrey səsini ucaltdı:

– Xaricdə fəhlələr bu sadə həqiqəti anlayırlar və bu gün mayın birinci parlaq günündə...

Kim isə birdən:

– Polislər! – deyə çığırdı.

Dörd nəfər atlı polis, küçədən döngəyə dönüb, qamçılarını yelləyə-yelləyə atlarını düz adamların üstünə sürür va çığırırdı:

– Dağılın!

Adamlar acıqlı-acıqlı baxır, atlara könülsüz yol verirdilər. Bəziləri hasarın üstünə dırmaşırdılar. Kimin isə cinggildəyən, ötkəm səsi yüksəldi:

– Donuzları ata mindiriblər, onlar da xoruldayır ki, baxın, biz də ağa olmuşuq!

Xoxol döngənin ortasında tək qaldı: iki at başını tovlaya-tovlaya, onun üstünə yeriyirdi. O, yana çəkildi, elə bu zaman, ana onun qolundan yapışıb, darta-darta dalınca apardı.

– Paşa ilə bərabər durmağa söz verib, indi də tək araya soxulur! – deyə ana deyinirdi.

Xoxol gülə-gülə:

– Bağışlayın, bilmədim! – dedi.

Nilovna güclü, bütün bədəni sustaldan bir yorğunluq hiss etdi; bu yorğunluq içəridən qalxıb onun başını gicəlləndirir, qəlbində gah qüssə, gah şadlıq yaradırdı. Ana günorta fitinin tez verilməsini arzu edirdi.

Kilsə qabağındakı meydançaya çıxdılar. Kilsənin ətrafı və həyəti adamla dolmuşdu, kimisi oturmuş, kimisi ayaq üstdə durmuşdu; burada beş yüzə qədər nəşəli gənc və oğul-uşaq vardı. İzdiham dalğalanırdı; adamlar intizar içində, başlarını yuxarı qaldırıb, uzağa boylanır, hər tərəfə baxırdılar. Yüksək bir əhvali-ruhiyyə hiss edilirdi; adamların bir parası özünü itirmiş halda, bir parası da qorxmaz kimi baxırdı. Qadınların asta, məyus səsləri yavaşdan eşidilir, kişilər, təngə gəlmiş kimi, üzlərini onlardan çevirirdilər, hərdənbir yavaş söyüş səsi gəlirdi. Ədavətli toqquşmanın tutqun gurultusu qarışıq izdihamı çulğalayırdı.

Bir qadın səsi titrəyə-titrəyə astadan deyirdi:

– Mitenka! Özünə yazığın gəlsin!



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Cavab olaraq:

– Əl çək! – səsi eşidildi.

Sizov təmkinlə, sakitcə və inandırıcı tərzdə dedi:

– Yox, biz, cavanlarımızı tək qoya bilmərik! Onlar bizdən ağıllı olublar, bizdən daha cəsarətli yaşayırlar. Bataqlıq qəpiyini kim müdafiə elədi? Onlar! Bunu unutmaq olmaz. Bunun üstündə onları dustaqxanaya saldılar, amma xeyrini görən hamı oldu!..

Fit ulayaraq, insanların danışığını öz qara səsi ilə batırdı. İzdiham hərəkətə gəldi, oturanlar ayağa durdular, bir an hamı, səsini kəsib, nəfəsini gizlətdi, bir çoxunun rəngi qaçdı.

Pavelin möhkəm səsi guruldadı:

– Yoldaşlar!

Quru, qızmar duman ananın gözlərini yandırdı və o, birdən dirçələrək oğlunun dalında durdu. Hamı üzünü Pavelə çevirdi, dəmir qırıntıları maqnitə yapışan kimi, onun ətrafına yığıldı.

Ana onun üzünə baxıb, yalnız gözlərini, qürur və cəsarət yağan odlu gözlərini görürdü...

– Yoldaşlar! Biz kim olduğumuzu açıq-açığına deməyi qərara almışıq; bu gün biz öz bayrağımızı, ağıl, haqq, azadlıq bayrağını qaldırırıq!

Ağ, uzun bir ağac havada göründü, izdihamı yardı, adamların arasında gizləndi və bir dəqiqədən sonra fəhlə xalqının enli bayrağı üzlərini yuxarı qaldırmış adamların başı üstündə qırmızı quş kimi yüksəldi.

Pavel əlini yuxarı qaldırdı – ağac əyilən kimi oldu, onda bir çox əl ağ, hamar ağacdan tutdu, bu əllərin arasında ananın da əli vardı.

Pavel:

– Yaşasın fəhlə xalqı! – deyə qışqırdı.

Ona cavab olaraq yüzlərlə səs guruldadı:

– Yaşasın sosial-demokrat fəhlə partiyası, bizim partiyamız, yoldaşlar, bizim mənəvi vətənimiz!

İzdiham qaynayırdı, bayrağın əhəmiyyətini başa düşənlər izdihamı yararaq, ona doğru irəliləyirdilər; Mazin, Samoylov, Qusevlər Pavelin ətrafına toplanırdılar, Nikolay, başını yana əyib, adamları aralayırdı, ananın tanımadığı, gözləri parıldayan cavan oğlanlar ananı itələyirdilər...



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Pavel:

– Yaşasın bütün ölkələrin fəhlələri! – deyə qışqırdı. Min ağızdan çıxan qüvvətli və nəşəli əks-səda qulaqları batıraraq, ona cavab verdi.

Ana Nikolayın və bir başqasının əlini tutdu, göz yaşı onu boğurdu, lakin o ağlamırdı, onun ayaqları əsirdi, titrək dodaqları ilə o:

– Əziz balalarım... – deyirdi.

Nikolayın çopur üzündə təbəssüm oynayırdı; o, gözlərini bayrağa dikib, nə isə mızıldaya-mızıldaya, əlini ona sarı uzadırdı, sonra birdən həmin əli ilə ananın boynunu qucaqlayıb öpdü və güldü.

Xoxol xoş səsi ilə izdihamın gurultusunu batıraraq:

– Yoldaşlar! – deyə qışqırdı. – İndi biz yeni allah naminə nur və həqiqət allahı, ağıl və haqq allahı naminə yürüş edirik! Məqsədimiz bizdən uzaqda, əzabımız isə yaxındadır! Həqiqətin qüvvəsinə inanmayanlar, ölənə kimi bu həqiqət uğrunda mübarizə etməyə cəsarəti olmayanlar, özlərinə əmin olmayanlar və əzabdan qorxanlar qoy bizdən kənar olsunlar! Biz ancaq qalibiyyətimizə inananları çağırırıq; bizim məqsədimizi görməyənlər qoy bizimlə getməsinlər, onları gözləyən yalnız qəm-qüssədir. Sıraya yoldaşlar! Yaşasın azad insanların bayramı! Yaşasın Bir May!

İzdiham sıxlaşdı. Pavel bayrağı yellətdi; bayrağın qırmızı və enli üzü günəşin işığında gülərək, havada açıldı və irəliyə doğru üzdü...

Bu köhnə dünyanı yıxaq kökündən...

– deyə Fedya Mazin oxumağa başladı və bir çox səs yumşaq, qüvvətli dalğa kimi, bu nəğməni alıb davam etdirdi:

Qıraq zəncirləri azad olaq biz...

Ana, üzündə nəşəli təbəssüm, Mazinin dalınca gedir, onun başı üstündən oğluna və bayrağa baxırdı. Sevincdən parlayan üzlər, rəngarəng gözlər onu dövrəyə almışdı, hamıdan qabaqda isə onun oğlu ilə Andrey gedirdi. Ana onların səsini eşidirdi; – Andreyin həlim və təsirli səsi Pavelin gur və yoğun səsinə qarışıb, bir səs təşkil edirdi.

Qalx, tələb et haqqını, ey fəhlə, ey zəhmətkeş
Acılar qoşulsun gərək şanlı mübarizəyə!..



Created with nitro PDF professional
download the free trial online at nitropdf.com/professional

Qabaqdan xalq qırmızı bayrağa tərəf yüyürür, nə isə bağırır, izdihama qarışaraq, onunla geri qayıdırdı; onların qışqırıqları nəğmənin – evdə o biri nəğmələrdən daha yavaş səs ilə oxunan nəğmənin – səsi içində batıb yox olurdu; küçədə bu nəğmə rəvan, doğrudan da əzəmətli bir qüvvə ilə axırdı.

Bu nəğmədə dəmir kimi möhkəm mərdlik səslənirdi, insanları gələcəyə doğru uzun səfərə çağıran bu nəğmə yolun nə qədər ağır olduğunu açıq-açığına deyirdi. Onun böyük və sakit alovunda keçmiş həyatın qara tör-töküntüləri və vərdiş edilmiş hisslərin ağır yığını əriyir, yenilik qarşısındakı mənfur qorxu yanır, kül olurdu...

Bir qadının xoflu, eyni zamanda nəşəli üzü ananın yanında yırğalanır və titrək səslə kəsik-kəsik qışqırırdı:

– Mitya, hara gedirsən?

Ana yeriyə-yeriyə dedi:

– Qoy getsin, siz xatircəm olun! Mən də çox qorxurdum, mənimki hamıdan qabaqdadır. Bayrağı tutan mənim oğlumdur!

– Zalımlar! Hara gedirsiniz? Qabaqda soldat var!

Ucaboy, arıq qadın, sısqa əli ilə birdən ananın əlini tutaraq qışqırdı:

– Ay başına dönüm, gör necə də oxuyurlar! Mənim Mityam da oxuyur...

Ana ona ürək-dirək verirdi:

– Siz qorxmayın! Bu, müqəddəs bir işdir... Bir özünüz düşünün: İsanın yolunda adamlar ölümə getməsəydilər, İsa da olmazdı!

Bu fikir, ananın ağlına qəfil gəldi və bu aydın, sadə həqiqət onu heyrətə gətirdi. Ana bərk-bərk onun əlindən tutan qadının üzünə baxıb, təəccüblə gülümsünərək təkrar elədi:

– Olmazdı, onun, Allahımızın yolunda adamlar ölümə getməsəydilər, İsa da olmazdı!.

Sizov ananın yanında göründü. O, şapkasını çıxarıb, nəğmənin ahənginə uyğun olaraq, onu yelləyir və deyirdi:

– Görürsənmi, ana, açıqca çıxıblar?! Nəğmə düzəldiblər. Necə də nəğmədir, ana, hə?

Padşah qoşun üçün soldat istəyir,
Deyir ki, mənimdir oğullarınız...



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Sizov:

– Heç bir şeydən qorxmurlar! – dedi. – Yazıq mənim oğlum isə qəbirdədir...

Ananın ürəyi çox bərk döyündüyündən geriyə qalmağa başladı. Çox keçmədi ki, onu kənara itələyib hasara sıxışdırdılar və sıx izdiham dalğası yırğalana-yırğalana onun yanından axdı, adam çox idi, bu da ananı sevindirirdi.

Qalx, tələb et haqqını ey fəhlə, ey zəhmətkeş!..

Elə bil bu zaman havada bir böyük mis şeypur səslənir, adamları ayıldır, bəzilərini döyüşə hazır olmağa çağırır, digərlərində isə dumanlı bir nəşə, səbəbi bilinməyən bir yenilik duyğusu, qızğın bir maraq oyadır, bir tərəfdən yüngül bir ümid doğurur, o biri tərəfdən illərdən bəri yığılmış acığın yandırıcı selinə yol açırdı. Hamı gözlərini irəliyə, al bayrağın dalğalandığı səmtə dikmişdi. Biri coşqun səslə çığırırdı:

– Başlandı! Uşaqlar, bax, buna nə demişəm!

Sanki adi sözlərlə ifadə edə bilmədiyi böyük bir şey hiss edərək, o, qəliz bir söyüş söydü. Lakin qəzəb də, qulun kor-korana qəzəbi də, üzünə düşmüş işıqdan narahat olaraq, hiddətlə qıvrılır və ilan kimi fısıldayırdı.

Pəncərələrin birindən səsi kallaşmış birisi yumruğu ilə izdihamı hədələyərək qışqırdı:

– Dinsizlər!

Bir başqasının qulaq deşən səsi ananı dəng eləmişdi:

– İmperatorun üzünə durmaq, əlahəzrət çarın qarşısına çıxmaq? Üsyan qaldırmaq?

Ananın yanından çaşqın üzlər ötüb keçir, hoppana-hoppana kişilər və qadınlar qaçır, bu nəğmənin cəzb etdiyi xalq sel kimi axırdı; nəğmə öz gurultusu ilə sanki qarşısına çıxan maneələri yıxır, özünə yol açırdı. Uzaqda qızaran al bayrağa baxaraq, ana daxili bir qüvvə ilə oğlunun üzünü, onun tunc alnını, parlaq inam odu ilə yanan gözlərini – görmədiyi halda – görürdü.

Budur, ana izdihamın sonunda, tələsmədən yeriyən, tamaşanın sonunu qabaqcadan bilən tamaşaçılara məxsus soyuq bir maraqla qabağa baxan adamların arasında qaldı. Bunlar gedə-gedə astadan, lakin inamla deyirdilər:

– Bir rota soldat məktəbin yanında, biri də fabrikin yanında durubdur.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

– Qubernator gəlib...
– Doğrudanmı?
– Özüm gördüm, – gəlibdir!
Kim isə, nəşə ilə söyüş söyüb dedi:
– Hər halda bizdən qorxmağa başlayıblar! Qoşun da, qubernator da.
Ananın ürəyi həyəcanla döyünürdü.
"Əzizlərim!"
Lakin onun ətrafında söylənən sözlər cansız və soyuq idi. Bu adamlardan uzaqlaşmaq üçün ana addımını yeyinlətdi, yavaş və tənbəl yerişlə gedən bu adamları asanlıqla geridə qoydu.
Birdən izdihamın başı sanki bir şeyə toxundu, onun bədəni dayanmadan, yavaş və vahiməli uğultu ilə geri dartındı. Nəğmə də diksinən kimi oldu və əvvəlkinə nisbətən daha ucadan və daha sürətlə axmağa başladı. Yenə də səsin gur dalğaları yavaşıyıb geriyə süründü. Səslər bir-birinin dalınca ümumi xordan qopub çıxır, nəğməni əvvəlki yüksəkliyə qaldırmağa, onu irəli aparmağa çalışan ayrı-ayrı sədalar eşidilirdi:

Qalx, tələb et haqqını, ey fəhlə, ey zəhmətkeş!
Aclar qoşulsun gərək şanlı mübarizəyə!..

Lakin bu çağırışda birlik, əlbirlik inamı yox idi, onda təşviş duyulurdu.
Bir şey görmədən, irəlidə nə olduğunu bilmədən, ana izdihamı yarır və sürətlə irəli yeriyirdi, qabaqdan isə adamlar dalı-dalı gəlirdilər, bunlardan bir parası başını aşağı salıb, qaşqabağını tökmüşdü, o biriləri utancaq bir halda gülümsünürdü, üçüncülər isə istehza ilə fit çalırdı. Ana kədərli nəzərlə bunların üzünü seyr edirdi, onun gözlərində sual vardı, bu gözlər yalvarır, çağırırdı...
Pavelin səsi gəldi:
– Yoldaşlar!.. Soldatlar da bizim kimi adamlardır. Onlar bizi vurmazlar. Niyə də vursunlar? Biz hamıya lazım olan həqiqəti yaydığımız üçünmü? Axı bu həqiqət onlara da lazımdır! Hələlik onlar bunu anlamırlar, lakin çox keçməz ki, onlar da bizim səflərimizə qoşularlar, onlar da, quldurluq və adam öldürmək bayrağı altında deyil, bizim azadlıq bayrağımızın altında irəliləyərlər. Biz irəli get-



Created with
nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

məliyik ki, onlar bizim həqiqətimizi daha tez anlaya bilsinlər. İrəli, yoldaşlar! Daim irəli!

Pavelin səsi möhkəm idi, sözləri havada aydın və açıq eşidilirdi, lakin izdiham dağılırdı, adamlar bir-birinin dalınca sağa və sola – evlərə doğru çəkilir, çəpər dibinə qısılırdılar. İndi izdiham bir paz şəklini almışdı, onun ucu Pavel idi. Pavelin başı üzərində isə fəhlə xalqının al bayrağı qızarırdı. Bir də izdiham qanadlarını gərib, göyə uçmağa hazırlaşan qara bir quşa bənzəyirdi, onun dimdiyi də Pavel idi...

## XXVIII

Ana küçənin qurtaracağında, bir-birinə bənzəyən simasız insanların boz divar kimi durub, meydana gedən yolu kəsdiyini görürdü. Bunların hər birinin çiynində iti, şiş süngü soyuq bir parıltı ilə parıldayırdı. Bu susmuş, hərəkətsiz divardan fəhlələrin üzünə soyuq bir yel vurur, bu soyuq ananın sinəsinə dəyir, ürəyinə işləyirdi.

Ana izdihamın içinə soxuldu. Qabaqda bayrağın yanında duran onun tanıdığı adamlar tanımadığı adamlara qarışıb, sanki yıxılmamaq üçün onlardan yapışmışdılar. Ana ucaboylu, üzü qırxılmış adamın yanına qısıldı, o isə çəpgöz olduğundan anaya baxmaq üçün başını tamam ona tərəf çevirib soruşdu:

– Nə var? Sən kimlərdənsən?

*Ana dizlərinin titrədiyini və alt dodağının biixtiyar sallandığını* hiss edərək:

– Pavel Vlasovun anasıyam! – deyə cavab verdi.

Çəpgöz:

– Aha! – dedi.

Pavelin səsi gəldi:

– Yoldaşlar! Nəfəsimiz gəlincəyə qədər irəli getməliyik, bizim başqa yolumuz yoxdur!

Ətrafı sükut bürüdü, hamı göz-qulaq kəsilmişdi. Bayraq yüksəldi, yırğalandı və adamların başı üstündə fikrə getmiş kimi dalğalanaraq, rəvan hərəkətlə soldatlardan düzəlmiş boz divara doğru irəliləməyə başladı. Ana diksinib gözlərini yumdu və yerindəcə



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

qurudu – izdihamdan ayrılan yalnız dörd nəfər idi. Pavel, Andrey, Samoylov və Mazin.

Lakin Fedya Mazinin aydın səsi ağır-ağır havada titrədi:

Siz həlak oldunuz...

Gur və boğuq səslər, elə bil iki dəfə ürəkdən ah çəkdi:

Qanlı... döyüşdə...

Adamlar ayaqlarını tappıldada-tappıldada irəli yeridilər. Yeni nəğmə, qətiyyət dolu və qəti qərara gəlmiş nəğmə axmağa başladı.

Fedyanın səsi, parlaq bir lent kimi dalğalanırdı,

Siz həyatınızı etdiniz fəda,

Yoldaşları bir ağızdan onun səsinə səs verdilər:

Azadlıq yolunda!

Kənardan biri kinli-kinli:

– Aha! – dedi. – İt uşaqları, cənazə duası oxuyurlar!..

Qəzəbli bir səs eşidildi:

– Vurun bunları!

Ana əli ilə döşünü tutdu, ətrafına baxdı və əvvəl küçəyə sığışmayan izdihamın indi bir qərara gələ bilməyərək, tərəddüd içərisində dayanıb qaldığını və bayrağı aparan adamların onlardan getdikcə uzaqlaşmasına baxdığını gördü. Bayrağın dalınca gedənlər otuz-qırx nəfər idi və irəli atılan hər bir addım bunlardan birini kənara sıçramağa məcbur edirdi, sanki küçənin ortasına od tökülmüşdü, onların ayaqlarını yandırırdı

Fedyanın nəğməsi, gələcəkdən xəbər verir kimi:

İstibdad yıxılar...

– deyirdi.

Qüvvətli səslərdən düzələn xor, inam və zəhmlə onun səsinə səs verərək oxuyurdu:

Xalq üsyan edər!



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Lakin rəvan axmaqda olan nəğmənin arasından yavaş sözlər eşidilirdi:

– Komanda verir...

Qabaqda sərt bir səs:

– Ələ al! – deyə qışqırdı.

Süngülər, havada əyri bir xətt cızıb, aşağı düşdü və hiyləgərcəsinə gülümsünərək, bayrağa doğru uzandı:

– Ma-arş!

Çəpgöz:

– Getdi! – deyə əllərini cibinə soxdu və iri addımlarla kənara çəkildi.

Ana gözlərini qırpmadan, tamaşa edirdi. Boz soldat dalğası yırğalandı və küçəni bütün eninə tutaraq müntəzəm və soyuq addımlarla irəli yeridi, onların əlindəki parıldayan polad süngülər gen dişli darağa oxşayırdı. Ana iri addımlarla oğluna yaxınlaşdı və bu zaman Andreyin Paveldən irəli yeridiyini, uzun boyu ilə onun qabağını kəsdiyini gördü.

Pavel acıqlı səslə:

– Cərgədə yeri, yoldaş! – deyə qışqırdı.

Andrey oxuyurdu; o, əllərini dalına qoymuşdu, başını yuxarı tutmuşdu. Pavel, çiyini ilə onu itələyib, yenə:

– Cərgədə yeri! Haqqın yoxdur! Qabaqda bayraq olmalıdır! – deyə bağırdı.

Balaca zabit, ağ qılıncını yellədərək, cır səslə:

– Dağılın! – deyə çığırırdı. O, dizlərini qatlamadan ayaqlarını yuxarı qaldırır və dabanlarını lovğa-lovğa yerə vururdu. Onun tərtəmiz silinmiş çəkmələri ananın gözünə sataşdı.

Zabitin yanınca, bir az ondan geridə uca boylu, üzü qırxılmış, yoğun çal bığlı, əynində qırmızı astarlı uzun boz palto və yanları sarı haşiyəli gen şalvar olan bir adam ağır-ağır yeriyirdi, o da xoxol kimi əllərini dalına qoyub, qalın və çal qaşlarını dartıb, Pavelə baxırdı.

Ana hər tərəfi görürdü, güclü, kəskin bir çığırtı onun sinəsində hərəkətsiz dayanaraq, hər nəfəslə eşiyə sıçramağa hazır olduğu üçün ananı boğurdu; lakin ana döşünü əlləri ilə tutaraq, onu saxlayırdı. Ananı itələyirdilər, o ayaq üstə yırğalanır və fikirsiz, az qala



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

huşsuz bir halda irəli yeriyirdi. O, dalındakı adamların get-gedə azaldığını hiss edirdi, soyuq dalğa qarşıdan onların üzərinə yeriyir, onları dağıdırdı.

Al bayrağın ətrafına toplanmış adamlarla, sıx zəncir kimi uzanmış boz adamlar bir-birinə getdikcə yaxınlaşırdı, soldatların üzləri, küçənin eni qədər gen, ensiz bulanıq sarı zolaq kimi, eybəcərcəsinə yastılanmış, bu üzlər aydın görünürdü – bu zolağa oradan-buradan müxtəlif rəngli gözlər sancılmışdı, onun qabağında isə süngülərin iti ucları amansızcasına parlayırdı. İnsanların döşünə tərəf tutulan bu süngülər hələ döşlərə toxunmamış, bu adamları bir-bir izdihamdan qoparır, onu dağıdırdı.

Ana, arxadan qaçanların ayaq tappıltısını eşidirdi. Qorxmuş, vahiməli səslər ucalırdı:

– Uşaqlar, dağılın...

– Vlasov qaç!

– Pavluxa! Geri çəkil!

Vesovşikov boğuq səslə:

– Pavel, bayrağı burax! – dedi. – Ver mənə, gizlədim!

O, əlini atıb bayrağın ağacını tutdu, bayraq geriyə yırğalandı.

Pavel:

– Burax! – deyə qışqırdı.

Nikolay tez əlini çəkdi, elə bil bir şey əlini yandırdı. Nəğmə söndü. Adamlar dayanıb, Pavelin ətrafını aldılarsa da, o dartınıb irəli çıxdı Birdən birə çökən sükut sanki yuxarıdan enərək, şəffaf bulud kimi, insanları bürüdü.

Bayrağın altında iyirmiyə qədər adam qalmışdı, artıq olmazdı, lakin onlar, möhkəm durmuşdular, ana bu adamlara bir xətər dəyəcəyindən qorxurdu, bu qorxu hissi və onlara bir söz demək arzusu ananı bu adamlara tərəf çəkirdi...

Uca boylu qocanın rəvan səsi eşidildi:

– Poruçik, onun əlindən o şeyi alın!

O, əlini uzadıb, bayrağı göstərdi.

Balaca zabit, Pavelə tərəf sıçrayıb, bayrağın ağacından yapışdı və cır səslə:

– Burax! – deyə qışqırdı.

Pavel ucadan:

– Əlini çək! – dedi.

Qırmızı bayraq, havada gah sağa, gah sola yırğalanaraq, titrədi və yenə düzəldi, – zabit, kənara atılıb, yerə çökdü. Yumruğu düyülmüş, əlini irəli uzatmış Nikolay çox sürətlə ananın yanından keçdi.

Qoca ayağını yerə vurub:

– Tutun hamısını! – deyə bağırdı.

Bir neçə soldat cərgədən irəli atıldı. Onlardan biri tüfənginin qundağını qaldırdı, bayraq yelləndi, əyildi və boz soldatların arasında yox oldu.

Kim isə kədərlə:

– Eh! – deyə qışqırdı.

Ana da ucadan, vəhşi bir səslə çığırdı. Lakin, ona cavab olaraq, soldatların arasından Pavelin aydın səsi eşidildi:

– Salamat qal, ana! Salamat qal, əzizim...

Ananın ürəyi çırpındı.

"Sağdır! Yadına düşdüm".

– Salamat qal nənəciyim!

Ana, barmağının ucuna qalxaraq, əllərini yelləyir, onları görməyə çalışırdı; o, soldatların başı üstündə Andreyin yumru üzünü gördü. Andrey gülümsünür, ona baş əyirdi.

Ana:

– Mənim balalarım... Andryuşa... Paşa... – deyə qışqırdı.

Soldatların əhatəsindən qışqırdılar:

– Salamat qalın, yoldaşlar!

Onlara bir çox yerdən, adda-budda cavab verdilər. Bu səslər pəncərələrdən, yuxarıdan, damların üstündən gəlirdi.

## XXIX

Ananı döşündən itələdilər. Dumanlanmış gözləri qabağında ana zabiti gördü, onun sifəti qızarmış, pörtmüşdü; o, anaya:

– Çəkil, ay qarı! – deyə çığırdı.

Yuxarıdan aşağıya zabiti süzən ana onun ayağı altında iki tikə olmuş bayraq ağacını gördü, bunların birində bir qırıq qırmızı parça qalmışdı. Ana əyilib, onu götürdü. Zabit ağacı onun əlindən qapıb kənara tulladı və ayaqlarını yerə döyə-döyə çığırdı:



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

– Çəkil, deyirəm!

Soldatların əhatəsində nəğmə başlandı və ətrafa yayıldı:

Qalx, tələb et haqqını, ey fəhlə, ey zəhmətkeş!..

Hər şey hərlənir, yırğalanır, dalğalanırdı. Havanı teleqraf simlərinin uğultusuna bənzər gur və narahat uğultu bürümüşdü. Zabit geriyə sıçrayıb acıqlı, nazik səslə çığırdı:

– Kəsin nəğməni!.. Feldfebel Kraynov...

Ana səndələyə-səndələyə zabitin atdığı ağac parçasına yaxınlaşıb, yenə onu götürdü:

– Kəsin səslərini!..

Nəğmə qarışdı, titrədi və qırılıb söndü. Kim isə ananı, çiynindən yapışıb, o biri tərəfə çevirdi və daldan itələdi...

– Yeri, yeri...

Zabit:

– Küçəni təmizləyin! – deyə çığırdı.

Ana on addımlıqda yenə sıx bir izdiham gördü. Onlar uğuldayır, deyinir, fit çalır və küçə ilə yavaş-yavaş geri çəkilərək, həyətlərə doluşurdular.

Uzun bığlı, cavan bir soldat, anaya yanaşıb, düz qulağına:

– Çəkil, məlun! – deyə çığırdı və onu səkiyə tərəf itələdi.

Ana ağaca dayana-dayana getməyə başladı; onun qıçları bükülürdü. Yerə yıxılmamaq üçün ana o biri əli ilə divarlardan, hasarlardan tuturdu. Onun qabağında adamlar dalı-dalı çəkilir, yanınca və dalınca gedən soldatlar:

– Çəkilin, çəkilin... – deyə çığırırdılar.

Soldatlar onu ötüb keçdilər; ana dayanıb dalına baxdı. Küçənin axırında yenə soldatlar cərgə ilə durub, meydanın yolunu kəsmişdilər. Meydan boş idi. Qabaqdan da boz geyimli adamlar yavaş-yavaş camaatın üstünə yeriyirdilər...

Ana geri dönmək istədi, lakin biixtiyar yenə irəli getdi, dar və boş döngəyə yetişib, oraya döndü.

Yenə dayandı. Dərindən nəfəs alıb qulaq asdı. İrəlidən uğultu gəlirdi.

Ana bayraq ağacına dayana-dayana irəli getdi, onu birdən tər basmışdı, o, qaşlarını oynadır, dodaqlarını tərpədir, əlini yelləyirdi; qəlbində kəskin sözlər qığılcım kimi yanır, alovlanır, özünə meydan



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

axtarır, onda bu sözləri demək, bu sözləri qışqırmaq arzusu, qəti, inadlı bir arzu yaradırdı...

Bu yerdə döngə birdən sol tərəfə burulurdu. Tini dönən kimi ana bir yerə toplanmış çoxlu adam gördü; birisi uca və hiddətli səslə deyirdi:

– Quru nadinclikdən ötrü heç kəs özünü süngü qabağına atmaz!

– Necə də durmuşdular, hə! Onların üstünə gəlirlər, amma onlar tərpənmirlər. Bəli, qardaşlar, dururdular, qorxusuz dururdular...

– Afərin, Paşa Vlasov!..

– Bəs xoxol?

– Əlini dalına qoyub gülürdü, pah sənin...

Ana izdihamın içinə soxularaq:

– Əzizlərim! Ay qardaşlar! – deyə qışqırdı.

Onun qabağından ehtiramla kənara çəkildilər. Birisi güldü:

– Bir bax, bayraq əlindədir! Əlindəki bayraqdır, bax!

Başqa birisi hirs ilə:

– Kəs səsini! – dedi.

Ana qollarını geniş açdı...

– Allah xatirinə, qulaq asın! Siz hamınız mənə əzizsiniz, hamınız balamsınız... bir qorxusuz baxın, görün nə oldu? Balalarımız, ətimizdən, qanımızdan olan övladlarımız haqq dalınca gedirlər, hamı üçün! Sizdən ötrü, sizin balalarınızdan ötrü özlərini ölümə verirlər... İşıqlı gün axtarırlar. Başqa yaşayış qurmaq istəyirlər, haqq, ədalətlə dolu yaşayış... Hamıya yaxşılıq istəyirlər!

Onun ürəyi parçalanır, sinəsi daralır, boğazı quruyub yanırdı. Qəlbinin dərinliyində hər şeyi, hamını əhatə edən böyük məhəbbət sözləri yaranır, dilini yandırır və onu daha qüvvətli, daha sərbəst danışmağa vadar edirdi.

Ana hamının kiridiyini, onu dinlədiyini görür, ətrafını tutan adamların düşündüyünü hiss edir, qəlbində indi ona aydın arzu – bu adamları oraya – oğlunun, Andreyin dalınca, əsgərlərin əlinə verilən, tək buraxılan adamların hamısının dalınca göndərmək arzusu baş qaldırırdı.

Ana dövrəsindəki qaşqabaqlı, diqqətli üzləri seyr edərək, mülayim-mülayim sözünə davam etdi:

– Bu dünyada bizim övladlarımız işığa doğru gedir, hamının yolunda, İsa həqiqətinin yolunda onlar bizi əsir eləyən, qol-qıçımızı



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

bağlayan, bizi əzən zalımlara, xainlərə, tamahkarlara qarşı gedirlər! Əzizlərim, axı bizim bu cavan balalarımız bütün el üçün qalxıblar, bütün dünya üçün, bütün fəhlə xalqı üçün gedirlər!.. Onlardan əl üzməyin, onlardan kənara çəkilməyin, öz övladlarınızı tək, kimsəsiz qoymayın. Özünüzə yazığınız gəlsin... Balalarımızın qəlbinə inanın – onlar haqqı tapıblar, bu haqqın yolunda da ölümə gedirlər. Onlara inanın!

Ananın səsi qırıldı; o, gücdən düşüb, yerində yırğalandı, kim isə onun qolundan tutdu...

Kim isə hiddətli və boğuq səslə:

– Haqq söz deyir! – deyə çığırdı. – Ay qardaşlar, haqq söz deyir! Qulaq asın!

Bir başqası mərhəmətlə:

– Yazıq özünü necə öldürür! – dedi.

Ona məzəmmətlə etiraz elədilər:

– O, özünü öldürmür, biz axmaqları döyür, başa düş!

Uca və titrək bir səs izdihamın üzərində yüksəldi:

– Ay qardaşlar! Mənim Mityam – qəlbi pak Mitya nə eləmişdi? O, yoldaşları ilə getdi, əzizləri ilə... Bu arvad doğru deyir – nə üçün öz övladlarımızı əlimizdən veririk? Onların bizə nə pisliyi dəyib?

Bu sözlərdən ana titrəyib, dilsiz göz yaşları tökməyə başladı.

Sizov uçadan:

– Nilovna, evinə get! – dedi. – Get, anam! Ayaq üstə dura bilmirsən!

Sizovun rəngi qaçmışdı, pırtlaşmış saqqalı titrəyirdi. O, birdən qaşlarını çatıb, hirsli gözləri ilə hamını süzdü və qəddini düzəldərək, aydın səslə dedi:

– Mənim oğlum Matvey fabrikdə, maşına düşüb tələf oldu, özünüz bilirsiniz. Amma sağ olsaydı, mən özüm onu bunlarla bərabər göndərərdim, özüm deyərdim, – get, Matvey sən, də get! Bu haqq işdir, şərəfli işdir!

Sizov tutuldu, susdu, ətrafdakıların qəlbini böyük, yeni, lakin onları artıq qorxutmayan bir duyğu bürümüşdü, hamı qaşqabaqlı idi, heç kəs dinmirdi. Sizov əlini qaldırıb, havada silkələdi və:

– Bu sözləri sizə qoca kişi deyir, – dedi, – siz məni tanıyırsınız! Otuz doqquz ildir ki, burada işləyirəm, əlli üç ildir yer üzündə gəzirəm. Bacım oğlunu, təmiz, ağıllı oğlanı – bu gün yenə tutub



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

apardılar. O da qabaqda gedirdi, Vlasovun yanında, lap bayrağın altında...

O, əlini yellətdi, büzüşdü və ananın qolundan tutub dedi:

– Bu arvadın dediyi haqdır. Bizim balalarımız namusla, ağılla yaşamaq istəyirlər, amma biz onları atdıq, getdik, bəli! Get, Nilovna!..

Ana yaşlı gözləri ilə hamını süzüb dedi:

– Mənim əzizlərim! Yaşayış – balalarımız üçündür, torpaq da – onlar üçündür!..

– Get, Nilovna get! Al! Ağacı da götür, – Sizov bayraq ağacının parçasını ona uzatdı.

Anaya qüssə və ehtiramla baxırdılar, onun dalınca rəğbət dolu uğultu eşidilirdi. Sizov dinmədən adamları onun yolundan kənar edirdi, adamlar səssizcə yana çəkilir, özlərini ananın dalınca çəkən anlaşılmaz qüvvəyə tabe olaraq, tələsmədən qadının dalınca gedir, pıçıltı ilə bir-birinə qısa sözlər deyirdilər.

Ana qapısının ağzında bayraq ağacının parçasına dayanaraq, onlara tərəf döndü, baş əydi və yavaşdan razılıq elədi:

– Sağ olun...

Yenə öz fikrini, – sanki ürəyinin yaratmış olduğu yeni fikri xatırlayıb, əlavə elədi:

– Peyğəmbərimiz həzrət İsa yolunda insanlar ölümə getməsəydilər, İsa da olmazdı...

İzdiham sükut içində ona baxırdı...

Ana adamlara bir də baş əyib, evinə girdi, Sizov da, başını aşağı salıb, onun dalınca girdi.

Adamlar qapının ağzında durub, nə barədə isə danışırdılar.

Sonra tələsmədən dağılışdılar.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

# İKİNCİ HİSSƏ

## I

Ana günün qalanını dumanlı xatirələrlə, ruhunu və bədənini bürümüş ağır yorğunluq içində keçirdi. Balaca zabit, boz ləkə kimi atılıb-düşür, Pavelin tunc sifəti parıldayır, Andreyin gözləri gülümsəyirdi.

Ana otaqda gəzinir, pəncərənin qabağında oturur, küçəyə baxır, yenə gəzinməyə başlayır, qaşını dartıb, diksinə-diksinə, ətrafına baxa-baxa fikirsiz halda nə isə axtarırdı. Su içirdisə də atəşini, qəlbində yanan kədər və inciklik hissini söndürə bilmirdi. Gün iki parçaya ayrılmışdı; əvvəli məzmunla dolu olan bu günün bütün mənası indi sızıb getmiş, ananın önündə qəmli bir boşluq açılmış və qarşıda çətin sual durmuşdu:

"Bəs indi necə olacaq?.."

Korsunova gəldi. O, əl-qol atır, çığırır, ağlayır, özündən çıxır, ayaqlarını yerə döyür, nə isə təklif və vəd edir, kimi isə hədələyirdi. Bunların heç biri anaya təsir etmirdi.

Mariyanın çığırtısı ananın qulağında səslənirdi:

– Aha! Xalqı yerindən oynatdılar! Bütün fabrik ayağa qalxdı!

Ana başını yavaş-yavaş tərpədir:

– Bəli, bəli! – deyirdi və onun hərəkətsiz gözləri bu yaxın keçmişi, Andrey və Pavellə birlikdə ondan ayrılan keçmişi seyr edirdi. Ana ağlaya bilmirdi: qəlbi sıxılmış, dodaqları da qurumuşdu, ağzı hərarətdən yanırdı. Əlləri titrəyir, kürəyinin dərisi narın-narın əsirdi.

Axşam jandarmlar gəldilər. Ana onları təəccüblənmədən, qorxusuz qarşıladı. Jandarmlar səs-küylə içəri girdilər, sanki sevinir, tutduqları işdən fərəhlənirdilər. Sarısifət zabit dişlərini ağardaraq:

– Hə, kefiniz necədir? – deyirdi. – Üçüncü dəfədir görüşürük, hə?

Ana, qurumuş dilini dodaqlarına çəkərək, sükut edirdi. Zabit çox danışır, danlayırdı; ana hiss edirdi ki, onun danışmaqdan xoşu gəlir. Lakin zabitin sözləri ananın qulağına girmir, ona mane olmurdu. Yalnız o:



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

– Günah sənin özündədir, anam, gərək oğlunu Allaha və padşaha ehtiram etməyə öyrədəydin... – deyəndə, qapıda duran və ona baxmayan ana batqın səslə:

– Bəli, bizim divanımız – övladlarımızdır. Onları yolun ortasına bu cür atdığımız üçün balalarımız bizi haqq ilə mühakimə edəcəklər, – dedi.

Zabit bağırdı:

– Necə? Ucadan de!

Ana ah çəkib təkrar elədi:

– Deyirəm, balalarımız bizə divandır!

Onda zabit nə barədə isə sürətlə və hirsli-hirsli danışmağa başladı, ancaq onun sözləri anaya toxunmur, kənarda hərlənirdi.

Mariya Korsunova şahidlər arasında idi. O, ananın yanında durmuşdu, amma ona baxmırdı; zabit ona bir sual verəndə, tələsik təzim eləyib yeknəsəq cavab verirdi:

– Bilmirəm, cənab zabit! Mən savadsız arvadam, alış-veriş eləyirəm, avamlığımdan heç zad bilmirəm...

Zabit bığlarını tərpədərək:

– Di yaxşı, sus! – deyə əmr edirdi. Mariya Korsunova, yenə baş əyib, daldan ona boğma çıxarır və:

– Ala! Yerə girəsən! – deyə ananın qulağına pıçıldayırdı.

Ona Vlasovanı axtarmağı əmr elədilər. O, gözlərini döyə-döyə zabitin üzünə baxdı və qorxu ilə:

– Cənab zabit, mən bunu bacarmıram! – dedi.

Zabit ayağını yerə vurub, çığırdı. Mariya, gözünü aşağı dikib, yavaşca anadan xahiş elədi:

– Neyləyək, düymələrini aç, Pelageya Nilovna...

Ananın paltarını əlləşdirərkən, üzü qıpqırmızı qızarmış Mariya pıçıldayırdı:

– Ah, köpəklər!

Zabit, Mariyanın ananı axtardığı bucağa baxıb, hirslə qışqırdı:

– Orada nə danışırsan?

Mariya qorxa-qorxa:

– Heç, cənab zabit, arvad işidir! – dedi.

Zabit protokolu imzalamağı anaya əmr edəndə, ana yazıya öyrəşməmiş əli ilə kağız üzərində yoğun, qara çap hərfləri ilə yazdı:

"Fəhlənin dul arvadı Pelageya Vlasova!"



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Zabit iyrənirmiş kimi üzünü turşudub:

– Bu nədir yazdın? Bu nə üçündür? – deyə qışqırdı və istehza ilə gülüb əlavə elədi: – Vəhşilər...

Onlar getdilər. Ana əllərini qoynuna qoyub pəncərənin qabağında dayandı və gözlərini qırpmadan, bir şey görmədən, bir nöqtəyə xeyli baxdı; qaşları dartılmış, dodaqları bitişmişdi; dişlərini bir-birinə elə bərk sıxmışdı ki, bir azdan sonra onların ağrıdığını hiss elədi. Lampanın nefti qurtardı, od pırtıldaya-pırtıldaya sönürdü. Ana çırağı püfləyib qaranlıqda qaldı. Kədərli fikirsizliyin qaranlıq buludu onun qəlbini doldurub, ürəyinin döyünməsini çətinləşdirirdi. Uzun müddət belə qaldı – ayaqları, gözləri yoruldu. Pəncərə altında dayanan Mariyanın sərxoş səsini eşitdi:

– Pelageya! Yatmısan? Yazıq, başı bəlalı arvad! Yat!

Ana soyunmadan yatağına uzandı və dərhal, dərin girdaba düşmüş kimi, ağır yuxuya getdi.

Yuxusunda bataqlığın o tayında, şəhər yolunda sarı qumlu bir təpə gördü. Pavel təpənin üstündə qum götürülən xəndəklərə tərəf olan uçurumun qırağında durub, Andreyin ahəngdar səsi ilə yavaşdan oxuyurdu:

Qalx, haqqını tələb et, ey fəhlə...

Ana yol ilə təpə yanından keçir və əlini alnına qoyub oğluna baxırdı. Mavi səma fonunda oğlunun surəti kəskin və aydın görünürdü. Ana onun yanına getməkdən utanırdı, çünki hamilə idi. Qucağında da uşaq vardı. Yoluna davam elədi. Çöldə uşaqlar top-top oynayırdılar, uşaq çox idi, top da qırmızı idi. Qucağındakı uşaq əllərini onlara tərəf uzadıb ucadan ağladı. O, uşağı əmizdirib, geri döndü; indi təpənin üstündə soldatlar durub süngülərini ona tərəf uzatmışdılar. Onda o, sürətlə çölün ortasındakı kilsəyə tərəf qaçdı; sanki buludlardan tikilmiş bu kilsə ağ, yüngül və çox uca idi. Orada kimi isə dəfn edirdilər; tabut iri, qara idi, qapağı da bərk örtülmüşdü. Ağ geyinmiş keşiş və dyakon kilsədə gəzir və oxuyurdular:

İsa dirildi...

Dyakon buxurdanı tüstülədib anaya baş əyir, gülümsəyirdi; onun saçı kürən, üzü Samoylovun üzü kimi şən idi. Yuxarıdan,



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

gümbəzdən içəriyə məhrəba kimi enli günəş şüaları düşürdü. Kilsə xoruna məxsus hər iki yerdən oğlan uşaqları yavaşdan oxuyurdular:

İsa dirildi...

Birdən keşiş kilsənin ortasında dayanıb:

– Tutun bunları! – deyə çığırdı.

Keşişin ağ geyimi yox oldu, o çal bığlı, hirsli bir adama çevrildi. Hamı qaçışdı, dyakon da buxurdanı kənara atıb, xoxol kimi, əli ilə başını tutaraq qaçdı. Ananın qucağındakı uşaq yerə, adamların ayağı altına düşdü; qaçanlar qorxu ilə uşağın çılpaq bədəninə baxır və onun yanından keçirdilər, ana isə dizi üstə çöküb onların dalınca çığırırdı:

– Uşağı atmayın! Onu da götürün...

Xoxol, əllərini arxasına qoyub, gülə-gülə oxuyurdu:

İsa dirildi...

Ana əyilib uşağı yerdən götürdü və odun arabasına mindirdi; Nikolay arabanın yanınca gedir və qəhqəhə ilə gülə-gülə deyirdi:

– Mənə nə ağır iş veriblər...

Küçə palçıq idi, evlərin pəncərələrindən adamlar başlarını çıxarıb fit çalır, bağırır, əllərini yelləyirdilər. Aydın bir gün idi, günəş par-par parlayırdı, heç yerdə kölgə yox idi.

Xoxol:

– Oxuyun, nənə can! Həyat belədir! – deyirdi.

O, öz səsi ilə bütün səsləri boğaraq, oxuyurdu. Ana onun dalınca yeriyirdi; birdən büdrədi və haman saat dibsiz bir uçuruma getdi, bu uçurum onu vahiməli uğultu ilə qarşıladı.

Ana oyandı; bütün bədəni əsirdi. Sanki ağır və kobud bir əl onun ürəyini alıb, şit zarafat edə-edə, yavaşca onu sıxırdı. Fabrikin fiti inadla işə çağırırdı. Ana bu fitin ikinci olduğunu təyin elədi. Otaqda kitablar bir-birinə qarışıb yerə səpələnmiş, hər şey öz yerindən oynadılmış, alt-üst edilmiş, döşəmə tapdanmışdı.

Ana qalxdı və əl-üzünü yumadan, Allaha dua eləmədən, otağı yığışdırmağa başladı. Mətbəxdə qırmızı parçalı ağac qırığı gözünə sataşdı; ana acıqla onu alıb, sobanın altına atmaq istədi, lakin kök-



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

sünü ötürüb, bayraq parçasını ağacdan qopardı, bu qırmızı parçanı səliqə ilə büküb cibinə qoydu, ağacı isə dizinə vurub iki parça elədi və odunların içinə atdı. Sonra soyuq su ilə pəncərələri və döşəməni yudu, samovara od salıb, geyindi. Mətbəxdə pəncərənin qabağında oturdu və yenə:

"İndi nə eləməli?" sualı onun qarşısında dayandı.

Ana hələ dua eləmədiyini xatırlayıb, ikona qabağında durdu, bir neçə saniyə belə dayanaraq, yenə yerinə oturdu – onun qəlbi boş idi.

Hər tərəf qəribə sükut içində idi, sanki dünən küçədə bu qədər çığıran adamlar indi evlərində gizlənib bu qeyri-adi günü düşünürdülər.

Birdən keçmişdə, cavanlığında gördüyü bir hadisə onun yadına düşdü. Zausaylov ağalarının köhnə parkında, kənarlarında çoxlu ağ nilufər bitmiş bir göl vardı. Payızın çiskinli bir günündə o, gölün yanından ötərkən, onun ortasında bir qayıq görmüşdü. Göl qaranlıq, sakit idi, matəm əlaməti olaraq xəzəl ilə bəzənmişdi, qayıq isə qara suya yapışdırılmış kimi nəzərə gəlirdi. Rəngi tutqun suyun üzərində ölgün yarpaqlar arasında hərəkətsiz duran bu yalqız, avarçısı və avarı olmayan qayıqdan insanın qəlbinə dərin bir qüssə, bilinməz bir kədər çökürdü. O zaman ana uzun müddət gölün kənarında durub, bu qayığı kimin və nə üçün sahildən itələmiş olduğunu düşünmüşdü. Həmin günün axşamı məlum olmuşdu ki, Zausaylovların təsərrüfatına baxan adamın arvadı, pırtlaşıq qara saçlı, iti yerişli balaca qadın özünü gölə atmışdır.

Ana əlini üzünə çəkdi və onun titrək fikri dünənki günün təəssüratı üzərində dolaşdı. Bu fikirlər içində ana, gözlərini soyumuş çay fincanına dikib oturdu; qəlbində isə ağıllı, sadə bir adam görmək, ondan çox şey soruşmaq arzusu oyanırdı.

Sanki onun bu arzusuna cavab olaraq, nahardan sonra Nikolay İvanoviç gəldi. Lakin onu görəndə ananın qəlbini vahimə bürüdü və o, salama cavab vermədən, yavaş səslə:

– Ay canım, niyə gəldiniz? – dedi. – Yaman ehtiyatsızlıq eləmisiniz! Axı sizi görsələr tutarlar...

Nikolay İvanoviç onun əlini bərk sıxa-sıxa gözlüyünü düzəldir və üzünü ona yaxın əyib, mehriban və qayğılı səslə tələsə-tələsə izah edirdi:



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

– Mən Pavel və Andrey ilə şərtləşmişəm ki, onlar tutulsalar, ertəsi gün sizi şəhərə köçürdüm. Sizi axtardılarmı?

Ana:

– Axtardılar, hər yana əl atdılar, hər yeri əlləşdirdilər! – dedi. – Bu adamların nə həyası var, nə insafı.

Nikolay çiyinlərini çəkdi:

– Həya onların nəyinə lazımdır? – dedi və ananın nə üçün şəhərdə yaşamalı olduğunu ona danışmağa başladı.

Ana onun mehriban, qayğıkeş sözlərini dinləyir, zəif təbəssümlə ona baxır və dəlillərini anlamadığı halda, bu adama qarşı duyduğu səmimiyyətə, etibara təəccüblənirdi.

Ana:

– Paşanın istədiyi budursa, bir də, sizi narahat eləmərəmsə...

Nikolay onun sözünü kəsdi:

– Bu barədə lap xatircəm olun! Mən tək oluram, ancaq hərdənbir bacım yanıma gəlir.

Ana düşündüklərini ucadan ifadə edərək:

– Müftə çörək yemərəm! – deyirdi.

Nikolay:

– İstəsəniz, sizə iş də tapılar! – dedi.

İş sözü eşidərkən ana daim öz oğlu, Andrey və yoldaşları gördüyü işi düşünürdü. O, Nikolaya yaxınlaşdı, onun gözünün içinə baxıb soruşdu: – Tapılarmı?

– Mənim evim balacadır, subay evidir...

Ana yavaşdan:

– Mən bunu demirəm, ev işi demirəm!

Ana Nikolayın onu anlamadığından özünü incimiş kimi hiss edərək, qüssə ilə ah çəkdi. Nikolayın gözləri çeşmək altından gülümsədi, o, fikirli-fikirli dedi:

– Pavel ilə görüşəndə, qəzet istəyən kəndlilərin ünvanını ondan öyrənə bilsəydiniz...

Ana sevincək qışqırdı:

– Mən onları tanıyıram! Taparam, nə cür desəniz, elərəm. Kim fikrinə gətirər ki, mən qadağan edilmiş şey daşıyıram? Şükür Allaha, fabrikə ki, aparırdım!

Çiynində xurcun, əlində ağac yollara düşüb, meşələrdən, kəndlərdən ötmək arzusu birdən onun qəlbinə hakim oldu:



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

– Əzizim, çox xahiş eləyirəm, məni bir belə işə qoyun! – deyirdi. – Hayana desəniz gedərəm. Bütün quberniyaları gəzərəm, bütün yolları taparam! Yayı da, qışı da yollara düşüb gəzərəm, ölənə kimi; məgər bu mənim üçün pis qismətdir?

Ana özünü kənd daxmalarının qapısında evsiz bir yolçu kimi, Allah yolunda sədəqə dilənən gördükdə qüssələndi.

Nikolay ehtiyatla onun əlini alıb öz isti əli ilə tumarladı. Sonra saatına baxıb dedi:

– Bu barədə sonra danışarıq!

Ana:

– Əzizim! – deyə səsləndi. – Uşaqlarımız, ürəyimizin ən qiymətli parçaları azadlıqlarını, həyatlarını bu yolda verəndə, özlərinə rəhm eləməyib tələf olanda, mən, ana nə üçün belə etməyim?

Nikolayın rəngi qaçdı; o, nəvaziş dolu, diqqətli nəzərlə anaya baxaraq, yavaşdan dedi:

– Bilirsinizmi, bu cür sözləri eşitdiyim birinci dəfədir.

Ana qüssə ilə başını bulayaraq:

– Mən nə deyə bilərəm? – pıçıldadı və aciz-aciz əllərini araladı. – Öz ana ürəyimdən danışmağa söz tapa bilsəydim...

Qəlbində qalxan və qəzəbli sözlərin qızğın seli ilə başını gicəlləndirən bir qüvvə onu ayağa qalxızdı:

– Çoxları ağlayardı... Zalımlar, insafsızlar da ağlayardı...

Nikolay da ayağa qalxdı və yenə saatına baxdı.

– Demək, sözümüz sözdür, şəhərə, mənim yanıma köçürsünüz?

Ana dinmədən başını əydi.

Nikolay xahiş ilə:

– Nə vaxt? Tez olsaydı! – dedi və mülayim səslə əlavə elədi: – Mən sizdən nigaran qalacağam!

Ana heyrətlə onun üzünə baxdı: nə üçün o, anadan nigaran olsun? Çiyinləri çıxıq, gözü çeşməkli, sadə, qara pencəkli Nikolay, başını əyib utancaqlıqla gülümsünərək, onun qabağında durmuşdu, əynindəkilərin heç biri də ona yaraşmırdı...

Nikolay gözlərini aşağı dikib soruşdu:

– Pulunuz varmı?

– Yox!

O tez cibindən pul kisəsini çıxarıb açdı və anaya uzadaraq:

– Buyurun, nə qədər lazımdırsa götürün...



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Ana biixtiyar gülümsündü və başını bulaya-bulaya dedi:

– Hər şey təzə şəklə düşüb! Pul da qiymətsiz olub! Adamlar pul üçün canını verir, amma sizin gözünüzdə pul heçdir! Sanki adamlara mərhəmət hissindən yanınızda pul gəzdirirsiniz...

Nikolay yavaşdan güldü:

– Pul çox pis, çirkin şeydir! Adam onu verəndə də utanır, alanda da...

O, ananın əlini əlinə alıb bərk sıxdı və bir daha xahiş elədi:

– Tez gəlin!

Həmişəki kimi də sakit və səssiz çıxıb getdi.

Ana onu yola salandan sonra öz-özünə düşündü:

"Necə'mehribandır, amma heç yazığı gəlmədi"

Ana bundan dilxormu olduğunu, ya ancaq təəccübmü etdiyini başa düşə bilmirdi.

## II

Nikolay ilə görüşdən dörd gün sonra ana yığışıb şəhərə yola düşdü. Onun iki sandığı ilə yüklənmiş araba məhəllədən çölə çıxanda, ana dönüb geri baxdı və bu yeri, həyatının ən qaranlıq və ağır dövrünü keçirdiyi, sonra da yeni dərd və sevinclə dolu günlərinin sürətlə ötdüyü, ikinci dövrün də başladığı bu yeri həmişəlik tərk etdiyini birdən hiss elədi.

Borularını göyün üzünə qalxızan fabrik tünd-qırmızı iri hörümçək kimi, hisdən qaralmış yerə sərilmişdi. Fəhlələrin birmərtəbəli evləri onun böyrünə qısılmışdı. Bu boz və yastı evlər bataqlığın kənarına sıx düzülüb, balaca və tutqun pəncərələri ilə miskin-miskin bir-birinə baxırdı. Bu evlərin üzərində fabrikin rənginə çalan tünd-qırmızı kilsə ucalırdı, onun zəng qülləsi fabrik borularından alçaq idi.

Ana ah çəkib, boğazını sıxan yaxasını düzəltdi.

Arabaçı cilovu çəkərək:

– Haydı! – deyə atını səslədi. O, yaşı təxmin edilməyən, ayaqları əyri, saçı-saqqalı solmuş və seyrək, gözləri sönük bir adam idi. Yanlarını basa-basa arabanın yanınca gedirdi, həm də aydın görünürdü ki, haraya – sağamı, solamı gedəcəyinin onun üçün fərqi yox idi. O, ifadəsiz səslə:



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

– Haydı! – deyir, üstündə palçıq quruyub qalmış ağır çəkməli əyri ayaqlarını gülməli bir tərzdə atırdı. Ana ətrafına göz gəzdirdi. Çöl, onun qəlbi kimi, boş idi.

At başını ağır-ağır tovlayaraq, ayaqlarını günəşdən qızmış quma basırdı, qum yavaşca xışıldayırdı. Pis yağlanmış, sınıq araba cırıldayır, tozla bərabər bütün səslər arxada qalırdı...

Nikolay İvanoviç şəhərin kənarında, boş və sakit küçədə, köhnəlikdən şişmiş və qaralmış ikimərtəbəli evin böyründə tikilən balaca, yaşıl boyalı evcikdə olurdu. Evciyin qabağında bağça salınmışdı; yasəmən kolunun, akasiya ağacının budaqları, cavan qələmə ağaclarının gümüşə bənzər yarpaqları nəvazişlə əyilib üç otağın pəncərələrinə baxırdı. Otaqlar sakit və təmiz idi; naxışlı kölgələr yerə düşüb, səssizcə titrəyirdi, divarlar boyunca kitab dolu rəflər uzanırdı və ciddi adamların əksləri asılmışdı.

Nikolay ananı bir pəncərəsi bağçaya, o biri pəncərəsi də qalın ot basmış həyətə baxan balaca otağa gətirib:

– Bura sizin üçün rahat olarmı? – deyə soruşdu. Bu otağın da divarları kitab şkafları və rəfləri ilə tutulmuşdu.

Ana:

– Mətbəxdə olsam yaxşıdır! – dedi. – Mətbəx təmiz və işıqdır...

Nikolay ananın nəzərinə bir şeydən qorxan kimi gəldi. Sonra o, utana-utana ananı fikrindən daşındırmağa çalışıb, ananın razılığını alanda, yenə şənləndi.

Üç otağın üçü də elə bil xüsusi hava ilə dolu idi, yaxşı və rahat nəfəs almaq olurdu; ancaq adam səsini biixtiyar alçaldır, uçadan danışmaq və dərin fikrə getmiş halda divardan baxan adamların sakitliyini pozmaq istəmirdi.

Ana, pəncərələrə düzülmüş güldanların torpağını əli ilə yoxlayıb:

– Gülləri sulamaq lazımdır! – dedi.

Mənzil sahibi müqəssir kimi:

– Bəli, bəli! – deyə cavab verdi. – Bilirsiniz, mən gülləri çox sevirəm, ancaq onlara qulluq eləməyə macal tapmıram...

Ana, Nikolaya göz qoyur, onun öz səliqəli mənzilində də ətrafdakı şeylərə yad, onlardan uzaq bir adam kimi, ehtiyatla dolandığını görürdü. Nikolay baxdığı şeyə üzünü yaxınlaşdırır və sağ əlinin nazik barmaqları ilə gözlüyünü düzəldərək, gözlərini qıyır və onu



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

maraqlandıran şeyə səssiz sual ilə sancırdı. Bəzən bir şeyi əlinə alıb diqqətlə gözlərini ona dikirdi, adama elə gəlirdi ki, guya o da ana ilə otağa indicə girmişdir və ana kimi o da buradakı şeyləri görməmiş, onlara alışmamışdır. Onu belə görən ana birdən özünü bu otaqlarda öz evində olduğu kimi hiss elədi. O, Nikolayın dalınca gəzə-gəzə, şeylərin harada və nə cür durduğuna diqqət edir, onun necə yaşadığını soruşurdu; o isə hər şeyi, lazım olduğu kimi etmədiyini və başqa cür eləməyi də bacarmadığını bilən adamın ahəngi ilə, müqəssir kimi cavab verirdi.

Gülləri suladıqdan və piano üstündə səpələnmiş notları dəstə ilə yığdıqdan sonra ana samovara baxıb:

– Sürtmək lazımdır! – dedi.

Nikolay barmağını rəngi tutqun misə çəkib, burnuna tərəf tutdu və ciddi nəzərlə barmağına baxdı. Ana mehribanca gülümsündü.

Ana yatağına girəndən sonra, keçirdiyi gününü yadına saldı və heyrətlə başını yastıqdan qalxızıb ətrafına göz gəzdirdi. Ömründə birinci dəfə idi ki, yad adamın evində qalırdı, bu da onu heç sıxmırdı. O, Nikolayı qayğıkeşliklə düşünür, onun üçün hər şeyi mümkün qədər yaxşı eləmək, onun həyatına mehriban, ürəkaçan bir şey qatmaq arzusu hiss edirdi. Nikolayın utancaqlığı, gülünc bacarıqsızlığı, adi şeylərdən uzaqlığı və aydın gözlərində parlayan həm müdrik, həm də sadəlövh ifadə ananın qəlbini riqqətə gətirirdi. Sonra onun fikri xeyli müddət oğlunun üzərində dayandı və yeni səslər, yeni mənalar ilə qanadlanmış Bir May günü yenə gözü qabağında açıldı. Bu günün dərdi də, oğlu kimi, ayrı sayaq idi, bu dərd küt və gicəlləndirici yumruq zərbəsi kimi başı yerə əymir, ürəyə iynələr kimi sancılıb, onda sakit bir qəzəb oyadır, əyilmiş beli düzəldirdi.

Ana öz-özünə:

"Övladlar yer üzündə gəzir!" – deyə düşünür, şəhərdəki gecə həyatının tanımadığı, bilmədiyi səslərinə qulaq verirdi. Bu səslər bağçada ağac yarpaqlarını səsləndirərək, açıq pəncərədən içəri sürünür, yorğun, ölgün səslər uzaqlardan gəlib, otaqda ölürdü.

Səhər tezdən samovarı sürtdü, od salıb qaynatdı, qab-qacağı səssiz yığışdırdı və mətbəxdə oturub, Nikolayın oyanmasını gözlədi. Onun öskürtüsü eşidildi; bir əli boğazında, o biri əli ilə gözlüyünü tutmuş Nikolay qapıdan girdi. Ana, onun salamına cavab verib, samovarı otağa apardı. Nikolay isə suyu ətrafa dağıda-dağıda, gah



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

sabunu, gah diş fırçasını yerə sala-sala və püfüldəyə-püfüldəyə əl-üzünü yumağa başladı.

Nikolay çay içəndə nağıl edirdi:

– Mən zemstvo idarəsində yaman ürəksıxıcı bir işlə məşğulam – kəndlilərimizin nə cür var-yoxdan çıxdığını müşahidə edirəm...

Sonra da, müqəssir kimi, gülümsünərək təkrar elədi:

– Aclıqdan üzülmüş adamlar vaxtından əvvəl qəbirə gedir, uşaqlar anadan zəif doğulur, payızda milçək qırılan kimi qırılır, biz də bunun hamısını bilirik, bu fəlakətin səbəblərini də bilirik və bunlara baxdığımız üçün məvacib alırıq. Elə bu, vəssalam...

Ana:

– Siz tələbəsiniz? – deyə soruşdu.

– Yox, mən müəlliməm. Atam Vyatkada zavod müdiridir, amma mən müəllimlikdən yapışdım. Kənddə kəndlilərə kitabça verməyə başladım, bunun üstündə məni tutub qazamata saldılar. Dustaqlıqdan sonra kitab mağazasında prikazçik oldum, ancaq ehtiyatsız dolandığım üçün yenə tutuldum, sonra Arxangelskə sürgün edildim. Orada da qubernator ilə aramızda inciklik çıxdı, məni düz Ağ dənizin kənarında bir kəndə sürgün elədilər, beş il də orada qaldım.

Günəşin şəfəqi ilə dolu işıq otaqda onun danışığı sakit və rəvan axırdı. Ana son zamanlar belə əhvalatlardan çox eşitmişdi və bunların nə üçün belə rahat və sakit danışıldığını, bu hadisələrin nə üçün belə labüd hesab edildiyini heç anlaya bilmirdi.

Nikolay:

– Bu gün bacım gələcək! – deyə xəbər verdi.

– Ərdədir?

– Duldur. Əri Sibirə sürgün edilmişdi, ancaq oradan qaçıb, iki il bundan əvvəl xaricdə vərəmdən öldü...

– Bacınız sizdən kiçikdir?

– Məndən altı yaş böyükdür. Mənim boynumda onun çox haqqı var. Bir qulaq asın, görün, necə piano çalır! Bu onun pianosudur... burada onun şeyi çoxdur, mənimki kitablardır.

– Bəs o harada olur?

Nikolay gülümsünərək:

– Hər yanda! – deyə cavab verdi. – Harada şücaətli adama ehtiyac olursa, orada olur.

Ana soruşdu:

– Odamı bu işdədir?



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Nikolay:

– Əlbəttə! – dedi.

Bir azdan Nikolay qulluğa getdi, ana isə insanların inadla, aramla gündən-günə gördüyü "bu işi" düşünməyə başladı. Ana da onların qarşısında özünü gecə vaxtı dağ qarşısında olduğu kimi hiss edirdi.

Günortaya yaxın qara paltarlı, ucaboy və şəstli bir qadın gəldi. Ana qapını açanda, qadın balaca sarı çamadanını yerə atıb, tez Vlasovanın əlini tutdu və soruşdu:

– Siz Pavel Mixayloviçin anasısınız, eləmi?

Onun zəngin geyimindən bir qədər çaşmış ana:

– Bəli! – deyə cavab verdi.

Qadın ayna qabağında şlyapasını çıxardarkən deyirdi:

– Mən sizi beləcə də təsəvvür edirdim! Qardaşım yazmışdı ki, onun yanında yaşayacaqsınız! Biz Pavel Mixayloviçlə çoxdankı dostuq. O, sizdən mənə çox deyibdir.

Onun səsi bir qədər batqın kimi idi, yavaş-yavaş danışırdı, hərəkətləri isə qüvvətli və cəld idi. İri, ala gözləri aydın, odlu təbəssümlə gülürdü, gicgahlarında şüa kimi, nazik qırışlar görünür, qulaqlarından yuxarı isə gümüş kimi ağ tüklər parıldayırdı.

Qadın anaya:

– Acmışam! – dedi. – Bir fincan qəhvə olsaydı, içərdim...

Ana:

– Bu saat hazırlaram! – deyə cavab verdi və şkafdan qəhvə fincanını çıxardıb, soruşdu: – Yəni Paşa məndən danışırdı?

– Çox...

Qadın, dəridən tikilmiş balaca papiros qabını çıxarıb, papiros yandırdı və otaqda gəzinə-gəzinə soruşdu:

– Ondan çoxmu nigaransınız?

Ana qəhvədanın altında spirt lampasının göy və titrək alovuna tamaşa edə-edə gülümsünürdü. Onun qadından utanması dərin sevinc içində əriyib getmişdi.

"Deməli, o məndən danışırmış, əziz balam!" – deyə ana öz-özünə fikirləşərək, yavaşdan: – Əlbəttə, asan iş deyil ki... ancaq qabaqlarda daha çətin olardı, indi bilirəm ki, tək o deyil...

Ana qadının üzünə baxaraq soruşdu:



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

– Bəs sizin adınız nədir?

O cavab verdi:

– Sofya!

Ana diqqətlə onu süzürdü. Bu qadında bir səliqəsizlik, həddindən artıq ötkəmlik və cəldlik vardı.

Tez-tez qəhvəsini içə-içə inamla deyirdi:

– Əsas iş odur ki, onları qazamatda çox saxlamasınlar, tez mühakimə eləsinlər! Onları sürgün edən kimi də biz Pavel Mixayloviçi qaçırdarıq, o burada çox lazımdır.

Ana inamsız nəzərlə Sofyaya baxdı, o isə papirosun kötüyünü atmaq üçün gözü ilə ətrafı gəzib, onu güldanın torpağına basdı.

Ana birdən-birə və düşünmədən:

– Bundan gül xarab olur! – dedi.

Sofya:

– Bağışlayın! Nikolay da həmişə mənə deyir! – O, papiros kötüyünü güldandan çıxarıb, pəncərədən tulladı.

Ana utana-utana onun üzünə baxdı və müqəssir kimi:

– Siz məni bağışlayın! – dedi. – Mən elə-belə, fikirləşmədən dedim. Məgər mən sizi öyrədə bilərəm?

Sofya çiyinlərini sıxaraq:

– Madam ki, mən pintiyəm, niyə öyrətməyəsiniz? – dedi. – Qəhvə hazırdırmı? Çox razıyam! Bəs niyə bircə fincan? Siz içməyəcəksiniz?

Birdən ananı çiyinlərindən tutub özünə tərəf çəkdi və onun gözlərinə baxaraq heyrətlə soruşdu:

– Olmaya utanırsınız?

Ana gülümsünərək cavab verdi:

– İndicə papiros barədə sizi məzəmmət elədim, hələ bir soruşursunuz ki, "bəlkə utanırsınız".

Ana öz heyrətini gizlətməyərək, sanki soruşurdu:

– Dünən sizin evə gəlmişəm, amma öz evimdəki kimi dolanıram, heç bir şeydən çəkinmirəm, istədiyimi danışıram...

Sofya ucadan:

– Belə də lazımdır!

Ana sözünə davam edərək:

– Mənim başım hərlənir, elə bil öz-özümə yadam! – deyirdi. – Əvvəllərdə birisinə ürəkdən bir söz demək istəyəndə, onun ətrafı-



Created with
nitro PDF professional
download the free trial online at nitropdf.com/professional

na dolanır, dolanırdım, amma indi qəlbim həmişə açıqdır, əvvəl fikrimə də gətirmədiyimi indi birdən deyirəm.

Sofya ala gözləri ilə ananın üzünə mülayim, xoş işıq saça-saça yenə papirosunu yandırdı.

Ana onu narahat edən məsələyə qayıdaraq:

– Qaçırdanq deyirsiniz? Bəs o, qaçaqlıqda necə yaşaya biləcək?

Sofya yenə özünə qəhvə tökərək dedi:

– Buna nə var ki? Başqa qaçanlar yaşadığı kimi o da yaşayar... Mən indicə birisini qarşılayıb, yola saldım, getdi; o da çox qiymətli adamdır, beş illiyə sürgün edilmişdi, amma sürgündə üç ay yarım ancaq qaldı...

Ana diqqətlə ona baxıb gülümsündü və başını bulaya-bulaya yavaşdan:

– Yox, görünür, o gün, Bir May günü məni yaman tutub! Qəribə haldayam, elə bil birdən iki yol ilə gedirəm: gah mənə belə gəlir ki, hər şeyi anlayıram, gah da elə bil dumana düşürəm. Bax, indi siz – sizə baxıram, xanımsınız, belə işlər görürsünüz... Paşanı tanıyırsınız, onu qiymətləndirirsiniz, sağ olun...

Sofya güldü:

– Yox, sizə sağ ol demək lazımdır!

Ana köksünü ötürüb dedi:

– Mənə neyçün? Onu bu işə öyrədən mən olmamışam.

Sofya papiros kötüyünü fincanının nəlbəkisinə qoydu və başını silkələdi, onun qızıla çalan qalın saçı kürəyinə dağıldı və o:

– İndi bu zinətləri çıxarmaq lazımdır! – deyə o biri otağa keçdi.

## III

Axşama yaxın Nikolay gəldi. Nahar edərkən Sofya sürgündən qaçmış adamı nə cür qarşılayıb gizlədiyindən, hər adamı casus bilib, ondan qorxduğundan və qaçan adamın özünü məzəli apardığından gülə-gülə söhbət edirdi. Onun səsində ana, çətin bir işi yaxşı görüb, özündən razı qalan bir fəhlənin iftixarını duyurdu.

İndi Sofya polad rəngli gen və yüngül paltar geymişdi. Bu paltarda onun boyu daha uca nəzərə gəlirdi, gözləri sanki tündləşmiş, hərəkətləri bir qədər təmkinli olmuşdu.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Nahardan sonra Nikolay:

– Sofya, sən bir işi də boynuna götürməli olacaqsan! – dedi. – Kənd üçün qəzet hazırladığımızı sən bilirsən, ancaq kənddəki adamlarla rabitəmiz kəsilib, rabitə saxlayan yoldaşlarımız dustaqdır. Qəzeti yaymağı öhdəsinə götürə bilən adamı bircə Pelageya Nilovna bizə tapdıra bilər. Sən onunla ora getməlisən. Həm də bu iş tez olmalıdır.

Sofya papirosunu tüstülədə-tüstülədə:

– Yaxşı! – dedi. – Gedəkmi, Pelageya Nilovna?

– Nə deyirəm, gedək...

– Uzaqdırmı?

– Səksən verst olar...

– Çox gözəl!.. İndi bir az piano çalım. Pelageya Nilovna, siz necə, bir az musiqiyə tab gətirə bilərsinizmi?

Ana divanın bir bucağında oturub:

– Siz məndən soruşmayın! – dedi. – Elə bilin ki, mən heç yoxam.

Ana görürdü ki, bacı-qardaş ona diqqət yetirməyən kimidir, eyni zamanda da belə çıxırdı ki, ana onların çox da sezilməyən təhriki ilə istər-istəməz daim onların söhbətinə qarışır:

– Qulaq as, Nikolay! Qriqin əsəridir. Bu gün gətirmişəm... Pəncərələri ört.

Sofya notları açdı, sol əli ilə yavaşdan pianonun dillərinə vurdu. Tellərdən ahəngdar və gur səslər ucaldı. Zəngin səsli daha bir not, dərindən nəfəslə onlara qarışdı. Sağ əlinin barmaqları altında tellərin qəribə yüngül nalələri, aydın cingildəyərək, uçuşdu və alçaq notların tutqun fonunda hürkmüş quşlar kimi çırpınmağa başladı.

Qabaqca bu səslər anaya təsir etmədi, onların axışında ana yalnız qarışıq bir cingilti eşidirdi. Bir yığın notun qarışıq çırpıntısında ananın qulağı melodiyanı seçə bilmirdi. Ana, enli divanın o biri tərəfində ayaqlarını altına yığıb oturmuş Nikolaya baxır, Sofyanın ciddi üzünü və başını, qızıla çalan gur saçlarını süzürdü. Günün zərrələri qabaqca Sofyanın başı ilə çiynini işıqlandırıb qızdırırdı, sonra isə pianonun dillərinə düşüb, qadının barmaqlarını qucaqladı, onların üstündə çırpınmağa başladı. Get-gedə musiqi otağı daha çox doldurur və ananın qəlbini, özü belə hiss etmədən, oyadırdı.

Çoxdan unudulmuş, lakin indi dəhşətli aydınlıqla canlanan bir hadisə, nədənsə keçmişin qaranlıq uçurumundan qalxıb, ananın gözü qabağında durdu.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Bir dəfə rəhmətlik əri gecədən xeyli keçmiş, bərk kefli halda evə qayıdıb onun əlindən tutdu, yataqdan yerə atdı və ayağı ilə böyründən vurub:

– İtil burdan, əclaf, daha səndən zəhləm getdi! – dedi.

Ana, özünü onun kötəyindən qorumaq üçün, iki yaşlı oğlunu tez qucağına alıb, dizi üstə çökdü və uşağı qalxan kimi qabağına tutdu. Qorxmuş, çılpaq, isti uşaq ağlayır, onun əlində çırpınırdı.

Mixail:

– İtil! – deyə bağırırdı.

Ana ayağa sıçradı, mətbəxə keçdi, koftasını çiyninə atıb, uşağı şala bürüdü və dinməz-söyləməz, səssiz, şikayətsiz, ayaqyalın, əynində bir köynək, onun üstündən bir kofta küçə ilə getməyə başladı. May idi, gecə sərindi, küçənin tozu ayaqlarına yapışıb üşüdür, barmaqlarının arasına dolurdu. Uşaq ağlayır, çırpınırdı. Ana sinəsini açıb, oğlunu bağrına basdı və qorxudan əsə-əsə yavaşdan layla deyib, küçə ilə getdi:

– Ooo... ooo!..

Səhər açılırdı. Bir adamın küçəyə çıxıb onu belə, yarıçılpaq görəcəyindən ana qorxur və utanırdı. O, bataqlığa çıxdı və sıx bitmiş cavan ağcaqovaqların altında oturdu. Ana gecənin zülməti içində gen açılmış hərəkətsiz gözlərini qaranlığa sancaraq, beləcə oturur və yuxuya getmiş körpə ilə öz incimiş qəlbinə layla deyə-deyə yavaşdan oxuyurdu:

– Ooo... ooo... ooo!..

Ananın orada keçirdiyi dəqiqələrdən birində qara, sakit bir quş onun başının üstündən ötüb uzaqlara uçdu; bu quşu ana narahat edib oyatmış, yerindən qalxızmışdı. Ana soyuqdan titrəyə-titrəyə evə, adət etdiyi dəhşətli kötək və yeni təhqirlər üçün qayıtmışdı...

Etinasız, soyuq akkord sonuncu dəfə uğultu ilə nəfəs alıb susdu.

Sofya geriyə çevrilib, yavaş səslə qardaşından soruşdu:

– Bəyəndinmi?

Nikolay, yuxudan oyadılmış kimi, diksinib:

– Çox! – dedi. – Çox...

Xatirələrin əks-sədası ananın qəlbində oxuyur, titrəyirdi. Kənardan isə, bir yandan belə fikir qalxırdı:

"Budur, bunlar da yaşayırlar: mehriban, sakit. Söyüşmür, araq içmir, qaragünlü adamlar kimi bir tikədən ötrü boğuşmurlar..."



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Sofya papiros çəkirdi.Çox çəkirdi, papiros ağzından düşmürdü.

Sofya tez tüstünü udaraq:

– Bu, rəhmətlik Kostyanın ən çox sevdiyi şeydir! – dedi və yenə yavaş və həzin bir akkord aldı. – Onun üçün çalmağı necə sevərdim... Nə qədər həssas, qəlbinazik, zəngin mənəviyyatlı adam idi...

Ana öz-özünə:

"Yəqin ərini yadına salır, – deyə düşündü. – Özü də gülümsünür..."

Sofya, tellərin yüngül nidaları ilə öz duyğularını müşayiət edərək, yavaşdan deyirdi:

– Bu adam mənə böyük səadət verdi... Necə gözəl yaşaya bilirdi...

Nikolay saqqalını əlləşdirərək:

– Bəli! – dedi. – İncə ruh idi!..

Sofya, təzəcə yandırdığı papirosu bir tərəfə atıb, üzünü anaya çevirdi və soruşdu:

– Mənim gurultum sizi dəngəsər eləmir ki, hə?

Ana gizlədə bilmədiyi narazılıqla:

– Siz məndən soruşmayın, mən heç bir şey anlamıram! – dedi. – Oturub qulaq asıram, öz-özümə fikirləşirəm...

Sofya:

– Yox, siz anlamalısınız! – dedi. – Qadın musiqini anlamaya bilməz, xüsusən ürəyi sıxılan zaman...

Sofya pianonun dillərinə barmaqları ilə bərk vurdu, bərk fəryad qopdu, sanki birisi dəhşətli bir xəbər almış, bu xəbər onun qəlbinə toxunaraq, oradan sarsıdıcı fəryad qoparmışdı. İncə səslər, qorxu içində titrəyərək, çaşmış kimi tələsə-tələsə qaçmağa başladı; yenə bütün səsləri basaraq gur, qəzəbli səs gurladı. Yəqin ki, bir fəlakət üz vermiş, lakin bu fəlakət şikayət deyil, qəzəb yaratmışdı. Sonra mülayim və güclü bir səs peyda olub, gözəl və sadə nəğmə oxuya-oxuya dilə tutdu, öz dalınca çağırdı.

Ananın ürəyi bu adamlara yaxşı bir söz demək arzusu ilə doldu. Musiqidən sərxoş olmuş kimi, ana bu bacı-qardaş üçün lazımlı bir iş görməyə özündə bacarıq hiss edir və gülümsünürdü.

Nə eləmək lazım olduğunu gözləri ilə axtararaq, ana yavaşca durub, samovara od salmaq üçün mətbəxə keçdi.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Lakin bu arzu hələ tükənməmişdi və çay tökərkən, o utana-utana gülümsünür, qəlbini, onlara və özünə verdiyi nəvazişlə isinmiş sözlərlə oxşaya-oxşaya danışırdı:

– Biz – qaragünlü adamlar hər şeyi hiss eləyirik, ancaq deməkdə çətinlik çəkirik, özümüz də xəcalət çəkirik ki, anlayırıq, amma deyə bilmirik. Çox vaxt xəcalətdən öz fikrimizə də hirslənirik. Həyat hər tərəfdən döyür, sancır, adam rahat olmaq istəyir, amma fikir qoymur.

Nikolay gözlüyünü silə-silə dinləyir, Sofya da iri gözlərini geniş açıb və sönməkdə olan papirosunu çəkməyi unudub, baxırdı. O, pianonun qabağında Nikolaya tərəf yanakı oturub, hərdənbir sağ əlinin nazik barmaqlarını dillərə vururdu. Akkord, öz hisslərini tələsə-tələsə sadə və səmimi sözlərlə ifadə edən ananın nitqinə yavaş-yavaş qarışırdı:

– Mən indi özümdən, adamlardan birtəhər danışa bilərəm, çünki anlamağa başlamışam, tutuşdura bilirəm. Əvvəl də yaşayırdım, ancaq tutuşdurmağa bir şey tapmırdım. Bizlərdə hamı bir cür yaşayır. Amma indi özgələrin də nə cür yaşadığını görürəm, özümün necə yaşadığımı da yadıma salıram – qəlbim acıyır, ürəyim sıxılır.

Ana sözünə davam edərək, səsini alçaltdı:

– Bəlkə mən bir şeyi lazım olduğu kimi demirəm, bəlkə heç bunu demək də lazım deyil, çünki siz özünüz hər şeyi bilirsiniz...

Ana qəhərləndi, səsi titrədi, bacı-qardaşa təbəssümlə baxaraq:

– Ancaq sizə ürəyimi açmaq istəyirəm ki, sizə necə yaxşılıq, xoş gün arzuladığımı görəsiniz! – dedi.

Nikolay yavaşdan:

– Biz görürük! – dedi.

Ana öz arzusunu istədiyi kimi dolğun ifadə edə bilmir və yenə özü üçün təzə olan, olduqca qiymətli görünən sözləri onlara deyirdi. İnciklik və əzab içində səbirlə keçirmiş olduğu həyatından onlara nağıl edir, qara günlərinin səhifələrini acıqsız, təəssüfdən doğan təbəssümə çevirir, ərinin kötəklərini sayır, bu kötəklərə səbəb olan bəhanələrin nə qədər dəyərsiz və boş olduğuna özü də heyrət edir, bu kötəklərdən xilas olmağı bacarmadığına təəccüblənirdi...

Heyvan sayılan, şikayətlənmədən uzun müddət özünü beləcə, heyvan kimi hiss edən bu insanın sadə tarixcəsinin dərin mənası bacı ilə qardaşı öz ağırlığı altında əzirdi, onlar sükut içində ananın



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

nitqini dinləyirdilər. Ananın dili ilə sanki minlərlə həyat danışırdı; onun yaşadığı həyat adi və sadə idi, lakin bu sadə və adi həyatla yaşayanlar yer üzündə saysız-hesabsızdı və ananın tarixçəsi bir simvol əhəmiyyətini alırdı. Nikolay, dirsəklərini masanın üstünə qoyub, başını ovucları içinə alıb, gözlüyünün altından diqqətlə qıyılmış gözlərini anaya dikərək tərpənmirdi. Sofya, stulun arxasına söykənib, başını bulayır və hərdənbir diksinirdi. Onun üzü daha arıq və ağarmış görünürdü; o, papiros çəkmirdi.

Sofya başını aşağı salıb, danışmağa başladı:

– Bir dəfə mən özümü bədbəxt sandım; həyatım mənə titrətmə-qızdırma kimi görünürdü. O zaman kiçik bir qəza şəhərində sürgündə idim. Görməli bir iş, özümdən başqa düşünməli bir şey yox idi. Mən bikarçılıqdan bütün bədbəxtliklərimi bir-birinin üstünə yığıb, çəkiyə qoyurdum: budur, istəkli atamla sözə gəldim, gimnaziyadan qovub təhqir elədilər, dustaqxana, yaxın bir yoldaşımın xəyanəti, ərimin tutulması, yenə dustaqxana və sürgün, ərimin vəfatı. O zaman elə bildim ki, yer üzündə ən bədbəxt adam mənəm. Ancaq mənim bütün bədbəxtliyim, onqat artıq olsa da, sizin bir aylıq həyatınıza dəyməz, Pelageya Nilovna... Bu, illər uzunu gündəlik əzabdır... Bu əzaba dözmək üçün insanlar haradan qüvvə alırlar?

Vlasova ah çəkib:

– Alışırlar! – dedi.

Nikolay fikirli halda:

– Mən həyatı bildiyimi zənn edirdim! – dedi. – Ancaq həyatdan kitab, yaxud mənim dağınıq təəssüratım deyil, indiki kimi, həyatın özü xəbər verəndə, adamı dəhşət götürür. Dəhşətli olan – xırda hadisələrdir, dəhşətli olan – əhəmiyyətsiz şeylər, illəri təşkil edən dəqiqələrdir...

Söhbət axır, genişlənir, işıqsız həyatı hər tərəfdən əhatə edirdi; ana öz xatirələrinə dalır, keçmişin qaranlığından hərgünkü inciklik və həqarəti üzə çıxarır, cavanlığını boğmuş olan dilsiz dəhşətin ağır mənzərəsini yaradırdı. Nəhayət:

– Sizi lap dəng elədim! – dedi. – Siz dincəlməlisiniz. Danışmaqla qurtaran deyil...

Qardaşla bacı dinməz-söyləməz ondan ayrıldılar. Anaya elə gəldi ki, bu dəfə Nikolay onun qarşısında başını həmişəkindən daha



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

çox əydi və əlini daha bərk sıxdı. Sofya isə onu otağına kimi ötürüb, qapıda dayandı və yavaş səslə:

– Rahatlanın, gecəniz xeyrə qalsın! – dedi.

Onun səsində mehribanlıq duyulurdu, ala gözləri məhəbbətlə ananın üzünü oxşayırdı...

Ana, Sofyanın əlini əlinə alıb, bərk sıxaraq:

– Sizdən çox razıyam! – dedi.

## IV

Bir neçə gündən sonra ana ilə Sofya, yoxsul şəhərli qadınlar kimi köhnə çit paltar və kofta geyinmiş, dallarında torba, əllərində ağac, Nikolayın qabağında durdular. Sofyanın geyimi onun boyunu alçaltmış, solğun üzünə daha ciddi və sərt ifadə vermişdi.

Bacısı ilə görüşüb ayrılarkən, Nikolay bərk-bərk onun əlini sıxdı, ana onların rəftarındakı sadəlik və səmimiyyəti bir daha gördü. Nə öpüş olurdu, nə də şirin sözlər, halbuki bunlar bir-birinə səmimi, dərin məhəbbət bəsləyirdilər. Ana yaşadığı yerdə adamlar çox öpüşür, tez-tez mehriban sözlər danışır və daim ac itlər kimi bir-birini qapırdılar.

Qadınlar, dinməz-söyləməz, şəhərin küçələrini ötüb, çölə çıxdılar və iki cərgə qoca qayın ağaclarının arası ilə gedən geniş və tapdanmış yol ilə çiyin-çiyinə yeriməyə başladılar. Ana Sofyadan soruşdu:

– Yorulmazsınız ki?

– Elə bilirsiniz, mən az gəzmişəm? Belə şeylərə alışmışam...

Sofya gülə-gülə, uşaqlıq dəcəlliyi ilə öyünürmüş kimi, anaya öz inqilabi fəaliyyətindən danışmağa başladı. O, saxta sənədlərdən istifadə edərək, başqa adla yaşayır, casuslardan qaçaraq paltarını dəyişir, qadağan edilmiş kitabları pudlarla cürbəcür şəhərlərə daşıyır, sürgün edilmiş yoldaşları qaçırdır, onları xarici ölkəyə keçirirmiş. Onun mənzilində gizlin mətbəə varmış, jandarmlar bundan xəbərdar olub axtarışa gələndə, o, onlardan bir dəqiqə əvvəl ev qulluqçusu paltarı geyinib evdən çıxmış və küçə qapısında öz qonaqlarına rast gəlib, keçib getmiş, paltosuz, başında nazik çarqat və əlində neft qabı qışın soyuğunda, şaxtada bütün şəhəri bu başından



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

o başına gəzmişdi. Bir dəfə də o yad bir şəhərə öz tanışlarıgilə gəlir və pilləkənlə tanışlarının mənzilinə qalxarkən, orada axtarış getdiyini görür, geri qayıtmaq mümkün olmadığı üçün aşağı mərtəbədəki bir qapının zəngini cəsarətlə basır, əlində çamadan tanımadığı adamların mənzilinə girib vəziyyəti açıq-açığına onlara nağıl edir və qətiyyətlə:

– İstəsəniz, məni ələ verə bilərsiniz, ancaq güman edirəm ki, siz belə eləməzsiniz! – deyir.

Onlar bərk qorxuya düşür, səhərə kimi yatmayıb, hər dəqiqə qapılarının döyüləcəyini gözləyirlər, lakin onu jandarmlara təslim eləməyə cürət eləmirlər; səhər isə onun özü ilə bərabər jandarmlara gülürlər. Yenə bir dəfə, rahibə paltarı geyib onu izləyən və öz ustalığından dəm vuraraq inqilabçıları nə cür izlədiyini nağıl edən casusla bir vaqonda, həm də bir skamyada gedirmiş. Casus onun həmən qatarda ikinci dərəcəli vaqonda olduğunu güman edir, hər stansiyada vaqondan düşür və qayıdaraq ona:

– Gözə dəymir, yəqin yatıbdır. Onlar da yorulur, bizimki kimi onların da yaşayışı çətindir! – deyirmiş.

*Ana onun danışdıqlarına qulaq asır, gülür və ona nəvazişlə* baxırdı. Ucaboy, arıq Sofya yüngül və möhkəm addımlarla yeriyirdi. Onun yerişində, danışığında, bir qədər boğuq, lakin gümrah səsində, şax qamətində mənəvi sağlamlıq, sevinc dolu cəsarət vardı! Gözləri hər şeyə gənclik hissi ilə baxır, hər yerdə onu gənclik nəşəsilə şadlandıran bir şey görürdü. Sofya anaya bir ağacı nişan verərək:

– Bir baxın, nə gözəl şam ağacıdır! – deyə qışqırırdı.

Ana dayanır, baxır, bu ağacın o birilərindən uca, ya qalın olmadığını gördükdə, gülə-gülə:

– Yaxşı ağacdır! – deyir və qadının qulaqları üstündəki çal saçlarının küləkdə oynadığına baxırdı.

– Torağay! – Sofyanın ala gözləri sevinclə alovlanır, bədəni sanki yerdən üzülüb, aydın yüksəklikdə səslənən görünməz musiqiyə sarı qalxırdı. Hərdənbir o cəld əyilib, çöl çiçəyi dərir və titrəyən ləçəkləri nazik barmaqlarının yüngül və nazlı hərəkətilə tumarlayır, oxşayırdı. Həm də pəsdən və gözəl səslə nə isə oxuyurdu.

Bunların hamısı ananın ürəyini bu aydın baxışlı qadına yaxınlaşdırır, ana da onunla bir yerişlə getməyə çalışaraq, biixtiyar ona



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

sığınırdı. Bəzən də Sofyanın sözlərində birdən sərt ahəng duyulurdu; bu ahəng anaya yersiz görünür və ürəyinə qorxu damırdı:

"Mixaylonun xoşuna gəlməyəcək!.."

Bir dəqiqədən, sonra Sofya yenə sadə və ürəkdən danışmağa başlayırdı; ana da gülümsünərək onun gözlərinə baxırdı.

Ana ah çəkib:

– Siz hələ necə cavansınız! – dedi.

Sofya:

– Oho, mən otuz iki yaşındayam!

Vlasova gülümsündü:

– Mən onu demirəm, görünüşünüzdən sizə daha artıq yaş vermək olar. Sizin gözlərinizə baxanda, söhbətinizə qulaq asanda adam heyrətə gəlir, elə bil cavan qızsınız. Gününüz narahat və ağırdır, təhlükəlidir, qəlbiniz isə gülümsəyir.

– Mən çətinlik hiss etmirəm və bundan daha yaxşı, daha maraqlı bir həyat təsəvvürümə gətirə bilmərəm... Mən sizi Nilovna çağıracağam; Pelageya sizə yaraşmır.

Ana fikirli halda:

– İstədiyiniz kimi çağırın! – dedi. – Nə cür istəyirsiniz, elə də çağırın. İndi mən sizə baxıram, qulaq asıram, öz-özümə düşünürəm. İnsan qəlbinə gedən yolları bilməyiniz məni şad edir. İnsanın qəlbi sizdən hürkmür, qapılarını sizin qabağınızda qorxusuz açır. Odur ki, sizin hamınızı düşünüb deyirəm: bunlar həyatdakı çirkinlikləri yox edərlər, yəqin yox edərlər!

Sofya uca və inandırıcı səslə:

– Biz qalib gələcəyik, çünki fəhlə xalqla birik! – dedi. – Bütün imkanlar bu fəhlə xalqdadır, onunla hər arzuya çatmaq olar! Ancaq onun yüksəlməyə imkan verilməyən şüurunu oyatmaq lazımdır...

Onun sözləri ananın qəlbində çətin anlaşılan bir hiss oyadırdı; ananın nədənsə ona yaxın bir dost kimi yazığı gəlirdi, ana ondan başqa, daha sadə sözlər eşitmək istəyirdi.

Ana yavaş və kədərli səslə:

– Bu zəhmətlərin əvəzini sizə kim verəcəkdir? – deyə soruşdu.

Anaya elə gəldi ki, Sofya iftixarla cavab verdi:

– Biz artıq mükafatımızı almışıq! Biz özümüzü razı salan bir həyatla yaşayırıq, biz bütün qəlbimizlə, varlığımızla yaşayırıq. Bundan artıq daha nə istəmək olar?



Created with nitro PDF professional
download the free trial online at nitropdf.com/professional

Ana ona baxdı və başını aşağı salıb yenə öz-özünə fikirləşdi: "Mixaylo onu bəyənməyəcək..."

Şirin hava ilə dərindən nəfəs ala-ala onlar, iti addımlarla olmasa da, hər halda tez-tez yeriyirdilər və ana özünü ziyarətə gedən kimi hiss edirdi. O, uşaqlığını və kənddən uzaqda olan monastırda möcüzəli ikona bayramına gedərkən hiss elədiyi fərəhi, şadlığı yadına salırdı.

Hərdənbir Sofya pəsdən, gözəl səslə səma, eşq haqqında ananın bilmədiyi təzə nəğmələr oxuyur, ya da çöldən, meşədən, Volqadan şeirlər deyirdi, ana da biixtiyar şerin musiqisinə tabe olaraq, onun ahənginə uyğun başını tovlayır və gülə-gülə qulaq asırdı.

Yay axşamı balaca, qədim bağçada olduğu kimi, onun qəlbi hərarətli, sakit və fikirli idi.

## V

Üçüncü gün onlar kəndə yetişdilər; ana çöldə işləyən kəndlidən qatran zavodunun yerini soruşdu və çox keçmədi ki, onlar meşə cığırı ilə, – ağacların kökləri cığırda pillə-pillə uzanırdı, – kömür və çör-çöplə zibillənmiş, qatrana batmış girdə balaca bir talaya getdilər.

Ana nigarançılıqla ətrafını süzərək:

– Budur, gəldik! – dedi.

Başdan-ayağa qaralmış, yaxası açıq köynək geymiş Rıbin, Yefim və başqa iki cavan oğlan ağac və budaqlardan qayrılmış koma yanında yerə basdırılan üçayaqlı kürsülərin üstünə qoyulan rəndələnməmiş üçtaxtalı masanın dövrəsində əyləşib nahar eləyirdilər. Hamıdan əvvəl onları Rıbin gördü və əlini gözlərinə tutub gözləməyə başladı.

Ana hələ uzaqdan:

– Xoş gördük, Mixaylo qardaş! – deyə çığırdı.

Mixaylo yerindən qalxıb yavaş-yavaş onların qabağına yeridi, ananı tanıyıb dayandı və gülümsünə-gülümsünə, qaralmış əli ilə saqqalını tumarladı. Ana ona yaxınlaşıb:

– Ziyarətə gedirik! – dedi. – Buradan keçəndə, dedim qoy, bir qardaşıma dəyim, kefini xəbər alım! Bu da mənim yoldaşımdır, adı Annadır...



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Öz uydurmalarından iftixar hissi duyan ana, Sofyanın ciddi və sərt üzünə çəpəki baxdı.

Rıbin qaşqabaqlı halda gülümsündü, onun əlini sıxdı, Sofyaya baş əydi və:

– Salam! – deyib sözünə davam etdi: – Yalan danışma, bura şəhər deyil, yalan nə lazım? Burada hamı öz adamlarımızdır...

Yefim, masa başında oturub, diqqətlə gələnlərə baxır və vızıldayan səslə yoldaşlarına nə isə nağıl edirdi. Qadınlar masaya yaxınlaşanda o, ayağa qalxıb dinmədən onlara baş əydi, onun yoldaşları hərəkətsiz oturmuşdular, sanki qonaqları görmürdülər.

Rıbin ehmalca Vlasovanın çiyninə vuraraq:

– Biz burada rahib kimi yaşayırıq! – dedi. – Heç kəs yanımıza gəlmir, sahibkar kənddə deyil, arvadını da xəstəxanaya aparıblar, mən də indi müdir əvəzindəyəm. Buyurun, əyləşin, yəqin ki, acsınız? Yefim, süd tapaydın!

Yefim yavaş addımlarla komaya getdi, gələnlər öz bağlamalarını dallarından açırdılar, oğlanlardan ucaboy və arığı masanın başından qalxıb onlara kömək edir, enlikürək, pırtlaşıq saçlı ikinci oğlan isə masaya dirsəklənib, fikirli halda başını qaşıyaraq, bir nəğmə mızıldaya-mızıldaya onlara tamaşa edirdi.

Qatranın tünd iyi çürüyən yarpağın ağır qoxusuna qarışaraq başı gicəlləndirirdi.

Rıbin ucaboy oğlanı nişan verərək:

– Bax, bunun adı Yakovdur, – dedi, – o da İqnatdır. Sənin oğlun necədir?

Ana ah çəkib:

– Dustaqdır! – dedi,

Rıbin heyrətlə:

– Yenə dustaqdır? Görünür, xoşuna gəlib...

İqnat mızıltısını kəsdi. Yakov da ananın əlindən ağacını alıb:

– Otur! – dedi.

Rıbin Sofyaya:

– Bəs niyə durmusunuz? Əyləşin! – dedi.

Sofya diqqətlə Rıbini süzərək, ağac kötüyünün üstündə oturdu.

Rıbin ananın qabağında əyləşib:

– Havaxt apardılar? – soruşdu və başını buladı. – Sənin bəxtin gətirmir, Nilovna!



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Ana:

– Eyibi yoxdur! – deyə cavab verdi.

– Hə? Alışırsan?

– Alışmıram, ancaq görürəm ki, bunsuz olmaz!

Rıbin:

– Bəli! – dedi. – Di nağıl elə, görək...

Yefim bir badya süd gətirib, masanın üstündən çanağı götürdü, su ilə yaxaladı və süd töküb diqqətlə ananın söhbətinə qulaq asa-asa, Sofyanın qabağına qoydu. O, səssiz və ehtiyatla tərpənirdi. Ana öz qısaca hekayəsini qurtaranda, hamı başını aşağı salıb, bir-birinin üzünə baxmadan, bir dəqiqə fikrə getdi. İqnat masanın başında oturub dırnağı ilə taxtaya naxış çəkirdi. Yefim Rıbinin dalında durub, onun çiyninə dirsəklənmişdi. Yakov ağaca dayanıb, əlləri qoynunda, başını aşağı salmışdı. Sofya kəndliləri gözaltı süzürdü...

Rıbin sözü uzada-uzada, qaşqabaqla:

– Bə-ə-ə-əli! – dedi. – Deməк, belə, açıqcasına!..

Yefim acı-acı gülümsündü:

– Əgər bizlərdə belə nümayiş düzəldilsəydi, kəndliləri ölənəcən döyərdilər!

İqnat da başı ilə təsdiq edib:

– Döyərdilər! – dedi. – Yox, mən fabrikə gedəcəyəm, ora yaxşıdır...

Rıbin soruşdu:

– Demək, Paveli mühakimə eləyəcəklər, hə? Bəs sonra, cəzası nə ola bilər, eşitməmisən ki?

Ana yavaşdan:

– Ya katorqa, ya da ömürlük Sibirə sürgün! – deyə cavab verdi. Oğlanların üçü də birdən onun üzünə baxdı, Rıbin isə başını aşağı salıb, ağır-ağır xəbər aldı:

– Bəs o necə, bu işi başlayanda cəzasını bilirdimi?

Sofya ucadan cavab verdi:

– Bilirdi!

Hamı soyuq bir fikir pəncəsində donmuş kimi susub yerində qaldı.

Rıbin sərt və qürurlu bir əda ilə sözünə davam edərək:



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

– Bəli! – dedi. – Mənim də fikrimcə, bilirmiş. O, ölçməmiş tullanmaz, ciddi oğlandır. Hə, uşaqlar, gördünüzmü? Bilə-bilə ki, onu süngü ilə vurarlar, katorqaya da göndərərlər, o yenə də bu işə getdi. Anası yoluna sərilsəydi, onun üstündən də adlayıb gedərdi. Gedərdimi, Nilovna, sənin üstündən adlardımı?

Ana diksinərək:

– Adlardı! – dedi və dərindən ah çəkib ətrafına baxdı.

Sofya dinməz-söyləməz onun əlini tumarladı və qaşlarını çatıb, dik Rıbinin üzünə baxdı.

Rıbin yavaş səslə:

– Bax, adam buna deyərlər! – dedi və qara gözləri ilə hamını süzdü. Altı adam yenə susdu. Günəşin ensiz şüaları qızıl lent kimi havadan sallanırdı. Harada isə qarğa arxayınca qarıldayırdı. Bir May haqqındakı xatirələrindən, oğlu ilə Andreyin fikrindən halı pozulmuş ana ətrafına baxırdı. Kiçik, darısqal talada boş qatran çəllələri böyrü üstə yatır, yerdən qazılmış kötüklər dikəlirdi. Tala ətrafını alan palıd və qayın ağacları elə bil hər tərəfdən ona hücum edir və sükut içində hərəkətsiz qalaraq yerə qara, xoş kölgə sərirdi.

Birdən Yakov ağacdan qopub, yana addım atdı və dayanaraq başını silkələdi, bir qədər sərtliklə ucadan soruşdu:

– Mənimlə Yefimi belələrinə qarşımı qoyacaqlar?

Rıbin acı sual ilə cavab verdi:

– Bəs sən deyirdin kimə qarşı? Bizi öz əlimizlə boğurlar, hiylə də elə burasındadır!

Yefim yavaşdan, inadla:

– Hər necə olsa, mən yenə də əsgərliyə gedəcəyəm! – dedi.

İqnat:

– Sənin qabağını kəsən yoxdur ki! Gedirsən, get! – deyə qışqırdı və dik Yefimin üzünə baxaraq qımışdı: – Ancaq məni nişana alanda, düz başımı nişanla... Şikəst eləmə, birdən öldür!

Yefim hirslə:

– Bu sözləri eşitmişəm! – deyə qışqırdı.

Rıbin oğlanları süzərək, yavaş hərəkətlə əlini yuxarı qalxızdı:

– Dayanın, uşaqlar! – dedi və ananı göstərərək əlavə elədi: – Bax, bu arvadı görürsünüzmü? Oğlu yəqin ki, indi tələf olacaq...

Ana qüssəli və yavaş səslə soruşdu:

– Niyə belə deyirsən?



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Rıbin qaşqabaqla cavab verdi:

– Lazımdır! Sənin saçların nahaq yerə ağarmamalıdır. Elə bilirsiniz bununla onu öldürə bildilər? Nilovna, kitab gətirmisənmi?

Ana onun üzünə baxdı və bir az sükutdan sonra:

– Gətirmişəm! – dedi.

Rıbin əlini masaya vurub:

– Bəli! – dedi. – Mən səni görcək, işi başa düşdüm; bu iş olmasaydı, sən buralarda nə gəzirdin? Gördünüzmü? Oğlunu cərgədən çıxartdılar, özü oğlunun yerini tutdu!

O, hirslə əlini silkələyib, nəyi isə hədələyərək, ana söyüşü söydü.

Ana onun qışqırığından qorxub, onun üzünə baxdı və Mixaylonun çox dəyişildiyini gördü: o arıqlamış, pırtlaşmış saqqalının altından üzünün sümükləri çıxmışdı. Yuxusuz adamlar kimi, gözlərinin maviyə çalan ağına nazik qırmızı damarlar çəkilmişdi, burnu incəlmiş və yırtıcı dimdiyi kimi uzunsov olmuşdu. Bir zaman rəngi qırmızı olan, indi isə qatrana bulanmış köynəyinin açıq yaxasından quru görpücük sümüyü və sıx qara tüklü döşü görünürdü; indi onun bütün görkəmində daha artıq tutqunluq və matəm sezilirdi. Qızarmış gözlərinin parıltısı onun qara üzünü qəzəb alovu ilə işıqlandırırdı. Rəngi qaçmış Sofya, cınqırını çıxarmadan, gözlərini kəndlilərdən çəkmirdi, İqnat gözlərini qıyıb başını bulayırdı, Yakov isə, yenə koma yanında durub, qara barmaqları ilə hirsli-hirsli ağacın qabığını soyurdu. Yefim yavaş addımlarla ananın arxasında masa uzunu gəzinirdi.

Rıbin sözünə davam etdi:

– O günləri məni zemstvo sədri çağırmışdı! "Ey əclaf, – dedi, – keşişə nə demisən?" "Mən niyə əclaf oluram? – dedim, – mən öz zəhmətimlə bir parça çörək qazanıram, heç kəsə də bir pislik eləmirəm, vəssalam!" O, mənim üstümə bağırıb, ağzıma vurdu... Üç gün dustaq yatdım. Demək, siz xalqla belə rəftar edirsiniz? Beləmi? Ah, məlun, aman gözləmə! Mən olmasam da, bir başqası, səndən də olmasa, sənin övladından mənim bu acığımı çıxaracaq, yadında saxla! Dəmir dırnaqlarla xalqın qəlbini qazıb, orada qisas toxumu əkmisiniz, ey zalımlar, aman gözləməyin! Vəssalam.

Onun qəlbində qəzəb qaynayır, səsində isə ananı qorxudan nişanələr duyulurdu.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Sonra sakitləşərək davam elədi:

– Keşişə də nə demişdim ki? Kəndlilərin yığıncağından sonra keşiş kəndlilərlə küçədə oturub, onlara deyirdi ki, guya insanlar sürüdür, onlara həmişə çoban lazımdır, belə! Mən də zarafatla dedim: "Əgər tülkünü meşəyə bəy eləsələr, quş tükü bol olar, ancaq quş tapılmaz". Keşiş mənə çəp-çəp baxıb, camaata nəsihət eləməyə başladı ki, bəs xalq gərək səbir eləsin və Allaha dua eləsin ki, o, xalqa səbir üçün qüvvət versin. Mən də dedim: "Xalq çox dua eləyir, ancaq görünür, Allahın vaxtı yoxdur, eşitmir!" Belə. O məni yaxaladı ki, hansı duaları oxuyuram. Dedim, bütün xalq kimi, mən də ömrümdə bircə dua bilirəm: "İlahi, ağalar üçün daş daşımağı, kəsək yeməyi, odun tüpürməyi mənə öyrət!" O, sözümü qurtarmağa da macal vermədi...

Rıbin birdən sözünü kəsib, Sofyadan:

– Siz xanımsınız? – deyə soruşdu.

Sofya bu gözlənilməz sualdan diksindi:

– Niyə mən xanım oluram?

– Niyə? – Rıbin, qımışdı. – Taleyiniz belədir, anadan xanım olmusunuz! Belə. Elə bilirsiniz, çit yaylıqla zadəganlıq günahını xalqdan gizləmək olar? Biz keşişi həsirdə də tanıyırıq. Siz dirsəyinizi masanın üstündə yaş yerə qoydunuz, diksindiniz, üzünüzü turşutdunuz. Bir də, sizin beliniz çox düzdür, fəhlə beli kimi əyilməyibdir...

Onun öz ağır səsi, qımışması və sözləri ilə Sofyanı incidə biləcəyindən qorxan ana tələsik ciddiyyətlə danışdı:

– Mixaylo İvanoviç, o, mənim yoldaşımdır, yaxşı adamdır, bu işdə birçəyini ağardıb. Sən özünü yığışdır...

Rıbin ağır nəfəs aldı:

– Mən inciməli bir söz demirəm ki.

Sofya ona baxıb, quruca soruşdu:

– Siz mənə nə isə demək istəyirdiniz?

– Mən? Bəli! Bura təzə bir adam gəlibdir, Yakovun əmisi oğludur, naxoşdur, vərəmdir. Onu bura çağırmaq olarmı?

Sofya:

– Niyə olmur, çağırın! – deyə cavab verdi.

Rıbin gözlərini qıyıb onun üzünə baxdı və səsini alçaldaraq:

– Yefim! – dedi. – Bir onun dalınca getsənə; de ki, gecə bura gəlsin, belə.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Yefim kartuzunu qoyub, bir söz demədən, heç kəsin üzünə baxmadan, yavaş addımlarla meşədə gözdən itdi. Rıbin onun dalınca başı ilə işarə edib, batıq səslə dedi:

– Çox əziyyət çəkir! Soldatlığa getməlidir, o, bir də bu Yakov. Yakovun sözü qısadır: gedə bilmərəm. O da gedə bilmir, ancaq getmək istəyir... Elə bilir ki, soldatları yerindən oynatmaq olar. Mənə qalırsa, alınla divarı yarmaq olmaz... Görürsən – süngüləri əllərinə alıb getdilər. Belə, çox əzab çəkir.

İqnat da onun ürəyini didir, nahaq yerə!

İqnat Rıbinin üzünə baxmadan, acıqlı-acıqlı:

– Heç də nahaq yerə deyil! – dedi. – Orada onu elə hazırlarlar ki, güllə atmaqda o birilərindən geri qalmaz...

Rıbin fikirli halda:

– İnanmıram! – dedi. – Ancaq necə olsa, bundan yaxa qurtarmaq yaxşıdır. Rusiya böyükdür – harada tapacaqlar? Bir pasport əlinə keçirtdin, düş kəndlərin canına...

İqnat ağac qırığı ilə ayağına döyə-döyə:

– Mən belə də eləyəcəyəm! – dedi. – İndi ki, onlara qarşı çıxmışıq, düzünə getmək lazımdır!

Söhbətin arası kəsildi. Qayğı ilə vızıldaşan, bununla sükutu daha da kəskinləşdirən arılar uçuşurdu. Quşlar çiggildəşir, uzaqlardan gələn mahnı səsi çöllərə yayılırdı. Bir qədər sükutdan sonra Rıbin dedi:

– Daha biz işə başlamalıyıq... Bəlkə siz dincəlmək istəyirsiniz? Orada, komada taxt var. Yakov, bunlar üçün quru yarpaq yığ... Sən də kitabları çıxart, ana...

Ana ilə Sofya bağlamalarını açmağa başladılar. Rıbin onların başı üstündə durub razılıqla deyirdi:

– Az gətirməmisiniz, paho! – sonra Sofyaya müraciətlə soruşdu: – Çoxdanmı bu işdəsiniz, adınız nədir?

Sofya cavab olaraq:

– Anna İvanovna! – dedi. – On iki ildir... Necə ki?

– Heç. Yəqin dustaq da olmusunuz?

– Olmuşam.

Ana yavaş və məzəmmətedici səslə:

– Gördünmü! – dedi. – Hələ sən də onun yanında kobud-kobud danışırdın...



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Rıbin bir az sükut etdi və kitablardan bir dəstə əlinə alıb, dişlərini ağartdı:

– Siz məndən inciməyin! Kəndli ilə ağa – su ilə ağac şirəsi kimidir, qovuşmaqları çətindir, aralanırlar!

Sofya mülayim təbəssümlə etiraz etdi:

– Mən xanım deyiləm, adamam!

Rıbin cavab olaraq:

– Bu da ola bilər! – dedi. – Deyirlər ki, it bir vaxt qurd imiş. Gedim, bunları gizlədim.

İqnat və Yakov ona yaxınlaşıb, əllərini uzatdılar.

İqnat:

– Bizə ver görək! – dedi.

Rıbin Sofyaya üzünü tutub:

– Hamısı birdirmi? – deyə soruşdu.

– Cürbəcürdür. Burada qəzet də var...

– Hə?

Onların üçü də tələsik komaya getdi.

Ana fikirli nəzərlə onları yola salıb yavaşdan:

– Kişi yanır! – dedi.

Sofya cavab olaraq:

– Bəli! – dedi. – Mən ömrümdə onun sifəti kimi sifət görməmişəm, elə bil din mücahididir! Biz də ora gedək, onlara tamaşa eləmək istəyirəm...

Ana alçaqdan xahiş elədi:

– Siz onun sərtliyindən inciməyin...

Sofya gülümsündü:

– Nilovna, siz nə gözəl insansınız...

Onlar qapıda dayananda, İqnat başını qalxızıb onlara ötəri nəzər saldı və barmaqlarını qıvrım saçına keçirib, başını dizini üstündəki qəzetə əydi; Rıbin, ayaq üstə duraraq, damın deşiyindən içəri düşən günəş şüasını kağıza salıb, qəzeti şüa altında gəzdirə-gəzdirə oxuyur və dodaqlarını tərpədirdi; Yakov da dizi üstə çökərək və döşünü taxtın kənarına dayayıb oxuyurdu.

Ana keçib komanın bir bucağında oturdu; Sofya da, onun çiyinlərini qucaqlayıb, dinməz-söyləməz tamaşa eləməyə başladı.

Yakov, dönmədən, yavaş səslə:



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

– Mixaylo dayı, – dedi, – bizləri, kəndliləri burada söyürlər.

Rıbin başını çevirib ona baxdı və gülümsünərək:

– Bu, istəməkdəndir! – dedi.

İqnat, dərindən nəfəs alıb, başını qalxızdı və gözlərini yumub:

– Burada yazıblar ki, "kəndli adamlıqdan çıxıb" – doğrudan da çıxıb! – dedi.

Onun sadə və açıq üzündən inciklik kölgəsi keçdi:

– *Gəl, bir mənim donuma gir, bir mənim kimi dolan, onda* görüm sən nə olarsan, ağıllı!

Ana yavaşdan Sofyaya:

– Mən uzanmaq istəyirəm! – dedi. – Bir az yorulmuşam, bu qoxudan da başım hərlənir. Siz necə?

– Mən uzanmaq istəmirəm.

Ana taxtın üstündə uzanıb mürgülədi. Sofya onun başının üstündə oturub, oxuyanlara tamaşa edir və bir arı, ya milçək ananın üzü üstündə hərlənəndə, onu qovurdu. Ana yarıyumulu gözlərinin arasından bunu görür və Sofyanın bu qeydkeşliyindən xoşhallanırdı.

Rıbin onlara yaxınlaşıb pıçıltı ilə soruşdu:

– Yatıb?

– Yatıb.

Rıbin, bir qədər sükut edib, diqqətlə ananın üzünə baxdı və ah çəkib yavaşdan:

– Bəlkə bu birinci anadır ki, oğlu getdiyi yol ilə, onun dalınca gedir, birincidir! – dedi.

Sofya:

– Qoyun yatsın, gəlin buradan gedək, – deyə təklif elədi.

– Elədir, həm də biz işə başlamalıyıq. Danışmaq istəyirdim, ancaq axşama qalsın! Uşaqlar, gəlin!

Onların üçü də, Sofyanı komanın yanında qoyub getdi. Ana isə öz-özünə düşündü:

"Yaxşı oldu, şükür Allaha! Dostlaşdılar..."

Bunu fikirləşib kəskin qatran və meşə ətri ilə nəfəs ala-ala rahat yuxuya getdi.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

## VI

İşlərini qurtardıqlarına görə sevinən qatrançılar gəldilər.

Onların səsinə oyanan ana əsnəyə-əsnəyə, gülümsünə-gülümsünə komadan çıxdı. Mehriban gözləri ilə hamını süzərək:

– Siz işlədiniz, mən də xanım kimi yatıb yuxumu aldım! – dedi.

Buna cavab olaraq Rıbin:

– Sənə bağışlanır! – dedi. O, bayaqkından daha sakit idi, yorğunluq ondakı həyəcanı yatırtmışdı.

Rıbin İqnatı çağıraraq:

– İqnat, bir çay tədarükü gör! – dedi. – Biz burada növbə ilə evdarlıq eləyirik, bu gün İqnata qonağıq!..

İqnat:

– Mən öz növbəmdən keçə bilərəm! – dedi və danışanlara qulaq asa-asa, tonqal üçün budaq və çır-çırpı toplamağa başladı.

Yefim Sofyanın yanında əyləşib:

– Qonaqlar hamı üçün maraqlıdır! – dedi.

Yakov yavaşdan:

– Mən sənə kömək elərəm, İqnat! – deyib komaya girdi və oradan bir çörək kömbəsi çıxarıb doğramağa, masanın üstünə düzməyə başladı.

Yefim yavaşdan:

– Eşidirsinizmi? – dedi. – Öskürür...

Rıbin qulaq asıb, başı ilə işarə elədi və:

– Elədir, gəlir... – dedi.

Sonra da üzünü Sofyaya tutub, izah elədi:

– Bu saat şahid gələcək. Mən onu şəhərbəşəhər gəzdirib meydanlarda qoyardım ki, xalq ona qulaq assın. Dediyi bircə şeydir, amma onu hamı eşitməlidir...

Sükut və qaranlıq qatılaşır, adamların səsi mülayimləşirdi. Sofya ilə ana kəndlilərə diqqət yetirirdilər. Onların hamısı yavaş-yavaş, ağır-ağır, qəribə bir ehtiyatla tərpəşir və qadınları süzürdü.

Meşədən uca boylu, donqar bir adam talaya çıxdı; o, ağacına möhkəm dayanaraq, yavaş-yavaş yeriyirdi, xırıltılı nəfəsi eşidilirdi:

– Bu da mən! – deyib öskürməyə başladı.

O, uzun, dabanlarına dəyən köhnə bir palto geymişdi, sarımtıl, düz, seyrək saçları yumru və əzik şlyapasının altından sallanırdı.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Sümükləri çıxmış, arıq və sarı üzünü açıq rəngli saqqal örtürdü, ağzı yarıaçıq idi, gözləri alnının lap altında dərin qaranlıq çuxurlardan, qızdırmalı adamın gözləri kimi parıldayırdı.

Rıbin onu Sofya ilə tanış edəndə, o:

– Eşitdiyimə görə, kitab gətirmisiniz? – deyə soruşdu.

– Gətirmişəm.

– Sağ olun... xalqın əvəzindən deyirəm! Xalqın özü hələ həqiqəti sezə bilmir... Amma mən həqiqəti tapmışam... ona görə xalqın əvəzindən sizə razılıq eləyirəm.

O, tez-tez nəfəs alır, havanı kəsik-kəsik, doymaq bilməyən nəfəsi ilə içəri çəkirdi. Onun səsi kəsilir, gücsüz nazik barmaqları paltonu düyməmələmək arzusu ilə sinəsində gəzirdi.

Sofya:

– Bu vaxt meşədə olmaq sizin üçün zərərlidir! – dedi. – Meşə qalın yarpaqlıdır, havası nəmdir, bürkülüdür.

O, nəfəsi tutula-tutula:

– Mənim üçün xeyirli bir şey daha qalmayıb! – deyə cavab verdi. – Mənə xeyirli olan bircə ölümdür...

Onun səsinə qulaq asmaq ağır idi, onun bütün görkəmi öz acizliyini bilən və kədərli pərtliyə səbəb olan yersiz bir təəssüf yaradırdı. Çəlləyin üstündə oturarkən, ayaqlarının sınacağından qorxurmuş kimi, dizlərini ehtiyatla bükdü, alnının tərini sildi. Onun saçı quru, ölgün idi.

Tonqal alovlandı, ətrafda hər şey diksindi, yırğalandı, kölgələr işıqdan hürküb, meşəyə atıldı və odun üstündə ovurdları şişmiş İqnatın yumru üzü göründü. Alov söndü. Tüstü qoxusu gəldi, sükut və qaranlıq xəstənin xırıltılı sözlərinə qulaq asaraq yenə talanı bürüdü.

– Mən bir cinayətin şahidi kimi, hələ xalqa xeyir verə bilərəm... Budur, bir mənə baxın... İyirmi səkkiz yaşım var, amma ölürəm! Onca il bundan qabaq on iki pudu asanlıqla çiynimə qaldırırdım, heç vecimə gəlmirdi. Deyirdim bu sağlamlıqla yetmiş il yaşayıb bir dəfə də büdrəmərəm. Amma onca il yaşamışam, daha yaşaya bilmərəm. Sahibkarlar məni qarət etdilər; mənim qırx illik ömrümü oğurladılar, qırx illik!

Rıbin batıq səslə:

– Budur, bu da onun nəğməsi! – dedi.

Alov yenə şölələndi, lakin bu dəfə daha gur, daha bərk; kölgələr yenə meşəyə tərəf atılaraq, yenidən oda doğru qayıtdı, tonqalın



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

ətrafında səssiz, ədavətli bir rəqs ilə çırpınmağa başladı. Yaş budaqlar odun içində şaqqıldayır, sızıldayırdı. Qızmış havanın dalğasından hərəkətə gələn ağac yarpaqları pıçıldaşır, xışıldayırdı. Alovun canlı, nəşəli dilləri qucaqlaşır, oynaşır, sarı və qırmızı rəng alaraq, ətrafa qığılcım saça-saça göyə qalxırdı; alışan yarpaqlar yuxarı uçur, ulduzlar isə göydə gülümsünərək qığılcımları özünə tərəf çəkir, çağırırdı:

– Bu, mənim nəğməm deyil, minlərlə adam öz bədbəxt həyatında xalq üçün sağaldıcı bir dərs olduğunu dumadan, bu nəğməni oxuyur. İşləməkdən əzilmiş nə qədər şikəst acından qırılıb, həlak olur...

O, belini əyib, çiyinlərini ata-ata öskürməyə başladı. Yakov masanın üstünə bir vedrə kvas qoydu, bir dəstə də göy-soğan atıb, xəstəyə:

– Gəl, Saveli, – dedi, – sənə süd gətirmişəm...

Saveli başını buladı, lakin Yakov onun qoltuğundan yapışıb qalxızdı və masaya tərəf apardı.

Sofya yavaşdan və töhmətlə Rıbinə dedi:

– Yaxşı, onu nə üçün bura çağırdınız? O hər dəqiqə ölə bilər...

Rıbin:

– Ölə bilər! – deyə təsdiq etdi. – Hələlik qoy danışsın. Boş yerə ömrünü puç eləyib, qoy insanlar üçün də bir az dözsün, eyibi yoxdur! Belə.

Sofya:

– Elə bil siz bir şeyə tamaşa edirsiniz! – deyə qışqırdı.

Rıbin ona baxdı və kədərli səslə:

– İsanın xaç üstündə iniltisinə tamaşa edən ağalardır, amma biz adamdan ibrət alırıq, sizin də bir az ibrət alıb öyrənməyinizi istəyirik.

Ana qorxu ilə qaşını dartıb, ona:

– Sən də bəsdir daha!.. – dedi.

Xəstə süfrə başında yenə danışmağa başladı:

– İnsanları iş ilə qırırlar, – axı nə üçün? İnsanın həyatını oğurlayırlar, – nə üçün? Bizim sahibkar – mən öz ömrümü Nefedovun fabrikində puç elədim – bizim sahibkar bir xanəndə qıza əl-üzünü yumaq üçün qızıl ləyən peşkəş eləmişdi, gecə qabı da qızıldan idi. Mənim gücüm, mənim həyatım bu qabdadır. Bir görün mənim həyatım nəyə sərf olunub – mənim qanımla öz məşuqəsini sevindir-



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

mək üçün o, məni iş ilə öldürüb, mənim qanımla aşnasına qızıldan gecə qabı alıbdır.

Yefim istehza ilə:

– İnsan Allahın nümunəsi kimi, ona oxşar yaradılmışdır! – dedi. – İndi gör onu nəyə sərf eləyirlər.

Rıbin əlini masaya çırpıb. qışqırdı:

– Onda susma!

Yakov da yavaş səslə:

– Dözmə! – deyə əlavə elədi.

İqnat gülümsündü.

Ana gördü ki, oğlanların üçü də acgözlüklə, diqqətlə qulaq asır və hər dəfə Rıbin danışanda baxışları ilə onu qızışdırır, Savelinin nitqi onların üzündə qəribə, kəskin, istehzalı təbəssüm yaradırdı. Onlarda xəstəyə qarşı rəhm hiss edilmirdi.

Ana Sofyaya tərəf əyilərək yavaşdan soruşdu:

– Olmaya, dediyi doğrudur?

Sofya ucadan cavab verdi:

– Bəli, doğrudur! Bu bəxşiş haqqında qəzetlərdə yazılmışdı, əhvalat Moskvada olub...

Rıbin batıq səslə:

– Ona cəza da verilməyib, heç bir cəza! – dedi. – Amma ona cəza verilməli idi, onu camaatın qabağına çıxarıb tikə-tikə doğramalı, murdar əti də itlərə atılmalıdır. Xalq ayağa qalxanda cəzalar böyük olacaq. Xalq öz yaralarını yumaq üçün çox qan tökəcəkdir. Bu qan xalqın öz qanıdır, onun damarından sorulubdur, qan sahibi odur.

Xəstə:

– Üşüyürəm! – dedi.

Yakov onu qalxızıb tonqalın yanına apardı. Tonqal bərk yanırdı, simasız kölgələr heyrətlə odun nəşəli oyununa tamaşa edərək, onun ətrafında titrəyirdi. Saveli kötüyün üstündə oturub, qansız, quru əllərini oda uzatdı. Rıbin başı ilə ona işarə edib, Sofyaya:

– Bu, kitablardan daha kəskin təsir edir! – dedi. – Fəhlənin əli maşına düşəndə, ya özü maşına düşüb öləndə deyirlər ki, təqsir özündədir. Amma insanın qanını içib, onu cəmdək kimi kənara atanda buna heç bir səbəb göstərmirlər. Hər cür qətli mən anlaya bilərəm, amma zarafat üçün əzab verməyi mən anlaya bilmirəm. Xalqa nə üçün əzab verirlər, nə üçün bizim hamımıza zülm edirlər?



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Zarafat üçün, əyləncə üçün, yer üzündə şad-xürrəm yaşamaq üçün, qan bahasına hər şey – xanəndə qız, at, gümüş bıçaq, qızıl qab, uşaqlara bahalı oyuncaqlar ala bilmək üçün. Sən işlə, çox işlə, mən də sənin zəhmətinlə pul toplayıb aşnama qızılı ləyən peşkəş edim.

Ana qulaq asır, baxır və Pavelin, onun yoldaşlarının yolu nurlu xətt kimi, qaranlıqda bir daha parlayıb onun önündə uzanırdı.

Şamdan sonra hamı tonqalın ətrafına toplaşdı: od onların qabağında ağacları sürətlə gəmirərək yanırdı, meşəni və göyü bürüyən qaranlıq isə arxada bir pərdə kimi asılmışdı. Xəstə, gözlərini geniş açıb oda tamaşa edir, aramsız öskürür, bütün bədəni əsirdi, sanki həyatın qalığı xəstəlikdən çürümüş bədəni tərk etmək üçün, sinəsindən çıxmağa çalışır, səbirsizliklə dartınırdı. Alovun şüaları onun üzündə, ölgün dərisini canlandırmadan titrəyirdi. Yalnız xəstənin gözləri sönməkdə olan od kimi yanırdı.

Yakov ona tərəf əyilərək:

– Saveli, – dedi, – bəlkə komaya gedəsən?..

O güclə:

– Nə üçün? – dedi. – Qoy oturum, axır günlərdir adam arasında otururam, ömrümə az qalıb!..

O, hamıya göz gəzdirdi, susdu və zəif təbəssümlə sözünə davam elədi:

– Sizinlə vaxtım xoş keçir. Sizə baxıb öz-özümə deyirəm: bəlkə bunlar qarət edilmişlərin, tamahkarlıqla qətl edilmişlərin, xalqın qisasını alalar...

Ona cavab vermədilər, bir azdan sonra xəstə süst halda başını döşünə əyib mürgülədi. Rıbin ona baxıb yavaş səslə:

– Bizim yanımıza gəlir, oturur, həmişə də bircə şeydən – insanlara edilən zülmdən danışır, – dedi. – Bütün varlığı da bundadır, sanki bu zülm ilə onun gözünü çıxartmışlar, bundan başqa da heç bir şey görmür...

Ana fikirli-fikirli:

– Daha bundan artıq nə olacaq? – dedi. – Minlərlə adam hər gün işdə həlak olacaq ki, sahibkarlar boş əyləncəyə, zarafata pul sovura bilsinlər, bundan artıq daha nə ola bilər?

İqnat yavaşdan:

– Ona qulaq asanda adamın ürəyi sıxılır, – dedi. – Belə söhbəti bircə dəfə də eşitsən, unuda bilməzsən, o ki, ola dönə-dönə eşidəsən!



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Rıbin kədərlə:

– Burada bircə söhbətdə hər şey yığışıb... bütün həyat, başa düş! – dedi. – Mən onun hekayəsini on dəfə eşitmişəm, yenə də bəzən adamı şübhə götürür. Elə xoş saatlar olur ki, insanın murdarlığına, onun ağılsızlığına inanmaq istəmirsən... Hamıya yazığın gəlir, kasıba da, dövlətliyə də... deyirsən, dövlətli də yolunu azıb! Birisi aclıqdan kordur, o birisi də qızıldan. Öz-özünə deyirsən, eh, ay adamlar, eh, ay qardaşlar! Bir silkələn, insaf ilə düşün, bərk düşün, özünə aman vermədən düşün!

Xəstə yerində yırğalandı, gözlərini açıb, yerə uzandı. Yakov səssiz ayağa qalxdı, komaya gedib yarımkürk gətirdi, onun üstünə saldı, sonra yenə Sofyanın yanında oturdu.

Alovun qırmızı sifəti işvə ilə gülümsünərək, ətrafındakı qara simaları işıqlandırır, adamların düşüncəli səsləri alovun sakit şıqqıltı və xışıltısına qarışırdı.

Sofya xalqın yaşamaq hüququ yolunda bütün dünyada mübarizə etməsindən, Almaniya kəndlilərinin qədimdəki vuruşmalarından, irlandiyalıların fəlakətindən, azadlıq uğrunda dəfələrlə döyüşə girən fransız fəhlələrinin böyük fədakarlığından danışırdı...

Gecənin məxmərinə bürünmüş meşədə ətrafı ağaclarla tutulmuş, üstündən qaranlıq göy asılmış kiçik talada, alovun qabağında ədavətlə çırpınan kölgələrin dövrəsində toxlar və tamahkarlar dünyasını sarsıdan hadisələr canlanır, yer üzünün vuruşmalardan yorulmuş qanı axan xalqları bir-birinin dalınca ötüb keçir, azadlıq və həqiqət yolunda mübarizə edənlərin adları çəkilirdi.

Qadının səsi bir qədər boğuq və yavaş çıxırdı. Keçmişdən gələn bir səs kimi o, ümidlər oyadır, qulaq asanlarda öz qüvvəsinə inam yaradırdı, adamlar öz mənəvi qardaşları haqqında söylənən hekayəyə sükutla qulaq asırdılar. Onlar qadının arıq, rəngi qaçmış üzünə baxırdılar və bütün dünya xalqlarının müqəddəs işi – azadlıq uğrunda apardıqları daimi mübarizə onların nəzərində get-gedə aydınlaşırdı. İnsan uzaqlarda, qaranlıq, qanlı pərdə dalında qalmış keçmişlərdə, tanımadığı, bilmədiyi yad tayfaların arasında öz amal və arzularını görür, daxili qüvvə ilə qəlbi və şüuru ilə dünyaya qarışır və bu dünyada çoxdan bəri həmrəyliklə və möhkəm iradə ilə yer üzündə haqqı tapmağı qət etmiş, bu qərarı saysız-hesabsız iztirablarla nurlandırmış yeni, aydın və xoşbəxt həyatın qalibiyyəti



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

üçün dəryalarla qan axıtmış dostlarını görürdü. Hamı ilə ruhi yaxınlıq hissi oyanır və böyüyür, yer üzündə hər şeyi anlamaq, hər şeyi özündə birləşdirmək üçün qızğın bir arzu ilə dolu olan yeni qəlb, cahanşümul qəlb yaranırdı.

Sofyanın səsi inamla dolu idi:

– Bir gün gələcək ki, bütün ölkələrin fəhlələri başlarını qaldırıb qətiyyətlə deyəcəklər: bəsdir! Biz daha belə yaşamaq istəmirik! O zaman öz tamahı ilə güclü görünənlərin zahiri qüvvəsi yox olacaq, yer onların ayağı altından qaçacaq və onlar özlərinə dayaq tapmayacaqlar...

Rıbin başını əyərək:

– Belə də olacaqdır! – dedi. – Özünə cəfa versən, hər çətinliyin öhdəsindən gələrsən!

Ana, qaşını yuxarı dartıb, üzündə şən, heyrətli təbəssümlə qulaq asırdı. Onun nəzərində Sofyada artıq və yersiz görünən sərtlik, qızğınlıq, səliqəsizlik indi söhbətinin kəskin, rəvan axınında itib getmişdi. Gecənin sakitliyi, alovun rəqsi, Sofyanın üzü və hər şeydən artıq kəndlilərin ciddi diqqəti ananın xoşuna gəlirdi. Kəndlilər söhbətin sakit gedişini kəsməməyə çalışır və onları bütün dünya ilə birləşdirən nurlu teli qırmaqdan qorxaraq, hərəkətsiz dinləyirdilər. Ancaq hərdənbir onlardan biri yavaşca tonqala odun parçası atır, tonqaldan qığılcım və tüstü qalxanda isə, əlini havada yelləyərək, qığılcım və tüstünü qadınlardan o tərəfə qovurdu.

Bir dəfə Yakov ayağa qalxıb yavaşdan xahiş elədi:

– Bir balaca dayanın...

Tez komaya qaçıb oradan paltar gətirdi və İqnatla birlikdə dinməz-söyləməz qadınların ayaqlarını və çiynini örtdü. Sofya yenə danışmağa başladı; o, qalibiyyət gününü təsvir edərək, insanlarda öz qüvvələrinə inam yaradır, toxluqdan qudurmuşların axmaq əyləncələri üçün öz ömrünü səmərəsiz zəhmətdə çürüdənlər ilə onların eyni vəziyyətdə olduğu fikrini oyadırdı. Sözlər ananı həyəcana gətirmirdi, lakin Sofyanın hekayəsinin yaratdığı böyük və hamını bürüyən hiss ananın da qəlbini, təhlükələrdən keçib zəhmət zənciri ilə bağlanmış insanlara doğru gedənlər və onlara vicdan, şüur hədiyyələri, həqiqətə məhəbbət hədiyyələri aparanlar haqqında təşəkkür və xeyirxahlıq fikrilə doldururdu.

Gözünü yumaraq o, öz-özünə düşünürdü:



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

"Pərvərdigara, sən bunlara kömək elə!"

Səhərə yaxın yorulmuş Sofya susdu və ətrafındakı fikirli, nurlanmış üzlərə təbəssümlə nəzər saldı. Ana:

– Vaxtdır, gedək! – dedi.

Sofya yorğun-yorğun:

– Bəli, vaxtdır! – deyə cavab verdi.

Oğlanlardan biri dərindən köksünü ötürdü.

Rıbin özünə yaraşmayan mülayim səslə:

– Heyif ki, gedirsiniz! – dedi. – Şirin söhbət eləyirsiniz! İnsanları bir-birinə yaxınlaşdırmaq böyük işdir! Biləndə ki, bizim istədiyimizi milyonlar da istəyir, adamın ürəyi xeyirxahlıqla döyünür. Xeyirxahlıqda böyük qüvvə var!

Yefim yavaşdan gülüb:

– Sən ona xeyirxahlıq edərsən, o da səni dəyənəklə vurar! – dedi və cəld ayağa qalxdı. – Mixaylo dayı, heç kəs görməmişkən onlar yola düşməlidir. Kitabçaları paylayarıq, sonra müdiriyyət axtarmağa başlar ki bu kitabçalar haradan çıxıb? Biri yadına salar ki, filan vaxt zəvvar qadınlar gəlmişdi...

Rıbin Yefimin sözünü kəsib:

– Çox sağ ol, ana, çəkdiyin zəhmət üçün çox sağ ol, – dedi. – Sənə baxanda, hey Paveli düşünürəm; sən yaxşı yola düşmüsən!

Yumşalmış Rıbin xoş, mülayim təbəssümlə gülümsəyirdi. Hava sərin idi, o isə bircə köynəkdə yaxası açıq durmuşdu, köksünün xeyli hissəsi görünürdü. Ana onun iri gövdəsinə baxıb mehriban səslə:

– Bir şey geyəydin! – dedi. – Soyuqdur.

O:

– İçəridən qızınıram! – deyə cavab verdi.

Üç oğlan tonqalın yanında durub yavaşca söhbət edir, onların ayağı altında isə üstünə yarımkürklər salınmış xəstə yatırdı. Hava işıqlanır, kölgələr əriyir, günəşin çıxmasını gözləyən yarpaqlar titrəşirdi.

Rıbin Sofyanın əlini sıxaraq:

– Di sağ olun, – deyirdi. – Bəs şəhərdə sizi necə tapmaq olar?

Ana:

– Sən məni axtar! – deyə cavab verdi.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Oğlanlar yavaş addımlarla, hamısı birlikdə, Sofyanın yanına gəlib, yöndəmsiz nəvazişlə onun əlini sıxırdılar. Onların hər birində gizli mehribanlıq və minnətdarlıq, məmnuniyyət hissi duyulurdu, yəqin ki, bu hiss öz yeniliyi ilə onları sıxırdı. Onlar yuxusuz gözləri ilə gülümsünərək, dinməz-söyləməz Sofyanın üzünə baxır və ayaqlarını götürüb-qoyurdular.

Yakov:

– Yola çıxmamış süd içəydiniz! – deyə təklif elədi.

Yefim:

– Süd vardı ki?

İqnat utana-utana saçını tumarlayıb:

– Yoxdur, dağıtdım!.. – dedi..

Üçü də gülüşdü.

Onlar süddən danışırdılar, ana isə onların başqa şeyi düşündüklərini, dinmədən ona və Sofyaya xeyirlər arzu elədiklərini duyurdu. Bu hal Sofyaya da təsir edir, onu da utandırır, onda saf bir təvazökarlıq oyadırdı; bu hissin təsirilə Sofya yavaşdan:

– Sağ olun, yoldaşlar! – deməkdən başqa söz tapa bilmədi.

Oğlanlar bir-birinin üzünə baxdılar, sanki bu söz onları yüngülcə yırğalamışdı.

Xəstənin boğuq öskürəyi eşidildi. Yanan tonqaldakı közlər söndü:

Kəndlilər yavaş səslə:

– Xoş gəldiniz! – deyirdilər və qadınların dalınca uzun müddət qüssəli sözlər eşidilirdi.

Ana ilə Sofya səhərin alaqaranlığında meşə cığırı ilə yavaş addımlarla gedirdilər; Sofyanın dalınca yeriyən ana deyirdi:

– Çox yaxşı oldu, elə yaxşı oldu ki, mənə yuxu kimi gəlir. Adamlar həqiqəti bilmək istəyirlər. Mənim əzizim, bilmək istəyirlər! Bunun hamısı böyük bayram günü səhər ibadətindən qabaq kilsədəki vəziyyətə oxşayır... keşiş hələ gəlməyib, hər tərəf qaranlıqdır, sakitlikdir, kilsənin içində adamı vahimə basır, amma xalq yığışmağa başlayır... bir şam... ikonaların qabağında orada yandırılır, biri burada yandırılır... yavaş-yavaş qaranlıq qovulur, Allahın evi nurlanır.

Sofya şən-şən:



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

– Doğrudur! – deyə cavab verdi. – Ancaq burada Allahın evi bütün yer üzüdür!

Ana fikirli halda başını bulayaraq təkrar elədi:

– Bütün yer üzü! Elə yaxşıdır ki, adam inana da bilmir... Siz də yaxşı danışırdınız, mənim əzizim, çox yaxşı danışırdınız! Mən qorxurdum ki, siz onların xoşuna gəlməyəsiniz.

Bir qədər sükutdan sonra Sofya yavaş və kədərli səslə:

– Onların yanında adam özünü sadə hiss edir... – dedi.

Onlar gedə-gedə Rıbindən, xəstədən, diqqətlə susub, öz minnətdar dostluq hisslərini qadınlara xırda xidmətlərlə yöndəmsiz, lakin çox aydın ifadə edən cavan oğlanlardan danışırdılar. Çölə çıxdılar. Günəş üfüqdən qalxırdı. Hələ gözə görünməyən günəş şəffaf çəhrayı zərrələrini yelpik kimi göyün üzünə sərmişdi, otun üstündə şeh qətrələri, sağlam bahar havasının rəngarəng qığılcımları kimi parladı. Quşlar oyanıb səhəri nəşəli səslərlə canlandırırdılar. Kök qarğalar qanadlarını ağır-ağır çalaraq aramsız qarıldayıb uçur, harada isə sarıköynək həyəcanla fit çalırdı. Uzaq təpələr gecənin kölgələrini atıb, günəşə qarşı açılırdı. Ana düşünə-düşünə deyirdi:

– Bəzən belə olur ki, biri danışır, danışır, amma sən onu başa düşmürsən; birdən o elə sadə bir söz deyir ki, bircə bu söz hər şeyi gün kimi aydınlaşdırır. Bu xəstə də elədir.

Fəhlələrin fabriklərdə və hər yerdə nə qədər əzildiyini mən çox eşitmişəm, özüm də görmüşəm. Ancaq adam buna uşaqlıqdan adət edir, bu da onun ürəyinə çox toxunmur. Amma xəstə birdən elə təsirli, elə murdar şey nağıl elədi ki! Pərvərdigara! Məgər adamlar ömürlərini işdə ona görə çürüdürlər ki, ağalar qudurub onları ələ salsınlar? Bunu bağışlamaq, bundan keçmək olmaz!

Ananın fikri bir hadisədə dayanmışdı; bu hadisə kobud və həyasız parıltısı ilə ananın vaxtilə bildiyi və unutmuş olduğu buna bənzər hadisələri onun qabağında işıqlandırırdı.

– Görünür, onlar hər şeydən doyublar, indi ürəkləri bulanır. Bilirəm, bir zemstvo rəisi əmr vermişdi ki, onun atını kəndin içindən aparanda kəndlilər ata baş əysinlər, baş əyməyənləri tutub dama basırdı. Axı bu onun nəyinə lazım idi? Anlamaq olmur, olmur!

Sofya yavaş səslə səhər kimi gümrah bir nəğmə oxumağa başladı...



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

## VII

Nilovnanın həyatı qəribə sakitliklə keçirdi. Bu sakitlik bəzən onu heyrətləndirirdi. Oğlu dustaq idi, ana oğlunu ağır cəza gözlədiyini bilirdi, lakin hər dəfə bunu düşünəndə, biixtiyar Andrey, Fedya və o biri adamlar da yadına düşürdü. Oğlunun varlığı, taleyi onunla bir olan bütün adamları özündə təcəssüm edərək ananın nəzərində böyüyürdü; onun Pavel haqqındakı fikirləri biixtiyar, özü bilmədən artır, yayılır, genişlənirdi. Bu fikirlər nazik və müxtəlif uzunluqda olan şüalar kimi, hər tərəfə saçılır, hər şeyi əhatə edir, hər şeyə toxunur, hər şeyi işıqlandırmağa, bir mənzərə halında toplamağa can atır və ananı bir hadisənin üstündə dayanmağa qoymur, oğlu haqqındakı həsrət və nigarançılığın çoxalmasına mane olurdu.

Çox keçmədi ki, Sofya hara isə getdi, beş gündən sonra şad və gümrah qayıtdı, bir neçə saatdan sonra yenə yox olub, bir də iki həftədən sonra gəldi. Sanki o, həyat üzərində geniş dövrələr vurur və hərdənbir qardaşının mənzilini gümrahlıq və musiqi ilə doldurmaq üçün onun yanına gəlirdi.

Musiqi ananın xoşuna gəlməyə başlamışdı. Qulaq asarkən, o, hərarətli dalğaların sinəsinə toxunduğunu, qəlbinə axdığını hiss edirdi, ürəyi daha rəvan döyünür və dərindən qazılmış, yaxşı suvarılmış torpaqda toxum göyərən kimi onun da ürəyində canlı düşüncələr sürətlə qalxır, musiqinin təsirilə oyanmış gözəl sözlər çiçək açırdı.

Paltarlarını, papiros kötüyünün gülünü oyan-buyana atan Sofyanın səliqəsizliyinə, xüsusilə onun əsəbi nitqlərinə alışmaq anaya çox çətin gəlirdi; bunların hamısı Nikolayın təmkini, inamı, sözlərinin möhkəm və mülayim ciddiyyəti müqabilində ananın lap gözünə batırdı. Ona elə gəlirdi ki, Sofya özünü böyük göstərməyə tələsən, bütün insanları da maraqlı oyuncaq hesab edən bir yeniyetmədir. Zəhmətin qüdsiyyətindən dəm vurduğu halda, Sofya öz səliqəsizliyi ilə ananın zəhmətini mənasızcasına artırır, azadlıqdan danışdığı halda, öz ifrat təəssübü, daim mübahisə etməsi ilə hamını sıxırdı, bunu da ana görürdü. Onda ziddiyyət çox idi, bunları görən ana da onunla gərgin bir ehtiyatla, sayıq diqqətlə dolanırdı, ürəyində Nikolaya bəslədiyi daimi rəğbət hissini Sofyaya aid edə bilmirdi.

Daim fikirli olan Nikolay yeknəsəq, ölçülmüş bir həyatla yaşayırdı: səhər saat səkkizdə çay içir və qəzet oxuyarkən yeni hadisə-



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

ləri anaya xəbər verirdi. Onun sözlərini dinləyən ana ağır həyat maşınının insanları mərhəmətsizcə üyüdüb pula döndərdiyini heyrətləndirici aydınlıqda görürdü. Ana Nikolayda Andreyə oxşayan cəhətlər olduğunu hiss edirdi. Bu da xoxol kimi, insanlardan qərəzsiz danışır, həyatın pis qurulduğunda hamını müqəssir tuturdu, lakin onun yeni həyata bağladığı inamı Andreyinki kimi qızğın və aydın deyildi. Nikolay aramla, namuslu və ciddi hakim səsi ilə danışırdı, hətta dəhşətli bir şeydən danışanda belə, təəssüfedici sakit təbəssümlə gülümsünürdüsə də, gözlərində soyuq parıltı və ciddi ifadə qalırdı. Bu parıltını görəndə, ana onun heç kəsi və heç bir hərəkəti əfv etmədiyini və edə bilmədiyini anlayırdı, bu sərtliyin onun üçün nə qədər ağır olduğunu duyur, Nikolaya yazığı gəlirdi. O, Nikolayı getdikcə daha çox bəyənirdi.

Saat doqquzda Nikolay qulluğa gedir, ana da otaqları süpürüb nahar hazırlayır, əl-üzünü yuyur, təmiz paltar geyir və öz otağında oturub kitabların şəkillərinə baxırdı. O, oxumağı öyrənmişdi, lakin güclə oxuyurdu, oxuyanda tez yorulur, sözlərdəki rabitəni də başa düşə bilmirdi. Şəklə baxmaq isə, uşaq kimi, onu maraqlandırırdı, – bu şəkillər onun gözü önündə aydın, dərk olunan, yeni və qəribə aləm açırdı. Böyük şəhərlər, gözəl imarətlər, maşınlar, gəmilər, abidələr, insan əli ilə yaradılmış saysız-hesabsız sərvətlər, təbiətin heyrətamiz, zəngin yaradıcılığı gözünün qabağından keçirdi. Həyat nəhayətsiz olaraq genişlənir, hər gün onun qabağında böyük, sirli, qəribə aləm açır, sərvətinin bolluğu, saysız-hesabsız gözəllikləri ilə qadının ayılmış ac ruhunu daha artıq həyəcana gətirirdi. Zooloji atlasın qalın cildlərinə baxmağı ana hər şeydən çox sevirdi, bu atlas əcnəbi dildə yazılmışdısa da, yerin gözəlliyi, zənginliyi və hüdudsuzluğu haqqında ən aydın təsəvvür yaradırdı.

Ana Nikolaya:

– Dünya böyükdür! – deyirdi.

Hər şeydən artıq ona cücülər və xüsusilə kəpənəklər təsir edirdi, bunların şəkillərinə ana heyrətlə tamaşa edir və öz mülahizələrini söyləyirdi:

– Bir gözəlliyə baxın, ay Nikolay İvanoviç! Hər yerdə bu gözəlliklərdən nə qədərdir, hamısı da bizdən gizlindir, yanımızdan ötüb keçir, biz onları görmürük. İnsanlar hey əlləşirlər. Heç bir şeydən xəbərləri yoxdur, bir şeydən həzz ala bilmirlər, buna nə



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

macalları var, nə də həvəsləri. Yerin necə zəngin olduğunu, burada nə qədər qəribə xilqət yaşadığını bilsəydilər, nə qədər nəşə ala bilərdilər. Hər şey hamı üçündür, hər kəs də hər şey üçündür, belədirmi?

Nikolay gülümsünərək:

– Belədir! – deyir və yenə şəkilli kitablar gətirirdi.

Axşamlar Nikolayın başına adamlar yığışardı: solğun çöhrəli, qarasaqqal, ciddi və sakit Aleksandr Vasilyeviç adlı gözəl kişi; üzü sızanaqlı, başı yumru, daim təəssüflə damağını şaqqıldadan Roman Petroviç; şiş saqqallı, nazik səsli, arıq və balaca, qızğın, küyçü və istehzalı İvan Daniloviç, həmişə özünə, yoldaşlarına və get-gedə şiddətlənməkdə olan azarına istehza ilə gülən Yeqor gələrdi. Cürbəcür uzaq şəhərlərdən gələn başqa adamlar da yığışardı. Nikolay onlarla uzun və sakit söhbətlər edər, daim eyni şeydən – yer üzünün fəhlə adamlarından danışardı. Mübahisə edər, qızışar, əllərini oynadar, çoxlu çay içərdilər, bəzən söhbət zamanı Nikolay dinməz oturub intibahnamələr yazar, sonra da yoldaşlarına oxuyardı, onların üzünü buradaca çap hərfləri ilə köçürərdilər ana da intibahnamənin cırılıb atılmış parçalarının hamısını yığışdırıb yandırardı.

Ana çay tökər və onların fəhlənin həyat və taleyindən, həqiqətə aid fikirləri bu xalq arasında tez və geniş yaymaqdan, xalqın ruh yüksəkliyini necə artırmaqdan danışıb qızışmaqlarına heyrət edərdi. Çox vaxt onlar acığa düşüb, bir-birinin rəyinə şərik olmur, biri o birini nədə isə ittiham edir, inciyir və yenə mübahisəyə başlayırdılar.

Ana fəhlələrin yaşayışını bu adamlardan yaxşı bildiyini hiss edirdi; ananın fikrincə, o bunların öhdələrinə aldığı vəzifənin nə qədər böyük olduğunu bunlardan daha aydın görürdü, buna görə də onlara ər-arvad oyunu oynayan və bu münasibətin faciəsini anlamayan uşaqlara baxan kimi mərhəmətlə, bir qədər qüssəli hiss ilə baxırdı. Ana biixtiyar bunların nitqlərini oğlu və Andreyin danışdıqları ilə tutuşdurur və qabaqlarda anlaya bilmədiyi fərqi indi seçməyə başlayırdı. Bəzən ona belə gəlirdi ki, burada fəhlə məhəlləsində olduğundan daha bərk çığırışırlar və bu məsələni özünə belə izah edirdi:

"Çox bilirlər, bərkdən də danışırlar..."

Lakin ana getdikcə bu adamların hamısının sanki qəsdən bir-birini qızışdırdığını, özlərinin də ancaq zahirdə qızışdıqlarını daha



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

tez-tez müşahidə edirdi, sanki hər biri özünün o birilərinə nisbətən həqiqətə daha yaxın olduğunu sübut etmək istəyirdi, o biriləri isə bundan inciyərək, özlərinin həqiqətə yaxınlığını sübut etmək üçün kobud, kəskin bir tərzdə mübahisəyə girişirdilər. Ananın nəzərinə belə gəlirdi ki, onlardan hər biri o birindən daha uca tullanmağa can atır, buna görə da ananın qəlbi vahiməli qüssə ilə dolurdu. O, qaşını tərpədir və hamıya yalvarıcı gözlərlə baxaraq:

"Paşanı da, yoldaşlarını da unudublar!.." – deyə düşünürdü.

Bu mübahisələrə ana həmişə çox diqqətlə qulaq asır, əlbəttə, bir şey anlamırdı, lakin sözlərin dalında hissin gizləndiyini sezirdi, görürdü ki, fəhlə məhəlləsində xeyirxahlıqdan danışanda onu bütöv, tam götürürdülər, burada isə hər şey tikə-tikə edilir, xırdalanırdı; orada daha dərin, daha qüvvətli hiss vardı, bura isə hər şeyi ayıran kəskin fikirlər aləmi idi. Burada hər şeydən artıq köhnə dünyanın uçurulmasından danışırdılar, orada isə yeni dünya arzusu ilə yaşayırdılar, buna görə də oğlunun və Andreyin nitqləri anaya daha yaxın, daha aydın idi...

Ana görürdü ki, Nikolayın yanına bir fəhlə gələndə ev sahibi, adəti xilafına açıq və sərbəst rəftar edir, onun üzündə bir şitlik görünür, həmişəki kimi danışmır, sözləri nə isə kobud, ya etinasız ahəng alır.

Bunu görən ana öz-özünə:

"Çalışır ki, dediklərini başa düşsünlər!" – deyə düşünürdü.

Lakin bu düşüncə anaya təsəlli vermirdi o, qonaq gələn fəhlənin də çəkindiyini, sanki içəridən sıxıldığını, sadə qadın olan ana ilə danışdığı kimi sərbəst və asan danışa bilmədiyini görürdü. Bir dəfə, Nikolay otaqdan çıxanda, ana otaqdakı oğlana dedi:

– Nədən utanırsan? İmtahana gəlmiş uşaq deyilsən ki...

O gülümsünüb:

– Alışmayanda xərçəng də qızarır... Hər necə olsa, tayımız deyil...

Hərdənbir Saşenka gələrdi, amma heç vaxt çox oturmazdı; həmişə ciddi, gülmədən danışar və hər dəfə gedərkən anadan soruşardı:

– Pavel Mixayloviç necədir, yaxşıdırmı?

Ana:

– Şükür Allaha! – deyərdi. – Yaxşıdır, kefi kökdür!



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Qız:

– Məndən salam söyləyin! – deyə xahiş edər və yox olardı.

Bəzən ana qıza gileylənərdi ki, Paveli uzun müddətdir saxlayırlar və məhkəmə təyin edilmir. Saşenka qaşqabağını töküb dinməzdi, barmaqları isə sürətlə hərəkət edərdi.

Nilovna ona:

"Mənim əzizim, axı onu istədiyini mən bilirəm..." – demək arzusunu hiss edirdi.

Lakin qızın ciddi, sərt üzü, bərk sıxılmış dodaqları və qətiyyəti sanki qabaqcadan hər bir nəvazişin qabağını alırdı; odur ki, ana ürəyinin mətləbini deyə bilmirdi. O, ürəkdən ah çəkərək qızın əlini dinməz-söyləməz sıxır və düşünürdü:

"Yazıq balacığım!"

Bir gün Nataşa gəldi. Ananı görüb çox sevindi, onun üzündən öpdü və söz arasında yavaşcadan xəbər verdi:

– Anam öldü, yazıq anam öldü!..

Bunu deyib başını silkələdi, əlinin cəld hərəkəti ilə gözlərini sildi və:

– Çox yazığım gəlir! – dedi. – Onun yaşı əllidən də az idi, hələ çox yaşaya bilərdi. O biri tərəfdən də baxanda adam deyir, bəlkə də ölüm bu cür dirilikdən yaxşıdır. Həmişə tək, hamıya yad, kimsəsiz, heç kəsə lazım olmayan, atamın çığırtılarından qorxan – məgər o yaşayırdı? Adam yaşayanda yaxşı bir gün gözləyir, o isə əzabdan başqa nə gözləyə bilərdi...

Ana bir az düşündükdən sonra:

– Doğru deyirsiniz, Nataşa! – dedi. – Yaxşı gün gözləyə-gözləyə yaşayırlar, gözləməli bir şey olmayanda nə yaşamaq? – Sonra qızın əlini mehribanca tumarlayaraq, soruşdu: – İndi təkmi qalmısınız?

Nataşa qayğısızlıqla:

– Tək! – deyə cavab verdi.

Ana susdu, birdən təbəssümlə qeyd elədi:

– Eyibi yoxdur! Yaxşı adam tək qalmaz, həmişə adamlar ona qoşularlar...



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

## VIII

Nataşa qəzada toxucu fabrikində müəllim işləməyə, Nilovna da ona qadağan edilmiş kitabça, intibahnamə və qəzet daşımağa başladı.

Bu, onun işi oldu. Ayda bir neçə dəfə gah rahibə, gah krujeva və əldə toxunmuş kətan satan, gah dövlətli şəhər qadını, zəvvar paltarı geyərək, dalında torba, ya da əlində çamadan bütün quberniyanı gəzirdi. Vaqonlarda və gəmilərdə, mehmanxana və karvansaralarda, hər yerdə ana sadə və sakit dolanır, tanımadığı adamlarla özü söhbətə girişir, dünya görmüş təcrübəli adama məxsus arxayın hərəkətləri, mehriban və şirin danışığı ilə hamının diqqətini cəlb edirdi.

Adamlarla danışmaq, onların həyata aid hekayələrinə, şikayət və şübhələrinə qulaq asmaq ananın xoşuna gəlirdi. Hər dəfə adamda kəskin bir narazılıq, taleyin zərbələrinə etirazla bərabər beynində törəyən suallara gərkin halda cavab axtaran bir narazılıq gördükdə, ananın qəlbi sevinclə dolardı. Onun gözləri qabağında getdikcə daha geniş və daha rəngarəng insan həyatı – toxluq uğrundakı gərgin çəkişmələrdə keçən narahat və həyəcanlı bir həyat səhnəsi açılırdı. Hər tərəfdə insanı aldatmaq, qarət etmək, özü üçün ondan mümkün qədər artıq mənfəət çıxarmaq, onun qanını sormaq üçün ən kobud və çılpaq, ən həyasız və açıq bir meyil görünürdü. Yer üzündə hər şeyin bol olduğunu, lakin xalqın ehtiyacını, hesabsız sərvət arasında yarıac yaşadığını da ana görürdü. Şəhərlərdə Allaha lazım olmayan qızıl-gümüşlə dolu məbədlər durur, bu məbədlərin qapılarında isə dilənçilər sürünür, bir nəfərin onların əlinə qara pul basacağını gözləyərək tir-tir əsirlər. O, qabaqlarda da bunu – zəngin kilsələri və keşişlərin zərli geyimlərini, dilənçi xalqın daxmalarını və biabırçı, cırım-cındır paltarını görürdü, lakin o zaman bunun hamısı ona təbii görünürdü, indi isə bunlar kilsəyə dövlətlilərdən daha artıq ehtiyacı olan, ona daha yaxın olan kasıblar üçün təhqiredici və dözülməz hal kimi görünürdü.

İsanı təsvir edən şəkillərdən, onun haqqında söylənən hekayələrdən ana onun yoxsullara dost olduğunu, sadə geyindiyini bilirdi, ondan təsəlli almaq üçün kasıbların can atdığı kilsələrdə isə İsa həyasızcasına qızıla və dilənçiləri görərkən nifrətlə xışıldayan ipəklərə bürünmüş kimi idi. Bu ziddiyyəti duyan ana, biixtiyar, Rıbinin sözlərini yadına salırdı:



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

"Allah ilə də bizi aldadıblar!"

Özü də sezmədən ana az-az dua eləməyə başladı, lakin İsanı və İsanın adını çəkmədən sanki onu tanımadan belə, ananın fikrincə onun vəsiyyətləri üzrə yaşayan, yer üzünü İsa kimi yoxsullar məmləkəti hesab edərək yerin bütün sərvətlərini insanların arasında bərabər bölüşdürmək istəyən adamları daha artıq düşünürdü. Bu barədə ana çox düşünürdü və bu düşüncə onun qəlbində artır, onun bütün gördüklərini, eşitdiklərini əhatə edərək dərinləşir, qaranlıq dünyanı bütün həyatı, insanları eyni nurla işıqlandıran aydın bir dua şəklini alaraq böyüyürdü. Daim qorxu ilə ümid, məhəbbət ilə qüssə qarışıq mürəkkəb bir hiss ilə, dumanlı bir məhəbbətlə sevdiyi İsa indi ona daha yaxın, onun üçün daha yüksək və daha aşkar, üzü daha şən və nurani olmuşdu: sanki o, insanların onun yolunda bədbəxt insan dostunun adını çəkmədən, səxavətlə axıtdıqları isti qanla yuyulub canlanaraq həyat üçün, doğrudan da, yenidən dirilmişdir. Ana öz səfərlərindən, yolda gördükləri və eşitdiklərindən coşqun bir sevinc duyaraq, işindən məmnun və razı halda Nikolayın yanına qayıdardı.

Axşamlar Nikolaya:

– Hər yeri gəzmək, çox görmək nə yaxşı işdir! – deyərdi. – Həyatın necə qurulduğunu anlayırsan. Xalqı sıxışdırıb, həyatın lap kənarına atırlar, o da inciyib oradaca qurdalanır, ancaq istər-istəməz bunun nə üçün belə olduğunu düşünür. Düşünür ki, axı məni nə üçün kənara qovurlar? Nə üçün hər şey bol olduğu halda, mən acam? Hər tərəfdə bu qədər ağıl olduğu halda, mən ağılsız və nadanam? Bəs o, dövlətli-kasıb tanımayan, hamını əziz bala kimi görən, rəhmli Allah hanı? Xalq yavaş-yavaş öz yaşayışından cana gəlir, başa düşür ki, özü barəsində fikirləşməsə, haqsızlıq onu boğacaq.

Həyatın ədalətsizliyindən insanlara öz dili ilə danışmaq arzusunu ana indi tez-tez və daha kəskin hiss edirdi; bəzən bu şiddətli arzunu dəf etmək ana üçün çox çətin olurdu...

Onu şəkillərə tamaşa edən görəndə Nikolay gülümsünərək, hər dəfə qəribə bir şey nağıl edərdi. Ana insanın öhdəsinə düşən vəzifələrin böyüklüyündən heyrətə gələrək, şübhə ilə Nikolaydan:

– Belə şey ola bilərmi? – deyə soruşardı.

O da mehriban gözləri ilə eynəyinin arxasından onun üzünə baxaraq təkidlə, gələcək haqqında dediklərinin doğru olduğuna sarsılmaz inamla gələcək həyatdan ona nağıllar söylərdi:



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

– İnsan arzularının hüdudu yoxdur, onun qüvvəsi bitməz-tükənməzdir! Ancaq dünya yenə də mənən çox ləng zənginləşir; çünki indi özünü asılı olmaqdan xilas etmək istəyən hər kəs bilik deyil, pul toplamağa vadar olur. Lakin insanlar tamahkarlığı öldürüb, özlərini məcburi zəhmət əsarətindən xilas edəndə...

Ana Nikolay deyən sözlərin mənasını az-az başa düşərdi, lakin bu sözləri canlandıran inam duyğusu ona get-gedə daha aydın olardı.

Nikolay:

– Yer üzündə azad adam çox azdır, dünyanın bədbəxtliyi də bundadır! – deyərdi.

Bunu ana yaxşı başa düşürdü: tamahkarlıq və ədavətdən azad olmuş adamları o tanıyır və bilirdi ki, belə adam çox olsa, həyatın qaranlıq və dəhşətli üzü mülayimləşər və sadələşər, daha mehriban və nurlu olardı.

Nikolay kədərli səslə:

– İnsan istər-istəməz amansız olmalıdır! – deyərdi.

Ana xoxolun nitqlərini xatırlayaraq, başı ilə təsdiq edərdi.

## IX

Həmişə dəqiq olan Nikolay bir gün qulluqdan həmişəkindən çox kec gəldi və soyunmadan, əllərini bir-birinə sürtərək, tələsik:

– Bilirsinizmi, Nilovna, bu gün yoldaşlarımızdan biri həbsxanadan qaçıb, – dedi. – Qaçan kimdir? Bilmək mümkün olmadı...

Ana həyəcandan ayaq üstə yırğalanıb, kürsüyə çökdü və pıçıltı ilə:

– Bəlkə Paşadır? – deyə soruşdu.

Nikolay çiyinlərini ataraq:

– Bəlkə də! – dedi. – Ancaq onun gizlənməsinə nə cür kömək edək, onu haradan tapaq? Mən indi küçələri gəzirdim – bəlkə rastıma çıxdı? Bu, mənasızdır, ancaq bir şey eləmək lazımdır! Mən yenə küçələri gəzməyə gedəcəyəm...

Ana qışqırdı:

– Mən də!

Nikolay:

– Siz Yeqorun yanına getsəniz yaxşı olar, bəlkə o bir şey bilir? – deyərək otaqdan yox oldu.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Ana şalı başına saldı və ümiddən qanadlanmış kimi tez onun dalınca küçəyə çıxdı. Gözləri pər-pər çalır, ürəyi sürətlə döyünərək onu az qala yüyürməyə məcbur edirdi: Ana başını aşağı salaraq təsadüfün qarşısına gedir və ətrafında heç bir şey görmürdü.

"Birdən onu orada gördüm!" – ümidi sanki onu qabağa itələyirdi.

Hava isti idi, yorğunluqdan ananın nəfəsi təngimişdi; Yeqorun mənzilinin pilləkəninə yetişəndə ana daha yeriyə bilməyib dayandı, dönüb dala baxdı və heyrətindən yavaşca qışqırıb, bir anlığa gözlərini yumdu – əlləri cibində qapıda dayanan Nikolay Vesovşikov onun nəzərinə dəydi. Lakin ana bir daha baxanda heç kəs yox idi...

Ana pillələrlə çıxa-çıxa və qulaq verə-verə, öz-özünə: "Məni qara basır!" deyirdi. Aşağıda, həyətdə yavaş addımların boğuq tappıltısı eşidilirdi. Ana pilləkən burulan yerdə dayanaraq əyilib aşağıya baxdı və yenə gülümsünən çopur sifəti gördü.

– Nikolay! Nikolay!.. – deyib ana pillələrlə ona tərəf endi, ürəyi isə ümidsizlikdən sızıldadı.

Nikolay əli ilə ona işarə edib, yavaşdan dedi:

– Sən yeri, yeri!

Ana cəld pilləkənləri çıxıb, Yeqorun otağına girdi və onu divanda uzanmış görüb təngnəfəs:

– Nikolay dustaqxanadan... qaçıb!.. – dedi.

Yeqor, başını balışdan qalxızaraq, xırıltılı səslə:

– Hansı Nikolay? – deyə soruşdu. – Orada iki Nikolay var.

– Vesovşikov... Bura gəlir!..

– Çox gözəl!

Nikolay otağa girib qapını cəftələdi və şapkasını çıxarıb saçlarını tumarlaya-tumarlaya yavaşdan gülməyə başladı. Yeqor divara dirsəklənib qalxdı, öskürdü və başı ilə işarə edərək:

– Buyurun... – dedi.

Nikolay xoş təbəssümlə ananın yanına yeridi və onun əlini tutub:

– Səni görməsəydim, az qala dustaqxanaya qayıtmalı olacaqdım! – dedi. – Şəhərdə heç kəsi tanımıram, məhəlləmizə də getsəm, haman saat tutarlar. Küçələri dolaşıb öz-özümə deyirdim: – Axmaq, niyə qaçdın? Birdən gördüm, Nilovna qaçır! Özümü sənin dalınca saldım...

Ana soruşdu:

– Bəs nə təhər qaçdın?



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Nikolay çəkinə-çəkinə divanın kənarına oturub, utancaqlıqla çiyinlərini sıxaraq danışdı:

– Belə bir nifaq düşdü! Həyətdə gəzirdim, gördüm cinayət üstündə tutulanlar nəzarətçini döyməyə başladılar. Orada bir beləsi vardır, jandarmlardandır, oğurluq üstə qovublar – casusluq eləyir, xəbər verir, hamının gününü qara eləyib! Gördüm onu əzişdirirlər, vəlvələ düşür, nəzarətçilər qorxub qaçışır, fit çalırlar. Birdən gördüm qapı açıqdır, oradan meydança, şəhər görünür. Yavaş-yavaş özümü çölə verdim... Elə bil yuxu görürdüm. Bir az gedəndən sonra huşa gəldim: hara gedirəm? Geri baxıb gördüm ki, dustaqxananın qapısı bağlanıb...

Yeqor:

– Hım! Siz də, cənab, qayıdıb nəzakətlə qapını döyəydiniz ki, xahiş edirəm, məni içəri buraxın! – dedi. – Yəni ki, bağışlayın, fikrim başqa yerdə idi.

Nikolay gülə-gülə davam elədi:

– Bəli! Axmaqlıqdır! Hər necə olsa yoldaşlarımdan yaxşı deyil, heç kəsə bir söz deməmişəm... Bir az gedib gördüm ölü aparırlar, uşaqdır, cənazənin dalına düşdüm, başımı aşağı salıb heç kəsə baxmırdım. Bir az qəbiristanda oturdum, hava məni vurdu, başıma bir fikir gəldi...

Yeqor:

– Elə bir? – deyə soruşdu və ah çəkib əlavə elədi: – Elə bilirəm ki, bir fikir üçün başında gərək darısqallıq olmasın.

Vesovşikov başını silkələyib mülayimcə gülümsündü:

– Yox, indi başım artıq əvvəlki kimi boş deyil. Bəs sən necə, Yeqor İvanoviç, yenəmi azarla əlləşirsən...

Yeqor öskürə-öskürə:

– Hər kəs öz bacardığı işi görür, – dedi. – Davam elə görək!

– Sonra zemstvo muzeyinə getdim. Bir az orada gəzindim, tamaşa elədim, özüm də hey düşünürəm: bəs indi necə olsun, özümü hara verim? Hətta öz-özümə acığım da tutdu. Bərk acmışdım! Küçəyə çıxdım, gəzdim, kəsilə-kəsilə qalmışdım... Görürəm, polislər hamıya diqqət edir. Aha, dedim, bu sifət ilə Allah divanına tez düşmək olar! Birdən gördüm ki, Nilovna qarşıdan yüyürür, çəkilib ona yol verdim, sonra da dalınca düşdüm, vəssalam!

Ana müqəssir kimi:



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

– Amma mən səni heç görmədim! – dedi.

Ana Vesovşikova diqqətlə baxır, baxdıqca da o, anaya yüngülləşmiş kimi görünürdü.

Nikolay başını qaşıya-qaşıya:

– Yəqin, yoldaşlar nigarandırlar... – dedi.

Yeqor:

– Bəs qazamat müdiriyyətinə yazığın gəlmir? Axı onlar da nigarançılıq çəkir! – dedi və ağzını açıb havanı çeynəyir kimi dodaqlarını tərpətdi. – Di yaxşı, zarafat bir yana. Səni gizlətmək lazımdır, bu, xoş da olsa, asan deyil. Mən qalxa bilsəydim... – Onun nəfəsi kəsildi, o, əllərini döşünə ataraq, zəif hərəkətlərlə döşünü ovmağa başladı.

Nikolay:

– Yeqor İvanoviç, azarın çox şiddətlənib! – deyib başını aşağı dikdi. Ana ah çəkib balaca, dar otağa qorxu ilə göz gəzdirdi.

Yeqor:

– Bu mənim şəxsi işimdir! – deyə cavab verdi. – Anacan, siz Paveldən xəbər tutun, utanmaq nə lazım!

Vesovşikov yenə də xoş təbəssümlə gülümsündü:

– Pavel yaxşıdır! Sağ-salamatdır. O bizə başçı kimi bir şeydir. Müdiriyyətlə danışır, hər barədə buyruq verir. Ona hörmət eləyirlər...

Vesovşikovun nitqinə qulaq asa-asa Vlasova başı ilə təsdiq edir və *Yeqorun şişmiş, göyərmiş üzünə gözucu baxırdı. Hərəkətsiz* halda donmuş, ifadəsiz bu üz nəzərə qəribə bir şəkildə, yastı görünürdü, yalnız gözlər canlı idi və nəşə ilə parlayırdı.

Birdən Nikolay qışqırdı:

– Mənə yemək verəydiniz! Vallah, çox acam!

– Anacan, taxçada çörək var, sonra dəhlizə çıxın, sol tərəfdə ikinci qapını taqqıldadın. Bir qadın çıxacaq, ona deyin ki, bura gəlsin və yeməli nəyi varsa, özü ilə gətirsin.

Nikolay etiraz elədi:

– Hamısı nəyə lazımdır?

– Narahat olma, çox deyil...

Ana çıxıb qapını döydü və onun dalındakı sükuta qulaq verərək qüssə ilə Yeqoru düşündü:

"Ölür..."

Qapının dalından:



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

– Kimdir? – deyə soruşdular.

Ana yavaşdan:

– Yeqor İvanoviç göndərib! – dedi. – Sizi yanına çağırır...

İçəridən qapını açmayaraq:

– Bu saat gəlirəm! – deyə cavab verdilər. Bir az gözlədikdən sonra, ana bir də qapını döydü... Bu dəfə qapı tez açıldı və ucaboy, gözlüklü bir qadın dəhlizə çıxdı. Tələsə-tələsə koftasının əzilmiş qolunu düzəldərək, sərt səslə anadan soruşdu:

– Nə istəyirsiniz?

– Məni Yeqor İvanoviç göndərib...

– Aha, gedək! A, mən ki, sizi tanıyıram, – qadın yavaşdan səsləndi. – Salam! Bura qaranlıqdır.

Vlasova ona baxıb, bu qadının hərdənbir Nikolaygilə gəldiyini xatırladı. Beynindən:

“Hamısı özümüzünkülərdir!” – fikri keçdi.

Qadın, Vlasovanın üzərinə yeriyərək, onu qabaqda getməyə məcbur elədi və özü arxadan gələ-gələ sual verdi:

– Əhvalı qarışıb?

– Bəli, yataqdadır. Xahiş edirdi ki, yemək gətirəsiniz...

– Yox, bu artıqdır...

Otaqda onları Yeqorun xırıltısı qarşıladı:

– Əzizim, Lüdmila Vasilyevna, babalarımın yanına yollanıram. Bu cənab, hökumətdən izin almamış, həbsxanadan çıxıb, dəcəllik eləyib! Ən əvvəl ona yemək verin, sonra da bir yerdə gizlədin.

Qadın başı ilə razılıq verib diqqətlə xəstənin üzünə baxaraq, ciddi dedi:

– Yeqor, yanınıza adam gələn kimi, siz məni çağırtdırmalı idiniz! Görürəm, iki dəfədir ki, dərman içməmisiniz, belə də başsoyuqluq olar? Yoldaş, mənim otağıma gedək! Bu saat xəstəxanadan Yeqoru aparmağa gələcəklər.

Yeqor:

– Yenə xəstəxanaya? – deyə soruşdu.

– Bəli. Mən də orada sizin yanınızda olacağam...

– Oradadamı? Allah, sən rəhm elə!

– Axmaqlıq eləməyin...

Qadın danışa-danışa Yeqorun sinəsində yorğanı düzəltdi, Nikolayı diqqətlə nəzərdən keçirtdi və gözləri ilə şüşədəki dərmanı



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

ölçdü. Onun danışığı rəvan və yavaş, hərəkətləri xoş, çöhrəsi solğun idi, qara qaşları burnunun üstündə az qala bitişirdi. Onun üzü ananın xoşuna gəlmirdi, bu üz ona məğrur görünürdü, gözləri isə təbəssümsüz, parıltısız baxırdı. Danışanda da sanki hökm edirdi.

Qadın:

– Biz gedirik! – dedi. – Mən tez qayıdacağam! Siz bu dərmandan Yeqora bir xörək qaşığı verin. Danışmağa qoymayın...

Qadın, Nikolayla bərabər otaqdan çıxdı. Yeqor köksünü ötürüb:

– Qəribə qadındır! – dedi. – Qiyamət qadındır... Anacan, sizi ona köməkçi vermək lazımdır, o çox yorulur...

Ana səmimiyyətlə xahiş elədi:

– Danışma! Yaxşısı budur, al, iç!..

Yeqor dərmanı udub, bir gözünü qıydı və sözünə davam elədi:

– Onsuz da öləcəyəm, dinib-danışmasam da...

Gözünün biri ilə o, anaya baxır, dodaqları yavaş-yavaş təbəssüm üçün aralanırdı. Ana başını aşağı saldı, mərhəmət hissi onun gözlərini yaşartdı.

– Eyibi yoxdur, bu təbiidir... Yaşamaq ləzzətinin axırı hökmən ölümdür!..

Ana əlini onun başına qoyub, yenə yavaşdan dedi:

– Gəlsənə danışmayasan, hə!..

Yeqor sinəsindəki xırıltıya qulaq verir kimi, gözlərini yumdu və inadla davam elədi:

– Anacan, susmağın mənası yoxdur! Susmaqla nə qazanaram? Cançəkişmə saniyələrim bir az artar, amma yaxşı adamla söhbət eləmək ləzzəti əlimdən çıxar. Mənim fikrimcə, bu dünyada olan yaxşı adamlar o dünyada yoxdur...

Ana narahatlıqla onun sözünü kəsdi:

– Bax, o xanım gələr, səni danışdırmağım üstündə məni danlar...

– O, xanım deyil, inqilabçıdır, yoldaşdır, qiyamət insandır. Sizi, anacan, əlbəttə, danlayacaq. O, hamını danlayır, həmişə...

Dodaqlarını ehmalca, güclə tərpədə-tərpədə Yeqor öz qonşusunun həyat tarixçəsini nağıl eləməyə başladı. Onun gözləri gülümsünürdü; ana Yeqorun onu qəsdən acıqlandırmaq istədiyini görür, onun tərli və göyərmiş üzünü süzərək iztirabla düşünürdü:

"Öləcək..."

Lüdmila içəri girdi və qapını bərk-bərk örtərək, üzünü Vlasovaya tutub dedi:



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

– Sizin tanışınız paltarını dəyişməli və tezliklə mənim yanımdan getməlidir; odur ki, Pelageya Nilovna, siz bu saat gedin, onun üçün paltar tapıb bura gətirin. Heyif ki, Sofya burada deyil, adam gizləmək onun peşəsidir.

Vlasova şalını çiyninə salaraq:

– O, sabah gələcək! – deyə cavab verdi.

Hər dəfə anaya bir iş tapşıranda, bu işi mümkün qədər tez və yaxşı görmək arzusu ona hakim olur və o, öz vəzifəsindən başqa bir şey düşünə bilmirdi. İndi də, fikirli halda qaşlarını çatıb ciddiyyətlə soruşurdu:

– Fikrinizcə o nə cür geyinsə yaxşıdır?

– Fərqi yoxdur. O, gecə gedəcək.

– Gecə yaxşı deyil, küçələrdə adam az, amma casus çox olur. Bir də ki, o çox da zirək deyil...

Yeqor xırıltı ilə güldü. Ana soruşdu:

– Xəstəxanada sənin yanına gəlmək olarmı?

O, öskürə-öskürə, başı ilə razılığını bildirdi. Lüdmila kədərli gözləri ilə ananın üzünə baxıb, təklif elədi:

– Mənimlə bərabər onun yanında növbətçi olmaq istəyirsinizmi? Hə? Yaxşı! Di indi tez gedin..

Mehriban, lakin hökmlü əda ilə o, ananın qolundan tutub, otaqdan çıxartdı və yavaş səslə:

– Sizi otaqdan belə çıxarmağımdan inciməyin! Ancaq danışmaq ona zərərdir... Yenə də mənim ümidim var...

O, əllərini sıxdı, barmaqları şıqqıldadı, gözləri isə yorğunluqdan yumuldu...

Bu izahat anaya təsir elədi və o dodaqaltı:

– Nə danışırsınız? – dedi.

Qadın yavaşdan:

– Baxın ki, casus-zad olmasın! – O, əllərini qaldırıb gicgahlarını ovdu; onun dodaqları əsirdi, üzü mülayimləşmişdi.

Ana məğrur səslə:

– Bilirəm!.. – deyə cavab verdi.

Küçəyə çıxanda ana bir anlığa dayanıb; şalını düzəldə-düzəldə gözaltı, lakin diqqətlə ətrafını nəzərdən keçirdi. İndi o, küçə izdihamında casusu səhv etmədən tanımağı öyrənmişdi. Həddindən artıq laqeyd yeriş, süni sərbəst hərəkətlər, üzündə yorğunluq və



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

darıxmaq ifadəsi, bunların arxasında isə pis gizlədilmiş narahat və adama sancılan iti gözlərin vahiməli, təqsirkar baxışı anaya yaxşı tanış idi.

Bu dəfə ana tanıdığı belə bir sima görmədi və tələsmədən küçə ilə getdi, sonra fayton tutub tapşırdı ki, bazara sürsün. Nikolay üçün paltar alarkən, ana alverçilərlə qiymət üstündə xeyli çənələşir və söz arasında az qala hər ay təzə paltar almalı olduğu öz sərxoş ərini yamanlayırdı. Bu uydurma alverçilərə az təsir eləyir, lakin ananın özünə çox xoş gəlirdi, hələ yolda ana fikrinə gətirmişdi ki, polis Nikolayın paltarını dəyişməyə məcbur olacağını mütləq anlayacaq və bazara xəfiyyə göndərəcəkdir. Beləcə sadəlövh ehtiyat tədbirləri ilə də ana Yeqorun mənzilinə qayıtdı, sonra o, Nikolayı şəhərin kənarına aparıb yola salmalı oldu. Onlar küçənin ayrı-ayrı tərəfləri ilə gedirdilər və ana Vesovşikovun, başını aşağı salıb ayaqları bozarmış paltosunun ətəklərinə dolaşa-dolaşa ağır addımlarla yeridiyini, hər dəqiqə sürüşüb burnunun üstünə düşən şlyapasını düzəltdiyini görərək xoşhallanır və gülməyi tuturdu. Boş küçələrin birində onları Saşenka qarşıladı, ana da, başını əyərək, Vesovşikovla uzaqdan-uzağa xudahafizləşib evinə qayıtdı. Yolda qüssə ilə düşünürdü:

"Amma Paşa hələ yatır... Andryuşa da!.."

## X

Nikolay onu qorxulu xəbərlə qarşıladı:

– Bilirsinizmi, Yeqorun halı çox pisdir, çox! Onu xəstəxanaya aparırlar, Lüdmila gəlmişdi, onun yanına getməyinizi xahiş edirdi...

– Xəstəxanayamı?

Nikolay əsəbi hərəkətlə gözlüyünü düzəldib, anaya koftasını geyməyə kömək etdi və onun əlini öz quru, isti əli ilə sıxaraq, titrək səslə:

– Hə! Bu bağlamanı da aparın, – dedi. – Vesovşikovun işini düzəltdinizmi?

– Hər şey düzəlib...

– Mən də Yeqorun yanına gələcəyəm...

Yorğunluqdan ananın başı gicəllənirdi, Nikolayın təlaşı isə bir facià olacağını anaya bildirir və onun qəlbini kədərləndirirdi.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Beynində qara bir fikir dolanırdı:

"Ölür..."

Lakin xəstəxananın balaca, təmiz və işıqlı otağına gəlib, Yeqorun yataqda bir yığın ağ balış arasında oturduğunu və xırıltılı qəhqəhə ilə güldüyünü görəndə ana birdən-birə rahat oldu. O, gülümsünərək qapıda dayanıb, xəstənin doktora:

– Müalicə islahatdır... – dediyinə qulaq asdı.

Doktor fikirli halda nazik səslə:

– Məsxərə eləmə, Yeqor! – deyə acıqlandı.

– Amma mən inqilabçıyam, islahata nifrət edirəm...

Doktor Yeqorun əlini dizlərinin üstündə ehtiyatla qoyub kürsüdən qalxdı və düşüncəli tərzdə saqqalını tərpədərək, barmaqları ilə xəstənin üzündəki şişləri əlləşdirməyə başladı.

Ana doktoru yaxşı tanıyırdı o, Nikolayın yaxın yoldaşlarından biri idi, adı da İvan Daniloviç idi. Ana Yeqora yaxınlaşdı, Yeqor ona baxıb dilini çıxartdı. Doktor geriyə döndü:

– A, Nilovna! Salam! Əlinizdəki nədir?

– Gərək ki, kitabdır.

Balacaboy doktor:

– Ona oxumaq olmaz, – dedi.

Yeqor gileyləndi:

– Bu məni lap gicbəsər eləmək istəyir!

Yeqorun qısa və ağır nəfəsi sinəsindən bəlğəmli xırıltı ilə çıxırdı, üzü narın tərlə örtülmüşdü; o, itaətdən çıxmış və ağırlaşmış əllərini ehmalca qalxızaraq, alnını silirdi. Şişmiş yanaqlarının qəribə hərəkətsizliyi onun enli, mehriban sifətini eybəcər etmiş, üzünün bütün cizgiləri ölüm maskasının altında qalmışdı, yalnız şişlərin dərinliyinə düşmüş gözləri aydın nəzərlə baxır, şəfqətli təbəssümlə gülümsünürdü.

O:

– Ey, darülülum! Yoruldum, uzana bilərəm?.. – deyə soruşdu.

Doktor:

– Yox! – dedi.

– Onda sən gedəndən sonra uzanaram...

– Nilovna, siz qoymayın uzansın! Balışlarını düzəldin. Bir də xahiş edirəm, onunla danışmayın, ona zərərdir...

Ana başı ilə razılıq işarəsi etdi. Doktor sürətli və xırda addımlarla otaqdan çıxdı. Yeqor başını geriyə atdı, gözlərini yumub



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

hərəkətsiz qaldı; yalnız əl barmaqları yavaş-yavaş tərpəşirdi. Balaca otağın ağ divarlarından quru, soyuq qüssə saçılırdı. İri pəncərədən cökə ağaclarının qıvrım təpəsi görünür, qaranlığa bürünmüş tozlu yarpaqların arasından yaxınlaşmaqda olan payız soyuğunun nəfəsindən saralmış ləkələr aydınca parlayırdı.

– Ölüm mənə yavaş-yavaş, könülsüz yaxınlaşır... – Yeqor tərpənmədən və gözlərini açmadan danışmağa başladı. – Görünür, onun da mənə bir az rəhmi gəlir, yəqin deyir, elə üzüyola oğlan idi ki...

Ana onun əlini yavaşca sığallayaraq:

– Yeqor İvanoviç, susaydın! – deyə xahiş etdi.

– Bir az dayan, susacağam...

Yeqor, nəfəsi kəsildiyindən, sözləri güclə deyərək zəiflikdən uzun fasilə verə-verə sözünə davam etdi:

– Çox yaxşı oldu ki, siz bizim işimizə qoşuldunuz. Sizin üzünüzü görmək nə qədər xoşdur! Öz-özümdən soruşuram: görəsən, bu qadının axırı nə olacaq? Hamı kimi, sizi də dustaqxana və hər cür həqarət gözlədiyini düşünəndə, adamı qüssə alır. Siz dustaqxanadan qorxmursunuz ki?

Ana sadəcə cavab verdi:

– Yox!

– Bəli. Əlbəttə. Ancaq yenə də dustaqxana murdar şeydir, məni bu kökə salan da o olubdur. Sözün düzü, mən ölmək istəmirəm...

Ana: “Bəlkə də ölməyəcəksən!” – demək istədi, lakin onun üzünə nəzər salıb dinmədi.

– Mən hələ işləyə bilərdim... Ancaq işləmək mümkün olmayanda nə ilə yaşayasan, onda yaşamaq da mənasızdır...

Ana biixtiyar Andreyin dediyi “haqq sözdür, ancaq təsəlli vermir!” – sözlərini xatırladı və dərindən ah çəkdi. Bu gün ana çox yorulmuş, həm də acmışdı. Xəstənin yeknəsəq və süst pıçıltısı otağı dolduraraq, aciz-aciz hamar divarlara dırmaşırdı. Pəncərə dalındakı cökə ağaclarının təpələri alçaqdan gedən buludlara bənzəyir və qüssə gətirən qaralığı ilə adamı heyrətləndirirdi. Hər şey axşamın hərəkətsizliyində, gecənin cansıxıcı intizarında duruxmuş, donub qalmışdı.

Yeqor:

– Əhvalım heç yaxşı deyil! – dedi və gözlərini yumub susdu.

Ana məsləhət gördü:



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Yuxula, – bəlkə yaxşı ola.

Sonra xəstənin nəfəsinə qulaq verdi, ətrafına göz gəzdirdi, qəlbində kədər, bir neçə dəqiqə hərəkətsiz oturandan sonra mürgülədi.

Qapının ağzındakı ehtiyatlı hənirti ananı oyatdı; o diksinib Yeqorun gözlərinin açıq olduğunu gördü. Yavaş səslə:

– Yuxuya getdim, bağışla! – dedi.

O da yavaş səslə təkrar elədi:

– Sən də bağışla...

Axşam qaranlığı pəncərədən otağa baxır, tutqun soyuq hava gözləri ağırlaşdırırdı; hər şeyə qəribə bir solğunluq çökmüş, xəstənin üzü qaralmışdı.

Hənirti və Lüdmilanın səsi eşidildi:

– Qaranlıqda oturub pıçıldaşırlar. Bəs buranın elektrik düyməsi hanı?

Bütün otağa birdən ağ, soyuq işıq yayıldı. Ortada tamam qara geyinmiş, ucaboy, şax bədənli Lüdmila dururdu.

Yeqor bərk diksindi, əlini qaldırıb döşünə tutdu.

Lüdmila cəld onun yanına yüyürdü:

– Nə oldu?

Xəstə gözlərini qırpmadan anaya baxırdı, indi bu gözlər nəzərə iri və çox parlaq kimi gəlirdi.

Ağzını geniş açaraq, o, başını yuxarı qaldırır, əlini qabağa uzadırdı. Ana ehmalca onun əlini əlinə aldı və nəfəsini çəkmədən Yeqorun üzünə baxmağa başladı. Yeqor, rəşəli və güclü hərəkətlə boynunu dikəldib başını geri çəkdi və ucadan:

– Daha gücüm yoxdur, hər şey bitdi! – dedi.

Onun bədəni yüngülcə dartındı, başı zəiflikdən çiyninə düşdü və yatağın üstündə yanan çırağın soyuq işığı ölüm parıltısı ilə onun geniş açılmış gözlərində əks etdi.

Ana pıçıldadı:

– Mənim əzizim!

Lüdmila yavaş-yavaş yataqdan aralanıb pəncərənin qarşısında dayandı və gözünü qabaqda nəyə isə dikərək, Vlasovaya tanış olmayan, qeyri-adi uca səslə:

– Öldü... – dedi.

O əyilib pəncərənin içinə dirsəkləndi və birdən onu başından vurublarmış kimi, gücsüz halda dizləri üstə çökərək, əlləri ilə üzünü örtdü və inlədi.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Ana, Yeqorun ağır əllərini sinəsində bir-birinin üstünə qoydu, çox ağırlaşmış başını balışın üstündə düzəltdi; sonra gözlərinin yaşını silə-silə, Lüdmilaya yaxınlaşdı, onun başı üstə əyildi, gur saçlarını yavaşca tumarladı. Qadın üzünü ona tərəf çevirdi, onun solğun gözləri xəstə gözləri kimi geniş açılmışdı. O, ayağa qalxıb titrəyən dodaqları ilə pıçıldadı:

– Biz sürgündə bir yerdə olmuşuq, ora bir gedib, dustaqxanalarda bərabər qalmışıq... Bəzən günümüz o qədər ağır, dözülməz olurdu ki, çoxları ruhdan düşürdü...

Quru, bərk hönkürtü onu qəhərləndirdi, o hönkürtüsünü boğaraq, onu gəncləşdirən məyus, zərif hissdən yumşalmış üzünü ananın üzünə yaxınlaşdırdı, gözündən yaş çıxmadan hıçqıra-hıçqıra tez-tez pıçıldadı:

– O həmişə şən idi, hey zarafat edər, gülər, öz əzablarını mərdliklə gizlədər... zəiflərə ürək-dirək verməyə çalışardı. Mehriban, nəcib, əziz... bir insan idi. Orada, Sibirdə bikarçılıq, işsizlik adamları xarab edir, çox zaman onlarda yaramaz duyğular yaradır, amma o, belə duyğulara qarşı amansız idi!.. Onun necə yoldaş olduğunu bilsəydiniz! Onun şəxsi həyatı ağır, müsibətli idi, ancaq heç kəs ondan bir şikayət eşitməmişdi, heç kəs, heç vaxt! Mən onun yaxın dostu idim, mən onun qəlbinə çox borcluyam, o öz ağlından mənə bütün verə bildiyini verdi, amma özü kimsəsiz, yorğun olduğu halda, bunun əvəzində nə nəvaziş istədi, nə də diqqət...

Qadın Yeqora yaxınlaşdı, əyilib onun əlini öpdü və kədərli, yavaş səslə:

– Yoldaşım, əzizim, mehribanım, təşəkkür edirəm, bütün qəlbimlə təşəkkür edirəm, əlvida! – dedi. – Sənin kimi işləyəcəyəm, yorulmadan, şübhə etmədən, nə qədər nəfəsim var, işləyəcəyəm!.. Əlvida!

Hönkürtü onun bədənini titrətdi, nəfəsi kəsilə-kəsilə o, başını Yeqorun ayaqları tərəfdən yatağa qoydu. Ana dinmədən göz yaşını sel kimi axıdırdı. Nədənsə o, göz yaşlarını saxlamağa çalışır, xüsusi, güclü bir nəvazişlə Lüdmilanı oxşamaq, qüssə və məhəbbət dolu gözəl sözlərlə Yeqordan danışmaq istəyirdi. Yaşlı gözləri ilə Yeqorun şişi yatmış üzünə, qapaqları yarıörtülmüş gözlərinə, yüngül təbəssüm donub qalmış qara dodaqlarına baxırdı. Ətraf sükut və kədərli işıqla dolu idi...



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

İvan Daniloviç həmişəki kimi tələsik, xırda addımlarla içəri girdi, birdən otağın ortasında dayandı, cəld hərəkətlə əllərini ciblərinə soxub, əsəbi və uca səslə soruşdu:

– Çoxdanmı?..

Ona cavab verən olmadı. Ayaqları üstə yavaşca yırğalana-yırğalana, alnını sürtə-sürtə o, Yeqora yaxınlaşdı və onun əlini sıxıb kənara çəkildi.

– Təəccüblü deyil, o ürək ki, onda vardı, bu hadisə altı ay bundan qabaq olmalı idi... ən azı...

Onun uca, yersiz gurultulu və zorla sakit etməyə çalışdığı səsi birdən qırıldı. Kürəyini divara söykəyib barmaqları ilə əsəbi hərəkətlə saqqalını burur və gözlərini tez-tez qırparaq, yatağın yanındakı qadınlara baxırdı. Sonra da yavaş səslə:

– Biri də getdi! – dedi.

Lüdmila qalxıb pəncərəyə tərəf getdi, onu açdı. Bir dəqiqədən sonra onların üçü də, bir-birinə qısılaraq, pəncərənin qabağında dayandı və payız gecəsinin tutqun üzünə tamaşa etməyə başladı. Ağacların qara təpələri üzərində parıldayan ulduzlar göyün uzaqlığını sonsuz dərəcədə dərinləşdirirdi...

Lüdmila ananın qoluna girib, dinmədən onun çiyninə qısıldı. Doktor, başını aşağı salıb dəsmalı ilə gözlüyünü silirdi. Bayırdakı sükut içərisində şəhərin axşam hənirtisi yorğun-yorğun nəfəs alır, sərin yel üzlərə toxunur, saçları tərpədirdi. Lüdmila titrəyir, yanaqlarından göz yaşı axırdı. Xəstəxananın dəhlizində boğuq, qorxulu səslər, tələsik ayaq şappıltısı, inilti, qəm-qüssəli pıçıltı gəzirdi. Pəncərə qabağında hərəkətsiz dayanmış adamlar qaranlığa baxır, dinmirdilər.

Ana özünü burada artıq hiss elədi; yavaşca qolunu çəkib, Yeqora baş əydi və qapıya tərəf yönəldi.

Doktor dönmədən yavaş səslə:

– Gedirsinizmi? – deyə soruşdu.

– Bəli...

Ana küçədə Lüdmilanı düşünərkən, onun xəsis göz yaşlarını xatırladı:

“Ağlamağı da bacarmır...”

Yeqorun ölümqabağı dediyi sözlər onun qəlbindən yavaşca bir ah qopardı. Küçə ilə gedə-gedə o, Yeqorun canlı gözlərini, zarafatlarını, həyata dair söhbətlərini xatırlayırdı.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

"Yaxşı adam üçün yaşamaq çətin, ölmək asandır... Görəsən, mən necə öləcəyəm?.."

Sonra ağ, həddindən artıq işıqlı otaqda, pəncərənin qabağında qalan Lüdmila ilə doktoru, onların arxasında Yeqorun ölü gözlərini xatırladı və insanlara qarşı dərin mərhəmət hissi ilə dərindən ah çəkdi, yerişini yeyinlətdi: ürəyinə nə isə dammışdı.

İçəridən onu yavaşca itələyən kədərli, lakin canlı bir qüvvəyə tabe olaraq, öz-özünə:

"Tələsmək lazımdır", – deyə düşünürdü.

## XI

Ertəsi gün ana əlləşib vurnuxdu, dəfn mərasimi ilə məşğul oldu, axşam o, Nikolay və Sofya çay içərkən, Saşenka səs-küylə və iti addımlarla içəri girdi. Onun yanaqları yanır, gözləri sevincdən parlayırdı, özü də bütünlüklə, anaya göründüyü kimi nəşəli bir ümid ilə dolu idi. Onun bu sevinci ölü haqqındakı kədərli xatirələr aləminə kəskinlik və çoşqunluqla daxil olur, lakin ona qarışmayaraq qaranlıqda qəfildən parlayan od kimi hamını heyrətləndirir, sanki gözləri qamaşdırırdı, Nikolay fikirli halda barmağını masaya vura-vura:

– Saşa, siz bu gün özünüzə oxşamırsınız... – dedi.

Saşa:

– Eləmi? Bəlkə də! – deyə cavab verdi və xoşbəxt halda güldü.

Ana dinmədən, məzəmmətedici nəzərlə ona baxdı, Sofya isə yada salan bir əda ilə:

– Biz Yeqor İvanoviçdən söhbət edirik... – dedi.

Saşenka ucadan:

– Nə gözəl insan idi, elə deyilmi? Mən onu gülümsəməyən, zarafat etməyən görməmişdim. Necə də işləyirdi! O, inqilab rəssamı idi, böyük bir sənətkar kimi o, inqilabi fikir sahibi idi. O, yalan, zülm, haqsızlıq mənzərələrini necə sadə, həm də qüvvətli təsvir edirdi!

O, düşüncəli gözlərində təbəssüm yavaşdan danışırdı, lakin bu təbəssüm onun baxışında heç kəsin anlamadığı, lakin hamının açıq gördüyü şadlıq atəşinin içində əriyib yox olmurdu.



Created with
nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Onlar yoldaşlarının qüssəsini Saşanın özü ilə gətirdiyi nəşəli hissə təslim etmək istəmirdilər; özlərinin kədərli olmaq haqqını qeyri-şüuri müdafiə etməklə bərabər, biixtiyar, qızı da öz əhvali-ruhiyyələri dairəsinə cəlb etməyə çalışırdılar.

Sofya diqqətlə onun üzünə baxaraq təkidlə:

– İndi də o ölübdür! – dedi.

Saşa sürətli və sualedici nəzərlə onlara baxıb, qaşlarını çatdı. Sonra başını aşağı salıb susdu və ehmal hərəkətlə saçlarını düzəltdi. Azacıq fasilədən sonra ucadan:

– Ölübdür! – deyə yenə hamını təhrikedici nəzərlə süzdü. – Necə yəni ölübdür? Ölən nədir? Məgər mənim Yeqora bəslədiyim hörmət, mənim ona, yoldaşıma olan məhəbbətim, onun fikirləri, haqqındakı xatiratım ölübdür? Məgər bu iş ölüb, onun mənim qəlbimdə oyatdığı hisslər məhv olub, onun mərd, namuslu bir insan olduğu haqqında mənim təsəvvürüm məgər puç olubdur?

Məgər bunun hamısı ölübdür? Mənim üçün bunlar heç vaxt ölməz, mən bilirəm. Mənim zənnimcə, biz bir adam haqqında "ölübdür" deməyə çox tələsirik. "Onun dodaqları qapanmışsa da, sözü canlı qəlblərdə əbədi yaşayacaqdır!"

Həyəcana gəlmiş Saşa yenə masanın başına oturdu, dirsəkləndi və dumanlanmış gülümsər gözləri ilə yoldaşlarına baxaraq, bir az da yavaşdan və fikirli halda davam elədi:

– Bəlkə mənim dediklərim cəfəngiyatdır, ancaq mən, yoldaşlar, namuslu insanların əbədiliyinə, yaşamaqda olduğum gözəl həyatla yaşamaq səadətini mənə verənlərin əbədiliyinə inanıram; bu həyat öz qəribə mürəkkəbliyi, hadisələrinin müxtəlifliyi, mənə qəlbim qədər əziz olan ideyalarının yüksəlişi ilə məni nəşələndirir, sərxoş edir. Bəlkə də biz öz hisslərimizi işlətməkdə artıq qənaət edir, çox vaxt fikirlərlə yaşayırıq, bu da bizi bir qədər təhrif edir, biz hiss etmir, ancaq qiymətləndiririk...

Sofya gülümsünərək:

– Yoxsa siz nədənsə xoşhallanmısınız? – deyə soruşdu.

Saşa başı ilə işarə edərək:

– Bəli, – dedi. – Zənnimcə, çox! Bütün gecəni mən Vesovşikovla söhbət eləmişəm, qabaqlarda mən onu xoşlamazdım, o mənə kobud və nadan görünərdi. Şübhəsiz, o məhz belə idi. Onda hamıya qarşı dəyişilməz bir acıq vardı, o daim özünü dəhşətli bir ağırlıqla



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

hər şeyin mərkəzinə qoyub, kobud və hirslə mən, mən, mən! – deyərdi. Bunda bir meşşanlıq, adamı acıqlandıran bir şey vardı...

O gülümsündü və yenə hamını parlaq gözləri ilə süzdü:

– İndi o, yoldaşlardan danışır, bu sözü necə dediyini eşitmək lazımdır! Utancaq, səmimi məhəbbətlə deyir, bunu sözlə ifadə etmək olmaz! Çox sadə və səmimi olubdur, işləmək arzusu ilə coşur! O, özünü dərk etmişdir, öz qüvvəsini görür, öz çatışmayan cəhətlərini bilir və ən ümdəsi budur ki, onda həqiqi yoldaşlıq hissi oyanmışdır...

Vlasova Saşanın nitqini dinləyir və bu ciddi qızı mülayim və şad görmək ona xoş gəlirdi. Eyni zamanda, qəlbinin ən dərin guşəsində qısqanclıq baş qaldırırdı:

"Bəs Paşa necə?.."

– Onun bütün fikri-zikri yoldaşları ilədir, – deyə Saşa sözünə davam elədi, – mənə nə təklif etdiyini bilirmisiniz? Yoldaşları qaçırmaq lazımdır, deyir, bəli! O deyir ki, bu çox, sadə və asan işdir...

Sofya başını qaldırıb, vəcdə gəlmiş kimi:

– Bəs siz nə deyirsiniz, Saşa? – dedi. – Bu, gözəl fikirdir?

Ananın əlindəki çay fincanı titrədi. Saşa həyəcanını gizlədərək, qaşlarını çatdı və bir qədər sükutdan sonra nəşə ilə gülümsünərək ciddi səslə, tutula-tutula dedi:

– Doğrudan da hər şey o dediyi kimi isə, biz təşəbbüs eləməliyik!.. Bu, bizim borcumuzdur!..

O qızardı və kürsüyə əyləşib susdu. Ana gülümsünərək düşündü:

"Mənim əzizim!" Sofya da gülümsündü. Nikolay isə, mülayim nəzərlə Saşanın üzünə baxaraq, yavaşdan güldü. Onda qız başını qalxızıb, ciddiyyətlə hamıya göz gəzdirdi, onun rəngi ağardı, gözləri parıldadı; quru və incimiş səslə o:

– Siz gülürsünüz, mən sizi anlayıram... – dedi. – Siz belə hesab edirsiniz ki, mən özüm üçün deyirəm?

Sofya hiyləgərliklə:

– Nə üçün, Saşa? – dedi və ayağa qalxıb ona yanaşdı.

Bu, anaya yersiz, həm də qızın ürəyinə dəyə bilən bir sual kimi göründü; o ah çəkib qaşını dartdı və məzəmmət dolu nəzərlə Sofyaya baxdı.

Saşa ucadan:

– Ancaq mən özümü kənar edirəm! – dedi. – Siz bu məsələni müzakirəyə qoyanda mən iştirak etməyəcəyəm...



Created with nitro PDF professional
download the free trial online at nitropdf.com/professional

Nikolay aramla:

– Boşlayın, Saşa! – dedi.

Ana da ona yaxınlaşdı və əyilib ehtiyatla başını tumarladı. Saşa onun əlini tutdu və qızarmış üzünü qaldırıb utana-utana ananın üzünə baxdı. Ana gülümsündü və Saşaya deyiləsi bir söz tapmayıb, qüssə ilə ah çəkdi. Sofya gəlib Saşanın yanında oturdu, onun çiyinlərini qucaqladı və maraq dolu təbəssümlə gözlərinə baxaraq:

– Siz nə qəribəsiniz!.. – dedi.

– Doğrudan da, deyəsən, mən axmaqlıq elədim...

Sofya sözünə davam edərək:

– Siz necə fikrinizə gətirə bilərdiniz ki... – dedi. Lakin Nikolay işgüzar və ciddi səslə onun sözünü kəsdi:

– Yoldaşları qaçırmaq mümkün isə, bu barədə iki rəy ola bilməz. Hər şeydən əvvəl biz dustaq yoldaşların rəyini bilməliyik, onlar özləri qaçmaq istəyirlərmi...

Saşa başını aşağı saldı.

Sofya papirosunu yandıraraq, qardaşına baxdı və kibriti zərblə bir bucağa tulladı.

Ana ah çəkib:

– Onlar necə istəməsinlər ki! – dedi. – Ancaq mən inanmıram ki, bu mümkün ola...

Hamı susurdu, ana isə həbsxanadan qaçmağın mümkün olub-olmadığı haqqında söhbətin davamını gözləyirdi.

Sofya:

– Mən Vesovşikovla görüşməliyəm! – dedi.

Saşa yavaşca:

– Görüşün yerini və saatını mən sizə sabah xəbər verərəm, – deyə cavab verdi.

Sofya otaqda gəzinə-gəzinə soruşdu:

– Bəs o nə iş görəcəkdir?

– Onu yeni mətbəəyə mürəttibliyə düzəltməyi qət ediblər. Amma hələlik meşəbəyinin yanında qalacaqdır.

Saşanın qaşları çatıldı, üzünün ifadəsi həmişəki kimi ciddi şəkil aldı, səsi də sərtləşdi. Nikolay fincanları yumaqda olan anaya yaxınlaşıb dedi:

– Birisi gün siz görüşə gedirsiniz! Pavelə bir kağız aparmalısınız. Başa düşdünüzmü, gərək öyrənək ki...



Created with nitro PDF professional
download the free trial online at nitropdf.com/professional

Ana tələsik cavab verdi:

– Bilirəm, bilirəm! Mən apararam...

Saşa:

– Mən gedirəm! – deyə qalxdı, bir söz demədən hamının əlini tez-tez sıxdı və möhkəm addımlarla, düz və sərt yerişlə çıxıb getdi.

Sofya əllərini ananın çiyinlərinə qoydu və onu kürsünün üstündə yırğalaya-yırğalaya təbəssümlə soruşdu:

– Nilovna, sizin belə qızınız olsaydı, onu istərdinizmi?

– Ah, pərvərdigara! Bircə gün onları bir yerdə görsəydim! – Vlasova az qaldı ağlasın.

Nikolay yavaşdan:

– Bəli, azacıq bir səadət hər kəs üçün yaxşı olardı!.. – dedi. – Ancaq azacıq səadət istəyən adam yoxdur. Səadət çox olanda isə ucuzlaşır...

Sofya pianonun qabağında oturub, qüssəli bir hava çalmağa başladı.

## XII

O biri gün səhərdən əlli-altmışa qədər kişi və qadın, xəstəxananın darvazası ağzında yığışıb, yoldaşlarının cənazəsinin küçəyə çıxarılmasını gözləyirdi. Casuslar ehtiyatla onların ətrafında dolanaraq, həssas qulaqları ilə ayrı-ayrı sədaları tutur, üzləri, hərəkətləri və sözləri yadda saxlayırdılar, küçənin o biri yanında isə bir dəstə beli tapançalı polis onlara tamaşa edirdi. Casusların həyasızlığı, polislərin istehzalı gülüşləri və öz qüvvələrini göstərməyə hazır olmaları izdihamı qəzəbləndirirdi. Bəziləri öz qəzəbini gizləyərək zarafat edir, o biriləri təhqiredici hərəkətləri görmək istəməyərək, hirsli gözlərini yerə dikir, üçüncüləri isə, qəzəblərini gizləməyərək, yalnız söz ilə silahlanmış adamlardan qorxan hökumətə rişxəndlə gülürdülər. Açıq-mavi payız səması yumru boz daşlarla örtülmüş, sarı yarpaqlarla bəzənmiş küçəyə nur səpirdi, külək isə yarpaqları qaldıraraq adamların ayağı altına atırdı.

Ana izdihamın içində durub, tanış üzləri seyr edəndə qüssə ilə düşünürdü:



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

"Azsınız, azsınız! İşçi xalq da içinizdə yoxdur, demək olar ki, yoxdur..."

Darvaza açıldı, qırmızı lentli əklillərlə bəzənmiş tabut qapağını küçəyə çıxardılar. Adamların hamısı birdən şlyapalarını çıxardı, sanki bir sürü qara quş onların başları üstündə uçuşdu. Qırmızı üzlü, qara bığlı, ucaboy polis zabiti cəld addımlarla izdihama doğru yeridi, onun dalınca ağır çəkmələrini daşlara vurub taqqıldadan əsgərlər adamları həyasızcasına itələməyə başladılar. Zabit batıq, amiranə səslə:

– Xahiş edirəm, lentləri açasınız! – dedi.

Kişi və qadınlar onun ətrafını alıb, əllərini yelləyə-yelləyə, bir-birini itələyə-itələyə hiddətlə ona nə isə deyirdilər. Ananın gözünə rəngi qaçmış, həyəcanlı üzlər, titrək dodaqlar dəyirdi, hirslənmiş bir qadının üzündən göz yaşları axırdı...

Bir gənc səsi:

– Rədd olsun zorakılıq, – deyə qışqırdı və tək-tənha mübahisəli gurultusunda itib-batdı.

Ana da öz qəlbində kədər duydu, yanında duranlardan kasıb geyimli bir cavan oğlana üzünü tutub həyəcanla dedi:

– Qoymazlar ki, xalq öz yoldaşını istədiyi kimi dəfn etsin, belə də iş olar!

Ədavət artır, tabutun qapağı adamların başları üzərində yırğalanır, külək lentləri oynadaraq, onları adamların başına və üzünə dolayır, ipəyin quru və əsəbi xışıltısı eşidilirdi.

Toqquşma ehtimalı ananın ürəyinə qorxu saldı, o, tələsə-tələsə və yavaş səslə sağına-soluna:

– İndi ki, belədir, eyibi yoxdur lentləri açmaq yaxşıdır! – deyirdi. – Daha nə etməli, qoy onlar deyən olsun!..

Uca və sərt bir səs gurultunu yararaq:

– Biz tələb edirik ki, verdiyiniz əzablardan ölən adamı son qərargahına yola salmağımıza mane olmayasınız...

Kim isə uca və nazik səslə oxumağa başladı:

Siz həlak oldunuz mübarizədə!..

– Lentləri açmağınızı xahiş edirəm! Yakovlev, kəs!

Qınından çıxarılan qılıncın cingiltisi eşidildi. Ana bir çığırtı gözləyərək, gözlərini yumdu. Lakin sükut daha da dərinləşdi,



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

adamlar deyinir, mühasirəyə alınmış canavar kimi dişlərini qıcıyırdılar. Sonra onlar sükut içində başlarını aşağı salıb küçəni ayaq səsləri ilə dolduraraq irəlilədilər.

Qabaqda tabutun qarət edilmiş və əklilləri əzilmiş qapağı havada üzür, atlı polislər yırğalana-yırğalana gedirdilər. Ana səki ilə addımlayır və sıx izdiham tərəfindən dövrəyə alınıb gözdən itən tabutu görmürdü. İzdiham birdən-birə artmış və küçənin bütün enini tutmuşdu. İzdihamın dalında da atlıların boz vücudları yüksəlir, yanlardan isə əllərini qılınclarının dəstəsinə qoymuş piyada polislər yeriyirdi; anaya tanış olan iti casus gözləri hər tərəfdən görünür və diqqətlə adamların üzünə sancılırdı.

İki məlahətli səs həzin-həzin oxumağa başladı:

Əlvida yoldaşımız, əlvida!..

Birisi:

– İstəməz! – deyə qışqırdı. – Həzərat, sükut edək!..

Bu qışqırıqda sərt, təsiredici bir qüvvə vardı. Kədərli nəğmə kəsildi, danışıq yavaşıdı, yalnız ayaqların möhkəm tappıltısı küçəni boğuq, yeknəsəq bir səslə doldururdu. Bu səs adamların başları üstündən qalxıb şəffaf göyə yüksəlir və hələ uzaqda olan fırtınanın birinci gurultusu kimi havanı sarsıdırdı. Qüvvətlənməkdə olan soyuq külək şəhər küçələrinin toz və zibilini acıqla adamların üzünə çırpır, paltarları və saçları yellədir, gözləri yumur, döşlərə çırpınır, ayaqlara dolaşırdı...

Keşişsiz, ürək sıxan nəğməsiz, sükut içində gedən bu dəfn mərasimi, fikirli üzlər, çatılmış qaşlar ananın qəlbində qorxunc bir hiss yaradırdı, fikirləri isə yavaş-yavaş hərlənərək, bu təəssüratı qüvvətli sözlərlə ifadə etdirdi:

"Haqq yol ilə gedənlər, siz azsınız..."

Ana başıaşağı yeriyirdi və ona elə gəlirdi ki, bu dəfn edilən Yeqor deyil, anaya yaxın, onun alışmış olduğu başqa bir adamdır, onun ürəyi sıxılır, o, özünü narahat hiss edirdi. Qəlbi, Yeqoru aparan adamların fikrinə şərik olmayan həyəcanlı və kələ-kötür bir hisslə dolurdu.

Öz-özünə:

– Əlbəttə, Yeqoruşka Allaha inanmırdı, bunların hamısı da inanmır! – deyə düşünürdü...



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Lakin fikrini tamamlamayaraq, ah çəkir, qəlbindəki ağırlığı atmağa cəhd edirdi.

"Ah, pərvərdigara, pərvərdigara! Olmaya, məni də belə..."

Qəbiristana yetişdilər və uzun müddət orada qəbirlər arasında dar cığırlarla dolaşdıqdan sonra, alçaq, ağ xaçlarla örtülmüş açıq bir yerə çıxdılar. Qəbrin ətrafına yığışıb susdular, qəbirlər arasındakı canlıların bu sərt sükutu dəhşətli bir hadisədən xəbər verirdi, bundan da ananın ürəyi qorxub intizar içində donub qaldı. Xaçların arasında külək vıyıldayıb inləyir, tabutun qapağı üstündəki əzilmiş çiçəklər yazıq-yazıq çırpınırdı...

Polislər izdihama daha artıq diqqət yetirməyə başladılar, özlərini düzəldərək gözlərini rəisə dikdilər. Rəngi qaçmış, uzun saçlı, qaşları qara, uca boylu, başı açıq bir cavan oğlan qəbirin üzərində dikəldi. Eyni zamanda polis rəisinin boğuq səsi eşidildi:

– Həzərat!..

Qaraqaş oğlan uca və cingiltili səslə:

– Yoldaşlar! – deyə sözə başladı.

Polis:

– Bağışlayın! – deyə qışqırdı. – Nitqlərə yol verə bilməyəcəyimi elan edirəm...

Cavan oğlan sakit səslə:

– Mən ikicə söz deyəcəyəm! – dedi. – Yoldaşlar! Gəlin, müəllimimiz və dostumuzun qəbiri üzərində and içək ki, onun vəsiyyətlərini heç vaxt unutmayacağıq, vətənimizin bütün bəlalarına səbəb olan, onu zülm altında saxlayan murdar qüvvəyə – mütləqiyyətə hər birimiz son nəfəsinə qədər, yorulmadan qəbir qazacaqdır!

Polis:

– Tutun, – deyə qışqırdı, lakin bütün boğazlardan eyni zamanda çıxan:

– Rədd olsun mütləqiyyət! – çığırtısı onun səsini batırdı.

Polislər, izdihamı yara-yara, natiqə tərəf atıldılar, o isə hər tərəfdən sıx əhatə edilərək, əlini qaldırıb çığırırdı:

– Yaşasın azadlıq!

Ananı kənara itələdilər, orada o, qorxudan bir xaça söykənərək, zərbə gözləyirmiş kimi gözlərini yumdu. Hər tərəfdən gələn qarışıq səslərin gurultusu onun qulağını batırır, ayaqları altında yer yırğalanır, külək və vahimə nəfəsini kəsirdi. Polislərin həyəcanlı fiti



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

havada titrəyir, komanda verən kobud səs guruldayır, qadınlar dəhşətlə çığırır, hasarın taxtaları şaqqıldayır və quru yerdə ayaqların ağır tappıltısı eşidilirdi. Bu vəziyyət çox uzun çəkdi və gözü yumulu durmaq anaya dözülməz dərəcədə dəhşətli gəldi...

Ana gözlərini açdı və əllərini uzadaraq qışqırtı ilə qabağa atıldı. Onun yaxınlığında, dar cığırda qəbirlər arasında polislər, uzun saçlı oğlanı dövrəyə alaraq, dörd tərəfdən onlara hücum edən izdihamdan özlərini qurtarmağa çalışırdılar. Sıyrılmış qılınclar başların üzərində görünür və tez enərək havada soyuq və ağ xətlər cızırdı. Havada əl ağacları, hasar taxtalarının qırıqları oynayır, əlbəyaxa olmuş adamların səsləri vəhşi bir rəqslə fırlanır, cavan oğlanın ağarmış üzü yüksəklikdən görünür və möhkəm səsi coşqun qəzəb gurultusunu boğurdu:

– Yoldaşlar! Qüvvənizi nəyə sərf edirsiniz...

O, qaçdı. Adamlar, ağaclarını yerə ataraq, bir-birinin dalınca kənara çəkilirdi, ana isə, sarsılmaz bir qüvvənin təsiri ilə irəli soxulur və gözlərini şlyapası peysərinə əyilmiş Nikolaydan çəkmirdi; Nikolay hirsdən sərxoş olmuş adamları kənara itələyir və məzəmmətlə hamıya:

– Siz dəli olmusunuz, nədir! Sakit olun!.. – deyə qışqırırdı.

Onun bir əli ananın nəzərinə qırmızı göründü. Ana onun yanına atılaraq çığırdı:

– Nikolay İvanoviç, çıxın buradan!

– Hara? Sizi orada vurarlar...

Şlyapasız, saçları dağılmış Sofya, əli ilə yeniyetmə bir oğlanı tutaraq, ananın çiynindən yapışdı və onun yanında durdu. Oğlan əzilmiş, qanamış üzünü əli ilə silir və titrək dodaqları ilə:

– Buraxın, bir şey deyil!.. – deyirdi.

Sofya tez-tez anaya:

– Bununla məşğul olun, bizə aparın! Bu da dəsmal, üzünü sarıyın, – deyirdi və oğlanın əlini ananın əlinə verərək:

– Tez gedin, tutarlar... – deyə qaçıb uzaqlaşdı.

Qəbiristanlıqda hərə bir tərəfə dağılışdı. Onların dalınca da polislər qəbirlərin arası ilə, ayaqları şinellərinə dolaşa-dolaşa, söyə-söyə, qılınclarını tovlaya-tovlaya ağır addımlarla yeriyirdilər. Oğlan onların dalınca canavar baxışı ilə baxırdı. Ana, onun üzünü dəsmalla silib yavaşdan:



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

– Tez ol gedək! – dedi.

Oğlan ağzından qan tüpürə-tüpürə deyinirdi:

– Siz narahat olmayın, ağrımır. O, məni qılıncının dəstəsi ilə vurdu... Mən də onu dəyənəklə elə vurdum ki, uladı...

Oğlan qanlı yumruğunu silkələyərək, kəsik-kəsik əlavə elədi:

– Dayanın, hələ çox şey olacaq. Biz sizi dava-dalaşsız əzəcəyik, qoy bir qalxaq, bütün fəhlə xalq ayağa dursun!

İti addımlarla qəbiristan hasarındakı balaca qapıya doğru yeriyən ana oğlanı tələsdirirdi:

– Tez, tez!..

Anaya elə gəlirdi ki, orada, hasarın dalında, çöldə polislər gizlənib, onları gözləyirlər və onlar çıxan kimi üzərlərinə atılıb, döyməyə başlayacaqlar. Lakin balaca qapını ehtiyatla açıb, payız axşamının tutqun toruna bürünmüş çölə baxdıqda oradakı sükut və adamsızlıq birdən-birə ananı sakitləşdirdi.

O:

– Qoyun üzünüzü bağlayım, – dedi.

– Axı nə lazım, mən belə də xəcalət çəkmirəm! Mərd dava oldu, o – məni, mən də onu!..

Ana tələsik onun yarasını bağladı. Gördüyü qan onun qəlbini mərhəmətlə doldurur, barmaqları qanın istisini duyanda isə canını dəhşətli titrəmə tuturdu. Yaralının əlindən yapışaraq, ana iti addımlarla, dinməz-söyləməz onu çöl ilə apardı. Oğlan ağzını sarğıdan azad edərək gülə-gülə deyirdi:

– Ay yoldaş, məni hara çəkirsiniz? Mən özüm gedə bilərəm!..

Lakin ana onun yırğalandığını, ayaqlarının möhkəm yerimədiyini və əlinin titrədiyini hiss edirdi. Get-gedə zəifləyən səslə oğlan cavab gözləmədən danışır, ondan xəbər alırdı:

– Mən tənəkəçi İvanam, siz kimsiniz? Yeqor İvanoviçin dərnəyində biz tənəkəçilər üç nəfər idik... Bütün iştirak edənlər isə on bir nəfər idi. Onu çox sevərdik. Allah ona rəhmət eləsin, hərçənd ki, mən Allaha inanmıram...

Küçələrin birində ana fayton tutdu və İvanı faytona mindirib, pıçıltı ilə ona:

– İndi dinməyin! – dedi və dəsmal ilə yavaşca onun ağzını sarıdı.

Oğlan əlini üzünə qaldırdı, lakin daha ağzının sarığını aça bilmədi, əli taqətsiz halda dizləri üstünə düşdü. Yenə də dəsmalın altından səsi gəlirdi:



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

– Mən bu zərbələri unutmaram, əzizlərim... Hə, ondan qabaq da bizimlə tələbə Titoviç dərs keçirdi... siyasi iqtisaddan... Sonra tutdular.

Ana İvanı qucaqlayıb, başını öz döşünə dayadı, oğlan birdən ağırlaşıb susdu. Qorxudan nəfəsi kəsilə-kəsilə ana gözaltı ətrafına baxırdı; ona elə gəlirdi ki, budur, bir yerdən, tinin dalından polislər çıxıb İvanın sarıqlı başını görəcək və onu tutub öldürəcəklər.

Faytonçu yerində dönüb, gülə-gülə soruşdu:

– Deyəsən içib?..

Ana ah çəkib:

– Elə içibdir ki, nə özünü bilir, nə sözünü! – deyə cavab verdi.

– Oğlundur?

– Oğlumdur, çəkməçidir. Mən də bir evdə qulluq eləyirəm, aşpazam.

– Yazıq arvad!.. Bə-əə-li.

Faytonçu, qamçısını atlara tərəf tovlayıb, yenə başını çevirdi və yavaşdan sözünə davam elədi:

– Eşidirsənmi, indicə qəbiristanda vuruşma oldu!.. Deməli, bir nəfər siyasi adamı, hökumətin üzünə duranlardan birini basdırırmışlar... nə bilim, hökumət ilə onların bəhsli məsələləri var. Onu basdıranlar da, deməli, belə adamlardan, onun yoldaşlarından imiş. Orada çığırmağa başlayıblar ki, yox olsun hökumət, xalqı soyur... Polislər qılınca əl atırlar! Belə deyirlər, bir neçəsini qılıncdan keçirib öldürüblər. Amma polislər də öz payını alıblar... – Faytonçu susdu və kədərli-kədərli başını bulayıb qəribə bir səslə: – Ölüləri narahat eləyir, rəhmətlikləri oyadırlar! – dedi.

Fayton taqqıltı ilə küçədə atılıb-düşür, İvanın başı da ananın döşünə dirənib, yavaşdan onu itələyirdi; faytonçu anaya yanakı oturub, fikirli halda yavaşça deyirdi:

– Xalqın arasında qarışıqlıq var, yerdən narazılıq qalxır, bəli! Dünən gecə bizim qonşumuza jandarmlar gəlib səhərə kimi orada nə isə əlləşdirdilər, səhər də bir dəmirçini tutub apardılar. Deyirlər, gecə onu çay kənarına aparıb, orada xəlvətcə boğacaqlar. Dəmirçi də heç pis adam deyildi...

Ana:

– Adı nə idi? – deyə soruşdu.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

– Dəmirçinin? Saveldir, ləqəbi də Yevçenkodur. Cavan idi, amma gözüaçıq adi. Görünür, gözüaçıq olmaq qadağan imiş! Hərdənbir, görürdün gəlir: – Ay faytonçular, bu nə yaşayışdır? – deyirdi. Doğrudur, deyirdik, it yaşayışından da pisdir.

Ana:

– Dayan! – dedi.

İvan təkandan oyandı və yavaşca inildədi.

Faytonçu:

– Oğlanı zor tutub! – dedi, – eh, araq, araq...

İvan çətinliklə ayaqlarını sürüyərək, bədəni titrəyə-titrəyə həyəti keçir və deyirdi:

– İstəməz, mən özüm...

## XIII

Sofya evdə idi, papiros ağzında, həyəcanlı və cəld hərəkətlə ananı qarşıladı.

O, yaralını divanın üstünə uzadaraq, papirosun tüstüsündən gözlərini qıya-qıya onun başındakı sarığı ustalıqla açır və sərəncam verirdi:

– İvan Daniloviç, gətirdilər! Nilovna, yəqin yorulmusunuz? Qorxdunuz, eləmi? Dincəlin. Nikolay, Nilovnaya bir qədəh portveyn ver!

Hələ də bugünkü hadisələrin təsiri altında olan ana ağır nəfəs alır, döşündə sancı hiss edirdi. O:

– Siz mənə görə narahat olmayın... – deyirdi.

Eyni zamanda bütün varlığı ilə özünə diqqət və sakitləşdirici nəvaziş göstərilməsini yalvarıcı nəzərlə tələb edirdi.

O biri otaqdan qolu sarıqlı Nikolay və tükləri kirpi kimi biz-biz olub, pırtlaşmış doktor İvan Daniloviç çıxdı. O tez İvana yaxınlaşıb:

– Su, çoxlu su, təmiz kətan parçaları, pambıq... – deyib yaralının üstünə əyildi.

Ana mətbəxə tərəf hərəkət elədi, ancaq Nikolay sol əli ilə onun qolundan yapışıb, mehriban səslə:

– Sizə demirlər, Sofyaya deyirlər. Bu gün siz çox iztirab çəkmisiniz, əziz insan, eləmi? – deyə-deyə onu yemək otağına apardı.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Ananın gözləri onun diqqətli, mehriban nəzərinə sataşdı, özünü saxlaya bilməyib hönkürtü ilə ağlaya-ağlaya qışqırdı:

– Nə yaman işlər oldu, mənim əzizim! Doğrayırdılar, adamları qılıncla doğrayırdılar!

Nikolay ona şərab verərək, başını tərpətdi və:

– Gördüm! – dedi. – Hər iki tərəf bir az qızışdı. Ancaq siz xatircəm olun, onlar qılıncı yanı ilə vururdular, bərk yaralanan deyəsən, bircə nəfərdir. Onu mənim gözümün qabağında vurdular, aradan mən çıxardım...

Nikolayın üzü və səsi, otağın istisi və işığı Vlasovanı sakitləşdirirdi. Qadın, razılıq hissilə onun üzünə baxıb:

– Sizidəmi vurdular? – deyə soruşdu.

– Gərək ki, mən özüm ehtiyatsızlıq edib qolumu bir şeyə vurdum, dərisini sıyırdım. Çay için, soyuqdur, paltarınız da ki, nazikdir...

Ana əlini fincana uzatdı, lakin barmaqlarının qana bulaşmış olduğunu görüb, biixtiyar əllərini dizinin üstünə saldı, – tumanı da yaş idi. O, gözlərini geniş açıb, qaşını dartıb, altdan-altdan öz barmaqlarına baxırdı; onun başı hərlənir, qəlbində isə bir fikir çırpınırdı:

“Bax, Paşaya da beləcə divan tuta bilərlər”.

İvan Daniloviç bir jiletdə, köynəyinin qolları çırmanmış, içəri girdi və Nikolayın sözsüz sualına cavab olaraq, nazik səsi ilə:

– Üzündəki yara yüngüldür, – dedi, – amma kəlləsi çapılıb; qorxulu deyil, sağlam oğlandır! Ancaq qanı çox gedib. Xəstəxanaya göndərəcəyikmi?

Nikolay:

– Nə üçün? – deyə səsləndi. – Qoy burada qalsın!

– Bugünlük mümkündür, bəlkə sabah da olar, ancaq sonra xəstəxanada yatmağı mənim üçün yaxşıdır. Bura gəlməyə macalım olmaz! Qəbiristandakı hadisə haqqında vərəqə yazacaqsanmı?

Nikolay:

– Əlbəttə! – deyə cavab verdi.

Ana yavaşca durub, mətbəxə tərəf getdi. Nikolay dərhal qabağa gəlib onu dayandırdı:

– Hara gedirsiniz, Nilovna? Sofya tək ötüşə bilər!

Ana onun üzünə baxdı, diksinərək qəribə bir təbəssümlə gülümsündü və cavab verdi:

– Tamam qan içindəyəm...



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Öz otağında paltarını dəyişərək, ana bir daha bu adamların sakitliyini, dəhşətli hadisələrin təsirindən tezliklə xilas olduqlarını düşünürdü. Bu düşüncə onu ayıldır, qəlbindəki qorxunu vurub çıxarırdı. Ana yaralının yatdığı otağa gəldiyi zaman, Sofya onun üstünə əyilib:

– Boş sözdür, yoldaş! – deyirdi.

Yaralı da zəif səslə etiraz edirdi:

– Axı mən sizi narahat edərəm!

– Susun, bunun sizə xeyri daha çox olar...

Ana Sofyanın dalında durdu və əllərini onun çiyninə qoyub, gülümsəyərək yaralının solğun üzünə baxdı, sonra da gülə-gülə onun faytonda sayıqladığından və ehtiyatsız sözləri ilə ananı qorxutduğundan nağıl etməyə başladı. İvan qulaq asır, gözləri qızdırmalı gözü kimi parlayırdı; dodaqlarını marçıldadaraq o, yavaşdan, utana-utana deyirdi:

– Ox... mən nə axmaq imişəm!..

Sofya onun yorğanını düzəldərək:

– Daha biz gedək! – dedi. – Siz rahatlanın!

Onlar yemək otağına keçdilər və orada günün hadisəsindən uzun-uzadı söhbət eləməyə başladılar. Onlar bu faciəni çoxdan keçmiş bir hadisə kimi müzakirə edir, ümidlə gələcəyə göz dikir, sabahın iş üsullarından danışırdılar... Üzlər yorğun idisə də, fikirlər canlı idi, adamlar öz işlərindən danışarkən özlərindən narazı olduqlarını gizlətmirdilər. Doktor kürsüdə əsəbi halda tərpəşə-tərpəşə nazik, kəskin səsini güclə saxlayır və deyirdi:

– Təbliğat, təbliğat! İndi bu azdır, gənc fəhlələr haqlıdırlar! Təşviqatı genişləndirmək lazımdır, fəhlələr haqlıdırlar, mən deyirəm...

Nikolay ciddi və onun ahənginə uyğun bir ahənglə təsdiq etdi:

– Hər tərəfdən ədəbiyyat azlığından şikayət edirlər, amma biz indiyə kimi yaxşı bir mətbəə qura bilmirik. Lüdmila da lap əldən düşür, ona köməkçi verməsək naxoşlar..

Sofya soruşdu:

– Bəs Vesovşikov?

– O, şəhərdə qala bilməz. O ancaq təzə mətbəədə işə başlaya bilər, təzə mətbəəyə də yenə bir adam lazımdır.

Ana yavaşcadan:

– Mən yaramarammı? – deyə soruşdu.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Onların üçü də ona tərəf döndü və bir neçə saniyə susdu.

Sofya:

– Yaxşı fikirdir, – deyə səsləndi.

Nikolay ciddiyyətlə:

– Yox, Nilovna, sizin üçün bu iş çətin olar! – dedi. – Siz şəhərdən kənarda yaşamalı, Pavel ilə görüşməkdən əl çəkməli olardınız, ümumiyyətlə də...

Ana ah çəkərək, etiraz elədi:

– Paşa üçün bu, böyük dərd olmaz, elə mənim də bu görüşlər qəlbimi didir! Heç zaddan danışmaq olmur. Axmaq kimi oğlunun qabağında durursan, yandan da ağzına göz dikib gözləyirlər ki, artıq bir şey deməyəsən...

Son günlərin hadisələri ananı yormuşdu, indi də, özü üçün şəhərdən kənarda, onun faciələrindən uzaqda yaşamaq imkanı olduğunu eşitcək, bərk-bərk bu imkandan yapışdı.

Lakin Nikolay söhbəti dəyişdi. O, doktora müraciət etdi:

– Nə düşünürsən, İvan!

Doktor masanın üzərində aşağı saldığı başını qaldırıb əsəbi cavab verdi:

– Biz azıq, bunu fikirləşirəm! Daha artıq enerji ilə işləmək lazımdır... Pavel ilə Andreyi də inandırmaq lazımdır ki, qaçsınlar, onların ikisi də iş üçün çox qiymətlidir, işsiz qala bilməzlər...

Nikolay qaşlarını çatdı və şübhə ilə başını bulayaraq gözaltı anaya baxdı. Ana, onun yanında oğlu haqqında danışmaqdan çəkindiklərini duyaraq, öz otağına getdi; öz arzusuna qarşı bunların belə etinasızlıq göstərməsi ananın bir qədər ürəyinə dəymişdi. Yatağında gözlərini yummadan uzanıb, səslərin pıçıltısı altında ana öz vahiməli fikirləri ilə əlləşməyə başladı,

Keçən gün ağır və anlaşılmaz idi, nəhs əlamətlərlə dolu idi, lakin ana bunu düşünmək istəmirdi və ağır təəssüratı özündən kənar edərək, Paveli düşünməyə başladı. Ana oğlunu azad görmək istəyir, eyni zamanda da qorxurdu: ətrafında vəziyyətin kəskinləşdiyini, ciddi vuruşmaların yaxınlaşdığını görürdü. Adamların səbriqərarı tükənir, onun yerini gərgin intizar tutur, qəzəb sürətlə artır, kəskin sözlər deyilir, hər tərəfdən təhrikedici bir qüvvə saçılırdı.. Hər bir intibahnamə bazarda, dükanlarda, ev qulluqçuları və sənətkarlar arasında qızğın mübahisələrə səbəb olur, şəhərdəki hər həbs,



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

onun səbəbləri haqqında qorxu, heyrət, bəzən də biixtiyar rəğbət ifadə edən mülahizələr oyadırdı. Ana sadə adamlardan vaxtilə onu qorxudan üsyan, sosialistlər, siyasət sözlərini daha tez-tez eşidirdi, bu sözlər istehza ilə deyiləndə istehzanın arxasında hər şeyi bilmək istəyən sualın gizlənməyə çalışdığı, lakin müvəffəq olmadığı sezilirdi, acıqla deyiləndə, onun arxasında qorxu hiss olunurdu; fikirli deyiləndə, ümid və hədə eşidilirdi. Hərəkətsiz, uğursuz həyat üzərində yavaş-yavaş, lakin geniş dairələrlə təlatüm başlanır, yuxuya getmiş düşüncə oyanır və günün hadisələrinə olan vərdiş edilmiş sakit münasibət dəyişilirdi. Bunun hamısını ana başqalarından daha aydın görürdü, çünki həyatın sərt üzünə daha yaxşı bələd idi, indi də bu üzün fikirdən və hirsdən qırışdığını görərkən həm sevinir, həm də qorxurdu. Bunu öz oğlunun işi hesab etdiyi üçün sevinirdi, oğlunun həbsxanadan çıxdıqda hamıdan qabaqda, ən təhlükəli yerdə duracağını bildiyi üçün qorxurdu. Həm də bilirdi ki, bunun nəticəsi məhv olmaqdır.

Bəzən oğlunun surəti onun gözləri qabağında bir nağıl qəhrəmanı surəti qədər böyüyürdü, bu surət ananın eşitdiyi bütün ədalətli, cəsarətli sözləri, ananın bəyəndiyi bütün adamları, ananın bildiyi bütün qəhrəmanlıqları və işıqlı cəhətləri özündə birləşdirirdi. Onda ana riqqət, qürur və vəcdlə dolu ürəklə heyran-heyran oğlunun xəyalını görür və ümidlə düşünürdü:

"Hər şey yaxşı qurtaracaq, hər şey..."

Onun məhəbbəti, ana məhəbbəti alovlanır, ürəyini sıxıb az qala ağrıdırdı; sonra analıq hissi insanlıq hissini böyüməyə qoymur, yaxıb-yandırırdı və böyük hissin əvəzində boz vahimə külü içində məyus bir fikir ürkək-ürkək çırpınmağa başlayırdı:

"Məhv olub gedəcək!.."

## XIV

Günortaçağı ana, həbsxana dəftərxanasında Pavelin qabağında oturub, dumanlı gözləri ilə onun saqqal basmış üzünə baxır və barmaqları arasında bərk-bərk tutduğu kağızı ona vermək üçün fürsət axtarırdı.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Pavel yavaş səslə:

– Mən yaxşıyam, hamı da salamatdır! – deyirdi. – Sən özün necəsən?

Ana:

– Niyə, yaxşıyam! – dedi və düşünmədən əlavə etdi: – Yeqor İvanoviç vəfat elədi.

Pavel:

– Yox-a! – deyə səsləndi və başını aşağı saldı.

Ana sadəlövhlüklə sözünə davam elədi:

– Dəfn edəndə polislər dalaşmağa başladılar, birini tutdular!

Həbsxana müdirinin müavini hirslə nazik dodaqlarını marçıldatdı və kürsüdən sıçrayıb:

– Bu qadağandır, gərək başa düşəsiniz! – dedi. – Siyasətdən danışmaq qadağandır!..

Ana da yerindən qalxdı və bir şey başa düşmürmüş kimi, üzrxahlıqla dedi:

– Mən siyasətdən danışmıram ki, dalaşmaqdan danışıram. Dalaşdıqları da ki doğrudur. Hələ birinin başını əzdilər.

– Fərqi yoxdur! Xahiş edirəm, danışmayasınız! Yəni şəxsən sizin özünüzə, ailənizə və ümumiyyətlə sizin evinizə aid olmayan şeylərdən danışmayasınız!

Özünün dolaşığa düşdüyünü duyaraq müavin masası arxasında oturdu, kağızları əlləşdirə-əlləşdirə yorğun və kədərli səslə əlavə elədi:

– Mən cavabdehəm, bəli...

Ana ətrafa baxdı və kağızı tez Pavelin ovcuna basıb, rahatca köksünü ötürdü:

– Nədən danışacağını da bilmirsən...

Pavel gülümsündü:

– Mən də bilmirəm...

Çinovnik acıqla:

– Onda görüş də lazım deyil! – deyə səsləndi. – Danışmağa söz tapmırlar, amma yenə də gəlib xalqı narahat eləyirlər.

Bir az susduqdan sonra ana soruşdu:

– Barı məhkəmə tezmi olacaq?

– Bu günlərdə prokuror gəlmişdi, deyirdi ki, tezliklə olacaq...



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Onlar bir-birinə əhəmiyyətsiz, hər ikisi üçün də gərəksiz sözlər deyirdilər, ana Pavelin ona mehriban məhəbbətli gözlərlə baxdığını görürdü. Həmişəki kimi sakit və ciddi olan Pavel dəyişilməmişdi, yalnız saqqalı çox uzanıb, onu qoca göstərirdi, bir də biləkləri ağarmışdı. Ana oğluna ürəkaçan bir söz demək, Nikolaydan xəbər vermək istədi, səsini dəyişmədən gərəksiz və maraqsız sözləri söylədiyi ahənglə davam elədi:

– Sənin kirvəni gördüm...

Pavel, diqqətlə onun gözlərinə baxıb, dinmədən sual edirdi. Vesovşikovun çopur üzünü xatırlatmaq üçün ana barmağı ilə yanağını döydü...

– Oğlan yaxşıdır, sağ-salamatdır, tezliklə işə düzələcək.

Pavel anladı, başı ilə ona işarə elədi və gözlərində şən bir *təbəssüm oynadığı halda:*

– Bu yaxşı oldu! – deyə cavab verdi.

Özündən razı, oğlunun nəşəsindən sevinmiş ana rahatlanaraq:

– Bu da belə! – dedi.

Pavel, anasından ayrılarkən, onun əlini bərk-bərk sıxdı:

– Sağ ol, ana!

Qəlbən oğluna yaxınlıqdan doğan fərəh hissi ananın beyninə vurub, onu məst edirdi, o, cavab üçün söz tapmayaraq, oğlunun əlini dinməzcə sıxdı.

Qayıtdıqda Saşanı evdə gördü. Nilovna görüşə gedən günlər qız həmişə onun yanına gələrdi. O heç vaxt Paveldən bir şey soruşmazdı və ana özü Paveldən danışmayanda, diqqətlə ananın üzünə baxar, bununla da qənaətlənərdi. İndi isə qız nigaran bir halda ananı sual ilə qarşıladı:

– Hə, necədir?

– Niyə, yaxşıdır!

– Kağızı verdinizmi?

– Söz yox! Ustalıqla ovcuna qoydum...

– Oxudumu?

– Haradan oxuyaydı? Olarmı?

Qız yavaşdan:

– Elədir, mən unutdum! – dedi. – Bir həftə də gözləməliyik, yenə bir həftə. Necə bilirsiniz, razılıq verəcəkmi?



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Saşa qaşlarını çataraq, Saşa, gözlərini qırpmadan ananın üzünə baxırdı.

Ana fikirli-fikirli:

– Nə deyə bilərəm! – deyirdi. – Əgər bu işin qorxusu yoxdursa, niyə qaçmasın?

Saşa başını silkələyib, soyuq bir əda ilə soruşdu:

– Xəstəyə nə yemək, olar, bilmirsinizmi? O, yemək istəyir.

– Hər şey olar, hər şey! Mən bu saat...

Ana mətbəxə getdi. Saşa da yavaş addımlarla onun dalınca getdi.

– Sizə kömək edimmi?

– Sağ olun, nə kömək?!

Ana qazanı götürmək üçün ocağa sarı əyildi. Qız yavaşdan:

– Dayanın, – dedi.

Onun üzü ağardı, gözləri qüssədən böyüdü, titrək dodaqları isə güclə qızğın və tez-tez pıçıldamağa başladı:

– Mən sizdən xahiş eləmək istəyirəm. Mən bilirəm, o razı olmayacaq! Onu dilə tutun! O lazımdır, deyin ki, o, işdən ötrü lazımdır, mən onun azarlayacağından qorxuram. Özünüz görürsünüz ki, məhkəmə hələ təyin edilməyib...

Görünür, qız çətinliklə danışırdı. O, qəddini düzəldib kənara baxır, səsi qırıq-qırıq çıxırdı. Qız, yorğun halda gözlərini yumaraq, dodaqlarını çeynəyir, bərk sıxılmış əllərinin barmaqları şıqqıldayırdı.

Ana qızın iztirabından özünü tamamilə itirmiş olsa da, bu iztirabı anlayırdı; həyəcan və kədər içində olan ana Saşanı qucaqlayaraq, yavaşdan cavab verdi:

– Mənim əziz balam! Özündən başqa o heç kəsin sözünə baxmaz, heç kəsin!

İkisi də bir-birinə qısılıb susurdu. Sonra Saşa, ananın əlini yavaşca öz çiynindən götürüb, diksinərək dedi:

– Elədir, siz haqlısınız! Boş şeydir, əsəblərim...

Birdən ciddi əda ilə və sadəcə sözünü tamamladı:

– Di gəlin, yaralıya yemək verək...

Qız İvanın yatağı yanında oturub, qaygı və nəvazişlə soruşdu:

– Başınız bərkmi ağrıyır?

İvan:

– Bərk ağrımır, ancaq dumanlı kimidir! Bir də, zəifəm, – deyə çavab verərək, utana-utana yorğanını çənəsinə qədər çəkir və göz-



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

lərini gur işıqdan qamaşırmış kimi, qırpırdı. Saşa xəstənin onun yanında yeməkdən utandığını görüb otaqdan çıxdı.

İvan yatağında dikəlib oturdu və qızın dalınca baxıb gözlərini döyə-döyə:

– Gözəldir!.. – dedi.

Onun gözləri aydın və şən, dişləri narın, sıx idi, səsi hələ bərkiməmişdi.

Ana fikirli halda soruşdu:

– Neçə yaşınız var?

– On yeddi...

– Ata-ananız hardadır?

– Kənddədir; mən on yaşından buradayam, məktəbi qurtaran kimi bura gəlmişəm! Bəs sizin adınız nədir, yoldaş?

Ona müraciətlə deyilən bu söz həmişə ananı güldürür, ürəyini oxşayırdı. İndi də gülümsünərək soruşdu:

– Nə üçün bilmək istəyirsiniz?

Oğlan utanıb susdu və bir azdan sonra izah elədi:

– Bilirsinizmi, bizim dərnəyimizdəki tələbə, yəni bizə kitab oxuyan tələbə Pavel Vlasovun anasından danışırdı. Bir fəhlədir, bilirsinizmi, Bir May nümayişi?

Ana, başı ilə işarə eləyib, diqqətini artırdı. Oğlan qürurla:

– Partiyamızın bayrağını ilk dəfə açıq qaldıran o olubdur! – dedi və onun qüruruna cavab olaraq, ana da qəlbində qürur hiss elədi.

– Mən orada deyildim, o zaman biz də burada öz nümayişimizi düzəltmək istəyirdik, baş tutmadı! Onda biz az idik. Amma gələn il, buyurun!.. Görərsiniz!

Gələcək hadisələri indidən göz qabağına gətirərək o, həyəcanından udqundu, sonra da qaşığı havada yelləyərək sözünə davam elədi:

– Hə, Vlasovanı deyirdim, ananı. Sonra o da partiyaya girdi. Deyirlər, elədir ki, lap möcüzələr eləyir!

Ana xoşhallıqla gülümsündü, bu uşağın belə coşqun tərifləri ona xoş gəlirdi. Xoş gəlir, həm də utandırırdı. Hətta o istədi desin ki: "Vlasova mənəm!.." Lakin özünü saxladı, yüngül istehza və qüssə ilə öz-özünə:

"Ah, qoca axmaq!.." – dedi.

Sonra birdən başını xəstəyə sarı əyərək həyəcanla:



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

– Siz çoxlu yeyin! – dedi. – Xeyirli iş üçün tez sağalın!

Qapı açıldı, rütubətli payız soyuğu içəri soxuldu, Sofya, yanaqları qızarmış, sevincək otağa girdi:

– Casuslar dalımca düşüblər, elə bil ərə getməli dövlətli qızam, onlar da evlənmək istəyən oğlan, vallah! Gərək mən buradan yox olam... Hə, Vanya, necəsən? Yaxşısan, Nilovna, Pavel necədir? Saşa buradadırmı?

O, papirosunu yandıra-yandıra ala gözlərinin baxışı ilə ananı və oğlanı oxşayır, cavab gözləmədən hey sual verirdi. Ana ona baxır və qəlbən gülümsünərək, öz-özünə:.

"İndi mən də yaxşı adamlar cərgəsinə çıxıram!" – deyə düşünürdü.

Sonra yenə İvana tərəf əyildi:

– Sağalın, oğlum!

Ana yemək otağına keçdi. Orada Sofya Saşaya deyirdi:

– O, artıq üç yüz nüsxə hazırlayıb! Belə işləməklə özünü həlak edəcək! Bax, qəhrəmanlıq buna deyərlər. Belə adamların arasında yaşamağın, onlara yoldaş olmağın, onlarla bərabər çalışmağın nə qədər böyük səadət olduğunu bilirsinizmi, Saşa!..

Qız yavaşdan:

– Bəli! – deyə cavab verdi.

Axşam çay içərkən Sofya anaya:

– Nilovna, siz yenə kəndə baş çəkməli olacaqsınız! – dedi.

– Nə eyibi var! Havaxt?

– İki-üç gündən sonra gedə bilərsinizmi?

– Yaxşı...

Nikolay yavaşdan məsləhət gördü:

– Siz araba ilə gedin! Poçt atı kirələyin, bir də, xahiş edirəm, başqa yol ilə, Nikolskoye nahiyəsindən gedin.

O susub qaşlarını çatdı. Bu onun daim sakit üzünü qəribə halda dəyişdirir, çirkinləşdirir və ona heç yaraşmırdı.

Ana:

– Nikolskoye tərəfdən yolum uzaq düşər! – dedi. – Bir də, araba ilə baha olar...

Nikolay:

– Bilirsinizmi, – dedi, – ümumiyyətlə mən bu səfərin əleyhinəyəm. Oralar narahatdır, adam-zad tutublar, bir müəllimi də həbs ediblər, ehtiyatlı olmaq lazımdır. Bir az gözləmək yaxşı olardı...



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Sofya barmaqları ilə masanı taqqıldatdı:

– Biz ədəbiyyat yaymağın arasını kəsməməliyik! – və birdən: – Getməkdən qorxmursunuz ki, Nilovna? – deyə soruşdu.

Bu söz anaya toxunan kimi oldu:

– Mən havaxt qorxmuşam ki? Birinci dəfə də bunu qorxusuz eləmişəm... indi birdən... – Ana, sözünü qurtarmayıb, başını aşağı saldı. Hər dəfə ondan – qorxmur ki, onun üçün rahatdırmı, filan işi eləyə bilərmi – deyə soruşanda, bu kimi suallarda o bir, iltimas eşidirdi və ona elə gəlirdi ki, guya bu adamlar onu özlərindən ayırır, ona öz yoldaşlarına yanaşdıqları kimi yox, başqa cür yanaşırlar.

Ana ah çəkərək:

– Siz məndən nahaq yerə qorxub-qorxmadığımı soruşursunuz, – dedi, – siz ki, bir-birinizə heç vaxt qorxu haqqında sual vermirsiniz.

Nikolay tələsik gözlüyünü çıxardı, yenə gözlərinə taxdı və diqqətlə bacısının üzünə baxdı. Pərtlik sükutu ananı narahat elədi və o, bir söz demək arzusu ilə, müqəssir kimi, yerindən qalxdı, lakin Sofya onun əlini tutub yavaşdan xahiş elədi:

– Məni bağışlayın! Daha eləmərəm!

Bu hərəkət ananı güldürdü və bir neçə dəqiqə keçməmiş onların üçü də kəndə getmək məsələsini ciddi və mehribanlıqla müzakirə eləməyə başladı.

## XV

Səhər tezdən poçt arabasına minmiş ana payız yağışının döyəclədiyi yolla silkələnə-silkələnə gedirdi. Rütubətli külək əsir, palçıq hər tərəfə səpələnir, öz yerində çəpəki oturmuş arabaçı da, üzünü anaya çevirib, fikirli halda tıntın səslə gileylənirdi:

– Mən ona deyirəm, yəni qardaşıma, nə eyibi var, gəl bölüşək! Bölüşməyə başladıq...

O, birdən sol atı qamçı ilə vurub, acıqlı-acıqlı qışqırdı:

– Hə! Çərləmişə bax ha!..

Kökəlmiş payız qarğaları boş zəmilərdə gəzinir, soyuq külək vıyıltı ilə onlara hücum edirdi. Qarğalar böyürlərini küləyin zərbələrinə qarşı çevirir, külək də onların tüklərini yellədir, onları yıxır, onda qarğalar zora davam edə bilməyərək qanadlarını ağır-ağır çalır və uçub başqa yerə qonurdular.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Arabaçı:

– Hə, bölüşəndə məni aldatdı, – deyirdi. – Əlimi vurmağa bir şey tapmadım.

Ana onun sözlərini yuxulu kimi eşidirdi; son illərdə şahid olduğu saysız-hesabsız hadisələr yadına düşür, onlara nəzər saldıqca hər yerdə özünü görürdü. Qabaqlarda həyat harada isə uzaqlarda yaradılardı, onu kimin yaratdığını, nə üçün yaratdığını ana bilməzdi; indi isə çox şey onun gözünün qabağında və onun köməyi ilə edilirdi. Bunların hamısı onda özünə qarşı etimadsızlıq, eyni zamanda özündən razılıq, heyrət və qüssə qarışıq bir hiss oyadırdı.

Ətrafda hər şey yavaşca yırğalanır; göydə bir-birini qovaraq boz buludlar ağır-ağır üzür, yolun kənarlarındakı yaş ağacların çılpaq təpələri yırğalanırdı, hər tərəf çöllük idi, hərdənbir təpələr görünür, sonra əriyib yox olurdu.

Arabaçının tıntın səsi, zınqırovların cingiltisi, küləyin rütubətli vıyıltı və xışıltısı birləşərək titrək, əyri-üyrü bir arx kimi çölün üzərində yeknəsəq axın ilə axırdı...

Arabaçı, yerində yırğalana-yırğalana hey danışırdı:

– Dövlətliyə behişt də darısqaldır, iş belədir!.. Sıxışdırmağa başladı, böyüklər də ki onunla dostdur.

Stansiyaya yetişdikdə arabaçı atları açıb ümidsiz bir səslə anaya:

– Bircə şahı versəydin, barı içərdim! – dedi.

Ana şahını verdi, o da pulu ovcunda atıb-tutdu, yenə o səslə anaya dedi:

– Üç qəpiyinə araq içərəm, ikisinə də çörək yeyərəm...

Yorğun və donmuş ana, günortadan sonra böyük Nikolskoye kəndinə yetişdi, stansiyaya girdi, içməyə çay istədi və ağır çamadanını kürsünün altına qoyub, pəncərənin qabağında oturdu. Pəncərədən tapdalanmış sarı otla örtülü balaca bir meydança, nahiyə idarəsinin taxtapuşu sallaq tünd-boz rəngli binası görünürdü. Binanın səkisində əynində yalın köynək, uzun saqqallı, başı daz bir kəndli oturub çubuq çəkirdi. Otun üstü ilə bir donuz gəzirdi. Donuz qulaqlarını acıqlı-acıqlı silkələyərək burnunu yerlə süründürür və başını yırğalayırdı.

Bir yığın qara bulud bir-birinin üstünə yığılaraq, göydə üzürdü. Hər tərəf sakit, qaranlıq, sıxıntılı idi, sanki həyat harada isə gizlənmiş, görünməz olmuşdu.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Birdən çapa-çapa meydançaya bir uryadnik gəldi, nahiyə idarəsinin qabağında kürən atını dayandırıb, qamçısını havada yelləyə-yelləyə kəndlinin üstünə çığırmağa başladı. Çığırtı səsi pəncərənin şüşələrinə dəyib cingildəyir, lakin sözlər eşidilmirdi. Kəndli ayağa qalxdı, uzaqları göstərərək əlini uzatdı, uryadnik yerə atıldı, ayaq üstə səndələdi, cilovu kəndlinin üstünə atıb, məhəccərdən yapışıb, ağır-ağır səkiyə çıxdı və idarənin qapısında yox oldu...

Yenə sakitlik düşdü. At iki dəfə dırnağı ilə yumşaq yeri döyəclədi. Qısa sarı saçlı, girdə üzlü, mehriban baxışlı kiçik bir qız otağa girdi. Dodağını dişləyərək o, əlində kənarları əzilmiş, qab-qacaqla dolu böyük bir padnos gətirirdi. Qız tez-tez başını əyə-əyə ananı salamlayırdı.

Ana mehriban səslə:

– Salaməleyküm, ağıllı qız! – dedi.

– Salaməleyküm.

Boşqab və stəkan-nəlbəkini masanın üstünə düzə-düzə qız birdən həyəcanla xəbər verdi:

– Bu saat bir qaçaq tutublar, gətirirlər!

– Necə qaçaq?

– Nə bilim...

– O nə eləyib ki?

Qız yenə təkrar elədi:

– Nə bilim! Bircə bunu eşitdim ki, tutublar; nahiyə idarəsinin keşikçisi mahal pristavının dalınca qaçdı.

Ana pəncərədən baxdı: meydançada kəndlilər yığışırdılar. Bir parası yavaş və təmkinli addımlarla yeriyir, başqaları yeriyə-yeriyə tələsik kürklərini düyməleyirdilər. Hamı nahiyə idarəsinin səkisi qabağında dayanaraq, hara isə, sol tərəfə baxırdı.

Qız da küçəyə baxıb, tez otaqdan çıxdı və qapını şaqqıltı ilə örtdü. Ana diksindi, çamadanını kürsünün altında daha dərində yerləşdirdi və şalını başına salıb, birdən ürəyində baş qaldıran tez yerimək, qaçaraq getmək arzusunun qabağını almağa çalışaraq tələsik qapıya tərəf yeridi...

Ana küçəyə çıxanda kəskin soyuq gözlərinə, döşünə çırpıldı, onun nəfəsi kəsildi, ayaqları yerində qurudu: meydancanın ortası ilə qolları dalında bağlanmış Rıbin gedirdi, onun yanınca da ağaclarını yerə vura-vura iki yüzbaşı yeriyirdi; nahiyə idarəsinin qabağında isə bir dəstə adam durub, dinməz-söyləməz gözləyirdi.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Heyrətdən başı gicəllənmiş ana gözünü Rıbindən çəkmirdi, – Rıbin nə isə deyirdi; ana onun səsini eşidirdi, lakin sözləri ananın qəlbindəki qaranlıq və titrək boşluqda əks-səda yaratmadan yox olurdu.

Ana huşunu topladı, nəfəsini dərdi; yanındaca, qapının qabağında duran enli, sarı saqqallı bir kəndli mavi gözlərini diqqətlə anaya dikib baxırdı. Ana öskürə-öskürə və qorxudan zəifləmiş əllərilə boğazını ova-ova, çətinliklə kəndlidən:

– Bu nə məsələdir? – deyə soruşdu.

Kəndli:

– İndi görərsiniz! – cavabını verdi və üzünü çevirdi. Bir kəndli də gəldi, onların yanında durdu.

Yüzbaşılar izdihamın qabağında dayandılar, izdiham isə sürətlə artmaqda idi, hamı sükut edirdi; birdən izdiham üzərində Rıbinin gur səsi ucaldı:

– Ay qardaşlar! Siz o doğru kağızlar haqqında, bizim kəndli yaşayışımızdan gerçək yazan kağızlar haqqında eşitmisinizmi? Bax, belə: mən bu kağızların yolunda əzab çəkirəm, onları xalqın arasında yayan mən idim!

Adamlar Rıbinin ətrafını daha sıx alırdılar. Onun səsi təlatümsüz, rəvan idi. Ana qulaq asdıqca özünə gəlirdi.

İkinci kəndli mavigöz kəndlinin böyründən vurdu:

– Eşidirsənmi? – Kəndli, cavab vermədən başını qalxızıb yenə ananın üzünə baxdı. O biri kəndli də anaya baxdı; bu kəndli birincisindən cavandı, saqqalı seyrək və qara arıq üzü çildən ala-bula idi. Sonra onların ikisi də kənara çəkildi.

Ana biixtiyar öz-özünə:

“Qorxurlar!” – deyə fikirləşdi.

Ananın diqqəti itiləşirdi. Hündür səkidən ana Mixail İvanoviçin döyülüb əzilmiş qara üzünü aydınca görür, yanar gözlərini seçirdi; ana istəyirdi ki, Rıbin onu görsün və ayaqları ucunda qalxır, boğazını ona tərəf uzadırdı.

Adamlar Rıbinə qaşqabaqla, etibarsız baxır və susurdular. Yalnız izdihamın dal səflərindən boğuq danışıq səsləri gəlirdi.

Rıbin gur səslə:

– Kəndlilər! – deyirdi. – Bu kağızlara inanın, onların üstündə bəlkə də məni öldürəcəklər, məni döydülər, əzab verdilər, kağız-



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

ları kimdən aldığımı mənə söylətmək istədilər, yenə də döyəcəklər – hamısına tab gətirəcəyəm! Çünki bu kağızlarda həqiqət yazılıb, bu həqiqət bizə çörəkdən də artıq olmalıdır, belə!

Səki yanında duran kəndlilərdən biri yavaşcadan səsləndi:

– Bunu niyə deyir?

Mavigöz kəndli ağır-ağır cavab verdi:

– *İndi onun üçün hamısı birdir – ölmək ölməkdir, xırıldamaq nə* deməkdir...

Adamlar susub, altdan-altdan, qaşqabaqlı baxırdılar, sanki hamısının üstünə gözəgörünməz, ağır bir şey düşmüşdü. Uryadnik nahiyə idarəsinin səkisinə çıxdı və səndələyə-səndələyə sərxoş səslə bağırdı:

– Bu danışan kimdir?

O birdən səkidən aşağı sıçrayıb Rıbinin saçlarından yapışdı və onun başını dala-qabağa yırğalaya-yırğalaya bağırdı:

– Bu danışan sənsənmi, köpək oğlu, sənsənmi?

İzdiham hərəkətə gəldi, uğuldadı. Ana kədərli halda başını aşağı saldı. Yenə Rıbinin səsi ucaldı:

– Bax, görürsünüzmü, ay camaat...

Uryadnik:

– Kəs səsini! – deyə bağıraraq onun qulağının dibindən vurdu. Rıbin yırğalandı, çiyinlərini qısdı.

– Qollarınızı bağlayıb, sizi istədikləri kimi incidirlər...

– Yüzbaşılar! Gətirin onu! Ay camaat, dağılın! – Uryadnik bir tikə ətin qabağında atılıb-düşən zəncirli köpək kimi Rıbinin qabağında atılıb-düşür, yumruğu ilə üzündən, döşündən, qarnından vururdu.

*İzdihamın içərisindən kim isə:*

– Vurma! – deyə qışqırdı.

Başqa bir səs ona qüvvət verdi:

– Niyə vurursan?

Mavigöz kəndli başı ilə işarə edib:

– Gedək! – dedi.

Onların ikisi də yavaş addımlarla nahiyə idarəsinə tərəf getdi, ana isə onları mehriban nəzərlə yola saldı. Ana rahat nəfəs aldı, bu zaman uryadnik ağır-ağır yüyürüb yenə səkiyə atıldı və oradan yumruğu ilə hədələyə-hədələyə var səsi ilə bağırdı:

– Bura çəkin! Mən deyirəm...



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

İzdihamdan güclü bir səs:

– Aparmayın! – deyə çığırdı; ana başa düşdü ki, bunu çığıran mavigöz kəndlidir. – Ay uşaq, qoymayın! Ora aparıb, kötək altında öldürəcəklər. Sonra da bizim üstümüzə atacaqlar ki, guya biz öldürmüşük! Qoymayın!

Bu arada yenə Mixaylonun səsi gurladı:

– Ay kəndlilər! Məgər siz öz dolanışacağınızı görmürsünüz, məgər başa düşmürsünüz ki, sizi soyur, aldadır, qanınızı içirlər? Hər şeyi saxlayan sizsiniz, yer üzündə birinci qüvvə sizsiniz, ancaq hanı sizin hüquq və ixtiyarınız? Acından ölmək – sizin hüququnuz bircə budur!..

Kəndlilər birdən, bir-birinin sözünü kəsə-kəsə çığırışmağa başladılar:

– Doğru deyir!

– Pristavı çağırın! Hanı pristav?..

– Uryadnik onun dalınca çapdı...

– Kefli-keflimi?..

– Rəisləri bura yığıb tökmək bizim işimiz deyil...

Səs-küy get-gedə artır, yüksəlirdi:

– Danış! Döyməyə qoymarıq...

– Qollarını açın...

– Gözətlə ki, sonra bir iş çıxmasın!

Rıbin bütün səsləri boğan rəvan və gur səslə:

– Qollarım ağrıyır! – deyə bağırırdı. – Ay kəndlilər, mən qaçan deyiləm! Öz həqiqətimdən qaçıb gizlənə bilmərəm, bu həqiqət mənim ürəyimdə yaşayır...

Kəndlilərdən bir neçəsi öz aralarında yavaşdan danışa-danışa və başlarını bulaya-bulaya təmkinlə izdihamdan kənara çəkildi. Tələsik geyinmiş, paltarı sadə, yüyürə-yüyürə gələn həyəcanlı adamların sayı isə get-gedə artırdı. Bunlar qara köpük kimi Rıbinin ətrafında qaynaşırdı, o da meşədə ucalan kilsə kimi başının üstünə qalxızdığı əllərini silkələyə-silkələyə onların arasında durub, üzünü izdihama tutaraq çığırırdı:

– Sağ olun, ay camaat, sağ olun! Biz özümüz gərək bir-birimizin qolunu açaq, belə! Daha bizə kömək eləyən kim olacaq?

O, saqqalını sildi və qana bulaşmış əlini yenə yuxarı qalxızdı:



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

– Bax mənim bu qanım haqq yolunda tökülür!..

Ana səkidən aşağı düşdü, lakin yerdən izdihamın dövrəyə aldığı Mixaylonu görə bilmirdi. O, yenə pilləkənə çıxdı. Onun qəlbi yanır, dumanlı bir sevinc hissi sinəsində titrəyirdi:

– Ay kəndlilər! O kağızları axtarın, oxuyun, hökumət adamları, keşişlər deyəndə ki, camaata haqq sözü yetirənlər allahsızdır, üsyançıdır, siz onlara inanmayın. Həqiqət yer üzündə gizlin gəzir, xalqın arasında özünə yuva axtarır: hökumət üçün bu həqiqət xəncər kimi, od kimidir, hökumət onu qəbul eləyə bilməz; çünki doğru söz onun boğazını üzər, yandırar! Doğru söz sizə mehriban dostdur, amma hökumətə barışmaz düşməndir! Bax buna görə də o gizlənir!..

Yenə izdihamdan bir neçə nida qopdu:

– Qulaq asın, ay qardaşlar!..

– Eh, sağ olmuş, tələf olarsan...

– Səni kim şeytanladı?

Yüzbaşılardan biri:

– Keşiş! – deyə cavab verdi.

Kəndlilərdən ikisi bərk söyüş söydü.

Xəbərdaredici bağırtı eşidildi:

– Baxın ha, uşaqlar!

## XVI

Ucaboy, kök, girdəsifət mahal pristavı izdihama doğru gəlirdi. Furajkası yanakı qoyulmuşdu, bığının biri yuxarı burulmuş, o biri isə aşağı sallanmışdı, buna görə də onun üzü əyri görünür, küt, ölgün təbəssüm onun üzünü eybəcər göstərirdi. O, sol əli ilə qılıncını tutub, sağ əlini havada yelləyirdi. Onun ağır və möhkəm addımları səslənirdi. İzdiham onun qabağında aralandı. Adamların üzündə qüssəli, kədərli bir ifadə göründü; səs-küy kəsilir, alçalır, sanki yerə girirdi. Ana alnının dərisinin titrədiyini, gözlərinin alışıb-yandığını hiss elədi. O, yenə izdihama qarışmaq istədi, irəli əyildi və nəfəsini çəkərək, beləcə yerində donub qaldı.

Pristav, Rıbinin qabağında dayanıb, onu başdan-ayağa süzdü və:

– Nə xəbərdir? – deyə soruşdu. – Niyə qolları bağlı deyil? Yüzbaşılar, bağlayın!



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Onun səsi uca, cingiltili, lakin yapışıqsız idi.

Yüzbaşılardan biri:

– Qolları bağlı idi, xalq açdı, – deyə cavab verdi.

– Necə? Xalq? Nə xalq?

Pristav onun qabağında yarımdairə şəklində duran camaata baxdı. Səsini ucaltmadan və alçaltmadan o, yenə həmən yeknəsəq, yapışıqsız səslə davam elədi:

– Xalq dediyin kimdir?

O, qılıncının dəstəsilə mavigöz kəndlinin döşünə vurdu:

– Xalq deyilən sənsənmi, Çumakov? Daha kimdir? Sənmisən, Mişin?

Pristav bu sözləri deyib, sağ əli ilə birisinin saqqalından dartdı:

– Dağılın əclaflar!.. Yoxsa mən sizi, mən sizə göstərərəm!

Onun səsində, sifətində nə acıq vardı, nə hədə; o, sakit danışır, adamları möhkəm və uzun əllərinin vərdiş elədiyi rəvan hərəkətlərilə vururdu. Adamlar başlarını aşağı salıb, üzlərini yana döndərərək, onun qabağından çəkilirdilər. Pristav üzünü yüzbaşılara tutaraq:

– Hə, daha nə durmusunuz? Bağlayın! – dedi.

Sonra həyasız bir söyüş söydü, bir də Rıbinə baxdı və uca səslə ona:

– Əllərini dala ver! Ey! – dedi.

Rıbin yenidən danışmağa başladı:

– Mən istəmirəm ki, qollarım bağlansın! Qaçmaq fikrində deyiləm, bir kəsə əl qalxızmıram, daha qollarım nə üçün bağlansın?

Pristav ona doğru bir addım atdı:

– Necə?

Rıbin səsini ucaldıb, sözünə davam elədi:

– Xalqı incitdiyiniz bəsdir, canavarlar! Sizin dövranınıza az qalıb, tezliklə sizin üçün də haqq-hesab günü gələcək...

Pristav onun qabağında dayanıb, bığlarını tərpədə-tərpədə üzünə baxırdı. Sonra bir addım geri çəkildi və heyrətlə, fısıltılı səsini uzada-uzada:

– A-ax, köpək oğlu! Bir sözünə bax! – dedi.

Sonra da yumruğunu birdən-birə bərk və sürətlə Rıbinin üzünə vurdu.

Rıbin ona tərəf hücum edərək çığırdı:



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

– Yumruqla haqqı öldürə bilməzsən! Məni döyməyə də ixtiyarın yoxdur, qotur köpək!

Pristav ulayırmış kimi, sözləri uzadaraq:

– İxtiyarım yoxdur? Mənim?

O, Rıbinin başını nişanlayaraq bir də əlini qalxızdı. Rıbin aşağı əyildi, pristavın yumruğu ona dəymədi, pristavın özü isə səndələdi, az qaldı yıxılsın. İzdihamın içindən kim isə ucadan pıqqıldadı, yenə Mixaylonun hirsli çığırtısı yüksəldi:

– Sənə deyirəm, mənə əl vurma, məlun!

Pristav ətrafa baxdı: adamlar dinmədən, qaşqabaqlı halda yığışaraq sıx və qara bir dairə əmələ gətirirdi. Pristav boylanıb, uca səslə çığırdı:

– Nikita! Ay Nikita!

Kürəyi enli, boyu alçaq, yarımkürk geymiş bir kəndli izdihamdan çıxıb irəli yeridi. O, iri, pırtlaşıq tüklü başını aşağı salıb, yerə baxırdı.

Pristav bığını bura-bura tələsmədən:

– Nikita! – dedi. – Bunun qulağının dibindən bir ilişdir görüm, yaxşıca, ha!

Kəndli irəli yeridi, Rıbinin qabağında dayandı, başını qaldırdı. Rıbin ağır, təsirli sözlərini düz onun üzünə çırpırdı:

– Ay camaat, bir baxın görün, bu canavarlar necə öz əlinizlə sizin özünüzü boğurlar! Baxın, düşünün!

Kəndli tələsmədən əlini qalxızıb, tənbəl bir hərəkətlə onu başından vurdu. Pristav qeyz ilə:

– Beləmi vurarlar, ay it oğlu?!

İzdihamdan kim isə yavaşdan:

– Ey, Nikita! – dedi. – Allahı yadından çıxarma!

Pristav kəndlini peysərindən itələyərək:

– Vur, deyirəm! – deyə qışqırdı.

Kəndli kənara çəkilib başını aşağı saldı və:

– Daha vurmayacağam!.. – dedi.

– Necə?

Pristavın üzü titrədi; o, ayaqlarını yerə döyüb söyə-söyə Rıbinin üzərinə atıldı. Bərk yumruq səsi eşidildi. Mixaylo yerində yırğalandı, əlini yuxarı qalxızdı, lakin pristav ikinci zərbə ilə onu yerə sərdi



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

və atılıb düşə-düşə, bağıra-bağıra Rıbinin sinəsini, qabırğalarını, başını təpikləməyə başladı.

İzdiham acıqla uğuldadı, yırğalandı, pristava doğru yeriməyə başladı; pristav bunu görüb kənara atıldı və qılıncını qınından çəkdi:

– Ah, beləmi? Qiyam edirsiniz? Hə?.. Beləmi?..

Onun səsi titrədi, zingiltiyə çevrildi, sanki qırılıb xırıldamağa başladı. O, səsi ilə bərabər birdən qüvvəsini də itirib başını çiyinlərinə çəkdi, belini əydi, gözlərini ətrafına dolandıra-dolandıra, dalındakı yeri ayağı ilə yoxlaya-yoxlaya geri çəkilməyə başladı, çəkildikcə də xırıltılı və qorxaq səslə çığırırdı:

– Yaxşı! Qoy o, sizin olsun, aparın, mən gedirəm, niyə durmusunuz? Heç bilirsinizmi ki, məlun əclaflar, o, siyasi canidir, padşahın ziddinə gedir, qiyam törətmək istəyir, bilirsinizmi? Hələ siz də ona köməkçi çıxırsınız, hə? Siz qiyamçısınız? Aha!..

Tərpənmədən, kirpik çalmadan, gücsüz və düşüncəsiz bir halda duran ana, sanki ağır yuxuda idi; onun qəlbi qorxu və mərhəmətdən sıxılırdı. Adamların acıqlı, kədərli, kinli çığırtıları arı kimi onun beynində vızıldayırdı; pristavın səsi titrəyir, kimin isə pıçıltıları xışıldayırdı...

– Günahı varsa, divana çək!..

– Cənab pristav, ona rəhmin gəlsin...

– Bu nədir eləyirsiniz, qanunsuz-zadsız!..

– Belə də iş olar? Hər kəs döyməyə başlasa, axırı hara çatar?..

Adamlar iki dəstəyə bölünmüşdü – bir dəstə pristavı əhatə edib çığırışır və onu dilə tuturdu, o biri, balaca dəstə isə Mixaylonun ətrafına toplaşıb, boğuq və acıqlı səslə uğuldayırdı. Bir neçə adam onu yerdən qalxızdı, yüzbaşılar yenə onun qollarını bağlamaq istəyəndə:

– Bir dayanın, başı batmışlar! – deyə çığırışdı.

Mixaylo üzünün və saqqalının qanını, palçığını silir və dinmədən ətrafına baxırdı. Onun nəzəri ananın üzünə sataşdı, ana diksinib, boynunu ona tərəf uzatdı və biixtiyar əli ilə işarə elədi. Mixaylo üzünü çevirdi. Lakin bir neçə dəqiqədən sonra onun nəzəri yenə ananın üzündə dayandı. Anaya elə gəldi ki, o dikəldi, başını qalxızdı, qana bulaşmış yanaqları titrəməyə başladı...

“Tanıdı, olmaya doğrudan da tanıdı?..”

Ana kədərli, dəhşətli sevincdən titrəyərək, başı ilə ona işarə eləməyə başladı. Lakin elə həmin dəqiqə mavigöz kəndlinin



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Mixayloya yaxın durub, anaya baxdığını gördü. Onun nəzəri ananın qəlbində bir an üçün təhlükəni düşünmək şüurunu oyatdı...

"Mən nə qayırıram? Axı məni də tutarlar!"

Kəndli Rıbinə nə isə dedi, o, başını silkələdi və titrək, lakin aydın və gümrah bir səslə:

– Eyibi yoxdur! – dedi. – Mən yer üzündə tək deyiləm, bunlar bütün həqiqəti tutub dustaq edə bilməzlər! Mən olduğum yerdə məni yadda saxlarlar, bəli! Yurdumuzu dağıtdılarsa da, orada dost-yoldaş qalmadısa da...

Ana mətləbi tez başa düşüb, öz-özünə düşündü:

"Bunu mənim üçün deyir!"

– Ancaq bir gün gələr ki, qartallar azad olub qanad çalar, xalq azad olar!

Bir qadın vedrədə su gətirib, ah çəkə-çəkə, oxşaya-oxşaya Rıbinin üzünü yumağa başladı. Onun nazik, yanıqlı səsi Mixaylonun sözlərinə qarışıb, ananı bu sözlərin mənasını anlamağa qoymurdu. Qabaqda mahal pristavı, bir dəstə kəndli onlara yaxınlaşdı, onlardan biri uca səslə:

– Ey, dustaq üçün araba çəkin! Kimin növbəsidir? – deyə qışqırdı.

Sonra pristavın sanki incimiş səsi təzədən eşidildi:

– Mən səni vura bilərəm, amma sən məni yox, vura bilməzsən, haqqın yoxdur, heyvan!

– Belə! Sən kimsən ki, Allahsan? – deyə Rıbin qışqırdı.

Hər tərəfdən ona müraciətlə yavaşdan deyilən sözlər bir-birinə qarışaraq, onun səsini batırdı:

– Ey, dayı, höcət eləmə! Görürsən hökumətdir!..

– Cənab pristav, acıqlanma! Özünü itirib...

– Sən də dilini kəssənə!

– Bu saat səni şəhərə aparacaqlar...

– Orada qanun var!

İzdihamın içindən yüksələn bağırtılar barışıq axtaran, xahiş edən bir ahənglə səslənir, qarışıb qaynaşırdı: hər bir söz, hər bir hərəkət ümidsizlik və şikayət ifadə edirdi. Yüzbaşılar Rıbinin qoltuğundan tutub, idarənin səkisinə çıxardılar, sonra da qapıda yox oldular. Meydançadakı kəndlilər yavaş-yavaş dağılışırdılar; ana mavigöz kəndlinin ona tərəf gəldiyini və gözaltı ona baxdığını



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

gördü. Ananın dizləri əsdi – sinəsini dolduran qüssə ürəyini sıxır, bulandırırdı.

"Getmək yaxşı deyil! Nə lazım!" – deyə öz-özünə düşündü.

Sonra da məhəccərdən bərk-bərk yapışıb, gözləməyə başladı.

Pristav idarənin səkisində durub, əllərini tovlaya-tovlaya məzəmmətedici, yenə də əvvəlki kimi yapışıqsız, cansız səslə deyirdi:

– İt uşağı, siz lap axmaqsınız! Bir şey anlamaya-anlamaya belə işə, hökumət işinə soxulursunuz! Heyvanlar! Mənə dua eləməlisiniz, bu mərhəmətin qabağında gərək mənim ayaqlarıma yıxılıb baş əyəsiniz! İstəsəm, hamınız katorqaya gedərsiniz...

İyirmiyə qədər kəndli, başı açıq durub, qulaq asırdı. Hava qaranlıqlaşırdı, buludlar aşağıya enirdi. Mavigöz kəndli ana dayanan səkiyə yaxınlaşıb, dərin nəfəs aldı və:

– Bizlərdə olan işləri də gördünüz!.. – dedi.

– Bəli! – deyə ana yavaşdan cavab verdi.

Kəndli aydın nəzərlə anaya baxıb:

– Peşəniz nədir? – deyə soruşdu.

– Kəndli arvadlardan həşyə alıram, kətan da alıram...

Kəndli yavaşca saqqalını tumarladı. Sonra idarəyə tərəf baxıb, qəmgin və yavaş səslə:

– Bizlərdə bu cür şey tapılmaz!.. – dedi.

Ana yuxarıdan aşağı ona baxır və otağa getmək üçün əlverişli fürsət axtarırdı. Kəndlinin üzü fikirli, göyçək gözləri isə qəmgin idi. Ucaboy, enlikürək kəndli yamağı yamaq üstündən vurulmuş kaftan, təmiz çit köynək, kənddə toxunmuş boz şaldan şalvar geymiş, yalın ayaqlarını yırtıq başmağa keçirmişdi...

Ana nədənsə rahat nəfəs aldı və birdən, dumanlı fikri qabaqlayan hissə uyaraq, özü də gözləmədiyi halda, kəndliyə dönüb:

– Sizdə gecələmək olarmı? – deyə soruşdu.

Soruşduqdan sonra onun bütün vücudu, əzələləri, sümükləri bərk-bərk dartındı. O, gözlərini kəndliyə dikib qamətini düzəltdi. Tikanlı fikirlər beynini dələrdi:

"Nikolay İvanoviçi məhv edərəm! Paşanı bəlkə də uzun müddət görə bilmərəm! Məni tutsalar, döyəcəklər!"

Kəndli kaftanının yaxasını çəkərək, yerə baxa-baxa və tələsmədən:

– Gecələməkmi? Niyə, olar! – deyə cavab verdi. – Ancaq daxmam karlı deyil...



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Ana düşünmədən:

– Nazla böyümüşlərdən deyiləm! – dedi.

Kəndli sınayıcı nəzərdə onu süzərək:

– Olar! – deyə təkrar elədi.

Qaranlıq düşmüşdü və bu qaranlıqda onun gözləri soyuq bir ifadə ilə parlayır, üzü çox solğun görünürdü. Ana, yoxuşdan aşağıya enirmiş kimi, yavaş səslə:

– Deməli, elə bu saat gedək, sən də mənim çamadanımı götürərsən...

– Yaxşı.

Kəndli çiyinlərini atdı, bir də kaftanına bürünərək, yavaşdan:

– Budur, araba da gəlir... – dedi.

Bu zaman Rıbin idarənin səkisində göründü, onun qolları yenə bağlı idi, başına və üzünə boz bir şey sarınmışdı. Axşamın soyuğunda onun səsi cingildədi:

– Salamat qalın, ay camaat! Həqiqəti axtarın, onu qoruyun, sizə təmiz söz gətirən adama inanın, haqq üçün özünüzü əsirgəməyin!..

Haradansa pristavın bağırtısı eşidildi:

– Kəs səsini, köpək! Yüzbaşı, atları vur, axmaq!

– Nəyinizi əsirgəyəcəksiniz? Yaşayışınız nədir ki?

Araba yollandı. İki yüzbaşının arasında arabada oturan Rıbin batıq səslə çığırırdı:

– Nədən ötrü acından həlak olursunuz? Azadlıq üçün çalışın, azadlıq sizə həm çörək verər, həm də haqq, həqiqət. Salamat qalın, ay camaat!..

Təkərlərin sürətli xışıltısı, atların tappıltısı, pristavın səsi Rıbinin nitqini bürüyüb, qarışdırdı, boğdu. Kəndli başını silkələyib:

– Tamam oldu! – dedi və üzünü anaya çevirib yavaş səslə davam elədi: – Siz stansiyada oturun, mən bir azdan gələrəm...

Ana otağa girib samovar qabağında masanın başında oturdu, əlinə bir parça çörək alıb baxdı və yavaşca yerinə, boşqaba qoydu. İştahı yox idi, yenə ürəyi bulanmağa başlayırdı. Bədəni istiləşdirən bu iyrənc hiss onu qüvvədən salır, qəlbinin bütün qanını sorur, başını gicəlləndirirdi. Mavigöz kəndlinin üzü onun qabağında dururdu; qəribə, sanki tamamlanmamış bu üz anada inam doğurmurdu. Ana kəndlinin onu ələ verəcəyini nədənsə doğrudan-doğruya düşünmək istəmirdi, lakin bu fikir özünə yer eləmişdi və küt, hərəkətsiz daş kimi onun ürəyini əzirdi. Ana:



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

“O məni gördü! Gördü, başa düşdü...” – deyə tənbəlcəsinə və süst halda düşünürdü.

Bu fikir artıq inkişaf etmir, cansıxıcı qüssə və ürəkbulandırıcı hiss içərisində batıb qalırdı.

Pəncərənin dalında, hay-küyü əvəz edərək gizlənmiş qorxaq sükut, kənddə nəyin isə əzilmiş, qorxudulmuş olduğunu büruzə verir, ürəkdəki kimsəsizlik hissini kəskinləşdirir, qəlbi gül kim boz və yumşaq qaranlıqla bürüyürdü.

Qız içəri girib qapıda dayandı və soruşdu:

– Qayğanaq gətirimmi?

– İstəməz. Daha iştahım yoxdur, bu çığır-bağırdan qorxdum!

Qız masaya yaxınlaşıb həyəcanlı, lakin yavaş səslə nağıl eləməyə başladı:

– Pristav nə yaman döyürdü! Mən yaxında durmuşdum, hamısını gördüm, bütün dişlərini sındırdı; o da tüpürəndə ağzından qan gəldi, laxta-laxta, tünd!.. Gözləri heç görünmürdü! O, qatrançıdır. Uryadnik də orada, bizdə kefli yıxılıb, qalıb, hələ yenə də şərab istəyir. Deyir ki, bunlar bir dəstə imiş, bu saqqallı da onların böyüyü, yəni dəstə başçısı imiş! Üçünü tutublar, amma biri qaçıb, eşidirsənmi? Bir də müəllimi tutublar, o da bunlardan imiş. Allaha inanmırlar, başqalarını da dilə-sözə tuturlar ki, kilsələri qarət eləsinlər, görürsən, nə cür adammışlar! Bizim kəndlilərdən də bir parasının ona, o saqqallıya yazığı gəlir, o biriləri də deyir: başını əzib öldürmək lazımdır! Bizlərdə belə rəhmsiz kəndlilər var, ay, ay!..

Ana qızın rabitəsiz, iti danışığına diqqətlə qulaq asır və öz həyəcanını, kədərli intizar hissini dağıtmağa çalışırdı. Qız isə sözünə qulaq asıldığına sevinirmiş kimi, getdikcə qızışaraq udquna-udquna danışır və səsini alçaldırdı:

– Dədəm deyir ki, bunların hamısı qıtlıqdandır! İki ildir ki, taxıl bitmir, camaat lap taqətdən düşüb! Odur ki, indi bu cur kəndlilər çıxıb, Allah göstərməsin! Yığıncaqlarda bağırır, dalaşırlar. O günləri Vasyukovun şeylərini vergi üçün satanda, birdən kəndxudaya elə bir şapalaq vurdu ki, al, dedi, bu da mənim vergim...

Qapının dalında ağır addım səsi eşidildi. Ana əllərini masaya dayayıb ayağa qalxdı.

Mavigöz kəndli içəri girdi və şapkasını çıxarmadan soruşdu:



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

– Yük hanı?

O asanlıqla çamadanı qalxızdı, əlində silkələdi və:

– Boşdur ki! – dedi. – Marka, qonağı bizim daxmaya apar.

Bunu deyib dala baxmadan otaqdan çıxdı.

Qız soruşdu:

– Buradamı gecələyəcəksiniz?

– Hə! Həşyə almağa gəlmişəm, həşyə alıram...

– Bizlərdə toxumurlar! Tinkovoda toxuyurlar, Daryinoda, amma bizlərdə yox! – deyə qız izahat verdi.

– Sabah ora gedəcəyəm...

Ana çayın pulunu verib, qızın özünə də üç qəpik bağışladı və bununla qızı çox sevindirdi. Küçədə qız, yalın ayaqlarını nəmli yerdə şappıldada-şappıldada deyirdi:

– İstəyirsiniz mən çaparaq Daryinoya gedim, arvadlara deyim ki, həşyələrini bura gətirsinlər? Onlar gələrlər, daha siz niyə gedirsiniz. Necə olsa, yenə on iki verstlik yoldur...

Onunla yanaşı yeriyən ana:

– Lazım deyil, əzizim! – deyə cavab verdi.

Soyuq hava onu sərinlətdi; qəlbində yavaş-yavaş hələ aydın olmayan bir qərar yarandı. Aydın olmayan, lakin bir şeyi vəd edən bu qərar çətinliklə inkişaf edirdi; onun yetişməsini sürətləndirmək arzusunda olan qadın da inadla özündən sual edirdi:

"Necə etməli? Gərək öz vicdanına tapşırasan..."

Hava qaranlıq, rütubətli və soyuq idi. Daxmaların pəncərələri qırmızıya çalan, hərəkətsiz, tutqun işıqla yanırdı. Sükutun içində yuxulu heyvanların böyürməsi, qısa bağırtılar eşidilirdi. Kəndi qaranlıq, kədərli düşüncələr bürümüşdü...

Qız:

– Bura! – dedi. – Yatmağa yaxşı yer seçməmisiniz, çox kasıb kəndlidir...

O, əli ilə yoxlayıb qapını tapdı, açdı və uca səslə içəriyə:

– Tatyana xala! – deyə qışqırdı.

Sonra yüyürə-yüyürə uzaqlaşdı. Qaranlıqdan onun:

– Salamat qalın!.. – deyən səsi eşidildi.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

## XVII

Ana astanada dayandı və əlini gözünə tutub, içərini seyr elədi. Daxma darısqal və balaca idisə də, təmizdi, bu təmizlik ilk baxışdan gözə dəyirdi. Sobanın dalından gənc bir qadın başını uzadıb baxdı, dinmədən baş əydi və yox oldu. Yuxarı başda masanın üstündə lampa yanırdı.

Daxma sahibi masanın başında oturub, barmağı ilə onun qırağını taqqıldadır və diqqətlə ananın gözlərinə baxırdı. Azca ara verdikdən sonra:

– İçəri gəlin! – dedi. – Tatyana, get, Pyotru bura çağır, cəld!

Qadın qonağa baxmadan tez çıxdı. Ana, daxma sahibinin qabağında, kürsüdə oturub ətrafını diqqətlə süzdü; çamadanı gözünə dəymədi. Ürək sıxan sükut daxmanı doldurur, yalnız lampanın alovu yavaşdan çıqqıldayırdı. Kəndlinin fikirli, qaşqabaqlı üzü ananın gözləri qabağında dumanlı şəkildə yırğalanır, onda kədərli peşmançılıq hissi oyadırdı.

Ana özü də gözləmədən, birdən uca səslə soruşdu:

– Bəs mənim çamadanım hanı?

Kəndli çiyinlərini tərpədib fikirli halda cavab verdi:

– İtməz...

Sonra da səsini alçaldıb, tutula-tutula sözünə davam elədi:

– Bayaq qızın yanında mən qəsdən dedim ki, boşdur, amma yox, boş deyil! İçində ağır şey var!

Ana:

– Sonra? – dedi. – Nə olsun ki?

Kəndli ayağa qalxıb anaya yaxınlaşdı və əyilib yavaşdan:

– O adamı tanıyırsınızmı? – deyə soruşdu.

Ana ah çəkdi, sonra da möhkəm səslə:

– Tanıyıram! – cavabını verdi.

Bu qısaca söz sanki onu içəridən işıqlandırdı və zahirdən hər şeyi aydınlaşdırdı. Ana rahatça köksünü ötürüb kürsüdə tərpəndi və daha möhkəm oturdu...

Kəndli geniş təbəssümlə gülümsündü:

– Siz ona işarə edəndə, mən gördüm, o da sizə işarə elədi. Mən onun qulağına əyilib, "tanıyırsanmı?" deyə soruşdum, yəni o səkidə duran arvadı tanıyırsanmı?



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Ana tez:

– Bəs o nə cavab verdi? – deyə soruşdu:

– Onu? Biz çoxuq dedi. Bəli! Çoxuq dedi...

O, sualedici nəzərlə qonağının gözlərinə baxıb, yenə gülümsü-nə-gülümsünə davam elədi:

– Güclü adamdır! Qoçaqdır... açıqca deyir – mənəm! Onu döyürlər, o yenə də öz bildiyini danışır...

Onun mütərəddid və zəif səsi, tamamlanmamış üzü və aydın, açıq gözləri get-gedə ananı daha artıq arxayın edirdi. Onun qəlbindəki vahimə və kədərin yerini yavaş-yavaş Rıbinə kəskin, yaxıcı bir mərhəmət tuturdu. Ana özünü saxlaya bilməyib, kəskin bir acıq hissi ilə kədərli-kədərli:

– Quldurlar, cəlladlar! – dedi.

Sonra da hönkürdü.

Kəndli başını qaşqabaqla bulaya-bulaya ondan kənara çəkildi:

– Hökumət özünə yaxşı dost qazandı, bə-ə-li!

O birdən yenə anaya tərəf dönərək yavaş səslə:

– Mən belə başa düşürəm ki, çamadandakı qəzetdir, belədirmi?

Ana gözünün yaşını silərək sadəcə:

– Bəli! – dedi. – Onun üçün aparırdım.

Kəndli qaşlarını çataraq, saqqalını ovcuna aldı və kənara baxa-baxa bir qədər susdu:

– Bizə də gəlib çıxırdı, kitabçalar da gəlirdi. O adamı tanıyırıq... görmüşdük!

Kəndli dayandı, fikirləşdi, sonra sual verdi:

– Bəs indi, deməli, çamadandakını nə eləyəcəksiniz?

Ana onun üzünə baxdı və cəsarətlə:

– Sizə tapşıracağam!.. – dedi.

Kəndli heyrətlənmədi, etiraz da etmədi, yalnız qısaca təkrar elədi:

– Bizə...

Başı ilə razılıq işarəsi edərək, saqqalını ovcundan buraxdı, onu barmaqları ilə darayıb, oturdu.

Ananın yaddaşı amansız, inadlı bir təkidlə Rıbinin döyülməsi mənzərəsini göz qabağına gətirirdi; Rıbinin surəti ananın bütün düşüncələrini üstələyir, insan başına gətirilənlərin acı ağrısı bütün duyğularının qabağını tuturdu, ana daha çamadanını və ya başqa bir



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

şeyi düşünə bilmirdi. Gözlərindən aramsız yaş axırdı, üzü kədərli idi, daxma sahibinə:

– Məlunlar, adamı soyur, əzir, palçığa salıb ayaq altında tapdalayırlar! – deyərkən onun səsi titrəmirdi.

Cavab olaraq kəndli yavaşdan:

– Güclüdürlər! – dedi. – Gücləri çoxdur!

Ana acıqla:

– Bu gücü haradan alırlar? – deyə səsləndi. – Bizim özümüzdən, xalqdan alırlar. Hər şeyi bizdən alırlar.

Bu kəndli özünün nurlu, lakin anlaşılmaz sifəti ilə ananı acıqlandırırdı.

Kəndli fikirli halda:

– Bə-ə-li! – dedi. – Çarxdır.

O, qulaq verdi, başını qapıya tərəf əyib, bir az dinlədikdən sonra, yavaşdan:

– Gəlirlər... – dedi.

– Kim?

– Gərək... özümüzünkülər olsun...

Onun arvadı, arxasınca da bir kəndli içəri girdi. Kəndli, şapkasını bir bucağa ataraq, cəld ev sahibinə yaxınlaşdı və soruşdu:

– Hə, necə oldu?

O, başı ilə təsdiq elədi. Qadın sobanın yanında dayanıb:

– Stepan! – dedi. – Bəlkə qonaq yemək istəyir?

Ana:

– Yox, əzizim, istəmirəm, sağ olun! – dedi.

Kəndli anaya doğru yeridi və tələsik, titrək səslə:

– Deməli, izin verin, tanış olaq! Mən Pyotr Yeqoroviç Ryabininəm, ləqəbim də Cidadır. Sizin işlərinizdən bir az başım çıxır. Savadım var, sözgəlişi, özüm də axmaq deyiləm...

O, ananın ona tərəf uzatdığı əlini tutdu və onu silkələyərək, ev sahibinə:

– Bax, görürsənmi, Stepan! – dedi. – Varvara Nikolayevna yaxşı xanımdır, buna söz yoxdur! Ançaq bu işlər haqqında dedikləri boş şeydir, hədyandır! Guya ki, uşaq-muşaqdır, nə bilim, cürbəcür tələbələrdir, dəlilik edir, xalqı yerindən oynadırlar. Amma biz görürük ki, bayaq ağıllı-başlı bir kəndlini, yekə kişini tutub dustaq elədilər, indi də bax, bu ağbirçək arvad, özü də, göründüyü kimi, ağalardan deyil. Bağışlayın, sizin əsliniz-kökünüz kimlərdəndir?



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

O tələsə-tələsə, açıq-aydın, nəfəsini dərmədən danışırdı, saqqalı əsəbiliklə titrəyir, gözləri isə qıyılaraq qadının üzündə, bədənində gəzirdi. Pal-paltarı cındır, didilmiş, başının tükləri pırtlaşmış olan bu kəndli sanki bu saat birisi ilə dalaşaraq öz rəqibinə qalib gəlmişdi və bu qalibiyyətin şadlığından ruhlanırdı. O öz ötkəmliyi və dərhal açıq və sadə danışması ilə ananın xoşuna gəldi. Ana onun üzünə mehribanlıqla baxıb, sualına cavab verdi, o isə bir daha ananın əlini qüvvətlə silkələdi və çəkinirmiş kimi qırıq-qırıq güldü:

– İş təmiz işdir, Stepan, özün görürsən ki? Gözəl işdir! Mən sənə deyirdim ki, bu işi xalqın özü başlayır. Xanım, əlbəttə ki, düzünü deməz, bu ona zərərdir. Mən onun hörmətini saxlayıram, buna nə söz ola bilər! Yaxşı adamdır, bizim də xeyrimizi istəyir, bəli, bir azacıq; elə ki, özünə də zərər dəyməsin. Amma xalq düz yol ilə getmək istəyir, nə zərərdən qorxur, nə də ziyandan, gördünmü? Onsuz da bütün həyatı başdan ayağa ona zərərdir, hər tərəfdən ziyan gəlir, dönməyə də bir yeri qalmayıb, ətrafı bomboşdur, ancaq hər tərəfdən ona – dayan! – deyə çığırırlar. Stepan başını aşağı əyib:

– Görürəm! – dedi və dərhal əlavə elədi: – Qonaq çamadanından nigarandır.

Pyotr hiyləgərliklə anaya göz vurdu və əlini təskinedici bir tərzdə yelləyərək, yenə danışmağa başladı:

– Nigaran olmayın! Hər şey öz qaydasındadır, anacan! Çamadanınız bizdədir. Bayaq bu mənə deyəndə ki, sizin də işə qarışacağınız var, o adamı da tanıyırsınız, mən o saat dedim: Stepan, onu gözdən buraxma! Belə ciddi işdə adam ayıq-sayıq olmalıdır! Anacan, görünür, biz sizin yanınızda duranda, siz də bizim kim olduğumuzu duydunuz. Namuslu adamlar tez gözə sataşır; çünki belələri küçədə az gəzir, doğrusu budur! Çamadanınız bizdədir...

Kəndli ananın yanında oturdu və xahişedici nəzərlə onun gözlərinə baxaraq, davam elədi:

– Əgər boşaltmaq istəsəniz, biz şadlıqla sizə kömək edərik! Bizə kitabça lazımdır...

Stepan:

– O, hamısını bizə vermək istəyir! – dedi.

– Lap yaxşı, anacan! Hamısını yerbəyer elərik!..

Kəndli ayağa qalxdı, güldü və daxmada gəzinərək razılıqla:

– Lap qəribə təsadüfdür! – dedi. – Ancaq belə də olmalı idi. Bir yerdən bənd açıldı, o biri yerdən tutuldu! Eyibi yoxdur! Qəzet də,



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

anacan, yaxşıdır, öz işini yaxşı görür, gözləri açır! Ağaların damağına dəyir. Mən yeddi verstlikdə bir xanımın yanında işləyirəm, dülgərlik eləyirəm, insafən, yaxşı arvaddır, bizə cürbəcür kitabça verir, hərdənbir oxuyursan, birdən elə bil gözün açılır! Ümumiyyətlə ondan çox razıyıq. Ancaq o dəfə qəzetin bir nömrəsini ona göstərdim, hələ bir az incidi də. Pyotr, – dedi, – bunu boşlayın! Bunu yazan şüursuz uşaqlardır. Bundan da ancaq dərdiniz artar, bu sizi, – dedi, – dustaqxanaya, Sibirə aparar...

O yenə gözlənilmədən susdu, fikrə getdi və axırda:

– Anacan, bir deyin görək, o adam sizin qohumunuzdurmu? – deyə soruşdu.

Ana cavab olaraq:

– Yaddır! – dedi.

Pyotr, nədənsə razı qalaraq, səssizcə başını tərpətdi, ancaq bircə saniyə sonra, ana yad sözünün Rıbin haqqında yersiz olduğunu və ürəyinə dəydiyini hiss etdi:

– Mən onun qohumu deyiləm, ancaq onu çoxdan tanıyıram, doğma qardaşım... böyük qardaşım kimi də hörmətini saxlayıram!

Lazım olan söz tapılmır, bu da anaya dəyirdi, o yenə də göz yaşlarını saxlaya bilmədi. Kədər və intizarla dolu bir sükut daxmanı bürüdü. Pyotr, bir şeyə qulaq verirmiş kimi, başını çiyninə əyib dururdu. Stepan, masaya dirsəklənib, fikirli halda barmağı ilə taxtanı tıqqıldadırdı. Onun arvadı qaranlıqda sobaya dayanmışdı, ana onun diqqətlə zillənmiş nəzərini hiss edir və hərdənbir özü də onun girdə, qarabuğdayı, düz burunlu və kəsik çənəli üzünə baxırdı. Arvadın yaşıla çalan diqqətli gözləri parıldayırdı.

Pyotr yavaş səslə:

– Demək, dostunuz imiş! – dedi. – İradəli adamdır, bəli!.. Öz qiymətini bilirmiş, lazım olduğu kimi bilirmiş! Bax, Tatyana, belə adama nə demişəm, hə? Sən deyirsən ki...

Tatyana onun sözünü kəsərək:

– Evlidirmi? – deyə soruşdu və onun kiçik ağzının nazik dodaqları bərk-bərk yumuldu.

Ana kədərli səslə:

– Duldur! – deyə cavab verdi.

Tatyana sinədən gələn alçaq səslə:

– Qoçaqlığı da ondandır! – dedi. – Evli adam bu yol ilə getməz, qorxar...



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Pyotr:

– Bəs mən? Evliyəm ya yox? – deyə qışqırdı.

Qadın ona baxmayaraq, dodaqlarını büzdü və:

– Bəsdir, ay kirvə! – dedi. – Axı sən nəsən ki? Ancaq danışırsan, hərdənbir də kitabça oxuyursan. Sənin Stepanla bərabər küncdə-bucaqda pıçıldaşmağından xalqa az xeyir gəlir.

Kəndli incimiş kimi yavaş səslə etiraz elədi:

– Elə demə, məni çox adam eşidir! Mən bu işdə xəmir mayası kimi bir şeyəm, nahaq yerə belə deyirsən...

Stepan dinməz-söyləməz arvadına baxdı və yenə başını aşağı saldı. Tatyana:

– Axı bu kəndlilər niyə evlənirlər? – deyə soruşdu. – Deyirlər ki, işçi lazımdır, axı nə iş görəcək?

Stepan boğuq səslə:

– Hələ işin azdırmı? – dedi.

– Belə işdən nə çıxar? Onsuz da bir qarın ac, bir qarın tox yaşayırıq. Uşaq doğursan, onlara baxmağa da macalın olmur; çörək qazandırmayan bu iş qoymur.

O, anaya yanaşdı, onun yanında oturdu, təkidlə, şikayətsiz və qüssəsiz danışmağa başladı:

– Mənim iki uşağım vardı. Biri iki yaşında qaynar suda yandı, o birini yetirə bilmədim, ölü doğuldu; hamısı da bu üzü qara iş üstündə. Bu, mənim üçün şadlıqdırmı? Mən deyirəm, kəndlilər nahaq yerə evlənirlər, əl-qollarını bağlayırlar; azad yaşayaydılar, qayda-nizam əldə etməyə çalışaydılar, açıq-açığına, o kişi kimi haqq üçün qabağa çıxaydılar! Doğrumu deyirəm, anacan?..

Ana:

– Doğrudur! – dedi. – Doğrudur, əzizim, yoxsa bir şey eləmək olmaz...

– Sizin əriniz varmı?

– Ölübdür. Bir oğlum var...

– Hardadır, sizinləmi olur?

Ana:

– Dustaq yatır! – deyə cavab verdi.

Ana bu sözlərin daim yaratdığı qüssə ilə bərabər, qəlbini sakit fərəhlə doldurduğunu hiss etdi:

– İkinci dəfədir ki, qazamata salırlar, hamısının da səbəbi odur ki, Allahın həqiqətini anlayıb, onu açıqcasına yayır... Cavan, gözəl,



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

ağıllı oğlandır. Qəzet çıxarmağı da fikirləşən odur, Mixaylo İvanoviçi də bu yola salan odur, hərçənd Mixaylo iki qat ondan böyükdür! İndi bunun üstündə mənim oğluma divan quracaqlar, iş kəsib Sibirə göndərəcəklər, o da oradan qaçıb yenə öz işini görəcək...

Ana danışırdı; iftixar hissi isə onun qəlbində get-gedə böyüyərək, qəhrəman surəti yaradır və özünə söz tələb edərək ananın boğazını tuturdu. Bu gün şahidi olduğu hadisə ananın başını öz mənasız dəhşəti, həyasız qəddarlığı ilə sıxırdı; bu hadisənin ağır təsirinə qarşı parlaq və şüurlu sözlər tapmaq lazım idi. Sağlam ruhunun bu tələbinə biixtiyar tabe olaraq ana şahidi olduğu bütün parlaq və təmiz işləri, öz saf odu ilə onun gözlərini qamaşdıran bir alov ətrafında toplayırdı...

– Bu cür adamlar indi çoxdur, getdikcə də çoxalır: onların hamısı da axır nəfəsə kimi adamların azadlığı uğrunda, haqq uğrunda çalışacaqdır...

Ana ehtiyatı unutmuşdu və ad çəkmirdisə də, lakin xalqı tamahkarlıq zəncirlərindən azad etmək uğrunda aparılan gizlin fəaliyyət haqqında bildiyi bütün şeyləri onlara nağıl edirdi. Özü üçün əziz olan surətləri təsvir edərkən, ana həyatın qorxulu zərbələri tərəfindən onun qəlbində belə gec oyadılan məhəbbətin bütün əzəmətini öz sözlərinə qatır, özü də xatirində canlanan və öz hissi ilə nurlandırdığı və zinətləndirdiyi adamları qızğın bir fərəhlə xəyalından keçirirdi:

– Bütün yer üzündə, şəhərlərdə bu ümumi iş gedir, yaxşı adamlardakı qüvvənin nə ölçüsü var, nə biçisi, bu qüvvə getdikcə artır, bizim qalib gələcəyimiz saata qədər də artacaqdır...

Onun səsi rəvan axırdı o, sözləri asanlıqla taparaq, ürəyini bu günün qan və çirkindən təmizləmək arzusunun möhkəm sapına əlvan muncuq kimi düzürdü. Kəndlilər, o, nitqinə başladığı anda oturduqları yerə mıxlanmış kimi, oturub tərpənmir, ciddiyyətlə onun üzünə baxırdılar; ana bunu görür, yanında oturan qadının kəsik-kəsik nəfəs aldığını eşidirdi, bunun hamısı da onun öz dediklərinə, insanlara vəd etdiklərinə inamını daha da artırırdı...

– Ağır ömür sürənlər, ehtiyac və qanunsuzluq altında əzilənlər, dövlətlilərlə onların əlaltıları tərəfindən boğulanlar, bunların hamısı, bütün xalq onun yolunda həbsxanalarda çürüyən, ölümə gedən adamlara kömək etməlidir. Onlar özləri üçün heç bir mənfəət güdmədən



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

bütün insanları səadətə aparan yolu göstərər, aldatmadan yolun çətin olduğunu deyər, heç kəsi zorla yollarına çəkməzlər; ancaq onların cərgəsinə durdunmu, daha bir də onlardan uzaqlaşmazsan, özün görərsən ki, hər şey doğrudur, düz yol budur, başqası deyil!

Ana çoxdan bəslədiyi arzusuna çatdığı üçün sevinirdi: bax, indi o özü adamlara həqiqətdən danışırdı:

– Xalq bu cür adamlarla bir yol gedə bilər, onlar yarı yolda durmaz, bütün yalanları, bütün kini və tamahkarlığı əzməyincə dayanmaz, bütün el bir canda birləşib, bir səslə: hakim mənəm, mən özüm hamını bir gözdə görən qanunlar qoyacağam! – deməyincə rahat oturmazlar!..

Ana yorulub susdu, ətrafına baxdı. Sözlərinin hədər getməyəcəyinə olan inamı get-gedə artırdı. Kəndlilər, yenə bir şey gözləyirmiş kimi, ona baxırdılar. Pyotr əllərini qoynuna qoyub, gözlərini qıyır, onun ala-bula üzündə təbəssüm titrəyirdi. Stepan bir əlini masaya dayayaraq, gövdəsini qabağa vermiş, boynunu uzatmışdı, sanki hələ də qulaq asırdı. Onun üzünə kölgə düşmüşdü, bundan da üzü tamamlanmış nəzərə gəlirdi. Onun arvadı ananın yanında oturub, dirsəklərini dizlərinə dayadığı halda əyilmiş və gözlərini ayaqları altına dikmişdi.

Pyotr pıçıltı ilə:

– Bəs belə! – dedi və başını bulayaraq yavaşca kürsüyə oturdu.

Stepan yavaşcadan qəddini düzəltdi, arvadına baxdı və bir şeyi qucaqlamaq istəyirmiş kimi, əllərini geniş açdı...

O, fikirli halda yavaşdan:

– Bu işə qoşulan, doğrudan da, bütün varlığı ilə qoşulmalıdır! – deyə sözə başladı.

Pyotr qorxa-qorxa:

– Bəə-ə-li! Geri dönmək olmaz! – deyə əlavə elədi.

Stepan:

– Bu iş geniş qurulubdur! – dedi.

Pyotr:

– Bütün yer üzünü tutur! – deyə yenə əlavə elədi.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

## XVIII

Ana divara söykənib, başını dala verərək onların yavaşdan və ölçüb-biçərək dedikləri sözlərə qulaq asırdı. Tatyana qalxıb ətrafına baxdı və yenə oturdu. Narazılıq və etinasızlıqla kəndlilərə nəzər salanda, onun yaşıl gözlərində soyuq ifadə göründü. O, üzünü anaya çevirib birdən:

– Görünür, çoxluca dərd çəkmisiniz! – dedi.

Ana cavab olaraq:

– Niyə, olubdur! – dedi.

– Yaxşı danışırsınız, sözləriniz adamın ürəyini dalınca aparır. Öz-özünə düşünürsən: ilahi, barı bu cür adamlara, sonra da yaşayışa qapı yarığından baxmaq mümkün olaydı. Yaşayışımız nədir ki? *Qoyun kimi yaşayırıq! Bax, mənim savadım var, kitabça oxuyuram,* çox fikirləşirəm, elə olur ki, fikirdən gecə də yatmıram. Ancaq nə mənası var ki? Fikirləşməyəcəyəm – boş yerə özümü çürüdürəm, fikirləşsəm də bir mənası yoxdur.

Danışırkən qadının gözlərində istehzalı bir təbəssüm sezilirdi, hərdənbir də öz nitqini dişilə sapı kəsən kimi, kəsirdi. Kişilər dinmirdilər. Külək pəncərələrin şüşəsini tumarlayır, damın küləşini xışıldadır, bacada yavaşca uğuldayırdı. İt ulayırdı. Bəzən də yağış damcıları könülsüz-könülsüz pəncərəni taqqıldadırdı. Lampanın alovu titrədi, azaldı və bircə saniyə sonra yenə düz, parlaq alovla yanmağa başladı:

– Sizin söhbətinizə qulaq asdım; demək, adamlar bundan ötrü yaşayırmışlar! Bu mənə elə qəribə gəlir ki, sizə qulaq asanda görürəm, bunların hamısını mən irəlicədən də bilirmişəm! Halbuki sizdən qabaq mən belə sözlər eşitməmişdim, belə şeylər xəyalıma da gəlməmişdi...

Stepan qaşqabaqla və tələsmədən:

– Tatyana, çörək yemək, sonra da işığı söndürmək lazımdır! – dedi. – Xalq görər ki, Çumakovların işığı gecəyə kimi yanıbdır. Bizə bir şey olmaz, amma qonağımız üçün bəlkə yaxşı olmadı...

Tatyana qalxıb ocağa tərəf getdi.

Pyotr gülümsünərək yavaşdan:

– Bə-ə-li! – dedi. – Kirvə, indi gözdə-qulaqda olmaq lazımdır! Qəzet xalqın arasında yayılan kimi...



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

– Mən özüm üçün demirəm. Məni tutsalar da, bir şey deyil!

Arvadı masaya yaxınlaşıb:

– O yana çəkil! – dedi.

O durub kənara çəkildi və arvadının süfrə açmağına tamaşa edəndə, istehzalı təbəssümlə dedi:

– Bizim qiymətimiz bir qara qəpikdir...

Birdən ananın ona yazığı gəldi; indi ana bu kəndlini get-gedə daha çox bəyənirdi. Danışdıqdan sonra ana özünü bu günün ağır əzabından dincəlmiş hiss edirdi, özündən razı idi və hamıya xeyirxahlıq, yaxşılıq arzu edir.

Ana:

– Fikriniz doğru deyil, əzizim! – dedi. – Adam gərək onun qanına susayanların ona qoyduğu qiymətə razı olmasın. Siz özünüzü gərək özünüz qiymətləndirəsiniz, içəridən, düşmənlər üçün yox, dostlar üçün...

Kəndli yavaşdan:

– Eh, bizim dostumuz harda idi ki! – deyə səsləndi. – Hamısı qarın dostlarıdır.

– Amma mən deyirəm elin dostu var...

Stepan fikirli halda:

– Var, ancaq burada deyil! Söz burasındadır! – deyə cavab verdi.

– Siz də burada dost tapın.

Stepan fikirləşib yavaşdan:

– Doğrudur, lazımdır.. – dedi.

– Süfrəyə buyurun! – deyə Tatyana hamını şama dəvət elədi.

Ananın nitqlərinin təsiri altında olan və sanki özünü itirmiş Pyotr şam vaxtı yenə qızışaraq:

– Anacan, siz səhər tezdən yola düşməlisiniz ki, görən olmasın! – deyirdi. – Özü də buradan şəhərə qayıtmayın, poçt arabası tutub o biri stansiyaya gedin...

Stepan:

– Nə lazım? Mən özüm apararam! – dedi.

– Yox! Bir şey olsa, səndən soruşarlar – gecə sizdə qalıbmı? Qalıb. Sonra necə olub? Mən aparmışam! Aha, sənmi aparmısan? Buyur dustaqxanaya! Başa düşdünmü? Dustaqxanaya da tələsmək nə lazım? Hər şeyin öz vaxtı var; deyirlər ki, vaxtı gələndə, padşah da öləcək. Amma belə olsa məsələ aydın olar – gecə bizdə yatdı,



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

səhər araba tutub getdi! Gecəni onun-bunun evində yatan az deyil ki! Kəndimiz yol üstündədir.

Tatyana istehza ilə soruşdu:

– Pyotr, bu qorxmağı hardan öyrənmisən?

Pyotr əlini dizinə vurub:

– Hər şeyi bilmək lazımdır, ay bacı! – dedi. – Qorxmağı bacar, hünərli olmağı da bacar! Yadındadırmı, bu qezetin üstündə Vaqanovu zemstvo rəisi necə sıxışdırırdı? İndi Vaqanovun ətəyini qızıl ilə doldursan da əlinə kitab almaz, bəli! Ana can, siz mənim sözümə baxın, mən bu cür işlərin ustasıyam, hamıya bəllidir. Sizin kitab-kağızınızı mən öz qaydasınca, nə qədər istəsəniz, yayaram! Bizim camaat, söz yox, o qədər də savadlı deyil, özü də qorxaqdır. Ancaq zəmanə adamı o qədər darıxdırır ki, istər-istəməz gözünü bərəldib ətrafını axtarır, bir xəbər öyrənmək istəyir. Kitabça da ona lap açıq cavab verir: gözünü aç, başa düş! Elə olur ki, savadsız savadlıdan artıq başa düşür, xüsusən savadlı tox olanda! Mən buralarda hər yeri gəzirəm, çox şey görürəm – çətin iş deyil! Yaşamaq mümkündür, ancaq adamın başında beyin, özündə də bacarıq olmalıdır ki, birdən-birə tələyə düşməsin. Hökumət adamları da burnu ilə hiss eləyir ki, deyəsən, xalq bir qədər soyuyubdur, az-az gülür, özü də heç bir mehribançılıq göstərmir; bir sözlə, kənd camaatı hökuməti yadırğamağa başlamışdır! O günləri Smolyakovoda vergi yığırdılar, – bu yaxınlıqda bir belə kənd var, – kəndlilər hirslənib, ağaca əl atdılar. Pristav bunlara açıq-açığına deyirdi: – "Ay it uşaqları! Axı siz padşahın üzünə ağ olursunuz?!" Orada bir kəndli vardı, Spivakin adlı: birdən ağzını açıb səsləndi: – "Sizin də ananız belə olsun, padşahın da! Bu neçə padşahdır ki, xalqın köynəyini də əynindən çıxarır?.." Belədir, anacan, görürsünüz, iş nə yerə çatıbdır! Söz yox, Spivakini qapazlayıb dama saldılar, amma söz qaldı, onu balaca uşaqlar da əzbər eləyiblər, – söz səs salır, yaşayır!

Pyotr bir şey yemədən, qara fəndgir gözlərini ötkəm bir ifadə ilə parıldada-parıldada, sürətli pıçıltı ilə danışır və kisədən qara pulu tökən kimi, kəndin həyatına dair saysız-hesabsız müşahidələrini səxavətlə ananın qabağına tökürdü. Bir-iki dəfə Stepan:

– Çörəyini yeyəydin!.. – dedi.

Pyotr ağzına bir parça çöreklə bir qaşıq xörək alıb, yenə söhbətinə davam edirdi. Nəhayət, şamdan sonra o ayağa sıçrayıb:



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

– Daha mən getməliyəm!.. – dedi.

O, ananın qabağında dayanıb başını tərpətdi, onun əlini silkələdi və:

– Salamat qalın, anacan! – dedi. – Bəlkə bir daha görüşmədik! Ancaq sizə deməliyəm ki, bunun hamısı çox gözəl işdir! Sizə rast gəlib söhbətinizə qulaq asmaq çox xoşdur. Çamadanınızda kitabdan, qəzetdən başqa bir şey də vardırmı? Şal yaylıqmı? Çox yaxşı, Stepan yadında saxla, şal yaylıq! Bu saat o, çamadanınızı gətirər. Gəl, Stepan! Salamat qalın! Yaxşı yol!..

Onlar gedəndən sonra tarakanların xışıltısı, küləyin damda gəzinib sobanın qapağını şıqqıldatması, narın yağışın eyni ahənglə pəncərəyə dəyib taqqıldaması eşidilməyə başladı. Tatyana sobanın üstündən və taxçalardan yorğan-döşək çıxarıb, taxtın üstündə ana üçün yataq hazırlayırdı. Ana:

– Diribaş adamdır! – dedi.

Tatyana gözaltı anaya baxıb cavab verdi:

– Səslənməyinə səslənir, ancaq uzaqlarda eşidilmir!

Ana:

– Sizin əriniz necə? – deyə soruşdu.

– Niyə, yaxşı kişidir. İçib-eləmir, mehriban yaşayırıq. Ancaq xasiyyəti yumşaqdır...

Qadın belini düzəltdi və bir qədər sükutdan sonra soruşdu:

– Axı indi nə lazımdır – xalqa üsyan eləmək lazım deyilmi? Əlbəttə! Hamının fikri bundadır, ancaq hər kəs ayrıca özlüyündə fikirləşir. Amma ucadan danışmaq lazımdır... qabaqca da birisi cürət eləyib irəli yeriməlidir.

O, taxtın üstünə oturdu və birdən:

– Deyirsiniz, cavan qızlar da bu işə baş qoşurlar, fəhlələrin yanına gedir, onlar üçün kitab oxuyurlar, iyrənmir, qorxmurlar, hə? – deyə soruşdu.

O, ananın çavabını diqqətlə dinləyib, dərindən ah çəkdi. Sonra gözlərini aşağı dikdi və başını əyib yenə danışmağa başladı:

– *Kitabçaların birində mən bu sözləri oxudum – fikirsiz yaşayış.* Mən bunu lap yaxşıca başa düşdüm. Mən belə həyata bələdəm: fikir var, ancaq bir-birilə bağlı deyil, qoyunlar çobansız gəzən kimi, dağınıq gəzir, onları bir yerə toplayan adam da yoxdur... Fikirsiz həyat da budur. Ondan qaçardım, dönüb dala da baxmazdım: bir şey anlayanda qüssədən az qalır adamın bağrı çatlasın!



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Ana bağrı çatladan bu qüssəni qadının yaşıl gözlərindəki sərt parıltıda, onun arıq üzündə görür və səsində eşidirdi. Ana ona təsəlli vermək, onu əzizləmək istədi:

– Əzizim, siz ki, nə edəcəyinizi bilirsiniz...

Tatyana yavaşdan onun sözünü kəsdi:

– Bacarmaq lazımdır... Yeriniz hazırdır. Buyurun!

Qadın sobanın yanına çəkildi və susmuş, şax, fikrə getmiş halda orada dayandı. Ana soyunmamış uzandı, yorğunluqdan sümükləri gizildəyirdi; o yavaşdan inildədi. Tatyana lampanı söndürdü; daxmanı qaranlıq bürüdükdə, onun alçaq, rəvan səsi eşidildi. Bu səs elə bil bürkülü qaranlığın hamar üzündən nəyi isə silib təmizləyirdi:

– Dua eləmirsiniz. Mən də belə güman edirəm ki, Allah yoxdur. Möcüzə də yoxdur.

Ana narahatlıqla o biri yanı üstə çevrildi; pəncərədən zil qaranlıq düz onun üzünə baxır, çətinliklə eşidilən xışıltı, hənirti inadla özünə yol açıb sükutu pozurdu. Ana demək olar ki, pıçıltı ilə, qorxa-qorxa:

– Allah haqqında bir şey bilmirəm, ancaq İsaya inanıram... – dedi. – Onun sözlərinə də inanıram, – Hamını özünü istədiyin kimi istə, – buna inanıram!..

Tatyana dinmirdi. Ana onun qaranlıqda sobanın qara fonunda bozaran şax qamətinin zəif cizgilərini seçirdi. Tatyana hərəkətsiz durmuşdu. Ana kədərindən gözlərini yumdu.

Birdən ürək titrədən səs eşidildi:

– Balalarımın ölümünü nə Allaha bağışlaya bilirəm, nə də adamlara, heç vaxt!..

Ana bu sözləri yaradan ağrının qüvvəsini qəlbi ilə duyaraq, yerində dikəldi və mehriban səslə:

– Siz cavansınız, yenə uşağınız olar! – dedi.

Azacıq sükutdan sonra qadın pıçıltı ilə:

– Yox! – deyə cavab verdi, – həkim deyir, mən xarab olmuşam, daha doğmaram...

Döşəmədə bir siçan qaçdı. Görünməz ildırım kimi sükutun hərəkətsizliyini yararaq, nə isə bərkdən şıqqıldadı. Damın küləşi üstündə payız yağışının şırıltı və xışıltısı yenə də aydın eşidilməyə başladı; bu səslər, kimin isə qorxmuş incə barmaqları kimi, damın küləşini əlləşdirirdi. Su damcılarının cansıxıcı tappıltısı payız gecəsinin ağır ötdüyünü bildirirdi.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Mürgüləyirkən ana küçədə, dəhlizdə addım səsləri eşitdi. Qapı ehmalca açıldı, yavaş səs gəldi:

– Tatyana, yatmısanmı?

– Yox.

– O necə, yatıbdırmı?

– Deyəsən, yatıb.

Od alışdı, titrədi və qaranlıqda boğuldu. Kəndli ananın yatağına yaxınlaşdı, kürkü düzəldib ananın ayaqlarını bürüdu. Bu nəvaziş ananın qəlbini oxşadı; yenidən gözlərini yumdu, gülümsündü. Stepan, dinməz-söyləməz soyunub sobanın üstünə çıxdı. Yenə ətrafı sükut bürüdü.

Ana, mürgü gətirən sükutun tənbəl-tənbəl titrəməsinə diqqətlə qulaq verərək, hərəkətiz uzanmışdı: qaranlıqda onun gözü qabağında Rıbinin qana bulaşmış üzü yırğalanırdı...

Sobanın üstündən pıçıltı eşidildi:

– Görürsənmi, bu işə necə adamlar qoşulur? Ahıl adamlardır, dərddən doyunca dadıb, çalışıblar, indi dincəlməlidirlər, amma, bir bax! Hələ sən cavansan, ağıllısan, eh, Styopa!..

Kəndlinin təsirli gur səsi cavab verdi:

– Fikirləşməmiş belə işə girişmək olmaz...

– Bunu çox eşitmişəm...

Səslər kəsildi və yenidən başlandı; Stepanın səsi uğuldadı:

– Belə lazımdır: qabaqca kəndlilərlə ayrı-ayrılıqda danışmaq, məsələn, Makov Alyoşa ötkəm, savadlı kəndlidir, özü də hökumətdən incikdir. Şorin Sergey də ağıllı kişidir. Knyazev namuslu, hünərlidir. Hələlik bəsdir. Qonağımızın dediyi adamları da görmək lazımdır. Mən, baltamı götürüb, şəhərə yollanaram, elə bilərlər ki, guya odun yarmağa, qazanc üçün getmişəm. Bu işdə ehtiyat lazımdır. Arvad doğru deyir: adam özü-özünə qiymət qoymalıdır. Bax, haman o kəndli kimi. İstər onu lap Allahın qabağına gətir, geri çəkilməz... möhkəm girişib. Nikitkaya nə deyərsən, hə? Vicdanı dilə gəldi, qəribə işdir!

– Gözünüzün qabağında adamı döyürlər, siz də ağzınızı açıb tamaşa edirsiniz...

– Sən dayan! Sən Allahına şükür elə ki, biz özümüz onu döymədik, söz burasındadır...



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Kəndli çox dedi, səsini bəzən elə alçaldırdı ki, ana onun sözlərini çətinliklə eşidirdi, bəzən də uca, gur səslə danışmağa başlayırdı. Onda arvadı onu dayandırırdı: – Yavaş danış! Oyadarsan...

Ana ağır yuxuya getdi. Bürkülü bulud kimi yuxu birdən onun üstünə çökdü, qucaqlayıb apardı.

Səhərin alaqaranlığı daxmanın pəncərələrinə kor kimi baxanda ibadətə çağıran kilsə zənginin mis səsi yuxulu-yuxulu soyuq sükutu yararaq, kəndin üzərində üzüb əriyəndə Tatyana ananı oyatdı:

– Samovara od salmışam, çay için, yoxsa yuxulu-yuxulu getsəniz, üşüyərsiniz...

Stepan pırtlaşmış saqqalını daraya-daraya işgüzar bir tərzdə anadan xəbər alırdı ki, onu şəhərdə nə cür tapmaq olar: onun üzü ananın nəzərinə bu gün daha yaxşı və tamamlanmış gəlirdi. Çay içərkən kəndli gülümsünərək:

– Necə də qəribə oldu!

Tatyana:

– Nə? – deyə soruşdu.

– Bizim tanışlığımız!

– Beləcə sadə...

Ana fikirli, lakin arxayın halda:

– Bu işdə hər şey çox sadə olur! – dedi.

Onunla xudahafizləşərkən ev sahibləri az danışır, lakin onun rahatlığı üçün çox əlləşirdilər.

Açıq, yüngül arabada oturan ana bu kəndlinin göstəbək kimi ehtiyatla, səssiz və yorulmadan çalışmağa başlayacağını düşünürdü. Onun yanında da arvadının narazı səsi daim eşidiləcək, yaşıl gözlərinin yandırıcı işığı parıldayacaqdı; tələf olan balalarının ana qəlbinə çəkdiyi dağ həyatı boyu qalacaq, qisas tələb edən şiddətli kədər ölməyəcəkdir.

Rıbin, onun qanlı sifəti, yanan gözləri, atəşin sözləri ananın xatirinə gəldi, canavarlar qarşısında aciz qalıb bir şey eləyə bilmədiyi üçün ürəyi sıxıldı. Qarasaqqal Mixaylonun cırıq köynəkli, qolları dalında bağlı, saçları pırtlaşmış, qəzəblə, öz həqiqətinə inamla dolu möhkəm siması dumanlı səhərin tutqun səmasında bütün yol uzunu şəhərə qədər ananın gözü qabağında dururdu. Ana qorxa-qorxa yerə qısılmış saysız-hesabsız kəndləri, həqiqətin yoluna gizli-gizli göz dikən insanları, bütün ömrünü bir şey gözlə-



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

mədən və düşünmədən dinməz-söyləməz çalışıb çabalayan minlərlə adamı düşünürdü.

Həyat onun nəzərinə şumlanmamış, dərə-təpəli bir çöl kimi gəlirdi; bu çöl lal və ağır sükut içində öz işçilərini gözləyir və azad, namuslu əllərə vəd edirdi:

– Mənə həqiqət toxumu səpin, sizə birə yüz məhsul verim!

Ana öz müvəffəqiyyətini düşünürkən qəlbinin ən dərin guşəsində sevincin yüngül çırpıntısını hiss edir və utana-utana onu boğmağa çalışırdı.

## XIX

Evdə qapını saçı pırtlaşmış, əlində kitab olan Nikolay açdı. Şadlıqla:

– Gəldiniz? – deyə səsləndi. – Nə tez?

Onun gözləri şüşələrin dalından məhəbbət və sevinc qığılcımları saçırdı; anaya soyunmaqda kömək edərkən, mehriban təbəssümlə onun üzünə baxa-baxa deyirdi:

– Heç bildinizmi, gecə burada axtarış oldu, mən dedim, görəsən nə səbəb ola? Bəlkə sizə bir qəza üz verib? Ancaq həbs eləmədilər. Sizi tutsaydılar, söz yox, məni də belə qoymazdılar!..

Nikolay tez-tez danışa-danışa ananı otağa apardı:

– Əlbəttə, indi qulluqdan qovacaqlar. Bu da məni heç qorxutmur. Atsız kəndliləri hesablamaqdan cana doymuşam!

Otaq yaman kökə salınmışdı, elə bil zorba bir adamın dəliliyi tutub, evin divarlarını küçədən o qədər itələyib silkələmişdi ki, evin içindəki şeylər tamam alt-üst olmuşdu. Şəkillər yerə tökülmüş, divar kağızı qoparılıb parça-parça asılı qalmış, bir yerdə döşəmənin taxtası aralanmış, pəncərənin taxçası sökülmüş, sobanın qabağında kül yerə tökülmüşdü. Tanış olduğu mənzərəni görən ana başını buladı və Nikolayda bir yenilik sezərək diqqətlə ona baxdı.

Odu sönmüş samovar, yuyulmamış qab-qacaq, boşqab əvəzinə kağıza qoyulmuş kolbasa və pendir, çörək tikə və qırıntıları, kitab, samovar kömürü masanın üstünə dağılmışdı. Ana gülümsündü, Nikolay da utana-utana gülümsündü:



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

– Bunları da mən belə dağıtmışam, ancaq eyibi yoxdur, Nilovna, eyibi yoxdur! Mən elə bilirəm ki, onlar yenə gələcəklər, ona görə də bunları yığışdırmamışam. Deyin görək, siz necə gedib-gəldiniz?

Bu sual ağır bir təkan kimi onun sinəsinə dəyib ağrıtdı. Rıbin onun gözləri qabağında canlandı, o da gələn kimi Rıbindən danışmadığı üçün özünü təqsirkar hiss edib, xəcalət çəkdi. O, kürsüdə əyilərək Nikolaya yaxın oturdu və sakitliyini saxlamağa, heç nəyi unutmamağa çalışaraq nağıl eləməyə başladı:

– Onu tutublar...

Nikolayın üzü titrədi:

– Eləmi?

Ana əlinin hərəkəti ilə onun sualını dayandırdı və ədalətin öz qabağındaca oturub, insana necə əzab verildiyindən şikayət edirmiş kimi, sözünə davam elədi. Nikolay, kürsünün arxasına söykənib, rəngi qaçmış halda dodağını dişləyərək, qulaq asırdı. O, gözlüyünü yavaşca çıxarıb masanın üstünə qoydu, gözəgörünməz bir hörümçək torunu üzündən silirmiş kimi, əlini üzünə çəkdi. Onun sifəti uzandı, almacıq sümükləri dikəldi, burnunun pərləri titrəməyə başladı; ana birinci dəfə idi ki, onu belə görürdü; onun bu halı ananı qorxudurdu.

Ana sözünü qurtaranda Nikolay ayağa qalxdı, əllərini ciblərinin dibinə soxub bir dəqiqə dinməz-söyləməz otaqda gəzindi. Sonra mızıldadı:

– Görünür, böyük adamdır. Dustaqxanada onun üçün çətin olacaq, bu cür adamlar orada özlərini pis hiss edirlər.

O, həyəcanını boğaraq əllərini ciblərinə daha dərin soxurdu, lakin ana onun həyəcanını duyur, özü də həyəcanlanırdı. Nikolayın gözləri bıçağın ağzı kimi daralmışdı. O, yenə otaqda gəzinərək, soyuq və qəzəbli səslə:

– Bir dəhşətə baxın! – deyirdi. – Bir ovuc axmaq, xalqın üzərində öz mənfur hakimiyyətini qorumaq üçün hamını vurur, boğur, əzir. Vəhşilik artır, amansızlıq həyat qanunu olur, bir düşünün! Bəziləri zülm edir və cəzasız qaldığından canavara dönür, əzab vermək hərisliyi ilə xəstələnirlər: bu murdar azar öz qul hissləri və heyvani vərdişlərinin bütün gücünü göstərmək azadlığını almış kölələrə məxsusdur, başqaları intiqam zəhəri ilə zəhərlənirlər, ağlını



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

itirincəyə qədər döyülüb əzilən üçüncülər isə lal və kor olurlar. Xalqı yoldan çıxarırlar, bütün xalqı!

O dayandı, dişlərini qıcayıb susdu. Sonra yavaş səslə:

– Bu vəhşi həyatdan özün də vəhşiləşirsən! – deyə əlavə etdi.

Lakin o, həyəcanını boğaraq qətiyyətli ifadə ilə parıldayan gözlərini ananın səssiz göz yaşından islanmış üzünə dikdi:

– Nilovna, orası var ki, biz vaxtımızı itirə bilmərik. Əziz yoldaş, gəlin özümüzü bir təhər ələ almağa cəhd edək...

O, qüssə ilə gülümsünərək anaya yaxınlaşdı və ona tərəf əyilib əlini sıxdı, sonra da:

– Çamadanınız hanı? – deyə soruşdu.

– Mətbəxdədir!

– Qapımızın ağzında casuslar durub, bu qədər kağızı biz evdən elə çıxara bilməyəcəyik ki, görməsinlər, gizlətməyə də bir elə yer yoxdur; məncə, onlar bu gecə yenə gələcəklər. Demək, zəhmətimizə heyifimiz gəlsə də, bunların hamısını yandırmalıyıq.

Ana:

– Nəyi? – deyə soruşdu.

– Çamadanın içində olanı.

Ana onu başa düşdü və nə qədər kədərli olsa da, öz müvəffəqiyyətindən doğan qürur hissilə gülümsündü:

– Orada bir şey yoxdur, bir vərəq də! – dedi və yavaş-yavaş coşaraq, Çumakova rast gəldiyini nağıl eləməyə başladı. Nikolay ona qulaq asarkən, qabaqca nigaran-nigaran qaşlarını çatdı, sonra heyrətləndi, nəhayət, ananın sözünü kəsərək:

– Canım, bu ki lap qiyamət oldu! – deyə qışqırdı. – Sizin qəribə bəxtiniz varmış...

O, ananın əlini bərk-bərk sıxaraq yavaşcadan:

– Siz insanlara olan inamınızla adamın qəlbini riqqətə gətirirsiniz... Doğrudan da mən sizi doğma anam kimi sevirəm!

Ana gülə-gülə, maraqla ona diqqət edir və onun idi nə üçün belə parlaq və canlı olduğunun səbəbini anlamağa çalışırdı. Nikolay əllərini bir-birinə sürtə-sürtə yavaş, nəvazişlə gülür və:

– Çox gözəl iş oldu! – deyirdi. – Bu son günləri mən lap yaxşı keçirmişəm – fəhlələrin içində olmuşam, onlara oxumuş, danışmış, tamaşa eləmişəm. Qəribədir, qəlbimdə o qədər sağlam, təmiz hisslər yığılıb ki! Nə gözəl insanlardır, Nilovna! Mən gənc fəhlələri

deyirəm: möhkəm, həssas adamlardır, hər şeyi anlamaq arzusu ilə yanırlar. Onlara baxanda görürsən ki, Rusiya yer üzündə ən parlaq demokratiya olacaqdır!

O, and içirmiş kimi əlini yuxarı qalxızdı və bir qədər sükutdan sonra davam elədi:

– Mən burada oturub hey yazırdım, odur ki, pas atmışam, bu kitabça və rəqəmlərdən kiflənmişəm. Adam bir il belə yaşasa lap adamlıqdan çıxar. Bir də mən fəhlə xalqın arasında yaşamağa öyrəşmişəm, ondan ayrılanda özümü yaxşı hiss eləmirəm, bilirsiniz, kərkinləşirəm, var qüvvəmi toplamalı oluram. Amma indi yenə azad yaşaya bilərəm, fəhlələrlə görüşüb onlarla məşğələ aparacağam. Başa düşürsünüzmü, yeni doğulan düşüncələrin beşiyi başında gənc yaradıcı qüvvələrlə üz-üzə duracağam. Bu, olduqca sadə və gözəldir, adamı canlandırır, özün də gəncləşir, möhkəmləşirsən, zəngin bir həyatla yaşayırsan!

O, utana-utana, sevinə-sevinə güldü: ana da bu şadlığı anlayır və qəlbi onunla dolurdu. Nikolay:

– Bir də, siz çox yaxşı adamsınız! – deyə səsləndi. – İnsanları necə aydın təsvir edirsiniz, necə yaxşı görürsünüz!..

Nikolay, onun yanında oturub, nəşəli üzünü utana-utana o biri tərəfə çevirdi və saçlarını tumarlamağa başladı, azca sonra yenə üzünü anaya çevirdi və ona baxa-baxa rəvan, sadə və parlaq hekayətinə diqqətlə qulaq asdı. Nikolay:

– Qəribə müvəffəqiyyətdir! – deyə səsləndi. – Bu vəziyyətdə siz həbsxanaya düşə bilərdiniz, amma birdən belə müvəffəqiyyətə nail olmusunuz! Bəli, belə məlum olur ki, kəndli hərəkətə gəlir, bu da təbiidir! Hələ o qadın – elə bil gözümün qabağındadır!.. Kənd işləri üçün biz xüsusi adamlar ayırmalıyıq. Adamlar! Bizim bəlamız adam qıtlığıdır... Həyat yüzlərlə adam tələb edir...

Ana yavaş səslə:

– Paşa azadlığa çıxsaydı, Andryuşa da! – dedi.

Nikolay ona baxıb, başını aşağı saldı:

– Bilirsinizmi Nilovna, bunu eşitmək sizə nə qədər ağır olsa da, deməliyəm: Paveli mən yaxşı tanıyıram, o, dustaqxanadan qaçmaz! Ona məhkəmə lazımdır, o, şax durub varlığını bildirmək istəyir, bundan da əl çəkən deyil. Əl çəkmək də lazım deyil! O, Sibirdən qaçıb gələr.

Ana ah çəkib yavaşdan:



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

– Neyləyək! Yaxşısını özü bilir... – deyə cavab verdi.

Bir an sonra Nikolay gözlüyünün dalından ona baxaraq:

– Hə! Sizin o kəndliniz tez gəlib çıxsaydı! – deyirdi. – Bilirsinizmi, Rıbin barəsində kənd üçün vərəqə yazmaq lazımdır, bir halda ki, o özünü belə cəsarətli aparır, bu vərəqə ona zərər verməz. Mən bu gün yazaram, Lüdmila da tez çap edər... Ancaq vərəqəni kəndə necə çatdıraq?

– Mən apararam...

Nikolay tez:

– Xeyr, bağışlayasınız! – deyə qışqırdı. – Mən deyirəm, bəlkə Vesovşikov bu işə yaraya, hə?

– Onunla danışımmı?

– Baxın, görün! Özünü də öyrədin.

– Bəs mən nə iş görəcəyəm?

– Xatircəm olun, iş tapılar!

Nikolay oturub yazmağa başladı. Ana da ona baxa-baxa masanın üstünü səliqəyə salır və qələmin Nikolayın əlində titrəyə-titrəyə kağızı qara söz cərgələrilə örtdüyünü görürdü. Hərdənbir Nikolayın boynunun dərisi əsirdi, o, başını geri atıb gözlərini yumurdu, çənəsi titrəməyə başlayırdı. Bu, ananı narahat edirdi.

Nikolay ayağa qalxaraq:

– Hazırdır! – dedi. – Siz bu kağızı yanınızda bir yerdə gizləyin. Ancaq unutmayın ki, jandarmlar gəlsə sizi də axtaracaqlar.

Ana sakit səslə cavab verdi:

– Canları cəhənnəmə!

Axşam doktor İvan Daniloviç gəldi. Otaqda o yan-bu yana yüyürə-yüyürə:

– Görəsən hökumət birdən-birə nə üçün belə narahat olub? – deyirdi. – Bu gecə yeddi yerdə axtarış edilib. Bəs xəstə hanı?

Nikolay:

– Dünən gedib! – deyə cavab verdi. – Axı bu gün şənbədir, onun məşğələsi var, onu ötürə bilməz...

– Bunun heç mənası yoxdur, başı yarılmış halda məşğələdə oturmaq...

– Mən ona sübut edirdim, ancaq bir nəticə çıxmadı...

Ana dedi:

– Yoldaşlarının qabağında öyünmək istəyir, yəni ki, bir mənə baxın, mən artıq öz qanımı tökmüşəm... demək istəyir.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Doktor ona baxdı, zarafatla özünü qəzəblənmiş kimi göstərib, dişlərini qıcıyaraq:

– U-u, nə yamansınız!.. – dedi.

– İvan, sənin burada görəsi işin yoxdur, biz də ki, qonaq gözləyirik, dur get! Nilovna, kağızı buna verin!..

Doktor:

– Yenə kağız? – deyə səsləndi.

– Budur! Al, ver mətbəəyə.

– Aldım. Verərəm. Yenə bir şey varmı?

– Yoxdur! Qapıda casus var.

– Gördüm. Mənim qapımda da var. Di salamat qalın! Salamat qalın, hirsli qadın. Əzizlərim, heç bilirsinizmi, qəbiristandakı vuruşma yaxşı iş imiş! Bütün şəhər ondan danışır. Bu barədə sən *yazan vərəqə də çox yaxşıdır, özü də vaxtında çıxıb. Mən həmişə* deyirdim ki, yaxşı vuruşma pis barışıqdan yaxşıdır.

– Yaxşı, di get...

– Çox da mehriban deyilsən! Nilovna, əlinizi verin! Amma oğlan hər halda axmaqlıq eləyib. Harada yaşayır, bilirsənmi?

Nikolay oğlanın ünvanını verdi.

– Sabah ona dəymək lazımdır, yaxşı oğlandır, hə?

– Çox...

Doktor gedə-gedə:

– Ondan muğayat olmaq lazımdır, sağlam beyni var! – deyirdi. – Yəqin ki, biz sinfi ziddiyyətləri olmayan dünyaya köçəndən sonra, bizi əvəz edəcək əsl proletar ziyalıları məhz belə oğlanlardan yetişməlidir...

– İvan, sən yamanca boşboğaz olmusan ha!..

– Ona görə ki, kefim kökdür! Deməli, sən dustaqxanaya hazırlaşırsan, eləmi? Orada dincəlməyini arzu edirəm.

– Təşəkkür. Mən yorulmamışam.

Ana onların söhbətinə qulaq asır və fəhlə oğlanın qayğısını çəkdikləri ona xoş gəlirdi.

Doktoru yola salandan sonra Nikolay ilə ana, gecə qonaqlarını gözləyərək, çay içib, çörək yeyir və yavaş-yavaş söhbət edirdilər. Nikolay sürgündə olan, sürgündən qaçaraq başqa adla işləyən yoldaşlarından anaya nağıl edirdi. Otağın çılpaq divarları, sanki dünyanı yeniləşdirmək uğrundakı böyük işə sədaqətlə var qüvvəsini sərf



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

edən bu təvazökar qəhrəmanların sərgüzəştlərinə inanmayaraq və buna heyrət edərək, Nikolayın sakit səsini özündən kənar edirdi. Hərarətli bir kölgə qadını nəvazişlə ağuşuna alaraq onun qəlbini tanımadığı adamlara məhəbbət hissi ilə qızdırırdı, bu adamlar isə onun təsəvvüründə tükənməz mərdlik qüvvəsilə dolu böyük bir insan şəklini alırdı. Bu böyük insan yavaş addımlarla olsa da, yorulmaq bilmədən yer üzünü gəzir, öz əməyinə aşiq olan əllərilə yer üzünü əsrlərdən bəri bürüyən kifli yalan pərdəsindən təmizləyir, insanların gözləri qabağında həyatın sadə və aydın həqiqətini açır. Yenidən həyata gəlmiş bu böyük həqiqət də hamını eyni səmimiyyətlə çağırır, fərq qoymadan hamıya – öz həyasız qüvvəsi ilə bütün dünyanı zəncirləyən və qorxudan tamah, zülm və yalan adlı üç əjdahanın pəncəsindən qurtarmağı vəd edir... Bu surət ananın qəlbində tanış bir hiss oyadırdı; vaxtilə o, həyatının başqa günlərinə nisbətən ona bir qədər yüngül görünən günün sonunda ikona qabağında dayanıb, minnətdarlıqla şükür edərək dua oxuyarkən də özünü belə hiss edərdi. İndi ana o günlərini unutmuşdu, lakin o günlərdən duyduğu hiss genişlənmiş, daha işıqlı və nəşəli olmuş, qəlbinə daha dərin kök salmış və canlanaraq daha parlaq yanmağa başlamışdı.

Nikolay birdən öz hekayəsini kəsərək:

– Jandarmlar gəlmirlər, – dedi.

Ana onun üzünə baxdı və bir qədər sükutdan sonra acıqla:

– Canları cəhənnəmə, – deyə səsləndi.

– Söz yox! Ancaq, Nilovna, siz yatmalısınız, yəqin ki, bərk yorulmusunuz; çox möhkəmsiniz, bunu danmaq olmaz! Bu qədər iztirab və həyəcanı asanlıqla keçirirsiniz! Ancaq saçlarınız sürətlə ağarır. Di gedin, rahatlanın.

## XX

Mətbəx qapısının bərk-bərk döyülməsi ananı oyatdı. Kim isə qapını aramsız, səbirli inadla döyürdü. Hələ qaranlıq və sakitlik idi, bu sükut içində də inadlı taqqıltı vahimə yaradırdı. Ana tələsik geyinib, tez mətbəxə çıxdı və qapının qabağında dayanıb soruşdu:

– Kimdir?

Tanış olmayan bir səs:

– Mənəm! – deyə cavab verdi.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

– Sən kimsən?

Qapının dalından yalvarıcı əda ilə yavaşdan:

– Açın! – dedilər.

Ana cəftəni açdı, qapını ayağı ilə itələdi; İqnat içəri girib, sevincək:

– Aha, yanılmamışam! – dedi.

O, qurşağa qədər palçığa batmışdı, üzü bozarmış, gözləri də çuxura düşmüşdü. Yalnız şapkasının altından qıvrım saçları dik-dik çıxmışdı.

O, qapını bağlayıb, pıçıltı ilə:

– Bizə qəza üz verib! – dedi.

– Bilirəm...

Bu söz oğlanı təəccübləndirdi. O, gözlərini qıyıb, soruşdu:

– Hardan bilirsiniz?

Ana tələsik və qısaca nağıl elədi:

– O ikisini də apardılarmı? Yoldaşlarını?

– Onlar orada yox idilər. Onları soldatlığa çağırmışdılar, qeyd olunmağa getmişdilər! Beşini apardılar, Mixaylo dayı da onların içində...

O, burnu ilə havanı çəkdi və gülümsünərək:

– Mən qaldım. Yəqin, indi axtarırlar! – dedi.

Ana:

– Bəs sən necə qurtardın?

Otaq qapısı yavaşdan aralandı.

İqnat kürsüyə oturub, ətrafına baxa-baxa:

– Mənmi? – dedi. – Onlar gəlməmişdən bir dəqiqə əvvəl meşə gözətçisi yüyürə-yüyürə gəlib pəncərəni taqqıldatdı, xəbər verdi ki: uşaqlar, özünüzü gözləyin, üstünüzə gəlirlər...

O, yavaşdan güldü və ətəyi ilə üzünü silib davam elədi:

– Mixaylo dayıya toxmaq da kar eləməz. Özünü itirmədi, dərhal mənə: "İqnat, – dedi, – bu saat şəhərə yüyür, cəld ol! O ahıl arvad *yadındadırmı?" Özü də bir kağız qaraladı. "Al, yüyür!.." Mən* kolların içi ilə sürünə-sürünə yola düzəldim, ayaq tappıltısından bildim ki, gəlirlər! Onlar çox idilər, hər tərəfdən məlunların səsi gəlirdi. Zavodun ətrafını dövrəyə almışdılar. Özümü kolun dibinə verdim, yanımdan ötdülər. Onlar ötən kimi qalxıb yola düzəldim! İki gecə dincimi almadan gəlmişəm, bir də bir gün.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Onun özündən razı qaldığı görünürdü, qonur gözlərində təbəssüm parlayır, iri, al dodaqları titrəyirdi.

Ana samovarı qapıb, tələsə-tələsə:

– Bu saat sənin üçün çay hazırlaram! – dedi.

– Hələ bir kağızı alın...

O, üzünü turşudaraq, kəhildəyə-kəhildəyə çətinliklə ayağını qalxızıb taxtın üstünə qoydu.

Nikolay qapıda göründü. O, gözlərini qıyaraq:

– Xoş gəlmisiniz, yoldaş! – dedi. – Qoyun mən sizə kömək edim!

Sonra da əyilib onun palçığa batmış çarıqbağını tez-tez açmağa başladı.

Oğlan ayağını dartaraq:

– Ay, – deyə yavaşdan qışqırdı və təəccüblə gözlərini döyə-döyə anaya baxdı.

Ana onun baxışını görməyərək:

– Ayaqlarını araqla sürtmək lazımdır... – dedi.

Nikolay:

– Əlbəttə! – deyə cavab verdi.

İqnat utancaqlıqla pıqqıldadı.

Nikolay məktubu tapıb, düzəltdi və boz, əzilmiş kağızı üzünə yaxın tutub oxudu:

"İşi diqqətsiz qoyma, ana, ucaboy xanıma de ki, unutmasın, bizim işlərimizdən də çox yazsınlar. Salamat qal. Rıbin".

Nikolay, kağızı tutan əlini ağır-ağır yanına salıb, yavaşdan:

– Qiyamətdir! – dedi.

İqnat ayağının çirkli barmaqlarını yavaşca tərpədə-tərpədə, onlara baxırdı; ana, göz yaşından islanmış üzünü gizlədə-gizlədə bir ləyən su ilə ona yaxınlaşdı və yerə çöküb əlini onun ayağına tərəf uzatdı; o, ayağını tez taxtın altına soxdu, qorxu ilə:

– Nə var?

– Tez ol, ayağını bəri ver...

Nikolay:

– Bu saat spirt gətirim, – dedi.

Oğlan ayağını taxtın altına daha dərin soxur və deyinirdi:

– Nə eləyirsiniz? Xəstəxana deyil ki...

Onda ana onun o biri ayağını soyundurmağa başladı.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

İqnat ucadan fısıldadı və boğazını yöndəmsizcəsinə uzadıb, yuxarıdan aşağı anaya diqqətlə baxdı; onun dodaqları gülünc bir tərzdə sallanmışdı.

Ana titrək səslə:

– Bilirsənmi, – dedi. – Mixail İvanoviçi döyürdülər...

Oğlan yavaşdan, həyəcanla:

– Yox-a?

– Bəli. Gətirəndə də döyülmüşdü. Nikolskoyedə də uryadnik döydü, pristav da, həm üzündən, həm təpiklə... qanı axırdı!

Oğlan qaşlarını çataraq:

– Onların əlindən gələn işdir! – deyə cavab verdi. Onun çiyinləri atılıb-düşdü. – Onlardan elə qorxuram ki, heç

şeytandan elə qorxmuram! Kəndlilər necə, döymürdülər ki?

– Birisi bir yumruq vurdu – pristav buyurdu. Amma qalanları yox, hələ kömək də çıxdılar ki, döymək olmaz!..

– Bə-ə-li, kəndlilər indi hər kəsin yerini də, işini də anlamağa başlayıblar.

– Orada da ağıllıları var...

– Ağıllı harada yoxdur ki? Hər şeyə səbəb ehtiyacdır! Hər yerdə ağıllı var, ancaq tapmaq çətindir.

Nikolay bir şüşədə spirt gətirdi, samovara kömür saldı və dinməz-söyləməz çıxdı. İqnat onu maraqlı baxışla süzərək, yavaşca anadan:

– Bu ağa doktordurmu? – deyə soruşdu.

– Bu işdə ağa yoxdur, hamı yoldaşdır...

İqnat inanmayaraq və təəccüblə gülümsünərək:

– Mənə qəribə gəlir! – dedi.

– Nə qəribə gəlir?

– Elə belə. Bir başda adamın əngini əzirlər, o biri başda ayağını yuyurlar, bəs ortada olan nədir?

Otağın qapısı açıldı və Nikolay astanada dayanıb, dedi:

– Ortada da, əngi əzənlərin əlini yalayanlar və əngi əzilənlərin qanını soranlardır, ortada olan budur!

İqnat ehtiramla ona baxıb bir qədər sükut edəndən sonra:

– Elədir ki, var! – dedi.

Oğlan qalxdı, ayaqlarını bərk-bərk yerə dirəyərək, götürüb-qoydu və:



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

– Lap təzələndi! – dedi. – Çox sağ olun...

Sonra yemək otağında oturub çay içirdilər, İqnat da ciddi səslə nağıl edirdi:

– Qəzeti yayan mən idim, yeriməkdə qoçağam.

Nikolay:

– Oxuyan çoxdurmu? – deyə soruşdu.

– Savadı olanların hamısı, dövlətlilər də oxuyur, söz yox, onlar bizdən alımırlar... Onlar anlayırlar ki, kəndlilər torpağı ağaların, dövlətlilərin ayaqları altından öz qanı ilə yuyub aparacaqlar, deməli, torpağı bölüşdürən də kəndlilərin özləri olacaq, elə də bölüşdürəcəklər ki, daha nə ağa olsun, nə muzdur, bəs necə! Bu da olmasaydı, daha vuruşmaq nəyə lazım idi!..

O hətta bir qədər incimiş kimi idi və Nikolaya şübhə dolu sualedici nəzərlə baxırdı. Nikolay dinmədən gülümsünürdü.

– Əgər bu gün bütün el davaya qalxıb qalib gəlsə, sabah da yenə biri dövlətli, o biri kasıb olsa, bu dava-qalmaqalın mənası nə imiş! Biz yaxşı anlayırıq: sərvət qum kimi bir şeydir, rahat yatmaz, yenə hər tərəfə axıb gedər! Yox, bu yarayan iş deyil.

Ana zarafatla:

– Sən hirslənmə! – dedi.

Nikolay fikirli halda:

– Rıbinin tutulmağı haqqında vərəqəni nə yol ilə göndərək ki, tez gedib çatsın? – deyə səsləndi.

İqnat diqqətlə qulaq verdi və soruşdu:

– Vərəqə varmı?

– Var.

Oğlan əllərini bir-birinə sürtə-sürtə, təklif elədi:

– Verin, mən aparım!

Ana ona baxmadan, yavaşca güldü:

– Axı sən yorulmusan, bir də özün dedin ki, qorxursan...

İqnat, enli ovcu ilə qıvrım saçlarını tumarlayaraq, işgüzar və sakit səslə:

– Qorxu öz yerində, iş də öz yerində! – dedi. – Nəyə gülürsünüz ki? Zarafata salmısınız!

Ana, İqnatın yaratdığı nəşəli hissə biixtiyar tabe olaraq:

– Ah, mənim balam! – deyə səsləndi.

İqnat utanıb, qımışdı:



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

– İndi də bala olduq!

Nikolay mehriban gözlərini qıyıb, oğlanı süzərək söhbətə qarışdı:

– Siz ora getməyəcəksiniz!..

Narahat olmuş İqnat:

– Nə üçün? Bəs mən hara? – deyə soruşdu.

– Sizin əvəzinizə ora bir başqası gedər, siz də ona nə eləmək və nə cür eləməyi ətraflı başa salarsınız, yaxşımı?

İqnat tərəddüdlə və könülsüz:

– Yaxşı! – dedi.

– Sizə yaxşı bir pasport tapıb meşə gözətçisi qoyarıq...

Oğlan birdən başını qalxızıb, narahat səslə soruşdu:

– Bəs kəndlilər oduna gəlsələr... ya nə bilim, bir başqa iş olsa, mən nə edim? Onları tutummu? Yox, bu iş mənə əl verməz...

Ana güldü, Nikolay da güldü; onların gülüşü oğlanı yenə də utandırıb, pərt elədi.

Nikolay ona təsəlli verərək:

– Arxayın olun! – dedi. – Kəndliləri tutmaq lazım gəlməyəcək, inanın!..

İqnat:

– Elə ha! – dedi və nəşə ilə gülümsünərək sakitləşdi. – Mən fabrikə girsəydim, yaxşı olardı, deyirlər, oradakı oğlanlar çox ağıllıdır...

Ana masanın başından durdu və fikirli halda pəncərəyə baxaraq:

– Eh, dirilik! – dedi. – Gündə beş dəfə gülür, beş dəfə də ağlayırsan!.. Hə, qurtardınmı, İqnat? Get yat...

– Yuxum gəlmir.

– Yeri, yeri...

– Burada nə yaman nizam-intizam var! Di yaxşı, gedirəm... Çay-qənd üçün, şirin dil üçün çox sağ olun...

O, ananın yatağına uzanarkən, başını qaşıya-qaşıya deyinirdi:

– İndi burada hər şey qatran qoxusu verəcək... Eh! Bunların hamısı nahaqdır. Mənim heç yuxum da gəlmir... Amma orta barəsində nə gözəl dedi... Məlunlar...

Birdən ucadan xoruldayıb, qaşlarını dartdı və dodaqlarını aralayıb, yuxuladı...



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

## XXI

Axşam İqnat zirzəmi mərtəbəsinin balaca otağında Vesovşikovla üzbəüz kürsüdə oturub, qaşlarını çataraq, yavaşdan deyirdi:

– Orta pəncərəni dörd dəfə...

Nikolay:

– Dörd dəfəmi? – deyə təkrar elədi.

– Qabaqca üç dəfə: bax, belə!

İqnat saya-saya bükülmüş barmağını masaya vurdu:

– Bir, iki, üç. Sonra, bir az ara verib, bir də.

– Başa düşürəm.

– Qapını kürən bir kəndli açıb soruşacaq: mamaça dalınca gəlmisən? Siz də: bəli, zavodçu göndərib, – deyə cavab verərsiniz.

Onlar başların bir-birinə tərəf əyərək, oturmuşdular; hər ikisi qıvraq, hər ikisi möhkəm bədənli idi; onlar səslərini boğa-boğa danışırdılar, ana da əllərini qoynuna qoyub masanın yanında durur, onlara tamaşa edirdi. Bütün bu sirli taqqıltılar, şərti sual-cavablar ananı ürəyində gülümsəməyə vadar edirdi; o, öz-özünə:

“Hələ uşaqdırlar!..” – deyə düşünürdü.

Divardan asılmış lampa yerdəki əzik vedrələri, yastı dəmir qırıqlarını işıqlandırırdı. Pas, yağlı boya və rütubət qoxusu otağı doldururdu.

İqnat tüklü parçadan tikilmiş isti payız paltosu geymişdi: ana görürdü ki, palto onun xoşuna gəlir, o, paltosunun qolunu əli ilə tumarlayır, möhkəm boynunu ağır-ağır çevirə-çevirə özünə baxırdı. Ananın qəlbində mehriban bir hiss çırpınırdı:

“Balalarım! Mənim əzizlərim...”

İqnat ayağa qalxıb:

– Bu da belə! – dedi. – Deməli, yadınızda qaldı: qabaqca Muratovun yanına gedib babanı soruşarsınız...

Vesovşikov cavab verdi:

– Yadımda qaldı!

Lakin, görünür, İqnat ona inanmadı və bütün taqqıltı, söz və işarələri bir daha təkrar elədi; nəhayət, əlini ona uzatdı:

– Salam yetirin! Yaxşı adamlardır, görəcəksiniz.

Razılıq bildirən bir baxışla özünü süzərək, əlləri ilə paltosunu tumarladı və anadan:



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

– Gedimmi? – deyə soruşdu.

– Yolu taparsanmı?

– Əlbəttə! Taparam... Deməli, salamat qalın, yoldaşlar!

İqnat çiyinlərini qalxızaraq, döşünü qabağa verdi, təzə şapkasını çəpəki qoyub, əllərini vüqarla ciblərinə saldı və getdi. Sarı qıvrım saçları şux bir əda ilə gickahlarında titrəyirdi.

Vesovşikov yüngül addımlarla anaya yanaşıb:

– Hə, mən də özümə iş tapdım! – dedi. – Darıxmağa başlamışdım... dustaqxanadan qaçdım, nə üçün? İşim-peşəm gizlənmək olmuşdu. Amma orada öyrənirdim, Pavel orada adamın beynini elə fikirlərlə doldururdu ki, ləzzət verirdi! Nilovna, bəs dustaqxanadan qaçırtmaq məsələsini nə yerdə qoydunuz?

Ana biixtiyar köksünü ötürüb:

– Bilmirəm! – dedi.

Nikolay ağır əlini onun çiyninə qoyub, üzünü ona yaxınlaşdıraraq dedi:

– Sən onlara de ki, bu çox asan işdir, onlar sənin sözünə qulaq asarlar! Bir özün bax, bura dustaqxananın divarıdır, yanında fənər durur. Qabağı boşluq, sol tərəf qəbiristan, sağ tərəf də küçələrdir, şəhər başlanır. Fənərçi gündüz guya lampaları silmək üçün fənərin yanına gəlir, nərdivanı divara dayayır, qalxır, kəndir nərdivanın qarmaqlarını divarın başına ilişdirir, o biri ucunu da dustaqxananın həyətinə atır, vəssalam, qoyur gedir. Divarın o biri tayında bu işdən xəbərdardılar, vaxtını da bilirlər, onlar cinayət üstündə tutulmuş dustaqlardan səs-küy salmalarını xahiş edərlər, ya da özləri səs-küy salarlar, qaçmalı olanlar da bu vaxt özlərini divarın dibinə verib, nərdivanla çıxar, divarı aşıb bir-iki addım atar, vəssalam!

O, ananın gözü qabağında əllərini yelləyə-yelləyə öz planını tökürdü; onun dediyinə görə, hər şey asan, aydın və yaxşı çıxırdı. Ana onu ağır, yöndəmsiz bir adam hesab edirdi. Qabaqca Nikolayın gözləri hər şeyə acıqlı bir ədavət və şübhə ilə baxardı, indi isə, yenidən açılmış kimi, aydın nur saçır, ananı inandırır, həyəcana gətirirdi...

– Bir özün fikir elə, bunun hamısı gündüz olacaq!.. Mütləq gündüz. Kimin ağlına gələr ki, dustaq günün günorta çağı, bütün dustaqxananın gözü qabağında qaçmağa cəsarət eləsin?..

Qadın diksinərək:



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

– Birdən güllə ilə vurdular! – dedi.

– Kim? Soldat yoxdur, nəzarətçilər də tapançaları ilə divara mıx çalırlar...

– Sənin dediyinə qalsa, hər şey asanlıqla başa gəlir...

– Özün görərsən, doğrusu budur! Yox, sən onlarla danış, mən hər şeyi hazırlamışam, kəndir, nərdivan, onun qarmaqları, mənim ustam da fənərçi olar...

Qapının dalından hənirti, öskürək səsi gəlir, dəmir taqqıldayırdı. Nikolay:

– Budur, gəlir! – dedi.

Açıq qapıda tənəkədən qayrılmış vanna göründü, xırıltılı bir səs deyinirdi:

– Gir görüm, səni yox olasan...

Sonra şapkasız, dombagöz, uzun bığlı, mülayim sifətli, yumru ağ baş göründü.

Nikolay vannanı içəri gətirməyə kömək elədi, ucaboy, donqar bir adam içəri girib, qırxıq ovurdlarını şişirdə-şişirdə öskürməyə başladı, sonra tüpürüb, xırıltılı səslə salam verdi:

– Salam...

Nikolay:

– Aha, bundan soruşun! – dedi.

– Məndən? Nəyi?

– Dustaqxanadan qaçmağı...

Ev sahibi qara barmaqları ilə bığlarını silib:

– Hə-ə! – deyə sözü uzatdı.

– Yakov Vasilyeviç, bax, bu inanmır ki, iş asan işdir.

Ev sahibi halını pozmadan:

– Hım, inanmır? Demək, istəmir. Amma mənimlə sən istəyirik, odur ki, inanırıq! – dedi və birdən ikiqat bükülüb, dərindən öskürməyə başladı. Döşünü ova-ova öskürəyini qurtardı, uzun müddət fısıldayaraq, otağın ortasında dayanıb, bərəlmiş gözləri ilə ananı süzdü.

Nilovna:

– Bunu Paşa ilə yoldaşları qət etməlidirlər! – dedi.

Nikolay fikrə gedib başını aşağı saldı.

Ev sahibi oturaraq:

– Paşa dediyiniz kimdir? – deyə soruşdu.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

– Mənim oğlumdur.

– Familiyası nədir?

– Vlasov.

Qoca başı ilə işarə edərək kisəsini çıxartdı və çubuğuna tənbəki doldurub, qırıq səslə:

– Eşitmişəm, – dedi. – Mənim bacıoğlum onu tanıyır. O da dustaqxanadadır, bacıoğlum Yevçenkodur, bəlkə eşitmiş olasınız. Mənim də familiyam Qobundur. Çox çəkməz ki, cavanların hamısını dustaqxanaya salarlar, onda biz qocaların dövranı gələr! Jandarm rəisi hələ bir hədələyir də ki, bacıoğlumu Sibirə göndərəcək. Göndərər də, köpək!..

Sonra çubuğunu yandırıb, tez-tez yerə tüpürə-tüpürə Nikolaya üzünü tutub dedi:

– Demək, istəmir, hə? Özü bilər. Hər kəs azaddır, oturmaqdan yoruldun, yeri, yeriməkdən yoruldun, otur, soydular, dinmə, döydülər səbir elə, öldürdülər, uzan. Bu, məlum işdir. Amma mən Savkanı çıxaracağam. Çıxaracağam.

Onun qısa, iti sözləri anada heyrət yaradırdı, son sözləri isə ananın ürəyində həsəd oyatdı.

Ana küçə ilə soyuq küləyə və yağışa qarşı gedərkən, Nikolayı düşünürdü:

"Gör necə dəyişilib, adam mat qalır!"

*Qobunu xatırladıqda isə dua edirmiş kimi düşündü:*

"Görünür, təzədən yaşamağa başlayan təkcə mən deyilmişəm!.."

Bunun dalınca oğlunun fikri onun qəlbini bürüdü.

"Kaş razı olaydı!.."

## XXII

Ana bazar günü qazamat dəftərxanasında Pavel ilə xudahafizləşərkən, ovcunda kağız yumrusu hiss elədi. Elə bil kağız onun ovcunu yandırırdı; ana diksindi, sual və xahişlə oğlunun üzünə baxdı, lakin cavab almadı. Pavelin mavi gözləri ananın tanıdığı adi, sakit təbəssümlə gülümsünürdü.

Ana ah çəkərək:



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

– Salamat qal! – dedi.

Oğlu bir daha əlini ona uzatdı və bu zaman onun üzü mehribanlıqla titrədi:

– Salamat qal, ana!

Ana onun əlini buraxmayaraq, gözləyirdi. Pavel:

– Nigaran olma, acıqlanma! – dedi.

Bu sözlər və Pavelin alnındakı inadlı qırış ananın sualına cavab verdi.

Ana başını aşağı salıb, yavaşdan:

– Bu nə sözdür? – deyirdi. – Nə var ki...

Ana yaşlı gözləri və titrəyən dodaqları ilə öz hissini oğluna bildirməmək üçün Pavelin üzünə baxmayıb, tez-tələsik çıxdı. Yolda ona elə gəlirdi ki, oğlunun məktubunu bərk-bərk sıxan əlinin sümükləri sızıldayır, bütün qolu isə ağırlaşmışdır, elə bil onu çiynindən vurmuşlar. Evdə ana kağızı Nikolayın ovcuna basıb, onun qabağında dayandı və bərk-bərk bükülmüş kağız parçasının açılmasını gözləyərək, yenə ürəyində bir ümidin oyandığını hiss elədi. Lakin Nikolay:

– Əlbəttə! – dedi. – Görün nə yazır: "Yoldaşlar, biz qaçmayacağıq, qaça bilmərik. Heç birimiz. Onda öz gözümüzdə hörmətdən düşmüş olardıq. Bu yaxınlarda tutulmuş kəndliyə diqqət yetirin. O, sizin qayğınıza layiqdir, ona qüvvə sərf eləmək olar. Burda çox çətinlik çəkir. Hər gün müdiriyyətlə savaşır. Bir gün, bir gecə karserə qatılmışdı. Onu burada həlak edərlər. Biz hamımız ona kömək eləməyinizi xahiş edirik. Anama təsəlli verin, ona mehribanlıq göstərin. Ona izah eləyin, o, hər şeyi başa düşər".

Ana başını qalxızdı və yavaşdan, titrəyən səslə:

– Daha mənə nə izah eləmək lazımdır ki? Mən başa düşürəm!

Nikolay tez üzünü yana çevirib, dəsmalını çıxardı və bərkdən burnunu sildi:

– Bilirsiniz, zökəm tutmuşam... – dedi.

*Sonra gözlüyünü düzəltmək üçün əllərini gözlərinə tutub*, otaqda gəzinə-gəzinə:

– Bilirsinizmi, onsuz da biz yetirə bilməzdik...

Ana qaşlarını çataraq:

– Eyibi yoxdur! Qoy divan eləsinlər! – deyirdi, qəlbi isə dumanlı həsrətlə dolurdu.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

– Budur, Peterburqdakı yoldaşımdan kağız almışam...

– O ki, Sibirdən də qaça bilər... Qaça bilər?

– Əlbəttə! Yoldaşım yazır ki, bu yaxınlarda işə baxılacaq, hökm də qabaqcadan məlumdur: hamısını Sibirə köçürəcəklər. Görürsünüzmü? Bu fırıldaqçılar öz məhkəmələrini ən çirkin bir məzhəkəyə döndərirlər. Başa düşürsünüzmü? Hökm məhkəmədən əvvəl Peterburqda yazılıb, hazır edilibdir...

Ana qəti səslə:

– Boşlayın, Nikolay İvanoviç! – dedi. – Mənə təsəlli vermək, məni başa salmaq lazım deyil. Paşa pis iş görməz, nahaq yerə nə özünü incidər, nə də özgəni. Məni də sevir, bəli! Özünüz görürsünüz, mənim fikrimi çəkir. Yazır ki, başa salın, təsəlli verin, hə?..

Onun ürəyi bərk döyünür, həyəcanından başı gicəlirdi. Nikolay çox ucadan:

– Sizin oğlunuz gözəl insandır! – deyə səsləndi. – Mən onun xatirini çox istəyirəm!

– Di gəlin, Rıbini fikirləşək, görək nə eləyərik! – deyə ana təklif elədi.

Ana bu saat bir işdən yapışmaq, bir yerə getmək, yoruluncaya qədər yerimək istəyirdi.

Nikolay otaqda gəzinə-gəzinə:

– Bəli, doğrudur! – deyə cavab verdi. – Saşenkanı görmək lazımdır...

– O gələcək. Mən Paşa ilə görüşən günlərdə həmişə gəlir...

Nikolay başını aşağı salıb, dodaqlarını gəmirə-gəmirə, saqqalını bura-bura ananın yanında divanda oturdu:

– Heyif, bacım burada deyil...

Ana:

– Bunu indi, Paşa orada ikən düzəltmək lazımdır, o, razı qalar, ürəyi açılar! – deyirdi.

Susdular, birdən ana ağır-ağır və yavaşdan:

– Anlamıram, axı niyə razı olmur? – dedi.

Nikolay ayağa qalxdı, lakin bu zaman qapının zəngi vuruldu, Nikolay astadan:

– Bu, Saşadır, hım! – dedi.

Ana da beləcə yavaş səslə soruşdu:

– İndi ona nə cür deyəsən?..



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

– Doğrudan da...

– Çox yazığım gəlir...

Zəng bir qədər yavaşdan təkrar vuruldu, sanki qapının dalındakı da tərəddüd edirdi. Nikolay ilə ana durub bərabər qapıya getdilər, lakin mətbəxin qapısından Nikolay yana çəkilib:

– Yaxşısı budur, siz açın.. – dedi.

Ana qapını açan kimi qız möhkəm səslə soruşdu:

– Razı deyil?

– Yox.

Saşa sakit səslə sadəcə:

– Mən bilirdim! – dedi, lakin bu zaman onun rəngi ağardı. O, paltosunun düymələrini açdı və yenə ikisini düymələyib, paltosunu çiyinlərindən çıxarmaq istədi, çıxara bilmədi. Onda:

– Yağış, külək, lap təngə gəldik! – dedi. – Salamatdırmı?

– Bəli.

Saşa öz əlinə baxa-baxa yavaşdan:

– Salamat və şaddır, – dedi.

Ana qıza baxmayaraq:

– Yazır ki, Rıbini azad eləyin!

Qız yavaşdan:

– Eləmi? Mənim fikrimcə, biz bu plandan istifadə etməliyik! – dedi.

Nikolay qapıda göründü:

– Mən də bu fikirdəyəm! Xoş gördük, Saşa!

Qız əlini ona uzadaraq:

– Elə isə, nəyi gözləyirik? Planın yaxşı olduğuna hamı şərikdir?.. – deyə soruşdu.

– Bəs bunu kim təşkil eləsin? Hamı məşğuldur...

Saşa ayağa qalxaraq, tez:

– Mənə tapşırın! – dedi. – Mənim vaxtım var.

– Elə olsun! Ancaq yoldaşlardan da soruşmaq lazımdır...

– Yaxşı, mən soruşaram! Mən elə bu saat gedərəm.

Nazik barmaqlarının vərdiş eləmiş cəld hərəkətləri ilə o, yenə paltosunu düymələməyə başladı. Ana təklif elədi:

– Bir az dincinizi alaydınız!

Qız gülümsünüb, səsini yumşaldaraq:

– Narahat olmayın, mən yorulmamışam... – dedi.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Sonra da bir söz demədən onların əlini sıxıb, yenə soyuqqanlı və ciddi halda getdi.

Ana ilə Nikolay pəncərənin qabağına gəlib qızın həyətdən keçib, qapıda gözdən itməsinə baxdılar. Nikolay yavaşcadan fit çaldı və masa arxasında oturub nə isə yazmağa başladı.

Ana fikirli halda, yavaşdan:

– Başı bu işə qarışar, halı yüngülləşər! – dedi.

Ona cavab olaraq Nikolay:

– Bəli, söz yox! – dedi və anaya tərəf dönərək, gülümsər üzlə soruşdu: – Nilovna, siz necə, bu şərbətdən içmisinizmi? Bir adama aşiq olub, onun həsrətini çəkmisinizmi?

Ana əlini yelləyib:

– Eh! – deyə səsləndi. – Nə həsrət? Ondan qorxurdum ki, buna ya ona ərə verməsinlər.

– Bəs heç sizin xoşunuza gələn olmayıb?

Ana bir qədər fikirləşib:

– Yadımdan çıxıb, əzizim! – deyə cavab verdi. – Necə ki, olmayıb?.. Yəqin ki, xoşuma gələn olubdur, ancaq yadımda qalmayıb!

Ana onun üzünə baxdı və sakit, qüssə dolu səslə sadəcə əlavə elədi:

– Ərim məni o qədər döyüb ki, ondan qabaq nə olubsa, zehnimdən tamam silinib gedib.

Nikolay masaya tərəf döndü, ana isə bir dəqiqəliyə otaqdan çıxdı; o qayıdanda Nikolay mehriban gözləri ilə onu süzdü və öz xatirələrini yavaşca, sevə-sevə oxşayaraq danışmağa başladı:

– Amma mənim başıma, bax, Saşanın başına gələn əhvalatdan gəlmişdi! Bir qızı sevirdim. Dəyərli, gözəl insan idi. Ona rast gələndə iyirmi yaşında idim, o gündən bəri onu sevirəm, doğrusu, indi də sevirəm! Əvvəlki kimi sevirəm, səmimi qəlblə, minnətdarlıqla, həmişəlik...

Ana onun yanında duraraq, onun hərarətlə, aydın işıqla yanan gözlərini görürdü. Nikolay əllərini kürsünün arxasına qoyaraq, başını da əllərinə söykəyərək, hara isə uzaqlara baxırdı, onun arıq və incə, lakin qüvvətli bədəni bitkinin gövdəsi günəşə doğru qalxan kimi, sanki irəli uçmaq istəyirdi. Ana:

– Daha nə vardı ki, evlənəydiniz də! – deyə məsləhət elədi.

– Eh! Beş ildir ki, ərdədir...



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

– Bəs qabaqca niyə evlənmədiniz?

Nikolay bir qədər düşündükdən sonra:

– Bilirsinizmi, həmişə işimiz elə gətirirdi ki, o dustaq olanda, mən azad olurdum, mən azad olanda, o dustaq yatır, ya da sürgündə olurdu, – deyə cavab verdi. – Doğrudan da, lap Saşa kimi! Axırda onu on illiyə Sibirə sürgün elədilər, çox uzağa! Hələ mən onunla bərabər getmək istəyirdim. Ancaq xəcalət çəkdik, o da, mən də. Orada o bir başqa adama rast gəldi, mənim yoldaşımdır, yaxşı oğlanların biridir! Sonra onlar bərabər sürgündən qaçdılar. İndi xaricdə yaşayırlar, bəli...

Nikolay hekayəsini qurtarıb, gözlüyünü çıxardı, silməyə başladı.

Qadın başını bulayaraq, məhəbbətlə:

– Eh, əzizim! – dedi. – Ananın ona ürəyi yanırdı, eyni zamanda Nikolayda elə bir xüsusiyyət vardı ki, ananı səmimi ana təbəssümü ilə gülümsünməyə vadar edirdi. Nikolay isə oturuşunu dəyişib yenə qələmi əlinə aldı və əlinin hərəkəti ilə nitqinin ahəngini təsdiq edərək, danışmağa başladı:

– Ailə həyatı inqilabçının gücünü azaldır, həmişə azaldır. Oğul-uşaq dərdi, yoxsulluq, çörək üçün çox işləmək məcburiyyəti. İnqilabçı öz qüvvəsini yorulmadan artırmalı, möhkəmlətməli, genişləndirməlidir. Bunu zəmanə tələb edir, biz gərək həmişə hamıdan qabaqda gedək, çünki tarixin gedişi köhnə dünyanı dağıdıb, yerində yeni həyat qurmağı biz fəhlələrin boynuna qoyur. Biz dala qalanda, yorğunluğa təslim olanda, ya da ələ düşən azacıq bir müvəffəqiyyət imkanına uyanda, yaxşı olmur, işə xəyanət kimi bir şey olur! Heç bir elə qüvvə yoxdur ki, biz öz inamımızı pozmadan onunla yanaşı gedə bilək. Özümüz də heç bir zaman unutmamalıyıq ki, bizim məqsədimiz balaca müvəffəqiyyətlər deyil, yalnız qəti qalibiyyətdir.

Onun səsi möhkəmləşdi, üzü ağardı və gözləri həmişəki təmkinlə yandı. Yenə zəng vurularaq Nikolayın nitqini yarıda kəsdi: gələn Lüdmila idi, o, mövsümə münasib olmayan nazik palto geymiş, yanaqları soyuqdan qızarmışdı. Cırıq qaloşlarını çıxara-çıxara hirsli səslə:

– Məhkəmə təyin edilib, bir həftədən sonra olacaq!.. – dedi.

Nikolay otaqdan soruşdu:

– Bu yəqindirmi?



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Ana həyəcanına vahimə, yoxsa sevinc səbəb olduğunu anlaya bilmədən, tələsik Nikolayın yanına yönəldi. Onun yanınca yeriyən Lüdmila isə nazik səslə, rişxəndlə:

– Yəqindir! Məhkəmədə açıq-açığına deyirlər ki, hökm hazırdır. Bu, nə deməkdir? Yoxsa hökumət qorxur ki, çinovniklər onun düşmənlərinə rəhmdillik göstərərlər? Belə uzun müddət canfəşanlıqla öz nökərlərində alçaqlığı tərbiyə edən hökumət hələdəmi onların alçaqlığa hazır olduğuna inanmır?..

Lüdmila artıq yanaqlarını əlləri ilə sürtə-sürtə divanın üstündə oturdu; onun donuq gözləri nifrətlə yanır, səsi get-gedə qəzəblə dolurdu.

Nikolay sakitedici bir əda ilə:

– Lüdmila, siz barıtınızı nahaq yerə sərf edirsiniz! – dedi. – Onlar ki, sizin sözlərinizi eşitmirlər...

Ana gərgin bir diqqətlə Lüdmilanın sözlərinə qulaq asır, lakin bir şey anlamırdı və biixtiyar öz-özünə:

"Məhkəmə, bir həftədən sonra məhkəmə!" – deyə təkrar edirdi.

O birdən amansız, insanlıqdan kənar, sərt bir qüvvənin yaxınlaşdığını hiss elədi.

## XXIII

Beləliklə, bu heyrət və məyusluq dumanı içərisində, kədərli intizarın ağırlığı altında ana dinməz-söyləməz bir gün, iki gün yaşadı; üçüncü gün isə Saşa gəlib Nikolaya dedi:

– Hər şey hazırdır! Bu gün saat birdə...

Nikolay heyrətlə:

– Hazırdır? – deyə soruşdu.

– Bəli, nə vardı ki? Mən Rıbin üçün ancaq yer, bir də paltar tapmalı idim, qalan işin hamısını Qobun öz öhdəsinə almışdır. Rıbin bircə tin keçməlidir. Küçədə Vesovşikov onun qabağına çıxıb, çiyninə palto salacaq və şapka verib yolunu göstərəcək; əlbəttə, Vesovşikov qrimlənmiş olacaqdır. Mən onu gözləyəcəyəm, paltarını dəyişib başqa yerə aparacağam.

Nikolay:

– Pis deyil! Bəs o dediyiniz Qobun kimdir? – deyə soruşdu.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

– Siz onu görmüsünüz. Onun mənzilində siz çilingərlərlə məşğul olmusunuz.

– Aha! Yadımdadır. Məzəli qocadır...

Saşa pəncərədən baxa-baxa fikirli halda:

– O, istefaya çıxmış soldatdır, taxtapuş döşəyəndir, – deyirdi. – O qədər də savadlı deyil, ancaq hər cür zorakılığa, zülmə hədsiz nifrət bəsləyir... Bir qədər də filosofdur.

Ana dinməz-söyləməz ona qulaq asırdı və qəlbində aydın olmayan bir hiss yavaş-yavaş oyanıb baş qaldırırdı:

– Qobun öz bacısı oğlunu qaçırtmaq istəyir. Yadınızdadırmı, sizin xoşunuza gəlirdi, Yevçenko adlı yaxşı geyinən, səliqəli bir oğlan idi?

Nikolay başı ilə təsdiq elədi. Saşa davam edərək:

– O, hər şeyi yaxşı düzəldib, ancaq mən müvəffəqiyyətdən şübhələnməyə başlayıram, – dedi. – Orada hamı bir yerdə gəzinir; mənə belə gəlir ki, dustaqlar nərdivanı görəndə, qaçmaq istəyən çox olacaq...

O, gözlərini yumub dayandı, ana ona lap yaxınlaşdı...

– Bir-birinin də əl-ayağına dolaşacaqlar...

Onların üçü də pəncərənin qabağında durmuşdu; ana Nikolay ilə Saşanın dalında idi. Onların iti danışığı ananın ürəyində dumanlı bir hiss oyadırdı...

Ana birdən:

– Mən ora gedəcəyəm! – dedi.

Saşa:

– Nə üçün? – deyə soruşdu.

Nikolay məsləhət gördü:

– Getməyin, əzizim! Ələ keçə bilərsiniz! Getməyin!

Ana onun üzünə baxdı və yavaş, lakin inadlı səslə təkrar elədi:

– Yox, gedəcəyəm...

Onlar tez bir-birinin üzünə baxdılar. Saşa çiyinlərini sıxaraq:

– Təbiidir... – dedi.

Sonra da üzünü anaya çevirərək onun qolundan yapışdı, anaya qısılıb sadə və ana ürəyinə yaxın bir səslə:

– Yenə də mən sizə deməliyəm ki, nahaq yerə intizar çəkirsiniz... – dedi.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Ana titrək əli ilə qızı qucaqladı:

– Əzizim! Məni də aparın, mən sizə əngəl olmaram! Mən gərək gedəm. Mən inanmıram ki, oradan qaçmaq mümkün olsun.

Qız Nikolaya:

– Qoyun getsin! – dedi.

Nikolay başını aşağı salaraq:

– Özünüz bilin! – deyə cavab verdi.

– Biz bir yerdə ola bilmərik. Siz çöl ilə gedərsiniz, bostanlara tərəf, oradan dustaqxananın divarı görünür. Bəs sizdən soruşsalar ki, burada nə qayırırsınız, nə cavab verərsiniz?

Ana sevinərək inamla:

– Deməyə söz taparam!.. – deyə cavab verdi.

Saşa:

– Unutmayın ki, dustaqxana nəzarətçiləri sizi tanıyırlar! – deyirdi. – Onlar sizi orada görsələr...

Ana:

– Görməzlər! – deyə səsləndi.

Onun qəlbindəki ümid qığılcımı birdən-birə şiddətli parıltı ilə alovlanıb, onu ruhlandırdı...

Ana tələsik geyinərkən, öz-özünə düşünürdü:

"Ola bilsin ki, o da..."

Bir saat sonra ana həbsxananın dal tərəfində olan çöldə idi. Şiddətli külək onun ətrafında uçur, ananın paltarını yellədərək, donmuş yerə çırpılır, yaxınlıqdakı bostanın çəpərini yırğalayır və vıyıltı ilə həbsxananın alçaq divarına dəyirdi. Külək, divarın o biri tayına adlayaraq, həyətdən kiminsə çığırtısını qapıb havaya dağıdır və göylərə aparırdı. Orada süzən buludlar isə hərdənbir aralanır, mavi yüksəkliklər azca görünürdü.

Ananın arxa tərəfində bostan, qarşısında qəbiristan, sağında isə on sajenlikdə həbsxana var idi. Qəbiristanın yanında bir soldat ipə bağlanmış atla məşq edirdi, ikinci soldat isə birincinin yanında durub, ayaqlarını bərk-bərk yerə vurur, çığırır, fit çalır və gülürdü. Həbsxana yanında daha kimsə yox idi.

Ana, soldatların yanından ağır addımlarla ötüb, dala və sağ tərəfə gözaltı baxa-baxa, yavaş-yavaş qəbiristan çəpərinə tərəf yeridi. Birdən dizlərinin titrəyib ağırlaşdığını, sanki donub yerə yapışdığını hiss etdi: həbsxananın o biri tinindən, bütün fənərçilər kimi tələsə-tələsə çiynində nərdivan donqar bir adam çıxdı. Ana



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

qorxudan gözünü qırpıb tez soldatlara baxdı, – onlar bir yerdə durub ayaqlarını yerə çırpırdılar, at isə onların dövrəsində dolanırdı, – sonra nərdivanlı adama baxdı, o, nərdivanını divara dayayıb, tələsmədən yuxarı dırmaşırdı. O, əlini həyətə tərəf atıb, tez nərdivandan düşdü və tinin dalında yox oldu. Ananın ürəyi sürətlə döyünür, saniyələr yavaş-yavaş keçirdi. Həbsxananın qaramtul divarında suvağı tökülmüş çılpaq kərpiclər üstündə nərdivanın cizgiləri güclə seçilirdi. Birdən divarın üstündə qara bir baş göründü, bədən çıxdı, divarın bu tərəfinə aşdı və divardan yerə sürüşdü. Tüklü papaqlı bir baş daha göründü, qara bir şey yerə çökdü və cəld tinin dalında yox oldu. Mixaylo qəddini düzəltdi, ətrafına baxdı, başını silkələdi...

Ana ayağını yerə döyə-döyə: – Qaç, qaç! – deyə pıçıldayırdı.

Ananın qulağı uğuldayırdı, uzaqdan uca səslər gəlirdi, budur, divarın üstündə üçüncü baş göründü. Ana əlləri ilə döşünü tutub, nəfəsini çəkmədən baxırdı. Sarışın saçlı, saqqalsız bir baş yuxarı dırmaşır, sanki bir şeydən qopmaq istəyirdi, sonra birdən divarın dalında yox oldu. Səslər getdikcə ucalır, hiddətlənirdi, külək fışqırıqların nazik zəngulələrini havaya dağıdırdı. Mixaylo divarın dibi ilə yeriyirdi, budur, divarı geridə qoydu, həbsxana ilə şəhər evlərinin arasındakı açıq yerdən keçməyə başladı. Anaya elə gəldi ki, o çox yavaş yeriyir və nahaq yerə başını belə uca tutur – bu üzü bircə dəfə görən onu heç vaxt unuda bilməzdi. Ana: – Tez ol... Tez ol... – deyə pıçıldayırdı. Həbsxana divarının dalından şax tappıltı, dalınca da sınmış şüşə cingiltisi eşidildi. Soldat ayaqlarını yerə dirəyib atı özünə tərəf çəkirdi, o biri soldat isə yumruğunu ağzına dayayıb həbsxanaya tərəf çığırırdı və çığırandan sonra başını yan tutub, qulağını həbsxanaya döndərib dinləyirdi.

Ana var qüvvəsini toplayaraq boynunu hər tərəfə döndərir, gözləri hər şeyi görür, lakin gördüklərinə inanmırdı: onun çətin və dəhşətli təsəvvür etdiyi şey çox asan və tez əmələ gəlmişdi, bu sürət də ananı çaşdırıb onun ayıq-sayıqlığını zəiflədirdi. Rıbin artıq küçədə görünmürdü, uzun palto geymiş uca bir adam yeriyir, bir qız qaçırdı. Həbsxananın tinindən üç nəzarətçi sıçrayıb çıxdı, onlar sağ əllərini qabağa verib sıx cərgə ilə yüyürürdülər. Soldatlardan biri onların qabağına qaçdı, o biri isə atın belinə sıçramaq niyyətilə onun ətrafına dolanırdı, at isə minməyə qoymurdu, hoppanırdı, ətrafındakı şeylər də atla bərabər atılıb düşürdü. Fit səsləri arası



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

kəsilmədən uğuldayaraq havanı yarırdı. Bu vahiməli, dəhşətli fit səsləri təhlükədə olduğunu qadına xatırlatdı, o diksinərək nəzarətçilərə baxa-baxa qəbiristan çəpərinin yanı ilə yeriməyə başladı; nəzarətçilərlə soldatlar həbsxananın o biri tininə keçib, orada gözdən itdilər. Ananın tanıdığı həbsxana müdirinin müavini də mundiri düymələnməmiş halda onların dalınca qaçdı. Haradansa polislər çıxdı, camaat axışıb gəldi. Külək, bir şeyə sevinən kimi fırlanır, oynayır və qırıq, qarışıq çığırtı və fit səslərini ananın qulağına yetirirdi... Bu qarışıqlıq ananı sevindirirdi; o, addımlarını yeyinlədərək:

"Demək, o da qaça bilərmiş!" – deyə düşünürdü.

Birdən iki nəfər polis çəpərin dalından onun qabağına çıxdı.

Onlardan biri tövşüyə-tövşüyə:

– Dur! – deyə qışqırdı. – Saqqallı bir adam görmədin ki?

Ana əli ilə bostanları nişan verib, sakit səslə:

– Ora qaçdı, necə ki?

– Yeqorov! Fit ver!

Ana evə qayıtdı. Nəyə isə təəssüf edirdi, qəlbini acı bir sıxıntı bürümüşdü. Çöldən küçəyə keçərkən bir fayton onun yolunu kəsdi. Ana başını qalxızıb faytonun içində sarı bığlı, rəngi qaçmış və yorğun üzlü bir cavan oğlan gördü. O da anaya baxdı. O yanakı oturmuşdu, bəlkə də bu səbəbdən onun sağ çiyini sol çiynindən uca görünürdü...

Nikolay ananı şadlıqla qarşıladı:

– Hə, necə oldu?

– Deyəsən, baş tutdu.

Bütün təfsilatı yadına salmağa çalışaraq ana dustağı qaçırmaq əhvalatını nağıl eləməyə başladı; o elə danışırdı ki, guya doğruluğuna şübhə elədiyi bir başqasının hekayəsini söyləyirdi.

Nikolay əlini əlinə sürtərək:

– Bəxtimiz gətirir! – dedi. – Amma sizdən necə nigaran idim! Lap yaman! Bilirsinizmi, Nilovna, mənim səmimi məsləhətimə baxın: məhkəmədən qorxmayın! Məhkəmə nə qədər tez olsa, Pavel də bir o qədər tez azad olacaq, inanın! Bəlkə də o elə yoldan qaçdı. Məhkəmə, demək olar, elə bir şeydir ki...

Nikolay məhkəmə iclasından ona danışmağa başladı; ana qulaq asır və Nikolayın nədənsə qorxduğunu, anaya ürək-dirək vermək istədiyini sezirdi.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Ana birdən soruşdu:

– Bəlkə siz elə bilirsiniz ki, mən orada hakimlərə bir şey deyərəm? Onlardan bir şey xahiş elərəm?

Nikolay, yerindən sıçrayıb əllərini yellədi və incimiş kimi:

– Nə danışırsınız! – deyə qışqırdı.

– Doğrudur, mən qorxuram! Özüm də bilmirəm nədən qorxuram!..

Ana gözlərini otağa kəzdirib bir qədər susdu:

– Hərdənbir mənə belə gəlir ki, onlar Paşanı incitməyə, lağa qoymağa başlayacaqlar. Ona – ey, kəndlinin biri kəndli, kəndli balası! – deyəcəklər. – Nə iş başlamısan? Paşa da məğrurdur, onlara ağır cavab verər. Ya da Andrey onlara rişxənd eləməyə başlar. Onların hamısı dəliqanlı adamlardır. Odur ki, fikir eləyirsən, birdən tab gətirməzlər... Axırda da elə cəza kəsərlər ki, bir daha üzünü görməzsən!

Nikolay saqqalını didə-didə, qaşqabağını tökür və bir şey demirdi.

Ana yavaşdan:

– Bu fikri başdan çıxarmaq olmur! – dedi. – Məhkəmə qorxunc şeydir! Hər şeyi araşdırmağa, ölçüb-biçməyə başlayacaqlar! Çox dəhşətlidir! Cəza dəhşətli deyil, məhkəmə dəhşətlidir. Bunu sözlə deməyi bacarmıram...

Nikolayın onu başa düşmədiyini ana hiss edirdi, bu da ananın öz qorxusu haqqında danışmaq istəyini daha da çətinləşdirirdi.

## XXIV

Kifə bənzəyən, ağır rütubəti ilə nəfəsi təngidən bu vahimə ananın qəlbində böyüyüb artmışdı, məhkəmə günü çatanda, ana öz ağırlığı ilə onun belini və boynunu əyən qara bir yüklə məhkəmənin iclas otağına daxil oldu.

Küçədə ananı fəhlə məhəlləsindən olan tanışları salamlayırdılar, o da dinmədən baş əyir, qaşqabaqlı izdihamı yarıb keçirdi. Məhkəmənin dəhlizləri və salonunda müttəhimlərin qohum-qardaşları onu qarşılayıb, yavaş səslə nə isə deyirdilər. Sözlər anaya yersiz görünürdü, o, deyilənləri başa düşmürdü. Bütün



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

adamları eyni kədərli bir hiss bürümüşdü, bu da anaya sirayət edir, onu daha da sıxırdı.

Sizov skamyada yer edərək:

– Gəl, yanımda otur! – dedi.

*Göstərilən yerdə oturduqdan sonra ana paltarını düzəldib ətra*fına baxdı. Yaşıl və tünd-qırmızı zolaqlar, ləkələr bir-birinə qarışıb onun gözləri qabağında süzməyə başladı, nazik sarı tellər parıldadı.

Onun yanında oturan qadın yavaşdan:

– Sənin oğlun bizim Qrişanı güdaza verdi! – dedi:

Sizov acıqla:

– Sus, Natalya – deyə cavab verdi.

Ana qadına baxdı. Samoylova idi, onun yanında başı daz, sifəti keşiş sifətinə bənzəyən, top kürən saqqallı əri oturmuşdu. Üzü arıq idi. O, gözlərini qıyıb qabağına baxırdı, saqqalı titrəyirdi.

Uca pancərələrdən tutqun işıq axıb salonu doldurur, eşikdə şüşələrdən qar sürüşüb yerə tökülürdü. Pəncərələrin arasında zərli, parlaq, qalın çərçivədə padşahın böyük əksi asılmışdı, pəncərələrin ağır, tünd-qırmızı pərdələri düz bükümlərlə əksi yanlardan örtürdü. Əksin qabağında salonun bütün enini, üstü yaşıl mahudlu böyük masa tuturdu, sağ tərəfdə, divarın yanında qəfəsə dalında iki taxta skamya qoyulmuş, sol tərəfdə isə iki cərgə tünd-qırmızı kreslo düzülmüşdü. Yaşıl yaxalı, döşləri və qarınları üstünə qızıl düymə tikilmiş qulluqçular salonda səssiz o yan-bu yana qaçışırdı. Zalın tutqun havasında pıçıltı sanki qorxa-qorxa ətrafa yayılır, aptek qoxusu gəlirdi. Bunların hamısı – rənglər, parıltılar, səslər və qoxular gözləri əzir, nəfəslə bərabər sinəyə soxulur və boşalmış ürəyi cansıxıcı qoxunun hərəkətsiz, ala-bəzək dumanı ilə doldururdu.

Birdən adamlardan biri uca səslə nə isə dedi, ana diksindi, hamı ayağa qalxdı, ana da Sizovun əlindən yapışıb ayağa durdu.

Salonun sol bucağındakı hündür qapı açıldı, gözlüklü bir qoca yırğalana-yırğalana içəri girdi. Onun balaca, boz rəngli üzündə ağ, seyrək bakenbardı titrəyirdi, qırxıq üst dodağı ağzına batmışdı, iti yanaq sümükləri və qırxılmış çənəsi mundirinin uca yaxalığına dayanmışdı, nəzərə elə gəlirdi ki, yaxalığın altında boynu yoxdur. Al yanaqlı, girdə, hamar sifətli, uca boylu bir cavan oğlan arxadan onu qoltuğundan tuturdu; onların dalınca da yenə üç nəfər zər haşiyəli mundir geymiş, üç nəfər də adi paltarlı adam yavaş-yavaş yeriyirdi.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Onlar masanın başında, öz yerlərinə oturub uzun-uzadı qurdalandılar; hamısı oturandan sonra onlardan mundirinin düymələri açıq, qırxılmış üzündən tənbəllik yağan biri yoğun dodaqlarını səssiz və ağır-ağır tərpədərək qocaya nə isə deməyə başladı. Qoca dümdüz və hərəkətsiz oturub, qulaq asırdı, onun gözlük şüşələrinin arxasından anaya iki balaca və rəngsiz ləkə görünürdü.

Masanın ucunda, kantorkanın yanında duran ucaboy, başı daz adam hərdənbir öskürür və kağızlarını xışıldadırdı.

Qoca irəli yırğalanıb, danışmağa başladı. O, birinci sözünü aydın deyirdi, sonrakı sözlər isə sanki onun nazik, boz dodaqlarına yayılıb itirdi:

– Açıram... İçəri gətirin...

Sizov yavaşca ananı itələyib:

– Bax! – deyə pıçıldadı və ayağa qalxdı.

Qəfəsənin dalındakı divarda olan qapı açıldı, çiynində siyirmə qılınc bir soldat içəri girdi; onun dalınca Pavel, Andrey, Fedya Mazin, iki qardaş – Qusevlər, Samoylov, Bukin, Somov və adları anaya məlum olmayan beş-altı nəfər cavan oğlan göründü. Pavel mehriban-mehriban gülümsünürdü. Andrey də dişlərini ağardıb, başını tərpədirdi, onların təbəssümləri, nəşəli üzləri, gərgin və məcburi sükutu pozan hərəkətləri sanki salonun işığını artırıb onu sadələşdirdi. Mundirlərdəki qızılın göz qamaşdıran parıltısı tutqunlaşıb yumşaldı; sağlam inam və canlı qüvvənin nəfəsi ananın qəlbinə dəyib onu oyatdı. Daldakı skamyalarda indiyə kimi kədərli intizar içində oturan adamların arasından xəfif uğultu və əks-səda eşidildi.

Ana Sizovun pıçıltı ilə:

– Qorxmurlar! – dediyini eşitdi; sağ tərəfdən Samoylovun anası yavaşdan hıçqırdı.

– Sakit! – hirsli bir bağırtı eşidildi:

Qoca hakim:

– Xəbərdar edirəm... – dedi.

Pavel ilə Andrey yanaşı oturdular. Mazin, Samoylov və Qusevlər də əyləşdilər. Andrey saqqalını qırxmışdı, uzanmış bığları aşağı sallanır, yumru başını pişik başına oxşadırdı. Onun sifətində bir yenilik: ağzının qırışlarında kəskin və acı, gözlərində tutqun bir ifadə əmələ gəlmişdi. Mazinin üst dodağında iki zolaq qaralırdı, üzü əvvəlkindən kök idi. Samoylov əvvəlki kimi qıvrım saçlı idi, İvan Qusev həmişəki kimi qımışırdı.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Sizov başını aşağı salıb:

– Eh, Fedya, Fedya! – deyə pıçıldayırdı.

Ana qoca hakimin anlaşılmaz suallarını dinləyirdi, – o, müttəhimlərin üzlərinə baxmayaraq soruşur və bu zaman başı mundirinin yaxalığında hərəkətsiz dururdu, – oğlunun sakit və qısa cavablarını eşidirdi. Anaya elə gəlirdi ki, baş hakim və onun bütün yoldaşları kinli, zülmkar adam ola bilməzlər. Ana, hakimlərin üzünə diqqətlə baxaraq qabaqcadan bir şey sezməyə can atır və qəlbində yeni bir ümidin böyüdüyünü duyurdu.

Mərmər üzlü adam laqeyd səslə kağızı oxuyurdu, onun yeknəsəq səsi salonu tamam darıxdırırdı; darıxıb qalmış insanlar donmuş kimi hərəkətsiz oturmuşdular. Dörd nəfər vəkil yavaşdan, lakin qızğınlıqla müttəhimlərlə danışırdı; onların hamısı qüvvətlə, sürətlə hərəkət edir və iri, qara quşları xatırladırdı.

Qoca hakimin bir tərəfində balaca gözlərini ət basmış yoğun, koppuş hakim bədənini kresloya yaymışdı; o biri tərəfdənsə beli bükük, rəngi qaçmış kürən bığlı hakim otururdu. O, yorğun-yorğun başını kreslonun dalına söykəyərək, gözlərini yarıya qədər yumub nəyi isə düşünürdü. Prokurorun da üzü yorğun, darıxmış görünürdü. Hakimlərin dalında oturan kök və təmkinli bələdiyyə rəisi fikrə getmiş halda yanaqlarını tumarlayırdı; buradaca çal, yekə saqqallı, sifəti qırmızı, iri, mehriban gözlü zadəgan nümayəndəsi əyləşmişdi: arxalıq geymiş yekəqarın nahiyə rəisi də oturanlar içərisində olub, qarnının yekəliyindən xəcalət çəkirmiş kimi, arxalığının ətəyi ilə qarnını örtməyə çalışırdısa da, ətəyi sürüşüb düşürdü. Pavelin möhkəm səsi gurladı:

– Burada nə cani var, nə hakim. Burada yalnız əsirlər və qalib gələnlərdir...

Dərhal sakitlik oldu: ananın qulağı bir neçə saniyə yalnız kağız üzərində tələsik dolaşan qələmin nazik cırıltısını, ürəyinin döyüntüsünü eşitdi.

Baş hakim də bir şeyə qulaq verirmiş kimi gözləyirdi. Onun yoldaşları hərəkətə gəldilər. Onda baş hakim dedi:

– Bə-ə-li, Andrey Naxodka! Boynunuza alırsınızmı ki...

Andrey yavaşca yerindən qalxdı, qəddini düzəltdi və bığlarını darta-darta, gözaltı qocaya baxdı. Sonra çiyinlərini çəkərək, həmişəki kimi sözlərini uzada-uzada və tələsmədən:



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

– Axı mən özümü nədə müqəssir tuta bilərəm? – dedi. – Adam öldürməmişəm, özgənin malını oğurlamamışam, mən ancaq insanları bir-birini qarət eləməyə və öldürməyə vadar edən həyat qaydası ilə razılaşmıram...

Qoca çətinliklə, lakin aydın səslə:

– Qısa cavab verin! – dedi.

Ana dal skamyalarda oturan adamların hərəkətə gəldiyini hiss edirdi; onlar nə barədə isə pıçıldaşır, sanki şüşə üzlü adamın mənasız sözlərinin torundan özlərini xilas etmək üçün tərpəşirdilər.

Sizov:

– Eşidirsənmi, necə yağdırırlar – deyə pıçıldadı.

– Fyodor Mazin, cavab verin!..

Fedya ayağa sıçrayıb açıq-aydın:

– İstəmirəm! – dedi. Onun üzü həyəcandan qızardı, gözləri parıldadı, nədənsə əllərini dalında gizlədi.

Sizov yavaşdan ahıldadı, ana heyrətlə gözlərini geniş açdı:

– Mən müdafiədən imtina elədim, mən heç bir şey danışmayacağam, sizin mühakimənizi də qanunsuz hesab edirəm! Siz kimsiniz? Bizi mühakimə etmək haqqını sizə xalqmı vermişdir? Yox, o verməmişdir! Mən sizi tanımıram.

O, oturub qızarmış üzünü Andreyin arxasında gizlədi. Kök hakim, baş hakimə tərəf əyilib, qulağına nə isə pıçıldadı. Solğun üzlü hakim göz qapaqlarını qaldırıb müttəhimlərə çəp-çəp baxdı və əlini masaya uzadıb qabağındakı kağızda karandaşla bir şey cızdı. Nahiyə rəisi başını buladı, ayaqlarının vəziyyətini ehmalca dəyişdi və qarnını dizlərinin üstünə yıxıb, əlləri ilə onu örtdü. Qoca hakim başını tərpətmədən, bütün bədənilə kürən saçlı hakimə tərəf dönüb, ona səssiz-səssiz nə isə dedi, o da başını əyərək, onun sözlərini dinlədi. Zadəganların seçilmiş nümayəndəsi prokurorla pıçıldaşırdı, bələdiyyə rəisi isə yanağını sürtə-sürtə, onlara qulaq asırdı. Yenə baş hakimin sönük nitqi eşidildi. Sizov heyrətlə ananın qulağına:

– Necə sözünü kəsdi! Hamıdan yaxşı cavab verdi! – deyə pıçıldadı.

Ana heyran-heyran gülümsünürdü. İndiyə kimi olub-keçənlər əvvəlcə anaya, sonradan gələcək və öz soyuq dəhşəti ilə birdənbirə hamını əzəcək olan vahimənin lüzumsuz və cansıxıcı müqəddiməsi kimi görünürdü. Lakin Pavel ilə Andreyin təmkinli sözləri,



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

məhkəmə qarşısında deyil, fəhlə məhəlləsindəki balaca evcikdə deyilirmiş kimi, möhkəm və qorxusuz səsləndi. Fedyanın qızğın çıxışı ananı ruhlandırdı. Zalda cəsarətli nə isə yaranır, yüksəlir və ana arxasındakı adamların hərəkətindən onların da bunu hiss etdiyini duyurdu.

Qoca:

– Sizin rəyiniz? – deyə soruşdu:

Başı daz prokuror ayağa qalxaraq, bir əlilə kantorkadan yapışıb müxtəlif rəqəmləri sadalaya-sadalaya, ucadan danışmağa başladı. Onun səsində qorxulu bir şey yox idi.

Lakin eyni zamanda ağır, tikanlı bir düşüncə ananın qəlbini sancır, narahat edirdi, sözlərdə ana özünə qarşı bir düşmənçilik hiss edirdi. Bu hiss hədələmir, hay-küy salmır, ancaq görünmədən, sezilmədən böyüyüb artırdı; bu hiss tənbəl-tənbəl hakimlərin ətrafında dolanır, sanki onları qalın bir buluda bürüyürdü və bu buluddan da heç bir şey keçib onlara təsir edə bilmirdi. Ana hakimlərə diqqətlə baxır və onların heç birini anlaya bilmirdi. Onun gözlədiyinin əksinə olaraq, hakimlər Pavelə və ya Fedyaya acıqlanmır, onları təhqir etmirdilər, lakin anaya belə gəlirdi ki, onların verdikləri sualların heç biri onlara gərək deyil, sanki onlar istəmədən sual verir, cavabları çətinliklə dinləyir, hər şeyi qabaqcadan bilir, heç bir şeylə maraqlanmırdılar.

Budur, bir jandarm onların qabağında durub gur səslə deyir:

– Pavel Vlasovu hamı başçı adlandırırdı...

Yoğun hakim tənbəl və alçaq səslə:

– Bəs Naxodkanı? – deyə soruşdu.

– Onu da...

Vəkillərdən biri qalxıb:

– Mənə icazə olarmı? – dedi. Qoca hakim kimdən isə:

– Sizin sözünüz varmı? – deyə xəbər aldı.

Hakimlərin hamısı ananın nəzərinə azarlı görünürdü. Onların oturuşunda və səslərində xəstəlik və yorğunluq hiss edilirdi; bu xəstəlik və yorğunluq, zəhlətökən can sıxıntısı onların üzlərində də əks olunurdu. Belə görünürdü ki, bütün bu şeylər – mundirlər, salon, jandarmlar, vəkillər, kresloda oturub soruşmaq və dinləmək məcburiyyəti onlara ağır və darıxdırıcı bir vəzifə kimi gəlir.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Ananın tanıdığı sarı sifətli zabit onların qabağında durub, təşəxxüslə sözlərini uzada-uzada, uca səslə Paveldən, Andreydən nağıl edirdi. Onun nitqinə qulaq asan ana biixtiyar:

"Hələ çoxunu bilmirsən!" – deyə düşünürdü.

Bunu düşünərək ana qəfəsə dalında oturanlara, qəlbində qorxu və mərhəmət hiss etmədən baxırdı; mərhəmət hissi onlara yaraşmırdı. Onların hamısı yalnız ananın ürəyini isindirən heyrət və məhəbbət hissi yaradırdı; heyrəti sakit, məhəbbəti isə nəşəli və aydın idi. Cavan, möhkəm oğlanlar kənarda, divarın dibində oturub şahidlərlə hakimlərin yeknəsəq danışığına, vəkillərlə prokuror arasındakı mübahisəyə qarışmırdılar. Bəzən onlardan biri istehza ilə gülümsünür, yoldaşlarına nə isə deyirdi, onda onların da üzündə istehzalı təbəssüm oyanmağa başlayırdı. Andrey ilə Pavel yavaşdan vəkillərin biri ilə tez-tez söhbət edirdilər – keçən gün ana bu vəkili Nikolaygildə görmüşdü. O birilərdən daha cəld və diribaş olan Mazin onların söhbətinə qulaq asırdı; Samoylov hərdənbir İvan Qusevə bir şey deyirdi; ana da hər dəfə İvanın yoldaşını dirsəyilə yavaşca itələdiyini və qəhqəhəsini güclə saxladığını görürdü, üzü qızarıb, ovurdları şişdiyi üçün İvan başını aşağı salırdı. Bir-iki dəfə o, özünü saxlaya bilməyib pıqqıldadı və sonra ciddi və təmkinli olmağa çalışaraq, bir neçə dəqiqə qaşqabaqlı oturdu. Gənclik öz əlamətlərin onların hərəsində bir cür büruzə verir və onun canlı çırpıntılarını boğmaq üçün edilən cəhdlərə asanlıqla üstün gəlirdi.

Sizov ehmalca ananın dirsəyinə toxundu, ana ona tərəf döndü – Sizovun üzündə razılıq və bir qədər fikirli ifadə vardı. O, pıçıltı ilə:

– Bir bax, bu ana uşaqları necə də bərkiyiblər! Ağa kimidirlər, hə? – dedi.

Salonda şahidlər tələsə-tələsə, ahəngsiz, yeknəsəq səslərlə, hakimlər isə könülsüz və maraqsız danışırdılar. Yoğun hakim kök əlini ağzının qabağında tutub əsnəyirdi, kürənbığ hakim isə daha artıq ağarmışdı, o, hərdənbir əlini qalxızır və barmağını bərk-bərk gicgahına basaraq darıxmaqdan genişlənmiş gözlərilə kor kimi tavana baxırdı. Prokuror arabir karandaşla kağızda bir şey qaralayır və yenə zadəganların seçilmiş nümayəndəsi ilə öz asta söhbətini davam etdirirdi; o isə ağ saqqalını tumarlaya-tumarlaya, iri göyçək gözlərini bərəldir və təmkinlə boynunu əyərək gülümsünürdü. Bələdiyyə rəisi qıçını qıçının üstünə aşırıb, barmaqlarını səssizcə



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

dizinə döyür və diqqətlə öz barmaqlarının hərəkətinə tamaşa edirdi. Yalnız nahiyə rəisi qarnını dizləri üstündə yerləşdirib, onu möhkəm-möhkəm əllərilə tutaraq başını əyib oturmuşdu və elə bil səslərin yeknəsəq şırıltısına təkcə qulaq asırdı, bir də kresloya sancılmış qoca hakim öz yerində küləksiz havada hərəkətsiz dayanmış yelqovan kimi donub qalmışdı. Bu hal uzun müddət davam elədi və can sıxıntısı yenə adamlara hakim kəsilərək onları sustaltdı.

Qoca hakim:

– Elan edirəm... – dedi və sonrakı sözləri nazik dodaqları arasında əzərək ayağa qalxdı.

Gurultu, ağır nəfəs, həyəcan bildirən səssiz vidalar, öskürtü və ayaq tappıltısı salonu doldurdu. Müttəhimləri apardılar; onlar gedərkən gülümsünə-gülümsünə öz qohum-qardaş və tanışlarına baş əyirdilər, İvan Qusev nəsə birisinə yavaşdan:

– Qorxma, Yeqor! – deyə qışqırdı.

Ana ilə Sizov dəhlizə çıxdılar.

Qoca qayğıkeş və fikirli halda:

– Çayxanaya çay içməyə gedərsənmi? – deyə soruşdu. – Saat yarım vaxtımız var!

– İstəmirəm.

– Onda mən də getmirəm. Yox, bir uşaqlara tamaşa elə, hə? Elə otururlar ki, guya əsl insan bircə onlardır, qalanları hesaba gəlmir! Hələ Fedka, hə?

Samoylovun atası şapkası əlində onların yanına gəldi. O, kədərli-kədərli gülümsünür və:

– Mənim Qriqorimi gördünüzmü?! – deyirdi. – Vəkili rədd eləyib, danışmaq da istəmir. Bunu birinci o fikirləşib, Pelageya, səninki vəkillərin tərəfdarı imiş, amma mənimki deyib ki, istəmirəm! Onda dördü də vəkili rədd eləyib...

Onun arvadı yanında durmuşdu. Gözlərini döyə-döyə yaylığının ucu ilə burnunu silirdi. Samoylov saqqalını ovcuna yığıb, yerə baxa-baxa sözünə davam elədi:

– Çox qəribə işdir! Bunlara, bu dəcəllərə baxanda deyirsən ki, nahaq yerə bu işə qarışıblar, özlərini nahaqdan tələf eləyirlər. Birdən də fikrinə gəlir ki, bəlkə də onlar haqlıdırlar? Yadına salırsan ki, onlar fabrikdə çoxalır, hey artırlar, onları dalbadal tutub



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

dama qatırlar, amma onlar heç veclərinə almır, azalmırlar, yox! Yenə fikir eləyirsən ki, bəlkə elə güc də bunlardadır?

Sizov:

– Stepan Petroviç! – dedi. – Bizim bu işi başa düşməyimiz çətin məsələdir.

Samoylov onun fikri ilə razılaşaraq:

– Doğru deyirsan, çətindir! – dedi.

Onun arvadı bərkdən burnunu çəkib:

– Üzüqaraların hamısı da elə sağlamdır ki... – dedi.

Sonra da büzüşmüş enli üzündə təbəssümünü gizlədə bilməyib sözünə davam elədi:

– Mənə acığın tutmasın Nilovna, bayaq sənə dedim ki, təqsir səninkindədir. Ancaq gerçəyini desək, kim bilir, təqsirin böyüyü kimdədir. Hələ jandarmlarla casuslar bizim Qriqoridən nələr danışırdı! O kürən köpək də canfəşanlıq elədi!

Belə görünürdü ki, o bəlkə də öz hissini dərk etmədən oğlu ilə fərəhlənirdi, lakin onun hissi anaya tanış idi, odur ki, ana onun sözlərinə mehriban təbəssümlə, mülayim sözlərlə cavab verdi:

– Cavan qəlb həmişə həqiqətə daha yaxın olar...

Adamlar dəhlizə gəzişir, dəstə-dəstə toplaşır, boğuq səslə, həyəcanlı və fikirli halda söhbət edirdilər. Tək duran adam gözə dəymirdi: hamının üzündə danışmaq, soruşmaq, qulaq asmaq arzusu aydın görünürdü. İki divarın arasındakı ağ dəhlizdə insanlar, sanki güclü külək zərbələrindən o yan-bu yana qaçışırdılar, sanki hamı möhkəm istinadgah axtarırdı.

Bukinin uca boylu və özü kimi solğun üzlü qardaşı sürətlə o tərəf-bu tərəfə dönə-dönə əllərini tovlayır və sübut etməyə çalışırdı ki:

– Bu işdə nahiyə rəisi Klepanov öz yerində deyil...

Onun atası, balaca qoca kişi, oğluna öyüd-nəsihət verir və qorxa-qorxa ətrafına göz gəzdirərək:

– Sus, Konstantin! – deyirdi.

– Yox, susan deyiləm. Arada belə söz gəzir ki, bildir o öz darğasını, arvadına gözü düşdüyü üçün öldürmüşdür... Bir halda ki, indi darğanın arvadı onunla yaşayır, bunu necə başa düşməli? Bir də, onun oğru olduğu aləmə məlumdur...

– Ay səni, Konstantin, nələr danışırsan!

Samoylov:



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

– Doğrudur! – dedi. – Doğrudur. Düz divan deyil...

Bukin onun səsini eşidib, hamını da özü ilə çəkərək tez onun yanına gəldi və həyəcandan qızarmış halda, əllərini tovlaya-tovlaya çığırmağa başladı:

– Oğurluq üstündə, adam öldürmək üstündə iclasçılar, sadə adamlar, kəndlilər, meşşanlar divan eləyir, bağışlayın! Amma hökumətin ziddinə gedən adamları hökumətin özü divan edir, necə yəni? Sən mənə toxunasan, mən də sənin ağzından vuram, sonra sən məni divan eləyəsən, əlbəttə təqsirkar mən çıxacağam: bəs birinci toxunan kimdi, sən deyildinmi? Sən idin!

Saçı-saqqalı ağarmış, dik burunlu, döşü medallı qapıçı, izdihamı yarıb, barmağı ilə Bukini hədələyərək:

– Ey, – dedi, – nə bağırırsan! Bura sənə meyxana deyil ki?

– Bağışlayın, kavaler, mən bilirəm! Bir qulaq asın, mən sizi vursam, özüm də sizi mühakimə eləsəm, fikrinizcə, necə olar...

Qapıçı acıqlı-acıqlı:

– Bax, əmr edərəm, səni buradan çıxararlar! – dedi.

– Hara çıxararlar? Nə üçün?

– Küçəyə. Bağırdığın üçün...

Bukin hamının üzünə baxıb, yavaşdan:

– Bunlara lazımdır ki, xalq dinməsin... – dedi.

Qoca qapıçı acıqlı və kobud səslə:

– Bəs sən nə fikir edirdin?! – deyə çığırdı.

Bukin təəccüblə əllərini yelləyib, yavaşdan danışmağa başladı:

– Bir də, niyə xalqı bura buraxmayıblar, bircə qohum-qardaşı buraxıblar? İndi ki, sənin divanın ədalət divanıdır, qoy hamı gəlib qulaq assın, nədən qorxursan ki?

Samoylov bir az ucadan:

– Vicdanla mühakimə eləmirlər, bax, burası haqdır!.. – deyə təkrar elədi.

Ana mühakimənin qanunsuz olduğu haqqında Nikolaydan eşitdiyini ona demək istədi, lakin özü də bunu əməlli başa düşməmişdi, bir də, sözlərin çoxunu unutmuşdu. Ana o sözləri yadına salmağa çalışaraq adamlardan aralandı və sarı bığlı bir cavan oğlanın ona baxdığını gördü. Bu oğlan sağ əlini şalvarının cibinə qoymuşdu, bundan da sol çiyini sağ çiynindən alçaq görünürdü: gördüyü adamın bu cəhəti anaya tanış gəldi. Lakin oğlan arxasını ona döndərdi: öz xatirələrinə başı qarışan ana da o saat onu unutdu.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Lakin bir dəqiqə sonra onun qulağına yavaşdan verilmiş belə bir sual dəydi:

– Budurmu?

– Bir başqası da ucadan və sevinclə:

– Özüdür! – deyə cavab verdi.

Ana dönüb baxdı. Əyriçiyin oğlan anaya tərəf yanakı duraraq, öz müsahibi qarasaqqal, qısa paltolu və uzunboğaz çəkməli oğlana nə isə deyirdi.

Ananın hafizəsi bir daha narahatlıqla çırpındı, lakin aydın bir təsəvvür yarada bilmədi. Oğlunun həqiqəti haqqında adamlara danışmaq arzusu oyanırdı; ana bu həqiqətin qabağında adamların nə deyəcəyini eşitmək istəyirdi, onların cavablarından məhkəmənin qərarını qabaqcadan duymaq istəyirdi.

Ana, Sizova müraciət edərək, ehtiyatla yavaşdan:

– Belə də divan olar? – deyə sözə başladı. – Bircə bunu axtarırlar ki, kim nə eləyib, daha nə üçün elədiyini soruşan yoxdur. Bir də, hamısı qocadır, cavanların işinə cavanlar baxmalıdır...

Sizov:

– Elədir! Bizim bu işi başa düşməyimiz çətin məsələdir, çətin! – dedi.

Sonra da fikirli halda başını buladı. Qapıçı salonun qapısını açıb çağırdı:

– Qohumlar!.. Biletlərinizi göstərin...

Acıqlı bir səs tələsmədən:

– Bilet, guya bura sirk imiş! – dedi.

İndi hamıda bir əsəbilik, dumanlı bir hiddət hiss edilirdi: onlar daha cəsarətli hərəkət edir, səs-küy salır, qapıçılarla deyişirdilər.

## XXV

Sizov skamyada öz yerində otורarkən nə barədə isə öz-özünə deyinirdi. Ana soruşdu:

– Nə deyirsən?

– Elə-belə! Xalq axmaqdır...

Zəng vuruldu. Kim isə etinasızlıqla:

– Məhkəmə gəlir!.. – deyə elan elədi.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Yenə hamı qalxdı, yenə hakimlər əvvəlki qayda ilə içəri girib öz yerlərində oturdular. Müttəhimlər gətirildi.

Sizov pıçıltı ilə:

– Möhkəm dur! – dedi. – İndi prokuror danışacaq.

Ana boynunu uzatdı, bütün bədənini irəli əydi və yenidən qorxulu nə isə gözləyərək, bu vəziyyətdəcə donub qaldı.

Prokuror hakimlərə yanakı duraraq üzünü onlara çevirdi, kantorkaya dirsəkləndi, dərin nəfəs aldı və sağ əlini havada yelləyə-yelləyə danışmağa başladı. Onun əvvəlki sözlərini ana seçmədi, prokurorun səsi məlahətli və gur idisə də, rəvan axmırdı, gah yavaşıyır, gah da sürətlənirdi. Sözlər sap kimi uzun bir cərgəyə düzülür və birdən, tələsik uçuşub qara milçəklər qənd parçasının üstündə hərlənən kimi hərlənməyə başlayırdı. Lakin ana bu sözlərdə dəhşətli, hədələyici heç bir şey tapmırdı. Qar kimi soyuq, kül kimi boz olan bu sözlər tökülür, tökülür və salonu narın, quru toz kimi, darıxdırıcı, təngəgətirici bir şeylə doldururdu. Hissi az, sözü çox olan bu nitq elə bil Pavelə və onun yoldaşlarına aid deyildi, görünür, onlara heç bir cəhətdən toxunmurdu, onların hamısı sakitcə oturub əvvəlki kimi astadan söhbət edir, arabir gülümsünür, arabir də təbəssümlərini gizlətmək üçün qaşlarını çatırdılar.

Sizov pıçıldayırdı:

– Yalan deyir!

Ana bunu deyə bilməzdi. O, prokurorun sözlərini eşidir, onun heç kəsi ayırmadan, hamını müttəhim tutduğunu anlayırdı. Paveldən danışıb qurtarandan sonra prokuror Fedyadan danışmağa başlayır və onu Pavel ilə bir cərgəyə qoyub, Bukini inadla onlara tərəf çəkirdi, elə bil müttəhimləri sıx-sıx bir-birinin yanına uzadıb qablayır, hamını bir çuvalın içinə qoyub ağzını tikirdi. Lakin onun sözlərinin zahiri mənası ananı qane eləmir, ona dəymir, onu qorxutmurdu, ana yenə də dəhşətli bir şey gözləyirdi və bu dəhşətli şeyi prokurorun dediyi sözlərin arxasında – onun üzündə, gözlərində, səsində, tələsmədən havada tərpənən ağ əlində axtarırdı. Dəhşətli nəyinsə olduğunu ana hiss edirdi, lakin gözə görünməyən bu dəhşətli şey açıq-aydın təsəvvür edilə bilmirdi, odur ki, ananın qəlbini yenə quru və zəhərli dumanla bürüyürdü.

Ana hakimlərə baxırdı, şübhəsiz, onlar prokurorun nitqinə darıxa-darıxa qulaq asırdılar. Cansız, sarı və boz sifətlər heç bir şey



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

ifadə etmirdi. Prokurorun sözləri havada gözəgörünməz duman saçırdı, bu duman getdikcə artır və hakimlərin ətrafında sıxlaşaraq onları etinasızlıq və cansıxıcı intizar buludu ilə daha möhkəm çulğalayırdı. Baş hakim tərpənmirdi, oturduğu yerində quruyub qalmışdı, gözlüyünün şüşələri ardından görünən boz ləkələr arabir yox olur, bütün sifətinə yayılırdı.

Bu ölgün laqeydliyi, kin büruzə verməyən etinasızlığı görən ana öz-özündən heyrətlə: "Mühakimə edirlər?" deyə soruşurdu.

Bu sual onun qəlbini sıxır və oradan dəhşət intizarını yavaş-yavaş sıxışdırıb çıxararaq, boğazı kəskin qəzəb duyğusundan qıcıqlandırırdı.

Prokurorun nitqi qəribə bir şəkildə, gözlənilmədən kəsildi – prokuror, bir neçə tələsik xırda ibarə ilə nitqini tamam edib, hakimlərə baş əydi və əllərini bir-birinə sürtə-sürtə yerinə oturdu. Zadəganların seçilmiş nümayəndəsi gözlərini bərəldərək, başı ilə razılıq elədi, bələdiyyə rəisi əlini uzatdı, nahiyə rəisi isə qarnına baxa-baxa gülümsəməyə başladı.

Lakin belə məlum olurdu ki, onun nitqi hakimləri sevindirməmişdi, onlar tərpənmirdilər.

Qoca hakim əlindəki kağızı gözlərinə yaxınlaşdıraraq:

– *Söz Fedoseyev, Markov və Zaqarovun vəkilinə verilir!* – *dedi.*

Ananın Nikolaygildə gördüyü vəkil ayağa qalxdı. Onun üzü xeyirxah və enli idi, balaca gözləri nur saçaraq gülümsəyir, sanki kürən qaşlarının altından iki iti tiyə çıxıb, qayçı kimi havada bir şey biçirdi. O, tələsmədən, uca və aydın səslə danışmağa başladı, lakin ana onun nitqinə qulaq asa bilmirdi. Sizov onun qulağına:

– Heç dediyini anladınmı? – deyə pıçıldayırdı. – Anladınmı? Adamlar, deyir, özlərini itirib, dəli olublar. Dəli olan Fyodormuş?

Ümidini itirdiyindən məyus olan ana cavab vermədi. İnciklik artaraq onun ruhunu əzirdi. Nə üçün ədalət gözlədiyi, nə üçün oğlunun həqiqəti ilə onu mühakimə edənlərin həqiqəti arasında ciddi, namuslu çəkişmə olacağını fikirləşdiyi indi Vlasovaya aydın oldu? Ona elə gəlirdi ki, hakimlər Paveldən onun bütün həyatını uzun-uzadı, diqqətlə və ətraflı soruşacaq, onun bütün düşüncə və işlərini, keçirdiyi bütün günlərini iti gözlə araşdıracaqdılar. Onun haqlı olduğunu gördəndən sonra da ədalətlə, ucadan:

– Bu adam haqlıdır! – deyəcəkdilər.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Lakin buna oxşar heç nə olmadı, sanki müttəhimlər hakimlərdən gözə görünməyəcək dərəcədə uzaq idi, hakimlər isə onlar üçün lap artıq və lüzumsuz idi. Yorğun ana mühakiməyə olan marağını tamam itirib, sözlərə diqqət etməyərək, acı-acı düşünürdü:

"Belə də divan olar?"

Sizov bəyəndiyini bildirən bir ahənglə:

– Belə ha, afərin! – deyə pıçıldadı.

İndi başqa bir vəkil danışırdı, uzunsov və solğun sifətindən istehza yağırdı, özü də balaca bir adam idi: hakimlər onun danışmağına mane olurdular.

Prokuror yerindən sıçrayıb protokol haqqında acıqla nə isə dedi, sonra qoca hakim, nəsihət edirmiş kimi danışdı, vəkil ehtiramla başını aşağı salıb onların sözünü dinlədi və yenə nitqinə davam elədi.

Sizov dedi:

– Elə ha, qurdala! Yaxşı qurdala...

Salondakılar canlanmağa başlayır, gözlərdə meydan oxuyan bir hiddət parlayırdı, vəkil kəskin sözlərlə hakimlərin qart dərisini qaşıyırdı. Hakimlər sanki bu sözlərin tikanlı və kəskin zərbələrini dəf etmək üçün bir-birinə qısıldılar və özlərini çəkərək beləcə şişib qaldılar.

Nəhayət, Pavel yerindən qalxdı və birdən ətrafı sükut bürüdü. Ana bütün bədənini qabağa əydi. Pavel təmkinlə danışmağa başladı:

– Partiya adamı olduğum üçün, mən yalnız öz partiyamın mühakiməsini səlahiyyətli hesab edirəm, indi də özümü müdafiə üçün deyil, ancaq mənim kimi vəkildən imtina edən yoldaşlarımın tapşırığı ilə sizin başa düşmədiyinizi sizə anlatmaq üçün danışacağam. Prokuror bizim sosial-demokrat bayrağı altındakı çıxışımızı ali hakimiyyətə qarşı qiyam adlandırdı və bütün nitqində bizi çarın əleyhinə qiyam edən adamlar kimi qələmə verdi. Mən burada deməliyəm ki, bizim üçün ölkənin vücudunu sarıyan zəncir yalnız mütləqiyyətdən ibarət deyildir, o yalnız birinci və ən yaxın zəncirdir ki, biz ilk növbədə onu qırıb xalqın üzərindən götürməliyik...

Möhkəm səsin ahəngi altında sükut dərinləşir və sanki salonun divarlarını aralayırdı; Pavel isə sanki insanlardan bir tərəfə, uzaqlara çəkilərək daha qabarıq görünürdü.

Hakimlər ağır-ağır və əsəbi halda tərpəşməyə başladılar. Zadəganların seçilmiş nümayəndəsi üzündən tənbəllik yağan haki-



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

mə nə isə pıçıldadı, o, başı ilə işarə edib qocaya tərəf əyildi, o biri tərəfdən də qocanın qulağına xəstə hakim bir şey pıçıldayırdı. Qoca, öz kreslosunda sağa və sola yırğalanaraq Pavelə nə isə dedi, lakin onun səsi Vlasovun nitqində, bu nitqin geniş və müntəzəm axınında boğulub itdi:

– Biz sosialistik. Bunun mənası odur ki, biz, insanları bir-birindən ayıran, onları bir-birinə qarşı silahlandıran, barışmaz mənafe *ziddiyyəti yaradan, bu ziddiyyətləri gizlətmək və ya doğrultmaq* üçün yalanlar yayan və hamını yalan, riya və ədavətlə zəhərləyən xüsusi mülkiyyətin düşməniyik. Biz deyirik ki, insanı özünün varlanması üçün yalnız bir alət hesab edən cəmiyyət insanlığa ziddir, bizə düşməndir, biz bu cəmiyyətin ikiüzlü və yalançı əxlaqı ilə barışa bilmərik; onun şəxsiyyətə qarşı olan həyasız və yırtıcı münasibətinə biz nifrət edirik və belə cəmiyyət tərəfindən insanın, hansı şəkildə olursa-olsun, cismani və mənəvi əsarət altına alınmasına qarşı, tamahkarlıq xatirinə insan qüvvəsinin parçalanması üçün işlədilən bütün üsullara qarşı biz mübarizə etmək istəyirik və edəcəyik. Biz fəhləyik, nəhəng maşınlardan tutmuş uşaq oyuncaqlarına qədər hər şeyi öz əməyilə yaradan adamlarıq; biz öz insanlıq ləyaqəti uğrunda mübarizə hüququndan məhrum edilmiş adamlarıq, hər kəs öz məqsədlərinə çatmaq üçün bizi özünə alət eləməyə çalışır və buna müvəffəq olur, biz indi elə bir azadlıq əldə etmək istəyirik ki, o bizə gələcəkdə bütün hakimiyyəti ələ almaq imkanını versin. Bizim şüarlarımız sadədir – rədd olsun xüsusi mülkiyyət, bütün istehsal vasitələri xalqa verilsin, bütün hakimiyyət xalqın əlində olsun, hamı işləsin. Siz görürsünüz ki, biz qiyamçı deyilik!

Pavel istehza ilə gülümsündü, tələsmədən əlini saçlarına çəkdi, mavi gözlərindəki od daha aydın parıldadı.

Sədr aydın və uca səslə:

– Xahiş edirəm, məsələyə yaxın danışasınız! – dedi. O, döşünü Pavelə tərəf çevirərək, onun üzünə baxdı, anaya elə gəldi ki, onun tutqun sol gözündə iyrənc tamah odu yanır. Bütün hakimlər də onun oğluna elə baxırdılar ki, elə bil onların gözləri onun üzünə yapışır, badəninə sancılırdı və onlar öz köhnəlmiş bədənlərini canlandırmaq üçün onun qanını içmək istəyirdilər. Düz qamətli, uca boylu Pavel isə ayaq üstə möhkəm və şax duraraq, əlini onlara tərəf uzadır və yavaş, aydın səslə deyirdi:



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

– *Biz inqilabçıyıq və nə qədər ki, insanların bir hissəsi yalnız əmr edir, o biri hissəsi isə yalnız işləyir, biz inqilabçılığımızda möhkəm qalacağıq. Biz, mənafeyini müdafiə etmək vəzifəsi sizə tapşırılan cəmiyyətin əleyhinəyik, biz bu cəmiyyətin və sizin barışmaz düşmənlərinizin, biz qalib gəlməyincə də aramızda barışıq ola bilməyəcək. Biz fəhlələr qalib gələcəyik! Sizi vəkil edənlər də güman etdikləri qədər güclü deyildirlər. Həmən xüsusi mülkiyyət ki, onu əldə saxlamaq və artırmaq üçün onlar milyonlarla qul edilmiş insanları qurban verirlər, həmən qüvvə ki, bizim üzərimizdə onlara hakimiyyət verir, özü də eyni zamanda onların arasında kəskin toqquşmalar yaradır, onların həm bədənini, həm də ruhunu zəhərləyir. Xüsusi mülkiyyət özünün qorunulması üçün çox böyük qüvvə tələb edir və əslinə qalanda, siz hamınız, bizim ağalarımız bizdən daha artıq qulsunuz, siz mənəvi cəhətcə qul edildiyiniz halda, biz yalnız cismən qul edilmişik. Siz yanlış əqidə və adətlərinizin əsarətindan əl çəkə bilməzsiniz, bu əsarət sizin ruhunuzu öldürmüşdür, bizim isə daxili azadlığımıza mane olacaq heç bir şey yoxdur, sizin bizə verdiyiniz zəhərlər bizim şüurumuza istəmədən tökdüyünüz dərmanlardan zəifdir. Bizim şüurumuz artır, dayanmadan inkişaf edir, get-gedə artan sürətlə alovlanır və sizin içinizdən belə ən yaxşı, ruhən ən sağlam olanlarını özünə cəlb edir. Bir baxın, sizin hakimiyyətiniz uğrunda ideya mübarizəsi apara biləcək adamlarınız qalmamışdır, sizi tarixi ədalətin hücumundan qoruya biləcək bütün dəlillərinizi siz artıq işlədib qurtarmısınız, ideyalar sahəsində yeni bir şey yaratmağa siz artıq qadir deyilsiniz, siz ruhən barsızsınız. Bizim ideyalarımız yüksəlir, get-gedə daha parlaq nur saçır, xalq kütlələrini bürüyüb, onları azadlıq uğrunda mübarizə üçün təşkil edir. Fəhlənin öhdəsinə düşən böyük vəzifə bütün dünyanın fəhlələrini vahid canda birləşdirir, yırtıcılıq və həyasızlıqdan başqa heç bir vasitə ilə siz bu həyatı yeniləşdirmək cərəyanının qabağını ala bilməyəcəksiniz. Lakin həyasızlıq göz qabağındadır, yırtıcılıq isə qəzəbləndirir. Bu gün bizi boğan əllər sabah yoldaşlıqla bizim əlimizi sıxacaqdır. Sizin qüvvəniz artmaqda olan qızılın mexaniki qüvvəsidir, o sizi bir-birini məhv edəcək dəstələrdə birləşdirir, bizim qüvvəmiz isə getdikcə artan bütün fəhlələrin həmrəyliyinin canlı qüvvəsidir. Sizin gördüyünüz bütün işlər cinayətdir, çünki insanları qul etmək məqsədilə görülür: bizim fəaliyyətimiz*



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

isə sizin yalanınız, ədavətiniz və tamahkarlığınızın yaratdığı kabus və əjdahalardan, xalqı qorxuya salmış əjdahalardan dünyanı xilas edir. Siz insanı həyatdan ayırıb onu məhv etmişsiniz: sosializm isə sizin dağıtdığınız dünyanı vahid, böyük bir can kimi birləşdirir, bu da olacaqdır!

Pavel bir anlığa dayandı və bir az yavaşdan, lakin qüvvətli səslə:

– Bu, olacaqdır! – deyə təkrar elədi.

Hakimlər əcaib hərəkətlə üz-gözlərini oynada-oynada öz aralarında pıçıldaşır və həris gözlərini Paveldən çəkmirdilər, ana isə hiss edirdi ki, onlar Pavelin sağlamlıq, qüvvət və gümrahlığına həsəd apararaq, öz nəzərlərilə onun qıvraq, möhkəm bədənini ləkələyirlər. Müttəhimlər öz yoldaşının nitqinə diqqətlə qulaq asırdılar, onların rəngi ağarmışdı, gözləri nəşə ilə yanırdı. Ana oğlunun sözlərini udurdu və bu sözlər, onun hafizəsində cərgə-cərgə düzülərək yerləşirdi. Qoca hakim bir neçə dəfə Paveli dayandırdı, nəyi isə ona izah elədi, hələ bir dəfə də qüssə ilə gülümsündü; Pavel dinmədən ona qulaq asır və yenə sərt, lakin sakit səslə danışaraq, onları dinləməyə məcbur edir, hakimlərin iradəsini öz iradəsinə tabe edirdi. Nəhayət, qoca əlini Pavelə uzadaraq çığırdı: ona cavab olaraq Pavelin bir qədər istehzalı səsi axmaqda idi:

– Mən sözümü qurtarıram. Mən şəxsən sizə toxunmaq istəmirdim, əksinə, sizin məhkəmə adlandırdığınız bu məsxərədə biixtiyar iştirak etməklə, mənim sizə demək olar ki, yazığım gəlir, hər necə olsa siz adamsınız, biz isə məqsədimizə düşmən də olsalar, adamları zülmə xidmət etməklə bu dərəcəyə qədər alçaldılmış, öz insanlıq ləyaqətini bu dərəcəyə qədər itirmiş görəndə, acıyırıq...

Pavel, hakimlərə baxmadan oturdu; ana nəfəsini çəkməyib diqqətlə hakimlərə baxır, gözləyirdi.

Gülümsəyən Andrey Pavelin əlini bərk-bərk sıxdı, Samoylov, Mazin və qalanları da Pavelə tərəf əyildilər, yoldaşlarının bu coşqun təbrikindan bir qədər utanan Pavel gülümsünürdü; o, ananın oturduğu yerə baxdı və:

“Beləmi?” – deyə soruşurmuş kimi, başı ilə ona işarə elədi.

Ürəyi sevinc, qızğın məhəbbətlə dolmuş ana dərindən köksünü ötürməklə ona cavab verdi:

Sizov:



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

– Aha, divan başlandı! – deyə pıçıldadı. – Ay atalarına od vurdu ha!

Ana dinmədən başını tərpədirdi, oğlunun belə cəsarətlə danışması onu sevindirmişdi, Pavelin öz sözünü tamam deyib qurtarması isə bəlkə ananı daha artıq razı salmışdı. Bir sual onun beynində çırpınırdı:

"İndi halınız necə olacaq? Hə?"

## XXVI

Oğlunun dedikləri ana üçün yeni deyildi, ana bu fikirləri bilirdi, lakin oğlundakı inamın qəribə, cəzbedici qüvvəsini ilk dəfə burada, məhkəmə qarşısında duydu. Pavelin sakitliyi onu heyrətə salmışdı, oğlunun nitqi isə onun haqlı olduğuna və qalib gələcəyinə möhkəm inamın parlaq, nurlu ulduzu ilə ananın qəlbində qovuşmuşdu. İndi ana hakimlərin Pavel ilə qızğın mübahisə edəcəklərini, öz həqiqətlərini irəli sürərək, hirslə ona etiraz edəcəklərini gözləyirdi. Lakin bu zaman Andrey yerindən qalxdı, yırğalandı, hakimlərə gözaltı baxdı və:

– Cənab müdafiəçilər... – deyə danışmağa başladı.

Xəstə üzlü hakim acıqlı halda, ucadan:

– Qarşınızdakı müdafiəçilər deyil, məhkəmədir!

Andreyin sifətindən ana onun lağa qoymaq istədiyini görürdü; onun bığları titrəyir, gözlərində anaya tanış olan pişik hiyləgərliyi yanırdı. Andrey uzun əlilə başını bərk-bərk sürtüb, köksünü ötürdü. Sonra başını bulaya-bulaya:

– Doğrudanmı? – dedi. – Mən elə bilirdim ki, siz məhkəmə deyil, ancaq müdafiəçisiniz...

Qoca hakim quru səslə:

– Xahiş edirəm məsələdən danışasınız! – dedi.

– Məsələdən? Yaxşı! Mən sizin doğrudan da hakim, müstəqil, namuslu adamlar olduğunuza inanmağa özümü məcbur elədim...

– Məhkəmə sizin xasiyyətnamənizə möhtac deyildir!

– Möhtac deyil? Hm! Nə eyibi var, mən yenə də davam edəcəyəm... Sizin üçün nə doğma var, nə yad, siz azad adamlarsınız. Budur, sizin qabağınızda iki tərəf dayanıbdır, bunlardan biri şikayət edir ki, bu məni soyub, başımı noxtalayıbdır. O biri də cavab verir ki, soymağa, noxtalamağa ixtiyarım var, çünki tüfəngim var...



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Qoca hakim səsini ucaldaraq:

– Məsələ barədə deyiləsi sözünüz varmı? – deyə soruşdu.

Onun əli titrəyirdi, ana onun hirsləndiyini görməkdən zövq alırdı. Lakin Andreyin hərəkəti ananın xoşuna gəlmirdi, bu hərəkət oğlunun nitqinə uymurdu, ana ciddi mübahisə arzu edirdi.

Xoxol dinməz-söyləməz qocaya baxdı, sonra başını sürtərək ciddi əda ilə:

– Məsələ barədə? – dedi. – Sizinlə məsələ barədə nə danışacağam? Nəyi bilməliydinizsə, hamısını yoldaşım dedi. Qalanını da vaxtı gələndə sizə başqaları deyər...

Qoca ayağa qalxıb elan elədi:

– Sizi sözdən məhrum edirəm. Qriqori Samoylov!

Xoxol dodaqlarını bir-birinə sıxıb, tənbəlcəsinə öz yerində oturdu, onun yanından qalxan Samoylov qıvrım saçını silkələdi.

– Prokuror yoldaşları vəhşi, mədəniyyət düşmənləri adlandırdı...

– Siz ancaq öz işinizə aid olandan danışmalısınız!

– Elə bu da mənim öz işimdir. Namuslu insanlara aid olmayan heç bir iş yoxdur. Bir də, xahiş edirəm, mənim sözümü kəsməyəsiniz. Mən sizdən soruşuram: sizin mədəniyyətiniz nədir?

Qoca hakim dişlərini ağardaraq:

– Biz bura sizinlə mübahisə eləməyə gəlməmişik! İşdən danışın! – dedi.

Andreyin hərəkəti açıq-açığına hakimləri dəyişdirmişdi, onun sözləri sanki hakimlərin üzündən nəyi isə silib aparmışdı, boz sifətlərdə ləkələr əmələ gəlmiş, gözlərdə soyuq, yaşıl qığılcımlar parlamağa başlamışdı. Pavelin nitqi onları acıqlandırmışdısa da, özünün biixtiyar ehtiram oyadan qüvvəsi ilə bu acığın qabağını alırdı, xoxol isə bu örtüyü açmış və onun altındakını asanlıqla üzə çıxarmışdı. Hakimlər ağız-burunlarını əzib-büzərək pıçıldaşır və bədənlərinə yaraşmayan zirəkliklə tərpəşirdilər:

– Siz casuslar bəsləyir, qadın və qızların əxlaqını pozur, insanı oğru və qatil vəziyyətinə salır, onu araqla zəhərləyirsiniz; beynəlxalq qırğınlar, xalqı aldatma, əxlaqsızlıq, vəhşiləşmə – budur sizin mədəniyyətiniz! Bəli, biz bu mədəniyyətin düşməniyik!

Qoca hakim çənəsini tərpədərək:

– Xahiş edirəm! – deyə çığırdı. Lakin qıpqırmızı qızarmış, gözləri parıldayan Samoylov da çığırırdı:



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

– Lakin biz başqa bir mədəniyyətin hörmətini saxlayıb, onu qiymətləndiririk, o mədəniyyətin ki, siz onun yaradıcılarını dustaqxanalarda çürüdüb, dəli edib...

– Sizi sözdən məhrum edirəm! Fyodor Mazin.

Balaca Mazin, cida kimi birdən partlayıb dikələrək, ayağa qalxdı və səsi tutula-tutula:

– Mən... mən and içirəm! – dedi. – Bilirəm, siz məni məhkum etmişsiniz!

Onun nəfəsi kəsildi, rəngi qaçdı, üzündə görünən yalnız gözləri idi; o, əlini qabağa uzadaraq:

– Mən... and içirəm! – dedi. – Məni hara göndərsəniz, qaçacağam, qayıdacağam, həmişə işləyəcəyəm, nəfəsim gəlincəyə qədər! Vicdanımla söz verirəm!

Sizov ucadan kəhildədi, yerində qurdalandı. Salondakı camaat get-gedə artmaqda olan həyəcanın təsiri altında qəribə halda uğuldayırdı. Bir qadın ağlayır, kim isə boğula-boğula öskürürdü. Jandarmlar müttəhimlərə küt heyrətlə, xalqa isə acıqla tamaşa edirdilər. Hakimlər yerlərində yırğalanır, qoca nazik səslə çığırırdı:

– Qusev İvan!

– Danışmaq istəmirəm!

– Vasili Qusev!

– Danışmaq istəmirəm!

– Bukin Fyodor!

Sarışın, rəngi solmuş bir oğlan ağır-ağır ayağa qalxıb, başını buladı və aramla:

– Barı utanaydınız? – dedi. – Mən ağır bir Adamam, yenə də ədalətin nə olduğunu başa düşürəm. – O, əlini başından yuxarı qalxızıb susdu və uzaqda olan bir şeyə diqqət edirmiş kimi, gözlərini qıydı.

Qoca hakim kreslosunda çevrilib, acıqlı halda heyrətlə qışqırdı:

– Necə? Necə?

– Eh, rədd olun!..

Bukin qaşlarını çatıb, əyləşdi. Onun aydın olmayan sözlərində böyük bir məna vardı, bu sözlar acı tənə ilə, sadəlövhlüklə deyilmişdi. Hamı bunu hiss elədi, hətta hakimlər də bu sözlərdən daha aydın bir əks-səda gözləyirmiş kimi, qulaq asırdılar. Salondakı camaat da yerindəcə donub qalmışdı, yalnız yavaş ağlamaq səsi



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

havada titrəyirdi. Sonra prokuror, çiyinlərini sıxıb, istehza ilə gülümsündü, zadəganların nümayəndəsi ucadan öskürdü və yenə pıçıltılar qopub, hiddətlə salonda qıvrılmağa başladı.

Ana Sizova tərəf əyilərək soruşdu:

– Hakimlər danışacaqmı?

Hər şey qurtardı... bircə hökmü elan edəcəklər...

– Vəssalam?

– Vəssalam...

Ana ona inanmadı.

Samoylova çiyini və dirsəyi ilə anaya toxunaraq, yerində narahatlıqla tərpənir və yavaş səslə ərinə:

– Bu nədir? Belə də iş olarmı? – deyirdi.

– Görürsən ki, olanda olur!

– İndi Qrişaya neyləyəcəklər?

– Əl çək...

Hamıda yerindən oynadılmış, pozulmuş, qırılmış nə isə hiss edilirdi, adamlar qamaşan gözlərini heyrətlə qırpırdılar, elə bil onların qarşısında cizgiləri aydın olmayan, mənası anlaşılmayan, lakin cəzbedici parlaq od yanmağa başlamışdı. Birdən-birə üzə çıxan böyük qüvvəni anlamayaraq, adamlar özləri üçün yeni hissi tələsə-tələsə xırda, gözə görünən və aydın parçalara bölürdülər. Böyük qardaş Bukin çəkinmədən ucadan pıçıldayırdı:

– Bağışlayın, niyə danışmağa qoymurlar? Prokuror istədiyi kimi, istədiyi qədər danışa bilərmiş...

Skamyaların yanında duran çinovnik, əllərini camaata tərəf tovlayaraq yavaşdan:

– Sakit! Sakit... – deyirdi.

Samoylov üzünü çevirib, arvadının kürəyi ardından sözlərini qırıq-qırıq yağdıraraq uğuldayırdı:

– Söz yox, tutaq ki, onlar günahkardırlar. Ancaq bir qoy sözlərini desinlər! Onlar kimin üzünə durublar? Mən anlamaq istəyirəm! Bunun mənə də dəxli var...

Çinovnik barmağını ona silkələdi:

– Yavaş!

Sizov acıqlı-acıqlı başını buladı.

Ana gözünü qırpmadan hakimlərə baxır və onların, getdikcə qızışaraq, bir-birilə yaxşı ayırd edilməyən səslə danışdıqlarını



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

görürdü. Onların soyuq və sürüşkən səsi ananın üzünə dəyir, yanaqlarını titrədir, ağzında acı bir dad yaradırdı. Nədənsə anaya elə gəlirdi ki, hakimlər onun oğlunun və yoldaşlarının bədənindən, qızğın qanlı, sağlam qüvvəli gənclərin əzələ və əzalarından danışırdılar. Bu bədən onlarda dilənçilərə məxsus çirkin həsəd, əlil və azarlılara məxsus iyrənc tamahkarlıq oyadır. Onlar dodaqlarını marçıldadır, çalışmağa və özgələri varlandırmağa, həzz almağa və yaratmağa qadir olan bu bədənlərə heyifsilənirlər. İndi bu bədənlər həyatın işgüzar dövriyyəsindən uzaqlaşır, onu rədd edirlər, beləliklə onlara sahib olmaq, onların qüvvəsindən istifadə etmək, onları udmaq imkanını da özlərilə aparırlar. Buna görə də gənclər qoca hakimlərdə, təzə şikar görüb tutmağa gücü çatmayan, başqalarının hesabına özünü doyurmaq qabiliyyətini itirən və şikarının əldən çıxıb qaçdığını görərək qıvrılıb donquldayan, acı-acı ulayan canavarın hiss etdiyi intiqam və qüssə dolu əsəbilik doğururlar.

Diqqətlə hakimlərə baxdıqca ananın bu kobud və qəribə fikri daha aydın şəkil alırdı. Anaya elə gəlirdi ki, onlar vaxtilə çox yeyə bilən aclara məxsus qızmış tamah və gücsüz acıqlarını gizləmirlər. Bir qadın və ana olaraq, oğlunun bədənini ruh adlanan şeydən həmişə və hər halda daha çox əziz tutan Vlasova bu sönük gözlərin Pavelin üzünə dirəndiyini, onun döşündə, çiyinlərində, əllərində gəzdiyini gördükcə dəhşətə gəlirdi, bu gözlər indi məhkum etməli və özlərindən uzaqlaşdırmalı olduqları gənclik həyatına tamah eləmək və həsəd aparmağın tikanlarından bir qədər canlanmış yarıölü insanların alışıb-yanmaq, qızınmaq, sustalmış əzələlərindəki, bərkimiş damarlarındakı qanı qızdırmaq üçün imkan axtarırmış kimi bu gənc bədənin isti dərisinə sürtünürdü. Anaya elə gəlirdi ki, oğlu bu nəmli, əti çimçəşdirən baxışların ona sürtündüyünü hiss edir və diksinə-diksinə anaya baxırdı.

Pavel sakit və mehriban, bir qədər yorğun gözlərlə anasının üzünə baxırdı. O, arabir başı ilə ona işarə edib gülümsünürdü.

Bu təbəssüm anaya sanki:

"Azadlığa az qalmışdır!" – deyir və onun qəlbini yumşaq-yumşaq sığallayırdı.

Birdən hakimlərin hamısı ayağa qalxdı. Ana da biixtiyar yerindən dikəldi.

Sizov:



Created with nitro PDF professional
download the free trial online at nitropdf.com/professional

– Getdilər! – dedi.

Ana:

– Hökm çıxarmağamı? – deyə soruşdu.

– Bəli...

Ananın gərgin əsəbləri birdən-birə boşaldı, bədənini taqətdən salan bir yorğunluq bürüdü, qaşı titrədi, alnını tər basdı. Aldanmış ümid və inciklik nəticəsində ağır bir hiss baş qaldıraraq ananın qəlbini tutdu, sonra sürətlə hakimlərə və məhkəməyə qarşı ruhu əzən bir nifrətə çevrildi. Ana qaşlarında ağrı hiss edərək, bərk-bərk əlini alnına sürtdü, ətrafına baxdı – müttəhimlərin qohumları məhəccərə yaxınlaşırdı, salon danışıq uğultusu ilə dolmuşdu. Ana da Pavelə yaxınlaşdı və bərk-bərk onun əlini sıxıb, həm incimək, həm də sevinmək kimi zidd hisslər içərisində dolaşıb qalaraq ağladı. Pavel ona nəvazişli sözlər deyir, xoxol zarafat edir, gülürdü.

Qadınların hamısı ağlayırdı; onları ağladan – dərddən artıq, adət idi. Qəfil və küt zərbə ilə bihuş edən, adamın başına gözlənilmədən və görünmədən gələn bəla yox idi; övladlarından ayrılmağa məcbur olduqlarından doğan qüssəli bir hiss vardı, lakin bu hiss də həmin günün təəssüratında əriyib gedirdi. Ata-analar öz övladlarına qarışıq bir hisslə baxırdılar, bu hissdə gəncliyə inamsızlıq, uşaqlarına nisbətən özlərinin daha üstün olduqlarını düşünmək adəti əcaib surətdə gənclərə ehtirama yaxın başqa bir hisslə qarışırdı; indi necə yaşamaq barəsindəki kədərli, usandırıcı fikir başqa, daha yaxşı bir həyat qurmaq imkanı haqqında qorxmadan belə cəsarətlə bəhs edən gəncliyin oyatmış olduğu marağa toxunub öz kəskinliyini itirirdi. İfadə edilə bilməyən hisslər boğulurdu; sözlər çox və artıq deyilirdisə də, bunlar adi şeylərə, alt və üst paltarına, özündən muğayat olmağa aid idi.

Bukinin qardaşı da, əlini yelləyə-yelləyə, kiçik qardaşını inandırmağa çalışırdı:

– Məhz ədalət! Vəssalam!

Kiçik Bukin:

– Sən sığırçından muğayat ol... – deyə cavab verirdi.

– Xatircəm ol!..

Sizov də bacısı oğlunun əlindən tutub aramla:

– Demək, Fyodor, gedirsən, hə... – deyirdi.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Fedya əyilib hiyləgərliklə gülümsəyə-gülümsəyə onun qulağına nə isə pıçıldadı. Keşik çəkən soldat da gülümsündü, lakin dərhal üzünü ciddiləşdirib, boğazını arıtladı.

Ana da, başqaları kimi, Pavelə eyni şeylərdən – paltardan, can-sağlığından danışırdı, lakin qəlbində Saşaya, özünə, ona aid bir yığın sual çırpınırdı. Bunun hamısının məğzində isə oğluna hədsiz məhəbbət, onun xoşuna gəlmək, onun qəlbinə daha yaxın olmaq arzusu qalxır və yavaş-yavaş böyüyür, artırdı. Dəhşətli bir hadisənin intizarı hissi ölmüşdü, bu hissdən yalnız hakimləri yada salanda kədərli-kədərli diksinmək qalmışdı. O, ürəyində böyük, nurlu bir sevincin yarandığını hiss edir və bu sevinci anlamadığı üçün utanırdı. Xoxolun hamı ilə danışdığını görən və onun Paveldən daha artıq nəvazişə ehtiyacı olduğunu hiss edən ana onunla söhbətə girişdi:

– Bu divan heç məni açmadı!

Xoxol razılıqla gülümsünərək:

– Nə üçün, nənəcan! – dedi. – Köhnə dəyirmandır, amma işləyir!..

Ana tərəddüdlə:

– Adam qorxmur, başa da düşə bilmir ki, haqq kimin tərəfindədir, – dedi.

Andrey:

– Oho, gör nənənin istədiyi nə imiş! – deyə səsləndi. – Məgər burada haqq üstündə çəkişirlər?..

Ana ah çəkib, gülümsünə-gülümsünə:

– Mən bunun qorxulu olduğunu zənn edirdim, – dedi.

– Məhkəmə gəlir!

Hərə öz yerinə cumdu.

Baş hakim, bir əlini masaya dayayaraq, üzünü kağızla örtüb, oxumağa başladı; onun səsi arı vızıltısı kimi zəif çıxırdı.

Sizov diqqətlə qulaq asaraq:

– İş kəsir! – dedi.

Yenə sakitlik oldu. Hamı gözünü qocaya zilləyib, qalxdı. Balaca, quru, dümdüz hakim gözəgörünməz bir əldə tutulmuş ağaca bənzəyirdi. Hakimlər də ayaq üstə idilər: nahiyə rəisi başını çiyninə qoyub, yuxarı baxırdı, bələdiyyə rəisi əllərini sinəsində çarpazlamışdı, zadəganların seçilmiş nümayəndəsi isə saqqalını tumarlayırdı. Xəstə üzlü hakim, onun yoğun yoldaşı və prokuror



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

müttəhimlərə tərəf baxırdılar. Hakimlərin dalından isə, onların başı üstündəki şəkildən qırmızı mundirli, ağ üzlü çar saymazyana baxırdı, onun üzündə də bir cücü yeriyirdi.

Sizov bir qədər rahat nəfəs alaraq:

– Sürgün edilirlər! – dedi. – İlahi, çox şükür, xətərdən qurtardıq! Deyirdilər ki, katorqa kəsiləcək! Pis olmadı, ana! Bunun eyibi yoxdur!

Ana yorğun səslə:

– Axı mən bilirdim! – deyə cavab verdi.

– Yenə də! İndi daha yəqindir! Yoxsa kim bilir?

O, məhkumlara tərəf döndü; onları salondan aparırdılar. Sizov ucadan:

– Salamat qal, Fyodor! Hamınız salamat qalın! Allah sizə kömək olsun! – dedi.

Ana dinməz-söyləməz oğluna və hamıya başı ilə işarə edir, onları salamlayırdı. O ağlamaq istəyirdisə də, utanırdı.

## XXVII

Ana məhkəmədən çıxdı və gecə olduğuna, küçədə fənər, göydə ulduz yandığına təəccüb elədi. Məhkəmə binasının yanında dəstə-dəstə adamlar durmuşdu, şaxtalı havada qar xırtıldayır, gənclərin bir-birinə qarışan səsləri eşidilirdi. Boz başlıqlı bir adam Sizovun üzünə baxıb, tələsik soruşdu:

– Nə kəsdilər?

– Sürgün.

– Hamıyamı?

– Hamıya.

– Sağ olun!

Adam kənara çəkildi. Sizov:

– Gördünmü? Soruşurlar... – dedi.

Birdən on nəfərə qədər cavan oğlan və qız onların ətrafını aldı və adamların diqqətini cəlb edən nidalar bir-biri ardınca yağdırıldı. Ana ilə Sizov dayandılar. Məhkəmənin hökmündən, müttəhimlərin özlərini nə cür apardığından, kimin və nə barədə nitq söylədiyindən soruşurdular, – bütün suallarda da eyni şiddətli maraq sezilirdi,



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

səmimi və qızğın olan bu maraq onu cavabsız qoymamağa vadar edirdi.

Kim isə yavaşdan:

– Həzərat! Bu, Pavel Vlasovun anasıdır! – deyə qışqırdı və birdən olmasa da, tezliklə hamı susdu.

– Əlinizi sıxmağa izin verin!

Birinin möhkəm əli ananın barmaqlarını sıxdı, bir başqası isə həyəcanla dedi:

– Sizin oğlunuz bizim hamımız üçün mərdlik nümunəsi olacaqdır...

Uca bir səs:

– Yaşasın rus fəhləsi! – deyə qışqırdı.

Sədalar böyüyür, artır, gah oradan, gah buradan yüksəlirdi, hər tərəfdən adamlar axışıb Sizovla ananın ətrafına toplaşırdı. Polislərin fitləri havada titrəməyə başladı, lakin onların zəngulələri adamların qışqırıqlarını boğa bilmədi. Qoca Sizov gülürdü, anaya isə bu, şirin bir yuxu kimi gəlirdi. O gülümsünür, ona uzadılan əlləri sıxır, baş əyirdi və xoş, şirin göz yaşları onu boğurdu; ayaqları yorğunluqdan əsirdisə də, nəşə ilə dolan qəlbi bütün təəssüratı udur, sonra da gölün aydın üzü kimi əks etdirirdi. Onun yaxınlığında isə birinin aydın səsi əsəbiliklə:

– Yoldaşlar! – deyirdi. – Rus xalqını çeynəyan əjdaha bu gün doymaq bilməyən öz tamahkar ağzını ayırıb yenə...

Sizov:

– Gəlsənə gedək, ana! – dedi.

Elə bu zaman haradansa Saşa çıxdı, ananın qolundan yapışıb:

– Gəlin! Bir də gördün döydülər. Bəlkə də həbs elədilər. Sürgünmü? Sibirmi? – deyə-deyə onu küçənin o biri tərəfinə keçirdi.

– Bəli, bəli!

– Necə danışdı? Yəni, mən bilirəm! O, hamıdan qüvvətli və sadə idi, əlbəttə, hamıdan da sərt idi. O, çox həssas və mehribandır, ancaq hiss elətdirməyə utanır.

Onun qızğın pıçıltısı, məhəbbət dolu sözləri ananın həyəcanını yatırır; tükənməkdə olan qüvvəsini artırırdı.

Ana Saşanın qolunu özünə sıxaraq yavaş və mehriban səslə:

– Yanına nə vaxt gedəcəksiniz? – deyə soruşdu.

Qız inamla qabağa baxaraq:



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

– Mənim işimi öz öhdəsinə götürəcək bir adam tapan kimi! – deyə cavab verdi. – Axı mən də hökm gözləyirəm. Yəqin məni də Sibirə sürgün edəcəklər, onda deyəcəyəm ki, mən də o olan yerdə yaşamaq istəyirəm.

Arxadan Sizovun səsi eşidildi:

– Onda məndən ona salam yetirərsiniz! Deyərsiniz Sizovdur. O tanıyır. Fyodor Mazinin dayısı.

*Saşa dayandı və geri dönərək, əlini ona uzatdı:*

– Mən Fedya ilə tanışam. Adım Aleksandradır.

– Bəs atanızın adı?

Qız ona baxdı və:

– Atam yoxdur! – deyə cavab verdi.

– Demək, ölübdür...

Qız həyəcanla:

– Yox, sağdır! – dedi; onun səsində inad, tərslik duyuldu, üzündə də belə bir ifadə göründü. – O, mülkədardır, indi də zemstvo rəisidir, kəndliləri talan edir...

Sizov kədərli-kədərli:

– Belə!.. – dedi və bir az sükutdan sonra qızın yanınca gedə-gedə və yandan ona baxa-baxa:

– Di, salamat qal, ana! – dedi. – Mən sola dönməliyəm. Salamat qalın, xanım qız, atanızdan yaman acıqlı danışırsınız! Söz yox, öz işinizdir...

Saşa qızğınlıqla:

– Sizin oğlunuz pis, insanlar üçün zərərli, sizdə nifrət oyadan bir adam olsa, bunu deyərsinizmi? – deyə qışqırdı.

Qoca bir qədər düşündükdən sonra:

– Tutaq ki, deyərəm! – deyə cavab verdi.

– Demək, sizin üçün ədalət oğlunuzdan artıqdır, mənim üçün də atamdan artıqdır...

Sizov başını bulayaraq gülümsündü və sonra ah çəkib:

– Belə, belə! Yaman tutdunuz! – dedi. – Əgər gücünüz çatsa, qocalara üstün gələcəksiniz, hünərlisiniz!.. Salamat qalın, işiniz uğurlu olsun! Adamlara da bir az mehriban olmaq yaxşıdır. Hə? Salamat qal, Nilovna! Paveli görəndə de ki, nitqini eşitdim. Hamısını anlaya bilmədim, bəzi sözlərindən də canıma qorxu düşdü, ancaq de ki, sözü haqdır!



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

O, şapkasını qalxızıb, təmkinlə yan küçəyə döndü. Saşa iri, gülümsər gözlərilə onu müşayiət etdi:

– Yəqin yaxşı adamdır.

Bu gün qızın üzü anaya həmişəkindən mülayim və mehriban görünürdü.

Evdə onlar bir-birinə qısılıb, divanın üstündə oturdular və istirahət edən ana yenə Saşanın Pavelin yanına gedəcəyindən söhbət açdı. Qız fikirli halda qalın qaşlarını dartıb, xəyalpərvər iri gözlərini uzaqlara dikmişdi, rəngi qaçmış üzündə seyrçi ifadə vardı:

– Sonra, uşağınız olanda, mən də sizin yanınıza gələrəm, uşaqlardan muğayat olaram. Orada buradakından pis yaşamarıq. Paşa da özünə iş tapar, onun əli qızıldır...

Saşa ananı sınayıcı nəzərlə süzərək:

– Bəs siz indi onun dalınca getmək istəmirsinizmi? – deyə soruşdu.

Ana ah çəkib:

– Mən onun nəyinə lazımam? – dedi. – Qaçmaq da istəsə, ona əngəl olaram. Bir də, özü razı olmaz...

Saşa başı ilə təsdiq elədi:

– Razı olmaz.

Ana:

– Bir də, əlimdə iş var! – deyə bir qədər qürurla əlavə elədi.

Saşa fikirli halda cavab verdi:

– Bəli! Yaxşı olub...

Birdən diksinərək, üstündən bir şeyi silkələyib salan kimi, yavaş səslə sadəcə:

– Orada yaşamaz! – dedi. – Əlbəttə, qaçacaq...

– Bəs siz necə?.. İşdir, uşaq-zad olsa?..

– Görək, hələ nə olur. O, məni nəzərə almamalıdır, mən də ona əngəl olmaram. Onun ayrılığı mənim üçün çətin olacaq, ancaq mən birtəhər ötüşərəm. Mən onun əl-ayağına dolaşmaram, yox.

Ana, Saşanın öz dediyinə əməl etmək iqtidarında olduğunu hiss elədi; onun qıza yazığı gəldi. Onu qucaqlayaraq:

– Mənim əziz balam, sizin üçün çətin olacaq! – dedi.

Saşa ona qısılaraq, mehriban-mehriban gülümsündü.

Yorğun-arğın Nikolay gəldi və paltosunu çıxara-çıxara tələsik:



Created with
nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

– Saşenka, canınız, başınız salamat ikən buradan yox olun! – dedi. – Səhərdən iki casus dalımca düşüb gəzir; elə də açıq gəzirlər ki, deyəsən, məni tutacaqlar. Ürəyimə damıb. Yəqin haradasa bir şey olubdur. Yeri gəlmişkən deyim ki, bu, Pavelin nitqidir, onu çap eləmək qərara alınıb. Lüdmilaya verin, yalvarın ki, daha cəld işləsin. Nilovna, Pavel çox yaxşı danışdı!.. Saşa, özünüzü casuslardan gözləyin...

Danışa-danışa o, soyuqdan donmuş əllərini bir-birinə bərk-bərk sürtdü, sonra da masaya tərəf yeriyib tələsik onun siyirtmələrini açmağa başladı; kağızları seçir, bir parasını cırır, o birilərini də bir tərəfə qoyurdu. Üzü qayğılı, saçı pırtlaşıq idi:

– Buranı, gərək ki, təmizləmişdim, yenə bir yığın kağız-kuğuz yığılıb, qəribədir! Bilirsinizmi, Nilovna, mən deyirəm sizin də evdə qalmağınız yaxşı deyil, hə? Bu vur-çatlasına şahid olmaq da bir iş deyil, onlar sizi də tuta bilərlər, bir də, siz Pavelin nitqi ilə ora-bura getməli olacaqsınız...

Ana:

– Mən onların nəyinə lazımam?

Nikolay əlini gözünün qabağında oynada-oynada inamla dedi:

– Bu barədə məndə xüsusi duyğu var. Bir də, siz Lüdmilaya kömək edə bilərdiniz, hə? Gəlin, bu şərdən özünüzü uzaqlaşdırın...

Oğlunun nitqini çap eləmək işində iştirak etmək imkanı ananın xoşuna gəldi və o:

– İndi ki, belədir, mən gedərəm! – deyə cavab verdi.

Sonra özü də gözləmədiyi inamla, lakin yavaşdan:

– İndi mənim heç bir şeydən qorxum yoxdur! – dedi. – Pərvərdigara, çox şükür!

Nikolay ona baxmadan:

– Lap gözəl oldu! – dedi. – Bir də, deyin görüm, mənim çamadanım və dəyişək şeylərim hardadır. Yoxsa siz hər şeyi öz qəsbkar əlinizə almısınız, mən də öz xüsusi malıma istədiyim kimi yiyə dura bilmirəm.

Saşa dinməz-söyləməz kağız cırıqlarını sobada yandırır və külünü sobanın içindəki kül ilə möhkəm qarışdırırdı.

Nikolay əlini ona uzadaraq:

– Saşa, siz gedin! – dedi. – Xoş gəldiniz! Maraqlı kitab əlinizə düşəndə, məni yadınızdan çıxarmayın. Salamat qalın, əziz yoldaş! Ehtiyatlı olun...



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Saşa:

– Necə güman edirsiniz, sizi çoxmu saxlayacaqlar, – deyə soruşdu.

– Kim bilir? Yəqin ki, məndə az-çox günah tapılar. Nilovna, bərabər gedin, hə? İki adamı pusmaq çətindir, yaxşımı?

Ana:

– Gedirəm! – deyə cavab verdi. – Bu saat geyinim...

Ana diqqətlə Nikolaya baxır və indi onun üzündə həmişəki mehribanlıq və yumşaqlığın qabağını tutan qayğıdan başqa bir şey görə bilmirdi. Onun qəlbinə hamıdan əziz olan bu adamda nə artıq bir hərəkət, nə də həyəcan nişanəsi görürdü. Hamıya eyni dərəcədə diqqətli, hamı ilə mehriban və mülayim, daim sakit və kimsəsiz olan bu adam indi də, həmişəki kimi, öz içərisindəki gizli həyatla və adamlardan bir qədər irəlidə yaşayırdı. Lakin Nikolay anaya hamıdan artıq yaxınlaşmışdı, ana bunu bilir və Nikolayı ehtiyatlı, sanki öz qüvvəsinə özü də inanmayan bir məhəbbətlə sevirdi. İndi ananın ürəyi ona bərk yanırdı, lakin o öz hissini gizlədirdi; o bilirdi ki, Nikolay onun hissini duysa, özünü itirəcək, utanacaq və həmişəki kimi bir qədər gülünc olacaqdır, ana isə onu bu halda görmək istəmirdi.

Ana yenə otağa girdi; Nikolay Saşanın əlini sıxaraq:

– Çox gözəl! – deyirdi. – İnanıram ki, bu, onun üçün də, sizin üçün də çox yaxşıdır. Azacıq şəxsi səadət heç də zərər verməz. Siz hazırsınızmı, Nilovna?

O gülümsünərək, gözlüyünü düzəldə-düzəldə anaya tərəf yeridi:

– Di salamat qalın; güman eləyirəm ki, üç aya, bəlkə dörd aya, ən nəhayət, yarım ilə ayrılırıq! Yarım il böyük bir ömürdür... Xahiş edirəm, özünüzü gözləyin, hə? Gəlin qucaqlaşaq...

Arıq və zərif bədənli Nikolay möhkəm qollarını ananın boynuna sarıdı, onun gözlərinə baxdı və:

– Deyəsən, mən sizə aşiq olmuşam, elə hey qucaqlaşıram! – deyə güldü.

Ana dinmədən, əlləri əsə-əsə, onun alnından və yanaqlarından öpdü; əlləri əsirdi. Bunu Nikolaya bildirməmək üçün əllərini araladı:

– Sabah ehtiyatlı olun ha! Yaxşı olar ki, səhər oğlanı göndərəsiniz, – Lüdmilagildə bir belə uşaq var, – qoy o xəbər tutsun. Di, sağ olun, yoldaşlar! Hər şey öz qaydasındadır!



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Küçədə Saşa yavaşdan anaya:

– Bax, lazım olsa, o, beləcə sadəliklə də ölümə gedər, yəqin, indiki kimi bir azca da tələsər. Ölüm onun gözlərinə baxanda o, gözlüyünü düzəldib, çox gözəl! – deyə ölər.

Ana pıçıltı ilə:

– Onu çox sevirəm! – dedi.

– Mən ona təəccüb edirəm, sevməyə qalanda isə, sevmirəm! Hörmətini saxlayıram, çox. O, bir qədər qurudur, hərçənd ki, səmimidir, bəlkə də bəzən mehribandır, ancaq bunun hamısı lazımi dərəcədə insani deyildir... Deyəsən, bizi güdürlər? Gəlin aralanaq. Gözünüzə casus sataşsa, Lüdmilagilə getməyin...

Ana:

– Bilirəm! – dedi.

Lakin Saşa təkidlə:

– Getməyin ha! – dedi. – Onda mənim yanıma gəlin. Hələlik, salamat qalın!

O, sürətlə dönüb, geri qayıtdı.

## XXVIII

Bir neçə dəqiqədən sonra ana, Lüdmilanın balaca otağında oturub, sobanın yanında qızışırdı. Qara paltarının üstündən kəmər bağlamış ev yiyəsi yavaş-yavaş otaqda gəzinir, onu xışıltı və amiranə səsilə doldururdu.

Sobada yanan od otağın havasını özünə çəkərək çırtıldayır, vıyıldayırdı; qadının rəvan nitqi eşidilirdi:

– İnsanlar acıqlı olduqlarından daha artıq axmaqdırlar. Onlar ancaq öz yaxınlarında olanı, indicə ələ keçirə biləcəklərini görə bilirlər. Yaxında olan hər şey isə ucuzdur; baha olan – uzaqdadır. Axı, əslinə qalanda, həyat dəyişilsə, asanlaşsa, adamlar daha çox ağıllı olsa, hamı üçün xeyirli və yaxşı olardı. Ancaq bundan ötrü gərək indidən bir qədər narahat olasan...

Qadın birdən ananın qabağında dayanaraq, yavaş səslə və üzr istəyirmiş kimi:

– Adamları az-az görürəm, birisi də gələndə danışmağa başlayıram. Gülməli deyilmi? – dedi.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Ana cavab olaraq:

– Nə üçün? – dedi.

Ana bu qadının vərəqə və qəzetləri harada çap elədiyini bilməyə çalışırdı, lakin heç bir qeyri-adi şey gözünə dəymirdi. Üç pəncərəsi küçəyə çıxan otaqda bir divan, kitab şkafı, masa, kürsülər, divarın yanında yataq, onun yanındakı bucaqda əlüzyuyan durur, o biri bucaqda soba yanırdı; divarlarda şəkillər asılmışdı. Hər şey təzə, möhkəm və təmiz idi, ev yiyəsinin rahibə görkəmi də hər şeyə soyuq kölgə salırdı. Ört-basdır edilmiş, gizlədilmiş bir şey hiss olunurdu, lakin onun yeri bilinmirdi. Ana qapılara göz gəzdirirdi, ana onların birindən, balaca dəhlizdən içəri girmişdi, ikinci, dar və hündür qapı sobanın yanında idi.

Ev yiyəsinin ona diqqətlə baxdığını görən ana utana-utana:

– Mən sizin yanınıza iş üçün gəlmişəm! – dedi.

– Bilirəm! Mənim yanıma işsiz gələn olmur...

Lüdmilanın səsində ana qəribə bir ahəng duydu, onun üzünə baxdı: qadının nazik dodaqlarının ucunda təbəssüm sezilir, tutqun gözləri gözlüyünün şüşələri arxasından parıldayırdı. Ana gözlərini onun üzündən çəkib, Pavelin nitqini ona uzatdı:

– Budur, xahiş eləyirlər ki, tez çap olunsun...

Sonra da Nikolayın həbsə hazırlandığından nağıl eləməyə başladı...

Lüdmila dinməz-söyləməz kağızı kəməri altına qoyub, kürsüyə oturdu, odun qırmızı parıltısı onun gözlüyünün şüşələrində əks etdi, hərəkətsiz üzündə isə odun qızğın təbəssümləri oynamağa başladı. Ananın danışdıqlarını dinlədikdən sonra o, yavaşdan və qəti səslə:

– Bura gəlsələr, atəş açacağam! – dedi. – Mən özümü zorakılıqdan müdafiə etməyə haqlıyam, özgələri zorakılıqla mübarizəyə çağırıram, özüm də mübarizə eləməyə borcluyam.

Odun parıltısı onun üzündən çəkildi, üzündə yenidən ciddi bir ifadə və lovğalıq əlaməti göründü.

Birdən ana nəvazişlə düşündü:

"Diriliyin bir dirilik deyil!"

Lüdmila Pavelin nitqini əvvəlcə könülsüz oxumağa başladı, sonra oxunmuş vərəqləri tez-tez kənara qoya-qoya, üzünü kağıza



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

get-gedə daha da yaxınlaşdırdı, oxuyub qurtarandan sonra isə ayağa qalxıb qəddini düzəltdi və anaya yanaşaraq:

– Çox yaxşıdır! – dedi.

Sonra da başını aşağı salaraq, bir qədər düşündü:

– Mən sizinlə oğlunuz haqqında danışmaq istəmirdim, onunla tanış deyiləm, bir də, qüssəli söhbətləri xoşlamıram. Yaxın adamın sürgünə getməyinin nə olduğunu bilirəm. Ancaq sizdən bircə şey soruşmaq istəyirəm: belə bir oğlun anası olmaq yaxşıdırmı?..

– Bəli, yaxşıdır.

– Həm də dəhşətlidir, eləmi?

*Ana sakitcə gülümsünərək:*

– İndi daha dəhşətli deyil... – deyə cavab verdi.

Lüdmila qarabuğdayı əlilə hamar daranmış saçlarını düzəldərək, üzünü pəncərəyə tərəf döndərdi. Zərif bir kölgə, bəlkə də gizlədilən təbəssümün kölgəsi onun yanaqlarında titrəyirdi:

– Mən bunu tez yığaram. Siz yatın, gününüz ağır keçib, yorğunsunuz. Burada uzanın, çarpayıda, mən yatmayacağam, bəlkə də gecə sizi kömək üçün oyatdım... Yatanda lampanı söndürün.

Lüdmila sobaya iki odun parçası atdı, şax yerişlə sobanın yanındakı dar qapıdan çıxıb, qapını bərk-bərk örtdü. Ana ev yiyəsinin dalınca baxdı və onun barəsində düşünə-düşünə soyunmağa başladı:

"Nə isə bir dərdi var..."

Yorğunluqdan ananın başı hərlənirdi, qəlbində isə qəribə bir rahatlıq vardı, yumşaq və ürəyi oxşayan bir nur gözünə dəyən hər şeyi işıqlandırır, yavaş-yavaş və bir qaydada sinəsinə dolurdu. Ana bu rahatlıqla tanış idi, böyük həyəcanlardan sonra daim belə olurdu; qabaqlarda o bundan bir qədər xoflanırdısa da, indi ürəyi dağa dönür, böyük və güclü bir hissdən möhkəmlənirdi. Ana lampanı söndürdü və soyuq yatağa girib, yorğanın altında büzüşdü, həmən saat dərin yuxuya getdi...

Ana gözlərini açanda, otaq aydın qış gününün soyuq ağ işığı ilə dolmuşdu; ev yiyəsi, əlində kitab, divanın üstündə uzanıb, onun üçün qeyri-adi bir təbəssümlə gülümsünə-gülümsünə, ananın üzünə baxırdı.

Ana utana-utana:

– Ay aman, – dedi. – Nə yaman yatmışam, saat neçə olar?

Lüdmila cavab olaraq:



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

– Sabahınız xeyir! – dedi. – Saat ona az qalıb, durun, çay içək.

– Bəs niyə məni oyatmadınız?

– Oyatmaq istəyirdim, yanınıza gəldim, amma siz yuxuda elə yaxşı gülümsünürdünüz ki...

Lüdmila cəld hərəkətlə divandan qalxıb, yatağa yaxınlaşdı; ananın başı üstünə əyiləndə, ana onun tutqun gözlərində məhrəm, yaxın və aydın bir hiss gördü:

– Sizi oyatmağa ürəyim gəlmədi, dedim, bəlkə yaxşı yuxu görürsünüz...

– Heç bir şey görmürdüm!

– Fərqi yoxdur! Ancaq sizin təbəssümünüz mənim çox xoşuma gəldi. Elə sakit, mehriban... xoş təbəssüm idi!

Lüdmila güldü, onun gülüşü mülayim, ürəyəyatan idi:

– Odur ki, sizi düşünməyə başladım. Sizin üçün belə yaşamaq, yəqin ki, çətindir?

Ana qaşlarını tərpədərək düşünür, dinmirdi.

Lüdmila ucadan:

– Əlbəttə, çətindir!

Ana ehtiyatla:

– Nə bilim! – dedi. – Bəzən çətin görünür. Hər cür iş də o qədərdir ki... Hamısı da ciddi, qəribə, bir-birinin dalınca da tez-tez gəlib ötür...

Anaya tanış olan coşqun həyəcan onun qəlbində qüvvətlənərək zehnini surətlər və fikirlərlə doldururdu. Ana yatağında oturub, tələsə-tələsə fikirlərini sözlərlə ifadə edirdi:

– Yeriyir, yeriyir, hamısı bir nöqtəyə doğru yeriyir... Bilirsinizmi, çətinlik çoxdur! İnsanlar əzab çəkirlər; onları əzirlər, amansızlıqla əzirlər, nəşələrin çoxu onlara qadağandır, bu, çətindir!

Lüdmila tez başını qalxızıb, oxşayıcı nəzərlə ona baxdı və:

– Siz öz barənizdə danışmırsınız, – dedi.

Ana onun üzünə baxdı və yataqdan durub geyinə-geyinə:

– Özünü kənara necə çəkəsən ki, onu da sevirsən, bu da sənə əzizdir. Hamının dərdini çəkirsən, hər kəsə də yazığın gəlir, qəlbində çox şey hərlənir... Kənara necə çəkiləsən? – deyirdi.

Ana yarıgeyinmiş halda otağın ortasında dayanıb, bir dəqiqə fikrə getdi. Ona elə gəldi ki, indi o artıq, oğlunun üzərində titrəyərək onun qorxusunu çəkən, oğlunun canını qorumaq qayğısı ilə



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

yaşayan ana deyildir, bu xasiyyətdə olan ana ondan qopmuş, ayrılmış, hara isə uzaqlara getmişdir, bəlkə də iztirab odunda yanıb tamamilə yox olmuşdur; bu da onu yüngülləşdirərək ruhunu saflaşdırmış, qəlbini yeni qüvvə ilə təzələmişdir. Öz qəlbinə nəzər salmaq istəyən və eyni zamanda orada köhnədən qalma vahiməli bir şeyi yenidən oyatmaqdan qorxan ana qəlbindəki səslərə qulaq verirdi.

Ev yiyəsi ona yaxınlaşaraq nəvazişlə:

– Nə fikrə getdiniz? – deyə soruşdu.

Ana:

– Bilmirəm! – deyə cavab verdi.

Onlar dinməz-söyləməz bir-birinin üzünə baxdılar, hər ikisi də gülümsündü, sonra Lüdmila:

– Görəsən, samovarım necə oldu? – deyib otaqdan çıxdı.

Ana pəncərədən çölə baxdı: soyuqdu, aydın gün parıldayırdı. Ananın qəlbi da aydın, lakin qızğın idi. Varlığına daxil olub, orada axşamçağı hələ batmamış günəşin nuru kimi yanan hisslərə görə kimə isə təşəkkür etmək fikri dumanlı bir şəkildə ananın könlündən keçir, hər şeydən doyunca və nəşə ilə danışmaq istəyirdi. Könlündən çoxdan bəri keçməyən ibadət arzusu onu həyəcana gətirirdi. Kiminsə gənc üzü xatirinə gəldi, bir başqasının cingildəyən səsi hafizəsində “bu, Pavel Vlasovun anasıdır!..” – deyə qışqırdı. Saşanın gözləri nəşə və nəvazişlə parladı, Rıbinin qara heykəli ucaldı, oğlunun tunc rəngli, möhkəm üzü gülümsündü. Nikolay utana-utana gözlərini qırpmağa başladı və bunların hamısı birdən-birə dərin və xəfif bir ahdan titrəyib qarışaraq, onun bütün fikirlərini rahatlıq hissilə bürüyən şəffaf, əlvan bulud şəklində qovuşub birləşdi.

Lüdmila içəri girərək:

– Nikolay haqlı imiş! – dedi. – Onu tutublar. Siz dediyiniz kimi, mən uşağı ora göndərmişdim. Deyir ki, həyətdə polis var, qapının dalında gizlənən polisi də görüb. Casuslar da gəzirmiş, uşaq onları tanıyır.

Ana, başını bulayaraq:

– Bəli! – dedi. – Yazıq Nikolay!..

Ana ah çəkdi, lakin bu ahında qüssə yox idi, buna özü də bir az heyrət elədi.

Lüdmila qaşlarını çatıb sakit səslə:



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

– Son vaxtlarda o, şəhər fəhlələrinin arasında çox ədəbiyyat oxuyurdu, ümumiyyətlə də onun tutulmaq vaxtı çatmışdı! – dedi, – yoldaşları hey deyirdilər bu şəhərdən çıx! Qulaq asmadı! Mənim fikrimcə, belə hallarda dilə tutmaq deyil, məcbur eləmək lazımdır...

Qara saçlı, qırmızıyanaq, göyçək, mavi gözlü və dik burunlu bir oğlan uşağı qapıda görünüb cingiltili səslə:

– Samovarı gətirimmi? – deyə soruşdu.

– Gətir, Seryoja!.. Mənim yanımda olur.

Lüdmila bu gün anaya başqa cür, sadə və məhrəm görünürdü. Onun şax bədəninin cəld hərəkətlərində solğun üzünün ciddi ifadəsini bir qədər yumşaldan gözəllik və qüvvə çox idi. Gözlərinin altındakı dairələr bu gecə ərzində böyümüşdü. Onda gərgin bir təlaş, qəlbində tarım çəkilmiş bir tel hiss edilirdi.

Uşaq samovarı gətirdi:

– Seryoja, tanış ol! Pelageya Nilovnadır, dünən məhkum edilən fəhlənin anası.

Seryoja səssiscə anaya baş əyərək, əlini sıxdı və çıxıb bulka gətirdikdən sonra, masa arxasında oturdu. Lüdmila çay süzə-süzə anaya üzünü tutub təkid edirdi ki, polislərin orada kimi gözlədiyi məlum olana qədər evə getməsin:

– Bəlkə sizi gözləyirlər! Yəqin, sizi sorğu-suala çəkəcəklər...

Ana cavab olaraq:

– Qoy çəksinlər! – dedi. – Tutsalar da dərdim yoxdur. Bircə Paşanın nitqini yayıb qurtara bilsəydik...

– Yığıb hazırlamışam. Sabah şəhər ilə fəhlə məhəlləsi üçün hazır olar... Siz Nataşanı tanıyırsınızmı?

– Bəs necə!

– Onun üçün aparарsınız...

Oğlan bir şey eşitmirmiş kimi qəzet oxuyurdu, lakin hərdənbir onun gözləri qəzetin üstündən ananın üzünə dirənirdi; ana bu gözlərin canlı baxışı ilə üzləşəndə xoşhal olur, gülümsünürdü. Lüdmila Nikolayın tutulduğuna təəssüflənmədən onu bir daha yad elədi və onun ahəngi anaya tamamilə təbii göründü. Vaxt irəliki günlərə nisbətən daha tez keçirdi; çay içib qurtaranda günortaya az qalmışdı.

Lüdmila səsləndi:

– Yaman yubandıq!



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Eyni zamanda qapı tələsik döyüldü. Oğlan ayağa qalxıb, gözlərini qıyaraq sualedici tərzdə ev yiyəsinin üzünə baxdı:

– Aç, Seryoja! Görəsən kimdir?

O, sakit hərəkətlə əlini yubkasının cibinə saldı və anaya:

– Pelageya Nilovna, işdir, jandarmlar olsa, siz burada durarsınız, bu bucaqda. Seryoja, sən də...

Oğlan yavaşdan:

– Mən bilirəm! – deyə cavab verib, yox oldu.

Ana gülümsündü. Bu ehtiyatkarlıq onu həyəcana salmadı, onun qəlbi bir fəlakət olacağını xəbər vermirdi.

Balaca doktor içəri girdi. Tələsə-tələsə:

– Əvvələn, Nikolayı tutublar. Aha, siz buradaymışsınız, Nilovna? Onu tutanda siz orada deyildiniz ki? – deyirdi.

– O, məni bura göndərdi.

– Hm, bunun sizin üçün xeyirli olduğunu güman etmirəm, ikinci, bu gecə bir dəstə gənc nitqdən beş yüz nüsxə hektoqraflarda çap edib. Mən gördüm, pis deyil, aydın çap olunubdur. Onları axşam şəhərdə səpələmək istəyirlər. Mən razı deyiləm, şəhər üçün mətbəə çapı yaxşıdır, bunları isə başqa yerlərə göndərmək lazımdır.

Ana sevincək:

– Onda mən onları Nataşaya apararam! – deyə səsləndi. – Verin!

Pavelin nitqini tezliklə yaymaq, oğlunun sözlərini bütün yer üzünə saçmaq arzusu şiddətlə onun qəlbində çırpınmağa başladı; o yalvarmağa hazır vəziyyətdə cavab gözləyən gözlərini doktora dikdi.

Doktor tərəddüdlə:

– Bilmirəm, sizin indi bu işdən yapışmağınız yaxşı olarmı? – dedi və saatını çıxardı. – İndi on ikiyə on yeddi dəqiqə qalır, qatar saat üçə beş dəqiqə işləmiş gedir, yolu da hesaba alanda, eləyər altıya on beş dəqiqə işləmiş. Siz ora axşam, lakin qaranlıq hələ qovuşmamış yetişəcəksiniz. Ancaq iş bunda deyil...

Ev yiyəsi qaşlarını çataraq:

– İş bunda deyil! – deyə təkrar elədi.

Ana onlara tərəf yeriyərək:

– Bəs nədədir? – soruşdu. – Məsələ ancaq ondan ibarətdir ki, iş yaxşı görülsün...

Lüdmila diqqətlə onun üzünə baxdı və əlini alnına sürtərək:

– Sizin üçün qorxuludur... – dedi.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Ana qızğın və tələbedici səslə:

– Nə üçün? – deyə qışqırdı.

Doktor sürətlə və tutula-tutula:

– Bax, bunun üçün! – deyə izah elədi. – Siz evdən Nikolay tutulmazdan bir saat əvvəl yox olmusunuz. Zavoda getmisiniz, orada da hamı sizi müəllimənin xalası kimi tanıyırdı. Siz ora gələndən sonra zavoda zərərli vərəqələr yayılıb. Bunların hamısı kəmənd kimi sizin boğazınıza dolaşır.

Ana qızışaraq:

– Məni orada görməzlər! – deyə onları inandırırdı. – Qayıdandan sonra tutsalar, soruşsalar haradaydın, deyərəm ki... – Bir saniyə duruxduqdan sonra: – bilirəm nə deyərəm! – deyə sözünə davam elədi. – Oradan düz fəhlə məhəlləsinə gedərəm, orada mənim tanışım var, Sizov adlı, deyərəm ki, məhkəmədən çıxan kimi, düz bunun yanına gəlmişəm, yəni ki, dərdim məni bura gətiribdir. Onun da dərdi var, bacısı oğlunu məhkum ediblər. O da belə deyər. Gördünüzmü?

Öz arzusunun qüvvəsi qarşısında onların dayana bilməyəcəyini hiss edən və onların razılığını tez almağa çalışan ana get-gedə daha israrla danışırdı. Onlar da razı oldular.

Doktor könülsüz razılıq verdi:

– Nə etməli, gedin!

Lüdmila fikirli halda otaqda gəzinərək, dinmirdi. Onun üzü solmuş və uzanmışdı, o sanki ağırlaşaraq bixtiyar sinəsinə əyilmək istəyən başını çətinliklə dik saxlayır və bunun üçün də boynunun əzələlərini gərginləşdirməli olurdu. Ana bunu gördü və gülümsünə-gülümsünə:

– Siz də hey məni qoruyursunuz! – dedi, – heç özünüzü qorumursunuz...

Doktor:

– Doğru deyil! – dedi. – Biz özümüzü qoruyuruq, qorumalıyıq da! Öz gücünü hədər sərf edənləri də çox danlayırıq, bəli! İndi mənə qulaq asın: nitqi vağzalda alarsınız...

O bunun nə cür ediləcəyini söylədi, sonra onun üzünə baxaraq:

– Müvəffəqiyyət arzu edirəm! – dedi.

O yenə də bir şeydən narazı kimi getdi. Onun dalınca qapı örtüləndən sonra Lüdmila səssiz gülərək, anaya yaxınlaşdı:



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

– Mən sizi anlayıram...

*Lüdmila ananın qolundan yapışaraq, yenə yavaş-yavaş otaqda* gəzinməyə başladı:

– Mənim də oğlum var. On üç yaşındadır, ancaq atası ilə olur. Mənim ərim prokuror müavinidir. Uşaq da onunladır. Tez-tez fikirləşirəm ki, ondan nə çıxacaq?

Onun səsi titrədi, sonra o yenə fikirli halda yavaşdan danışmağa başladı:

– Ona yer üzündə ən gözəl hesab elədiyim, yaxın bildiyim adamların şüurlu düşməni olan bir adam tərbiyə verir. Oğlum böyüyüb mənə düşmən ola bilər. O, mənimlə qala bilməz, mən özgə adla yaşayıram. Səkkiz ildir ki, onu görməmişəm, səkkiz il – az deyil!

*O, pəncərənin qabağında dayanıb, rəngsiz səmaya baxır və* deyirdi:

– O, mənimlə olsaydı, mən daha güclü olardım, qəlbimdə daim ağrıyan yaram olmazdı. O, ölsəydi, mən daha rahat olardım...

Ürəyinin iztirab içində yandığını hiss edən ana yavaşdan:

– Mənim əzizim! – dedi.

Lüdmila təbəssümlə:

– Siz xoşbəxtsiniz! – dedi. – Ana ilə oğul bir cərgədə – bu nə gözəldir! Belə ittifaq az-az düşür!

Vlasova özü də gözləmədən:

– Bəli, yaxşıdır! – dedi. Sonra da bir sirri açırmış kimi, səsini alçaltdı: – Sizin hamınız, Nikolay İvanoviç və bütün həqiqət adamları da bir cərgədədir! Birdən adamlar bir-birinə doğma oldular. Hamını başa düşürəm. Sözləri başa düşmürəm, amma qalan hər şeyi başa düşürəm!

Lüdmila:

– Belədir! – dedi. – Belədir...

Ana əlini onun döşünə qoydu və onu yavaşdan sığallaya-sığallaya, pıçıltı ilə danışdı, sanki danışdığını özü də gözü ilə görürdü:

– Uşaqlar el ilə gedirlər! Bax, anladığım budur: yer üzündə uşaqlar yeriyir, bütün yer üzüylə, hamısı, hər tərəfdən – bir nöqtəyə! Ən təmiz vicdanlar, ən namuslu insanlar dayanmadan hər cür şərə hücum edir, möhkəm ayaqları ilə yalanı tapdalayırlar. Gənc, sağlam insanlar basılmaz qüvvələrini bir məqsədə yönəldirlər –



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

ədalətə! Bütün insan dərdlərini yıxmaq üçün, bütün yer üzünün bəlalarını puç eləmək üçün, bütün çirkinlikləri basmaq üçün gedirlər və basacaqlar! Birisi mənə deyirdi ki, təzə bir günəş parıldadacağıq, parıldadacaqlar da! Sınıq ürəkləri bir yerə toplayacağıq, toplayacaqlar da!

Unudulmuş duaların sözləri ananın yadına düşüb, onu yeni inamla alovlandırırdı, ana da bu sözləri, qığılcım kimi, öz qəlbindən atırdı:

– Haqq yolu ilə, şüur yolu ilə gedən uşaqlar hər şeyə məhəbbət yayır, hər şeyi səmavi örtüyə bürüyür, hər şeyi sönməz işıqla, qəlbdən gələn işıqla nurlandırırlar. Uşaqlarımızın bütün dünyaya bəslədiyi məhəbbət alovundan təzə həyat qurulur. Kim bu məhəbbəti söndürə bilər, kim? Hansı qüvvə bundan üstündür, kim bu qüvvəni yıxa bilər? Bunu torpaq yaradıbdır, bütün həyat da bunun qalib gəlməsini istəyir, bütün həyat!

Həyəcandan yorulmuş ana, əlini Lüdmiladan çəkib, ağır nəfəs ala-ala oturdu. Lüdmila da nəyi isə yıxıb-dağıtmaqdan qorxurmuş kimi, səssizcə, ehtiyatla kənara çəkildi. O, qıvraq hərəkətlərlə otaqda dolaşır, tutqun gözlərinin dərin baxışı ilə qabağa baxırdı. İndi o, nəzərə daha uca, düz və arıq gəlirdi. Onun arıq üzündəki ciddi ifadə bütün fikrini bir nöqtəyə topladığını göstərirdi. Dodaqları əsəbiliklə sıxılmışdı. Otaqdakı sükut ananı tez rahat elədi; Lüdmilanın əhvalını belə gördükdə, ana müqəssir kimi yavaşdan:

– Bəlkə mən bir şeyi düz demədim?.. – deyə soruşdu.

Lüdmila tez döndü, ürkmüş kimi onun üzünə baxdı və nəyinsə qabağını saxlamaq istəyirmiş kimi, əlini anaya uzadıb, tələsə-tələsə:

– Hamısı düzdür, düzdür! – dedi. – Ancaq bu barədə daha danışmayaq. Qoy bunlar deyildiyi kimi də qalsın! – Sonra bir qədər sakit səslə davam elədi: – Sizin getmək vaxtınıza az qalıb, yol uzaqdır!

– Bəli, az qalıb! Ah, bilsəydiniz, mən necə şadam! Oğlumun sözlərini aparacağam, ciyərparamın sözlərini! Axı bu, adamın öz ruhu kimidir!

Ana gülümsünürdü, lakin onun təbəssümü Lüdmilanın üzündə aydın əks etmirdi. Ana hiss edirdi ki, Lüdmila özünü ağır tutmaqla onun sevincini soyudur; öz odunu bu sərt təbiətə aşılamaq, onu alışdırıb yandırmaq arzusu inadla ananın qəlbində baş qaldırdı: qoy



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

onun da qəlbi nəşə dolu qəlbin tellərinə uyğun ahənglə səslənsin. Ana, Lüdmilanın əllərini əlinə alıb, onları bərk-bərk sıxdı və:

– Mənim əzizim! – dedi. – Biləndə ki, həyatda bütün adamlar üçün bir işıq var, vaxt gələcək, onlar bu işığı görüb ürəkdən onu qucaqlayacaqlar, adam böyük fərəh duyur!

Onun mehriban, iri üzü titrəyir, gözləri nur saçaraq gülümsünür, qaşları da gözlərin bu parıltısını qanadlandırırmış kimi, onların üzərində titrəyirdi. Böyük düşüncələr onu məst edirdi; o, qəlbində alışıb yanan hər bir şeyi, indiyə kimi keçirmiş olduğu bütün həyəcanı həmin düşüncələrə qərq edir, sonra da bu düşüncələri nurlu sözlərin möhkəm və ağır kristallarına çevirirdi. Bahar günəşinin yaradıcı qüvvəsindən işıq alan payız nəfəsli qəlbində bu fikirlər getdikcə daha böyük qüvvə ilə yaranır, daha güclü çiçəklənir və qırmızı rəng alırdı:

– Axı bu, adamlar üçün yeni bir Allahın zühur eləməsinə bənzəyir. Hər şey – hamı üçün, hamı – hər şey üçün! Mən sizin hamınızı bu cür başa düşürəm! Doğrudan da, siz hamınız yoldaşsınız, hamınız doğmasınız, hamınız bir ananın – həqiqətin balalarısınız!

Yenə həyəcan dalğasının içində boğularaq, ana dayandı, nəfəsini dərdi və qucaqlamaq istəyirmiş kimi, əllərini geniş açaraq:

– Öz ürəyimdə bu "yoldaşlar" sözünü deyəndə, qəlbimlə eşidirəm ki, yeriyirlər!.. – dedi.

Ana öz istədiyinə nail olmuşdu: Lüdmilanın üzü heyrətlə yanır, dodaqları titrəyirdi, gözlərindən iri, şəffaf göz yaşları axırdı.

Ana onu bərk-bərk qucaqladı və öz qəlbinin qalibiyyətinə təmkinlə sevinərək, səssizcə güldü.

Vidalaşarkən Lüdmila onun üzünə baxıb, yavaşdan soruşdu:

– Heç bilirsinizmi ki, sizinlə ünsiyyət xoşdur?

## XXIX

Küçədə şaxtalı hava onun bədənini quru və möhkəm ağuşuna alıb sıxdı, boğazına dolub burnunu qıdıqladı və bir saniyəliyə sinəsində nəfəsini kəsdi. Ana dayanıb ətrafına baxdı: onun yaxınlığındakı tində faytonçu durmuşdu, uzaqda bir adam belini əyib başını



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

çiyinləri arasına çəkərək gedirdi, onun qabağında da bir soldat əllərilə qulaqlarını sürtə-sürtə atıla-atıla yüyürürdü.

Ana "yəqin, soldatcığı dükana göndəriblər!" – deyə düşündü və təzə yağmış qarın ayaq altında xışıldamasına qulaq verə-verə addımladı. Vağzala çatanda hələ tez idi, onun qatarı hələ hazırlanmamışdı, amma çirkli, hisli, üçüncü dərəcəli salonda adam çox idi – soyuq yol fəhlələrini buraya qovmuşdu, faytonçular və pis geyinmiş evsiz adamlar qızışmaq üçün buraya doluşmuşdular. Minik də vardı: bir neçə nəfər kəndli, yenot dərisindən qalın xəz paltolu kök tacir, yanında çopur qızı olan bir keşiş, beş nəfərə kimi soldat, dinclik bilməyən meşşanlar. Adamlar papiros çəkir, danışır, çay və araq içirdilər. Bufetin qabağında birisi qəhqəhə ilə gülürdü, tüstü dalğaları başlar üzərində süzürdü. Qapı açılanda cırıldayır, taqqıltı ilə örtüləndə də şüşələr titrəyir, cingildəyirdi. Tütün və şor quru balıq qoxusu adamın burnuna dolurdu.

Ana qapı ağzında, görkəmli yerdə oturub, gözləməyə başladı. Qapı açılanda soyuq hava bulud kimi onu bürüyürdü, ana da bundan xoşhal olaraq dərin nəfəslə havanı udurdu. Adamlar əllərində bağlama içəri girir, qalın geyindiklərinə görə qapıdan çətinliklə keçir, söyüşür və şeylərini yerə, ya skamyanın üstünə atıb, quru qırovu paltolarının yaxasından və qollarından silkələyir, saqqal və bığlarından silir, boğazlarını arıtlayırdılar.

Əlində sarı çamadan olan bir oğlan içəri girib tez ətrafı süzdü və birbaş anaya sarı yeriyib, yavaşdan:

– Moskvayamı? – deyə soruşdu.

– Bəli. Tanyanın yanına.

– Budur, alın!

Çamadanı ananın yanında skamyanın üstünə qoyub tez bir papiros çıxardı, yandırdı və şapkasını qalxızıb dinməz-söyləməz o biri qapıya tərəf getdi. Ana əli ilə çamadanın soyuq dərisini sığalladı və ona dirsəklənərək, məmnun halda camaata tamaşa eləməyə başladı. Bir dəqiqədən sonra qalxıb perrona çıxan qapının yanındakı skamyaya tərəf getdi. Ana böyük olmayan çamadanı asanlıqla əlinə götürüb, ötəri göz gəzdirdiyi üzlərə tamaşa edə-edə, başını dik tutub yeriyirdi.

Yaxası qaldırılmış qısa paltolu cavan bir oğlan ona toxundu və tez əlini başına ataraq, dinməz-söyləməz kənara sıçradı. Bu



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

adamda ana tanış bir əlamət hiss elədi, dönüb dala baxanda, cavan oğlanın yaxalığının altından göy bir gözün ona zilləndiyini gördü. Bu diqqətli göz ananı sancdı, çamadanı tutan əli dartındı və yükü birdən-birə ağırlaşdı.

Ana: "Harada isə mən bu adamı görmüşəm!" – deyə düşündü və qəlbindəki ağır, dumanlı təəssüratı bu düşüncə ilə əzərək, yavaş-yavaş, lakin hökm ilə ürəyini üşüdüb sıxan hissin başqa sözlərlə ifadə olunmasının qabağını almağa çalışdı. Bu hiss isə böyüyür, boğazına qədər qalxır, ağzını quru acılıqla doldururdu; ana dala dönüb bir də baxmaq arzusunu saxlamaqda aciz idi. Dönüb baxdı, adam ehtiyatla ayaqlarını götürüb-qoyaraq yerindəcə durur, sanki bir şey etmək istəyir, lakin ürəyi gəlmirdi. Onun sağ əli paltosunun düymələri arasında, o biri əli cibində idi, bundan da onun sağ çiyni sol çiynindən hündür görünürdü.

Ana tələsmədən skamyaya yaxınlaşdı və içərisində nəyi isə qırmaqdan qorxurmuş kimi, ehtiyatla oturdu. Ürəyinə daman ağır fəlakət hissindən oyanmış hafizəsi bu adamı iki dəfə gözləri qabağına gətirdi: onu bir dəfə çöldə, şəhərin kənarında, Rıbin qaçan günü, ikinci dəfə də məhkəmədə görmüşdü. Orada, onunla yan-yana məhəllə polis müdiri durmuşdu, bu haman polis idi ki, ana, Rıbinin qaçdığı yolu azdırmaq üçün ona başqa tərəfi göstərmişdi. Ananı tanıyırmış, onun dalınca gəzirmiş, bu, aydın idi.

Ana öz-özündən "tələyə düşdünmü?!" – deyə soruşdu. Bir an sonra da diksinərək: "Bəlkə də hələ düşməmişəm..." – deyə cavab verdi.

Sonra da, dərhal var qüvvəsini toplayaraq, ciddiyyətlə: "Düşmüşəm!" – dedi.

Ana ətrafına baxır, bir şey görmürdü, düşüncələr isə qığılcım kimi bir-birinin dalınca beynində yanır, sönürdü.

"Çamadanı qoyub getməkmi?".

Lakin o biri qığılcım daha aydın parıldadı:

"Oğlumun sözünü atmaqmı? Özü də bu cür əllərə?..".

Ana çamadanı sinəsinə sıxdı.

"Çamadanı da götürüb getməkmi?.. Qaçmaq..."

Bu fikirlər ona yad görünürdü, sanki biri onları kənardan zorla onun başına soxurdu. Bu fikirlər onu yandırırdı, yanıqlar onun beynini sancıb ağrıdır, odlu tellər kimi, qəlbinə çırpılırdı. Bu fikirlər



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

onu öz mənliyindən, Paveldən, qəlbilə bitişmiş olduğu bütün şeylərdən uzaqlaşdırmaqla onu ağrıdır, incidirdi. Ana düşmən bir qüvvənin inadla onu sıxdığını, çiyinlərindən və sinəsindən basdığını, onu öldürücü qorxuya salaraq, alçaltdığını hiss edirdi; gicgah damarları bərk-bərk atmağa, saçlarının dibi qızmağa başladı.

Onda ana, sanki qəlbinin böyük və qəti hərəkətilə birdən-birə silkinərək, bütün bu hiyləgər, xırda, zəif odları söndürdü və hökm ilə özünə:

"Utan!" – dedi.

Ananın halı birdən-birə yüngülləşdi; o tamamilə bərkidi və özözünə müraciətlə: "Oğlunu biabır eləmə! Heç kəs qorxmur!" – deyə əlavə elədi.

Onun gözləri birisinin kədərli, ürkək nəzərinə sataşdı. Sonra Rıbinin üzü xatirindən keçdi. Bir neçə saniyə sürən tərəddüd onu sanki bərkitmişdi. Ürəyi aramla döyünməyə başladı. Ana ətrafını seyr edə-edə: "İndi nə olacaq?" deyə düşünürdü.

Casus qapıçını çağırdı və gözlərilə ananı nişan verərək, ona nə isə pıçıldamağa başladı. Qapıçı casusa tamaşa edir və dalı-dalı çəkilirdi. O biri qapıçı onlara yanaşdı, qulaq asdı, qaşlarını çatdı. O iri vücudlu, saçı-saqqalı ağarmış, üzü qırxılmamış bir qoca idi. Başının işarəsi ilə casusa razılığını bildirərək, ana oturan skamyaya tərəf yönəldi; casus isə tez hara isə yox oldu.

Qoca qapıçı, hirsli gözlərini diqqətlə ananın üzünə zilləyərək, yavaş addımlarla yaxınlaşırdı. Ana skamyada daha bərk sıxıldı.

"Barı döyməyəydilər...".

Qapıçı ananın yanında dayandı, əvvəlcə susdu, sonra acıqlı səslə yavaşdan:

– Nə baxırsan? – deyə soruşdu.

– Heç.

– Belə ha. Oğru! Birçəyin ağarıb, utanmırsan da!..

Bu sözlər ananın üzünə şillə kimi dəydi, bir, iki; acıqlı və xırıltılı sözlər ananın vücudunu ağrıdır, sanki yanaqlarını qoparır, gözlərini oyub çıxarırdı...

Ana səsi gəldikcə:

– Mənmi? Mən oğru deyiləm, yalan deyirsən! – deyə çığırdı; indi o elə həyəcanlı idi ki, ətrafındakı hər şey gözləri qarşısında



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

hərlənir, qəlbi yandıran-yaxan bu həqarətdən sərxoş kimi olurdu. Ana çamadanını dartdı, çamadan açıldı.

Ana ayağa qalxıb, çamadandan qapdığı bir dəstə intibahnaməni başı üzərində tovlayaraq:

– Baxın! Hamınız baxın! – deyə çığırmağa başladı.

Ana ona tərəf qaçışmaqda olan adamların təəccüb və heyrət nidalarını qulaqlarındakı cingilti arasından eşidir və hamının, hər tərəfdən sürətlə axışıb gəldiyini görürdü:

– Nə xəbər var? Nə olub?

– Budur, xəfiyyə...

– *Bu nədir?..*

– *Deyirlər, oğurlayıb...*

– Belə ağbirçək çağında, vay-vay-vay!

Hər tərəfdən adamların onu əhatə elədiyini görüb bir qədər sakitləşməkdə olan ana, gur səslə:

– Mən oğru deyiləm! – deyirdi. – Dünən siyasi dustaqları mühakimə edirdilər, mənim oğlum Vlasov da *onların içində idi, nitq* söyləmişdi, budur! İndi mən bu nitqi aparıram ki, hamı oxusun, həqiqəti düşünsün...

Birisi ehtiyatla kağızları onun əlindən çəkdi, ana əlini havaya qalxızıb, kağızları izdihamın içinə atdı.

Kim isə ürkək səslə:

– Bu işdən ötrü də sənə afərin deməzlər! – dedi.

Ana adamların kağızları qapıb döşlərində, ciblərində gizlədiyini görürdü. Bu da onun dizlərinə yeni qüvvət verdi. Ana var qüvvəsini toplayaraq və qəlbində oyanan qürurun böyüdüyünü, əzilmiş sevincin alovlandığını hiss edərək, çamadandan kağız dəstələrini çıxarıb, sağa-sola, adamların maraqla, tələsik uzanan əllərinə atır və:

– Oğlumu və onunla bərabər olanları nə üstə mühakimə etdiklərini bilirsinizmi? – deyirdi. – Gəlin, mən sizə deyim, siz də ananın qəlbinə, onun ağ birçəklərinə inanın; sizin hamınıza həqiqət gətirdikləri üçün dünən adamları mühakimə edirdilər! Dünən mən bildim, bu elə bir həqiqətdir ki... Heç kəs də onunla mübahisəyə girişə bilməz, heç kəs!

İzdiham dinmir, get-gedə böyüyərək daha artıq sıxlaşır, canlı bədənlərlə qadını dövrəyə alırdı:



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

– Yoxsulluq, aclıq, azar – öz zəhməti müqabilində xalqın aldığı ancaq budur. Hamı bizə düşməndir, biz bütün ömrümüzü hər gün zəhmətdə, məşəqqətdə, çirkdə, yalanda keçiririk, bizim zəhmətimizlə də başqaları əylənir, yeyib şişir, özümüzü də iti zəncirdə saxlayan kimi, nadanlıqda saxlayırlar, – odur ki, heç bir şey bilmirik, qorxuda saxlayırlar, – odur ki, hər şeydən qorxuruq! Diriliyimiz gecədir, qaranlıq gecə!

Cavab olaraq, birisi boğuq səslə:

– Belədir! – dedi.

– Onun boğazını tıxasanız-a!

Ananın gözü izdihamın dalında casusa və iki jandarma sataşdı, kağızların son dəstələrini verib qurtarmağa tələsdi, lakin əlini çamadana salanda orada əli başqasının əlinə dəydi. Ana əyilərək:

– Götürün, götürün! – dedi.

Jandarmlar adamları itələyə-itələyə:

– Dağılın! – deyə çığırırdılar. Adamlar bu təkanların qabağında könülsüz aralanır, öz bədənlərilə jandarmları sıxır, bəlkə özləri də istəmədən onlara mane olurdular. Mehriban üzlü, iri gözləri doğruluq dolu ağ saçlı qadın onları hökm ilə özünə cəlb edirdi; həyatda bir-birindən aralanıb uzaq düşmüş bu adamlar indi, həyatın ədalətsizliyindən incimiş qəlblərin bəlkə də çoxdan bəri axtardığı və arzuladığı sözün atəşin təsirindən qızınmış, bütöv, vahid bir vücud təşkil edirdilər. Anaya yaxın olanlar sakit dururdular, ana onların diqqətli gözlərini görür, onların isti nəfəsini öz üzündə hiss edirdi.

– A qarı, qaç get!

– İndicə tutacaqlar!..

– Bir cəsarətə bax!

Jandarmların çığırtısı get-gedə yaxınlaşırdı:

– Çəkilin! Dağılın!

Ananın qabağındakı adamlar, bir-birinin əlindən yapışaraq, ayaq üstə yırğalanırdılar.

Anaya elə gəlirdi ki, hamı onu anlamağa, ona inanmağa hazırdır, buna görə də bütün bildiyini, təsirinə bələd olduğu bütün fikirləri onlara deməyə can atır, tələsirdi. Bu fikirlər asanlıqla qəlbinin dərinliklərindən qalxıb bir nəğmədə qovuşurdu, lakin ana səsinin çatmadığını, xırıldadığını, titrədiyini, qırıldığını ürək ağrısıyla hiss edirdi:



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

– Oğlumun sözləri fəhlə adamın, pula aldanmaz vicdanın pak sözüdür. Pula satılmaz vicdanı onun cəsarətilə tanıyın!

Bir gəncin gözləri heyrət və vahimə ilə onun üzünə dikilmişdi.

Ananı döşündən itələdilər, o yırğalanıb skamyaya əyləşdi. Adamların başı üstündən jandarmların əlləri göründü, bu əllər, yaxa və çiyinlərdən tutub adamları kənara atır, papaqları qapıb uzağa tullayırdı. Ananın gözündə hər şey qaraldı, yerindən oynadı, lakin o, yorğunluğunu rəf etməyə çalışaraq olub, qalan səsi ilə yenə də çığırdı:

– Ay camaat! Gücünüzü bir yerə yığın!

Jandarm yekə, qırmızı əlilə onun yaxasından tutub silkələdi:

– Sus!

Ananın başı divara dəydi, ürəyi bir anlığa zəhərli qorxu tüstüsünə büründü və bu tüstünü dağıdıb, yenidən alovlandı.

Jandarm:

– Gəl! – dedi.

– Heç nədən qorxmayın! Bütün ömrünüz boyu çəkdiyiniz əzabdan ağır əzab ola bilməz...

Jandarm onun qolundan yapışıb dartdı:

– Səsini kəs, deyirəm!

Ayrı bir jandarm ananın o biri qolundan yapışdı və onlar iri addımlarla yeriyə-yeriyə ananı apardılar:

– Bu əzab hər gün sizin ürəyinizi çeynəyir, sinənizi qurudur!

Casus onun qabağında dayanıb yumruğu ilə hədələyərək zingiltili səslə bağırdı:

– Kəs səsini, əclaf!

Ananın gözləri daha geniş açılıb parıldadı, çənəsi titrədi. O, ayaqlarını döşəmənin sürüşkən daşına dirəyərək:

– Oyanmış qəlbi öldürə bilməzlər! – deyə qışqırdı.

– Köpək!

Casus birdən yumruğunu onun üzünə çırpdı. Bu mənzərədən zövq alan birisi:

– Elə ha, vur qoca kaftarı! – deyə qışqırdı.

Qara və qırmızı bir şey bir anlığa ananın gözlərini tutdu, qanın duzlu təmi ağzını doldurdu.

Kəsik, hökmlü qışqırıqlar ananı canlandırdı:

– Ey, vurma!



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

– Uşaqlar!

– Ah, alçaq!

– Vur ağzına!

– Şüuru qanla boğa bilməzlər!

Onu peysərindən, kürəyindən itələyir, çiynindən, başından vururdular; hər şey çığırtı, bağırtı, fit səslərinə batıb qara qasırğa kimi fırlanır, hərlənirdi; qatı, qulaqbatırıcı bir şey ananın qulaqlarına soxulur, boğazına dolur, onu boğurdu, ayağı altından yer qaçır, tərpənirdi, qıçları bükülür, bədəni yandırıcı ağrılardan titrəyir, ağırlaşır və taqətsiz-taqətsiz yırğalanırdı. Gözləri isə sönmür və çoxlu başqa gözləri görürdü, bu gözlər ananın tanıdığı, onun qəlbinə yaxın olan cəsarətli, kəskin odla yanırdı.

Onu qapıya tərəf itələyirdilər.

Ana əlini dartıb qapının yan taxtasından yapışdı:

– Qan dəryaları ilə həqiqəti söndürə bilməzlər...

Əlindən vurdular:

– Ağılsızlar, siz ancaq ədavəti artırarsınız! Bu ədavət sizin başınızda çatlayacaq!

Jandarm onun boğazından yapışıb boğmağa başladı.

Ana xırıltı ilə:

– Bədbəxtlər... – deyirdi.

Kim isə uca hönkürtü ilə ona cavab verdi.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

# KİTABDAKILAR

## ANA

Birinci hissə . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .7

İkinci hissə . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .173

Created with
nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

| | |
|---|---|
| Buraxılışa məsul: | *Umud Rəhimoğlu* |
| Texniki redaktor: | *Mübariz Piri* |
| Kompyuter səhifələyicisi: | *Allahverdi Kərimov* |
| Kompyuter operatoru: | *Günel Daşdəmirova* |
| Korrektor: | *Elman Başirli* |

Yığılmağa verilmişdir 22.09.2006. Çapa imzalanmışdır 20.12.2006.
Formatı 60x90 $^1/_{16}$. Fiziki çap vərəqi 22,5. Ofset çap üsulu.
Tirajı 25000. Sifariş 257.

Kitab "PROMAT" mətbəəsində çap olunmuşdur.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional